AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**ƏZİZAĞA ƏLƏKBƏRLİ**

# AZƏRBAYCANIN MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ İLƏ ELMİ ƏLAQƏLƏRİ *(1920-1991)*

**Bakı – 2023**

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktor:** **Tofiq Mustafazadə**
tarix elmləri doktoru, professor,
Əməkdar elm xadimi

**Rəyçilər:** **Ədalət Qasımov**
tarix elmləri doktoru,

**Adil Mirabdullayev**
siyasi elmlər doktoru,

**İntiqam Cəbrayılov**
pedaqoji elmlər doktoru, professor,
Əməkdar müəllim, Turan Elmlər
Akademiyasının akademiki,

**Ərrəhman Əhmədov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Ələkbərli Əzizağa. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi əlaqələri (1920-1991). “NƏŞRİYYAT”şöbəsi, Bakı, 2023, 408 s.

Monoqrafiyada elmi əlaqələrin qarşılıqlı təsir tarixi tədqiq olunur, elm müəssisələrinin, o cümlədən ayrı-ayrı elm xadimlərinin ölkə iqtisadiyyatının inkişafına, əhalinin sosial-həyat tərzinin yüksəlməsinə və cəmiyyətin dünya sivilizasiyasına inteqrasiyasına dəstək məsələləri araşdırılır.

Monoqrafiyadan elmi ictimaiyyət və geniş oxucu auditoriyası faydalana bilər.

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2023

# ÖN SÖZ

Adından da göründüyü kimi monoqrafiyanın əhatə dairəsi 70 ildən bir az çoxdur. Belə böyük dövrü bir neçə respublika ilə elmi əlaqələr baxımından elmi istiqamət və yüksək səviyyədə işləyib başa çatdırmaq, əlbəttə, gərgin əmək tələb edir, çünki türkdilli xalqlara və onların yaratdıqları dövlətlərə qarşı münasibətdə dünya hazırda birmənalı mövqe tutmamışdır. Belə ziddiyyətli və qərəzli yanaşma həyatın bütün sahələrində - siyasətdə, elmdə və digər sahələrdə özünü aydınlığı ilə göstərməkdədir. Müxtəlif dairələr "pantürkizm, turançılıq, türk islamçılığı" kimi ittihamlar irəli sürmək və damğalar yapışdırmaqla ciddi əngəllər törədilməsinə çalışmaqdadırlar*.

Nəhayət, müəllifin qələmi postsovet respublikaları arasında elmi əlaqələrin mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq öz əsərini tədqiqat obyekti kimi qarşıya məqsəd qoydu və əsaslı şəkildə məqsədinə yetişdi. Beləliklə, bir monoqrafik əsər, onun əhatə etdiyi 5 fəsil, nə az, nə çox 20 yarımfəsil, giriş və nəticə də öz yerində.

"Giriş" hissədə çoxsaylı tədqiqatçılar S.Z.Zimanov, M.A.Binder, V. İlyasov, R.A.Bazarova, F.A.Əhmədşina, Əli Saləddin, Ə.X.Əhmədov, M.İ.Əmrahov, həmçinin müəllifin özünün yazdıqları kitab və məqalələrin adları bir-bir çəkilməklə bu mövzunu başqa müəlliflər də unudulmamaqla neçə ildən bəri diqqəti cəlb etdiyi nəzərə yetirilir.

**Birinci fəsildə** birinci olaraq Azərbaycanın Qazaxıstan ilə elmi əlaqələrinin qədim tarixə malik olması və həmin əlaqələrin bu gün də aktuallığı vurğulanaraq, prezident Heydər Əliyevin bir çıxışından misal gətirilir: "Tarix qazaxlar üçün də, azərbaycanlılar üçün də keşməkeşli olmuşdur. Lakin nə kimi çətinliklər, nə kimi müsibətlər olsa da, xalqlarımız bir-birini **həmişə** dəstəkləmiş, bir-birinə **həmişə** arxa-həyan olmuşlar, xalqlarımız **həmişə** hiss etmiş, anlamışlar ki, onlar eyni köklərə mənsubdur".

---

* "Ön söz"dəki sitatlar monoqrafiyanın mətnindən götürülmüşdür.

Diqqət yetirdinizmi? Bu cümlənin üç yerində "**həmişə**" sözü işlənmişdir. Ümummilli lider nitq və çıxışlarında artıq söz işlətməzdi. Onun dilində üç dəfə deyilən "**həmişə**" sözü dahi liderin Azərbaycan və Qazaxıştan xalqlarının **həmişə** bir-birinin yanında olacaqlarına inamının inikası deyilmi? Qazaxıstan prezidenti N.A.Nazarbayev də qətiyyətlə deyir: "Bizim xalqlarımız ta qədimdən ümumi etno-mədəni məkanda yaşamışlar. Ona görə də bizim mədəni əlaqələrimiz belə sıx çulğaşmışdır."

Eləcə bizim Ə.B.Ələkbərov da, "**həmişə"** sözünü vurğulayaraq yazır: "Azərbaycan ərazisi **həmişə** Mərkəzi Asiya ... arasında bir növ körpü rolu oynamışdır".

Həmin fəsildə Mərkəzi Asiya, Kiçik Aşıya və Qafqaz arasındakı əlaqələrin tarixinə də müxtəsər diqqət yönəldilmiş, müvafiq ərazilərdə arxeoloji qazıntıların aparılması, elmi əlaqələrin get-gedə genişlənməsi, iqtisadi əlaqələrin güclənməsi, elmi-tədqiqat müəssisələrinin və institutların yaradılması, elmi mərkəzlərin formalaşması, nəhayət SSRİ hakimiyyətinin 1945-ci il 27 mart tarixli qərarı ilə Azərbaycanın SSR Elmlər Akademiyasının yaradılması xatırlanır.

Qeyd olunmalıdır ki, bu fəsildə nəzərə çatdırılan elmi əlaqələr bu monoqrafiyanın hər yarımparaqrafında öz əksini tapmış, Azərbaycan-Qazaxıstan elmi əlaqələri arasındakı münasibətlər ümumiləşdirilərək "elmi əlaqənin işıqlı düşüncə, parlaq gələcək olması" vurğulanmışdır.

**İkinci fəsil** Azərbaycan-Qırğızıstan elmi əlaqələrinə həsr olunmuşdur. Müəlif Azərbaycan və qırğız xalqları arasındakı elmi-mədəni əlaqələr tarixinin çox qədim olduğunu vurğulayır və dərhal da qeyd edir ki, Azərbaycanı və Qırğızıstanı dil, din, qan qardaşlığı və ortaq etno-mədəni dəyərlər birləşdirir. Və Heydər Əliyevin 25 il bundan qabaq söylədiyi fikir: "Qırğızıstan və Azərbaycan arasında sıx münasibətlər, dostluq münasibətləri möhkəm zəminə və yaxşı perspektivə malikdir. Biz daha da irəliləmək, gözəl gələcəyə doğru getmək əzmindəyik."

Ə.Ələkbərovun Qırğızıstan adlı ölkənin 1924-cü il oktyabrın 14-də RSFSR tərkibində Qara-Qırğızıstan (nə üçün qara –

Ş.F.), 1925-ci ilin mayından Qırğızıstan MSSR olması, 1936-cı il dekabrın 5-dən müttəfiq respublikaya çevrilməsini oxucu diqqətinə yetirir. Bəli, 12 ildə ölkənin üç adı. Özü də birincisi Qara! Ey dadi-bidad! Qırğızıstan qaradan qurtuldu. Qurtuldumu? Bəlkə də! Amma, müharibənin ilk günlərindən başlayaraq Qırğızıstanın xalq təsərrüfatı hərbi qaydada quruldu və o diyar ordunun cəbbəxanalarından birinə çevrildi, ...çox böyük miqyasda xalq təsərrüfatı yüklərinin köçürülməsinə başlanıldı. Statistik rəqəmlərə diqqət yetirin: bu müəssisələrin 667 ədədi Urala, 22 ədədi Sibirə, 78 ədədi Şərqi Sibirə, 308 ədədi Orta Asiya və Qazaxıstana, 226 ədədi Volqaboyuna köçürülmüşdü. Ümumilikdə müharibə illərində insan və yüklərlə dolu 1.5 milyon vaqon arxa zonalara daşınmışdı. Bakı dəniz limanı İkinci dünya müharibəsi illərində bu irimiqyaslı köçürmə işlərində başlıca rol oynamışdı. 1941-ci ilin avqust ayından limana ölkənin şimal rayonlarından Orta Asiyaya köçürülən müəssisələrin yükləri və sərnişinləri gəlməyə başlamışdı. Həmin köçürmələr dövründə Qırğızıstana 30-dan çox iri zavod və fabrik, 1941-ci ilin yay və payızında isə 139 min fəhlə, kolxozçu və qulluqçu köçürülmüşdü.

Fəslin sonrakı yarımfəsillərində müharibədən sonrakı 14 ildə Azərbaycan və qırğız alımlərinin müntəzəm görüşləri və onların elmi əlaqələrinin genişlənməsi, hər iki ölkə alimlərinin müxtəlif elmi konfrans, müşavirələrində iştirakına geniş yer ayrılmışdır.

Müəllif XX əsrin 60-cı illərində Azərbaycan-Qırğızıstan elmi əlaqələrinin ləng getdiyini və inkişafına mane olan amilləri də açıqlayır: “Elmi əlaqələrin vahid “mərkəzdən” (SSRİ Elmlər Akademiyası tərəfindən) idarə edilməsi sərbəstliyi, təşəbbüskarlığı boğur, əlaqələrdə sistematiklik gözlənilmir, elmin tələbatının tam ödənilməsi və onun potensialının axıra qədər açılmasına mane olan bəzi məhdudluqlar hələ də qalır və elmi nəticələrin praktikada tətbiqi çox ləngiyirdi” yazır Əzizağa Bəhrəm oğlu.

Elmi əlaqələrin 1970-ci illərdə səviyyəsinə dair də müəllifin məlumatı vardır. Belə ki, Azərbaycanlı alimlər M.Xəlilov, M.Seyidov, H.Əliyev, S.Musayev, M.Şirəliyev, Ə.Dəmirçizadə,

M.Rəhimov, F.Zeynalov, Ə.Rüstəmbəyov, B.Budaqov, M.Museyibov, X.Mustafayev, Ə.Məmmədov, N.Şirinov, N.Əliyev, H.Abdullayev həmin əlaqələr xüsusunda məruzələrlə çıxışlar etmiş, elmi məqalələr yazmışlar.

1980-1991-ci illərdə də eləcə! Həmin illər milli münasibətlərin "çat verdiyi, separatçılıq, müstəqilliyə can atmaq dövrü, lakin müəyyən qədər elmi biliklərin inkişaf etdiyi, elmi əlaqələrin gücləndiyi zaman idi" yazan müəllif həmçinin qeyd edir ki, bu dövr **"Yenidənqurma"nın yenidənqırmaya çevrildiyi, onilliklərlə qazanılmış təcrübənin, birliyin üstündən xətt çəkildiyi, yalançı beynəlmiləlçi nağıllarının daha işə keçmədiyi illər idi**. O, qeyd etməyi də unutmur ki, həmin illərdə Frunze şəhərində professor A.Nadirov, İ.Nəbiyev, B.Budaqov, A.Paşayev, N.Xudiyev, A.Qurbanov kimi Azərbaycan alimləri elmi konfranslarda yaxından iştirak etmiş, eyni zamanda Bakıda isə qırğız alimi C.Ümətəliyeva elmi işini müdafiə etmişdir. Monoqrafiyadan göründüyü kimi, elmi fəallıq və müxtəlif konfranslarda iştirak baxımından Azərbaycan alimləri qırğız alimlərini xeyli üstələmişlər.

Monoqrafiyanın 1920-1945-ci, 1946-1960-cı, 1970-ci, 1980-ci illərin sonunda cərəyan etmiş **Azərbaycan-Özbəkistan (III fəsil) elmi əlaqələri** Qazaxıstan-Azərbaycan və Qırğızıstan-Azərbaycan əlaqələrinə nisbətən daha geniş miqyas daşımışdır.

**Azərbaycan-Tacikistan elmi əlaqələrinə gəldikdə isə** həmin əlaqələrin də qədim tarixə söykəndiyi xüsusilə vurğulanır, Azərbaycanla Tacikistanın mədəni əlaqələrinin inkişafinda elmi əlaqələrin xüsusi yeri qeyd olunur.

Sonuncu fəsil Azərbaycan-Türkmənistan elmi əlaqələr dövrünü əhatə edir və yenə də monoqrafiyanın əvvəlki fəsilləri kimi 4 yarımfəsli əhatə edir.

Bu fəsildə mənim diqqətimi çox özünə çəkən bir məqam-görkəmli türkmən alimi Rahmanqul Berdibayevin 1984-cü ildə çap olunmuş "Azərbaycan realizminin mərhələləri" adlı məqaləsində professor Yaşar Qarayevin yaradıcılığına yüksək qiymət verməsi oldu. Məqalədə oxuyuruq: "Yaşar Qarayev, hər şeydən

əvvəl, böyük alim-mütəfəkkir, məhsuldar filoloq-tədqiqatçıdır – etiraf etmək lazımdır ki, istər təfəkkürünün səviyyəsinə, istərsə də qələminin miqyasına görə həmkarları onunla müqayisəyə çətin gəlirlər. Yaşar müəllim istər poeziyadan, istər nəsrdən, istər dramaturgiyadan... **istərsə də Şəki dialektindən** yazsın, hər hansı halda gözəl yazır; istər Nizamidən, istər Füzulidən, istər M.F.Axundovdan... **istərsə də Hacı dayıdan danışsın**, gözəl danışır. Və hərdən mənə elə gəlir ki, allah Yaşar Qarayevi bu dünyaya ona görə göndərib ki, Azərbaycan dilinin intellektual qüdrəti, emosional gücü barədə tam təsəvvür yaratsın..."

**Nəhayət "Nəticə"** – Əzizağa Ələkbərov Bəhrəm oğlunun Azərbaycan Respublikasının Qazaxıstan və Mərkəzi Asiya Respublikası ilə elmi əlaqələrinin nəticəsi! **Nəticədən sətirlər:** "Elm bəşəriyyətin işıqlı sabahı və xoşbəxt gələcəyidir... Elm haqq işığıdır... Elmi əlaqələrin genişləndirilməsi və inkişafı dövrümüzün ən aktual tələblərindən biridir". **Müəllif tamamilə haqlıdır.** Nizami Gəncəvi əbəs yerə deməyib ki:

"Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz."

Monoqrafiyanı oxuyarkən elə ilk cümlələrdən hiss olunur ki, müəllif elmi təfəkkür baxımından tarixçi olmaqla yanaşı, həm də ədəbiyyatla müntəzəm məşğul olan qələm sahibidir. **"Mən hamısını ifadə etmək fikrində deyiləm" yazır Əzizağa Elsevər.** Əlbətdə, hamısını ifadə etmək olmaz da! Ey istedadlı nasir və dəyərli tədqiqatçı, sən ən əsas məqamları bu əsərində mövzuya uyğun ətraflı əhatə etmisən!!!

**Şahin Fazil**
*Tarix elmləri doktoru, professor*

## Giriş

Elm bəşəriyyətin inkişafının ən başlıca amillərindən biridir. Elmsiz inkişaf yoxdur və ola da bilməz. Elm həyatda mümkünsüz olanın mümkünlüyünün tapılmasına xidmət edir. Onun nailiyyətləri bir ölkə çərçivəsinə sığınıb qalmır. Ümumbəşəri mahiyyət daşıdığından, buna görə də maneəsiz sərhədləri və sədləri aşaraq, bütün dünyanın gerçəkliyinə, dərk olunmuş zərurətinə çevrilir. Elmin hüdudları sonsuzdur. Bir elmi kəşf, yiyələnmiş tapıntı növbəti axtarışlara stimul verir, qaranlıqlara zəka işığı salır. Bağlı qapılar açılır, sonsuz üfüqlər düşüncə ümmanında daim ənginliyə sarı uzanıb gedir. Bütün əlçatmazlıqlar, ünyetməzliklər insanlığın, insan zəkasının qarşısında zaman-zaman əriyib gedir. Bir aydınlıq o biri aydınlığa təkan verir. Dünya dərk olunduqca öz böyüklüyü, cazibədarlığı və hardasa, sirri və müəmmalığı ilə bizə özünü sevdirməyi, düşüncəmizi dərinləşdirməyi bacarır. İnsan və dünya problemi yaşandıqca sonsuz axtarışlar, nailiyyətlər və uğurlu nəticələr də bitib tükənmir. Dünya bağlı boxça kimi öz sirrini dərində saxladıqca, insan da bir qəvvas kimi o dərinliklərə baş vurub cazibələr qoynunda düşüncələrini cavablandırır.

Elm alimləri birləşdirdiyi kimi, dövlətləri, xalqları da yaxınlaşdırır. Bəşəriyyət sağlam düşüncə ilə yaşadıqca, müsbət tərəqqi və nailiyyət də onun mənəvi dünyasına hakim kəsilir. Elm əlaqələr fonunda daim öz ümumbəşəriliyini qoruyub saxlayır.

Bu gün öz tarixi müstəqilliyini yaşayan Azərbaycan Respublikası öz tarixinə sahib çıxdığı bir vaxtda, demək olar ki, unudulmuş, necə deyərlər, gözdən-könüldən uzaqda qalmış elm və elmi əlaqələr tarixini də araşdırmaq və fundamental şəkildə ortalığa qoymaq olduqca vacib və aktualdır. Dövlətimizin elmə və elmi əlaqələrə münasibəti müstəqilliyinin ilk illərindən formalaşmağa başlamışdır. Əlbəttə mühafizəkar baxış və yanlış mövqelər olsa da, mütərəqqi xətt və müsbət düşüncə onları üstələmiş, dərk olunmuş həqiqət bütün reallığı ilə subyektivizmdən uzaqlaşmışdır.

Ölkə başçısı, mərhum prezident H.Ə.Əliyevin Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirdiyi birinci (1993, 21 sentyabr) və ikinci (1997, 31 yanvar) görüşləri nəticəsində dövlətimizin elmə və elm mərkəzi olan Elmlər Akademiyasına münasibəti tam aydın şəkildə özünü göstərdi. Elmlər Akademiyası ətrafında gedən boş, məntiqsiz və mənasız söz-söhbətlərə birdəfəlik son qoyuldu. Yeni quruluşun bazar iqtisadiyyatı çoxlarını bazar əxlaqı və bazar düşüncəsinə sürüklədiyindən, yanlış düşüncə meydana çıxmış və Elmlər Akademiyası ətrafında xoşagəlməz fikirlər formalaşmışdı. Elə ilk görüşdə qeyri-müəyyənlik aradan götürüldü və dövlətimizin elmə söykənməklə güclü iqtisadi inkişafa nail olacağı qəti şəkildə vurğulandı.

Ziyalılarla olan həmin ilk görüşdə ölkə başçısı demişdir: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Hansı iqtisadiyyat olursa- olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan adamlar, Azərbaycanın böyük alimləri çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, naqis cəhətlər də var. Ancaq ümumən götürüldükdə şübhəsiz ki, elmin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. 1945-ci ildə Elmlər Akademiyasını yaratmaq, sonra isə onu inkişaf etdirmək, yeni-yeni institutlar təşkil etmək asan iş idimi? Əlbəttə yox.

...Bir daha deyirəm ki, dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixdə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir" [228, s.34-35].

Bəli, bu, millətini, torpağını, dövlətini sevən böyük bir şəxsiyyətin uzaq gələcəyə hesablanmış müdrik və ləyaqətli bir baxışı, mövqeyi idi. Çünki Akademiya təkcə elm mərkəzi yox, həm də milli mücadilə mərkəzi, millətin taleyinin düşüncə mərkəzi idi. Təsadüfi deyildir ki, 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində müstəqillik naminə təşkilatlanma ideyaları gizli və açıq şəkildə burada formalaşmış, yığıncaqların və görüşlərin əksəriyyəti bu müqəddəs elm məbədinin divarları daxilində keçirilmişdir.

Akademiya millətin mədəniyyəti, əxlaqı və milli-mənəvi dəyərlərinin həm də qorunub saxlandığı və inkişaf etdirildiyi müqəddəs ocaqdır.

Ölkə başçısı dörd ildən sonra Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə keçirdiyi ikinci görüşdə akademiyanın strategiyasının olmasının vacibliyindən və akademiyanın öz işini bu strategiya əsasında qurması zəruriliyindən bəhs edərək demişdir: “İndi Azərbaycan müstəqil bir dövlətdir. Azərbaycanın Elmlər Akademiyası dövlət elmlər akademiyasıdır. Bizim akademiyamızın gərək strategiyası olsun, akademiya gərək özü işini bu strategiya əsasında qursun. Bu strategiyanı da gərək siz respublikamızın həm elmi tədqiqat sahəsindəki imkanları əsasında qurasınız, həm də elmi tədqiqat işlərinin nəticəsinə görə respublikamıza lazım olan sahələri əhatə etməyə çalışasınız. Elm elə bir şey deyil ki, gəlib bir yerdə zavod tikəsən, başqa yerlərdən ona xammal, yaxud cihazlar gətirəsən, orada texnika qurasan və nəsə istehsal edəsən.

Elmi inkişaf etdirmək üçün gərək elmi kadrlar olsun. Bu bizdə var. Hansı sahədə hansı kadrlarımız var? Bu, əsas amillərdən biridir. İkinci amil hansı sahənin respublikamızın iqtisadiyyatının, sosial həyatının, tariximizin, mədəniyyətimizin inkişafı üçün elmi tədqiqat nöqteyi-nəzərindən daha lazımlı olması ilə bağlıdır. Ola bilər, elə sahələr var ki, o respublikamız üçün bu gün bəlkə o qədər də bilavasitə lazım deyil. Amma imkanlar varsa ki, biz bu sahədə dünya elminə hansısa bir yenilik gətirə

bilərik, şübhəsiz, bunlar nəzərə alınmalıdır. Mən hamısını əhatə etmək fikrində deyiləm. Mənim dediyim bu sözlərdən istifadə edib siz özünüz konkret strateji prinsiplər yarada bilərsiniz. Bunların əsasında Azərbaycan elminin inkişafının strategiyası yaranmalıdır. Bu strategiyanın həyata keçirilməsi üçün tutaq ki, 5-10 il vaxt olmalıdır, bunun əsasında iş görülməlidir. Həmin işləri həyata keçirmək üçün hansı vəsait lazımdır, bunu haradan əldə etmək olar? Bunu dövlət büdcəsindən almaq, yaxud başqa ölkələrlə inteqrasiya, başqa elmi mərkəzlərlə əlaqə nəticəsində əldə etmək olar? İndi belə imkanlar çoxdur. Keçmişdə, biz Sovetlər İttifaqının tərkibində olarkən yalnız bu ittifaq çərçivəsində hərəkət edə bilərdiksə, indi bütün dünya ilə əlaqə qururuq və qura bilirik" [228, s. 157-158]. Respublikamızda müəyyənləşdirilmiş düzgün elm siyasəti bu gün prezident İ.Əliyev tərəfindən inamla davam etdirilir. O, 2010-cu ildə AMEA-nın illik yığıncağında etdiyi proqram xarakterli nitqində Azərbaycanın güclənməsi, inkişafı və dünya miqyasında tanınmasında mühüm rol oynayan elmimizin əhəmiyyəti barədə demişdir: "Akademiyada Azərbaycanın intellektual elitası cəmlənib. Akademiyanın inkişafı Azərbaycanda elmin inkişafına birbaşa təsir göstərir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, həmin ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar aparakən müasirləşməyə üstünlük verir. Müasir dövlətin qurulması elmin inkişafı olmadan mümkün deyildir" [276, s.9].

Sovetlər İttifaqının tərkibində olan digər müttəfiq respublikalar kimi, Azərbaycanın da bütün elmi idarə və təşkilatlarının daxili və beynəlxalq əlaqələri "mərkəz" tərəfindən (SSRİ Elmlər Akademiyası tərəfindən) idarə edilirdi. Buna baxmayaraq, Azərbaycan elmi öz inkişafını davam etdirir və bütün sahələrdə diqqəti cəlb edən nailiyyətləri ilə Azərbaycan elminin böyük imkana və potensiala sahib olduğunu təsdiqləyirdi. "Lakin "mərkəz"in iradəsi ilə yaradılmış bu əlaqələr sistematik olmamış, ən əsası isə Azərbaycan elminin tələbatı ödənməmiş, potensialından tam istifadə edilməmişdir" [201, s.279].

Sovetlər dövründə Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə iqtisadi əməkdaşlığı dərinləşdikcə, bu əməkdaşlığın mühüm formalarından biri olan elmi texniki əlaqələr də genişlənirdi. 60-70-80-ci illərdə elmi-texniki əlaqələrin genişlənməsi və daha çox intensivləşməsi "bütün sovet respublikalarında elmin və texnikanın yüksək səviyyəsi, elmin və texniki kəşflərin istehsalata müvəffəqiyyətli tətbiqindən irəli gəlirdi" [201, s.37].

Türkdilli xalqlara və onların yaratmış olduqları dövlətlərə qarşı münasibətdə, çox təəssüf ki, tarix boyu dünya birmənalı mövqe tutmamışdır. Bu ziddiyətli və qərəzli yanaşma həyatın bütün sahələrində - siyasətdə, elmdə və digər sahələrdə özünü aydınlığı ilə göstərmişdir. "Pantürkizm", "turançılıq", "türk islamçılığı" və s. kimi ittihamlar irəli sürmək və damğalar yapışdırmaqla, onların işini pozmağa və yaxınlaşmalarına ciddi əngəllər törədilməsinə çalışılmışdır. Türkdilli dövlətlərin yaxınlaşmalarına faciə kimi baxan mənfur qüvvələrə qarşı sabiq prezident H.Əliyevin 1994-cü il 9 fevral tarixində TBMM-də çıxışı çox tutarlı bir cavabdır. O demişdir: "Türkdilli xalqlar və dövlətlər arasındakı əlaqələrin böyük bir tarixi vardır. Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Əsrlər boyu xalqlarımız bir-birinə oxşayan, yaxud da azca fərqlənən adət və ənənələrini, mədəniyyət və elmini qoruyub saxlamış və inkişaf etdirmişdir. Əsrlər boyu xalqlarımız bir olmuş, çiyin-çiyinə vermişlər. Azərbaycan ilə türkdilli dövlətlər arasındakı əlaqələr dostluq, qardaşlıq əlaqələri adlanmışdır. Bu əlaqələr bir qaynaqdan, bir kökdən gələn xalqların əlaqələridir. Bu keçmişdə də belə olmuşdur və əlaqə saxlamağa imkan olmadığı vaxtlarda da qəlbimizdə məhz belə olmuşdur, indi də belə qalır. Ona görə də tariximiz, milli köklərimiz, adət-ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlamışdır" [229, s. 154].

Postsovet respublikaları arasında elmi əlaqələrin mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, çox təəssüf ki, bu əlaqələrin tarixi tədqiqat obyekti kimi ortalığa qoyulmamış və əsaslı şəkildə araşdırılmamışdır.

II Dünya müharibəsi dövründə Qazaxıstan və Mərkəzi Asiya respublikalarında Elmlər Akademiyaları, onların elmi-tədqiqat institutları yaradılmış, maddi-texniki bazaları formalaşmış və sonrakı illərdə kadr potensialının güclənməsinə nail olunmuşdur. Bu barədə S.Z.Zimanov, M.A.Binder, B.İlyasov, R.A.Bazarova, S.K.Kerimbayevin və digər müəlliflər kollektivlərinin birgə hazırladıqları kitablarda geniş məlumatlar mövcuddur [625, 634, 633, 632, 600, 579, 645, 613]. Lakin bu əsərlərdə elmi əlaqələrə geniş yer verilməmiş və əhəmiyyətli, əsas problem kimi tədqiqat obyektinə çevrilməmişdir.

Keçmiş sovet respublikaları arasındakı dostluq və əməkdaşlıq münasibətlərini araşdıran tanınmış tarixçimiz D.H.Qüdrətovun bu mövzuda yazdığı kitablarda [372, 370, 371, 678] respublikalar arasındakı 20-70-ci illərdə mövcud olmuş iqtisadi və mədəni əməkdaşlıqdan bəhs edilmişdir. Araşdırma 14 respublika ilə Azərbaycanın əlaqələri məsələsi olduğundan, Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə əlaqələrə çox dar çərçivədə yer verilmiş və xüsusən, mədəni əməkdaşlığın tərkibinə daxil edilən elmi əlaqələr isə unudulmuş təsiri bağışlamaqdadır. Aydındır ki, problemin qoyuluşu və mövzu dairəsinin genişliyi incəliklərə qədər getməyə müəllifə imkan verməmişdir.

Tədqiqatçı alim F.A.Əhmədşinanın rus dilində yazdığı "Azərbaycan SSR-in müttəfiq respublikalarla iqtisadi əməkdaşlığı (1946-1980-ci illər)" kitabının mövzumuz üçün əhəmiyyəti ondadır ki, Azərbaycanın müttəfiq respublikalarla iqtisadi əlaqələri araşdırılarkən, orada ikinci bölməyə "Azərbaycan SSR-in Sovet respublikaları ilə elmi-texniki əməkdaşlığı SSRİ-nin iqtisadi birliyini möhkəmləndirən amil kimi" adlı ayrıca 2-ci fəsil daxil edilmişdir. Bu fəsildə elm haqqında verilmiş qərar və sərəncamlar, elmin istehsalatla əlaqələndirilməsi, ölkə üzrə elmi əlaqələndirmə şuralarının fəaliyyətinin genişləndirilməsi, elmi-texniki tərəqqinin istehsalatla bağlılığının gücləndirilməsi, 60-cı illərdən başlayaraq respublikalar arasında elmi əlaqələrin müxtəlif formalarda dərinləşdirilməsi öz əksini tapmışdır. Burada Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə el-

mi-texniki əməkdaşlığı bir-iki faktın ötəri sadalanmasından başqa, heç də irəli getməmişdir [596].

Tanınmış ədəbiyyatşünas alim Əli Saləddinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş "Gəzdiklərim, gördüklərim..." əsərinin əsas mahiyyətini elm, ədəbiyyat və incəsənət xadimlərinin əsərlərinin qarşılıqlı təsiri, əlaqə və zənginləşmə prosesi təşkil edir. Müəllifin uzun illər ərzində apardığı tədqiqat nəticəsində Qazaxıstan və Mərkəzi Asiya respublikalarında yaşayan azərbaycanlıların elmi, tarixi və ədəbi fəaliyyətlərini araşdırıb faktiki materiallar əsasında işıqlandırması mövzumuz üçün əhəmiyyətli görünür [479].

XX əsrin 90-cı illərində müstəqil türk dövlətlərinin meydana çıxması onların zəngin tarixlərinə azad, milli köklər üzərində yaranmış isti, doğma münasibətlərin formalaşmasına səbəb oldu. Mövzumuz üçün maraqlı olan və türkdilli dövlətlərin müstəqillik ruhunu özündə əks edirən belə əsərlərdən biri də tədqiqatçı alim Ə.X.Əhmədovun monoqrafiyasıdır [201] Əsərdə müəllif "Azərbaycanın türkdilli dövlətlərlə əməkdaşlığının tarixi zəmini" adlanan 1-ci fəsildə respublikamızın sovet elmi əlaqələrinə ekskurs etmiş və IV fəsildə Azərbaycan Respublikasının türkdilli dövlətlərlə mədəni əlaqələrinin yeni formada təşkili və milli mənəviyyatın daha da zənginləşməsində elmin rolunu xüsusi dəyərləndirmişdir.

Türk xalqlarının tarixi üzrə araşdırmaçı alim, professor M.İ.Əmrahovun "Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində" və "Mərkəzi Asiyanın türk respublikaları müharibə illərində (1941-1945-ci illər)" kitablarında [243, 244] Azərbaycan, Qazaxıstan və Mərkəzi Asiya respublikalarında müharibənin doğurduğu çətinliklərə baxmayaraq, xalqın, elm və mədəniyyət xadimlərinin qələbə naminə səfərbərliyindən, həmin respublikalarda Elmlər Akademiyalarının yaradılması, strukturlarının formalaşması, kadr hazırlığı və alimlərin yeni ixtiralarının ölkənin hərbi qüdrətinin yüksəlişinə yönəldilməsindən bəhs edilir.

S.Qarayev, N.Məmmədzadə, S.Əliyevin "Dostluq böyük qüvvədir", Ф.А.Ахмедшинанын «Азербайджан в братском содружестве», S.Sayadovun "XX əsr: Azərbaycan və dünya" və H.Məmmədovun "Azərbaycan-Şərqi Avropa: mədəniyyətlər-arası əməkdaşlığın tarixi" əsərləri birbaşa mövzu ilə bağlı olmasa da, ancaq problemin araşdırılmasında kömək etmiş olurlar [336, 595, 480, 384].

Mövzu ilə bağlı tədqiqatçı, t.ü.f.d., dosent Ə.B.Ələkbərovun müxtəlif vaxtlarda ayrı-ayrı jurnallarda çap olunmuş elmi məqalələri problemin mahiyyətinin yaxşı başa düşülməsi və elmi əlaqələrin bundan sonra daha geniş istiqamətlərdə inkişaf etdirilməsinin aktuallığı və vacibliyinin dərk olunması baxımından əhəmiyyətli görünür [196, 205, 206,207, 208, 209, 210, 211, 212, 213, 214, 215, 216, 217, 218, 219, 220, 482].

## I Fəsil.

## Azərbaycan-Qazaxıstan elmi əlaqələri

Azərbaycan və qazax xalqlarının elmi-mədəni əlaqələri qədim bir tarixə malikdir. Bu zəngin, çoxəsrlik əlaqələr iki dost, qardaş xalqların taleyində elə işıqlı, silinməz izlər qoymuşdur ki, onların araşdırılması və öyrənilməsi müstəqil dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi baxımından çox vacibdir.

Xalqlar arasındakı dostluq telləri tarixin bütün mərhələlərində həmişə möhkəm və sarsılmaz olmuşdur. Bu dostluq ədəbiyyat, məişət, mədəniyyət yaxınlığı və qədim sənət abidələri əsasında yaşayaraq möhkəmlənmişdir.

Azərbaycan Respublikasının sabiq prezidenti, mərhum H.Əliyev 1997-ci il iyunun 10-11-də Qazaxıstan Respublikasına rəsmi səfəri zamanı demişdir: "Tarixin çox-çox qədim dövrlərinə gedib çıxan köklərimiz, xalqlarımızın kökləri bizim hamımız üçün olduqca qiymətlidir və əslinə qalsa, bütün tarix ərzində qazax və Azərbaycan xalqları arasında mövcud olmuş və mövcud olan qarşılıqlı münasibətlərin başlıca əsasıdır. Tarix qazaxlar üçün də, azərbaycanlılar üçün də keşməkeşli olmuşdur. Lakin nə kimi çətinliklər, nə kimi müsibətlər olsa da, xalqlarımız bir-birini həmişə dəstəkləmiş, bir-birinə həmişə arxa-həyan olmuşlar, xalqlarımız həmişə hiss etmiş anlamışlar ki, onlar eyni köklərə mənsubdur, böyük əcdadlarımızın varisləridir. Bütün zəngin və qədim ümumi mədəniyyətimiz, bizim qədim şərq, türk sivilizasiyası elə bir əsasdır ki, qazaxların və azərbaycanlıların bir çox nəsilləri bu əsas üzərində əlaqə saxlamış və indi malik olduğumuz nə varsa hamısını bu əsas üzərində bizə çatdırmışlar" [62, s.2].

İki xalqın tarixi dostluğu və qardaşlığını Qazaxıstan Respublikasının Prezidenti N.A.Nazarbayev belə qiymətləndirmişdir: "Bizim xalqlarımız ta qədimdən ümumi etno-mədəni məkanda yaşamışlar. Ona görə də bizim mədəni əlaqələrimiz belə sıx çulğaşmışdır... Biz sevinci, kədəri, nailiyyətləri və uğursuz-

luqları bərabər bölüşməyə çoxdan adət etmişik. Talelərin ümumiliyinə çevrilən bu tarixi vərdiş xalqlarımızın tarixinin ən çətin vaxtlarında yaşamaqda, duruş gətirməkdə, ləyaqətimizi qoruyub saxlamaqda həmişə bizə kömək etmişdir” [62, s.2].

2022-ci il avqustun 24-də Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin Azərbaycan Respublikasına rəsmi səfəri çoxəsrlik əlaqələrə sahib olan iki dost, qardaş xalqların münasibətlərinin əbədi və sarsılmazlığını bir daha təsdiqləmişdir. Rəsmi sənədlərin imzalanması mərasimindən sonra mətbuata verilən bəyanatlarla əlaqədar çıxışları zamanı Azərbaycan Respublikasının Prezidenti İ.Ə.Əliyev demişdir: “Siz Azərbaycana rəsmi səfər edirsiniz. Bu, xalqlarımız arasında dostluğun və qardaşlığın təzahürüdür. Bu gün səfər çərçivəsində ikitərəfli gündəliyin aktual məsələlərinə, regional təhlükəsizliklə bağlı məsələlərə, beynəlxalq problemlərə dair ətraflı danışıqlar aparıldı, çoxlu sənədlər imzalandı. Onlardan bəziləri bizim iştirakımızla, 20-dən çox sənəd isə bu gün müvafiq strukturlar arasında imzalandı. Bu, münasibətlərimizin daha geniş hüquqi bazasını yaradır. Əlbəttə, həmin sənədlər içərisində Qazaxıstan ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəmlənməsi və müttəfiqlik qarşılıqlı əlaqələrinin dərinləşməsi haqqında indicə imzalanmış Bəyannaməni xüsusi qeyd etmək istərdim. Bu Bəyannamənin adı sənədin əhəmiyyətinə dəlalət edir. Biz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqlərik. Əlbəttə, bu, bizim üzərimizə xüsusi məsuliyyət qoyur və biz bu məsuliyyətə hazırıq. Bəyannamə bizim əməkdaşlığımızın çox istiqamətlərini ehtiva edir və əlbəttə ki, gələcək fəaliyyətimiz üçün çox ciddi baza kimi xidmət edəcək” [105, s.4].

Qazaxıstan Respublikasının Prezidenti Kasım - Jomart Tokayev isə belə demişdir: “Bu da əlamətdardır ki, mənim səfərim yubiley tarixinə - ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsinə təsadüf edir, üç gündən sonra biz bu tarixi qeyd edəcəyik. Demək lazımdır ki, mən ümumiyyətlə xidməti vəzifələrimlə əlaqədar ölkələrimiz arasında əməkdaşlığın inkişafı prosesində lap əvvəldən iştirak edirəm, biz kifa-

yət qədər böyük yol keçmişik. Sıfırdan başlamışıq və bu gün ölkələrimiz arasında strateji tərəfdaşlıq və müttəfiqlik barədə tam əsaslarla danışırıq. Bu əməkdaşlığın genişləndirilməsi, şaxələndirilməsi barədə Bəyannamə imzalanıb. Bu, irəliyə doğru real addımdır" [105, s. 4].

Azərbaycanın Qazaxıstanla mədəni əlaqələrinin inkişafında elmi əlaqələrin də mühüm rolu olmuşdur. İctimai şüurun formalarından biri olan elm insanın əməli və nəzəri fəaliyyətinin spesifik sahəsinə çevrilmişdir. Onun cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri əvəzsizdir, o, həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir [39, s.40].

Böyük ədib və görkəmli ictimai xadim M.F.Axundov elmin əhəmiyyətindən bəhs edərkən yazmişdir: "Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitədir" [404, s.108-109].

Görkəmli ictimai və siyasi xadim K.Marks "Kapital" əsərinin müqəddiməsində xalqlar arasındakı əlaqələrin vacibliyindən danışarkən göstərmişdir: "Hər bir millət başqasından öyrənə bilər və öyrənməlidir" [375, s.7].

Qədim mədəniyyətə malik digər xalqlar kimi, Azərbaycan xalqı da əsrlər boyu müxtəlif xalqlarla təmasda olmuş, mədəniyyət və ədəbiyyatımız başqa xalqların mədəniyyət və ədəbiyyatı ilə qarşılıqlı əlaqə prosesində inkişaf etmişdir: bəzən təsir göstərmiş və bəzən də təsirlənmişdir, mövzu vermiş və mövzu almışdır, faydalanaraq zənginləşmiş və özü də fayda verərək zənginləşdirmişdir [225, s.3].

Xalqlar arasındakı mühüm əlaqələrdən biri də elmi əlaqədir. Elmsiz tərəqqi ola bilməz. Bu baxımdan ona böyük diqqət verilməsi, qayğı göstərilməsi və daim yüksək dəyərləndirilməsi də təbii bir haldır. Elmin nəticələri təkcə bir ölkə hüdudlarına sığınıb qalmır. Elm ümumbəşəri mahiyyət daşıyır. Elmi əlaqə

alimləri birləşdirdiyi kimi, dövlətləri xalqları da yaxınlaşdırır. Elm həmişə hər yerdə hamı üçün gərəkli və faydalı görünür. Elə elmi problemlər vardır ki, onlar bütün ölkələrin və xalqların taleyi və gələcəyi ilə bağlıdır. Ona görə də birgə elmi tədqiqatlar göstərir ki, bir çox ölkələrdə inkişaf etmiş elm sahələrinin əməkdaşlığı olmadan böyük və ciddi problemlərin həllini tapmaq qeyri-mümkündür.

Azərbaycanın Qazaxıstanla elmi əlaqələrinin əhatə dairəsi geniş idi. Həmin əlaqələr tədqiqat dövründə elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi-texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və s. formalarda özünü daha çox göstərirdi [480, s.120].

Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya xalqları ilə iqtisadi, siyasi və mədəni (o cümlədən elmi) əlaqələrinin tarixi çox qədimdir. Azərbaycan ərazisi həmişə Mərkəzi Asiya, Kiçik Asiya və Şimali Qafqaz arasında bir növ körpü rolu oynamışdır. Araşdırmalara görə e.ə. IV-III əsrlərdən başlayaraq Qafqaz Albaniyası dövləti Kür-Xəzər-Amu-Dərya vasitəsilə Mərkəzi Asiya, Çin və Hindistanla iqtisadi-mədəni əlaqələr saxlayırdı [482, s.24]. Arxeoloji qazıntılar nəticəsində Əfrasiyab (qədim Səmərqənd), Buxara, Mərv, Nisa şəhərlərindən əldə edilmiş maddi-mədəniyyət qalıqları ilə, Örənqala, Bakı və Şamaxı şəhərlərindən tapılmış məişət qabları arasındakı oxşar cəhətlər bunu təsdiq edir. Həmin qablar istər istehsal texnikası, istərsə də formaları və naxışlarının süjeti cəhətdən bir-birinə olduqca yaxındır [153, s.30].

### 1.1. 1920-1945-ci illərdə elmi əlaqələr

Azərbaycanın Qazaxıstanla elmi əlaqələri XX əsrin 30-cu illərinin ikinci yarısından iqtisadi əlaqələrin güclənməsi nəticəsində daha çox inkişaf etməyə başladı. Çünki Qazaxıstan 1920-ci il avqustun 26-da Rusiya Federasiyasının tərkibində muxtar respublika kimi yaradılmış, 1936-cı il dekabrın 5-də isə yenidən

təşkil olunaraq müttəfiq respublikaya çevrilmişdir. Onun konstitusiyası 1937-ci il martın 26-da respublikanın Fövqəladə X Sovetlər qurultayı tərəfindən təsdiq edilmişdir [182, s.3]. Göründüyü kimi, Qazaxıstan 1920-1936-cı illərdə Rusiya Federasiyasının tabeliyində olduğu üçün, onun respublikamızla əlaqələri də elə də qabarıq şəkildə nəzərə çarpmır və muxtar respublika kimi sovet Rusiyasının əlaqələr sistemində çox kiçik görünürdü.

Qazaxıstanda elmi-tədqiqat müəssisələri tədricən meydana çıxdıqca elmi kadrlar da yetişir, elmi əlaqələrə mühüm önəm verilirdi. 1925-ci ildə Alma-Atada Sanitariya-Bakterioloji İnstitut yaradıldı. 1932-il martın 8-də Alma-Atada SSRİ EA yanında Qazaxıstan Elmi-Tədqiqat bazası təşkil edildi. 1938-ci ildə bu baza SSRİ EA-nın Qazaxıstan filialına çevrildi [636]. Müharibə dövründə ölkənin Qərb rayonlarından Qazaxıstana 20-dən artıq ali təhsil müəssisəsi və 16 texnikum təxliyə olunmuşdu. Təxliyə edilmiş həmin təhsil müəssisələri sırasında Moskva Əlvan Metallurgiya və Qızıl İnstitutu, Moskva Aviasiya İnstitutu, Leninqrad Siqnalizasiya və Rabitə üzrə Elektrotexnika İnstitutu, Krım Tibb İnstitutu, Ukrayna Dövlət Universiteti və b. var idi. Qazaxıstana köçürülmüş ali məktəblərlə bərabər, orada dərs deyən və elmi-tədqiqatla məşğul olan çoxlu sayda alimlər də gəlmişdi [245, s.594].

1941-ci ildə SSRİ EA-nın Qazaxıstan filialında astronomik rəsədxana yaradılmış və ona rəhbərlik akademik V.Q.Fesenkov və akademiyanın müxbir üzvü Q.A.Tixova tapşırılmışdı [625, s.148].

SSRİ EA-nın Qazaxıstan filialında 1942-ci ildə Ədəbiyyat, Dil və Tarix İnstitutu, Kimya-Metallurgiya İnstitutu, 1943-1945-ci illərdə Torpaqşünaslıq və Botanika, Regional Patalogiya və Zoologiya İnstitutları yaradılmış, Kimya-Metallurgiya, Ədəbiyyat, Dil və Tarix İnstitutları ayrılaraq, Kimya və Metallurgiya, Dil, Ədəbiyyat və Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutlarına çevrilmişdi. Energetika və Dağ İşi İnstitutu təşkil olunmuşdu [244, s.49].

Qazaxıstan filialında 1942-ci ildə aspiranturanın yaradılması elmi kadrların hazırlanmasında mühüm bir addım olmuşdur. Nəticədə, müharibə illərində orada 237 nəfər təhsil almış, 63 nəfər elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdi. 1945-ci ilin sonunda filialda SSRİ EA-nın 6 akademiki və müxbir üzvü, 57 elmlər doktoru, 184 elmlər namizədi, elmi və elmi-texniki işçilərlə bərabər, ümumilikdə 864 nəfər çalışırdı [632, s.177].

1942-ci il may ayından başlayaraq, SSRİ EA-nın prezidenti akademik V.L.Komarov Qazaxıstanın paytaxtı Alma-Atanın Medeo sanatoriyasında qalaraq elmi fəaliyyətini və ölkə akademiyasına rəhbərliyi həyata keçirirdi [636].

1945-ci ilin sonunda SSRİ EA-nın Qazaxıstan filialında 16 institut və 7 şöbə, ümumilikdə isə, 75 elmi müəssisə, laboratoriya və stansiya fəaliyyət göstərirdi. Tədqiqat işlərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait 11 dəfə artmışdı [244, s.49].

Təxliyyə dövründə Qazaxıstanda SSRİ EA-nın Fiziologiya İnstitutunun 20-dən çox iri elmi tədqiqat mərkəzi yerləşdirilmişdi [634, s.380].

SSRİ XKS 1945-ci il oktyabrın 26-da "Qazaxıstan SSR Elmlər Akademiyasının yaradılması haqqında" 2747 saylı qərar verdi. Bu qərar 1946-cı il mayın 31-də Qazaxıstan SSR XKS tərəfindən təsdiq edildi və 1946-cı il iyunun 1-də Qazaxıstan SSR EA yaradıldı [636].

XX əsrin 30-cu illərində Qazaxıstanda geoloji-kəşfiyyat işlərinin aparılması və faydalı qazıntı yataqlarında elmi tədqiqat işlərinin genişləndirilməsində azərbaycanlı alim-geoloqların da əməyi danılmaz idi. Tanınmış Azərbaycan alimi, geologiya-minerologiya elmlər doktoru, professor, SSRİ EA-nın müxbir üzvü (1953) Ə.A.Əmiraslanov (1900-1962) 1930-cu ildə Moskva Akademiyasını bitirdikdən sonra 1930-1938-ci illərdə Ural, Qazaxıstan, Orta Asiya, Zabaykalye və Qafqazdakı mis, qurğuşun, sink və qalay yataqlarında elmi tədqiqat işləri aparmış, 1954-cü ildən etibarən Sovet İttifaqının əlvan metallurgiya, geologiya və Yer təkinin mühafizəsi nazirliklərində rəhbər vəzifələrdə çalış-

mışdır. O, SSRİ-də, o cümlədən Qazaxıstanda əlvan nadir metal yataqlarının quruluşu, əmələ gəlmə şəraiti və yayılması qanunauyğunluqlarına dair bir sıra əsərlərin müəllifidir [39, s.203].

1933-1937-ci illərdə neftçi-alim və geoloqların köməyi ilə Ukraynada, Özbəkistanda, Qazaxıstanda, Gürcüstanda və Türkmənistanda 36 yeni neft yatağı aşkar edilmişdi. Azərbaycanlı mütəxəssislər nəinki həmin yataqların tapılması, işlənməsi və eləcə də texniki avadanlıqla təchiz edilməsində böyük rol oynayırdı [124, s.16].

Müharibə ittifaq respublikaları arasındakı iqtisadi əlaqələri zəiflətdiyi kimi, elmi əlaqələrin inkişafına və genişlənməsinə də mane oldu.

XX əsrin 30-40-cı illərində Azərbaycan və Qazaxıstanda elmi mərkəzlərin formalaşması prosesi getmiş və müharibənin sonlarında həmin respublikalarda Elmlər Akademiyaları yaradılmışdır.

1929-cu ildə təşkil edilmiş Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun bazası əsasında 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsi yaradılmışdı [371, s.42] SSRİ hakimiyyətinin SSRİ EA-nın Rəyasət Heyəti və Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1945-ci il 27 mart tarixli qərarıyla SSRİ EA-nın Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Həmin tarixdə Azərbaycan SSR EA-nın nəzdində 16 institut, 2 bölmə, 2 muzey və digər elmi-tədqiqat müəssisəsi var idi [596, s.85].

## 1.2. 1946-1960-cı illərdə elmi əlaqələr

1945-ci ildə SSRİ EA yanında Elmi Əlaqələndirmə Şurasının yaradılması elmin inkişafına və elmi əlaqələrin genişlənməsinə güclü təsir göstərdi. Bu Şura tədqiqat planlarının qarşılıqlı şəkildə əlaqələndirilməsinə, əsərlərin təkrarçılığının, paralelliyin, kiçik, əhəmiyyətsiz mövzuların işlənilməsinin qarşısının alınmasına kömək edir, elmin xüsusilə vacib sahələrinin inkişafına, elmi müəssisələrin fəaliyyətinin əlaqələndirilməsinə, elmi nəticələrin bölüşdürülməsinə şərait yaradırdı.

Neft sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi və vahid mərkəzdən istiqamətlənməsi məqsədi ilə 1946-cı ildə Bakıda elmi sessiya keçirildi. Sessiyada SSRİ EA-nın 70-dən çox alimi, Qazaxıstan, Gürcüstan, Özbəkistan, Türkmənistan, Tacikistan akademiyalarından və eləcə də SSRİ EA-nın 5 filialından gəlmiş alimləri iştirak edirdilər. Sessiyada neft sahəsi üzrə yaradılmış Elmi-Əlaqələndirmə Şurasının Bakıda yerləşdirilməsi qərarlaşdırılmışdır. (78, v.12, 24-26)

Azərbaycan K(b)P-nin XVII qurultayında (1949, 25-28 fevral) ölkə üçün əhəmiyyətli elmi problemlərin araşdırılması, elmlə istehsalatın əlaqələndirilməsi və elmi əlaqələrin genişləndirilməsi məsələsi mühüm və əhəmiyyətli məsələ kimi irəli sürülmüşdür [586, s.232].

1945-ci ilin iyun ayında SSRİ EA-nın Rəyasət Heyətinin qərarı ilə Qafqaz neft ekspedisiyası yaradıldı. Bu ekspedisiyanın fəaliyyətini SSRİ EA-nın əlaqədar institutları, Dövlət Okeonologiya İnstitutu, Moskva Neft İnstitutu, Azərbaycan SSR EA və "Azneft" Birliyi təşkil edirdilər. Neft ekspedisiyasının başlıca vəzifəsi yeni neft yataqlarının tapılması, onların geoloji xəritəsinin tərtibi, neft quyularının qazılması və neftin ümumi həcminin müəyyənləşdirilməsi idi [596, s.89-90].

Neft ekspedisiyası 1948-ci ildə Azərbaycanda qarşıya qoyduğu məqsədi gerçəkləşdirdi, yekun məlumatlar çap edildi. 1950-ci ildə Azərbaycanın geoloji xəritəsi tam tərtib olundu və 1951-ci ildə Azərbaycanın neft ehtiyatı müəyyənləşdirildi [578, s.69].

1934-cü ildən Bakı neftçiləri ilə Qroznı, Ural, Qazaxıstanın Emba neftçiləri və Donbas şaxtaçıları arasında əlaqələr daha da genişlənmiş, Bakıdan RSFSR, Ukrayna, Gürcüstan, Qazaxıstan, Tacikistan, Türkmənistan və Qırğızıstanın neft rayonlarına 200-dən çox nümayəndə getmişdi [124, s.12-13]. 40-cı illərdə bu əlaqələr daha da genişlənmiş, alimlər öz yenilikləri ilə neftçilərin əməyini yüksək dərəcədə dəyərləndiriləcək bir səviyyəyə qaldırmışdılar. Neft yataqlarının kəşfi, quyuların qazılması, neftin çıxarılması və emalı prosesində elmlə istehsalat vəhdətdə inkişaf edir, elmi əlaqələr getdikcə genişlənirdi. Belə ki, 1958-ci

ildə Azərbaycan SSR EA-nın tədqiqat institutlarının tədqiq etdikləri 70 mühüm elmi problemlərdən 45-ni müttəfiq respublikaların (o cümlədən Qazaxıstanın) alimləri ilə birgə araşdırırdılar [640, s.220].

50-ci illərdə Azərbaycanın Qazaxıstanla elmi əlaqələri getdikcə güclənirdi.

1950-ci ilin yazında Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində sellərin öyrənilməsinə dair elmi konfrans keçirilmişdir. Konfransda Azərbaycandan Torpaq-Eroziya Stansiyasının direktoru K.Ə.Ələkbərov iştirak etmişdir. Bu stansiya Azərbaycan SSR Nazirlər Sovetinin və Azərbaycan KP (b) MK-nın birgə imzaladıqları 12 noyabr 1949-cu il tarixli, 1458 saylı qərarı əsasında Kimyalaşdırılma stansiyasının bazasında yaradılmışdı. Stansiya SSRİ Nazirlər Sovetinin 2117 saylı, 20 may 1950-ci il tarixli qərarı ilə Azərbaycan SSR EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutuna verildikdən sonra, onun iki şöbəsi (1. Torpaq-eroziya şöbəsi. 2. Aşınmış torpaqların meliorasiyası şöbəsi) yaradılmış və elmi-tədqiqat istiqaməti güclənmişdir. Alma-Ata konfransında iştirak edən K.Ələkbərov Azərbaycanda torpaqların şoranlaşmasına qarşı aparılan mübarizədən, eroziyanın aradan qaldırılması və meliorasiya işinin genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs etmişdir [685, v.192, 203].

Azərbaycan və qazax alimləri qonşu respublikalarda keçirilən elmi tədbirlərdə də tez-tez görüşür, yeni fikir və mülahizələrini bölüşür, elmi əlaqələrin daim zənginləşməsi istiqamətində böyük səy göstərirdilər.

Böyük Türkmən Kanalının çəkilməsi nəticəsində Qazaxıstan və Mərkəzi Asiyanın bioloji aləmi və kənd təsərrüfatında yaranacaq dəyişikliklər prosesini müzakirə etmək üçün Daşkənddə 1952-ci il noyabrın 20-dən dekabrın 1-dək elmi sessiya keçirilmişdi. Sessiyanı SSRİ EA və Özbəkistan EA-nın biologiya və kənd təsərrüfatı bölmələri təşkil etmişdilər [210, s.72]. Sessiyada Özbəkistan, Türkmənistan, Tacikistan, Qazaxıstan, Azərbaycan SSR Elmlər Akademiyaları və SSRİ EA-nın Qırğızıstan filialının bilogiya və kənd təsərrüfatı bölmələri tərəfindən göndə-

rilmiş alimlər iştirak edirdilər. 12 gün davam etmiş sessiya 7 bölmə (1.Torpaq, süni suvarma və meliorasiya. 2.Bitkilər aləmi və onlardan istifadə. 3.Pambıqçılıq. 4. Meyvə və subtropik bitkiləri. 5.Heyvandarlıq və yem təchizatı. 6.Mərkəzi Asiyada ziyanlı və faydalı heyvanlar. 7. Hidrologiya və ixtiologiya) üzrə öz işini qurmuşdu. Azərbaycan alimlərinin çıxışlarında Mərkəzi Asiyanın problemləri ilə yanaşı, Qazaxıstan təbiətində də baş verəcək ciddi dəyişikliklər öz əksini tapmışdı [134, v.61].

1955-ci il yanvarın 12-də Özbəkistan SSR EA-da pambıqçılığı inkişaf etdirməklə məşğul olan elmi təşkilatların fəaliyyətini əlaqələndirmək məqsədilə Respublikalararası müşavirə keçirilmişdir. Müşavirədə Özbəkistan, Qazaxıstan, Azərbaycan, Tacikistan, Türkmənistan və Qırğızıstanın elmi idarələrinin nümayəndələri iştirak etmişlər.

Ümumi və bölmə iclaslarında alimlər cari ilin elmi-tədqiqat işlərinin planlarını, eləcə də pambıqçılığın mexanikləşdirilməsi və elektrikləşdirilməsi, hidrotexnika, suvarma və meliorasiya məsələlərinə, yüksək məhsula nail olmaq üçün elmi əsas yaradılması problemlərinə dair aparılan elmi-tədqiqat işlərinin nəticələrinin tətbiq edilməsi planlarını geniş müzakirə etmişlər.

Geniş fikir mübadiləsi nəticəsində elmi idarələrin fəaliyyətinin yaxşılaşdırılmasına, onların istehsalatla əlaqəsinin möhkəmləndirilməsinə kömək edə biləcək bir sıra tövsiyələr hazırlanmışdır.

Respublikalararası müşavirə pambığın məhsuldarlığının artırılması, müasir aqrotexniki üsulların, xüsusən kvadrat – yuva və darcərgəli əkin üsullarının kənd təsərrüfatında geniş tətbiq edilməsi, pambıqçılığın kompleksli mexanikləşdirilməsinin tezliklə tamamlanması ilə əlaqədar olan elmi-tədqiqat işlərini yaxşılaşdırmağı lazım bilmişdir [453, s.1].

1956-cı il dekabrın 10-13-də Bakıda türk dilləri dialektologiyası məsələlərinə həsr edilmiş əlaqələndirmə müşavirəsi keçirilmişdir. Müşavirə SSRİ EA-nın dialektologiya işini əlaqələndirmə komissiyası ilə birlikdə Azərbaycan SSR EA tərəfindən çağırılmışdı. Müşavirənin işində Moskva, Bakı, Daşkənd, Alma-

Ata, Aşqabad, Frunze, Kazan, Tbilisi, Çeboksarı, Tobolsk və Abakandan gəlmiş alim türkoloqlar iştirak edirdilər. Tanınmış Polşa türkoloqu, Polşa EA şərqşünaslıq komitəsinin sədri, professor A.A.Zayonçkovski də müşavirəyə qatılmışdı [535, s.4].

Müşavirə iki problemə: 1. Türk milli ədəbi dillərinin əsasını təşkil edən dialekt probleminə; 2. Türk dilləri dialektlərinin öyrənilməsi işinin vəziyyətinə həsr edilmişdi.

Müşavirənin gündəliyində duran birinci məsələ - dialekt məsələsinin müzakirəsi ətrafında Azərbaycan, Tatarıstan, Özbəkistan və Tuva alimləri, ikinci məsələ - dialektlərin öyrənilməsi vəziyyəti ilə əlaqədar mövzularda Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Tatarıstan, Azərbaycan və başqalarının məruzələri dinlənilmişdir.

Müşavirədə Azərbaycan SSR EA-nın müxbir üzvü, professor M.Şirəliyev "Azərbaycan milli ədəbi dilinin əsasını təşkil edən dialekt haqqında", Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnstitutu direktorunun müavini, filoloji elmləri namizədi R.Rüstəmov "Azərbaycan dili dialektlərinin öyrənilməsi işinin vəziyyəti haqqında" və Qazaxıstan SSR EA-nın akademiki, professor N.Sayranbayev "Qazax dialektologiyası haqqında" mövzularında məruzə etmişlər [175, s.1; 535, s.4].

Müşavirədə öyrənilən problemlər ətrafında buraxılmış ciddi nöqsanlar da tənqid olunmuş, xüsusən türk dilləri dialektlərinin tarixi nöqteyi-nəzərindən öyrənilməsi işinin zəif getdiyini və keçmiş yazılı abidələrin dilinin öyrənilməsi və nəşr edilməsinin plansız və sistemsiz aparıldığı göstərilmişdir. Eyni zamanda müzakirə olunan məsələlər ətrafında geniş əməli təkliflər qəbul olunmuş və türk dilləri dialektologiyası məsələlərinə həsr ediləcək ikinci məhəlli müşavirənin 1957-ci ilin sentyabr-oktyabr aylarında Tatarıstan MSSR-də keçirilməsi lazım bilinmişdir [535, s.4].

50-ci illərdə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu çox böyük və əhəmiyyətli bir işlə - Azərbaycan dilinin dördcildlik izahlı lüğətinin tərtibi ilə məşğul idi. 1957-ci ildə birinci cildi artıq tərtib edilib qurtarmışdı.

Belə bir lüğətin hazırlanması təkcə Azərbaycan üçün deyil, SSRİ-dəki türkdilli respublikaların hamısı üçün ilk təcrübə idi. Buna görə də həmin lüğət hələ nəşr edilməmişdən qabaq onun quruluşu, tərtib prinsipləri, əhatə etdiyi dil materialı və s. barədə geniş oxucu kütləsinə, qısa da olsa, məlumat verilməli idi ki, lüğəti hazırlayan kollektiv öz işində məsləhət və göstərişləri nəzərə ala bilsin. Məhz bu məqsədlə institutun lüğət şöbəsi 6 m.v. həcmində "Azərbaycan dili izahlı lüğətinin layihəsi"ni hazırlayıb hələ 1956-cı ildə nəşriyyata təqdim etmişdi. Təəssüf ki, Elmlər Akademiyasına verilmiş nəşriyyat planının həcmi məhdud olduğu üçün həmin layihəni çap etməyə imkan olmamışdı.

1957-ci ildə Azərbaycan SSR EA-nın prezidenti M.M.Əliyevin Azərbaycan KP MK-nın təbliğat şöbəsinin müdiri Ş.Qurbanova ünvanladığı məktubda bu məsələdə onlara yardımçı olmalarını xahiş edərək yazırdı: "...Elmlər Akademiyasına verilmiş nəşriyyat planının həcmi məhdud olduğu üçün layihəni çap etməyə imkan olmamışdır. Halbuki Nizami adına Ədəbiyyat və Dil İnstitutu, izahlı lüğət hazırlamaq istəyən Qazaxıstan, Qırğızıstan, Özbəkistan respublikalarının mütəxəssislərindən dəfələrlə məktublar almışdır ki, burada izahlı lüğətin tərtib prinsipləri və ümumiyyətlə bu sahədə nə cür iş aparmaq haqqında soruşurlar.

Bütün bunlar "Azərbaycan dili izahlı lüğətinin layihəsi" əsərinin tezliklə çap edilməsi və yayılmasının nə qədər vacib olduğunu aşkar surətdə göstərir [66, v.256].

Məktubda həmçinin "şairin yaradıcılığına həsr edilmiş ən qiymətli elmi tədqiqat əsərlərindən olması nəzərə alınmaqla", "M.Ə. Sabir" monoqrafiyasının çapına da yardım göstərilməsi xahiş olunur və sonda "Buna görə də sizdən xahiş edirəm ki, yuxarıda göstərilən hər iki əsəri plandan əlavə çap etmək üçün bizə icazə verəsiniz" fikri vurğulanırdı [66, v.257].

50-ci illərdə Azərbaycan SSR EA-nın ən böyük elmi-tədqiqat idarələrindən biri olan İ.Qubkin adına Geologiya İnstitutu elmi kadrların hazırlanması işini ildən-ilə genişləndirirdi. Bu institut təkcə Azərbaycan üçün deyil, qardaş respublikalar üçün də elmi kadrlar hazırlayırdı. Son illər Qazaxıstan və Türkmənis-

tan aspirantları respublikamızın tanınmış alimlərinin rəhbərliyi altında uğurla dissertasiya işləri hazırlamış və müdafiə etmişdilər. Bu işlər arasında Qazaxıstan EA-nın Ural-Emba elmi-tədqiqat bazasının rəisi T.Cumaqəliyevin işi aktuallığı ilə seçilirdi. O, Azərbaycan SSR EA-nın müxbir üzvü Ş.Mehdiyevin rəhbərliyi altında Xəzərətrafı çökəkliyinin geoloji quruluşu və neftlilik perspektivliyi haqqında böyük elmi əhəmiyyəti olan bir iş yazaraq ortalığa qoymuşdu [338, s.2].

1957-ci il may ayının 27-dən iyunun 4-dək Daşkənddə şərqşünasların I Ümumittifaq konfransı keçirilmişdir. Konfransda 250 nümayəndə iştirak etmiş, 6 bölmədə 105 məruzə dinlənilmişdir. Bu mühüm əhəmiyyətli elmi tədbirə Qazaxıstandan 12 və Azərbaycandan 25 nümayəndə qatılmışdı. Qazax alimlərindən – Qazaxıstan SSR EA-nın müxbir üzvü, professor S.S.Amanjolov "Qədim türk yazılı abidələri və onların türk xalqlarının müasir dilləri ilə əlaqələri" və filoloji elmlər namizədi İ.T.Cumabayev "XVIII-XIX əsrlər qazax ədəbiyyatı və onun öyrənilməsi problemləri" mövzularında maraqlı məruzələr etmişdilər [514, v.1-43].

Konfransda iştirak edən Azərbaycan nümayəndə heyətinə Azərbaycan SSR EA-nın vitse-prezidenti, akademik Ə.S.Sumbatzadə başçılıq edirdi [514, v.2].

Azərbaycan nümayəndələrindən akademik Ə.S.Sumbatzadənin "Azərbaycan SSR-in keçmiş və müasir şərqşünaslığı", Azərbaycan SSR EA-nın akademiki Ə.Ə.Əlizadənin "Rəşid-əd Dinin "Cami-ət təvarix" əsəri Ön Asiya xalqlarının tarixində bir mənbə kimi", Azərbaycan SSR EA-nın akademiki A.O.Makovelskinin "Avesta"da cəmiyyətin iqtisadi mənşəyi və ictimai quruluşu", Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Ə.Dəmirçizadənin "Dədə Qorqud eposu", Azərbaycan SSR EA-nın müxbir üzvü M.A.Dadaşzadənin "Sovet Azərbaycanında dramaturgiyanın inkişafı", filoloji elmlər doktoru H.M.Araslının "Orta əsrlərdə Azərbaycan-ərəb mədəni əlaqələri tarixindən", professor A.S.Fərəcovun "Nizam-əl Mülk, Nizami Gəncəvi, Nəsirəddin Tusi və Rəsid-əd Dinin iqtisadi görüşləri", tarix elmləri namizə-

di Ə.N.Quliyevin "XV-XVIII əsrlərdə Azərbaycanın Rusiya ilə ticarət və diplomatik əlaqələri", tarix elmləri namizədi S.B.Aşurbəylinin "Qədim və orta əsrlərdə Azərbaycanın Çinlə iqtisadi və mədəni əlaqələri", tarix elmləri namizədləri M.Ə.Qazıyev və P.Ə.Əzizbəyovanın "Azərbaycan iqtisadiyyatındakı geriliyin aradan qaldırılması", Respublika Əlyazmalar Fondunun direktoru, filoloji elmlər namizədi M.S.Sultanovun "Azərbaycan SSR EA Əlyazmalar Fondunda Yaxın Şərq xalqları klassiklərinin nadir əlyazmaları" mövzusundakı məruzələri, filoloji elmlər namizədləri A.Q.Orucov, A.Cəfərov, A.Məmmədov, R.Sultanov, tarix elmləri namizədləri Ş.Tağıyeva, M.Ə.İsmayılov, Z.Abdullayev, R.Qazıyev və başqalarının məruzələri böyük maraqla qarşılanmışdı [514, v.51-52, 1-6].

Şərqşünasların Daşkənddə keçirilən I Ümumittifaq konfransında iştirak edən görkəmli ədəbiyyatşünas alim H.M.Araslı konfransda "Şərq xalqlarının iqtisadi, mədəni və tarixi əlaqələri" bölməsinin sədri olmuş [283, s.12-13] və Azərbaycan-ərəb mədəni əlaqələrini əks etdirən məruzəsi ilə də daha çox yadda qalmışdır [631, s.406-411].

Daşkənddə keçirilən şərqşünasların I İmumittifaq konfransında Azərbaycan və Qazaxıstan alimlərinin görüşləri, söhbətləri və fikir mübadilələri də əhəmiyyət kəsb etməklə, gələcək elmi əlaqələrin inkişafı üçün müsbət stimul yaratmışdır.

Azərbaycan SSR EA-nın Botanika bağının Qazaxıstan və Mərkəzi Asiya ölkələri ilə sıx əlaqələri var idi. 1957-ci ildə bu Botanika bağındakı 40 bitki öz coğrafi mənşəyinə görə, Türkmənistan, Özbəkistan, Tacikistan və Qazaxıstan bitkilərindən əmələ gəlmişdi ki, bunlar da bağdakı bitkilərin ümumi sayının 6,2 faizini təşkil edirdi [415, v.390].

1958-ci il yanvar ayının 14-dən 19-dək Qazaxıstan SSR-in paytaxtı Alma-Ata şəhərində rus dilindən Mərkəzi Asiya, Qazaxıstan və Azərbaycan respublikaları xalqlarının dillərinə tərcümə məsələlərinə dair I Respublikalararası müşavirə keçirilmişdir. Müşavirədə Mərkəzi Asiya, Qazaxıstan və Azərbaycan respublikalarından əlavə, Tacikistan SSR-nin, Dağıstan və Tatarıstan

Muxtar respublikalarının, SSRİ Yazıçılar İttifaqının, SSRİ Mədəniyyət Nazirliyinin, SSRİ EA-nın, Moskva nəşriyyatlarının da nümayəndələri, ümumiyyətlə, 150-yə yaxın nümayəndə-tərcüməçilər, yazıçılar, ədəbiyyatşünaslar, tanınmış şərqşünas alimlər və tənqidçilər, nəşriyyat işçiləri və başqaları iştirak etmişdilər [342, s.4].

Müşavirədə üç bölmə üzrə (1.Bədii ədəbiyyat tərcüməsi.2. Siyasi ədəbiyyat tərcüməsi. 3.Tədris-Pedaqoji ədəbiyyat tərcüməsi) 20 məruzə dinlənilərək müzakirə olunmuşdur. Müşavirə iştirakçıları rus dilindən qazax, özbək, qırğız və Azərbaycan dillərinə tərcümə prinsipləri haqqında, marksizm-leninizm klassikləri əsərlərinin türkmən dilinə tərcüməsi və redaktəsinin təşkili məsələləri haqqında və M.Şoloxovun "Sakit Don" romanının qazax dilinə tərcüməsi haqqında məruzələri dinləmişlər [198, s.3].

Müşavirənin iki gün davam edən ümumi iclaslarında 6 məruzə və sonrakı günlərdəki 3 bölmə iclaslarında 14 məruzə dinlənilmişdir. Ümumi iclaslarda dinlənilən Qazaxıstan SSR-dən tarix elmləri namizədi M.O.Canqalinin "Rus dilindən qazax dilinə tərcümənin əsas prinsipləri haqqında", özbək yazıçısı Əshəd Muxtarın "Bədii ədəbiyyat əsərlərinin rus dilindən özbək dilinə tərcümə edilməsinin bəzi məsələləri" və Azərbaycan SSR-dən filoloji elmləri namizədi Cümşüd Əzimovun "Rus dilindən Azərbaycan dilinə tərcümədə dil və terminologiya məsələləri" məruzələrində olduqca aktual və əhəmiyyətli məsələlər qaldırılmışdır [342, s.4].

Qazaxıstanın görkəmli yazıçısı Muxtar Auezovun rəhbərlik etdiyi "Bədii ədəbiyyat tərcüməsi" bölməsində 6 məruzə, o cümlədən Özbəkistan SSR-dən tərcüməçi Q.Salamovun "Rus dilindən özbək dilinə bədii tərcümənin bəzi nəzəri məsələlərinə dair", Azərbaycan SSR-dən tərcüməçi C.Məmmədovun "Bədii ədəbiyyatın rus dilindən Azərbaycan dilinə tərcüməsi sahəsindəki təcrübənin ümumiləşdirilməsi", Türkmənistan SSR-dən Türkmənistan Dövlət Nəşriyyatının baş redaktoru C.Matalovun "Rus ədəbiyyatı klassiklərinin əsərlərinin türkmən dilinə tərcüməsinin iş təcrübəsindən" mövzularında məruzələri və digər məruzələr

də maraqla qarşılanmışdır. Bu bölmədə diqqəti cəlb edən mühüm cəhətlərdən biri də o idi ki, "dilləri bir-birinə yaxın olan xalqların əsərlərinin başqa bir dildən deyil, orijinaldan tərcümə edilməsinə, türk dili qrupuna daxil olan xalqların əsərlərinin rus dilinə, sətri tərcümədən deyil, bilavasitə orijinaldan tərcümə olunmasına və sairəyə dair" çıxışlarda maraqlı mülahizələr irəli sürülürdü [342, s.4].

Müşavirənin sonuncu günü – bölmə rəhbərlərinin bölmələrin işindən danışarkən, bədii ədəbiyyat bölməsinin rəhbəri Muxtar Auezov çıxışında Puşkinin "Yevgeni Onegin" əsərinin Azərbaycan dilinə tərcüməsi üzərində xüsusi dayanaraq, xalq şairimiz S.Vurğunun xatirəsini dəyərli sözlərlə yad etmişdir. Azərbaycanın ölməz xalq şairinin bu tərcüməsinin, sözün əsl mənasında bədii tərcümə sənətinin şah əsəri olduğunu qeyd etmiş və tərcümə üzərində belə yaradıcılıq eşqi, böyük məhəbbət, alın təri axıtmaqla işləmək lazım olduğunu söyləmişdir [342, s.4].

Alma-Ata müşavirəsində Azərbaycandan tərcüməçi H.Qasımzadə də iştirak etmiş və öz baxışlarını "Bədii tərcümə haqqında müşavirə" məqaləsində bildirmişdir [342, s.4].

1958-ci ildə Alma-Atada Metallogenik və proqnoz xəritələri üzrə Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransın təşkilat komitəsinin üzvü olan Azərbaycan SSR EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor M.S.Qaşqay konfransda "Azərbaycanın metallogeniyasının əsas xüsusiyyətləri və metallogenik xəritəsi" mövzusunda məruzə etmişdir [642, c.11, 71; 643, c.55-58].

1958-ci il fevralın 3-dən 8-dək Bakıda Respublika Elmlər Akademiyasında hesablama riyaziyyatı və hesablama texnikası vasitələrinin tətbiqi məsələlərinə dair müşavirə keçirilmişdir. Müşavirə Azərbaycan SSR EA-nın hesablama mərkəzi, avtomatika və telemexanika institutu tərəfindən çağırılmışdı. Müşavirənin işində RSFSR, Ukrayna, Qazaxıstan, Orta Asiya, Pribaltika və Zaqafqaziya respublikalarının bir çox tanınmış alimləri iştirak etmişdir. Müşavirənin ümumi və bölmə iclaslarında hesabla-

ma riyaziyyatı və texnikası məsələlərinə dair 80-ə yaxın məruzə dinlənilərək müzakirə olunmuşdur.

Müşavirədə bir sıra əməli təkliflər irəli sürülmüş, Azərbaycan SSR EA-nın hesablama mərkəzi üçün bina tikintisinin sürətləndirilməsini lazım bilmiş və hesablama mərkəzi yanında konstruktor bürosunun təşkil olunmasını zəruri hesab etmişdir. Bu büro neft, kimya və metallurgiya sənayesində istehsal proseslərini avtomatlaşdırmaq üçün xüsusi maşınlar yaratmaq məsələləri ilə məşğul olmalı idi [278, s.2].

1958-ci ildə Alma-Atada heyvanların parazit xəstəliklərinə dair Asiya ölkələrinin IV Beynəlxalq regional konfransı keçirilmişdir. Konfransa qatılan görkəmli mikrobioloq və epizootoloq, Azərbaycan SSR EA-nın akademiki M.Q.Qəniyev maraqlı mövzuda məruzə etmişdir [38, s.137].

1959-cu il mayın 6-da Azərbaycan SSR EA-nın Rəyasət heyətinin nəzdində beynəlxalq elmi əlaqələr üzrə xüsusi komissiyanın fəaliyyətə başlamasının çox böyük elmi əhəmiyyəti var idi. Akademik M.S.Qaşqayın rəhbərlik etdiyi bu komissiya Azərbaycan alimlərinin beynəlxalq və ittifaq daxilində vaxtaşırı keçirilən bir çox elmi forumlarda, o cümlədən, dünya neft katalizm problemlərinə və qaza həsr olunmuş konqreslərdə, simpoziumlarda və elmi sessiyalarda fəal iştiraklarına öz müsbət təsirini göstərmişdir [480, s.120].

50-ci illərdə müttəfiq respublikalarda elmlər akademiyalarının yaradılması prosesi getdiyi kimi, onların nəşriyyat işi, kitabxanalarının formalaşması prosesi də tədricən qaydasına düşürdü. Elmi əsərlərin, konfrans materiallarının mübadiləsi nəticəsində kitabxanaların fondları zənginləşirdi. Alimlər, elmi institutlar arasında əlaqələr güclənir, elmi diskussiyalar, müzakirələr elmi inkişafa, elmi əlaqələrə imkan verirdi.

XX yüzilliyin 60-cı illərində Azərbaycan-Qazaxıstan elmi əlaqələri öz inkişafında yeni, yüksəliş mərhələsinə daxil oldu. Bu mərhələni səciyyələndirən və şərtləndirən əsas səbəb bütün ölkə miqyasında elmə diqqətin artması və onun inkişafı istiqamətində mühüm qərar və qanunların qəbul edilməsi idi. Sov.İKP

MK və SSRİ Nazirlər Sovetinin "Ölkədə elmi tədqiqatların koordinasiyasının təkmilləşdirilməsi və SSRİ Elmlər Akademiyasının fəaliyyətinə dair tədbirlər haqqında" (1961, sentyabr), "SSRİ Elmlər Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər haqqında" (1963, aprel) və "Elmi təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılması və milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsini sürətləndirmək üzrə tədbirlər haqqında" (1968, sentyabr) qərarlarının mühüm əhəmiyyəti var idi.

Bütün ölkə üzrə elmi tədqiqatların əlaqələndirilməsinin genişləndirilməsi üçün 1965-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə Elmi Əlaqələndirmə Şurası Elm və Texnologiya üzrə Dövlət Komitəsinə çevrildi

1969-cu ilin əvvəllərindən etibarən, SSRİ-də Milli iqtisadiyyatın inkişafı üzrə Dövlət planının tərtib edilməsinə dair "Milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsinin planlaşdırılması"yla bağlı metodik göstərişlərin verilməsinə başlandı [596, c.215].

Sov. İKP MK-nın XXIV qurultayının (1971, 30 mart - 9 aprel) hesabat məruzəsində ilk dəfə "Elmi-texniki inqilab. Elmin istehsalatla birləşməsi" bölməsinin salınması da elmin nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyini göstərirdi [596, c.216].

1960-cı il iyunun 15-18-də Bakıda Zaqafqaziya hematoloji və qanköçürmə İnstitutlarının birinci Respublikalararası konfransı olmuşdur. Konfransda qanköçürmə elminin qarşısında dayanan ən mühüm məsələlər – qanköçürmənin təsir mexanizminin öyrənilməsi, qandan yeni preparatların alınması üsulu, qanın laxtalanması, qan yaradan orqanlar və onların xəstəlikləri və s. məsələlər müzakirə edilmişdir. Tibb işçiləri evində keçirilən bu konfransda Moskva, Leninqrad, Kiyev, Daşkənd, Bakı, Alma-Ata, Tbilisi və digər şəhərlərdən gəlmiş görkəmli alimlər iştirak etmişlər [469, s.2].

1960-cı il oktyabrın 11-14-də Bakıda, Azərbaycan SSR EA-da müasir fizikanın ən aktual məsələlərindən olan yarımkeçiricilərdə zərbə ilə ionlaşma və tunel effekti məsələlərinə dair Ümumittifaq müşavirəsi keçirilmişdir. Onun təşkilatçıları SSRİ

EA-nın Rəyasət heyəti yanındakı yarımkeçiricilər komissiyası və Azərbaycan SSR EA-nın Fizika İnstitutu idi.

Müşavirədə digər respublikaların nümayəndələri ilə yanaşı, Qazaxıstandan gəlmiş tanınmış alimlər də iştirak edirdilər. Dörd gün davam etmiş bu müşavirədə dinlənilərək müzakirə olunmuş 20-dən çox məruzələr arasında Azərbaycanın görkəmli fizika mütəxəssisləri H.B. Abdullayev, Q.Ə. Axundov və M.H. Əliyevin də məruzələri var idi [568, s.2].

1960-cı il oktyabr ayının 24-dən 27-dək Bakıda, Azərbaycan SSR EA-da türk dilləri dialektologiyası məsələlərinə dair III məhəlli müşavirə keçirilmişdir [425, v.163] Burada Sovet İttifaqının hər tərəfindən gəlmiş (Moskva, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Qırğızıstan, Türkmənistan, Moldova, Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Dağıstan, Yakutiya, Kabarda) böyük türkoloq alimlər iştirak etmişdir [533, s.4]. Müşavirə qohum türk dillərinin öyrənilməsində dialektoloji materialların rolu, qədim türk abidələrinin dialektoloji xüsusiyyətləri, dil və dialekt, dialektoloji lüğətlərin tərtibi, dialektoloji atlasların proqramı və s. məsələlərin həllində mühüm rol oynamışdır. Müşavirədəki məruzələrin rus dilindəki tezisləri (20,2 çap vərəqi) iki cilddən ibarət olmaqla, "Türk dilləri dialektologiyası məsələləri" adı altında 1960-cı ildə çap olunmuşdur [425, v.163-168].

Müşavirədə respublikamız üçün fərəhli olan o idi ki, iştirakçılar Sovet İttifaqının türk dialektologiyasında Azərbaycan dialektologiyasının əsas yer tutduğunu qeyd edir, Azərbaycan dilinin bütün şivələrinə və dialektlərinə aid materialların toplanmasının qurtardığını, çoxlu monoqrafiya əsərlərinin yazıldığını, dialektoloji atlas və lüğət tərtibinə başlanıldığını xüsusi vurğulayırdılar. Tatarıstan və Özbəkistan alimləri də böyük uğurlar qazanmış, Qırğızıstanda, Qazaxıstanda və digər respublikalarda şivələrin və dialektlərin öyrənilməsi işi genişlənmişdi [517, s.4].

Bakı müşavirəsi IV məhəlli müşavirəni 1962-ci ildə Qırğızıstanın paytaxtı Frunze şəhərində keçirməyi və onun gündəliyinə türk dilləri dialektlərinin dilçilik coğrafiyası metodları ilə öyrənilməsi məsələlərini dialekt sistemlərinin təşəkkülü problemi-

ni, habelə dialektoloji lüğətlər tərtib edilməsi məsələlərini daxil etməyi lazım bilmişdir [517, s.4].

1961-ci il dekabrın 6-dan 9-dək Qırğızıstanın paytaxtı Frunze şəhərində bədii tərcümənin keyfiyyətinin yüksəldilməsinə dair Orta Asiya, Qazaxıstan və Azərbaycan ədəbiyyatçılarının Respublikalararası konfransı keçirilmişdir. Cəlal Məmmədov, Hüseyn Şərifov, İshaq İbrahimov, Vladimir Qafarov və Məlik Mikayılzadədən ibarət olan 5 nəfərlik Azərbaycan nümayəndə heyəti dekabrın 5-də təyyarə ilə Daşkəndə uçaraq, oradan da Frunzeyə yollanmışdır [107, v.13].

Orta Asiya, Qazaxıstan və Azərbaycan ədəbiyyatçılarının 4 gün çəkən respublikalararası konfransında tərcümə nəzəriyyəsinin və tərcümə işinin bütün məsələləri barəsində geniş və ətraflı müzakirələr getmişdir. Yazıçılar, tanınmış tərcüməçilər, tənqidçilər və ədəbiyyatçılar, elmi ictimaiyyətin nümayəndələri, nəşriyyat redaktorları və işçiləri tərcümə işinin vəziyyətindən, bədii tərcümənin keyfiyyətinin yüksəldilməsi yollarından danışmışlar.

Konfransda yazıçı və tərcüməçilərdən K.Malikov, N.İvaşov, İ.Jarılqanov, C.Məmmədov, X.Əhzari və qeyriləri Orta Asiya respublikalarında, Qazaxıstanda və Azərbaycanda əldə olunmuş böyük nailiyyətlərdən danışmışlar. Moskvadan gəlmiş tanınmış yazıçı və tərcüməçi N.Çukovski demişdir ki, “Müxtəlif xalqların ədəbiyyatının qarşılıqlı tərcümələri xalqlar arasında mənəvi sərvətlər mübadiləsinə xidmət edir. Bizim ölkəmizdə bu tərcümələrə böyük diqqət yetirilir. Bunu söyləmək kifayətdir ki, kitab palatasının verdiyi məlumata görə SSRİ-də çıxan bütün bədii ədəbiyyatın 70 faizi tərcümələrdir” [100, s.4].

Azərbaycan-Qazaxıstan elmi, mədəni və ədəbi əlaqələrinə güclü təkan verən bu konfransda tərcümələrin nöqsanlarından da söhbət açılmış, tərcümə əsərlərinin tənqidi, redaktəsi və onlara resenziya verilməsinin hələ də zəif olduğu göstərilmiş, konfrans adından bədii tərcümənin keyfiyyətinin yüksəldilməsi irəli sürülmüşdür.

1962-ci il yanvarın 3-dən 6-dək Bakıda qeyri-rus məktəblərində rus dilinin tədrisini yaxşılaşdırmaq məsələlərinə dair

Respublika müşavirəsi olmuşdur. Müşavirəyə Moskvadan, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Ermənistan, Türkmənistan, Dağıstan, Tatarıstan, Başqırdıstan və Çeçen-İnquş respublikalarından xeyli sayda qonaqlar gəlmişdi [345, s.1].

Müşavirədə iştirak edən Qazaxıstan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun əməkdaşı Y.Yeroxina çıxışında təcrübə mübadiləsi və bütün respublikalara aid olan məsələlərin ümumi şəkildə müzakirəsi baxımından belə tədbirlərin keçirilməsinin nə qədər böyük əhəmiyyət kəsb etdiyini göstərmişdir [347, s.2].

M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun dosenti A.Şabanovun “Rus dili tədrisində ana dilinin xüsusiyyətlərinin nəzərə alınması”, həmin institutun dosenti F.İbrahimbəyovun “Rus dilinin psixoloji əsasları”, baş müəllimi A.Veliçukun “Azərbaycan məktəbində rus dilinin tədrisində qrammatikanın rolu haqqında” mövzularında, həmin institutun tədris hissə üzrə prorektoru L.Barsukun, dosenti Y.Reçitskayanın, ADPU-nun baş müəllimi A.Klimovanın, M. F. Axundov adına institutun dosenti L.Q.Vəkilovanın, baş müəllimi B.Ayollonun, Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun rus dilinin tədrisi metodikası şöbəsinin müdiri A.Malinskinin və başqalarının müxtəlif mövzulardakı çıxışları maraqla qarşılanmışdır [346, s.2].

Bakı müşavirəsi sonda qeyri-rus məktəblərində rus dilinin tədrisinin daha da yaxşılaşdırılması barədə geniş qərar qəbul etmişdir [347, s.2].

1962-ci il yanvarın 17-20-də Bakıda, Azərbaycan SSR EA-da türk dillərində felin zaman və şəkil kateqoriyaları məsələlərinə həsr edilmiş Ümumittifaq müşavirəsi olmuşdur. Müşavirənin işində Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Nalçik, Ufa və başqa şəhərlərdən gəlmiş tanınmış dilçi alimlər iştirak etmişdilər. Dörd gün davam etmiş bu müşavirədə 15-dək məruzə dinlənilmiş və məruzələr ətrafında müzakirələr əsnasında çoxlu sayda çıxışlar olmuşdur.

Müşavirənin plenar iclasında filoloji elmlər doktoru, professor N.A.Başkakov (Moskva) "Türk dillərində şəkil və zaman kateqoriyaları", filoloji elmlər namizədi Z.İ.Budaqova "Müasir Azərbaycan dilində feilin zaman kateqoriyası məsələsinə dair", N.Z.Hacıyeva (Moskva) "Türk dillərində felin şəkil və zaman məsələlərinin qarşılıqlı əlaqəsi" mövzularında məruzə etmişlər. Sonrakı günlərdə Azərbaycanın görkəmli dilçi alimlərindən professor M.Hüseynzadə, filoloji elmlər doktoru S.Cəfərov, filoloji elmlər namizədlərindən M.Rəhimov, A.Axundov və başqalarının da məruzələri dinlənilmişdir [551, s.2].

1963-cü il yanvarın 22-25-də Azərbaycan SSR EA-da neft boy maddəsinin kənd təsərrüfatında tətbiqinə dair II Ümumittifaq müşavirəsi olmuşdur. Qazaxıstan alimlərinin də iştirak etdiyi bu müşavirədə dörd gün ərzində 90-a yaxın məruzə dinlənilmişdir [555, s.2].

1963-cü ilin əvvəllərində Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutunun kollektivi ilə L.Şmidt adına Maşınqayırma zavodu xüsusi konstruktor bürosunun əməkdaşları yeni fontan armaturunun layihəsini hazırlamışdılar. Həmin layihə əsasında istehsal ediləcək armaturlar dərinliyi 7 min metrə qədər olan neft quyularının istismarında işlədilməklə, min atmosfer təzyiqə davam gətirirdi. Artıq, zavodda yeni armaturun sınaq nümunəsi hazırlanırdı. Armaturlardan təkcə Azərbaycanda deyil, Qazaxıstanda da istifadə ediləcəkdi [571, s.2].

1963-cü il noyabrın 28-dən 30-dək Bakıda "Mikroelementlər və əsəb sistemi" mövzusunda fizioloqların Ümumittifaq simpoziumu olmuşdur. Qazaxıstan fizioloqlarının nümayəndələrinin də iştirak etdiyi bu simpoziumda ali əsəb sisteminin fəaliyyətində mikroelementlərin əhəmiyyəti mövzusunda və bir sıra başqa mövzularda 20-dən çox mühazirə oxunmuşdur.

Simpoziumu Azərbaycan SSR EA, SSRİ EA və İ.P.Pavlov adına Ümumittifaq Fiziologiya cəmiyyəti ilə birlikdə təşkil etmişdilər [262, s.2].

1963-cü ildə Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində "SSRİ-də heyvanların iqlimləşdirilməsi" mövzusunda Ümumit-

tifaq konfransı keçirilmişdir. Konfransda iştirak edən Azərbaycan SSR EA Zoologiya İnstitutunun əməkdaşı, biologiya elmləri doktoru, professor İ.Ə.Sadıqov "Azərbaycanda iqlimləşmiş bir yenotun helmint faunası" mövzusunda məruzə etmişdir [109, s.32].

1963-cü ildə Alma-Ata şəhərindəki Qazaxıstan Dövlət Universitetinin Paleovulkanalogiya laboratoriyasının "Əsərləri" toplusunun 1-ci buraxılışında [s.235-237] universitetin əməkdaşı Q.M.Fremdin, "M.Ə.Qaşqay və Ə.İ.Məmmədovun "Perlitlər, obsidianlar, peçsteynlər və onların mineraloji, petroqrafik və fiziki-kimyəvi xüsusiyyətləri" monoqrafiyası haqqında" yazısı çap olunmuşdu. Məqalədə 1961-ci ildə görkəmli alim M.Ə.Qaşqay və Ə.İ.Məmmədovun birgə müəllifliyi ilə Azərbaycan SSR EA nəşriyyatı tərəfindən buraxılmış monoqrafiyalarının elmi əhəmiyyəti yüksək qiymətləndirilirdi [398, s.127].

1964-cü il yanvarın 8-də Qazaxıstan SSR EA Eksperimental Biologiya İnstitutu növlərarası hibridləşmə laboratoriyasının müdiri, biologiya elmləri doktoru, professor, Dövlət mükafatı laureatı A.İ.İsenjulov Bakıya gəlmişdir [344, s.3].

Üç həftədən çox Bakının qonağı olan alim Azərbaycan SSR EA Biologiya bölməsinin, Zoologiya İnstitutunun, ADU-nun biologiya fakültəsinin, Azərbaycan SSR "Bilik" cəmiyyəti idarə heyətinin işi ilə tanış olmuş, Bakının görməli yerlərinə baxmışdır. O, Zoologiya İnstitutu və ADU-nun biologiya fakültəsinin birləşmiş elmi seminarında "Qazaxıstan arxaromerinosu və onun daha da təkmilləşdirilməsi perspektivləri" mövzusunda məruzə etmişdir. A.İ.İsenjulov demişdir ki, arxaromerinoslar – zərif yunlu qoyunları vəhşi dağ qoyunu olan arxar ilə növlərarası hibridləşdirmək kimi orijinal bir üsul ilə alınmış dünyada yeganə cinsdir [224, s.3].

Alim A.İ.İsenjulov bildirmişdir ki, ölkədə cinsi rayonlaşdırma planına görə Qazaxıstan arxaromerinosu Alma-Ata, Şərqi Qazaxıstan vilayətləri bir sıra uca dağ rayonlarının təsərrüfatlarında və Pavlodar vilayəti Bayan-Aul rayonunun qoyunçuluq sovxozunda bəslənilir. O, həmçinin məsləhət görmüşdür ki, Qazaxıstan arxaromerinos qoyunlarının zərif yunlu qoyunçuluq ra-

yonlarında yetişdirilməsi ucuz qoyun əti və zərif yun istehsalını xeyli sürətləndirə bilər.

Azərbaycana gəlişinin məqsədini açıqlayan alim, yeni cinsin müəlliflərindən biri kimi, onu daim təkmilləşdirməklə məşğul olduğundan, burada akademik Firuz Məlikovun rəhbərliyi ilə Azərbaycan dağ merinosunun daha da təkmilləşdirilməsi üzrə aparılan tədqiqatlarla tanış olduğunu söyləmişdir.

Qazaxıstan SSR "Bilik" cəmiyyəti idarə heyəti kənd təsərrüfatı bölməsinin sədri kimi A.İ.İsenjulov Azərbaycan SSR "Bilik" cəmiyyətinin də həmin bölmə üzrə gördüyü işlərlə tanış olmuşdur [224, s.3].

1964-cü il aprelin 1-də Azərbaycan SSR EA-nın böyük salonunda kommunizmin maddi-texniki bazasının yaradılması məsələlərinə və texnikanın tərəqqisinin iqtisadi cəhətdən ən səmərəli yollarına dair elmi sessiya açılmışdır. Sessiya Gürcüstan SSR, Ermənistan SSR və Azərbaycan SSR-in elmlər akademiyaları və ali məktəbləri tərəfindən təşkil olunmuşdu. Sessiyada Zaqafqaziya respublikalarının nümayəndələri ilə yanaşı Moskva, Qazaxıstan və Qırğızıstan alimləri də iştirak edirdilər.

Sessiyanın ilk günü Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini T.Ə.Tahirova "Kommunizmin maddi-texniki bazasının yaradılmasında Azərbaycanın rolu" mövzusunda məruzə etmişdir [331, s.1].

1964-cü il iyulun 2-də Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunun bir qrup alimi Qazaxıstanın Manqışlaq neft mədənlərinə getmişlər. Onlar (professor A.Mirzəcanzadə, texnika elmləri doktoru A.Qasımov, geologiya-minerologiya elmləri namizədi M.Çernomordikov, mühəndislərdən V.Sultanov, V.Baltsev və b.) Manqışlaqda qaldıqları on gün ərzində yeni tapılmış neft sahələrində çalışan neftçilərə yardım göstərmişlər [374, s.2].

1964-cü ilin iyulunda dosent Nəsir Məmmədov ADU-nun elmi şurasında "Azərbaycan dilçiliyinin əsasları (başqa türk dilləri ilə əlaqədə)" mövzusunda uğurla dissertasiya müdafiə edərək filoloji elmlər doktoru elmi dərəcəsi almışdır.

Dissertantın rəsmi opponentləri Azərbaycan SSR EA-nın akademiki, filoloji elmlər doktoru, professor M.Ş.Şirəliyev, Azərbaycan SSR EA-nın müxbir üzvü, filoloji elmlər doktoru, professor Ə.M.Dəmirçizadə, filoloji elmlər doktoru Ə.Ə.Orucov, Türkmənistan və Qazaxıstan SSR-nin əməkdar elm xadimi, filoloji elmlər doktoru, professor N.A.Baskakov idilər [160, s.3].

1964-cü il sentyabrın 23-24-də Azərbaycan Neft və Qaz Sənayesi Elm-Texnika Cəmiyyətinin Texnika evində Xəzər dənizinin çirkab sularından təmizlənməsinə dair Respublikalararası müşavirə keçirilmişdir. Müşavirəni Azərbaycan SSR Nazirlər Sovetinin Yerüstü və Yeraltı Su Ehtiyatlarının İstifadə və Mühafizə Edilməsi Komitəsi, elm-texnika cəmiyyətinin respublika şurası, RSFSR, Qazaxıstan SSR və Türkmənistan SSR-in müvafiq nazirlik və dövlət komitələri təşkil etmişdilər. [309, s.2].

Müşavirədə Azərbaycan SSR Nazirlər Soveti Yerüstü və Yeraltı Su Ehtiyatlarının İstifadə və Mühafizə Edilməsi Komitəsinin sədri N.Rüstəmov "Xəzərin çirkab sulardan təmizlənməsinə dair mübarizə tədbirləri", Azərbaycan SSR XTŞ texnika idarəsinin rəisi S.Qrobşteyn "Respublika XTŞ-in Xəzər sularının çirklənməsinə qarşı həyata keçirdiyi tədbirlər", respublika səhiyyə nazirinin müavini R.Cavadov "Abşeron yarımadası rayonunda Xəzər sularının sanitariya-gigiyena cəhətdən xarakteristikası və çirkab sulara qarşı mübarizə yolları", Baş Dəniz Neft İdarəsi rəisinin müavini A.Biləndərli "Xəzər dənizinin dəniz-neft mədənlərinin çirkab suları ilə çirklənməsi və Baş Dəniz Neft İdarəsinin Xəzərin təmizliyi uğrunda mübarizədə gördüyü tədbirlər" mövzusunda məruzə etmişlər [309, s.2].

Xəzər dənizinin təmizliyi naminə keçirilən müşavirədə RSFSR, Qazaxıstan, Türkmənistan respublikalarının və Dağıstan MSSR-in nümayəndələri də məruzə etmişlər.

Müşavirə iştirakçısı - Qazaxıstan SSR Suvarma Əkinçiliyi və Su Təsərrüfatı Nazirliyi Su Ehtiyatlarını Mühafizə Baş İdarəsi rəisinin müavini K.Niqmatcanov demişdir: "Respublikamızın Ural və Quryev vilayətlərinin ərazisindən keçib Xəzər dənizinə tökülən Ural çayının təmiz saxlanılması üçün yüzə yaxın sənaye

müəssisəsi nəzarət altına alınmışdır. Şərqi Qazaxıstan Xalq Təsərrüfatı Şurası su mənbələrinin çirklənməsinin qarşısını almaq üçün bəzi işlər görmüşdür. Bu isə həm müəssisələrə iqtisadi fayda vermiş, həm də çaya axıdılan suyun keyfiyyətini xeyli yaxşılaşdırmışdır. Lakin XTŞ-nin müəssisələrində təmizləyici qurğuların və kanalizasiya sistemlərinin tikintisi sürəti hələ çox zəifdir" [310, s.2].

1964-cü il oktyabrın 7-də Bakıda, Azərbaycan SSR EA-nın böyük salonunda arasıkəsilməz mühitdə elastik-plastik dalğaların yayılmasına həsr olunmuş Ümumittifaq simpoziumu öz işinə başlamışdır. Simpoziumu SSR EA-nın Riyaziyyat və Mexanika İnstitutu və Lomonosov adına Moskva Dövlət Universiteti təşkil etmişdi.

Bir neçə gün davam etmiş bu simpoziumda Moskva, Leninqrad, Kiyev, Alma-Ata, Daşkənd, Tbilisi, Bakı, Riqa, Yerevan, Kişinyov və digər şəhərlərdən gəlmiş alimlər iştirak etmişlər [378, s.4].

Azərbaycan SSR EA Geologiya İnstitutunun əməkdaşı, geologiya-minerologiya elmləri doktoru, professor H.İ.Mahmudov 1963-1965-ci illərdə Qazaxıstan SSR Aktyubinsk vilayətinin Muqoçar geoloji axtarış partiyasında əvvəlcə texnik-geoloq, sonra geoloq və 1965-1966-cı illərdə isə həmin vilayətdə "Mərkəzi geoloji axtarış partiyası"nın rəisi olmuşdur. O, Qazaxıstanın Aktyubinsk vilayətində işlədiyi dövrdə apardığı səmərəli geoloji fəaliyyətinə və bir neçə qızıl, gümüş və nadir metal yataqları aşkar etdiyinə görə Qazaxıstan Mərkəzi Geoloji Ekspedisiyasının rəhbərliyi tərəfindən 1963-cü və 1965-ci illərdə iki dəfə təşəkkürnamə və pul mükafatları ilə təltif edilmişdir [288, s.31-32].

1965-ci ildə Qazaxıstanın Manqışlaq yarımadasının Uzan sahəsində kəşfiyyat quyularının qazılmasına başlanılmışdı. Qazaxıstan Neft Birliyi Azərbaycan Elmi-Tədqiqat Neft və Qaz quyuları Qazılması İnstitutuna müraciət edərək bu işdə onlara kömək göstərilməsini xahiş etmişdir. İnstitut bu xahişi nəzərə alaraq öz əməkdaşlarından geoloq M.Hüseynov, mühəndislərdən M.Mirabdullayev, V.Rotin və A.Qukasyanı on günlüyə Manqış-

lağın Uzen sahəsinə ezam etmişdir. Mühəndislərimiz qazmanın təşkili sahəsində Qazaxıstan qazmaçılarına yaxından köməklik göstərmişlər [337, s.4].

1965-ci ilin birinci rübündə Azərbaycan SSR EA nəşriyyatı “Parazitologiya məsələləri” adlı kitab nəşr etmişdi. Onun müəllifləri Zoologiya İnstitutunun əməkdaşları idi. Kitabda Azərbaycan SSR EA-nın müxbir üzvləri M.Musayev, S.Əsədov, professorlardan H.Qasımov, N.Əbdülsəlimov, biologiya elmləri namizədlərindən A.Hacıyev, İ.Sadıqov, Q.Qasımova, S.Vahidova, N.Feyzullayev, L.Mulyarskaya və b.-nın məqalələri çap olunmuşdu.

Azərbaycanda parazitalogiya tədqiqatlarının nəticələrini əks etdirən kitab ölkə üzrə böyük maraq doğurduğundan nəşriyyat kitab üçün Moskva, Leninqrad, Kiyev, Alma-Ata, Minsk, Daşkənd və SSRİ-nin bir sıra başqa şəhərlərindən də xeyli sifarişlər almışdı [15, s.4].

1965-ci ilin payızında Azərbaycan SSR EA-nın Fizika İnstitutunda ölkə astronomlarının plenumu olmuşdur. Plenum SSRİ EA-nın Astronomiya şurasının ulduzlar və dumanlıqlar fizikası komissiyası tərəfindən çağırılmışdı. Astronomların məclisində iştirak etmək üçün Pulkovo, Krım, Burakan, Abastumani, Alma-Ata astrofizika rəsədxanalarından, eləcə də Moskva, Leninqrad, Odessa və bir sıra başqa sahələrdəki universitetlərdə işləyən 50-yə yaxın tanınmış alimlər Bakıya gəlmişdilər. Bütövlükdə isə plenumun işində ulduzlar və dumanlıqlar fizikası sahəsində işləyən 80 alim iştirak edirdi.

Tanınmış astronomiya alimlərinin plenumunda Şamaxı astrofizika rəsədxanasının ulduzlar fizikası üzrə gələcək işləri müzakirə olunmuşdur. Azərbaycan astronomu T.Ə.Əminzadənin çıxışı müsbət təsir bağışlamışdır [47, s.4].

Azərbaycan SSR EA-nın böyük salonunda keçirilən türk dillərinin dialektologiyası məsələlərinə həsr edilmiş V Müşavirənin (1965, 5-7 oktyabr) təşkilatçısı respublika EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutu idi. Müşavirədə Moskva, Leninqrad, Özbəkistan, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Taci-

kistan, Türkmənistan və Moldovanın, habelə Başqırdıstan, Tatarıstan, Çuvaşiya və Yakutiya muxtar respublikalarının dilşünas-türkoloqları iştirak edirdilər. Müşavirəyə xarici qonaqlar – Polşa EA Şərqşünaslıq İnstitutunun direktoru, akademik A.A.Zayonçkovski və macar Şərqşünası, professor G.Hazan da qatılmışdılar [178, s.4].

Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Dialektologiya şöbəsinin əməkdaşları müşavirəyə hələ 1964-cü ilin son aylarından başlayaraq hazırlıq görməyə başlamışdılar. Onlar "Türk dilləri dialektologiyası məsələləri" adlı məqalələr məcmuəsini çapa hazırlamışdılar. Məcmuəyə 33 müəllifin məqaləsi daxil edilmişdi. Bu məqalələr dialektlərin əmələ gəlməsi tarixi, dialektlərin dilçilik coğrafiyası yolu ilə öyrənilməsi və başqa mövzulara həsr olunmuşdu [174, s.2] Müşavirədə oxunacaq məruzələrin tezisləri 1965-ci ildə çap edilmişdir.

Müşavirədə azərbaycanlı alimlərdən Azərbaycan SSR EA-nın akademiki M.Ş.Şirəliyev, filoloji elmlər namizədləri N.Z.Hacıyeva, R.Ə.Rüstəmov, M.İ.İslamov, B.M.Tağıyev, Q.M.Həsənov maraqlı mövzularla çıxış etmişlər [543, s.3].

Qazaxıstandan gəlmiş alim T.Omarbekovun çıxışları da yadda qalan idi [540, s.3].

Müşavirədə Sovet İttifaqındakı türk dilləri və dialektləri atlasının yaradılması üçün Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru, Azərbaycan SSR EA akademiki M.Ş.Şirəliyevin sədrliyi ilə görkəmli alim-türkoloqlardan ibarət nüfuzlu komissiya yaradıldı.

Görkəmli dilçi alim, professor N.A.Baskakov Azər. TA-nın müxbiri ilə söhbətində atlasın yaradılmasının əhəmiyyətindən bəhs edərkən demişdir: "Atlası yaratmaqda məqsəd, nəticə etibarı ilə türk dillərinin bütün ümumi və fərdi əlamətlərinin sintezini verməkdir. Atlasın xəritələrində izoqlossalar, yəni qrammatika, fonetika, leksika sahəsində və başqa sahələrdə tipik dil xüsusiyyətlərinin yayıldığı yerlər göstəriləcəkdir. Atlasda yüzlərlə belə xəritə ola bilər. Bu işin təşəbbüsçüləri güman edirlər ki, nəticə etibarı ilə bu atlas təqribən 500 xəritədən ibarət ola-

caqdır. Lakin bu işin təşkili yeni və mürəkkəb iş olduğuna görə onu iki mərhələdə görmək, yəni əvvəlcə 50 xəritədən ibarət sınaq atlası hazırlamaq, iş qaydaya düşəndən sonra isə ikinci, əsas mərhələyə keçmək güman edilir. Hesablamalara görə, sınaq atlasının tərtib edilməsi beş il, bütün əsərin tamamlanması isə 10-12 il çəkəcəkdir” [177, s.4].

Müşavirə Bakıda Ümumittifaq elmi türkoloji jurnal nəşr etməyi məqsədəuyğun hesab etmişdir.

Bakıda keçirilən Neft və Qaz Sənayesi Elm-Texnika Cəmiyyətinin IV Ümumittifaq qurultayına (1965, 29-30 noyabr) ölkənin bütün neft rayonlarından 400-dən çox nümayəndə və qonaqlar gəlmişdi.

Öz sıralarında 82 min istehsalat yenilikçilərini, mühəndis və texniki birləşdirən ETC neft və qaz hasilatının yüksəldilməsi uğrunda, texniki tərəqqi uğrunda mübarizəyə layiqincə kömək edirdi. Cəmiyyətin üzvləri fəal surətdə elmi-tədqiqat işi apararaq mühüm, aktual problemləri həll edirdilər. Onlar təkcə, 1964-1965-ci illərdə təqribən 10 min qiymətli təklif vermişdilər. Bu təkliflərin həyata keçirilməsi nəticəsində bir neçə milyon manatlarla dövlət vəsaitinə qənaət etmişdilər [195, s.1].

Qurultayda ETC Mərkəzi idarə heyətinin sədri, SSRİ qaz sənayesi nazirinin müavini A.İ.Sarokin Mərkəzi idarə heyətinin hesabat məruzəsi ilə çıxış etmişdir.

Qurultay nümayəndələrindən Azərbaycan SSR Neftçıxarma Sənayesi Nazirliyi Geologiya İdarəsinin rəisi M.Məmmədov, Yeni Bakı neftayırma zavodunun baş mühəndisi F.Zeynalov texniki tərəqqi uğrunda mübarizə təcrübəsindən danışmış, Manqışlaq neft Birliyinin baş mühəndisi N.Smolnikov isə çıxışında demişdir ki, Qazaxıstan neftçiləri qarşılaşdıqları çətinlikləri aradan qaldırmaqla, yeni yataqlar axtarışını uğurla davam etdirir və onları istifadəyə vermək üçün hazırlayırlar. Manqışlağın böyük gələcəyi vardır, ancaq həll edilməmiş texniki problemlər, o cümlədən neftin yığılması və daşınması məsələləri neftçilərin işini çətinləşdirir. Tərkibində 30%-ə qədər parafin olan Manqışlaq nefti torpaqda temperatur 17-18 dərəcə olduqda donur. Bu isə

quyuların dayanması və neftin boru kəmərləri ilə nəqlinin pozulmasına gətirib çıxarır. Bu bəlaya qarşı səmərəli mübarizə vasitələri tapılmadığından, ona görə də məruzəçi Manqışlaq neftçilərinə kömək göstərilməsini qurultaydan xahiş etmişdir [195, s.1].

Bakıda məhkəmə ekspertlərinin elmi konfransını (1965, 1-3 dekabr) Azərbaycan SSR Nazirlər Sovetinin hüquq komissiyası təşkil etmişdi. Konfransda Ukrayna, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Ermənistan, Türkmənistan, Latviya, Litva, Moskva və Leninqrad elmi-tədqiqat institutlarının və məhkəmə ekspertizası laboratoriyalarının, habelə respublikamızın məhkəmə, prokurorluq orqanlarının və İctimai Asayişi Mühafizə Nazirliyinin işçiləri iştirak etmişdilər.

Elmi baxımdan çox mühüm əhəmiyyət kəsb edən bu konfransda elmi-texniki vasitələrin köməyi nəticəsində cinayətlərin qarşısını almaq haqqında konkret təkliflər işlənib hazırlanmışdır [189, s.3].

Azərbaycanda keçirilən Asiya və Afrika ölkələrinin Yazıçıları ilə Sovet Əlaqə Komitəsinin birgə görüşü (1966, 30 avqust) 60-cı illərdə respublikamız üçün əhəmiyyətli tədbirlərdən biri olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının birinci katibi M.İbrahimov Vyetnam xalqı ilə həmrəyliyin möhkəmləndirilməsində yazıçıların rolu haqqında məruzə etmişdir. SSRİ Yazıçılar İttifaqı idarə heyətinin katibi, qazax yazıçısı Habit Musrepov "Son illərdə sovet ədəbiyyatında milli azadlıq hərəkatı mövzusu"ndakı məruzəsində demişdir ki, çoxmillətli sovet ədəbiyyatı öz ruhu etibarı ilə yarandığı ilk gündən beynəlmiləl ədəbiyyatdır: sovet ədəbiyyatı başqalarının kədərini və məşəqqətlərini həmişə öz kədəri, öz məşəqqətləri hesab etmişdir. Milli azadlıq mübarizəsi mövzusu sovet ədəbiyyatının ilk addımlarından etibarən onun əsas mövzularından biri olmuşdur. H.Musrepov çıxışının sonunda bildirmişdir: "Bizim borcumuz imperializmə qarşı, öz suveren hüquqlarını qoruyan xalqları müdafiə etmək uğrunda mübarizədə daha fəallıqla, öz silahımızla – sözün gücü ilə iştirak etməkdən ibarətdir" [567, s.1].

Asiya və Afrika ölkələrinin Yazıçıları ilə Sovet Əlaqə Komitəsinin birgə tədbirlərində yazıçılarla bərabər, ədəbiyyatşünas alimlər, tənqidçilər də iştirak etmiş, sovet ədəbiyyatında milli azadlıq hərəkatı mövzusunun işıqlandırılmasından söhbət açmışlar.

1966-cı ilin payızında Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində fiziki-coğrafi rayonlaşdırma məsələlərinə dair Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransda iştirak edən coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov tanınmış coğrafiyaşünas alimlər – S.V.Kərimov, M.A.Museyibov və N.Ş.Şirinov ilə birgə yazdıqları "Azərbaycanın fiziki və coğrafi cəhətdən rayonlaşdırılması" mövzusunda məruzə etmişdir [125, s.136].

1966-cı ilin dekabrında Bakıda I Türkoloji qurultayın çağırılmasının 40 illiyi münasibəti ilə təşkil edilmiş Ümumittifaq türkoloqlar konfransı geniş coğrafiyada yaşayan türk dünyasının alimləri üçün böyük əhəmiyyət kəsb edirdi. Dörd gün çəkən yubiley konfransı 40 il ərzində sovet türkologiyasının keçdiyi yola yekun vurmuşdur. Burada söylənilələcək məruzələr iki bölmə ətrafında qruplaşdırılmışdı: 1. 40 il ərzində görülmüş işlərin yekunlarına həsr edilmiş məruzələr. 2. Dil mədəniyyətinin vacib problemləri və türk dillərinin orfoqrafiyasını təkmilləşdirmək məsələsi ilə əlaqədar olan məruzələr.

Konfransda bütün türk dilli respublikalardan, o cümlədən Qazaxıstandan gəlmiş nümayəndələr də iştirak etmişdir.

Türk dillərinin əlifbalarını təkmilləşdirmək məsələləri konfransın işində xüsusi yer tuturdu. Son illər "Türk dillərinin müqayisəli qrammatikasına dair tədqiqat", "Türk dilləri", "Sovet İttifaqındakı türk dillərinin dialektləri" və başqa tədqiqatlar kimi samballı əsərlər sovet türkologiyasının böyük uğurlar qazandığını təsdiqləyirdi. Çoxlu türkoloq kadrlarının yetişdirilməsi müsbət hal idi.

Konfransda Azərbaycan dilinin izahlı lüğətinin birinci cildinin buraxılması böyük nailiyyət hesab edilmiş, hazırda Azərbaycan dilşünaslığının sovet türkologiyasında görkəmli yer tutduğu xüsusi vurğulanmışdır [539, s.2].

Bakıda keçirilən “Böyük oktyabr sosialist inqilabı və Asiya, Afrika, Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı” mövzusundakı Beynəlxalq konfrans (1967, 19-22 sentyabr) ölkənin nüfuzlu alimləri və ictimai-siyasi xadimlərini bir araya gətirmişdi. Konfransı SSRİ Elmlər Akademiyası, Asiya və Afrika Ölkələri Sovet Həmrəylik Komitəsi, habelə respublikaların elmlər akademiyaları təşkil etmişdilər. Dörd qitə xalqlarını təmsil edən elçilər arasında xarici ölkələrin alimləri, ictimai və siyasi xadimləri də az deyildi [400, s.1].

Konfransda iştirak edən Qazaxıstan EA Tarix İnstitutunun direktoru A.N.Nusupbekov çıxışında Orta Asiya respublikalarında və Qazaxıstanda iqtisadiyyatın sosialistcəsinə yenidən qurulmasının beynəlxalq əhəmiyyətindən danışmışdır [433, s.1].

Konfrans müddətində nümayəndələr M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Əfrasiyab Bədəlbəylinin “Qız qalası” baletinə tamaşa etmiş [433, s.1], sentyabrın 22-də, məclisin bağlandığı gün əlamətdar hadisədən yadigar olaraq xiyaban salmaq üçün Dənizkənarı parka gələrək “Həmrəylik xiyabanı” yaratmış və burada çoxlu sayda eldar şamı, sərv, zeytun və yukka ağacları əkmişlər [285, s.1].

1967-ci ilin dekabrında Bakıda Azərbaycan qadınlarının III qurultayı oldu. Qurultayda iştirak edən Qazaxıstan EA-nın akademiki N.Bazanova qurultayı salamlayaraq, qazax qadınlarının müxtəlif sahələrdə əldə etdikləri nailiyyətlərdən söhbət açmış, iki respublika arasında iqtisadi, ictimai, elmi və mədəni əlaqələrin genişlənməsində qadınların mühüm rol oynadığını qeyd etmişdir. O, bundan sonra da Azərbaycan və qazax qadınlarının xalqlar arasındakı əlaqələrin daha da möhkəmləndirilməsində daha fəal olacaqlarına əminliyini bildirmişdir [431, s.2].

1968-ci ildə Alma-Ata şəhərində qazax coğrafiyaçılarının IV Respublika elmi konfransı olmuşdur. “Qazaxıstanın təbii və iqtisadi-coğrafi rayonlaşdırılması problemləri” mövzusundakı bu konfransda iştirak edən tanınmış azərbaycanlı alim, coğrafiya elmləri doktoru B.Ə.Budaqov İ.E.Mərdanovla birgə yazdıqları

“Azərbaycan SSR çaylarının sel hövzələrinin rayonlaşdırılması” mövzusunda məruzə etmişdir [125, s.136].

Bakıda keçirilən respublika gigiyena işçiləri və sanitariya həkimlərinin II qurultayının (1968, 14-17 oktyabr) gündəliyində sənaye müəssisələri əməkçilərinin, şəhər və kənd yaşayış qəsəbələri sakinlərinin cansağlığının qorunmasına dair aktual problemlər öz əksini tapmışdı. Respublikamızın hər yerindən gəlmiş nümayəndələrdən başqa, qurultayda qonaqlar – Moskva, Leninqrad, Ukrayna, Zaqafqaziya və Orta Asiya respublikalarından, o cümlədən Qazaxıstandan gəlmiş tibb işçiləri, alimlər də iştirak etmişdilər.

Ümumi iclasda Azərbaycan SSR Səhiyyə nazirinin birinci müavini R.B.Cavadov “Gigiyena elmi və sanitariya işi sahəsində Azərbaycan SSR səhiyyə orqanlarının fəaliyyətinin yekunları və onların növbəti vəzifələri” mövzusunda məruzə etmiş, dörd gün çəkən qurultay müddətində çoxlu sayda məruzələr oxunmuş və müzakirələr aparılmışdır [59, s.1]. Qurultay nümayəndələrinin ayrı-ayrı xəstəxanalarla tanışlığı, sənaye müəssisələrində əməkçilərlə görüşü və sanitariya, gigiyena mövzularındakı söhbətləri maraqla qarşılanmışdır.

Alma-Ata şəhərində olmuş Ümumittifaq cərrahlar cəmiyyətinin X Plenumunda (1968, 14-18 oktyabr) Ə.Əliyev adına ADHTİ-nin cərrahlıq kafedrasının müdiri, professor H.C.Hacıyev iştirak etmiş və cərrahiyə sahəsinin aktual problemləri üzərində qurulmuş məruzəsi maraqla qarşılanmışdır [461, v.178].

Azərbaycanın tanınmış alimləri Qazaxıstanda elmi işlərin təşkili və müdafiə olunmasında daim yadda qalası xeyirxah addımlarını atır və bu istiqamətdə səylərini daha da genişləndirməyə çalışırdılar. 1968-ci ildə Alma-Ata şəhərində qazaxıstanlı alim T.K.Kojakayev “Qazax satirası” mövzusunda dissertasiya müdafiə edərək, filoloji elmlər doktoru adını almışdır. Onun dissertasiyasının rəsmi opponentlərindən biri də Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış akademik H.M.Araslı idi [283, s.183].

Azərbaycan-Qazaxıstan elmi əlaqələrində tələbələrin elmi konfransları da əhəmiyyətli rol oynayırdı.

Bakıda uşaq cərrahiyəsi kafedraları yanında yaradılmış tələbə elmi dərnəklərinin XII Ümumittifaq konfransı (1969, 15-18 aprel) dediklərimizi təsdiqləyən mühüm və dəyərli bir addım idi. Belə elmi görüşlərin təşəbbüsçüsü sovet ölkəsinin tanınmış uşaq cərrahı, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü S.D.Ternovski idi. Qəbul edilmiş ənənəyə görə növbəti görüşü keçirmək hüququnu o institut qazanırdı ki, əvvəlki konfransda həmin ali məktəbin məruzələri daha çox mükafat almış olurdu. Gələcək uşaq cərrahlarının respublikamızın paytaxtına toplaşması da, uğurlarımızın nəticəsi idi. İndi ölkənin 34 ali məktəbinin nümayəndə heyətləri Bakıya gəlmişdir ki, bu da Odessada keçirilmiş əvvəlki konfransda iştirak etmiş nümayəndə heyətlərinin sayından iki dəfə çox idi [271, s. 4].

Konfransda iştirak etmək üçün Moskva, Leninqrad, Kiyev, Minsk, Alma-Ata, Tbilisi, Kişinyov, Frunze, Riqa, Kazan, Ufa, İvanova, Tomsk, Donetsk, Xarkov, Karaqanda, Qorki, Omsk, Odessa, Sverdlovsk, Lvov, Simferopol ali tibb məktəblərinin tələbələri, uşaq cərrahiyəsi kafedralarının müdirləri və başqaları gəlmişdilər [529, s.4]. Qonaqlar arasında Orta Asiya respublikaları alimlərindən professor G.Tahirov, professor A.Pulatov, Alma-Ata Tibb İnstitutunun uşaq cərrahiyəsi kafedrasının müdiri, dosent K.S.Ormantayev və digərləri var idi [238, s.3].

Konfransın gündəliyində travmatik zədələnmələr zamanı uşaqlara göstərilən tibbi yardımın yüksək səviyyədə həyata keçirilməsi mövzusu başlıca yer tuturdu. Bu konfransa Azərbaycan Dövlət Tibb İnstitutunun uşaq cərrahiyəsi kafedrası 15 məruzə təqdim etmişdi. Onlardan pediatriya fakültəsinin V kurs tələbəsi A.Hüseynova “Dalağın zədələnmələrində kliniki müayinə və cərrahi müalicə”, VI kurs tələbəsi M.İsmayılova “Uşaqlarda travmatik şokun xüsusiyyəti və müalicəsi” mövzuları olduqca maraqlı görünürdü [238, s.3].

Alma-Ata Tibb İnstitutunun tələbəsi Hasen Kojaxanovun çıxışı da müsbət təsir bağışlamışdı. Bu barədə həmin institutun

uşaq cərrahiyəsi kafedrasının müdiri, dosent K.S.Ormantayev Azər. TA-nın müxbiri ilə söhbətində demişdir: “Kafedramızın əməkdaşları kəllə-beyin zədələnməsi problemləri ilə məşğuldurlar. İndiki konfransda bizim dərnəyin üzvünün bu məsələlərə həsr olunmuş məruzəsi yaxşı qarşılanmışdır” [184, s.3].

Azərbaycan SSR EA-nın iclas salonunda keçirilən gənc astronomların I Ümumittifaq konfransı (1969, 8 iyul) da gənclərin elmə marağının artırılması və onların bu istiqamətdə meyllərdirilməsinin gücləndirilməsi işinə xidmət edirdi. Konfransda Ukrayna, Qazaxıstan, Gürcüstan, Moldava, Türkmənistan, Qırğızıstan, Estoniya, Moskva, Leninqrad, Omsk, Xabarovsk, eləcə də başqa respublika və şəhərlərdən gəlmiş gənc astronomların nümayəndələri iştirak edirdilər [332, s. 4].

Ölkənin tanınmış astronom və alimləri gənc astronomlar qarşısında maraqlı məruzələrlə çıxışlar etmiş və sonra konfrans öz işini Şamaxı astrofizika rəsədxanasında davam etdirmişdir.

Özbəkistanın Səmərqənd şəhərində heyvan xəstəliklərinin təbii mənbəyi və parazitologiyanın ümumi məsələlərinə dair VII Ümumittifaq konfransını (1969, 14-16 oktyabr) Özbəkistan və Qazaxıstan elmlər akademiyaları və Özbəkistan SSR Kənd Təsərrüfatı Nazirliyi təşkil etmişdilər.

Konfransda iştirak edən Azərbaycan SSR EA Zoologiya İnstitutunun direktoru, akademik M.Musayev, həmin institutun akarologiya laboratoriyasının müdiri, biologiya elmləri doktoru A.Hacıyev və kiçik elmi işçi T.Dubovçenko maraqlı mövzularla məruzə etmişlər [16, s.4].

Bakıda olmuş “Mikroelementlər təbabətdə və heyvandarlıqda” mövzusunda Respublika elmi konfransı (1969, 12-14 noyabr) da öz aktuallığı ilə seçilirdi. 60-a yaxın məruzələrin dinlənildiyi bu konfransda Azərbaycan alimləri ilə bərabər, RSFSR, Ukrayna, Özbəkistan, Qazaxıstan və Qırğızıstan alimlərinin nümayəndələri də iştirak etmişdilər [468, s.1].

1969-cu il noyabrın 24-28-də Bakıda milli məktəblərdə rus dilinin tədrisi məsələlərinə dair Ümumittifaq elmi-metodik konfrans keçirilmişdir. Konfransı SSRİ Maarif Nazirliyi və

SSRİ Pedaqoji Elmlər Akademiyası təşkil etmişdi. Müəllimlərlə birlikdə konfransda müttəfiq respublikaların xalq maarifi orqanlarının rəhbər işçiləri, elmi-tədqiqat pedaqoji idarələrin əməkdaşları, Bolqarıstan və Macarıstandan gəlmiş qonaqlar da iştirak edirdilər [406, s.3].

Konfransda SSR Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü M.İ.Kondakov "Milli məktəb quruculuğunda Lenin ideyalarının həyata keçirilməsi", Azərbaycan SSR maarif naziri, SSR Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü M.M.Mehdizadə "Milli məktəblərin şagirdlərinin təlimi və tərbiyəsi sistemində rus dilinin əhəmiyyəti", SSR EA Rus Dili İnstitutu direktorunun müavini, SSR Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü İ.F.Protçenko "Dillərin qarşılıqlı əlaqəsi və onların ictimai funksiyalarının nisbəti", SSR Pedaqoji Elmlər Akademiyası Milli Məktəblər İnstitutunun direktoru R.K.Çernikov "Milli məktəblərin şagirdlərinə rus dili təlimi metodikasının aktual problemləri" mövzularında məruzələr etmişlər [405, s.3].

Milli məktəbdə rus dilinin tədrisi məsələlərinə dair I Ümumittifaq elmi-metodiki Bakı konfransının iştirakçısı, Alma-Atadakı 4 saylı internat-məktəbin rus dili müəlliməsi, Sosialist Əməyi Qəhrəmanı Rəfiqə Nurtazina qabaqcıl iş təcrübəsindən danışmış və milli məktəblərdə rus dilinin tədrisinin daha da yaxşılaşdırılmasına dair öz təkliflərini bildirmişdir [405, s.3].

Əlbəttə, belə konfranslar alimləri və pedaqoji işçiləri bir araya gətirmək və müəyyən problemlər ətrafında fikirlərini bölüşmələri yaxşı idi. Ancaq bu, milli dillərin sıxışdırılması və rus dilinin şüurlu şəkildə onların assimilyasiya alətinə çevrilməsi baxımından, heç də, yaxşı nəticə göstəricisi deyildi.

1969-cu ildə Alma-Ata şəhərində neft kimyası üzrə I Respublika elmi konfransı (Azərbaycandan bu konfransda neft kimyası və üzvi kimya sahəsində tanınmış alim V.M.Fərzəliyev tədqiqatçı alimlər - A.M.Quliyev, İ.İ.Namazov, F.Q.Süleymanov, A.M.Levşina və A.Y.Vedeneyevlə birgə yazdıqları "Neft kimya sintezinin məhsulları əsasında sürtkü yağlarına yüksək effektli polimer asqarların alınması" mövzusunda məruzə etmişdir)

[566, s.16, 214], “Bəzi xəstəliklərin təbii ocaqları” mövzusunda VII Ümumittifaq elmi konfransı (Konfransa qatılan biologiya elmləri doktoru, professor İ.Ə.Sadıqov “Azərbaycanda heyvanların və insanların bəzi əsas biohelminthiosislərinin təbii fokusu” mövzusunda məruzə etmişdir) [320, s.34], Mərkəzi Asiya və Qazaxıstan respublikaları fizioloqlarının IV Elmi konfransı (Konfransda tanınmış azərbaycanlı alim, biologiya elmləri doktoru, professor Ş.K.Tağıyev “Mədə reseptorlarının təkrar stimullaşdırılmasının qandakı şəkər və leykositdə qlikogen səviyyəsinə təsiri” mövzusunda məruzə etmişdir) [510, s.34] və coğrafiyaşünasların (24-29 dekabr) Xəzərin coğrafi problemlərinə dair elmi konfransı (Konfransda iştirak edən coğrafiya elmləri doktoru, professor A.A.Məqamzadə və coğrafiya elmləri namizədi M.Ə.Cabbarov birgə yazdıqları “Xəzər dənizində meh küləkləri haqqında” mövzusunda məruzə etmişlər) [86, v.62] olmuşdur.

1969-cu ilin dekabrında qazaxıstanlı tədqiqatçı Q.D.Seytkazin Azərbaycan Dövlət Tibb İnstitutunun Elmi Şurasında “Eleutherococcus və dibazolun transplantasiya olunmuş və yağdan qaynaqlanan şişlərə təsiri barədə” mövzusunda uğurla dissertasiya müdafiə edərək tibb elmləri namizədi adını almışdır. Dissertasiya Qazaxıstan SSR Səhiyyə Nazirliyinin Qazaxıstan Onkologiya və Radiologiya Elmi-Tədqiqat İnstitutunun “Kanserogenez və xərçəngin qarşısının alınması laboratoriyası”nda böyük elmi işçi, tibb elmləri namizədi M.A.Karimovun elmi rəhbərliyi altında həyata keçirilmişdi. Elmi əsərə aparıcı müəssisə olaraq Ə.Əliyev adına ADHTİ müsbət rəy vermişdi. Dissertantın rəsmi opponentləri N.Nərimanov adına ADTİ-nin professorları Q.B.Allahverdibəyov və D.Q.Təqdisi idilər [682, c.1-2].

XX əsrin 60-cı illərində Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) “Azərbaycan SSR EA Xəbərləri”nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Qazaxıstan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Həmçinin Qazaxıstan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin dövrdə Akademiyada nəşr edilən bütün elmi jurnalları və keçirilən elmi

konfransların materiallarını azərbaycanlı həmkarlarına göndərmişdir [70].

Əlbəttə, 1960-1969-cu illərdə Azərbaycan-Qazaxıstan elmi əlaqələri bütün sahələrdə olmasa da, müəyyən beynəlxalq və ya ümumittifaq tədbirlər çərçivəsində əlaqələnməklə genişlənirdi. Elmsiz inkişaf ola bilməz. Elmi əlaqələr həmişə vacibdir. Çünki elm həyat həqiqətlərinin dərkinə, sülh və dostluq münasibətlərinin möhkəmlənməsinə, hər şeydən öncə isə, bəşəriyyətin tərəqqi və yüksəlişinə xidmət edir. Məhz, Azərbaycan-Qazaxıstan elmi əlaqələrinin ildən-ilə genişlənməsi də, bu müqəddəs amallara xidmət etməkdən irəli gəlirdi.

Əlbəttə, yuxarıda sadaladığımız elmi konfrans, simpozium və digər irili-xırdalı mühüm elmi tədbirlərin keçirilməsi yaxşı haldır. Hər şeydən əvvəl, alimləri bir araya gətirir, yeni tanışlıqlara, yeni yaradıcılığa, genişlənən əlaqələrə stimul verir. Çap olunmuş məqalə, kitab və digər nəşrlərin yayılmasına səbəb olur. Yeni tədqiqat problemləri ətrafında düşüncə formalaşdırır. Ancaq birgə tədqiqata, ciddi problem qoyuluşunun birgə həllinə sarı, nədənsə addımlar atılmırdı. Tanınmış alimlərin ciddi problemlər ətrafında birgə səyinə, bir araya gəlmələrinə, elmi fikir və düşüncələrinin birgə bölüşdürülməsinə imkan verməsi ortaq ehtiyac qapıları, nədənsə, çox zaman bağlı saxlanılırdı. Elmi ezamiyyətlərə, tanınmış alimlərin auditoriyalarda açıq mühazirələrinin genişləndirilməsinə daha çox ehtiyac var idi. Böyük elmi tədbirlər tədbir xatirinə yox, ciddi elmi təklif, irad göstərməklə diqqətin daha çox o istiqamətə yönəldilməsi xatirinə keçirilməli idi. Ciddi təkliflər qərarlaşdırılmalı və dövlətin elmi maliyyələşdirməsi məhz o istiqamət əsasında qurulmalı idi. Elmi siyasətə, ideologiyaya xidmət etməyə yox, böyük həqiqətləri idrak, düşüncə müstəvisində həll etməyə istiqamətləndirmək lazım idi. Təəssüf ki, Sovetlər sistemi elə bil ki, gizli əl tərəfindən - "dərin dövlət" deyilən dövlət tərəfindən məqsədli şəkildə idarə olunurdu. Onlar tədqiq etdiyimiz bu respublikalarda yaşayan eyni kökdən olan xalqların bir-birinə çox yaxınlaşmasını istəmirdilər. Bu respublikaların slavyansoylu və xristian dininə mənsub respubli-

kalarla daha çox bağlanmasına, əlaqələrinin dərinləşdirilməsinə çalışırdılar. Türkdilli respublikalara sadəcə xammal mənbəyi kimi yanaşdıqlarından, simvolik formada olsa da, "yuxarı"nın maraqları istiqamətində öz işlərini qururdular. Həm də, yazılmamış bir fikri, ideyanı türkdilli xalqlara təlqin edirdilər ki, slavyansoylu və xristian mənşəli xalqlar daha çox səviyyəli və inkişaf etmiş xalqlardır ki, onlara tərəf üz tutmaq, onlardan öyrənmək lazımdır. Bu fikri və fərqi milli elmlər akademiyalarına ayrılan illik büdcələrin məbləğindən də aydın görmək olurdu.

### 1.3. 1970-ci illərdə elmi əlaqələr

XX yüzilliyin 70-ci illərində Azərbaycan-Qazaxıstan elmi əlaqələri öz inkişafında daha əhəmiyyətli və keyfiyyətcə zəngin bir mərhələyə daxil oldu. Elmi təşkilatların fəaliyyəti təkmilləşdirildi, elm və texnologiyanın nailiyyətlərindən milli iqtisadiyyatda daha geniş şəkildə istifadə edilməyə başlandı. Ölkədə ilk dəfə olaraq, Dövlət planı tərtib edilərkən milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsi planlaşdırıldı. Bu bir növ, həm də elmi-texniki inqilab və elmin istehsalatla qovuşması, birləşməsi demək idi [596, s.216].

Ölkə üzrə neft yataqlarının işlənməsiylə əlaqədar XX əsrin 60-cı illərində Azərbaycan SSR EA-nın Yer elmləri bölməsində Mərkəzi İnkişaf Komissiyası (MİK) yaradılmışdı. Komissiyanın üzvləri ölkəmizin ayrı-ayrı bölgələrində neft istehsalı ilə məşğul olan 24 yataq üçün texnoloji sxemləri və inkişaf layihələrini nəzərdən keçirirdilər. 1970-ci ildə nəzərdən keçirilən həmin 24 yataqdan 2-si Qazaxıstanda (Uzen, Kenkiyak), 1-i Qırğızıstanda, 1-i Türkmənistanda (Barsa-Gəlməz), 1-i Azərbaycanda və 19-u ölkənin ayrı-ayrı bölgələrində (Tatarıstan, Çeçen-İnquşetiya MSSR, Ukrayna SSR, Kuybışev vilayəti, Orenburq vilayəti, Perm vilayəti, Başqırdıstan, Krasnodar ölkəsi, Volqoqrad vilayəti, Saxalin) yerləşirdi [577, v.5-10].

1970-ci ildə müasir Azərbaycan ədəbiyyatşünaslığının tanınmış nümayəndəsi, filologiya elmləri doktoru A.C.Rüstəmovanın "Qutadqu bilik" və "Camu cəm" elmi məqaləsi qazax di-

lində Qazaxıstan SSR-in "Kommunizmə doğru" qəzetində (1970, 21 oktyabr) çap olunmuşdu [55, s. 129].

Böyük pediator, alim, tibb elmləri doktoru, professor A.Ə.Namazova 1970-ci ildə pediatriyanın problemləri ilə bağlı Alma-Ata şəhərində keçirilən Ümumittifaq elmi konfransında "Atrialseptal qüsurların diaqnozunda kardioqrafik paralellərin kliniki və elektrovektorial dəyəri" mövzusunda məruzə etmişdir. Konfransı SSRİ Tibb Elmlər Akademiyası, Rusiya Səhiyyə Nazirliyinin qan dövranı Patalogiyası İnstitutu və Qazaxıstan SSR-in Səhiyyə Nazirliyi birgə təşkil etmişdilər [3, s.85].

Azərbaycan SSR-in tanınmış cəmiyyətşünas alimi, fəlsəfə elmləri doktoru, professor Ə.F.Daşdəmirov 1970-ci ildə Qazaxıstanın Alma-Ata şəhərində "Leninizm və dünya milli-azadlıq hərəkatının problemləri" mövzusunda keçirilmiş Beynəlxalq simpoziumun iştirakçısı olmuş və orada "Milli dirçəlişin və anti-müstəmləkə hərəkatın tarixi proseslərində ümumi və xüsusi cəhətlər" adlı məruzə ilə çıxış etmişdir [200, s.53].

1970-ci ildə qazaxıstanlı alim K.H.Kasimova Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Elmi Şurasında "Hamilə qadınlarda arterial hipotoniyanın müxtəlif formaları və belə hallarda ciftin morfoloji-histoximik dəyişiklikləri" mövzusunda uğurla dissertasiya müdafiə edərək tibb elmlər namizədi alimlik dərəcəsi almışdır. Dissertasiya aspirantı olduğu bu institutun mama-ginekologiya kafedrasında və N.Nərimanov adına ADTİ-nin Mərkəzi elmi-tədqiqat laboratoriyasında yerinə yetirilmişdi. Dissertasiyaya Əbu-Əli ibn Sina adına Tacikistan Dövlət Tibb İnstitutunun mama-ginekologiya kafedrası aparıcı müəssisə kimi müsbət rəy vermişdi.

Tədqiqatçı K.H.Kasimovanın elmi rəhbərləri tibb elmləri doktorları, professorlar M.K.Mahmudbəyova və A.R.Atakişiyev, rəsmi opponentləri isə tibb elmləri doktoru, professor L.X.Məmmədbəyova və tibb elmləri namizədi, dosent M.S.Seyidova idilər [639, s.1-2].

Ə.Əliyev adına ADHTİ-nin əməkdaşı, tibb elmləri namizədi T.Xasıyeva 1971-ci il yanvarın 14-18-də Alma-Ata şəhərin-

də elmi ezamiyyətdə olmuşdu. Onun ezamiyyətinin əsas məqsədi Qazaxıstan Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahiyyə kafedrasının işi ilə tanış olmaq və lazımi məsləhət və tövsiyyələrini əsirgəməmək idi [222, v.25].

1971-ci ildə Qazaxıstanın paytaxtı Alma-Ata şəhərində SSRİ torpaqşünaslarının IV Ümumittifaq qurultayında Azərbaycan alimlərini H.Ə.Əliyev, M.P.Babayev, Q.A.Salmanov, M.R.Abduyev, S.Xəlilov və İ.İ.Mehrəliyev təmsil etmişdilər [660, v.16].

Qurultayda Azərbaycan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmləri doktoru, professor H.Ə.Əliyev Q.A.Salamovla birgə yazdıqları "Böyük Qafqazın (Azərbaycan SSR) Cənub yamacında bitki icmalarının fitomass paylanması və bitkilərin torpaq əmələ gəlməsində rolu" [289, s.38-39], Azərbaycan SSR EA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru M.P.Babayev, M.E.Salayev və N.Qasımovla birgə yazdıqları "Azərbaycan SSR-in mədəniləşmiş torpaqlarının nomenklaturası və diaqnostikası (quru-bozqır zonası şəraitində)" [379, s.10] və kənd təsərrüfatı elmləri doktoru M.R.Abduyev "Çətin meliorasiya olunan şorlaşmış torpaqların yaxşılaşdırılması üsulları" [409, s.60] mövzularında məruzə etmişlər.

Bakıda "Milli azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri" mövzusunda 1971-ci il oktyabrın ayının 20-22-də keçirilən Ümumittifaq elmi konfransı SSRİ EA-nın xarici ideoloji cərəyanlar problemləri üzrə Elmi Şurası və Azərbaycan SSR EA-nın ictimai elmlər şöbəsi təşkil etmişdi [386, s.1].

Konfransın əvvəlcə 3 bölmə üzrə 1971-ci il oktyabrın 11-14-də keçirilməsi planlaşdırılmışdı. Lakin təşkilati məsələlərlə əlaqədar bir həftədən sonra 4 bölmə (1.Milli-azadlıq hərəkatı və imperializmin ideologiyasına qarşı mübarizə. 2.Milli-azadlıq hərəkatı və qeyri-kapitalist inkişaf yolu konsepsiyaları. 3.Müasir milli azadlıq hərəkatında ideoloji cərəyanlar. 4.Milli azadlıq hərəkatında sol opportunist konsepsiyalardan antikommunizmin istifadə etməsi) üzrə öz işini davam etdirmişdir [110, v.5].

Konfransda 67 məruzə dinlənilmiş və onların ətrafındakı müzakirələrdə çoxlu sayda çıxışlar olmuşdur. Qazaxıstan SSR EA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, tarix elmləri namizədi T.J.Cangəldin 3-cü bölmənin iclasında "Neokapitalist inkişaf kontekstində mədəni inqilabın xüsusiyyətləri" mövzusunda məruzə etmişdir [110, v.16].

Bakı konfransında Azərbaycan alimlərindən hüquq elmləri doktoru M.M.Ələsgərov, fəlsəfə elmləri doktoru A.M.Agahi, fəlsəfə elmləri doktoru A.A.Əminzadə, tarix elmləri doktoru H.Z.Əliyev, tarix elmləri namizədləri H.M.Sultanov, Y.A.Bağırov, H.Z.Əfəndiyeva, İ.R.Hatəmi, fəlsəfə elmləri namizədləri E.Y.Həsənov, E.E.Zamanov və b. bölmələrin dördündə də elmi baxımdan aktual və mühüm əhəmiyyət kəsb edən məruzələr etmişlər [110, v.10-19, 180-184].

Azərbaycan və qazax alimləri digər respublikalarda keçirilən elmi tədbirlərdə də tez-tez görüşür, elmi fikir mübadilələri edir, dostluq əlaqələrini möhkəmləndirir və yeni elmi işləri, elmi nəticələri ilə biri-birlərini məlumatlandırırdılar.

1971-ci ilin oktyabrında Özbəkistanın Fərqanə şəhərində XI əsrin görkəmli türkoloqu Mahmud Kaşqarinin "Divani lüğət-ət-türk" əsərinin 900 illiyi münasibəti ilə sovet türkoloqlarının Ümumittifaq konfransı keçirilmişdir.

Ölkə türkoloqlarının bu ali məclisində Leninqrad, Daşkənd, Aşqabad, Frunze, Kazan, Ufa, Səmərqənd və başqa şəhərlərdən gəlmiş 100-dən çox nümayəndə iştirakçılar arasında Bakı və Alma-Ata alimləri də var idi.

Azərbaycan nümayəndələrindən Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktoru, "Sovetskaya türkologiya" jurnalının baş redaktoru, akademik M.Şirəliyev, Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Dəmirçizadə, Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktorunun müavini, professor M.Rəhimov və ADU-nun türkologiya kafedrasının müdiri, professor F.Zeynalov dilçilik elmimizi bu konfransda ləyaqətlə təmsil etməklə yanaşı, Azərbaycan-Qazaxıstan elmi əlaqələrinə də böyük töhfələr verirdilər [538, s.4]. Onlar qazax alimləriylə də görüşlər ke-

çirmiş və onların türkologiya elmi istiqamətində araşdırmaları ilə tanış olmaqla yanaşı, fikir mübadiləsi də aparmışlar.

1972-ci il yanvarın 24-də iqtisadçı alim Ş.M.Muradov Azərbaycan SSR EA İctimai Elmlər bölməsinin İqtisadiyyat elmləri seksiyasının Elmi Şurasında “Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri” mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. Onun Alma-Ata Xalq Təsərrüfatı İnstitutuna göndərilmiş avtoreferatına həmin institutun xalq təsərrüfatının planlaşdırılması kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor T.Saukenbayev 1971-ci il noyabrın 10-da müsbət rəy yazmış və elmi aktuallığı baxımından əsəri çox yüksək qiymətləndirmişdir [507, s.13, 294].

1972-ci il aprel ayının 20-21-də Azərbaycan SSR EA-nın Dilçilik İnstitutunda SSRİ-də türk dillərinin dialektoloji atlasının tərtib edilməsi məsələsinə dair müşavirə keçirilmişdir. Müşavirənin işində 15 müttəfiq, muxtar respublika və vilayətlərdən, eləcə də Moskvadan gəlmiş çoxlu sayda dilçi alimlər, türkoloqlar iştirak etmişdir. Müşavirədə məruzə edən nümayəndələr arasında Alma-Ata şəhərindən gəlmiş professor S.K.Kelesbayev və Azərbaycan alimləri, akademik M.Ş.Şirəliyev və filoloji elmlər namizədi M.İ.İslamov da var idi [532, v.137].

1972-ci ilin aprelində qazaxıstanlı tədqiqatçı A.S.Derovets Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurasında “Qazaxıstan ərazisində selin əmələ gəlməsi və onun hesablama metodikası” mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi elmi dərəcəsi almışdır.

Dissertasiya S.Y.Juka adına Hidrolayihə İnstitutunun Qazaxıstan filialında yerinə yetirilmişdi. Aparıcı elmi müəssisə kimi dissertasiyaya Zaqafqaziya elmi-tədqiqat Hidrometeorologiya İnstitutu və “Kazhidrosutəsərrüfatı” layihə İnstitutu müsbət rəy vermişdilər.

Dissertasiyanın rəsmi opponentləri coğrafiya elmləri doktoru, professor S.Q.Rüstəmov və coğrafiya elmləri namizədi S.A.Axundov idilər [619, s.1-2].

1972-ci ildə Alma-Atada asetilenlər kimyasına dair kimyaçı alimlərin IV Ümumittifaq konfransı keçirilmişdir. Konfransda iştirak edən Azərbaycan SSR EA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor M.Ə.Məmmədyarov E.B.Abdullayev, B.Y.Trufel, M.M.Hüseynov, İ.M.Əhmədov və M.Q.Vəliyev ilə birgə yazdıqları "Asetilen sırasının tsiklik epoksid birləşmələri ilə fenol-formaldehid qətranlarının modifikasiyası" [181, s.10, 80] Azərbaycan SSR EA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor S.F.Qarayev "B-Al kinollar" [494, s.7, 66] Azərbaycan SSR EA-nın müxbir üzvü, kimya elmlər doktoru, professor M.M.Mövsümzadə S.F.Qarayev, M.Ələsgərov və N.A.Ağamirzəyev ilə birgə yazdıqları "Bəzi tsiklik B-asetilenlərin alkaqolla çevrilməsinin sintezi və xüsusiyyətlərinin öyrənilməsi" [383, s.120] mövzularında məruzələr etmişlər.

Azərbaycan Neft və Kimya İnstitutunun yetirməsi, neft və qaz quyularının qazılması sahəsində böyük mütəxəssis, Azərbaycan SSR-in əməkdar mühəndisi (1960-cı il), SSRİ-nin fəxri neftçisi (1971-ci il), texnika elmləri namizədi (1972-ci il) Əsəd Rüstəmbəyov (1911-1982) dərin, çox dərin qazımanın texnologiyası məsələlərinə dair dəyərli elmi tədqiqat işləri ilə tanınırdı. O, 60-cı və xüsusən, 70-ci illərdə Qazaxıstan SSR, Özbəkistan SSR, Qırğızıstan SSR, həmçinin digər rayonların neft mütəxəssislərinə yeni texnika və texnologiyanın tətbiqi sahəsində xeyliköməklik göstərmişdir [42, s.235].

1972-ci ildə Türkmənistanın paytaxtı Aşqabadda YUNESKO xətti ilə keçirilən Mərkəzi Asiya ölkələrinin ictimai və mədəni inkişafı problemlərinə dair Beynəlxalq konfransda iştirak edən Azərbaycan SSR EA-nın akademiki, tarix elmləri doktoru, professor Ə.S.Sumbatzadə "Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə elmi və mədəni əlaqələri" mövzusunda məruzə etmişdir. Məruzədə Qazaxıstanla əlaqələrə də yer verilmişdi. [250, s.18, 54].

Həmin ildə Bakıda "Sovet Şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" mövzusunda keçirilmiş Ümumittifaq müşavirəsində (16-19 oktyabr) Azərbaycan alimləri ilə yanaşı,

Moskva, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Tatarıstan və Başqırdıstan nümayəndələri də iştirak etmiş, 35 məruzə və bir sıra maraqlı çıxışlar dinlənilmişdir. Müşavirədə qonaqlar Azərbaycan alimlərinin məruzələrini (Azərbaycan SSR EA-nın akademikləri M.A.Dadaşzadə, M.Ə.İbrahimov, filoloji elmlər doktorları M.Quluzadə, A.Hacıyev, Ə.Cəfərov, K.Talıbzadə, M.Cəfərov, B.Nəbiyev, H.Babayev, Ə.Şərifov, S.Əsədullayev, filoloji elmlər namizədləri A.Dadaşzadə, Q.Əliyev, Ə.Ağayev, B.Hüseynov, fəlsəfə elmləri namizədi A.Əfəndiyev) yüksək qiymətləndirmişlər [466, s.3-4, 15].

Müşavirədə iştirak edən Qazaxıstan SSR EA müxbir üzvü N.Smirnova və filoloji elmlər doktoru M.Duysenovun məruzələri də böyük maraq kəsb edirdi. N.Smirnova qazax folklorunda realist ənənələr məsələlərinə toxunaraq yazırdı: "XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində həm ənənəvi folklor, həm də akın şeiri janrlarında, tarixi epos və mahnılarda, aytıslarda realist cizgilər daha gözəgörümlüdür. Müxtəlif janrlarda realist təsvirinin müxtəlif nişanələri ilə rastlaşırıq, lakin onlarda hələ düşünən, mürəkkəb və dərin daxili aləmə malik insana təsadüf etmirik. Bu nişanələrin məcmusu gələcək realist obrazın yaranmasına imkan verdi" [466, s.3]. M.Duysenov isə hesab edirdi ki: "Köçəri qazaxların ədəbiyyatında folklor nümunələri ilə yanaşı, müəllifi müəyyən olan fərdi-şifahi ədəbiyyat nümunələri də mövcuddur. Qazax folklorunda məişətçilik güclü olduğu halda, şifahi yaradan şairlərin (Məhəmbət, Şalğına və b.) əsərlərində varlığın dinamik təsviri, tipik xarakterlər yaratmaq təşəbbüsü hiss olunur. Ümumiyyətlə qazax folkloru və şifahi ədəbiyyat üçün didaktizm səciyyəvidir. Bizcə, didaktizmin, nəsihətçiliyin konkret şəraitdə, mühitdə müsbət əhəmiyyətini inkar etmək düzgün olmazdı. Hər halda qazax ədəbiyyatında realizmin ilkin formalaşması əsasən didaktizm çərçivəsində baş vermişdir" [466, s.3].

Azərbaycan elmi-tədqiqat müəssisələri elmi sahədə əlaqələri genişləndirməklə yanaşı, təşkilati işlərdə də həmkarlarına yaxından köməkliklərini göstərirdilər. Belə ki, Ə.Əliyev adına

ADHTİ-nin baş muhasibi K.A.Qəribov 1973-cü il yanvarın 3-dən 20-dək 18 günlüyə Qazaxıstanın Selinoqrad şəhərindəki Tibb İnstitutuna ezam olunmuşdu. Onun məqsədi maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama işləri aparmaq və sənədləşmə işinin xüsusiyyətləri, aparılması ilə işçiləri tanış etmək idi [223, v.40].

1973-cü ildə Alma-Atada Türk dillərinin dialektologiyasına dair VII məhəlli konfrans keçirilmişdir. Konfransda iştirak edən Azərbaycanın tanınmış türkoloq-alimi, filologiya elmləri doktoru, professor A.A.Axundov "Azərbaycan dili tarixi dialektologiyasının bəzi linqvo-coğrafi məsələləri" mövzusunda məruzə etmişdir [6, s.12].

Konfransda iştirak edən qazaxıstanlı alim R.Sədvakasov qazax dilində çıxan "Kommunist tuği" qəzetində (1973, 15 may) dərc etdirdiyi "Sovet türkşünaslarının Almatı konferensiyası (Konfransda iştirakı haqqında)" məqaləsində azərbaycanlı alim A.Axundovun Türk dillərinin dialektologiyasına dair VII məhəlli konfransdakı çıxışını elmi baxımdan yüksək qiymətləndirmişdir [6, s.136].

1974-cü ildə Qazaxıstan SSR-in Quriyev şəhərində neft və kimyaya dair III Respublika konfransında azərbaycanlı alim, kimya elmləri doktoru, professor S.F.Qarayev "Sikloheksen seriyasının B-asetilenik spirtlərinin və onların törəmələrinin sintezi" mövzusunda [494, s.68], 1975-ci ildə isə Alma-Ata şəhərində ümumi və tətbiqi kimyaya dair XI Mendeleyev qurultayında iştirak edən Azərbaycan SSR EA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor S.C.Mehdiyev, V.X.Əhmədov, B.Y.Trufel, Z.B.Abdullayev və F.A.Məmmədov ilə birgə yazdıqları "Yarı funksional xlor tərkibli birləşmələrlə modifikasiya olunmuş EDPM əsaslı yüksək keyfiyyətli kauçukların istehsalı" [496, s.164] və texnika elmləri doktoru, professor Y.H.Qəmbərov "Təbii karbohidrogen xammalının və onların emal məhsullarının yüksək temperaturda termiki və hidrogen iştirakı ilə çevrilmələri" [44, s.593] mövzularında məruzələr etmişlər.

1975-ci ilin avqustunda ABŞ-ın San-Fransisko şəhərində keçirilən XIV Beynəlxalq konqrensdə iştirak edən Azərbaycan SSR EA-nın akademiki, tarix elmləri doktoru, professor Ə.S.Sumbatzadə “Sovet hakimiyyəti və Rusiya imperiyasının Qafqaz, Orta Asiya və Qazaxıstandakı milli azlıqların mədəni dirçəlişi” mövzusunda məruzə etmişdir. Məruzənin adından göründüyü kimi, Qazaxıstan problemlərinə də yer verilmişdir [250, s.56].

Şərqin görkəmli mütəfəkkiri Əbunəsr Fərabinin anadan olmasının 1100 illiyi münasibəti ilə 1975-ci ildə Alma-Atada Beynəlxalq elmi konfransa qatılan Azərbaycanın tanınmış şərqşünas alimi, fəlsəfə elmləri doktoru, professor Z.C.Məmmədov orada “Şərq peripatetizminin sistemi və metoduna dair məsələ” mövzusunda məruzə etmişdir [572, s.22].

1975-ci il dekabr ayının 23-24-də Azərbaycan SSR EA-nın ictimai elmlər bölməsinin təşkilatçılığı ilə Bakıda “Sov. İKP MK-nın XXIV qurultayı tərəfindən hazırlanan sülh proqramı” mövzusunda Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransın təşkilat komitəsinin sədr müavini, akademik Ə.S.Sumbatzadənin imzası ilə 1975-ci il 10 dekabr tarixində müttəfiq respublikaların Elmlər Akademiyalarına nümayəndələrin gəlməsi ilə bağlı məktublar göndərilmişdi. Həmin məktub Qazaxıstan SSR EA-nın vitse-prezidenti, akademik A.N.Nusubbəyova da göndərilmiş və qazaxıstanlı alimlər bu tədbirdə iştirak etmişdilər [553, v.74-83].

1976-cı ildə Alma-Atada riyaziyyatçıların “Yerləşmiş teoremlər və onların tətbiqi”nə dair Ümumittifaq simpoziumunda fizika-riyaziyyat elmləri doktoru, professor F.Q.Maqsudov tədqiqatçı S.Q.Vəliyevlə birgə yazdıqları “Özünü birləşdirməyən bir ölçülü Dirak operatoru üçün tərs problem” mövzusunda məruzə etmiş [259, s.42] və həmin ildə Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadənin ABŞ-ın San Fransisko şəhərində keçirilmiş XIV Beynəlxalq konqresindəki (1975, avqust) çıxışının (“Sovet hakimiyyəti və Rusiya imperiyasının Qafqaz, Orta Asiya və Qazaxıstandakı milli azlıqların mədəni dirçəlişi”) əsas

özəti “Azerbaydjan zarubejom” jurnalında (1976, №5, s.5) çap olunmuşdu [250, s.56].

Alma-Ata şəhərində keçirilən türkoloqların Böyük oktyabr sosialist inqilabının 60 illiyinə həsr edilmiş II Ümumittifaq türkoloji konfransını (1976, 27-29 sentyabr) SSRİ EA-nın dil, ədəbiyyat və tarix bölmələri, Türkoloqların Sovet Komitəsi və Qazaxıstan SSR EA təşkil etmişdi. Konfransın işində 500-ə yaxın dilşünas, ədəbiyyatşünas və tarixçi alim iştirak etmişdi. İştirakçılar arasında həmçinin, Polşa, Çexoslovakiya, Finlandiya, ABŞ, Türkiyə, İsveç, AFR və digər xarici ölkələrdən gəlmiş görkəmli türkoloqlar da var idi [541, s.4].

Alma-Ata konfransında Azərbaycan alimləri ən böyük nümayəndə heyətilə (Akademik M.Şirəliyev, A.Axundov, Z.Budaqova, M.Qasımov, Ə.Sumbatzadə, A.Hacıyev, O.Əfəndiyev, R.Məhərrəmova, F.Zeynalov, T.Hacıyev, Y.Yusifov, M.Adilov, Q.Voroşil, M.İslamov, V.Aslanov, M.Məmmədov, K.Vəliyev, M.Cəfərzadə, E.Əzizov, B.Abdulla və b.) təmsil olunmuş və 20 nəfəri məruzə ilə çıxış etmişdi. Akademik M.Şirəliyevin “Azərbaycan dilçiliyinin müasir vəziyyəti və inkişaf perspektivləri”, filologiya elmləri doktoru, professor A.Axundovun “Azərbaycan ədəbi dilinin tarixinin dövrləşdirilməsi təcrübəsi” [6, s.98], filologiya elmləri doktorları V.Aslanovun və Q.Voroşilin “Yazıya qədərki Azərbaycan dili tarixi”, filologiya elmləri doktoru A.Hacıyevin “Türk dilli ədəbiyyatlarda sosializm realizminin yaranması yolları və formaları”, tarix elmləri doktoru O.Əfəndiyevin “Rəşid əd-Dinin “Oğuzların tarixi” əsəri və Azərbaycanın Orta Asiya ilə qədim etnik əlaqələri problemi” mövzularındakı məruzələri konfransda böyük maraq doğurmuşdu [541, s.4].

Konfransda filologiya elmləri namizədi B.Abdulla “Azərbaycan şifahi xalq yaradıcılığında sınamaların məna xüsusiyyətləri” mövzusunda məruzə etmişdir. Yekun iclasında Folklorşünaslıq bölməsinin sədri, tanınmış folklorşünas alim Xalıq Koroğlu hesabatında B.Abdullanın araşdırmasını folklorşünaslıqda kəşf adlandırmışdır [456, s.4].

Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə Alma-Ata konfransının tarix bölməsində yekun sözü ilə çıxış etmişdir [250, s.19].

1976-cı ildə Alma-Atada keçirilən Ümumittifaq Türkologiya konfransında iştirak edən Azərbaycan alimlərinin əməyini yüksək dəyərləndirən filologiya elmlər doktoru, professor A. Axundov "Ədəbiyyat və İncəsənət" qəzetində (1976, 9 oktyabr) çap etdirdiyi məqaləsində ("Fərəhli nəticələr. Alma-Atada keçirilən Ümumittifaq Türkologiya konfransından qeydlər") "Fərəhli nəticələr" adlandırmışdır [6, s.77].

Azərbaycan SSR EA-nın müxbir üzvü, professor Y.A.Əmənzadə 1976-1980-ci illərdə elmi və elmi-təşkilatçılıq fəaliyyətinə dair 1980-ci il 20 noyabr tarixində yazdığı hesabatında həmin illərdə 15 doktorluq və namizədlik dissertasiyalarına (Kazan, Moskva, Leninqrad, Xarkov, Kiyev, Donetsk, Alma-Ata, Dnepropetrovsk, Bakı, Yerevan, Tbilisi) rəy verdiyini göstərmişdir [664, v.30, 97, 104].

70-ci illərdə elmi ezamiyyətlər də elmi əlaqələrə öz töhfəsini verirdi. Belə ki, 1977-ci ildə Azərbaycanın tanınmış memar-alimi C.Ə.Qiyasi Türküstan respublikalarında şəhərsalma və memarlıq irsini öyrənmək üçün Səmərqənd, Buxara, Şəhrisəbz, Türküstan, Mərv və başqa şəhərlərə elmi ezamiyyətə getmişdir [150, s.9].

Türküstan Cənubi Qazaxıstan vilayətində yerləşən şəhərdir. Bu gün orada Əhməd Yəsəvi Universiteti kimi nüfuzlu bir ali məktəb, çoxlu memarlıq abidələri vardır. Məhz Azərbaycan aliminin bu şəhərə yaradıcılıq səfərində olması da, bu baxımdan, təsadüfi deyildi.

Böyük Oktyabr sosialist inqilabının (indi inqilab yox, həqiqətən doğru olaraq, dövlət çevrilişi hesab edilir – Ə.Ə.) 60 illiyi ilə əlaqədar 1977-ci ildə Bakı şəhərində (26-28 may) "Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika, Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" mövzusunda Beynəlxalq (konfransın işində 70 ölkədən gəlmiş tanınmış siyasi və ictimai xadimlər, məşhur sovet alimləri, o cümlədən Qazaxıstan alimləri iştirak etmişdi) [109, s.1] və Alma-Ata şəhərində iki böyük elmi

tədbir -“Böyük Oktyabr, Sovet Şərq xalqlarının ictimai azadlığı və mədəni cəhətdən oyanması” adlı Ümumittifaq (konfransda görkəmli alim, Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə “Xalqlar arasında sülhü və dostluğu möhkəmləndirmək uğrundakı mübarizədə Sov. İKP-nin tarixi təcrübəsi” mövzusunda məruzə etmişdir) [250, s.9] və “Çoxmillətli müasir sovet ədəbiyyatının bədii axtarışı” mövzusunda Ümumittifaq (konfransda Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun 3 əməkdaşı – böyük elmi işçiləri A.Hacıyev “Çoxmillətli sovet ədəbiyyatında əlaqənin tipoloji və birlik problemi”, S.Lukyanova “Sənətkarın yaradıcılıq fəaliyyətinin problemi” və kiçik elmi işçi V.Osmanov “Çağdaş Azərbaycan nəsrində axtarış üsulu” mövzularında məruzələr etmişlər) [671, v.115] elmi-nəzəri konfransları keçirilmişdir.

Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun 1977-ci ilə dair elmi hesabatında göstərilirdi ki, institutun 24 elmi əməkdaşı elmi ezamiyyətdə olmaqla, Moskva, Leninqrad, Daşkənd, Alma-Ata, Tbilisi, Yerevan, Riqa, Vilnus, Tallin, Aşqabad, Düşənbə, Səmərqənd və Mahaçqala şəhərlərinin kitabxana, arxiv və elmi müəssisələrindən xeyli material toplamışlar [671, v.116].

1978-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqovun “Pioner” jurnalında “Orta Asiya: Səhralar və dağlar diyarı” adlı elmi-populyar məqaləsi çap olunmuşdu. Məktəbli gənclər üçün yazılmış bu məqalədə Orta Asiya respublikaları ilə həmsərhəd olan Qazaxıstana da yer verilmişdir. Müəllif: “Qazaxıstan xüsusi iqtisadi rayona aid olduğundan o, Orta Asiya iqtisadi rayonuna daxil edilmir”– yazsa da, həmin respublikalarla Qazaxıstanın iqtisadi, təbii-coğrafi bağlılığını da unutmamışdı [127, s.16-20].

1978-ci ildə qazaxıstanlı alimlər S.N.Boev, B.İ.Bondareva, İ.B.Sokolova Alma-Atanın “Nauka” nəşriyyatı tərəfindən çap olunmuş “Trixinelli və trixinelloz” kitabında görkəmli Azərbaycan alimi, biologiya elmlər doktoru, professor İ.Ə.Sadıqovun əsərlərinə istinad etmişdilər [320, s.67].

1979-cu ildə Azərbaycan SSR-in tanınmış alimi, biologiya elmləri doktoru, professor Ş.K.Tağıyev Alma-Ata şəhərində keçirilən İ.P.Pavlov adına Ümumittifaq Fizioloqlar Cəmiyyətinin XIII qurultayının iştirakçısı olmuş və orada S.N. Çuqunova ilə birgə yazdıqları "Anfibiyanın mərkəzi sinir sistemində qısa məsafəli visseral və somatik stimulların inteqrativ qarşılıqlı təsiri" mövzusunda məruzə etmişdir [510, s.27, 44-45].

1979-cu il may ayının 15-də qazaxıstanlı alim K.Ş.Diyarova Azərbaycan Dövlət Universitetinin İxtisaslaşdırılmış Müdafiə Şurasında uğurla "Səhra şəraitində kənd təsərrüfatı istehsalının ərazi təşkili (Qazaxıstan SSR-in Çu çayındakı Nizovyev nümunəsində)" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsini almışdır.

Dissertasiya Qazaxıstan SSR EA-nın Coğrafiya bölməsində yerinə yetirilmişdi. Elmi rəhbəri coğrafiya elmlər namizdi, dosent İ.M.Nazarenko, aparıcı müəssisə Qazaxıstan Dövlət Universiteti idi.

Dissertasiyanın rəsmi opponentləri – Azərbaycan alimləri, coğrafiya elmləri doktoru B.T.Nəzirova və coğrafiya elmləri namizədi İ.S.Osmanov idilər [623, c.1-2].

XX əsrin 70-ci illərində hər iki respublikanın akademiyalarının Mərkəzi Elmi Kitabxanaları bir-biri ilə sıx əlaqə saxlayır, çap olunan bütün elmi jurnalları, keçirilən konfransların materiallarını qarşılıqlı şəkildə biri-birilərinə çatdırırdılar. Kitab mübadiləsi yolu ilə Qazaxıctan SSR EA-ya Azərbaycanda çap olunmuş çoxlu sayda yeni kitablar göndərilir və qazax alimlərinin təzə kitabları ilə Azərbaycan elmi ictimaiyyətinin yaxından tanış olmasına şərait yaradılırdı.

XX əsrin 70-ci illərində elm yenə diqqət mərkəzində saxlanılır, elmə və alimə qayğı ilə yanaşılırdı. Ancaq ictimai elmlər sahəsində hakim sovet ideologiyasının tələbləri öz üstünlüyünü saxlayır və hər şey bu ideologiyanın tələblərinə tabe edilirdi. Reallıq unudulur, həqiqət kölgələnir və milli maraqlar çox zaman arxa plana keçirilirdi.

## 1.4. 1980-1991-ci illərdə elmi əlaqələr

XX əsrin 80-ci illərində Azərbaycan-Qazaxıstan elmi əlaqələri öz inkişafında keyfiyyətcə yeni və məzmun etibarilə daha zəngin bir mərhələyə daxil oldu. İctimai-siyasi həyatdakı fəallıq, oyanış, ardıcıl silkələnmələr də elmi əlaqələrə öz müsbət təsirini göstərirdi. Milli oyanış prosesi dərinləşir, mərkəzdənqaçma meyli güclənirdi. "SSRİ-də və dünya sosializm sistemində iqtisadi, siyasi və sosial sahədə uzun müddət formalaşan böhran 1980-ci illərin sonlarında daha kəskin xarakter aldı. Sovet imperiyasının çökməsi ərəfəsində Qazaxıstanda da yaranmaqda olan ümumxalq narazılığı özünü açıq formada büruzə verməsə də, müstəmləkəçilik və sistemli assimilyasiya siyasətinə etiraz hərəkatının başlanması üçün fürsət 1986-cı ilin 17-19 dekabrında yarandı" [315, s.102].

1987-ci ildə Qazaxıstanda cəmiyyətin həyatında mühüm rol oynayan təşkilatlar ("Təşəbbüs", Sosial-Ekoloji Birlik, Balxaş və Aral problemləri üzrə İctimai Komitə) yarandı. "Bütövlükdə, cəmiyyətin getdikcə demokratikləşməsi və inzibati-amirlik sisteminin laxlaması yeni ictimai-siyasi hərəkatların formalaşması və inkişafını stimullaşdırırdı. Siyasi arenaya atom əleyhinə hərəkat "Nevada-Semipalatinsk"nin qədəm qoyması qazax cəmiyyətinin inkişafının yeni mərhələsi demək idi" [315, s.103].

80-ci illərin ikinci yarısında Ermənistanın "Mərkəz"in xeyir-duası ilə Qarabağda başlatdığı işğalçılıq siyasəti Azərbaycanı təlatümə gətirmiş, ictimai-siyasi hərəkat dərinləşərək müstəqillik uğrunda mübarizəyə çevrilmişdi.

Əlbəttə, elm adamları cəmiyyətin təsiredici və şüurlu qüvvələrindən olduğu üçün, şübhəsiz ki, həmin hadisələrdən kənarda qala bilməzdilər.

Azərbaycan dilçilik elminin görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor A.A.Axundovun "Azərbaycan ədəbi dili tarixinin iki dövrü" məqaləsi 1980-ci ildə Alma-Atada "Müasir türkologiyanın problemləri" adlı məqalələr toplusunda çap edilmişdi [6, s.100]. Həmin ildə Azərbaycan SSR EA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmlər doktoru, pro-

fessor Mirəli Seyidov Alma-Ata şəhərində keirilən Memarlıq abidələrini öyrənmə cəmiyyətinin təsis qurultayına dəvət olunmuşdu. Qurultayda o, iki mövzu ("Qazax-Azərbaycan dastan yaradıcılığında ədəbi əlaqələr haqqında" və "Qazax" sözünün etimologiyası haqqında") üzrə məruzələr etmişdir [321, s.4].

Görkəmli Azərbaycan ədəbiyyatşünas alimi Kamal Talıbzadənin çoxsahəli elmi yaradıcılığı ədəbiyyatşünaslığın daha vacib bir sahəsinin tədqiqi ilə daha da zənginləşmişdi. Milli tənqidin tarixini yaratmaq istiqamətində alimin uzun illər apardığı araşdırmalar bu mövzuda ilk fundamental tədqiqatın nəşrinə imkan vermişdi. O, ədəbi-elmi ixtiraların on ilini klassik ədəbi-estetik fikrin tarixi haqqında monumental tədqiqata həsr etməklə, 1965-ci ildə "XX əsr Azərbaycan ədəbi tənqidi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və bu əsər 1966-cı ildə monoqrafiya halında nəşr olunmuşdu. Müəllif monoqrafiya barədə müsahibələrinin birində demişdir: "Bu kitab mənə təkcə ona görə əziz deyil ki, doktorluq dissertasiyamla əlaqədardır. Bir də ona görə mənə doğma və qiymətlidir ki, hələ tələbəlik dövründən başladığım tənqidi fikir sahəsində 25 ilə yaxın apardığım tədqiqatlara bir növ yekun vurdu, təsdiq etdi ki, mən öz axtarışlarımda və ədəbiyyatşünaslığımda tutduğum yeni istiqamətdə yanılmamışam. Bu elə bir elmi sahədir ki, onu gələcəkdə də davam etdirmək mümkündür. Elə belə də oldu. Bundan sonra yazılarımın, kitablarımın əksəriyyəti bu mövzuya həsr olunmuşdur" [335, s.15].

Doğrudan da, bu əsər böyük rezonansa səbəb oldu. Təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da elm, mədəniyyət və incəsənət xadimləri tərəfindən yüksək qiymətləndirildi. Əsərə böyük dəyər verənlər arasında Qazaxıstan SSR-in alimləri də var idi. 1980-ci il yanvarın 16-da Qazaxıstan SSR EA-nın akademiki Y.A.Yoldaşbayev yazmışdı: "1966-cı ildə nəşr olunan "XX əsr Azərbaycan ədəbi tənqidi" monumental monoqrafiyası, təkcə SSRİ-də deyil, xarici ölkələrdə türk dilində ədəbi tədqiqatlarda estetik düşüncənin ilk təməl araşdırmasıdır. Bu mükəmməl iş ədəbi tənqid problemlərinin araşdırılması isti-

qamətində bir xəzinə olub, təkcə sovet ədəbiyyatı üçün deyil, eləcə də xarici milli ədəbiyyatlar üçün böyük töhfədir.

Professor K.Talıbzadənin yaradıcılıq fəaliyyətinin genişliyi qibtə ediləcək yüksəklikdədir. O, təkcə monoqrafiyaları ilə deyil, həm də ən yaxın əlaqələri ilə qardaş SSRİ respublikalarının ədəbi tənqidinin inkişafına da kömək edir. Məsələn, qazax ədəbi tənqidində, xüsusən ədəbi və bədii tənqid tarixinin araşdırılması sahəsində onun davamçıları və tələbələri var" [322, s.56].

K.Talıbzadənin "XX əsr Azərbaycan ədəbi tənqidi" əsəri barədə 1989-cu ildə Qazaxıstan SSR-in əməkdar elm xadimi, filologiya elmlər doktoru, professor Tursunbek Kəkişev isə belə yazmışdır: "...Bu rəyimdə mən bir daha təkrar etmək istəyirəm ki, belə oğula, vətənpərvərə, alimə malik olmaq, hər hansı xalq üçün şərəfdir. Ancaq belə insanlar xalqın şöhrətini artırır və xalqlar dostluğunu möhkəmləndirir.

Mən K.A.Talıbzadəni Azərbaycan ədəbi tənqidi tarixini ilk dəfə köklü, əsaslı şəkildə tənqid edən, bu sahədə təqdir və təsdiq olunan mütəxəssis alim kimi qiymətləndirirəm. Onun tənqid tarixinə dair tədqiqatları türk xalqlarının ədəbiyyatında bir təşəbbüsdür, bir başlanğıcdır və bunun üçün də xeyli davamçıları yaranmışdır. Elə mən özüm onun tələbəsi və silahdaşıyam" [322, s.61].

1980-ci il fevralın 7-də görkəmli ədəbiyyatşünas alim K.A.Talıbzadənin SSRİ EA Rəyasət Heyətinin qərarı ilə Sovet Türkoloqları Komitəsinin üzvü seçilməsi türk dünyası üçün daha fəal və səmərəli iş görməsinə geniş meydan açırdı [322, s.20].

XX əsrin 80-ci illərində iki respublikanın neftçiləri və neftçi alimləri əməkdaşlıq əlaqələrini genişləndirir və xalq təsərrüfatının aparıcı sahələrindən biri olan neft sənayesinin inkişaf etdirilməsi istiqamətlərində böyük nailiyyətlərə birgə imza atırdılar. Manqışlaqdakı Uzen Qazma İşləri İdarəsinin neftçiləri ilə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun əməkdaşları möhkəm yaradıcılıq əlaqələri saxlayırdılar. İnstitutun layihələri əsasında hazırlanaraq buraxılan əksər qazma və

neftçıxarma avadanlıqları 70-80-ci illərdə ilk dəfə məhz bu idarədə sınaqdan çıxarılmışdır.

Uzendəki əksər quyular maili üsulla qazılırdı. Böyük gələcəyi olan bu üsulla qazılan quyuların iş keyfiyyəti aşağı olduğundan gözlənilən nəticəni verə bilmirdi. Nəticədə işçilərdə inamsızlıq yaranır və bu pessimist əhvali-ruhiyyə onların əmək fəallığını aşağı salırdı. Azərbaycan alimlərinin köməyi sayəsində bir sıra proseslər təkmilləşdirildi. Uzen neftçilərinə təklif edilən müxtəlif diametrli sabitləşdiricilərin köməyi nəticəsində quyuların əyrilik bucağı və azimutu çox asanlıqla idarə olunurdu. İnstitut alimlərinin köməyi ilə rotor qazması üçün sabitləşdiricilərdən istifadə sayəsində idarə 1979-cu ildə 10 min manatlıq əlavə gəlir götürmüşdü [152, s.3].

Azərbaycan Neft və Kimya İnstitutunda çalışan neftçi-alimlər maili quyu divarlarının sementlənməsindən, qazma zamanı baş verən qəzaların qarşısının vaxtında alınmasından ötrü də daha mükəmməl texnika və texnologiya hazırlayıb Manqışlaq neftçilərinin istifadəsinə vermişdilər [152, s.3].

1981-ci ildə Alma-Ata şəhərində Qazaxıstan və Orta Asiyanın orta əsr arxeologiyasının tədqiqat problemlərinə həsr olunmuş Beynəlxalq elmi konfransda Azərbaycanın tanınmış memar-alimi, memarlıq doktoru, professor C.Ə.Qiyasi “Azərbaycan və Orta Asiya memarlığının əlaqələri (XII-XV əsrlər) məsələsi haqqında” mövzusunda məruzə ilə çıxış etmişdir [150, s.10].

Həmin il Bakıda ümumi və tətbiqi kimyaya dair XII Mendeleyev qurultayı (21-25 sentyabr) olmuşdur. Qurultaya 200-dən artıq ölkədən 2 mindən çox alim və sənaye xadimləri gəlmişdir. Qurultayın gedişində mühazirələr, məruzələr və diskussiyalar zamanı tədqiqatların ən yeni nəticələri, kimya sahəsində son kəşflər və nailiyyətlər, istehsalın müvəffəqiyyətləri və problemləri müzakirə olunmuş, kənd təsərrüfatının kimyalaşdırılması məsələlərinə, neftayırma və neft kimyası problemlərinə, xalq təsərrüfatı üçün yeni materiallar alınması problemlərinə xüsusi fikir verilmişdir [191, s.1].

Qurultayda elmə və elmi əlaqələrə yüksək önəm verən Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev çıxışı zamanı demişdir: "Elmin coğrafi hüdudları yoxdur. Onun nailiyyətləri tədqiqat işində müxtəlif ölkələrin alimlərinin öz səylərini nə dərəcədə müvəffəqiyyətlə birləşdirdiklərindən çox asılıdır. Kimyaçıların Bakı məclisində bir çox xarici ölkələrdən – sosialist və kapitalist ölkələrindən görkəmli alimlərin və mütəxəssislərin iştirak etməsi beynəlxalq elmi əməkdaşlığın möhkəmləndiyinə, kollektiv surətdə elmi inkişaf etdirməyə və ondan gözəl bəhrələr götürməyə səy göstərildiyinə inandırıcı sübutdur. Mendeleyev qurultayı, bizcə daha bir, son dərəcə elə mühüm meylin təzahürüdür ki, bu meyl haqqında böyük alim və alovlu humanist F.Jolio-Kürinin sözlərini xatırlatmaq istərdik. O demişdir: "Müasir dövrdə" həqiqətən aşkara çıxarmaq və insanlığa xidmət etmək məqsədinə yönəldilən elmin beynəlmiləl xarakter daşıdığını alimlər getdikcə daha dərindən dərk edirlər. "Biz əminik ki, bu nəcib ideallların təntənəsi uğrunda mübarizə apararkən siz xalqlar arasında sülhün, dostluğun və səmərəli əməkdaşlığın möhkəmlənməsinə layiqincə kömək edəcəksiniz" [114, s.1].

Qurultayda Qazaxıstandan gəlmiş alimlər də iştirak edirdi. Onlardan Çimkənd Kimya Texnologiya İnstitutunun elmi işçisi N.Xalmurzayevanın çıxışı maraqla qarşılanmışdı [560, s.3].

Qurultay müddətində nümayəndələr M.F.Axundov adına Akademik Opera və Balet Teatrında Ü.Hacıbəyovun "Koroğlu" operasını dinləmiş və dəniz mədənlərində neftçilərin fədakar əməyi ilə tanış olmuşlar [561, s.2].

XX əsrin 80-ci illərində Sovet İmperiyasında ictimai-siyasi hadisələr dərinləşir, milli münasibətlərdə çat yaranır, seperatçılıq, müstəqilliyə can atmaq istəkləri güclənirdi. "Mərkəz bu narahatlığı duyur və buna görə də ideoloji sahəni gücləndirməyi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmağı başlıca məqsədinə çevirməyə çalışırdı. Eləcə də: "Kütlələrin beynəlmiləlçilik şüurunun formalaşdırılması, onların sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi Azərbaycan

Kommunist Partiyasının ideoloji və təşkilatçılıq işində əsas yerlərdən birini tuturdu” [108, s.3].

Azərbaycan KP MK-nın 4 noyabr 1981-ci il tarixli “Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında” qərarında beynəlmiləl və vətənpərvərlik tərbiyəsi sahəsində ideoloji işin tərkib hissəsi kimi elmə və elmi əlaqələrə də xüsusi əhəmiyyət verilərək yazılmışdı: “Təbiət elmləri, texniki, iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etmək” lazımdır [108, s.16].

1981-ci il noyabrın 25-də Azərbaycanda dahi azərbaycanlı alim, görkəmli astronom, riyaziyyatçı, filosof Məhəmməd Nəsirəddin Tusinin 780 illiyi çox böyük təntənə ilə qeyd edilmişdir. Bu münasibətlə həmin gün respublika Elmlər Akademiyasında elmi sessiya keçirilmişdir. Sessiyanın işində Azərbaycan alimləri ilə birlikdə onların Moskva, Leninqrad şəhərlərindən, müttəfiq respublikalardan gəlmiş həmkarları iştirak etmişlər. Bu elmi sessiyada Qazaxıstanı Qazaxıstan SSR EA Astrofizika İnstitutunun direktoru, Qazaxıstan EA-nın müxbir üzvü T.B.Ömərov təmsil etmişdir [131, s.4].

Yubiley şənliklərində iştirak etmək üçün Bakıya gəlmiş qonaqları qəbul edən Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyevlə görüşdə iştirak edən Qazaxıstan SSR EA Astrofizika İnstitutun direktoru, Qazaxıstan EA-nın müxbir üzvü T.B.Ömərov demişdir ki, Tusinin yubileyində iştirak etmək bizim üçün böyük şərəfdir. Biz əminik ki, elm xadimlərinə Azərbaycan KP MK-nın göstərdiyi qayğı sayəsində Şamaxı rəsədxanasının əməkdaşları sovet elminin ön mövqelərinə çıxacaq və Marağa rəsədxanasının banisinin şöhrətinə layiq olacaqlar [65, s.1].

Böyük Azərbaycan alimi M.N.Tusinin anadan olmasının 780 illiyi şərəfinə keçirilən şənliklər, çoxsaylı tədbirlər

M.F.Axundov adına Akademik Opera və Balet Teatrında keçirilən təntənəli gecə ilə başa çatmışdır.

Gecədə Qazaxıstan SSR EA Astrofizika İnstitutunun direktoru, Qazaxıstan EA-nın müxbir üzvü T.B.Ömərov çıxış edərək demişdir: "Biz öz dövründə bəşər mədəniyyətinin simasını müəyyən edən və istər həmin dövrdə, istərsə də sonrakı dövrlərdə elmin inkişafına dərin təsir göstərən adamlardan biri olmuş görkəmli şəxsiyyətin, böyük alim və mütəfəkkirin yubileyini qeyd edirik. Biz Tusinin riyazi və astronomik irsinə böyük ehtiram bəsləyir və valeh oluruq. O, həm görkəmli nəzəriyyəçi-astronom, həm də qabil müşahidəçi olmuşdur. Bu adam nadir astronomiya alətləri və məşhur cədvəlləri olan Marağa rəsədxanasını dünyaya bəxş etmişdir. Xoşbəxtik ki, bu mehriban elm ailəsində şanlı yubileyi qeyd edirik" [251, s.2].

80-ci illərdə də qazaxıstanlı tədqiqatçıların elmi işlərinin hazırlanması və müdafiəsində də Azərbaycan alimləri böyük səy göstərirdilər. 1981-ci ildə Qazaxıstan SSR-in Quryev şəhərində tədqiqatçı alim Marekə Həsənalı qızı Şintemirova "Alkinil ilə əvəzlənmiş 1,4 – dioksanların sintezi və xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək kimya elmləri namizədi elmi dərəcəsi almışdı. Onun elmi rəhbəri Azərbaycanın tanınmış alimi, kimya elmləri doktoru, professor S.F.Qarayev idi [494, s.113].

1982-ci il noyabr ayının 11-14-də Alma-Ata şəhərində "Kontinentdaxili səhra və yarımsəhraların dağlıq ərazi geosistemləri" problemlərinə həsr edilmiş Ümumittifaq simpoziumda iştirak edən Azərbaycan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmləri doktoru, professor H.Ə.Əliyev A.H.Niyazov ilə müştərək yazdıqları "Azərbaycan SSR-in müxtəlif su mənbələrindəki uran tərkibi" [289, s.48] və Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov "Azərbaycan SSR-in dağ geosistemləri və onların təbii ehtiyatlarından istifadə olunması" [125, s.17] mövzularında məruzələr etmişlər.

1983-cü ildə Azərbaycan SSR-in görkəmli alimi, memarlıq doktoru, professor C.Ə.Qiyasinin "XIII əsrin sonu və XIV əsrin əvvəllərində Azərbaycanla Orta Asiya arasındakı memarlıq

əlaqələri haqqında" adlı məqaləsi "Qazaxıstan və Orta Asiyanın orta əsr şəhər mədəniyyəti" toplusunda (Alma-Ata, 1983, s.42-48) çap olunmuşdu [150, s.101].

Həmin ildə Bakıda keçirilmiş şərqşünasların "Sovet şərqşünaslığının aktual problemləri" adlı II Ümumittifaq konfransında (25-27 may) [498, s.1; 499, s.1; 500, s.1] və Şərq xalçaları sənətinə dair Beynəlxalq simpoziumda (5-10 sentyabr) qazax alimləri də yaxından iştirak etmişdilər. Simpoziuma Azərbaycan SSR EA Arxitektura və İncəsənət İnstitutunun şöbə müdiri, respublikanın xalq rəssamı Lətif Kərimovun "Xalça sənəti xalqın mühüm bədii irsidir" məruzəsi təqdim edilmişdi [298, s.2; 570, s.3].

Sentyabrın 7-də simpoziumun "Azərbaycan xalçaçılıq sənəti" adlanan birinci bölməsində çıxış edən Qazaxıstan SSR-in Manqışlaq dövlət maddi mədəniyyət abidələri muzeyinin elmi işçisi X.Xizgilova Azərbaycanın süjetli xalçalarının tədqiqindən, öz sələflərinin ən yaxşı nailiyyətlərini davam etdirən müasir xalçaçılıq ustalarının yaratdıqları kompozisiya və naxışların varisliyindən bəhs etmişdir [294, s.2].

Şərq xalçaları sənətinə dair Beynəlxalq simpozium 1983-cü il sentyabrın 10-da M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən ümumi yekun iclas və Respublika sarayında təşkil olunmuş bayram konserti ilə tamamlanmışdır [297, s.3].

1983-cü ildə Bakıda keçirilən "Sovet adamının mənəvi aləmində milli və beynəlmiləl cəhətlərin dialektikası" konfransında (6-9 dekabr) [389, s.1; 390, s.3; 391, s.1; 11, s.4] və M.F.Axundov adına Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda olmuş rus dilinin tədrisinin təkmilləşdirilməsinə dair IX Respublika ali məktəblərarası elmi-metodiki konfransında (9-10 dekabr) [471, s.4] Qazaxıstan alimləri də iştirak etmiş, maraqlı və yadda qalan məruzələrlə çıxış etmişlər.

1984-cü ildə Azərbaycan SSR Mərkəzi Statistika İdarəsinin təşkilatçılığı ilə Bakıda keçirilən (19-20 aprel) dövlət statistika sistemi gənc mütəxəssislərinin Zaqafqaziya elmi-praktik konfransı ölkə iqtisadiyyatının inkişafı baxımından çox əhəmiy-

yətli görünən məsələlərin həllinin tapılması istiqamətinə yönəlmişdi. Azərbaycan, RSFSR, Belorusiya, Qazaxıstan, Gürcüstan və Ermənistan mərkəzi statistika idarələri, Dövlət Plan Komitələri, Elmlər Akademiyaları, ali məktəb nümayəndələrinin iştirak etdikləri bu konfransda ictimai istehsalın səmərəliliyini yüksəltməyin aktual məsələləri ilə bağlı müttəfiq respublikaların kompleks inkişafı, demoqrafiya və əmək ehtiyatları, ərzaq kompleksi, dövlət statistika orqanlarının işində müasir hesablama vasitələrinin tətbiqi problemləri müzakirə olunmuşdur.

1984-cü ilin fevral və oktyabr aylarında Alma-Ata şəhəri iki mühüm elmi konfransa ev sahibliyi etmişdi. Fevralda keçirilən pediatrların III qurultayında Azərbaycan Elmi-Tədqiqat Pediatriya İnstitutunun böyük elmi işçisi, pulmonologiya bölməsinin rəhbəri, tibb elmləri namizədi Y.Q.Məstəliyev pulmonologiya məsələlərinə dair [241, s.2] və oktyabr ayında olan Makroskopik kinetika və kimyəvi qaz dinamikasına dair I Ümumittifaq simpoziumunda tanınmış Azərbaycan alimi, kimya elmləri doktoru, professor T.M.Nağıyev, T.N.Şahtaxtinski və L.M.Həsənova ilə birgə yazdıqları "Metanın formaldehidə hidrogen-peroksidlə əlaqəli oksidləşmə reaktorunun modelləşdirilməsi" mövzularında məruzə etmişdilər [531, s.11].

Sərhədlərə sığmayan böyük Nizami sevgisi Azərbaycan-Qazaxıstan elmi əlaqələrində mühüm rol oynamışdır. Tanınmış qazax şairi, ədəbiyyatşünas, tənqidçi və pedaqoqu Saqinqali Seitov (1917- 2007) 1981-ci ilin oktyabrında N.Gəncəvinin anadan olmasının 840 illiyi münasibət ilə keçirilən yubiley tədbirindən qayıtdıqdan sonra böyük poeziya bayramından aldığı yüksək təəssüratı "Ədəbiyyat və incəsənət" qəzetinə göndərdiyi "Dühanın əbədi işığı" məktubunda çox səmimi şəkildə belə ifadə etmişdir: "Nizami Qərbin və Şərqin mədəniyyət xəzinəsinə çox böyük xidmət göstərmişdir. Onun dahiyanə əsərləri olmadan dünya ədəbiyyatını təsəvvürə gətirmək çətindir Onun zəkasına və poeziyasına bütün dövrlərin və zamanların şairləri heyran qalmışlar. Şairin əsas əsərləri - onun "Xəmsə"si, qəsidə və qəzəlləri əsl ədəbi qəhrəmanlıq nümunəsidir. Misilsiz ustalıq, dərin məzmun

və parlaq dil timsalıdır. Öz işıqlı, humanist ideyaları ilə Nizami bizim zəmanəmizlə daxilən səsləşir. O, insan əməyini və insan nəcibliyini tərənnüm edirdi" [215, s.6].

Azərbaycan KP MK 1979-cu il yanvarın 6-da "Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq haqqında" qərar qəbul etmişdir. Bu qərara əsasən dahi sənətkarın həyat və yaradıcılığını daha dərindən tədqiq etmək məqsədilə iki ildən bir Ümumittifaq elmi konfransının keçirilməsi yaxşı bir ənənə halını almışdı. "XI-XII əsrlər Azərbaycan mədəniyyəti və Nizami Gəncəvi yaradıcılığı" adlı 1-ci konfrans 1980-ci, "Nizami Gəncəvi və dünya ədəbiyyatı" adlanan 2-ci konfrans isə 1982-ci ildə olmuşdur. 1984-cü ilin dekabrında keçirilən "Nizaminin dünya ədəbiyyatında lirikanın inkişafındakı rolu və "Xosrov və Şirin" poemasının 800 illiyi" mövzusundakı III konfransda otuza yaxın məruzə dinlənilmişdir.

Alma-Ata şəhərindən gəlmiş qazax alimi X.Suyunşaliyevin məruzəsi Nizaminin Qazaxıstanda öyrənilməsinə və tərcüməsinə həsr edilmişdi [428, s.6].

Qazax alimlərinin Azərbaycanda tədqiqat işləri uğurlu nəticələri ilə diqqəti cəlb edirdi. 1984-cü ildə qazaxıstanlı alim Aliyə Beysenova Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurasında dissertasiya müdafiə edərək coğrafiya elmləri doktoru adını almışdı [125, s.70]. A.Beysenovanın dissertasiyası Azərbaycan alimləri tərəfindən yüksək qiymətləndirilmiş və ona verilən müsbət rəylərdə də bu öz əksini tapmışdı.

1985-ci ildə Alma-Ata şəhərində Ümumittifaq Mikrobiologiya Cəmiyyətinin VII qurultayı keçirildi. Qurultayda iştirak edən Azərbaycan alimi, kimya elmləri doktoru, professor M.Ə.Məmmədyarov, N.M.İsmayılov və V.İ.Hacıyev ilə birgə yazdıqları "Boz-qonur torpaqların yenidən yararlı hala salınması məqsədi ilə onda olan torpaq mikroorqanizmlərin karbohidrogen oksidləşdirici mikroorqanizmləri vasitəsilə zondlaşdırılması" mövzusunda məruzə etmişdir [380, s.13, 87].

1985-ci ilin sentyabr ayında YUNESKO xətti ilə dünyanın bir çox ölkələrində görkəmli qazax maarifçisi, yeni qazax mədəniyyətinin və ictimai fikrinin banilərindən biri Çokan Vəlixanovun (1835,6 mart-1865,10 aprel) anadan olmasının 150 illiyi geniş şəkildə qeyd edilmişdir. Bu münasibətlə azərbaycanlı alim, filologiya elmləri doktoru, professor Vilayət Quliyev "Mirzə Kazımbəy və Çokan Vəlixanov" məqaləsini yazaraq mətbuatda dərc etdirmişdi [356, s.3].

Azərbaycan və qazax alimləri digər respublikalarda keçirilən müxtəlif elmi tədbirlərdə də tez-tez görüşür, fikir mübadiləsi aparır, yaradıcılıq nailiyyətləri ilə yaxından tanış olurdular.

1985-ci ilin sentyabrında Aşqabad şəhərində IV Ümumittifaq türkologiya konfransı keçirilmişdi. Bunlardan birincisi 1966-cı ildə Bakıda, ikincisi 1976-cı ildə Alma-Atada, üçüncüsü 1980-ci ildə Daşkənddə olmuşdur.

Konfransda qazax alimlərindən A.T.Kaydarov (Alma-Ata) "Türk dillərində təqlidi düzəltmə əsasların qrammatik göstəriciləri" və K.B.Bektayev (Çimkənd) "Mətnin avtomatik işlənməsi və süni intellektin linqvistik aspektləri problemləri. Onların türk dillərinin normativ qrammatikalarının yaradılmasında rolu" mövzularında məruzə etmişlər [9, s.3].

Konfransda Azərbaycan 6 məruzə ilə təmsil olunmuşdu. Onlardan dördü dilçilik, ikisi isə tarix bölməsində müzakirə edilmişdi [9, s.3].

1985-ci ildə Alma-Atada çıxan "Bilik və əmək" jurnalının ikinci və üçüncü nömrələrində Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Mirəli Seyidovun "Qazax sözünün etimologiyası" məqaləsi çap olunmuşdu. Bu məqalə həmin ildə jurnalın dərc etdiyi ən yaxşı elmi araşdırma hesab edilmiş və müəllif laureat adına layiq görülmüşdü [321, s.4].

1985-ci ilin sentyabr ayında Alma-Atada iki mühüm elmi tədbir keçirilmişdi. Birincisi, SSRİ və Qazaxıstan SSR elmlər akademiyalarının təşkilatçılığı əsasında Çokan Vəlixanovun anadan olmasının 150 illiyi münasibəti ilə "Görkəmli mütəfək-

kir, maarifçi-demokrat Çokan Vəlixanov və elmin, mədəniyyətin inkişafında onun rolu" adlı Ümumittifaq elmi-nəzəri konfrans (18-19 sentyabr) idi. Üç bölmə üzrə öz işini davam etdirən konfransda 60-a yaxın məruzə dinlənilmiş və müzakirələr əsnasında çoxlu sayda maraqlı çıxışlar olmuşdur.

Konfransda iştirak edən Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmlər doktoru, professor Vilayət Quliyev 3-cü bölmədə ("Çokan Vəlixanovun əsərlərində ədəbiyyat və incəsənət məsələləri") "Mirzə Kazımbəy və Çokan Vəlixanov" mövzusunda məruzə etmişdir [355, s.3].

İkinci tədbir Ədəbi Tənqidçilərin Beynəlxalq Cəmiyyətinin (ƏTBC) IX konqresi (25-30 sentyabr) idi. Sovet respublikalarının və 20 xarici ölkənin nümayəndələrinin iştirak etdiyi bu konqres "Xalqlar və onların mədəniyyətləri arasında qarşılıqlı anlaşma, bəşəriyyətin gələcəyi qarşısında ədəbiyyatın və tənqidin məsuliyyəti" mövzusuna həsr edilmişdi.

YUNESKO-nun tərkibində fəaliyyət göstərən ƏTBC beynəlxalq təşkilat kimi 1969-cu ildə yaradılmış və mərkəzi iqamətgahı Parisdə yerləşir. Hər iki ildən bir onun konqresi çağırılır, dünya ədəbi prosesinin ən mühüm problemlərinə dair yaradıcı görüşlər və diskussiyalar keçirilir.

Tənqidçilərin IX konqresində Azərbaycanın tanınmış alimi, ƏTBC-nin üzvü Seyfulla Əsədullayev iştirak etmişdir [247, s.3].

1985-ci ildə memarlıq doktoru, professor C.Ə.Qiyasinin çap olunmuş "Azərbaycan memarlığının səs dekoru və onun inkişafında Orta Asiya ənənələrinin təsiri" məqaləsində Qazaxıstan ənənələrinə də yer verilmişdi [361, s.42-45]. Çünki eyni bölgədə formalaşan memarlıq ənənələri bir-biri ilə bəhrələnməklə yanaşı, həm də qarşılıqlı təsir şəraitində fərqli cəhətlərini qoruyub saxlamaqla, inkişaf edirdi.

Azərbaycanın böyük coğrafiyaşünas alimi B.Ə.Budaqovun görkəmli qazax mütəfəkkiri, maarifçi-demokratı Çokan Vəlixanovun anadan olmasının 150 illiyi münasibətilə yazdığı "Qranit üzərində izlər" adlı məqaləsi "Azərbaycan müəllimi" qəzetində (1986, 9 yanvar) çap olunmuşdu [125, s.189].

1986-cı ildə Qazaxıstanın Cambul şəhərində keçirilmiş "Kənd təsərrüfatı heyvanlarında helmintozun qarşısının alınması"na dair elmi konfransda iştirak edən görkəmli Azərbaycan alimi, biologiya elmləri doktoru, professor İ.Ə.Sadıqov, Y.F.Məlikov və Ə.Z.Namazovla birgə yazdıqları "Azərbaycanda mal-qarada onkoserozun yayılması" mövzusunda məruzə etmişdir [320, s.46-47].

Azərbaycanın tanınmış dilçi alimi, filologiya elmləri doktoru, professor A.A.Axundov haqqında qazax dilində "Lenin lijaş" qəzetinin 1986-cı il 30 may tarixli sayında J.Sarbalayev və Q.Enesovun "Til torkin pein ilsek" məqaləsi çap olunmuşdu. Məqalədə türkoloq-alimin zəngin elmi fəaliyyəti yüksək dəyərləndirilirdi [6, s.135].

1986-cı ildə Alma-Ata şəhərində qazaxıstanlı tədqiqatçı T.Q.Məmmədov "Noxud yarpaqlarının karbonik anhidrazinin təmizlənməsinin fiziki və kimyəvi xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun elmi rəhbəri Azərbaycan SSR EA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, professor C.Ə.Əliyev idi [149, s.111].

1987-ci ildə görkəmli alim, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqovun Azərbaycan SSR EA "Xəbərlər"inin Yer elmləri seriyasında (№5, s.71-76) Ç.Z.Vəlixanovun anadan olmasının 150 illiyi münasibətilə yazdığı "Qazaxıstan torpağının gur şəlaləsi" məqaləsi çap olunmuşdu. Məqalədə müəllif həyatda cəmi 30 il yaşamış qazax alimi, tarixçi, etnoqraf, folklorçu, səyyah və maarifçisi Ç.Z.Vəlixanovun qısa, lakin çoxtərəfli və mənalı fəaliyyətindən bəhs etmişdir [125, s.158].

Həmin ildə Alma-Atada Qazaxıstan SSR Kimya İnstitutunun əməkdaşı K.T.Tanatarova "Asetilen spirti əsasında yeni xlor tərkibli fizioloji aktiv maddələrin sintezi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, kimya elmləri doktoru elmi dərəcəsi adını almışdı. Onun rəsmi opponentlərindən biri Azərbaycan alimi, kimya elmləri doktoru, professor S.F.Qarayev idi [494, s.114].

Qazaxıstanda çox tanınmış azərbaycanlı kimyaçı alim, professor S.F.Qarayev 1988-ci ildə Alma-Atada kimyaçıların maye fazada katalitik reaksiyalara həsr olunmuş VII Ümumittifaq konfransında "Alkiniloksitsikloptanların izomerləşməsi" və "Anhidridlərin və siklik dikarboksilik turşuların turşu xloridlərinin maye fazalı oksidləşmə reaksiyalarında tac efiri. Maye fazada katalitik reaksiyalar" mövzularında diqqəti çəkən məruzələrlə çıxış etmişdir [494, s.11, 83, 107].

Həmin ildə Alma-Atada Ümumittifaq Botanika Cəmiyyətinin VIII qurultayında iştirak edən Azərbaycan SSR EA-nın akademiki, biologiya elmlər doktoru, professor C.Ə.Əliyev S.X.Kərimov, N.M.Quliyev, A.A.Cahangirov və R.B.Hidayətovla birlikdə yazdıqları "$CO_2$ assimilyasiyası və fərqli ekoloji mənşəli buğda genotiplərində karbon metabolizması" [149, s.103], Azərbaycan SSR EA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, professor V.C.Hacıyev L.P.Ponomarenko ilə birgə yazdıqları "Yüksək dağlıq bitkiliyinin ikinci senozlarının formalaşmasında antropogen faktorların rolu" [564, s.21, 110] və Azərbaycan SSR EA-nın müxbir üzvü, biologiya elmləri doktoru S.H.Musayev "Azərbaycan taxılları" [483, s.10] mövzularında məruzə etmişlər.

1988-ci il aprel ayının 15-17-də Bakıda V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan onomastikası problemlərinə dair II elmi-nəzəri konfrans keçirilmişdir. Ümumi və bölmə iclaslarında təqribən 200 məruzə və məlumatın dinlənilərək müzakirə edildiyi bu konfransın işində respublikamızın dilçi alimləri və ali məktəb müəllimləri ilə yanaşı Moskva, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Türkmənistan, Başqırdıstan, Dağıstan və Tatarıstandan gəlmiş mütəxəssislər də iştirak etmişdir [434, s.4].

Həmin ildə Bakıda Azərbaycan SSR EA-nın Əlyazmalar İnstitutunda keçirilmiş (4-5 iyul) türkologiya problemləri üzrə Qorqudşünaslığa həsr edilmiş SSRİ və Türkiyə alimlərinin birinci kollokviumunun respublikamızın elmi həyatı üçün çox mühüm əhəmiyyəti var idi.

Qorqudşünasların beynəlxalq görüşündə iştirak edən çoxsaylı qonaqlar arasında Qazaxıstan Dövlət Universitetinin dosenti Şakir İbrayev də var idi. O, elmi tədbirdə "Dədə Qorqud kitabı" və qazax eposları motivlərinin tipologiyası" mövzusunda maraqlı məruzə ilə çıxış etmişdir [204, s.1; 203, s.1].

1989-cu ildə tanınmış Azərbaycan memarı, memarlıq doktoru C.Ə.Qiyasinin "Azərbaycan və Orta Asiya memarlığında kərpic dekoru (X-XIII əsrlər)" məqaləsi çap olunmuşdu. Məqalədə Qazaxıstanla bağlı materiallar, məlumatlar da öz əksini tapmışdı [359, s.15-19].

1989-cu ildə şöhrəti sərhədlərə sığmayan dahi Nizaminin qüdrətli irsinin tədqiqi və təbliği istiqamətində əhəmiyyətli addımlar atılmaqdaydı. Belə ki, həmin ilin dekabr ayının 20-21-də Bakıda Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Leyli və Məcnun" poemasının 800 illiyi və nizamişünaslığın aktual problemləri" mövzusunda IV Nizami konfransı keçirilmişdir. Konfransda Ədəbiyyat İnstitutunun əməkdaşları ilə yanaşı Akademiyanın Fəlsəfə, şərqşünaslıq, Fizika İnstitutları, respublika ali məktəbləri, həmçinin Gürcüstan SSR, Qazaxıstan SSR və Tacikistan SSR-in elm ocaqlarının mütəxəssis alimləri iştirak etmişdir. İki gün ərzində konfransın plenar və 3 bölmədən ibarət iclaslarında Nizami "Leyli və Məcnun"unda tarixilik, poetika və sənətkarlıq problemləri, elmi-sosial və fəlsəfi baxışlar, ədəbi-bədii təsir və əlaqələr üzrə 22 məruzə və bir silsilə çıxış dinlənilmiş və fikir mübadiləsi aparılmışdır [465, s.2].

IV Nizami konfransında 20 Azərbaycan alimi (T.Kərimov, T.Xalisbəyli, M.Axundov, F.Bayramov, akademik H.B.Abdullayev, L.Vəliyev, N.Araslı, M.Əlizadə, M.Kazımov, T.Məhərrəmov, Ç.Sadıqoğlu, Ə.Rəhimov, X.Hüseynov, Ə.Abbasov, G.Hüseynova, Z.Allahverdiyeva, Z.Quluzadə, Z.Məmmədov, A.Kazımov, A.Rüstəmova) müxtəlif mövzularda məruzələr etmiş və müzakirələr zamanı fikir mübadilələrinə qoşulmuşlar [465, s.1-2].

Konfransda qazaxıstanlı alim, filologiya elmlər doktoru J.Kumısbayev "Qazax ədəbiyyatında Nizami ənənələri" mövzu-

sunda məruzə edərək [214, s.12], Nizami əsərlərinin təsir dairəsinin düşünüləndən də daha əhatəli və tutumlu olduğunu “Xəmsə” və ona daxil olan əsərlərin nəinki analoji bədii nümunələrə, eləcə də bir çox kənar mövzulara da öz ideya və forma təsirini göstərdiyini söyləmişdir [465, s.2].

1990-cı ildə Alma-Atada Türk dillərinin fonetikasına dair I Ümumittifaq konfransında Azərbaycanın görkəmli dilşünas alimi, filologiya elmlər doktoru, professor A.A.Axundov “Azərbaycan dilində ərəb alınmalarının fonetik taleyi” mövzusunda məruzə etmiş [6, s.19, 104] və həmin ildə onun “Azərbaycan dilinin tarixi və etimoloji lüğətinin tərtibi təcrübəsindən” adlı məqaləsi Alma-Atada nəşr edilən “Türk dilinin etimologiyasının problemləri” toplusunda çap olunmuşdu [590, s.47-50; 6, c.103, 104].

1991-ci ilin dekabrında Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Müdafiə Şurası Qazaxıstan tədqiqatçısı M.T.Murzatovun “Şimali Qazaxıstan bölgəsi ərazisindəki dərə eroziyası və bununla mübarizə üçün bəzi tədbirlər” mövzusundakı namizədlik dissertasiyasını açıq müdafiəyə buraxdı. Qazaxıstan Dövlət Universitetinin coğrafiya fakültəsinin Geomorfologiya kafedrasında yerinə yetirilmiş bu dissertasiyanın müdafiəsi 1992-ci il fevralın 11-də keçirildi [688, s.1-2].

Tədqiqatçı M.T.Murzatovun elmi rəhbəri coğrafiya elmlər doktoru, geologiya-minerologiya elmləri namizədi, Qazaxıstan SSR-in əməkdar elm xadimi, professor M.İ.Jandaev və aparıcı elmi müəssisə Qazaxıstan SSR EA Coğrafiya İnstitutu idi.

Dissertant M.T.Murzatovun rəsmi opponentləri Azərbaycan SSR EA Coğrafiya İnstitutunun əməkdaşları – coğrafiya elmləri doktoru, professor M.A.Museyibov və coğrafiya elmlər namizədi Q.A.Xəlilov idilər [688, s.1-2].

1991-ci ildə Alma-Atada Qazaxıstan SSR EA A.B.Behturov adına Kimya İnstitutunun əməkdaşı Q.C.Pirəliyev “Piperidin və dekahidrokinolinin yeni törəmələrinin sintezi, sterokimyası və xüsusiyyətləri” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək kimya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Müdafiə zamanı Q.C.Pirəliyevin rəsmi opponentlərindən biri tanınmış Azərbaycan alimi, kimya elmləri doktoru, professor S.F.Qarayev olmuşdur [494, s.114].

1991-ci il iyunun 14-dən 17-dək Bakıda Xəzəryanı region respublikalarının Xəzər dənizinin problemlərinə dair I Beynəlxalq konfransı keçirilmişdir. Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsinin və Elmlər Akademiyasının təşəbbüsü ilə çağırılmış bu beynəlxalq görüşdə görkəmli alimlər və təbiəti mühafizə idarələri rəhbərlərinin böyük bir qrupu iştirak etmişdir. Qazaxıstandan gəlmiş nümayəndə heyətinə SSRİ Balıqçılıq Təsərrüfatı Nazirliyi Xəzər Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun direktoru, Qazaxıstan SSR Dövlət Ekologiya Komitəsi sədrinin birinci müavini T.K.Şandrov başçılıq etmişdir [458, s.1].

Xəzər problemlərinə dair Bakıda beş gün davam etmiş I Beynəlxalq konfransın sonunda Xəzər dənizinin xilas edilməsinə dair kompleks Proqram hazırlanması barəsində təkliflər paketi qəbul olunmuşdur. Bu mötəbər Bakı məclisinin digər yekunu Ali Xəzər Şurasının təşkili üzrə hazırlıq komitəsinin yaradılması idi. Qeyri-hökumət orqanı olan bu şuraya ən yüksək səlahiyyətlər veriləcəkdi. Şura Xəzərdə ekoloji vəziyyətin sabitləşdirilməsi və sağlamlaşdırılması üçün Xəzəryanı region dövlətlərinin səylərini birləşdirəcəkdi [316, s.1].

Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru A.H.Feyzullayevanın "Oljas Süleymenov (yaradıcılığın spektral öyrənilməsi)" əsərində XX əsrin 70-80-ci illərində Azərbaycan-Qazaxıstan elmi-mədəni əlaqələrində Oljas Süleymenovun rolu araşdırılmışdır [696].

T.ü.f.d., dosent Ə.B.Ələkbərov "Azərbaycan-Qazaxıstan mədəni əlaqələrinin inkişafında Oljas Süleymenovun rolu" məqaləsində Azərbaycan-Qazaxıstan elmi-mədəni əlaqələrini iki mərhələdə araşdırır. Birinci mərhələ Azərbaycanın müstəqilliyə qədərki dövrdə (XX əsrin 70-80-ci illərində) iki respublika arasındakı elmi-mədəni əlaqələrə toxunur [206, s.380- 395]. İkinci mərhələ isə müstəqillik dövrü ilə bağlıdır.

Tarix elmləri doktoru Nisbət Mehdiyevanın "Azərbaycan-Qazaxıstan mədəni əlaqələri (XX əsrin 60-80-ci illəri)" məqaləsində iki respublika arasında elmi əlaqələrə də yer verilmişdir [376, s.212-217].

XX əsrin 80-ci illərində Azərbaycan və Qazaxıstanın Mərkəzi Elmi Kitabxanaları da bir-biri ilə sıx əlaqə saxlayır, çap edilmiş bütün elmi jurnalları, keçirilmiş konfransların materiallarını əməkdaşlıq şəraitində bir-birilərinə göndərirdilər.

XX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanla Qazaxıstan arasında ikitərəfli əlaqələrə xüsusi önəm verməyə başladılar. Bu təsadüfi deyildi. Çünki mərkəz əvvəlki mövqeyini, hökmünü itirmiş, mərkəzdənqaçma meyli daha da güclənmişdi. İndi respublikalar "böyük qardaşın ümidi"nə inamı itirir və özləri gələcək əlaqə və inkişaf yolları axtarırdılar.

1990-cı il oktyabrın 29-da Azərbaycan SSR ilə Qazaxıstan SSR arasında Bakıda imzalanmış iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında hökumətlərarası saziş bu əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəlməsinə təkan verirdi. Hüquq bərabərliyi və qarşılıqlı fayda prinsiplərinə əsaslanan bu Bakı sazişi həm də respublikaların müstəqilliyi və suverenliyi yolunda əslində ilk ciddi addım olub, onların gələcək əlaqələrinin daha səmərəli olmasına meydan açırdı [481, s.1].

Sazişi Azərbaycan tərəfindən Azərbaycan SSR Nazirlər Sovetinin sədri H.Ə.Həsənov və Azərbaycan hökuməti komissiyasının rəhbəri, respublika Dövlət Maddi-Texniki Təchizat Komitəsinin sədri A.Ş.Əzizbəyov, Qazaxıstan tərəfindən Qazaxıstan SSR Nazirlər Sovetinin sədri U.K.Karamanov və hökumət komissiyasının rəhbəri, respublika Dövlət Maddi-Texniki Təchizat Komitəsinin sədri A.İ.Bektemisov imzalamışlar [481, s.1].

Bakı sazişi bütün fəaliyyət sahələrində yaranmış iqtisadi və mədəni əlaqələri genişləndirmək və möhkəmləndirmək istiqamətlərində geniş meydan açırdı. İmzalanmış saziş həm də elm, texnika və mədəniyyət sahəsində əməkdaşlığın çoxlu sayda ehtiyat mənbəyini aşkara çıxarmağa imkan verirdi.

Azərbaycan və Qazaxıstan respublikalarının hər ikisində eyni vaxtda, 1945-ci ildə Elmlər Akademiyaları yaradılmışdır. 1932-ci ildə SSRİ EA-nın Qazaxıstan bazası təşkil edilərkən onun iki bölməsi (zoologiya və botanika) var idisə, 1938-ci ildə SSRİ EA Qazaxıstan filialı yaradılarkən isə 100 elmi işçisi (o cümlədən, 3 elmlər doktoru, 14 elmlər namizədi), 12 elmi-tədqiqat institutu, 15 təcrübə stansiyası, 186 məntəqə, laboratoriya, hidrometeroloji stansiya və geoloji-kəşfiyyat təşkilatı var idi [704, s.9].

1945-ci ildə SSRİ EA-nın Qazaxıstan filialı əsasında Qazaxıstan EA yaradılarkən isə onun əsasında 16 institut və 7 bölmədə 6 akademik və müxbir üzv, 60 elmlər doktoru, professor, 140-dan çox elmlər namizədi var idi. 1945-ci ildə Qazaxıstan ali məktəblərinin 130 müəllimi uğurla dissertasiya müdafiə edərək elmlər doktoru və namizədi elmi dərəcəsini almışdılar [632, s.177].

1940-cı ildə Qazaxıstan SSR Elmlər Akademiyasında 1,7, 1950-ci ildə 3,3, 1965-ci ildə 18,2, 1970-ci ildə 26,8, 1975-ci ildə 32,0 [655, s.143], 1980-ci ildə 21,1 və 1990-cı ildə 10,994 min elmi işçi var idi [624, s.108].

Qazaxıstanda elmi işçilərin ümumi sayında milli tərkibə görə götürdükdə, qazaxlar 1950-ci ildə 739, 1960-cı ildə 2.290, 1965-ci ildə 4.523, 1970-ci ildə 7.905, 1971-ci ildə 8.629 və 1975-ci ildə 11.463 nəfər idi [654, c.105-106; 655, s.142-144].

Qazaxıstan SSR EA-nın maddi-texniki bazasının möhkəmlənməsində Qazaxıstan KP MK və Qazaxıstan SSR Nazirlər Sovetinin 1980-ci il 15 aprel tarixli "Elmi tədqiqat işlərinin səmərəliliyinin daha da artırılması üçün Qazaxıstan SSR Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında" qərarının mühüm əhəmiyyəti olmuşdur [637, s.297].

1990-cı ildə Qazaxıstan SSR EA-da 1945-ci illə müqayisədə elmi-tədqiqat müəssisələrinin sayı 2 dəfə artaraq 16-dan 32-yə, ümumi əməkdaşlarının sayı 5,2 dəfə artaraq 2.100 nəfərdən 10.994 nəfərə, elmlər doktoru, professorların sayı 2,4 dəfə

artaraq 60 nəfərdən 244 nəfərə, elmlər namizədlərinin sayı 12,8 dəfə artaraq 140 nəfərdən 1.798 nəfərə çatmışdı [624, s.103-110; 654, s.105-16; 655, s.143-144].

Qazaxıstan Respublikasının Prezidentinin 20 oktyabr 2011-ci il tarixli 164 №-li sərəncamı ilə hər il aprelin 12-də Qazaxıstanda "Elmi işçilər günü" keçirilir. Bu, Qazaxıstan SSR EA-nın ilk prezidenti, akademik Kanış İmantay oğlu Satbayevin (1899-1964) doğum günü ilə əlaqədar 12 aprel günü götürülür. O, bütün işıqlı həyatını Vətən elminin inkişafına sərf etmişdir [686].

Azərbaycan SSR-də götürüldükdə isə, elmi işçilərin sayı 1940-cı ildə 1,9, 1950-ci ildə 3,4, 1965-ci ildə 12,4, 1970-ci ildə 17,1, 1975-ci ildə 21,3 min nəfər idi [655, s.143].

Azərbaycanın elmi potensialı əsasən Azərbaycan SSR EA-da cəmləşmişdir. Əgər 1970-ci ildə Azərbaycan EA-da elmi işçilərin sayı 3318, elmlər namizədlərinin sayı 1311, elmlər doktorlarının sayı isə 209 nəfər idisə [103, s.238] 1982-ci ildə müvafiq olaraq həmin rəqəmlər 4511, 1846 və 274 nəfərə çatmışdı. Eləcə də həmin dövrdə EA-da çalışan akademik, müxbir üzv və professor elmi adı daşıyanların sayı 1970-ci ildəki 506 nəfərdən 730 nəfərə yüksəlmişdi [354, s.279].

1945-1970-ci illərdə Azərbaycan alimlərinin nailiyyətlərindən cəmi 170 əsəri sovet elminin mühüm nailiyyətləri sırasına daxil edilmişdisə, sonralar – 1971-1980-ci illərdə bu göstərici 2,8 dəfə artaraq 486-ya çatmışdı. "1970-ci ildə xalq təsərrüfatı planı üzrə cəmi 2 iş tətbiq edilmişdisə, 1976-cı ildə onların sayı 11-ə, 1977-ci ildə 15-ə çatmışdı. 1979-cu ilin planına 47 iş daxil edilmişdi. 1976-1979-cu illərdə istehsalata ümumi iqtisadi səmərəsi ildə 280 milyon manat olan 247 iş verilmişdir, halbuki doqquzuncu beşillikdə təxminən 235 milyon manat iqtisadi səmərəsi olan 203 iş tətbiq olunmuşdu. Çəkilən xərclərin hər manatı hesabı ilə elmi-tədqiqat işlərinin səmərəliliyi durmadan yüksəlirdi. 1970-ci ildən 1978-ci ilədək bu göstərici 3,5 dəfə artmışdır" [2, s.79-80].

Azərbaycan EA-da 1970-1978-ci illərdə elmi işlərin strukturunda əhəmiyyətli mövzuların xüsusi çəkisi 11,7 %-dən 54,5%-ə yüksəlmişdi [354, s.287].

XX əsrin 50-ci illərindən başlayaraq milli tərkibinə görə, azərbaycanlı elmi işçilərin sayı ilbəil artırdı. Belə ki, bu göstərici 1950-ci ildə 1.932, 1960-cı ildə 4.972, 1965-ci ildə 8.642, 1970-ci ildə 13.017, 1975-ci ildə 16.826 (654, s.105; 655, s.142), 1980-ci ildə 18.320 və 1990-cı ildə 12.450 nəfər olmuşdur. Bu gün AMEA-da 10 minə yaxın əməkdaş, o cümlədən 4.939 elmi işçi, 664 elmlər doktoru, 2.026 fəlsəfə doktoru çalışır. Akademiyanın 72 həqiqi və 112 müxbir üzvü vardır [438].

Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Azərbaycan EA Azərbaycan Milli Elmlər Akademiyası adlandırılmış [75, s.543] və Respublika Prezidentinin 9 aprel 2018-ci il tarixli sərəncamı ilə "Elm günü" təsis edilmişdir [77]. Buna görə də hər il martın 27-də Akademiyanın yaradıldığı gün münasibətilə Azərbaycan Respublikasında "Elm günü" qeyd edilməkdədir.

Müstəqillik dövründə elmi əlaqələri inkişaf etdirməyə daha çox ehtiyac vardır. Çünki elmə söykənən iqtisadiyyat mütərəqqi inkişaf xətti götürür və böyük yüksəlişə, tərəqqiyə nail olmağa imkan yaradır. Güclü iqtisadiyyat isə müstəqilliyin əbədi olması və dönməzliyidir. Elmi əlaqə işıqlı düşüncə, parlaq gələcəkdir. Elmi əlaqələrin inkişafı istiqamətində aşağıdakı şərtlərə əməl olunması daha yaxşı nəticələr doğura bilər:

1. Müştərək elmi-tədqiqat işlərinin aparılması.
2. Məqsədli aspirantura-doktorantura yolu ilə elmi kadrların hazırlanması.
3. Humanitar sahədə bakalavr, magistr mübadiləsi yolu ilə fəlsəfə doktorlarının yetişdirilməsi.
4. Ayrı-ayrı problemlərin qruplar halında birgə tədqiqatına nail olunması.
5. Mühüm elmi yeniliklərin ardıcıl şəkildə bölüşdürülməsi.
6. Tanınmış alimlərin elmi ezamiyyətlərinin müntəzəm təşkilinə nail olunması.

7. Ayrı-ayrı elmi problemlər ətrafında tanınmış alimlərin mühazirələrinin dinlənilməsi.

8. İxtisaslaşdırılmış Müdafiə Şuralarında təmsil olunmaq, yaxud regional problemlərin birgə həllində məqsəd ümumiliyinə yiyələnmək.

9. Elmi arxivlərdə, cari saxlanc yerlərində qorunmuş əlaqədar elmi materialların birgə tədqiqata cəlb olunması.

10. Mərkəzi Elmi Kitabxanalar vasitəsilə kitab və elmi jurnalların mübadiləsində ardıcıllıq və müntəzəmliyin saxlanması.

11. Elmi-Əlaqələndirmə şuraları arasında müsbət dinamikaya köklənmiş görüş, söhbət və fikir mübadilələrinin aparılma zəruriliyinə ehtiyac hissinin vacibliyinin dərk olunması.

12. Beynəlxalq Türk Akademiyası (BTA) xətti ilə türkdilli ölkələrin tanınmış alimlərinin ümumbəşəri problemlərin (məs., Covid 19, xərçəngə qarşı mübarizə və s.) həlli istiqamətində tədqiqat qruplarını yaratmaq, maliyyələşdirmək və onların daha geniş spektrdə axtarışlarına stimul vermək.

Bu tövsiyə və təkliflər tədqiq etdiyimiz respublikaların hər birinə də aid olduğu üçün, sonrakı fəsillərin sonunda onları təkrarçılıq olmaması naminə yenidən yazmağı artıq hesab edirik.

## II Fəsil

## Azərbaycan-Qırğızıstan elmi əlaqələri

Azərbaycan və qırğız xalqlarının elmi-mədəni əlaqələrinin tarixi çox qədimdir. Onları dil, din, qan qardaşlığı və ortaq etno-mədəni dəyərlər birləşdirir. Bu gün biz həmin çoxəsrlik dəyərlərə güvənərək müstəqilliyimizin inkişafı və daha da möhkəmləndirilməsinə nail olmaqla, tarixin sınaqlarından çıxmış bu isti və doğma münasibətlərə söykənməklə qloballaşan dünyaya inteqrasiya olmalıyıq.

1997-ci il aprelin 23-də Qırğızıstan Respublikasının prezidenti Ə.Akayevin Azərbaycana bir günlük səfəri zamanı keçirilən birgə mətbuat konfransında böyük öndər, mərhum prezidentimiz H.Əliyev demişdir: “Qırğızıstan ilə Azərbaycan arasında sıx münasibətlər, dostluq münasibətləri möhkəm zəminə və yaxşı perspektivə malikdir. Biz daha da irəliləmək, gözəl gələcəyə doğru getmək əzmindəyik” [348, s.2].

Bu tarixi səfərə yüksək qiymət verən Qırğızıstan prezidenti Ə.Akayev isə belə söyləmişdir: “Bu gün biz qardaş xalqlarımız arasında ənənəvi, çoxəsrlik, minillik dostluğu möhkəmlətmək üçün bütün sahələrdə - ticarət, iqtisadi, humanitar, mədəniyyət, turizm sahələrində əməkdaşlığı dirçəltmək, genişləndirmək üçün bünövrə qoyduq.

Əlbəttə, biz güman edirik ki, bu bünövrə nəinki indi, yaxın illərdə ölkələrimiz arasında yeni münasibətlər qurmaq üçün möhkəm olacaq, həm də zənnimcə, bunlar gələcəyə, XXI əsrə yönəldilmiş sənədlərdir. Bu, yeni nəsillərə qardaş xalqlarımız arasında, ölkələrimiz arasında dostluğu dinamik surətdə inkişaf etdirməyə və möhkəmlətməyə imkan verəcəkdir. Ona görə də Qırğızıstan nümayəndə heyəti qardaş Azərbaycana ilk rəsmi səfərimizi tarixi səfər kimi qiymətləndirir” [348, s.2].

Məhşur “Kapital” əsərinin müqəddiməsində K.Marksın verdiyi: “Hər bir millət başqasından öyrənə bilər və öyrənməlidir.”- fikrini təsadüfi işlətməmişdir [375, s.7] Çünki bəşəriyyət

öyrənməklə bərabər, öyrətmək yolu ilə də öz nailiyyətlərini daim zənginləşdirmişdir.

Azərbaycan və qırğız xalqları arasındakı elmi, ədəbi-mədəni əlaqələr tarixi inkişafın mühüm və əhəmiyyətli amili kimi daim mövcud olmuşdur. Bu gün daha vacib və aktual olan həmin amillərə söykənərək qabağa getmək zamanın qarşımıza qoyduğu başlıca tələblərdən biridir.

Azərbaycan xalqı qədim və zəngin bir mədəniyyətin sahibi və daşıyıcısıdır. Xalqımız əsrlər boyu təmasda olduğu hər bir xalqın mədəni nailiyyətlərinə hörmətlə yanaşmış, elmimizi, mədəniyyət və ədəbiyyatımızı daim həmin xalqların mədəniyyət və ədəbiyyat sahəsindəki uğurlu, müsbət cəhətləri ilə qarşılıqlı əlaqə və təsir prosesində inkişaf etdirmişdir: bəzən təsir göstərmiş və bəzən də təsirlənmişdir, mövzu vermiş və mövzu almışdır, faydalanaraq zənginləşmiş və özü də fayda verərək zənginləşdirmişdir [225, s.3].

Azərbaycanın Qırğızıstanla mədəni əlaqələrinin inkişafında elmi əlaqələr də mühüm əhəmiyyət kəsb etmişdir. Elm ictimai şüurun formalarından biri olmaqla bərabər, həm də insanların əməli və nəzəri fəaliyyətlərində əsas spesifik sahəyə çevrilmişdir. Elmin cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə göstərdiyi təsirin sosial nəticələri əvəzsizdir. O, bütövlükdə böyük bir sistem- təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir [39, s.40].

Görkəmli ictimai xadim M.F.Axundov elmin əhəmiyyətini yüksək dəyərləndirir, ona təkcə insanların məişət şəraitini təmin edən vasitə kimi baxmamağa çağırır, elm öyrənməklə böyük mərifət və fəzilət sahibi olmağın mümkünlüyünü göstərir və insanlara elmə “eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitə” [404, s.108-109] kimi baxmağı məsləhət görürdü.

Elm tərəqqiyə stimul verdiyindən, buna görə də o, həmişə böyük diqqət mərkəzində olmuş və daim yüksək dəyərləndirilmişdir. Elmin sərhəd hüdudları yoxdur. O, ümumbəşəri mahiy-

yət daşıyır. Elm həmişə gərəkli və faydalı, eləcə də bütün dünyanın taleyi və gələcəyi ilə bağlı olduğundan elmi əlaqələri dərinləşdirmədən böyük və ciddi problemlərin həllini tapmaq qeyri-mümkündür.

Azərbaycanın Qırğızıstanla elmi əlaqələrinin əhatə dairəsi geniş idi. Elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-texniki işlərin aparılması, elmi-texniki kömək göstərilməsi, məsləhətləşmələr, mühazirə və məruzələr edilməsi, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və digər formalarda bu elmi əlaqələr daha çox özünü göstərirdi [480, s.126].

### 2.1. 1920-1945-ci illərdə elmi əlaqələr

Qırğızıstan 1924-cü il oktyabrın 14-də RSFSR tərkibində Qara-Qırğızıstan, 1925-ci ilin mayından Qırğızıstan MSSR olmuşdur. 1936-cı il dekabrın 5-dən müttəfiq respublikadır [38, s.165].

Sovet hakimiyyətinin ilk illərində Qırğızıstanın təbii sərvətləri və məhsuldar qüvvələri SSRİ EA tərəfindən tədqiq edilirdi. 1924-cü ildə Qırğızıstanda Akademik Mərkəz təsis olundu. 1926-cı il fevralın 1-də Qırğızıstan MSSR yarandıqdan sonra burada 1928-ci ildə Ölkəşünaslıq İnstitutu, 1931-ci ildə Elmi-Tədqiqat Heyvandarlıq İnstitutu təsis edildi [38, s.168].

Müharibənin ilk günlərindən başlayaraq Qırğızıstanın xalq təsərrüfatı hərbi qaydada quruldu. Qırğızıstan ordunun cəbbəxanalarından birinə çevrildi. Düşmənin əlinə keçməmək üçün SSRİ-nin şimal rayonlarından çox böyük miqyasda xalq təsərrüfatı yüklərinin köçürülməsinə başlanıldı. Təkcə 1941-ci ilin iyul-noyabr aylarında SSRİ-nin işğal olunmuş ərazilərindən şərq rayonlarına ümumilikdə 1523 müəssisə köçürülmüşdü. Bu müəssisələrin 667 ədədi Urala, 22 ədədi Sibirə, 78 ədədi Şərqi Sibirə, 308 ədədi Orta Asiya və Qazaxıstana, 226 ədədi Volqaboyuna köçürülmüşdü [630, s.148]. Ümumilikdə müharibə illərində insan və yüklərlə dolu 1.5 milyon vaqon arxa zonalara daşınmışdı [683, s.322]. Bakı dəniz limanı İkinci dünya müharibəsi illərində

bu irimiqyaslı köçürmə işlərində başlıca rol oynamışdı. 1941-ci ilin avqust ayından limana ölkənin şimal rayonlarından Orta Asiyaya köçürülən müəssisələrin yükləri və sərnişinləri gəlməyə başlamışdı [291, s.117-118]. Həmin köçürmələr dövründə Qırğızıstana 30-dan çox iri zavod və fabrik, 1941-ci ilin yay və payızında isə 139 min fəhlə, kolxozçu və qulluqçu köçürülmüşdü [38, s.166]. Köçürülənlər arasında ölkə səviyyəsində kifayət qədər yaxşı tanınmış alimlərin və mühəndis-texniki işçilərin olması da, Qırğızıstanda elmi mühitin yaranması və inkişafına öz müsbət təsirini göstərirdi.

İkinci dünya müharibəsi illərində SSRİ EA-nın bir sıra elmi müəssisələrinin Qırğızıstana köçürülməsi ilə əlaqədar tədqiqatların sayı da sürətlə artdı. Nəticədə, 1943-cü il yanvarın 5-də SSRİ EA-nın Qırğızıstan filialı yarandı. 1943-1952-ci illərdə ona akademik Konstantin İvanoviç Skryabin (1878, 7 dekabr - 1972, 17 oktyabr) rəhbərlik etmişdir. 1954-cü il dekabrın 20-də Frunze şəhərində ( indiki Bişkek) SSRİ EA-nın  Qırğızıstan filialının bazasında Qırğızıstan EA yaradılmışdır. Onun ilk prezidenti 1954-1960-cı illərdə, məhşur sovet cərrahı, Qırğızıstanda döş qəfəsi cərrahiyyəsinin qurucusu İsa Konoyeviç Axunbayev (1908, 25 sentyabr- 1975, 5 yanvar) olmuşdur [38, s.168]. Qırğızıstan  hökumətinin 1993-cü il 18 avqust tarixli 386 saylı qərarı ilə Qırğızıstan SSR EA- Qırğızıstan MEA-ya çevrilmişdir.

XX əsrin 50-ci illərində Qırğzıstan SSR EA-da kənd təsərrüfatının tələbatı ilə əlaqədar biologiya və geologiya sahələrində tədqiqatlar üstünlük təşkil edirdisə, 60-cı illərdə isə bir sıra yeni elmi müəssisələrin açılması nəticəsində texnika, kimya, fizika, riyaziyyat və s. sahələrdə də tədqiqatlar genişlənmişdir [38, s.168].

XX əsrin 20-30-cu illərindən başlayaraq Qırğızıstanın təbii sərvətləri və istehsal qüvvələri ardıcıl və sistemli şəkildə öyrənilməyə başlanmışdır.

Tanınmış azərbaycanlı alim, geologiya-mineralogiya elmləri doktoru, professor, SSRİ EA müxbir üzvü (1953) Ə.A.Əmiraslanov “1930-1938-ci illərdə Ural, Qazaxıstan, Orta Asiya, Za-

baykalye və Qafqazdakı mis, qurğuşun, sink və qalay yataqlarında elmi-tədqiqat işləri aparmışdır" [39, s.203]. Ə.A.Əmiraslanovun tədqiqatları içərisində Qırğızıstana da yer verilmişdi.

Müharibəyə qədər iki respublikanın alimləri daha çox kənd təsərrüfatı sahəsindəki elmi araşdırmalarının nəticələrini bir-birləri ilə bölüşür, xüsusən pambıqçılıq sahəsində və heyvandarlıqda qabaqcıl təcrübənin elmi əsaslara söykənməklə inkişafına təkan verirdilər.

### 2.2. 1946-1960-cı illərdə elmi əlaqələr

Müharibə iqtisadi əlaqələri zəiflətdiyi kimi, elmi əlaqələrin genişlənməsinə də mane olmuşdu. Yalnız müharibədən sonra dinc həyata qayıdış, böyük bərpa və quruculuq işlərinin başlanması, elmin rolunun və ona göstərilən dövlət dəstəyinin artması da elmi əlaqələrin canlanmasına və inkişafına stimul yaratmışdı. 1954-cü il dekabrın 20-də Qırğızıstan SSR EA-nın yaradılması da, dövlət dəstəyinin bariz nümunəsi idi [38, s.168].

XX əsrin 50-ci illərində Qazaxıstan və Mərkəzi Asiya respublikalarında keçirilən elmi tədbirlərdə Azərbaycan və qırğız alimlərinin birgə iştirakı və müntəzəm görüşləri də iki ölkə arasında elmi əlaqələrin inkişafına öz müsbət təsirini göstərirdi.

Böyük Türkmən Kanalının çəkilməsi ilə bağlı Qazaxıstan və Mərkəzi Asiyanın biloji aləmi və kənd təsərrüfatında baş verəcək dəyişikliklərin nəticələrini müzakirə etmək üçün 1952-ci il noyabrın 20-dən dekabrın 1-dək Daşkənddə elmi sessiya keçirilmişdir. Sessiyanı SSRİ EA və Özbəkistan EA-nın biologiya və kənd təsərrüfatı bölmələri təşkil etmişdilər. Sessiyada Özbəkistan, Türkmənistan, Tacikistan, Qazaxıstan, Azərbaycan SSR EA-lar və SSRİ EA-nın Qırğızıstan filialının biologiya və kənd təsərrüfatı bölmələri tərəfindən göndərilmiş alimlər iştirak edirdilər. 7 bölmə üzərində öz işini qurmuş sessiyada Azərbaycan və qırğız alimləri müxtəlif mövzularda çıxışlar etmiş, elmi müzakirələrdə fikir və mülahizələrini bölüşdürmüşlər [69, v.61].

1955-ci il yanvarın 12-də Özbəkistan SSR EA-nın təşəbbüsü və təşkilatçılığı ilə ölkədə pambıqçılığı inkişaf etdirməklə

məşğul olan elmi təşkilatların fəaliyyətini əlaqələndirmək məqsədi ilə Daşkənddə Respublikalararası müşavirə keçirilmişdir. Müşavirədə Özbəkistan, Tacikistan, Azərbaycan, Türkmənistan, Qazaxıstan və Qırğızıstanın elmi idarələrinin nümayəndələri iştirak etmişlər [453, s.2].

Ümumi və bölmə iclaslarında digər respublika alimləri ilə yanaşı, Azərbaycan və qırğız alimləri də geniş rəy mübadiləsi nəticəsində elmi idarələrin fəaliyyətinin yaxşılaşdırılmasına, onların istehsalatla əlaqəsinin gücləndirilməsinə kömək edə biləcək bir sıra əhəmiyyətli tövsiyyələr irəli sürmüşlər.

1956-cı ildə Bakıda türk dilləri dialektologiyası məsələlərinə həsr edilmiş elmi əlaqələndirmə müşavirəsini (10-13 dekabr) SSRİ EA-nın dialektologiya işini əlaqələndirmə komissiyası ilə birlikdə Azərbaycan SSR EA təşkil etmişdi. Müşavirənin işində Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Frunze, Kazan, Tbilisi, Çeboksarı, Tobolsk, Abakan alim türkoloqları ilə yanaşı, görkəmli Polşa türkoloqu, Polşa EA-nın şərqşünaslıq Komitəsinin sədri professor A.A.Zayonçkovski də iştirak etmişdir [535, s.4].

Müşavirə iki problemə - türk milli ədəbi dillərinin əsasını təşkil edən dialekt probleminə və türk dilləri dialektlərinin öyrənilməsi işinin vəziyyətinə həsr olunmuşdu. Müşavirədə azərbaycanlı alimlərdən Azərbaycan SSR EA-nın müxbir üzvü, professor, M.Şirəliyev “Azərbaycan milli ədəbi dilinin əsasını təşkil edən dialekt haqqında”, Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnstitutunun direktor müavini, filoloji elmlər namizədi R.Rüstəmov “Azərbaycan dili dialektlərinin öyrənilməsi işinin vəziyyəti haqqında”, qırğız alimi, filoloji elmlər namizədi K.Bakinova “Qırğız dialektlərinə dair material toplanması prinsipləri haqqında” və digər mövzularda 20-dən çox alim məruzə etmişdir [535, s.4].

Müşavirədə müzakirə edilən məsələlərə dair geniş əməli təkliflər qəbul olunmuş və türk dilləri dialektologiyası məsələlərinə həsr edilən ikinci məhəlli müşavirənin 1957-ci ilin sentyabr-oktyabr aylarında Tatarıstan MSSR-də keçirilməsi lazım bilinmişdir [535,  s.4].

1956-cı ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun lüğət şöbəsi 6 m.v. həcmində "Azərbaycan dili izahlı lüğətinin layihəsi"ni hazırlayıb nəşriyyata təqdim etmişdi. Bu, SSRİ-dəki türkdilli respublikaların hamısı üçün ilk təcrübə olduğundan onların arasında ciddi maraq doğurmuşdu. Lakin nəşriyyat planının həcmi məhdud olduğundan layihənin çapı ləngiyir və nəticədə dördcildlik izahlı lüğətin hazırlanması və çapı da gecikirdi. Bu barədə Azərbaycan SSR EA-nın prezidenti M.M.Əliyev 1957-ci ildə Azərbaycan KP MK Təbliğat şöbəsinin müdiri Ş.Qurbanova göndərdiyi məktubda yazırdı: "Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu Azərbaycan dilinin dördcildlik izahlı lüğətini tərtib edir. Lüğətin birinci cildi artıq tərtib edilib qurtarmışdır.

Belə bir lüğətin hazırlanması təkcə Azərbaycan üçün deyil, SSRİ-dəki türkdilli respublikaların hamısı üçün ilk təcrübədir. Buna görə də həmin lüğət hələ nəşr edilməmişdən əvvəl onun quruluşu, tərtib prinsipləri, əhatə etdiyi dil materialı və s. haqqında geniş oxucu kütləsinə, qısa da olsa, məlumat verilməlidir ki, lüğəti hazırlayan kollektiv öz işində məsləhət və göstərişləri nəzərə ala bilsin. Məhz bu məqsədlə institutun lüğət şöbəsi "Azərbaycan dili izahlı lüğətinin layihəsi"ni hazırlayıb (6 m.v. həcmində) hələ keçən il nəşriyyata təqdim etmişdir. Elmlər Akademiyasına verilmiş nəşriyyat planının həcmi məhdud olduğu üçün həmin layihəni çap etməyə imkan olmamışdır. Halbuki Nizami adına Ədəbiyyat və Dil İnstitutu, izahlı lüğət hazırlamaq istəyən Qazaxıstan, Qırğızıstan, Özbəkistan respublikalarının mütəxəssislərindən dəfələrlə məktublar almışdır ki, burada izahlı lüğətin tərtib prinsipləri və ümumiyyətlə bu sahədə nə cür iş aparmaq haqqında soruşurlar.

Bütün bunlar "Azərbaycan dili izahlı lüğətinin layihəsi" əsərinin tezliklə çap edilməsi və yayılmasının nə qədər vacib olduğunu aşkar surətdə göstərir" [66, v.256].

1957-ci il mayın 27-dən iyunun 4-dək Daşkənddə keçirilmiş şərqşünasların I Ümumittifaq elmi konfransının 6 bölmədən ibarət olan proqramına 105 məruzə daxil edilmişdi. Konfransa

Qırğızıstan SSR və Azərbaycan SSR-nin hər birindən 25 nümayəndə gəlmişdi. Konfransda Qırğızıstan SSR EA-nın akademiki B.Cəmiqurçinov "XIX əsrdə qırğız xalqının Rusiya ilə tarixi əlaqələri" və tarix elmləri namizədi N.T.Atabəyov "Qırğız xalqının mədəni irsinin öyrənilməsi" mövzularında məruzə etmişlər [163, v.34-39]. Azərbaycan SSR EA-nın vitse-prezidenti akademik Ə.S.Sumbatzadənin başçılıq etdiyi nümayəndə heyətinin üzvlərindən – Azərbaycan SSR EA-nın akademiklərindən - Ə.S.Sumbatzadə, Ə.Ə.Əlizadə, A.O.Makovelski, həmin akademiyanın müxbir üzvlərindən - Ə.Ə.Dəmirçizadə, M.A.Dadaşzadə, filologiya elmlər doktorları - H.M.Araslı, A.S.Fərəcov, tarix elmləri namizədləri - Ə.N.Quliyev, S.B.Aşurbəyli, M.Ə.Qazıyev, P.Ə.Əzizbəyova, Ş.Tağıyeva, M.Ə.İsmayılov, Z.Abdullayev, R.Qazıyev və başqalarının məruzələri maraqla qarşılanmışdır [163, v.51-52, 1-6].

1959-cu il mayın 6-da Azərbaycan EA Rəyasət Heyətinin nəzdində akademik M.S.Qaşqayın sədrliyi ilə beynəlxalq elmi əlaqələr üzrə xüsusi komissiya fəaliyyətə başladı. Bu, beynəlxalq, eləcə də respublikalararası daxili elmi əlaqələrdə Azərbaycan alimlərinin iştirakına təkan verdi. Elmimizin dünya elmi ilə əlaqə imkanları genişləndi [208, s.202].

XX əsrin 60-cı illərində Azərbaycan-Qırğızıstan elmi əlaqələri öz inkişafında yeni mərhələyə daxil oldu. Bu mərhələni xarakterizə edən və şərtləndirən başlıca səbəb bütün ölkə miqyasında elmə diqqətin artması və onun inkişafı istiqamətində yeni qərar və qanunların qəbul edilməsi idi. Sov. İKP. MK və SSRİ Nazirlər Sovetinin "Ölkədə elmi tədqiqatların koordinasiyasının təkmilləşdirilməsi və SSRİ Elmlər Akademiyasının fəaliyyətinə dair tədbirlər haqqında" (1961, sentyabr), "SSRİ Elmlər Akademiyasının və İttifaq respublikaları Elmlər Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər haqqında" (1963, aprel) və "Elmi təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılması və milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsini sürətləndirmək üzrə tədbirlər haqqında" (1968, sentyabr) qərarlarının mühüm əhəmiyyəti var idi. Ölkə üzrə elmi tədqiqatların əla-

qələndirilməsinin genişləndirilməsi üçün 1965-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə Elmi Əlaqələndirmə Şurası Elm və Texnologiya üzrə Dövlət Komitəsinə çevrildi.

1969-cu ilin əvvəllərindən etibarən, SSRİ-də Milli iqtisadiyyatın inkişafı üzrə Dövlət Planının tərtib edilməsinə dair "Milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsinin planlaşdırılması"yla bağlı metodik göstərişlərin verilməsinə başlandı [596, s.215].

Sov.İKP.MK-nın XXIV qurultayının (1971) hesabat məruzəsində ilk dəfə "Elmi texniki inqilab. Elmin istehsalatla birləşməsi" bölməsinin salınması da elmin nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyini göstərirdi [596, s.216].

1960-cı ildə Zaqafqaziya Respublikalarının üç gün çəkən (27-29 may) ədəbi əlaqələrə dair Yerevan konfransını SSRİ Elmlər Akademiyasının Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və Zaqafqaziya respublikaları elmlər akademiyalarının ədəbiyyatşünaslıq institutları təşkil etmişdi. Konfransda Azərbaycan, Gürcüstan və Ermənistan alimləri ilə birlikdə, Moskva, Litva, Türkmənistan və Qırğızıstan ədəbiyyatşünasları da iştirak etmişdilər [573, s.4].

Zaqafqaziya ədəbi əlaqələr konfransının ayrı-ayrı bölmələrində ədəbiyyatların qarşılıqlı əlaqələri və təsirinin öyrənilməsinə dair çoxlu sayda məruzələr dinlənilmişdir.

Həmin ildə Bakı şəhərindəki Tibb işçiləri evində Zaqafqaziya hematoloji və qanköçürmə institutlarının birinci respublikalararası konfransı (15-18 iyun) keçirilmişdir. Qırğızıstan tibb alimlərinin də iştirak etdiyi bu konfransda qanköçürmə elminin qarşısında duran ən vacib məsələlər – qanköçürmənin təsir mexanizminin öyrənilməsi, qandan yeni preparatların alınması üsulu, qanın laxtalanması, qan yaradan orqanlar və onların xəstəlikləri və s. məsələlər müzakirə edilmişdir [469, s.2].

1960-cı ildə Bakıda Azərbaycan SSR EA-nın Böyük salonunda türk dilləri dialektologiyası məsələlərinə dair üçüncü məhəlli əlaqələndirmə müşavirəsi (24-27 oktyabr) keçirilmişdir. Müşavirənin işində Moskva, Özbəkistan, Qazaxıstan, Gürcüstan,

Azərbaycan, Qırğızıstan, Türkmənistan, Moldava, Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Dağıstan, Yakutiya, Kabarda alimləri iştirak edirdilər [533, s.4].

Müşavirə qohum türk dillərinin öyrənilməsində dialektoloji materialların rolu, qədim türk abidələrinin dialektoloji xüsusiyyətləri, dil və dialekt, dialektoloji lüğətlərin tərtibi, dialektoloji atlasların proqramı və s. məsələlərin həllində mühüm rol oynamışdır [425, v.163].

Azərbaycan SSR EA-nın müxbir üzvü M.Şirəliyev konfransla əlaqədar Azər.TA müxbiri ilə söhbətində demişdir: "Fərəhlidir ki, müşavirənin iştirakçıları Sovet İttifaqının türk dialektologiyasında Azərbaycan dialektologiyasının əsas yer tutduğunu qeyd etmişlər. Azərbaycan dilinin bütün şivələrinə və dialektlərinə aid materiallar toplanması qurtarmış, çoxlu monoqrafiya əsəri yazılmışdır. Dialektoloji atlas və lüğət tərtib edilməsinə başlanmışdır.

Tatarıstan və Özbəkistan alimləri də böyük müvəffəqiyyətlər qazanmışlar. Qırğızıstanda, Qazaxıstanda və digər respublikalarda şivələrin və dialektlərin öyrənilməsi işi genişlənmişdir" [534, s.4].

Müşavirədə türk dilləri dialektlərinin öyrənilməsi zamanı vahid transkripsiya məsələsi də müzakirə olunmuşdur. Bu müşavirədə Qaraçay-Balkar və Tuva dilləri, habelə Moldova SSR-də 150 min adamın danışdığı qaqauz dili dialektologiyası ilk dəfə təmsil edilmişdir. "Müşavirə həmçinin IV məhəlli müşavirənin 1962-ci ildə Frunze şəhərində çağırılmasını, onun gündəliyinə türk dilləri dialektlərinin dilçilik coğrafiyası metodları ilə öyrənilməsi məsələlərini, dialekt sistemlərinin təşəkkülü problemini, habelə dialektoloji lüğətlər tərtib edilməsi məsələlərini daxil etməyi məsləhət görmüşdür" [534, s.4].

Türk dillərinin dialektologiyası məsələlərinə dair müşavirənin 20,2 çap vərəqi həcmində olan materialları – məqalələr və tezislər toplusu şəklində, iki kitab halında çap olunmuşdu. Məqalələr məcmuəsində sovet türkologiyasının elmi-nəzəri məsələləri, Azərbaycan, özbək, yakut, qaqauz və s. türk dili dialektləri,

dil və dialekt, dil tarixində dialektlər mövzusunda məqalələr toplanmışdı [636, v.168].

1961-ci il noyabrın 18-də SSRİ Yazıçılar İttifaqının bədii tərcümə işləri üzrə məsul katibi A.Qatovun imzasıyla Azərbaycan Yazıçılar ittifaqının birinci katibi Mehdi Hüseynə məktub göndərilmişdi. Məktubda 1961-ci il dekabrın 6-dan 8-dək Qırğızıstanın paytaxtı Frunzedə keçiriləcək bədii tərcümənin keyfiyyətinin yüksəldilməsinə dair Orta Asiya, Qazaxıstan və Azərbaycan ədəbiyyatçılarının Respublikalararası konfransına nümayəndələrin 5 dekabrda göndərilməsi xahiş olunurdu [502, v.10-11].

Azərbaycan Yazıçılar İttifaqının birinci katibi Mehdi Hüseynin Qırğızıstan Yazıçılar İttifaqına 1961-ci il dekabrın 3-də göndərdiyi teleqramda tərcümə məsələlərinə dair konfransda iştirak edəcək Cəlal Məmmədov, Hüseyn Şərifov, İshaq İbrahimov, Vladimir Qafarov və Məlik Mikayılzadədən ibarət nümayəndə heyətinin dekabrın 5-də Daşkəndə uçacağını bildirmişdi [107, v.10-11].

Orta Asiya, Qazaxıstan və Azərbaycan ədəbiyyatçılarının dörd gün çəkən respublikalararası konfransında tərcümə nəzəriyyəsinin və tərcümə işinin bütün məsələləri barəsində geniş və ətraflı müzakirələr getmişdir. Yazıçılar, tanınmış tərcüməçilər, tənqidçilər və ədəbiyyatçılar, elmi ictimaiyyətin nümayəndələri, nəşriyyat redaktorları və işçiləri tərcümə işinin vəziyyətindən, bədii tərcümənin keyfiyyətinin yüksəldilməsi yollarından danışmışlar.

Yazıçılardan və tərcüməçilərdən K.Malikov, N.İvaşov, İ.Jarılqanov, C.Məmmədov, X.Əhrari və digərləri Orta Asiya respublikalarında, Qazaxıstanda və Azərbaycanda əldə olunmuş böyük nailiyyətlərdən danışmışlar. Moskvadan gəlmiş tanınmış yazıçı və tərcüməçi N.Çukovski demişdir ki, "Müxtəlif xalqların ədəbiyyatının qarşılıqlı tərcümələri xalqlar arasında mənəvi sərvətlər mübadiləsinə xidmət edir. Bizim ölkəmizdə bu tərcümələrə böyük diqqət yetirilir. Bunu söyləmək kifayətdir ki, kitab palatasının verdiyi məlumata görə SSRİ-də çıxan bütün bədii ədəbiyyatın 70 faizi tərcümələrdir" [123, s.4].

Konfransda tərcümələrin nöqsanlarından da söhbət açılmış, tərcümə əsərlərinin tənqidi, redaktəsi və onlara resenziya verilməsinin hələ də zəif olduğu göstərilmiş, konfrans adından bədii tərcümənin keyfiyyətinin yüksəldilməsi irəli sürülmüşdür.

1962-ci ildə qeyri-rus məktəblərində rus dilinin tədrisini yaxşılaşdırmaq məsələlərinə dair Respublika müşavirəsində (3-6 yanvar) iştirak etmək üçün Bakıya Moskvadan, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Ermənistan, Türkmənistan, Dağıstan, Tatarıstan, Başqırdıstan və Çeçen-İnquş respublikalarından qonaqlar gəlmişdilər [345, s.1].

Müşavirədə Qırğızıstan SSR Maarif Nazirliyinin işçisi S.Karabayeva, Qırğızıstan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun əməkdaşı V.Q.Kamenetskaya da çıxış edərək özlərinin iş təcrübələrindən danışmış, Azərbaycan müəllimlərinin işindəki müsbət cəhətləri göstərməklə yanaşı, gördükləri bəzi nöqsanlara dair bir sıra tənqidi mülahizələrini də söyləmişlər [346, s.2].

Dörd gün çəkən müşavirənin sonunda qeyri-rus məktəblərində rus dilinin tədrisini qətiyyətlə yaxşılaşdırmaq məqsədinə xidmət edən geniş qərar qəbul edilmişdi [347, s.2].

Həmin ildə Bakıda Azərbaycan SSR EA-nın böyük salonunda türk dillərində felin zaman və şəkil kateqoriyaları məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsi (17-20 yanvar) keçirilmişdir. Müşavirədə Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Nalçik, Ufa və başqa şəhərlərin görkəmli dilçi alimləri ilə yanaşı Qırğızıstandan gəlmiş tanınmış dilçi alimlər də iştirak etmişdilər.

Məruzə edənlər sırasında respublikamızın görkəmli dilçi alimlərindən professor M.Hüseynzadə, filoloji elmlər doktoru S.Cəfərov, filoloji elmlər namizədlərindən A.Axundov, Z.Budaqova, H.Hacıyeva, M.Rəhimov və başqaları var idi [208, s.202].

Dörd gün davam etmiş bu müşavirədə 15-dək məruzə dinlənilmişdir [551, s.2].

1963-cü il may ayının sonlarında Frunze şəhərində keçirilən türk dillərinin dialektologiyasına həsr edilmiş IV məhəlli müşavirədə Azərbaycandan nümayəndə heyətinin rəhbəri, aka-

demik M.Şirəliyev başda olmaqla, beş dilçi alim (dosentlərdən B.İbrahimov, A.Vəliyev, A.Axundov və filoloji elmlər namizədi R.Rüstəmov) iştirak etmişdir [56, s.2].

Müşavirədə məruzələr və müzakirələr üç problem üzrə qurulmuşdu: 1.Sovetlər İttifaqında yaşayan və türk dillərində danışan xalqların dialektoloji atlasının tərtib olunması haqqında. 2.Türk dialekt sistemlərinin təşəkkülü haqqında. 3.Dialektoloji lüğətlərin tərtibi prinsipləri haqqında.

Birinci məsələ ətrafında SSRİ EA-nın müxbir üzvü V.M.Jermunski və akademik M.Ş.Şirəliyev ("Azərbaycan dili Şərq qrupu dialekt və şivələriin dialektoloji atlasında verilən bəzi izoqlasların (dialekt sözünün yayılma sərhəddinin) şərhi haqqında" mövzusunda), ikinci məsələ ətrafında professor V.V.Reşetov, üçüncü məsələ ətrafında Özbəkistan Dil və Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filoloji elmlər namizədi F.Abdullayev və tatar alimi, filoloji elmlər namizədi Ə.Əflatunov çıxış etmişlər [56, s.2].

Müşavirədə müttəfiq respublikalarda dialektologiya sahəsində aparılan elmi tədqiqatlar haqqında 17 çıxış olmuşdur. Azərbaycan alimlərinin məlumatları böyük diqqətlə dinlənilmişdir. Dosent Ağamusa Axundovun "Dialektlərin əmələ gəlməsində struktur təhlil" mövzusu türkologiyada ilk dəfə olaraq Azərbaycan alimi tərəfindən tədqiqat obyektinə çevrildiyi üçün maraqla qarşılanmışdır [6, s.95].

Müşavirədə azərbaycanlı alimlərin dialektologiya sahəsində apardığı tədqiqat işləri yüksək qiymətləndirilmişdir. Türkologiyada ilk dəfə olaraq Azərbaycan dilinin dialektoloji atlası tərtib edilərək, 1963-cü ildə bu dilin dialektoloji lüğəti çapa verildiyi üçün, bunları nəzərə almaqla, Sovet İttifaqının türkdilli xalqlarının dialektologiyası sahəsindəki tədqiqata rəhbərlik etmək də Azərbaycan dilçilərinə məsləhət görülmüşdür. Həmin xalqların dialektoloji atlasını tərtib etmək üçün material toplamaq proqramı ilə də Azərbaycan dialektoloqları məşğul olacaqdı [56, s.2].

Müşavirədə türk dillərinin dialektologiyasına dair V məhəlli müşavirənin 1965-ci ildə Bakıda keçirilməsi qərarlaşdırılmışdı [56, s.2].

1964-cü ildə Azərbaycan SSR EA-nın böyük salonunda keçirilən (1-3 aprel) kommunizmin maddi-texniki bazasının yaradılması məsələlərinə və texnikanın tərəqqisinin iqtisadi cəhətdən ən səmərəli yollarına həsr edilmiş elmi sessiya Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR-in elmlər akademiyaları və ali məktəbləri tərəfindən təşkil olunmuşdu. Sessiyada Zaqafqaziya respublikalarının alimləri, partiya və sovet təşkilatlarının işçiləri ilə yanaşı, Moskva, Qazaxıstan və Qırğızıstandan dəvət olunmuş alimlər də iştirak edirdilər.

Sessiyanın ilk günündə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini T.Ə.Tahirova “Kommunizmin maddi-texniki bazasının yaradılmasında Azərbaycanın rolu” mövzusunda məruzə etmişdir [331, s.1].

Qırğız alimlərinin də iştirak etdiyi, Azərbaycan SSR EA-da həmin ildə keçirilən (20-22 oktyabr) frazelogiya məsələlərinə həsr edilmiş IX Ümumittifaq əlaqələndirmə müşavirəsində 10-da çox məruzə dinlənilmiş və çoxlu sayda çıxışlar olmuşdur [266, s.4].

1965-ci ildə SSRİ-dəki türk dilləri və dialektləri atlasının yaradılmasına hazırlıq məsələsinə həsr edilmiş (5-8 oktyabr) V Ümumittifaq Bakı müşavirəsində [177, s.4; 543, s.3; 540, s.3], Bakıda birinci türkoloji qurultay çağırılmasının 40 illiyi münasibətilə 1966-cı ildə Azərbaycan paytaxtında keçirilmiş 4 günlük Ümumittifaq türkoloqlar konfransında [539, s.2] və 1969-cu ildə Bakıda keçirilmiş Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinə həsr edilmiş türk dillərinə dair Ümumittifaq konfransında (14-18 oktyabr) [7, s.4] qırğız alimləri də öz dəyərli fikir və mülahizələri ilə çıxış etmişlər.

Elmin digər sahələrində çalışan tədqiqatçı mütəxəssislər elmi əlaqələrin dərinləşməsi və inkişafına əhəmiyyətli töhfələr verirdilər. Psixiatrların 1962-ci ildə Bakıda keçirilmiş (3-6 oktyabr) birinci Zaqafqaziya konfransına ölkəmizin digər respubli-

kalarının tanınmış alimləri ilə bərabər, Qırğızıstan elmi ictimaiyyətinin nümayəndələri də qatılmışdı. 65 məruzənin dinlənilərək müzakirə edildiyi bu konfransda əsəb və ruhi xəstəliklərin öyrənilməsi və onlara qarşı mübarizə sahəsində Zaqafqaziya respublikalarında aparılan elmi-tədqiqat işlərinə bir növ baxış olmuşdur. Psixiatriyanın əsas problemlərindən sayılan, psixiatrların istər Ümumittifaq, istərsə də beynəlxalq yığıncaqlarının işində böyük yer tutan şizofreniya problemi konfrans iştirakçılarının daha çox diqqətini cəlb etmişdir [463, s.4].

Konfrans əsəb və ruhi xəstəliklərinə qarşı mübarizə sahəsində elmi-tədqiqat işlərinin və müalicə profilaktika tədbirlərinin inkişafı və daha da genişləndirilməsi istiqamətində əhəmiyyətli qərarlar qəbul etmişdir.

1964-cü ildə Bakıda yekdillik və həmrəylik şəraitində keçən Asiya və Afrika xalqları ilə II Sovet həmrəylik konfransında (8-11 may) iştirak edən Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri M.P.Doqdurov, Qırğızıstan SSR Elmlər Akademiyasının müxbir üzvü V.A.İsabayeva yadda qalan çıxışlar etmiş, şair Mirzo Tursunzadə Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri və onun 5 müavini seçilmişdir. Seçilmiş müavinlər arasında Tacikistan EA-nın həqiqi üzvü B.Q.Qafurov, Azərbaycan SSR Nazirlər Soveti Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri Z.İ.Hüseynova və qırğız yazıçısı Çingiz Aytmatov da var idi [296, s.1; 569, s.1; 38, s.137].

Asiya və Afrika xalqları ilə II Sovet Həmrəylik Konfransının iştirakçısı, Qırğızıstan SSR EA-nın müxbir üzvü, Qırğızıstan Dövlət Tibb İnstitutunun rektoru V.A.İsabayeva həmin günlərdə yazırdı: “Bakılılara deyiləsi sözüm çoxdur. Bütün azərbaycanlı bacılarımı bağrıma basır, həkimlərimizin, tibb alimlərimizin əllərini sıxıram. Qırğızıstanda, Bakıda təhsil almış çoxlu tibb işçisi vardır. Onlar sizin günəşli respublikanızı, xalqınızı həmişə minnətdarlıqla yad edir, Azərbaycana xüsusi məhəbbət bəsləyirlər.

Həkimlik bütün yer üzündə ən nəcib peşədir. Həkim-sağlamlıq, həyat tərəfdarıdır. Həkim-sevinc, səadət istəyir. Həkim – ölümə düşməndir. Buna görə də sülh və dostluq bizim ən ülvi

arzumuzdur. Çünki sülh və dostluq – sağlamlıq, sevinc, səadət, xoşbəxtlik mənbəyidir, dinc həyat, azad əmək deməkdir. Asiya və Afrika xalqları ilə II Sovet həmrəylik konfransının iştirakçıları Şərqin qapısında azadlıq rəmzi kimi ucalan Bakıya məhz bu arzularla toplaşmışlar" [367, s.4].

1964-cü ildə Bakıda keçirilmiş mexanika sahəsində çalışan alimlərin arasıkəsilməz mühitdə elastik-plastik dalğaların yayılmasına həsr olunmuş Ümumittifaq simpoziumunu (7-10 oktyabr) SSRİ Elmlər Akademiyasının davamlılıq və elastikliyin əsasları problemi üzrə elmi şurası və Mexanika İnstitutu, Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutu və Lomonosov adına Moskva Dövlət Universiteti təşkil etmişdi. Simpoziumda ölkəmizin əksər respublikalarının nümayəndələri ilə bərabər Frunzedən gəlmiş alimlər də iştirak etmişdir [378, s.2; 377, v.85].

1965-ci ildə Azərnəşr görkəmli qırğız yazıısı Ç. Aytmatovun "Köşək gözü" povestlər kitabını nəşr etmişdi. Kitaba daxil olan "Köşək gözü", "Cəmilə" və "Qırmızı yaylıqlı qovağım mənim" povestlərini İ.İbrahimov, C.Əlibəyov və Q.Musayev rus dilindən doğma dilimizə çevirmişdilər. Filoloji elmlər namizədi A.Əbilov "Ç.Aytmatovun povestləri Azərbaycan dilində" məqaləsində böyük əmək sərf edən mütərcimlərin müəllifin üslubunu, ifadə tərzini ustalıqla saxlamalarından, tərcümə prosesində buraxılmış nöqsanlardan ətraflı və müqayisəli şəkildə bəhs etmişdir.

Tənqidşünas alim A.Əbilov məqalədə yazırdı: "Ç.Aytmatovu oxuculara sevdirən, hər şeydən əvvəl, onun əsərlərinin müasir həyatımızla səslənməsi, sadə zəhmət adamlarının fədakar əməyindən məhəbbətlə bəhs etməsi, qırğız xalqının adət və ənənələrini bacarıqla açıb göstərməsi, dilinin yığcamlığı, bədii təsvir və ifadə vasitələrinin dürüstlüyü və sərrastlığıdır. Ç.Aytmatov çox dərin müşahidə qabiliyyətinə malik, həyatı incəliklərinə qədər bilən, təsvir etdiyi obrazların istək və arzularını poetik bir dillə ifadə etməyi bacaran müqtədir sənətkarlardandır" [197, s.2].

Frunze şəhərində yüksək dağlılığın flora və bitki örtüyünün öyrənilməsi və istifadəsinə həsr edilmiş üçüncü Ümumitti-

faq müşavirəsində (1965-ci il) iştirak edən azərbaycanlı alim biologiya elmləri doktoru, professor V.C.Hacıyev "Böyük Qafqazın (Azərbaycan SSR daxilində) yüksək dağlıq bitkiliyinin dinamikası" mövzusunda məruzə etmişdir. Bu məruzə 1967-ci ildə Frunzedə nəşr olunmuş "Botanikanın problemləri" kitabında [s.26-33] çap edilmişdi [564, s.10, 88].

1965-ci ildə Bakıda keçirilən fizioterapevtlərin Ümumittifaq qurultayında (25-29 oktyabr) qırğız alimləri də iştirak etmişdir. "Qurultay iştirakçıları beş gün ərzində ümumi iclaslarda və bölmə iclaslarında müasir fizioterapiyanın və kurortalogiyanın aktual problemlərinə dair təqribən 250 məruzə" müzakirə etmiş, qurultay qurtardıqdan sonra onun iştirakçıları Abşeronun sağlamlıq ocaqlarına, Naftalan kurortuna baxmış və Göy-Gölə getmişlər. Qurultayda 700 nəfər nümayəndə iştirak edirdi. Onların arasında təkcə bizim ölkəmizin deyil, həm də Bolqarıstan, Macarıstan, ADR, Polşa, Rumıniya və Çexoslovakiyanın görkəmli mütəxəssisləri də var idi [263, s.1; 264, s.4; 527, s.4].

1966-cı ildə Frunze şəhərində Qırğızıstan Elmi Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunda keçirilmiş IV elmi-praktiki konfransda (15-19 iyun) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kurortalogiya və fizioterapiya kafedrasının assistenti Siddiqə Əlizadə iştirak etmişdir [46, v.134].

Həmin il Bakıda keçirilmiş (19-25 sentyabr) ölkə üzümçü alimlərinin plenumu Azərbaycanda üzümçülük və şərabçılıq problemlərinə həsr edilmişdir. Plenumda Azərbaycan, RSFSR, Ukrayna, Moldova, Gürcüstan, Ermənistan, Özbəkistan, Dağıstan nümayəndələri ilə bərabər Qırğızıstanın elmi işçiləri və mütəxəssislər də iştirak etmişdir. Onlar bir həftə ərzində 20-dən artıq elmi məruzəni dinləyərək müzakirə etmiş, respublikanın qabaqcıl təsərrüfatlarının, şərabçılıq sənayesi müəssisələrinin, elmi-tədqiqat idarələrinin işi ilə də tanış olmuşlar [440, s.1].

1966-cı ilin oktyabrında Frunze şəhərində keçirilmiş Qırğızıstan SSR yaradılmasının 40 illiyinə həsr olunmuş "Milli ədəbiyyatların əlaqəsi və qırğız ədəbiyyatı" mövzusunda müşavirə-

də iştirak edən Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, filoloji elmlər namizədi Həbib Babayev "Səməd Vurğunun əsərləri SSRİ xalqlarının dillərində" mövzusunda məruzə etmişdir [199, s.2].

1966-cı ilin dekabrında Bakıda I Türkoloji Qurultay çağırılmasının (1926, 26 fevral-5 mart) 40 illiyi münasibəti ilə Ümumittifaq türkoloqlar konfransı keçirilmişdir. 131 nəfərin (Azərbaycan-24, Qazaxıstan-4, Özbəkistan-11, Türkmənistan-4, Qırğızıstan-2 nəfər və s.) iştirak etdiyi bu qurultayın keçirdiyi 17 iclasda 38 məruzə (7-si türk xalqlarının tarixi, etnoqrafiyası və mədəniyyətinə, 3-ü ədəbiyyatına, 25-i dilçilik məsələlərinə, 3-ü türk dillərinin tədrisi problemlərinə dair) dinlənilmiş, konkret təkliflər irəli sürülmüş və mühüm qərarlar qəbul edilmişdir [369, s.17].

Ümumittifaq türkoloqlar konfransı 4 gün davam etmişdir. Bu konfransa digər çoxsaylı qonqlarla yanaşı, Qırğızıstandan gəlmiş nümayəndələr də qatılmışdı. Konfransdakı məruzələr iki qrupa bölünmüşdü: 1.40 il ərzində görülmüş işlərin yekunu. 2.Dil mədəniyyətinin vacib problemləri və türk dillərinin orfoqrafiyasını təkmilləşdirmək.

Konfransda hazırda Azərbaycan dilşünaslığının sovet türkologiyasında mühüm yer tutduğu xüsusi vurğulanmışdır. Konfransda iştirak edən məşhur sovet türkoloqu, professor N.A.Baskakov Azər. TA müxbiri ilə müsahibəsində demişdir: "Yubiley konfransımız 40 il ərzində sovet türkologiyasının keçdiyi yola yekun vurmuşdur. Birinci türkoloji qurultay ölkəmizdə yaşayan türkdilli xalqların mədəni inqilabında çox mühüm rol oynamışdır. Bu qurultayın Azərbaycan paytaxtında çağırılması təsadüfi deyildi, çünki 1922-ci ildə Azərbaycan xalqı üçün çətinlik törədən ərəb əlifbasından Şərqdə birinci olaraq burada imtina edilmiş və onu latın əlifbasına əsaslanan yeni əlifba ilə əvəz etmişdir. B.İ.Lenin yeni əlifbanın tətbiq olunmasını "Şərqdə inqilab"adlandırmışdır" [539, s.2].

Görkəmli qırğız yazıçısı, Lenin mükafatı laureatı Ç.Aytmatov 60-cı illərdə bədii əsərləri ilə Azərbaycanda böyük şöhrət

tapmışdı. Ədəbiyyatşünas alimlərimiz onun yaradıcılığına tez-tez müraciət edir və dəyərli məqalələri ilə həmin əsərlərin gözəl məziyyətlərini oxuculara çatdırırdılar.

Ədəbiyyatşünas alim Q.Xəlilov Azərbaycan Dövlət Dram Teatrı tərəfindən tamaşaya qoyulan Ç.Aytmatovun "Ana torpağı" əsəri barədə yazırdı ki, "Bu əsərin Azərbaycan dilində müxtəlif adlarda iki tərcüməsi mövcuddur. Şair T.Əliyev pyesi "Ana torpağı", jurnalist-yazıçı C.Əlibəyov isə povesti, "Ana tarla" adı ilə tərcümə etmişdir. Təfərrüata varmadan qətiyyətlə demək olar ki, hər iki tərcüməçi azəri dilinin incəliklərindən, idiomatik ifadələrindən bacarıqla istifadə edib əsərin duzlu, koloritli çıxmasına nail olmuşlar" [299, s.4].

Müəllif yenə yazır: "Ç.Aytmatovun əsərlərini oxuyanda adam sanki lirik şeir oxuyur, elə şeir ki, bütün misraları əvvəldən sona qədər hərarətli, təravətli, nəcib insan hissləri ilə yoğrulmuşdur. Yazıçının əsərlərinin mayası bərəkətli qırğız torpağının ətrindən tutulmuş, onun şah damarı isə qırğız xalqının könül dünyasıdır. Buna görə də bu əsərlərdə həyat gücü, həyat şirəsi qüvvətlidir, tükənməzdir... Ç.Aytmatovun bacarığı ondadır ki, müharibənin fəlakətini, faciəsini arxa cəbhədə bir ailənin şəxsində bütün ailələrə, bir tarlanın simasında bütün torpağa köçürmüş, onun fəlsəfəsini, dramını vermiş, ümumiləşdirmişdir" [299, s.4].

1967-ci il sentyabrın 19-dan 22-dək Bakıda Böyük Oktyabr sosialist inqilabının 50 illiyi və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatına inqilabın təsiri məsələsinə həsr edilmiş "Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" adlı beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın çoxsaylı iştirakçıları arasında Qırğızıstan SSR Elmlər Akademiyasının prezidenti K.K.Qarakeyev, Qırğızıstanın Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri M.P.Doqdurov və tanınmış qırğız sovet yazıçısı, Lenin mükafatı laureatı Ç.Aytmatov da var idi. Onlar öz çıxışlarında sovet Qırğızıstanının iqtisadiyyat və mədəniyyətinin bütün sahələrində əl-

də etdiyi uğurlu nailiyyətlərindən danışmışlar. Həmçinin onlar konfrans müddətində Bakının görməli yerlərində olmuş, müəssisələrdə, neft mədənlərində əməkçilərlə görüşmüş, M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletinə baxmış və dənizkənarı parkda "Həmrəylik xiyabanı"nın salınmasında yaxından iştirak etmişlər [433, s.1; 286, s.1; 120, s.1; 432, s.1; 285, s.1].

Beynəlxalq konfrans qurtaran gün (22 sentyabr) onun işində iştirak edən qırğız alimləri (Qırğızıstan SSR EA-nın prezidenti K.K.Qarakeyev, Qırğızıstan EA-nın müxbir üzvü A.X.Həsənov, Qırğızıstan Universitetinin rektoru, professor S.T.Tabışəliyev və b.) ilə Azərbaycan EA-nın Rəyasət heyətində görüş olmuşdur.

Görüşdə Azərbaycan EA-nın prezidenti R.H.İsmayılov, onun müavinləri M.A.Topçubaşov və M.A.Dadaşzadə qonaqlara Azərbaycan elminin inkişafından, akademiyanın elmi idarələrində görülən işlərdən danışmış və qonaqlar da öz növbələrində azərbaycanlı həmkarlarını Qırğızıstan elminin nailiyyətləri ilə tanış etmişlər.

Görüş zamanı iştirakçılar Azərbaycan və Qırğızıstan elmlər akademiyaları arasında elmi əlaqələri daha da genişləndirmək haqqında razılığa gəlmişlər [106, s.2].

Həmin il Azərbaycanda epidemioloqların, mikrobioloqların və infeksionistlərin Böyük Oktyabrın 50 illiyinə həsr edilmiş III Respublika qurultayında (9-10 oktyabr) sovet hakimiyyəti illəri ərzində yoluxucu xəstəliklərə qarşı Azərbaycan səhiyyə işçilərinin mübarizəsinə yekun vurulmuşdur. Qurultayın işində Moskva, Leninqrad, Ukrayna, Gürcüstan, Ermənistan, Özbəkistan və Tacikistan nümayəndələri ilə bərabər, Qırğızıstanın tibb işçiləri də iştirak edirdilər [208, s.204].

Qurultayda Azərbaycan SSR Səhiyyə nazirinin birinci müavini R.B.Cavadov "Yoluxucu xəstəliklərin profilaktikası, onlara qarşı mübarizə sahəsində sovet Azərbaycanının nailiyyətləri və səhiyyə orqanlarının növbəti vəzifələri haqqında" məruzə etmişdir [307, s.4].

XX əsrin 60-cı illərində səhiyyə işçiləri Azərbaycan səhiyyəsinin inkişafı naminə əhəmiyyətli addımlar atır və qarşıya çıxan problemlərin aradan qaldırılması istiqamətində müttəfiq respublikaların təcrübəli həkim və alimlərinin müsbət nailiyyətlərindən bəhrələnməklə, öz nəticələrini də onlara çatdırmağa çalışırdılar.

1967-ci ildə Bakıda keçirilmiş Zaqafqaziya respublikaları nevropatoloqlarının I elmi konfransı (22-24 noyabr) səhiyyə sahəsində mühüm əhəmiyyətli tədbirlərdən biri idi. Konfransda Azərbaycan, Gürcüstan və Ermənistan alimləri ilə yanaşı, ölkənin 20-dən çox şəhərindən, o cümlədən Frunzedən gəlmiş görkəmli nevropatoloqlar da iştirak edirdilər. Onların söhbəti iki əsas problem – beyin qan damarları xəstəlikləri və epilepsiya ətrafında qurulmuşdu [477, s.4].

Zaqafqaziya nevropatoloqlarının konfransında 70-dən çox elmi məruzə dinlənilərək müzakirə edilmiş və 24 çap vərəqi həcmində olan həmin materiallar böyük tirajla nəşr edilmişdir. Nəşr olunmuş həmin məcmuədə "Azərbaycan alimlərindən professorlar S.Axundovun, H.Həsənovun, T.Qədirovanın, Z.Salayevanın, dosent Y.M.Yunusovun, tibb elmləri namizədləri R.Qaragözovun, A.Mütəllimovanın, həkimlərdən S.İmanovanın, Z.Mehdiyevanın əsərləri də var idi" [477, s.4].

1968-ci ildə oktyabrın 14-dən 17-dək Bakıda keçirilən respublika gigiyena işçiləri və sanitariya həkimlərinin II qurultayında [59, s.1], 1969-cu ildə Bakıda Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə oktyabrın 14-dən 17-dək keçirilən paleobiogeokimya problemlərinə dair Ümumittifaq müşavirəsində [449, s.2], botaniklərin oktyabrın 15-də Bakıda açılan mədəni bitkilərdə suyun vəziyyəti və su mübadiləsi problemlərinə həsr edilmiş Ümumittifaq simpoziumunda [129, s.2], noyabrın 12-dən 14-dək Bakıda olmuş "Mikroelementlər təbabətdə və heyvandarlıqda" problemi üzrə Respublika konfransında [468, s.1], noyabrın 24-dən 28-dək Bakıda keçirilən milli məktəblərdə rus dili tədrisinin problemlərinə dair Ümumittifaq elmi-metodika konfransında [554, s.1; 405, s.1] və yenə həmin ilin dekabr

ayının 9-dan 11-dək Bakıda "Kənd təsərrüfatı heyvanlarının məhsuldarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi və yaxşılaşdırılması" məsələsi üzrə keçirilən Respublika elmi sessiyasında [326, s.1] tanınmış qırğız alimləri də iştirak etmişdilər.

Qırğız alimləri Azərbaycan alimlərinin yubiley tədbirlərinə də qatılır, xoş günlərində sevinclərini də birgə bölüşdürdülər. Belə ki, 1969-cu il sentyabrın 16-da görkəmli alim, elm və istehsalat təşkilatçısı, Azərbaycan SSR EA-nın prezidenti, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı R.H.İsmayılovun anadan olmasının 60 illik yubileyi keçirilmişdir. İclasda iştirak edən Qırğızıstan Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü M.M.Adişev yubilyarı qırğız alimləri adından səmimi təbrik etmişdir [274, s.3].

Azərbaycanın türkdilli respublikalarla elmi əlaqələrinin güclənməsində "Sovetskaya türkologiya" jurnalının nəşrə başlaması da mühüm rol oynamışdır. Bu məcmuə türkoloq alimləri öz ətrafında birləşdirdiyi kimi, onların elmi nailiyyətlərinin təbliği, yayılması və mühüm elmi tədbirlərdə iştiraklarına da təkan verirdi.

SSRİ-də 1959-cu ildə aparılmış əhalinin siyahıya alınmasına görə ölkədə 25 mln. türkün yaşadığı məlum oldu. Dünyada mövcud olan 27 türkdilli xalqlardan 23-ü Sovet İttifaqının 5 milli respublikası, 5 muxtar respublikası və 4 muxtar vilayətində yaşayırdı. SSRİ-də slavyan xalqlarından sonra ən böyük milli qrup türk xalqları idi. Türk xalqlarının yaşadığı milli respublikalarda 50 il ərzində bir çox yüksək ixtisaslı türkoloqlar yetişmişdi. 1969-cu il məlumatına görə, həmin vaxt SSRİ-də türkologiya sahəsində 120-dən artıq filologiya elmlər doktoru və 600-dən çox filoloji elmlər namizədi çalışmaqdaydı [516, s.2].

SSRİ-də şəxsiyyətə pərəstiş, yaxud stalinizm dövrü başa çatmış, yeni sovet lideri N.S.Xruşşovun hakimiyyəti ilə (1953-1964) üst-üstə düşən siyasi mülayimlik dövrü başlamışdı. Məhz belə bir vaxtda, 1969-cu ildə SSRİ EA Rəyasət Heyətinin xüsusi qərarı ilə Azərbaycan EA-ya "Sovetskaya türkologiya" Ümumittifaq məcmuəsini nəşr etmək tapşırılmışdı. İldə 12 çap vərəqi

həcmində 6 dəfə nəşr ediləcək məcmuə həm SSRİ, həm də Azərbaycan SSR Elmlər akademiyalarının orqanı olacaqdı.

Sovet türkoloqlar Komitəsinin sədri A.N.Kononov və SSRİ EA-nın Ədəbiyyat və Dil bölməsinin katibi akademik M.Xrapçenko jurnalın baş redaktoru vəzifəsinə akademik M.Şirəliyevin təyin olunmasını təklif etdilər.

"Sovetskaya türkologiya" jurnalı 1970-ci ilin aprelində Azərbaycan SSR EA Nəsimi adına Dilçilik İnstitutunda nəşrə başladı. Məcmuənin baş redaktorları akademik M.Şirəliyev (1970-1987, iyul), Rusiya EA-nın müxbir üzvü, Rusiya EA Dilçilik İnstitutunun türk dilləri bölməsinin müdiri Ədhəm Tenişev (1987-1993), akademik A.Axundov (1994-2015), akademik T.Hacıyev (2015) və akademik K.Abdulla (2016, 17 fevraldan bu günə qədər) olmuşlar [248].

1992-ci il yanvarın 16-dan "Sovetskaya türkologiya" jurnalı "Türkologiya" adı ilə nəşr edilməyə başlandı. 1994-1995-ci illərdə "Ulu" poliqrafiya şirkətinin sahibi M.Allahverdiyevin maliyyə dəstəyi ilə 4 nömrəsi, 1996-cı ildə daha 4 nömrəsi nəşr edildi. 1997-1998-ci illərdə jurnalın nəşri tamamilə dayandı. 1999-cu ildə jurnalın dövlət vəsaiti hesabına maliyyələşdirilməsinə qərar verildi. 1999-cu ilin əvvəlində "Türkologiya" jurnalı öz tarixində yeni mərhələyə daxil oldu. 2016-cı il 17 fevral tarixində AMEA Rəyasət Heyəti jurnalın elmi səviyyəsini yüksəltmək, habelə maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə xüsusi qərar qəbul etdi. Bu qərara görə jurnal bundan sonra Dilçilik İnstitutunun deyil, AMEA Rəyasət Heyətinin elmi-nəzəri orqanı kimi fəaliyyət göstərməkdədir [248].

Məcmuədə Qırğızıstanın türkoloq alimlərinin elmi məqalələri müntəzəm olaraq çap edilir, yubiley tədbirləri, elmi yığıncaqları ardıcıl işıqlandırılırdı.

Azərbaycan-qırğız əlaqələrinin inkişafında tələbə elmi konfransları da mühüm rol oynayırdı. Bu, tələbələrin elmə marağını getdikcə artırır, onlarda elmi-tədqiqat vərdişlərini formalaşdırırdı. Eyni zamanda eyni dil, din, adət-ənənə kökləri üstündə

oxşar talelər yaşayan bu qohum xalqların gəncliyini yaxınlaşdırır, bir-biri ilə daha çox bağlanmasına meydan açırdı. Tələbə konfransları elmi əlaqələrin gələcək qurucuları və daşıyıcılarını da doğmalaşdırır və möhkəm tellərlə bağlayırdı.

1969-cu ildə Bakıda keçirilmiş sovet ölkəsinin 34 tibb institutunun pediatriya fakültələri üzrə tələbələrinin uşaq cərrahiyəsinə həsr edilmiş XII Ümumittifaq konfransının (15-18 aprel) təşəbbüsçüsü görkəmli uşaq cərrahı, SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü S.D.Ternavski və konfransı keçirən təşkilat komitəsinin sədri N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun rektoru, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü B.F.Məcidov idi [529, s.4; 271, s.4].

Konfransda iştirak etmək üçün 15 məruzə təqdim etmiş Azərbaycan Dövlət Tibb İnstitutunun uşaq cərrahiyəsi kafedrasında tələbə elmi cəmiyyətinin fəaliyyətinə xüsusi qayğı ilə yanaşılırdı. Bu barədə konfransın açılış günü iştirakçıları səmimi salamlayan institutun uşaq cərrahiyəsi kafedrasının rəhbəri, respublikanın əməkdar elm xadimi, professor İ.S.Ginzburq belə demişdir: “Kafedramız ölkədə ən qədim kafedralardan biridir. O, 1938-ci ildə yaradılmışdır. Dörd ildən sonra isə kafedra yanında tələbə elmi cəmiyyətinin dərnəyi təşkil edilmişdir. Gələcək mütəxəssislər burada elmin çətin yollarında bərkdən-boşdan çıxırlar. Bunu belə bir faktdan da görmək olar ki, dərnəyin yetişdirmələrindən 12 nəfəri namizədlik dissertasiyası, bir nəfəri isə doktorluq dissertasiyası müdafiə etmişdir” [184, s.3].

Uşaq cərrahiyəsi kafedrasının yüksək diqqət və qayğısının nəticəsi idi ki, institutun pediatriya fakültəsinin V kurs tələbəsi A.Hüseynovanın “Dalağın zədələnmələrində kliniki müayinə və cərrahi müalicə”, VI kurs tələbəsi N.Abdullayevin “Uşaqlarda çanağın fəsadlaşmış sınıqlarında müalicə üsulları” və müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi M.İsmayılovanın “Uşaqlarda travmatik şokun xüsusiyyəti və müalicəsi” mövzularındakı məruzələri böyük maraqla qarşılanmışdı [238, s.3].

Qırğızıstan Dövlət Tibb İnstitutunun uşaq cərrahiyəsi kafedrasının təqdimatı ilə 5 tələbənin məruzəsi konfransın gündəli-

yinə salınmışdı. Konfransda tibb sahəsində tanınmış Orta Asiya respublikaları alimlərindən professor A.Pulatov (Qırğızıstan), professor K.Tahirov (Türkmənistan), dosent K.S.Ormantiyev (Qazaxıstan) və başqaları da ölkəmizin digər alimləri ilə bərabər iştirak etmiş, tədqiqatçı tələbələrə dəyərli məsləhətlər vermişlər [238, s.3; 184, s.3 ].

1969-cu il iyulun 8-də Bakıda gənc astronomların I Ümumittifaq konfransı açılmış və sonra o, öz işini Şamaxı astrofizika rəsədxanasında davam etdirmişdir. Konfransda digər respublikalarla yanaşı, Qırğızıstanın da gənc astronomlarının nümayəndələri iştirak etmişdir [332, s.4].

1960-1969-cu illərdə Qırğızıstan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) "Qırğızıstan SSR EA Xəbərləri"nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Eləcə də Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr olunan bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını qırğız həmkarlarına göndərmişdir [70].

XX əsrin 60-cı illərində Azərbaycan-Qırğızıstan elmi əlaqələri bütün istiqamətlərdə olmasa da, müəyyən beynəlxalq və ya ümumittifaq tədbirlər çərçivəsində əlaqələnməklə inkişaf edirdi. Lakin elmin inkişafına mane olan amillər də var idi. Belə ki, elmi əlaqələrin vahid "mərkəz"dən (SSRİ Elmlər Akademiyası tərəfindən) idarə edilməsi sərbəstliyi, təşəbbüskarlığı boğur, əlaqələrdə sistematiklik gözlənilmir, elmin tələbatının tam ödənilməsi və onun potensialının axıra qədər açılmasına mane olan bəzi məhdudluqlar hələ də qalır və elmin nəticələrinin praktikada tətbiqi çox ləngiyirdi. Elmi əlaqələr həmişə vacibdir. Çünki elmsiz inkişaf ola bilməz. Elm həyat həqiqətlərinin dərkinə, sülh və dostluq münasibətlərinin möhkəmlənməsinə, hər şeydən əvvəl isə, bəşəriyyətin tərəqqi və yüksəlişinə xidmət edir. Azərbaycan-qırğız elmi əlaqələrinin inkişafı da bu böyük, bəşəri amallara xidmətdən irəli gəlirdi.

## 2.3. 1970-ci illərdə elmi əlaqələr

Azərbaycan-Qırğızıstan elmi əlaqələri öz inkişafında XX əsrin 70-ci illərində daha mühüm və keyfiyyətcə yeni mərhələyə daxil oldu. Elmi təşkilatların fəaliyyəti təkmilləşdirildi, milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsinin sürətləndirilməsi istiqamətində görülən tədbirlər və atılan düşüncəli addımlar səmərəli elmi fəaliyyətə daha geniş meydan açdı. Ölkədə milli iqtisadiyyatın inkişafı naminə Dövlət planı tərtib edilərkən, ilk dəfə olaraq, milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsi planlaşdırıldı. Bu isə, bir növ, elmi texniki inqilab və elmin istehsalatla birləşməsi demək idi [595, s.216].

XX əsrin 60-cı illərində Azərbaycan SSR EA-nın Yer elmləri bölməsində ölkə üzrə neft yataqlarının işlənməsiylə bağlı Mərkəzi İnkişaf Komissiyası (MİK) yaradılmışdı. Onlar ölkənin müxtəlif bölgələrində neft istehsalı ilə məşğul olan 24 yataq üçün texnoloji sxemləri və inkişaf layihələrini nəzərdən keçirirdilər. 1970-ci ildə nəzərdən keçirilən 24 yataqdan 1-i Qırğızıstanda, 2-si Qazaxıstanda (Uzen, Kenkiyak), 1-i Türkmənistanda (Barsa-Gəlməz), 1-i Azərbaycanda və 19-u ölkənin ayrı-ayrı bölgələrində (Tatarıstan, Çeçen-İnquşetiya MSSR, Ukrayna SSR, Kuybısev vilayəti, Orenburq vilayəti, Perm vilayəti, Başqırdıstan, Krasnodar ölkəsi, Volqoqrad vilayəti, Saxalin) yerləşirdi [577, v.5-10].

1970-ci ilin iyununda Qırğızıstan SSR-in Cəlalabad şəhərində “Qırğızıstanda quraq meşələrin bərpası” mövzusunda keçirilən elmi müşavirədə iştirak edən azərbaycanlı alim, kənd təsərrüfatı elmləri namizədi M.Y.Xəlilov “Ardıc meşələrinin torpaq qoruyucu rolu” mövzusunda məruzə etmişdir [86, v.62-63].

1971-ci ildə Azərbaycan SSR EA Koordinasiya Şurasının 1970-ci ildə görülmüş elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş VIII iclasında filologiya elmləri doktoru, professor M.Seyidov “Azərbaycan və Orta Asiyanın elmi əlaqələrinin mənbələri” mövzusunda məruzə etmişdir. Tanınmış alim

M.Seyidov çıxışında Azərbaycan-qırğız ədəbi əlaqələrinə də yer vermişdi [672, v.54-56].

Azərbaycan SSR EA Coğrafiya İnstitutunun direktoru, akademik H.Ə.Əliyev 1971-ci ildə yazdığı elmi fəaliyyətinə dair qısa hesabatının "Kadr hazırlığı" bölməsində qeyd etmişdir ki, "İki namizədlik dissertasiyasına baxmış, onlardan birinə (Qırğızıstanda) opponentlik etmişəm. 5 avtoreferata (o cümlədən, 2-si doktorluq) rəy yazmışam" [646, v.90-92].

Azərbaycanın Qırğızıstanla elmi və iqtisadi əlaqələrində 1940-cı ildə Balakən rayonunun Mahamalar kəndində doğulmuş Sabir Musayevin mühüm rolu olmuşdur. O, 1962-ci ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun neft fakültəsini "texnologiya, neft və qaz yataqlarının kəşfiyyatı" ixtisası üzrə bitirərək, təyinatla "Qırğızneft" İdarəsinin Fərqanə neft axtarışı ekspedisiyasında fəaliyyətə başlamışdır. Burada böyük texnikdən geologiya şöbəsinin rəisinə qədər yüksəlmişdir. 1965-ci ildə Qırğızıstan SSR-in Dövlət Geologiya Komitəsinin Şimali Fərqanə geofiziki qrupunun baş geoloqu, 1966-cı ildə isə "Özbəkneft" Birliyinin baş geoloqu təyin edilmişdir [615, s.249].

S.Musayev 1971-1983-cü illərdə "Orta Asiya neft elmi-tədqiqat və Layihələşdirmə İnstitutu"nda (СредАзнипинефтъ) laboratoriya rəhbəri olmuşdur. Onun rəhbərliyi altında 1972-1977-ci illərdə "Qırğızıstan SSR ərazisində neft və kəşfiyyatı işlərinin aparılmasının proqnoz hesabı" hazırlanmış və "Özbəkneft", "Tacikneft" və "Qırğızneft" Birliklərinin neft ehtiyatları strukturunun kataloq-albomu tərtib olunmuşdur [615, s.249].

S.İ.Musayev 1983-cü ildən başlayaraq Qırğızıstanda baş geoloq kimi aparılan qazma işlərinə və kompleks geofiziki ekspedisiyaya rəhbərik etmiş və Qırğızıstan SSR-in Şərqi Çuy, İsik-Kul Narın, Talas, Alay, Çatırqul, Aksay, Atbaşı, çöküntülərində aparılması nəzərdə tutulan geoloji-kəşfiyyat işlərinin hərtərəfli proqramını işləyib hazırlamışdı [615, s.250].

S.İ.Musayev uzun illər topladığı materiallar, qazandığı təcrübələr və gəldiyi nəticələr əsasında 1993-cü ildə "Fərqanə hövzəsinin neft-qaz regionlarında kəşfiyyat-qazma, geoloji və

geofiziki tədqiqat materiallarının təhlil və reinteqrasiyası" mövzusunda dissertasiya müdafiə edərək texnika elmləri namizədi adını almış və elmi nəticələrini uğurla istehsalata tətbiq etmişdir. Uğurlu və səmərəli fəaliyyəti nəticəsində 1995-ci ildə Şimali-Şərqi, cənubi və cənubi-qərbi Fərqanənin geoloji quruluş (struktur) xəritələrinin tərtibinə nail olmuşdu [615, s.250].

S.İ.Musayev 1993-2003-cü illərdə Qırğızıstan Respublikasının Geologiya İdarəsində geoloji elmi-tədqiqat laboratoriyasının müdiri, Baş direktorun maliyyə işləri üzrə müavini, Baş geoloqu, Departamentin büdcə planlaşdırılması üzrə rəisi, beynəlxalq iqtisadi əlaqələr və investisiya şöbəsinin rəisi olmuş, 2003-cü ildə "Qırğızneftqaz"ın Baş geoloqu, Baş direktorun müavini təyin edilmişdir. Ona göstərilən inam və etibarın nəticəsi olaraq, məhz onun rəhbərliyi və birbaşa iştirakı ilə Fərqanə vadisində mezozoy və kaynazoy çöküntülərində axtarış və qazma işləri aparılmışdır. O, əmək fəaliyyəti, yüksək peşəkarlıq qabiliyyətinə görə dəfələrlə Qırğızıstan Respublikasının Fəxri Fərmanları, pul mükafatı və qiymətli hədiyyələrlə təltif edilmişdir. Çox təəssüf ki, S.İ.Musayev 2008-ci il yanvarın 19-da xidməti vəzifəsini həyata keçirərkən avtomobil qəzası nəticəsində həlak olmuşdur [615, s.250-251].

Azərbaycan və Qırğızıstan alimləri qonşu respublikalarda keçirilən mühüm əhəmiyyətli elmi tədbirlərdə də görüşüb fikir mübadilələri aparırdılar.

1971-ci ilin oktyabrında Özbəkistanın Fərqanə şəhərində sovet türkoloqlarının Ümumittifaq konfransı keçirilmişdir. Bu konfrans XI əsrin görkəmli türkoloqu Mahmud Kaşgarinin "Divani lüğət-ət-türk" əsərinin 900 illiyinə həsr edilmişdi. SSRİ türkoloqlarının bu ali məclisində Leninqrad, Bakı, Daşkənd, Aşqabad, Frunze, Alma-Ata, Kazan, Ufa, Səmərqənd və digər şəhərlərdən gəlmiş 100-dən çox nümayəndə tədbirə qatılmışdı.

"Sovet türkoloqlarının Fərqanə şəhərində toplanması təsadüfi deyildir. Birincisi, Mahmud Kaşğari Fərqanə vadisini qarış-qarış gəzmiş, bu ərazidə yaşayan türk xalqlarının ləhcələrini, adət-ənənələrini ətraflı öyrənmişdir. İkinci səbəb odur ki, Mah-

mud Kaşğarinin bu ölməz əsəri sovetlər ölkəsində ilk dəfə özbək dilində nəşr olunmuşdur" [538, s.4].

Ümumittifaq konfransında Azərbaycan nümayəndələrindən Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktoru, "Sovetskaya türkologiya" jurnalının baş redaktoru, akademik M.Şirəliyev M.Kaşğarinin görkəmli dialektoloq olması barədə, Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Dəmirçizadə M.Kaşğarinin "Divan"da istifadə etdiyi müqayisəli üsul barədə, Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktor müavini, professor M.Rəhimov "Mahmud Kaşğarinin "Divan"ı və Azərbaycan dialekt və şivələrində qədim türk elementlər"i mövzusunda, ADU-nun türkologiya kafedrasının müdiri, professor F.Zeynalov dinlənilən məruzələr ətrafında çıxışlar etmişdilər [538, s.4].

Fərqanə konfransında Qırğızıstan SSR EA-nın müxbir üzvü Uruzbayovanın çıxışı da maraqla qarşılanmışdı [538, s.4].

1972-ci ildə "Sovet şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" mövzusunda Bakıda keçirilən (16-19 oktyabr) Ümumittifaq müşavirənin işində Azərbaycan alimləri ilə yanaşı, Moskva, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Tatarıstan və Başqırdıstan nümayəndələri də iştirak etmişdir. Cəmi 35 məruzə və bir sıra maraqlı çıxışlar dinlənilmişdir [466, s.3].

1957-1962-ci illərdə şərq realizmi barədə geniş diskussiya olmuş və onun materialları 1964-cü ildə Moskvada "Şərq ədəbiyyatında realizmin təşəkkülü problemləri" adı altında nəşr edilmişdir. Kitabda əsasən xarici şərq ölkələri ədəbiyyatlarındakı realizmdən bəhs olunurdu. Realizmi öyrənməyə diqqət, maraq artdıqca tədqiqatların nəzəri səviyyəsi də yüksəlmiş, yeni-yeni kitablar və məqalələr meydana çıxmışdır. 1969-cu ildə Bakıda Azərbaycan ədəbiyyatında realizm probleminə həsr olunmuş müşavirə bu istiqamətdə diqqəti daha da gücləndirdi. 1972-ci ildə Bakıda "Sovet şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" üzrə Ümumittifaq müşavirəsinin keçirilməsi də həmin diqqətin məntiqi nəticəsi idi.

Müşavirədə iştirak edən Qırğızıstan nümayəndəsi, filoloji elmlər namizədi A.Sadıqov Toktoqul Satılqanov və Toqolok Moldonun yaradıcılığında realizm məsələlərindən söhbət açmışdır. Onun fikrincə, inqilabdan sonrakı ilk sovet yazıçı və akınlarının əsərlərində sosialist realizminin tək-tək "cücərtiləri" özünü göstərirdi. İstər Toktoqul, istərsə də Moldo yeni həyatı, sovet hakimiyyətini tərənnüm etmişdilər. Bəzi yazılarda deyilirdi ki, bu xalq akınları yalnız sosialist incəsənəti nümayəndələridir. Bu fikirlə barışmayan A.Sadıqova görə isə, onlar öz əsərlərində məhz sosialist realizminin əsas cizgilərini yaratmışlar. Bu "cücərtilər" sonralar peşəkar yazıçılar tərəfindən inkişaf etdirilmişdir [466, s.3-4].

Realizm problemlərinə dair Ümumittifaq müşavirəsində iştirak edən qonaqlar Azərbaycan alimlərinin (müşavirəni giriş sözü ilə açan Azərbaycan SSR EA prezidentinin müavini M.A.Dadaşzadə, Azərbaycan SSR EA akademiki M.İbrahimov, filoloji elmlər doktorları A.Hacıyev, M.Quluzadə, Ə.Şərif, Ə.Cəfər, K.Talıbzadə, M.Cəfərov, Ə.Ağayev, filoloji elmlər namizədləri A.Dadaşzadə, Y.Qarayev, Z.Qəniyeva, B.Hüseynov) məruzələrinə yüksək qiymət vermişlər [466, s.3-4, 15].

XX əsrin 70-ci illərinin əvvəllərində Azərbaycan-qırğız elmi əlaqələrində Əsəd Rüstəmbəyovun rolu böyük idi. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun məzunu Ə.F.Rüstəmbəyov neft və qaz quyularının qazılması sahəsində təcrübəli mütəxəssis, texnika elmləri namizədi (1972-ci il), Azərbaycan SSR-in əməkdar mühəndisi (1960-cı il) və SSRİ-nin fəxri neftçisi (1971-ci il) idi. Dərin və çox dərin qazımanın texnologiyası üzrə tanınmış alim təkcə Qırğızıstanda deyil, Qazaxıstan SSR, Özbəkistan SSR və eləcə də digər rayonların neft mütəxəssislərinə yeni texnika və texnologiyanın tətbiqi sahəsində çox kömək göstərmişdir [42, s.235].

70-ci illərdə qırğız alimləri Azərbaycanın Müdafiə Şuralarında müxtəlif elm sahələri üzrə tədqiqat işlərini yekunlaşdırıb müdafiə edir və elmi dərəcələrə sahib olurdular.

1972-ci ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurası qırğızıstanlı alim Abdurəşit Dyunuşbayevin "Qırğızıstan SSR-də torpaq eroziyasının inkişafı və qarşısının alınmasının əsas istiqamətləri" mövzusunda yazdığı doktorluq dissertasiyasını müdafiəyə buraxdı. Ümumi həcmi 373 səhifədən, daxil edilmiş 80 cədvəl, 21 şəkil və istifadə edilmiş 404 ədəbiyyatdan ibarət olan bu dissertasiya işi 1956-1971-ci illərdə Qırğızıstan SSR Kənd Təsərrüfatı Nazirliyinin Qırğızıstan Elmi-Tədqiqat İnstitutunun torpaqların eroziyadan qorunması şöbəsində yerinə yetirilmişdir [85, s.310-312]. Elmi məsləhətçisi Qırğızıstan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmlər doktoru, professor A.M.Mamıtov və rəsmi opponentləri coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov [125, s.233], coğrafiya elmləri doktoru, professor M.A.Museyibov və kənd təsərrüfatı elmləri doktoru, professor X.M.Mustafayev idilər.

Qırğız alimi Abdurəşit Dyunuşbayev 1973-cü il fevralın 8-də Coğrafiya İnstitutunun Müdafiə Şurasında dissertasiya işini uğurla müdafiə edərək coğrafiya elmləri doktoru elmi dərəcəsini almışdır [622, s.2].

1973-cü il sentyabrın 1-dən 13-dək Frunze şəhərində SSRİ EA-nın Geomorfoloji Komissiyasının X Plenumu keçirilmişdir. Plenumda Azərbaycan SSR EA Coğrafiya İnstitutunun əməkdaşlarından geologiya-minerologiya elmləri doktoru, professor Ə.V.Məmmədov və coğrafiya elmləri namizədi N.Ş.Şirinov iştirak etmişdilər. Onlar geologiya-minerologiya elmləri doktoru, professor M.A.Museyibovla birgə yazdıqları "Kürün dağətəyi hövzəsinin morfostrukturları və onların dərin quruluşla əlaqəsi" mövzusunda məruzə etmişlər [668, v.309; 232, s.40].

1974-cü ildə görkəmli qırğız yazıçısı Ç.Aytmatovun "Ana tarlası" əsəri Azərbaycanda geniş oxucu kütləsinin böyük marağına səbəb olmuşdu. Əsərdə ananı da, torpağı da eyni bir sual düşündürürdü: insanlar müharibəsiz yaşaya bilməzlərmi?

Filologiya elmləri doktoru, professor X.Əlimirzəyev həmin ilin martın 3-də quruluşcu rejissor Lütfi Məmmədbəyovun quruluşu əsasında təşkil olunmuş televiziya tamaşası barədə yaz-

dığı “Ana tarlası” məqaləsində qeyd edirdi ki, “Ana tarlası” insanın ağlına, zəkasına, humanist təbiətinə dərin inam hissi ifadə edən, adamları düşünməyə, ayıq olmağa çağıran bir əsərdir” [234, s.4].

1974-cü ildə tibb elmləri doktoru, professor N.N.Əliyev Qırğızıstanda, Frunze şəhərində keçirilən “Süni maqnit sahələrinin bioloji obyektlərə təsiri” adlı Ümumittifaq elmi konfransında iştirak edərək, “Bakteriyaların virulentliyinə zəif sabit, bir maqnit sahəsinin təsiri” mövzusunda məruzə etmişdir [620, s.9-10].

1974-cü ilin oktyabrında Bakıda Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinin Elmi Şurasında Qırğızıstan Dövlət Universitetinin əməkdaşı Aynagül Aktanova “Qırğızıstanın kənd əhalisinə məskunlaşma xüsusiyyətlərinə görə dövlət xidmətlərinin coğrafiyası məsələləri” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, coğrafiya elmləri namizədi elmi dərəcəsini almışdı. Dissertasiya Qırğızıstan Dövlət Universitetinin iqtisadi coğrafiya kafedrasında yerinə yetirilmişdi [580, s.1-2].

Tədqiqatçı A.T.Aktanovanın elmi rəhbəri coğrafiya elmləri doktoru, professor Q.S.Qujin, rəsmi opponentləri - Qırğızıstan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor K.O.Otorbayev və Azərbaycan Dövlət Universitetinin əməkdaşı, coğrafiya elmləri namizədi, dosent Ş.Göyçaylı idi [580, s.2].

1975-ci ilin avqust ayında ABŞ-ın San-Fransisko şəhərində tarixçilərin XIV Beynəlxalq konqresində iştirak edən Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə konqresin Təşkilat Komitəsinin üzvü seçilmiş, təşkilati işlərdə fəal iştirak etməklə yanaşı, nümayəndələrin marağına səbəb olan “Sovet hakimiyyəti illərində keçmiş Rusiya imperiyasının Qafqaz, Orta Asiya və Qazaxıstandakı milli azlıqların mədəni inkişafı” mövzusunda məruzə etmişdir [250, s.56). Məruzədə Qırğızıstanla bağlı məsələlərə də toxunulmuşdur.

1975-ci ildə Moskvada “Böyük Oktyabrın tarixi təcrübəsi” kitabı çapdan çıxmışdı. Kitabda akademik Ə.S.Sumbatzadənin “Rusiyanın cənub-şərq ucqarlarında Böyük Oktyabr sosialist

inqilabının və sovet hakimiyyətinin qələbəsi qanunauyğunluğunun iqtisadi kökləri" adlı məqaləsi nəşr edilmişdi. "Məqalədə müəllif sosialist inqilabının köklərini açıb göstərməklə ölkənin ərazisini ehtiyac olmadan parçalayıb hissələrə ayırmağın qanunauyğun və məqsədəuyğun olmadığı barədə məsələ qaldırırdı. Ölkənin cənub-şərq hissəsi üçün iki ərazi müəyyənləşdirirdi: 1. Qafqaz; 2. Orta Asiya və Qazaxıstan" [250, s.39-40].

Aydın məsələdir ki, Qırğızıstan Orta Asiyada yerləşdiyindən məqalədə araşdırılan problemin onlara da aidiyyatı var idi.

Həmin ildə Bakıda "Sov. İKP MK-nın XXIV qurultayı tərəfindən hazırlanan sülh proqramı" mövzusunda Ümumittifaq elmi konfransı (23-24 dekabr) olmuşdur. Konfransı keçirən təşkilat komitəsinin sədr müavini, Azərbaycan SSR EA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi Ə.S.Sumbatzadə plenar iclasda sosialist ölkələri və ittifaq respublikaları nümayəndələri adından təbrik nitqi ilə çıxış etmələri üçün 10 dekabr 1975-ci il tarixində Qırğızıstan SSR EA-nın prezidenti, akademik K.K.Karakeyevə, Tacikistan SSR EA-nın prezidenti, akademik M.S.Asimova, Qazaxıstan SSR EA-nın vitse prezidenti A.N.Nusunbəyova, Özbəkistan SSR EA-nın vitse prezidenti, akademik M.K.Nurməhəmmədova, Türkmənistan SSR EA-nın vitse-prezidenti, akademik A.K.Karrıyevə və digər respublikaların akademiya rəhbərlərinə məktublar göndərmişdi [557, v.74-83].

1976-cı ildə "Azerbaydjan za rubejom" jurnalının 5-ci sayında Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadənin 1975-ci ilin avqustunda ABŞ-ın San-Fransisko şəhərində keçirilən tarixçilərin XIV Beynəlxalq konqresindəki "Sovet hakimiyyəti illərində keçmiş Rusiya imperiyasının Qafqaz, Orta Asiya və Qazaxıstandakı milli azlıqların mədəni inkişafı" adlı məruzəsi çap olunmuşdu. Məqalədə Qırğızıstanla bağlı məsələlərə də yer verilmişdi [687, s.5-7].

1977-ci ildə Bakıda keçirilən "Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" adlı Beynəlxalq elmi konfransın (26-28 may) işində iştirak etmək üçün 70 ölkədən gəlmiş görkəmli siyasi və

ictimai xadimlər, məşhur sovet alimləri içərisində Qırğızıstan nümayəndələr də var idi [109, s.1; 120, s.1].

1978-ci ilin dekabrında Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmlər doktoru, professor B.Ə.Budaqovun “Orta Asiya: səhralar və dağlar diyarı” adlı məqaləsi çap olunmuşdu. Məqalədə dağlar diyarı Qırğızıstana da yer verilmiş, onun təbiəti, təbii sərvətləri və iqtisadi inkişaf istiqamətləri öz əksini tapmışdı [127, s.16-20].

1979-cu ildə Frunzedə keçirilən Yanlış, əsassız problemlərə dair Ümumittifaq konfransına dəvət olunmuş Azərbaycan SSR EA-nın akademiki H.H.Abdullayev orada “Xüsusi inteqralların nizamlanması” mövzusunda məruzə etmiş və məruzənin tezisi «Тезисы Всесоюзной конференции по некорректным задачам» (Фрунзе, 1979) toplusunda dərc olunmuşdu [673, v.53-99].

XX əsrin 70-ci illərində Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) “Azərbaycan SSR EA Xəbərləri”nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Qırğızıstan SSR EA Mərkəzi Elmi Kitabxanasına, eləcə də Qırğızıstan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr edilən bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını azərbaycanlı həmkarlarına göndərmişdilər [70].

### 2.4. 1980-1991-ci illərdə elmi əlaqələr

XX yüzilliyin 80-ci illəri sovet imperiyasında elmi biliklərin inkişaf etdiyi, elmi əlaqələrin gücləndiyi, ictimai-siyasi hadisələrin dərinləşdiyi, milli münasibətlərin çat verdiyi, seperatçılıq, müstəqilliyə can atmaq istəklərinin gücləndiyi dövr idi. Bu dövrdə gərginliyi dərk edən “mərkəz” hadisələri qabaqlamaq, qarşısını almaq əvəzinə, səhv, yanlış addımlar ataraq ziddiyətləri daha da dərinləşdirirdi. “Yenidənqurma”nın yenidən qırmaya çevrildiyi, onilliklərlə qazanılmış təcrübənin, birliyin üstündən xətt çəkildiyi, yalançı beynəlmiləlçi nağıllarının daha işə keçmədiyi illər idi. Çar Rusiyasının gerçəkləşdirə bilmədiyi,

“parçala, hökm sür!” siyasətinin sovet qazanında bişən ideologiyasının görünən və görünməyən qatlarındakı paxırın açıldığı, çat verdiyi zaman idi. Ölkənin daxilinə nüfuz edə bilməyən xarici qüvvələrin əl-qolunun açıldığı, ölkə rəhbərliyi səviyyəsində dağıdıcılıq planlarının işə salındığı zaman idi. Dünyanı təlatümə gətirən sovetlər imperiyasının son akkordlarının vurulmasına doğru gedən bəstənin çalınmasına hazırlığın görüldüyü illər idi.

XX əsrin 80-ci illərinin əvvəllərində Azərbaycanda “kütlələrin beynəlmiləlçilik şüurunun formalaşdırılması, onların sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi Azərbaycan Kommunist Partiyasının ideoloji və təşkilatçılıq işində əsas yerlərdən birini tutur”du [108, s.3].

Azərbaycan KP MK-nın 1981-ci il 4 noyabr tarixli “Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında” qərarı beynəlmiləl əlaqələrin gücləndirilməsi istiqamətində görüləcək işləri genişləndirdi. Qərarda respublikamızda bərqərar olmuş beynəlmiləlçilik, dostluq və qardaşlıq şəraitinin bütün müvəffəqiyyət və nailiyyətlərimizin başlıca amillərindən birinə çevrildiyi göstərilmişdir. Bu qərarda elmi əlaqələrə beynəlmiləl tərbiyənin bir vasitəsi, tərkib hissəsi kimi xüsusi fikir verilmiş və onun daha da inkişaf etdirilməsi naminə “Təbiət elmləri, texniki, iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etmək” irəli sürülmüşdür [108, s.16].

80-ci illərdə Azərbaycan və Qırğızıstan alimləri qarşılıqlı şəkildə bir-birinin elmi toplantı və tədbirlərində müntəzəm olaraq iştirak edir, fikir və mülahizələrini birgə bölüşürdülər.

1980-ci ilin martında Bakıda M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda keçirilən “Xalqlar dostluğu – Ədəbiyyatların dostluğudur” mövzusundakı elmi konfransda Azərbaycanın, eləcə də RSFSR, Belorusiya, Qırğızıstan, Özbəkistan, Gürcüstan və Ermənistan respublikaları ali məktəblərinin alimləri iştirak etmişdilər.

Konfransda “Rus-milli ədəbi əlaqələr” və “Bədii tərcümə” bölmələrində 60 məruzə dinlənilmişdir. Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor F.Vəlixanovanın “Müasir ədəbi proses və bədii tərcümə” və Azərbaycan Dövlət Universiteti rus ədəbiyyatı tarixi kafedrasının müdiri, professor S.Əsədullayevin “Ç.Aytmatov və Azərbaycan ədəbiyyatı” mövzularındakı məruzələri maraqla qarşılanmışdır.

Qırğız ali məktəblərinin alimlərinin məruzələri də öz əhəmiyyəti ilə diqqəti cəlb etmişdir [295, s.1].

Həmin il sentyabr ayının 22-27-də Frunzedə SSRİ Coğrafiya Cəmiyyətinin VIII qurultayı olmuş və iki minə yaxın nümayəndənin qatıldığı bu qurultayda Azərbaycan SSR EA-nın müxbir üzvləri, iqtisad elmlər doktoru, professor A.A.Nadirov da iştirak etmiş, görkəmli alim B.Ə.Budaqov “Azərbaycanda coğrafiya elminin inkişaf yollarına dair” mövzusunda məruzə ilə çıxış etmişdir [125, s.15-16].

Qurultaydan sonra nümayəndələr 4 istiqamətdə (Frunze şəhəri Balıkşi qəsəbəsi, Çolpan-Ata, Karakol yaşayış məntəqəsi, Ceti Oğuz, Pokrovka yaşayış məntəqəsi və İssık-Kul gölü) ölkə ərazisinə gəzintiyə çıxmaqla, Qırğızıstanın təbii mənzərələri və iqtisadiyyatı ilə tanış olmuşlar [703].

80-ci illərdə elm ilə istehsalatın yaradıcılıq ittifaqının möhkəmləndirilməsi dövlətin irəli sürdüyü və mühüm əhəmiyyət verdiyi başlıca vəzifələrdən idi. 1981-ci il sentyabr ayının 21-dən 25-dək Bakıda keçirilən ümumi və tətbiqi kimyaya dair XII Mendeleyev qurultayı da elm ilə istehsalatın əlaqəsinin gücləndirilməsi istiqamətinə yönəlmiş əhəmiyyətli bir addım idi. Qurultayda 200-dən artıq ölkədən gəlmiş 2 mindən artıq elm adamları və sənaye işçiləri iştirak edirdilər. Qurultay nümayəndələri arasında bütün müttəfiq respublikalardan, eləcə də Qırğızıstandan gəlmiş görkəmli alimlər var idi. 17 bölmə üzrə öz işini davam etdirən qurultayın iclaslarında mühazirələr, məruzələr və diskussiyalar zamanı tədqiqatların ən yeni nəticələri, kimya sahəsində son kəşflər və nailiyyətlər, istehsalın müvəffəqiyyətləri

və problemləri müzakirə olunmuşdur [191, s. 1; 114, s.1]. Qurultay günlərində nümayəndələr M.F.Axundov adına Akademik Opera və Balet Teatrında Üzeyir Hacıbəyovun “Koroğlu” operasını dinləmiş və Serebrovski adına Neft və Qazçıxarma İdarəsi dəniz neftçilərinin əməyi ilə tanış olmuşlar [560, s.3; 561, s.2].

1982-ci ildə Frunze şəhərində keçirilən SSRİ-nin xalq təhsili üzrə Dövlət Komitəsinin avtomatika və telemexanika üzrə elmi-metodiki konfransında Azərbaycan Dövlət Neft Akademiyasının avtomatika, telemexanika və elektronika kafedrasının əməkdaşı, texnika elmləri doktoru, professor İzzət Nəbiyev iştirak etmiş və elmi nailiyyətləri ilə həmkarlarının marağına səbəb olmuşdur [318, s.22-23].

1983-cü ildə Bakıda Azərbaycan SSR EA-nın dəyirmi salonunda keçirilən ölkə şərqşünaslarının “Müasir şərqşünaslığın Asiya və Afrika ölkələrinin öyrənilməsində rolu” mövzusundakı II Ümumittifaq konfransı (25-27 may) çox mühüm və əhəmiyyətli elmi tədbirlərdən biri olmuşdur [499, s.1]. Şərqşünasların I Ümumittifaq konfransı 25 il bundan əvvəl, 1958-ci ildə Daşkənd şəhərində keçirilmişdir [439, s.1].

Şərqşünasların II Ümumittifaq konfransının bölmə iclaslarında şərqşünaslıq elminin  müxtəlif problemlərinə dair 170-dək məruzə və məlumat dinlənilmişdir [515, s.1]. Konfransda Qırğızıstan SSR-dən gəlmiş görkəmli şərqşünas alim Mühəmməd Suşailo da iştirak etmiş və sovet şərqşünaslığının aktual problemlərinin araşdırılması istiqamətində qırğız alimlərinin  fəaliyyətindən bəhs etmişdir [401, s.2].

Konfrans keçirildiyi günlərdə iştirakçılar Azərbaycan tarixi, Azərbaycan xalçası və xalq-tətbiqi sənəti muzeylərinə, respublika əlyazmaları fonduna  getmiş və Bakının görməli yerlərini gəzmişlər [401, s.2].

1983-cü ildə Bakıda Azərbaycan SSR EA-nın dəyirmi salonunda keçirilən (6-9 dekabr) milli münasibətlərin aktual problemlərinə həsr edilmiş “Sovet adamının mənəvi aləmində milli və beynəlmiləl cəhətlərin dialektikası” mövzusundakı

Ümumittifaq elmi-praktiki konfransın da əhəmiyyəti böyük idi [389, s.1].

"Konfransın işlədiyi dörd gün ərzində milli münasibətlər sistemində şəxsiyyət probleminin müxtəlif sosioloji, fəlsəfi, etnoqrafik, dil, psixoloji və digər cəhətləri barəsində 130-dək məruzə və məlumat dinlənilmişdir. Beynəlmiləl tərbiyənin səmərəliliyinin yüksəldilməsi, konkret sosioloji və etnopsixoloji tədqiqatların daha səmərəli metodlarının hazırlanması, millətlərarası ünsiyyət sturukturunda şəxsiyyət problemlərinin daha dərindən tədqiq edilməsi məsələləri konfrans iştirakçılarının diqqət mərkəzində durmuşdur" [391, s.1].

Konfransda müxtəlif elmi fənn nümayəndələrinin səylərinin birləşdirilməsi, eləcə də bir çox regionlarda aparılan tədqiqatların əlaqələndirilməsi xüsusi olaraq qeyd edilmişdir.

Elmi-praktik konfransın iştirakçılarından bir qrupu dekabrın 7-də Azərbaycan yazıçılarının qonağı olmuşdur. Görüşdə iştirak edən 10 nəfərdən ibarət qonaqlar arasında Qırğızıstan Dövlət Universitetinin dosenti A.İ.Tişin də var idi [11, s.3].

Görüşdə yazıçılarımızın fərdi yaradıcılıq problemləri, yeni nəslin tərbiyəsində göstərdikləri xidmətləri, qardaş xalqlar ədəbiyyatlarına olan münasibətləri, yazıçı-oxucu əlaqələri, tərcümə məsələləri, milli münasibətlərin digər aktual problemləri barədə dinləmələr və müzakirələr olmuşdur.

1984-cü ildə qırğız alimi C.T.Ümətəliyeva Bakıda Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunda "Qırğızıstanda təsviri incəsənətin təşəkkülü və inkişafı" mövzusunda dissertasiya müdafiə edərək, sənətşünaslıq elmləri doktoru adını almışdır. C.T.Ümətəliyevanın elmi məsləhətçisi Azərbaycan SSR EA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor K.C.Kərimov idi [327, s.75].

1985-ci ildə Frunzedə Qırğızıstan Coğrafiya Cəmiyyətinin IV qurultayında iştirak edən Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov "Dağlıq mənzərələrin tipikləşdirilməsi və onlardan kənd təsərrüfatın-

da istifadə problemləri" mövzusunda məruzə etmişdir [125, s.156; 604, s.128-129].

1986-cı ildə Frunzedə türk onomastikasına həsr olunmuş I Ümumittifaq elmi-nəzəri konfrans keçirilmişdir. Konfransda iştirak edən Azərbaycan SSR EA Nəsimi adına Dilçilik İnstitutunun onomastika şöbəsinin əməkdaşı A.M.Paşayev "Azərbaycan dilində titullar" mövzusunda məruzə etmişdir [53, s.23].

Bakıda nəşr olunan "Sovetskaya türkologiya" jurnalının 1987-ci ilin 3-cü sayında Qırğızıstanla bağlı üç elmi məqalə dərc olunmuşdu: 1. B.O. Oruzbayevanın (Frunze) "Qırğız və Cənubi Sibir türk dillərindəki leksik paralellərin həmin dillərin tarixi-mədəni birliyi işığında təhlili". 2. İ.Laude-Sirtautasın (ABŞ) "Qırğız şair-dastançısı Saqımbay Orazbekov (1867-1930) və "Manas eposu". 3. A.S.Mirbadaleyevanın (Moskva) "Qırğız qəhrəmanlıq eposu "Manas"ın manasçılar S.Orozbekov və S.Karalayevdən yazıya alınmış iki klassik variantının bədii quruluşu haqqında" [422, s.4].

Bu məqalələr qırğız və Cənubi Sibir türk xalqlarının dillərindəki leksik paralelləşmə ilə onların tarixi-mədəni birliyini dərk etmək və yazıya alınmış "Manas"ın bədii quruluşunu öyrənmək baxımından çox əhəmiyyətli idilər.

1988-ci il iyulun 4-5-də Azərbaycan SSR EA-nın Əlyazmalar İnstitutunda türkologiya problemləri üzrə çox mühüm və əhəmiyyəti bir hadisə - SSRİ və Türkiyə alimlərinin birinci kollekvumu olmuşdur. Bu kollekvuma, həm də Qorqudşünasların Beynəlxalq görüşü də demək olardı. Bu görüşdə qorqudşünaslar "Dədə Qorqud" dastanının Vatikan və Drezden nüsxələrində mübahisə doğuran bu və ya digər məsələləri tam aydınlaşdırmaq imkanı əldə etmişdilər [204, s.1].

Qorqudşünasların Beynəlxalq görüşündə Türkiyədən gəlmiş 7 görkəmli alim iştirak etmiş, digər respublikalardan və Azərbaycandan olan nümayəndələr də daxil olmaqla, 30-dan çox müxtəlif mövzularda məruzələr oxunmuş, sorğu-suallar, diskussiyalar, müzakirələr keçirilmişdir.

SSRİ və Türkiyə alimlərinin birinci kollekvumuna qatılan Qırğızıstan Elmlər Akademiyası əlyazmaları və mətnşünaslıq bölməsinin müdiri Süleyman Kayıpov "Manas" eposu və "Dədə Qorqud kitabı" mövzusunda məruzə etmişdir [203, s.1].

1988-ci ildə Frunze şəhərində (indiki Bişkək) keçirilən V Ümumittifaq Türkoloji konfransda (7-9 sentyabr) iştirak edən Azərbaycanın tanınmış, görkəmli dilçi alimlərindən filologiya elmləri doktorları, professorlar Nizami Xudiyev "Sovet dövrü Azərbaycan ədəbiyyatının lüğət ehtiyatının zənginləşdirilməsinin öyrənilməsi yolları" [427, s.198], Afad Qurbanov "Ali təhsil müəssisələrində yüksək ixtisaslı kadrların hazırlanmasında ikidilli prosesin əhəmiyyəti" [4, s.117] və Ağamusa Axundov "Azərbaycan dili fel şəkilləri sistemində sıra kateqoriyası" [6, s.18] mövzularında məruzə etmişlər. Filologiya elmləri doktoru, professor A.A.Axundov konfransdan sonra yazdığı "Problemlər, vəzifələr" adlı məqaləsində öz təəssüratlarını əks etdirmiş, orada müzakirə olunan məsələlərin və qarşıya qoyulmuş vəzifələrin əhəmiyyətindən bəhs etmişdir [6, s.84].

Tanınmış alim, filologiya elmlər doktoru, professor Nizami Cəfərov 1988-ci ildə yazdığı "Böyük mədəniyyətin övladı, yaxud varisliyin poetikası" adlı məqaləsində "min illərin zəngin türk mədəniyyətini özündə məhz tarixi inkişaf məntiqi ilə ehtiva edən" Çingiz Aytmatov sənətkarlığının nəhəngliyindən bəhs edərək, onu böyük və zəngin "türk mədəniyyətinin fenomeni" adlandırmışdır.

Məqalədə Ç.Aytmatov yaradıcılığı ilə Ə.Əylisli, İ.Hüseynov və V.Səmədoğlunun yaradıcılığı arasında poetik strukturca uyğunluq olduğu da qeyd edilmişdir [151, s.2].

XX əsrin 80-ci illərinin sonlarında SSRİ-də iqtisadi böhranın dərinləşməsi, mərkəzdənqaçma meyllərinin güclənməsi, hakimiyyət uğrunda çəkişmələrin genişlənməsi, müstəqillik uğrunda mübarizənin başlanması ölkəni idarəolunmaz bir vəziyyətə gətirmişdi.

Çar Rusiyasının milli-ucqarlara qarşı apardığı müstəmləkəçilik, "Parçala, hökm sür!" siyasətində sədaqətini unutmamış

Sovetlər İttifaqı milli münaqişələri gücləndirməklə, idarəçilikdə bacarıqsızlığını gizlətməyə çalışırdı. Milli respublikalarda milli-azadlıq hərəkatı güclənir, bir-birlərinə qarşı torpaq iddiaları onlarda düşmənçilik münasibətləri formalaşdırır, iqtisadi, elmi və mədəni əlaqələr pozulub, dağılırdı. Ermənilərin məkrli siyasətinə havadarlıq edən Moskvanın ikiüzlü və yaramaz siyasəti Qarabağda müharibə ocağını alovlandırır, Ermənistandan və Dağlıq Qarabağdan azərbaycanlılar öz dədə-baba ocaqlarından erməni və rus əsgərlərinin əli ilə qovulurdu.

1989-cu il may ayının 23-dən iyunun 8-dək Özbəkistan SSR-in Fərqanə vadisində Axısqa türkləri özbək millətçilərinin zorakılığına məruz qaldılar. Özbəkistanı tərk etməyə məcbur olunmuş 74 min axıskalıdan 17,5 mini Qazaxıstanda, 16 mini Rusiyada, 40 min nəfərdən çoxu Azərbaycanda özünə sığınacaq tapa bildi. Rəsmi sənədlərdə göstərilirdi ki, "Səmərqənd vilayətindən – 1310 ailə, Sır-Dərya vilayətindən – 960 ailə, Daşkənd vilayətindən – 556 ailə, Fərqanə vilayətindən – 2705 ailə, Əndican vilayətindən – 200 ailə, Nəmənqan vilayətindən – 50 ailə, cəmi – 5781 ailə. Onlar Rusiyanın 25, Ukraynanın isə 5 vilayətinə səpələnmişdilər [459, s.32-33].

1990-cı il 20 Yanvar faciəsi bütöv Azərbaycanı silkələmişdi. Birinci Qarabağ müharibəsi böyük faciələrə, sarsıntılara səbəb olmuşdu.

Mərkəzi Asiyada da vəziyyət ürəkaçan deyildi. "Fərqanə vadisində" əhalinin həddən artıq cəmləşməsi və əkin üçün torpaq və su qıtlığı, eləcə də əsasən, 17-dən 25-dək yaş dövründə iş qüvvəsinin çoxluğu" ancaq iş tapa bilməmələri gərginlik yaradırdı [284].

Oş Qırğızıstanın şəhəri olsa da, əhalisinin əksəriyyəti özbəklər idi. İğtişaşların baş verdiyi region Fərqanə vadisinə daxil idi. Bu vadi Qırğızıstan, Tacikistan və Özbəkistan arasında bölünmüşdü. Burada qırğızlar, özbəklər və taciklərlə yanaşı məhsəti türkləri, ərəblər və uyğurlar da yaşayırdı. Burda ruslar və ukraynalılar da var idi. Bütün bu etnik qruplar Qırğızıstanın 80 etnik qrupdan ibarət əhalisindən təmsil olunmuşdu. 1990-cı

ildə Fərqanə vadisində etnik münaqişə su üstündə davadan başlamışdı. Fərqanə vadisində yaşayan qırğızlar hesab edirdilər ki, su özbəklərlə qırğızlar arasında düzgün bölünməyib. “Məhz torpaq və su qıtlığı 1990-cı ildə iğtişaşların, yanğınların və özbəklərin öldürülməsinin başlandığı kütləvi qırğınların əsas leytmotivi oldu” [503].

1990-cı ildə Oş hadisələri zamanı 300-dək insan həlak olmuşdusa, 2010-cu il iyunun 10-dan 11-nə keçən gecə baş vermiş qırğız və özbək gəncləri arasındakı 2-ci qarşıdurmada 49 nəfər həlak olmuş, 654 nəfər isə yaralanmışdır. Yeddi dövlət-Bir Millət Konseyi başqanı Azər Həsrət demişdir ki, “Qırğızıstandakı Oş olaylarının arxasında Rusiyanın durması şübhəsizdir” [365].

Göründüyü kimi, istər Azərbaycanda, istərsə də Mərkəzi Asiyada sabitlik pozulduğundan iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq da zəifləmişdi. “Mərkəz”in pozulmuş sabitliyin qaydaya salınması istiqamətində bacarıqsızlığı və acizliyini gizlətməyə çalışması da daha böyük yanlışlıqlara səbəb olurdu. Buna görə də, respublikalar arasında ikitərəfli əməkdaşlıq konsepsiyası nəzərdən keçirilir, iqtisadi əlaqələrin genişləndirilməsinin konkret istiqamətləri müzakirə olunurdu.

1990-cı ilin avqustunda Azərbaycan ilə Qırğızıstan arasında iqtisadi, elmi-texniki və mədən əməkdaşlıq haqqında respublikalararası saziş hazırlamaq üçün Qırğızıstan SSR Nazirlər Soveti sədrinin birinci müavini M.A.Aseinov başda olmaqla, Qırğızıstan SSR hökumət komissiyası Bakıya gəlmişdi. Qırğızıstan nümayəndə heyətini Azərbaycanın respublikalararası iqtisadi münasibətləri əlaqələndirmə komissiyasının sədri, respublika Nazirlər Soveti sədrinin birinci müavini A.T.Rasizadə qəbul etmişdir [68, s.1].

Danışıqlar gedişində birgə müəssisələrin yaradılması, xarici iqtisadi fəaliyyətin təkmilləşdirilməsi, xalq təhsili, mədəniyyət, elmi-texniki tərəqqi sahəsində əməkdaşlığın inkişafı məsələlərinin qısa bir vaxtda öyrənilməklə qaydaya salınması irəli sürülmüşdür.

XX əsrin 80-ci illərində Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası ilə Qırğızıstan SSR EA-nın Mərkəzi Elmi kitabxanası arasında müntəzəm əlaqələr olmuş, təəssüf ki, 1988-1991-ci illərdə baş vermiş hadisələr, elmi jurnalların, konfrans materiallarının çapındakı problemlər bu əlaqələrə mənfi təsir göstərmişdir. Dövlət Büdcəsindən Akademiyalar üçün hər iki respublikada maliyyə ayırmalarındakı azalmalar da, elmi əlaqələrin zəifləməsinə, elmi nəşrlərin mübadiləsinə təsirsiz qalmamışdır.

1943-cü il yanvarın 5-də SSRİ EA-nın nəzdində təşkil edilmiş Qırğızıstan SSR EA filialının bazasında 1954-cü il dekabrın 20-də Qırğızıstan SSR EA-nın yaradılmasından sonra respublikada elmin inkişafı istiqamətində mühüm addımlar atılmış və elmi əlaqələrin genişləndirilməsinə daha böyük səy göstərilmişdir [589, s.11-14].

1959-cu ildə Qırğızıstan EA-nın "Xəbərlər" jurnalının nəşrinə başlanılmış, 1974-cü ildə Qırğızıstan EA-nın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüş, onun elmi kitabxanasının bazası xeyli genişləndirilmişdir. Belə ki, kitabxananın fondunda 1968-ci ildə 568 min elmi ədəbiyyat var idisə [638, s.54], 2014-cü ildə 1,5 mln-a çatmışdı. 2014-cü ildə Akademiyada elmi işçilərin sayı 1940-cı illə müqayisədə 4.000-dən çox idi. Həmin dövrdə elmi-tədqiqat institutlarının sayı 9-dan 25-ə çatmışdı. 1993-cü il avqustun 18-də Qırğızıstan hökumətinin 386 saylı qərarı ilə Qırğızıstan EA - Qırğızıstan MEA adlandırılmış, 2004-cü ildə onun 50 illik yubileyi təntənə ilə qeyd edilmişdir [662, s.50-58].

Qırğızıstan EA-da 1954-cü ildə 203 elmi işçi, 12 elmlər doktoru, 83 elmlər namizədi çalışırdısa, 2019-cu ildə elmi işçilərin sayı 1410, elmlər doktorlarının sayı 129 və elmlər namizədlərinin sayı 280 nəfərə çatmışdı. 2019-cu ildə elmə dövlət büdcəsindən ayrılma 612 mln. som idi ki, bu da 2015-ci ildəki ayrılmalardan 12 faiz çox idi [657].

Qırğızıstan SSR-də elmi işçilərin say dinamikasında özünü göstərən yüksəliş elmə olan marağın, elmə və alimə göstərilən diqqət və qayğının daim artması ilə birbaşa bağlı idi. Belə ki,

respublika üzrə elmi işçilərin sayı 1940-cı ildə 0,3, 1950-ci ildə 0,8, 1965-ci ildə 3,7, 1970-ci ildə 5,9, 1975-ci ildə 7,1, 1980-ci ildə 8,2, 1985-ci ildə 9,1, 1986-cı ildə 9,8 min nəfər idi. Həmin dövrdə Qırğızıstanda milli tərkibə görə, elmi işçilərin say dinamikasında artım yüksələn xətlə gedirdi. Qırğız elmi işçilərin sayı 1950-ci ildə 94, 1960-cı ildə 586, 1965-ci ildə 1026, 1970-ci ildə 1902, 1975-ci ildə 2708 nəfər olmuşdur [655, s.142-143; 657;654, s.105].

XX əsrin 80-ci illərinin ikinci yarısında ölkədə "yenidənqurma" əhvali-ruhiyyəsinin dərinləşməsi, iqtisadi gerilik, mərkəzdənqaçma meylinin güclənməsi və milli münaqişələrə şüurlu şəkildə rəvac verilməsi böyük ictimai sarsıntılar, təlatümlər yaratdığı kimi, elmin inkişafına, elmi əlaqələrin genişlənməsinə də mane olurdu. Yalnız, Qırğızıstan öz müstəqil inkişaf, tale yolunu müəyyənləşdirdikdən sonra, elmə qayıdış, elmi əlaqələrə də yüksək önəm verməyə başladı. 2019-cu ildə Qırğızıstan Respublikasında 2,5 min nəfər aspirant təhsil alırdı. Onların 29 faizi tibb, 14 faizi iqtisadiyyat, 13 faizi hüquq, 9 faizi pedaqoji, 9 faizi filoloji, 8 faizi texniki və 27 faizi digər elm sahələri üzrə idi. Qırğızıstanda aspirantların həmin ildə 59 faizini və respublikada olan 159 elmlər doktorunun 67 faizini qadınlar təşkil edirdi [657].

1991-ci il avqustun 31-də Qırğızıstan və 1991-ci il oktyabr ayının 18-də Azərbaycan müstəqillik haqqında konstitutsiya aktı qəbul etdilər. Müstəqillik dövründə elmi əlaqələrin daha da genişləndirilməsinə ciddi ehtiyac var. Çünki iqtisadiyyat elmi əsaslara söykəndikdə daha yüksək məhsuldarlıq və inkişafa nail olur. Elmi əlaqələrin dərinləşdirilməsi həlli vacib olan ümumbəşəri problemlərin həllini yaxınlaşdırır və sürətləndirir. Gənc və müstəqil dövlətlərin xaricdən asılılıq hissini aradan götürür, qabaqcıl təcrübə və elmi nailiyyətlərin bölüşdürülməsi dost və qardaş xalqların birlik və həmrəylik duyğularını gücləndirir. Tarixi köklərlə bir-birinə bağlı olan bu xalqların bir-birini daha yaxşı başa düşməsinə, zamanın dolaylarında arxa və dayaq durmalarına səbəb olur.

## III Fəsil

## Azərbaycan-Özbəkistan elmi əlaqələri

Azərbaycan və özbək xalqlarının elmi-mədəni əlaqələrinin tarixi çox qədimdir. Tarixin bütün mərhələlərində həmişə möhkəm və sarsılmaz olan bu əlaqələri öyrənmək tarixi yaddaşımızı təzələmək, keçmişimizdən ibrətlənərək nurlu gələcəyimizə daha inamla irəliləməkdir. Müstəqil dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi baxımından olduqca zəngin və şərəfli olan əlaqələr tarixini araşdırmaq və mükəmməl öyrənmək zamanın qarşımıza qoyduğu çox ciddi və vacib tələblərdən biridir.

Xalqlar arasındakı bu dostluq ədəbiyyat, məişət, mədəniyyət yaxınlığı və qədim sənət abidələri əsasında yaşayaraq möhkəmlənmişdir.

Azərbaycan Respublikasının sabiq prezidenti, mərhum H.Əliyev demişdir: “Bu gün biz böyük sevinc hissi ilə xatırlayırıq ki, tarixi köklərimiz Özbəkistanın və Azərbaycanın mütəfəkkirləri, şairləri, alimləri arasında çox sıx dostluq telləri üçün əsas olmuşdur. Onlar bir-birinə təsir göstərmiş, öz yaradıcılığı ilə bir-birinə kömək etmişlər” [76, s.62-63].

Özbəkistan Respublikasının prezidenti İ.Kərimov 1996-cı il mayın 27-28-də Azərbaycan Respublikasına rəsmi səfəri zamanı “Xalqlarımızın bir-birinə qarşılıqlı hörməti və qarşılıqlı köməyi”ni “əcdadlarımızdan irs qalmış böyük sərvət” adlandıraraq, onu qorumağa və konkret işlərlə möhkəmləndirməyə çağıraraq, obrazlı şəkildə söyləmişdir: “Özbəklər və azərbaycanlılar azman ağacın iki budağıdır. Əgər yanındakı budaq boy atmasa, əgər budaqlar bir-birini tufandan, qasırğadan və digər hücumlardan qorumasa, uca və möhkəm olmazlar” [76, s.55].

Azərbaycanın Özbəkistanla mədəni əlaqələrinin inkişafında elmi əlaqələrin çox güclü təsiri olmuşdur. İctimai şüurun formalarından biri olan elm insanın əməli və nəzəri fəaliyyətində həmişə böyük maraq kəsb etmişdir. Onun cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə

təsirinin sosial nəticələri ölçüyə gəlməzdir. Elm, həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında mükəmməl biliklər sistemidir [39, s.40].

Böyük ədib və görkəmli ictimai xadim M.F.Axundovun dediyi kimi: "Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitədir" [404, s.108-109].

Hər bir tərəqqi və inkişaf özlüyündə elmə söykənir. Elmə böyük diqqət verilməsi, qayğı göstərilməsi və daim yüksək dəyərləndirilməsi də, bu baxımdan, təbii bir haldır. Elm ümumbəşəri mahiyyət daşıdığından, buna görə də, onun nəticələri bir ölkə hüdudlarına sığınıb qalmır. Elmi əlaqə alimləri birləşdirməklə yanaşı, dövlətləri, xalqları da yaxınlaşdırır. Buna görə də, elm hamı üçün gərəkli və faydalı görünür. Elə ciddi elmi problemlər vardır ki, onlar bütün ölkələrin və xalqların taleyi və gələcəyi ilə bağlıdır. Ona görə də birgə elmi tədqiqatlar göstərir ki, bir çox ölkələrdə inkişaf etmiş elm sahələrinin əməkdaşlığı olmadan böyük və ciddi problemlərin həllini tapmaq qeyri-mümkündür [480, s.126].

Əhatə dairəsi çox geniş olan Azərbaycan və Özbəkistan elmi əlaqələri tədqiq etdiyimiz dövrdə, əsasən, elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi-texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və s. formalarında özünü daha çox göstərmişdir [480, s.120].

### 3.1. 1920-1945-ci illərdə elmi əlaqələr

XX əsrin 20-30-cu illərində Bakıda ali və orta ixtisas məktəblərində çoxlu sayda özbək tələbələri təhsil alır, ali məktəblərimizdə müəllimləri işləməklə bərabər, elmi fəaliyyətlərini də davam etdirirdilər. Bakı Pedaqoji İnstitutunun müəllimi, özbək Xalid Səid Xocayev (1893-1937) belələrindən biri

idi. O, Daşkənd şəhərinin yaxınlığındakı Qorqan kəndində anadan olmuş, 1912-1918-ci illərdə İstanbul Universitetinin filologiya fakültəsində təhsil almışdı. Qafqaz İslam Ordusu ilə birlikdə 1918-ci ilin yayında Gəncəyə gəlmiş, orada müəllimliyə başlamışdır. Əsilzadə ailəsindən olan Sitarə Talışinski adlı xanımla evlənmişdir. Türk ordusunun Azərbaycandan çıxması və 28 aprel 1920-ci ildə sovet Rusiyasının Azərbaycanı işğal etməsindən sonra Türküstana qayıtmalı olmuşdu. 1922-ci ildə təkrar Bakıya dönən X.S.Xocayev burada pedaqoji və elmi fəaliyyətə başlamışdır. Onun 1926-cı ildə "Türk, özbək və qazax dillərinin müqayisəli morfologiyası", 1929-cu ildə "Yeni əlifba yollarında köhnə xatirələr və hisslər" və 1933-cü ildə "Qısa üslub" kitabları nəşr olunmuşdu [627, s.90-91].

X.S.Xocayevin ən böyük xidməti orta əsr türk müəlliflərindən Mahmud Kaşğarlının "Divani-lüğət-ət Türk" əsərini Azərbaycan dilinə tərcümə etməsi idi. Təəssüf ki, bu, elə bir vaxt idi ki, həmin əsərin nəşri qeyri-mümkün görünürdü. O, özbək yazıçısı Abdulla Qədirinin romanını da özbək dilindən rus dilinə çevirmişdi [627, s.91].

X.S.Xocayev 1926-cı il fevralın 22-dən martın 6-dək Azərbaycanda keçirilən I Bakı Türkoloji qurultayında da iştirak etmişdi. Qurultaya qatılmış 11 özbək nümayəndədən (tanınmış dilçi alimlər İsmayıl Sədri, Sakitcan Rəhimli, Məcid Usmanov, Xalid Səid Xocayev, şərqşünaslar Əbdürrəşid Əbdülcabbarov, Qazi Yunusov, Bikcan Rəhmanov, jurnalist-filoloqlar Rəhim İnoqamov, Aşurəli Zahiri, İlbək Metrik, Nemət Hakimov) biri də X.S.Xocayev idi. Qurultayda özbək nümayəndələrindən İ.Nahamov qurultayın Rəyasət heyətinə və S.Rəhimli isə Redaksiya Komissiyasının tərkibinə seçilmişdilər. Qurultayda Əlişir Nəvainin 500 illik yubileyinin keçirilməsinə dair komissiya yaradılmışdı. Sonrakı türkoloji qurultay 1928-ci ildə çox ciddi nəzarət altında Səmərqənddə keçirilmişdi [627, s.92; 423, s.11].

Tanınmış filoloq və pedaqoq X.S.Xocayev 1937-ci il iyunun 9-da "SSRİ ərazisində pantürkizmin ideoloqlarından biri" kimi günahlandırılaraq həbs olunmuş və 1937-ci il

oktyabrın 12-də güllələnmişdi. Yalnız 1957-ci ildə onun təqsirsizliyi sübuta yetirilmiş və o, reabilitasiya edilmişdir [626].

1920-ci illərdə görkəmli folklorşünas Bəkir Çobanzadə Daşkənd və Səmərqənddə mühazirələr oxumuşdur.

1925-ci ildə böyük şair Əlişir Nəvai ilə bağlı seriya məqalələr toplusu nəşr olunmuş, "Kommunist" qəzetində Əli Nazimin "Əmir Nəvai" və A.Süleymanovun "Füzuli və Nəvai" məqalələri çap olunmuşdur [627, s.91].

B.Çobanzadə 1926-cı ildə Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinin süjet xətti əsasında qurulmuş özbək "Ötker xatun" nağılını yazıya alaraq Bakıda nəşr etdirmişdi [627, s.91].

1926-cı ildə özbək və Azərbaycan dillərində tərcümələrin genişləndirilməsi və latın qrafikalı əlifba ilə nəşrinin təmin olunması məsələlərini müzakirə etmək üçün Azərbaycandan S.Ağamalı oğlu və dramaturq Cəlil Məmmədquluzadə Daşkəndə getmişdilər [627, s.91].

XX əsrin 20-30-cu illərindən inkişaf etməyə başlayan iqtisadi əlaqələr Azərbaycan-özbək elmi əlaqələrinə də öz müsbət təsirini göstərirdi. Orta Asiyadan Azərbaycana gətirilmiş uzunlifli pambığın becərilməsini yoxlamaq məqsədilə 1930-cu ildə Özbəkistanın Bayraməli sovxozundan gəlmiş bir qrup mütəxəssis Qaraçala sovxozunda, eləcə də Qaradonlu, Salyan və Göyçay təsərrüfatlarında olmuşdular [370, s.189]. 1935-ci il aprelin 17-də Özbəkistan KP (b) MK-nın qəbul etdiyi "Azərbaycan və Özbəkistan pambıqçıları arasında təcrübə mübadiləsinin genişləndirilməsi yolu ilə məhsuldarlığın yüksəldilməsi"nə dair qərar əsasında özbək pambıqçılarının qabaqcıl nümayəndələri Azərbaycanın 16 rayonundakı 680 kolxozda olmuşdular [35, v.116-118].

1935-ci il aprelin 28-də Azərbaycan KP (b) MK-nın BK ilə birgə keçirdiyi büro iclasında "Özbəkistanla sosializm yarışına dair" qərar qəbul edilmiş və tanınmış pambıq ustası Qüdrət Səmədovun başçılığı ilə 15 nəfərdən ibarət qrupun tezliklə Özbəkistana göndərilməsi irəli sürülmüşdür [35, v.112-113].

İstər Özbəkistan, istərsə də Azərbaycandan gələn yoxlama briqadaları arasında elmi-tədqiqat sahələrinin əməkdaşları da var idi ki, onlar da pambıqçılığın elmi əsaslarla inkişaf etdirilməsində yaxından iştirak edir və birgə elmi-təcrübə mübadiləsi aparırdılar.

Görkəmli azərbaycanlı alim, geologiya-minerologiya elmləri doktoru, professor, SSRİ EA müxbir üzvü (1953) Ə.A.Əmiraslanov "1930-1938-ci illərdə Ural, Qazaxıstan, Orta Asiya, Zabaykalye və Qafqazdakı mis qurğuşun, sink və qalay yataqlarında elmi-tədqiqat işləri aparmışdır" [39, s.203].

XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi Həmid Araslı (1909-1983) 30-cu illərin sonlarından başlayaraq, özbək ədəbiyyatına tez-tez müraciət edir, maraqlı və dəyərli məqalələrlə mətbuatda çıxışlar edirdi. Onun bu mövzularda çap olunmuş "Əlişir Nəvai" [22, s.3, 4], "Nəvai və Azərbaycan ədəbiyyatı" [26, s.3], "Nizami və Nəvai (Əlişir Nəvai-500)" [32, s.3], "Şərqdə Leyli və Məcnun əsərləri (ərəb ədəbiyyatında) "Leyli və Məcnun". Nizaminin "Leyli və Məcnun"u. Xosrov Dəhləvi, Məktəbi, Əlişir Nəvai və Hatifinin "Leyli və Məcnun" əsərləri)" [34, s.194-237] və "Özbək xalqının böyük oğlu" (Əlişir Nəvainin yaradıcılığı haqqında) [29, s.3] məqalələri elmi cəhətdən çox əhəmiyyətli idi.

### 3.2. 1946-1960-cı illərdə elmi əlaqələr

Müharibə iqtisadi əlaqələri zəiflətdiyi kimi, elmi əlaqələrin genişlənməsinə də mane olmuşdu. Müharibədən sonra iki respublika pambıqçıları arasında yarışın gedişinin yoxlanılması istiqamətində ilk addımı Azərbaycan pambıqçılarının 14 nəfərdən ibarət nümayəndə heyəti atmışdı. 1947-ci il iyulun 19-dan 28-dək Özbəkistan SSR-də olan bu nümayəndə heyətinə Azərbaycan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun direktor müavini M.Əlizadənin başçılıq etməsi alimlərin əməyinin nə kimi önəm daşıdığının böyük nümunəsi idi [474, s.1].

Azərbaycanda alimlər pambıqçılığın inkişafına öz töhfələrini verirdilər. Bu, yarışın iki respublikanın əməkçilərinin məh-

suldar əməyinin yüksəlməsinə öz müsbət təsirini göstərirdi. Turş qudrondan hasil olunan fosfatlı gübrələrdən istifadə etmək sahəsində SSRİ EA Azərbaycan filialı Aqrokimya və Torpaqşünaslıq İnstitutunun əməkdaşı, professor, SSRİ Dövlət mükafatı laureatı Cəbrayıl Hüseynovun (1913-1974) işi respublikamızda böyük imkanlar yaratmışdı [44, s.290]. Bu yeni gübrə pambıqçılarımızı, ağır torpaqlara fosfatların daha yaxşı təsir göstərə bilməsi üçün tərkibində üzvi maddələr olan fosfatlı gübrələrlə təmin etmək məsələsini həll edirdi [333, s.2].

Sonralar Azərbaycan SSR EA-nın akademiki, Azərbaycan SSR əməkdar elm xadimi (1960), Azərbaycan SSR Aqrokimya və Torpaqşünaslıq İnstitutunun direktoru (1963) səviyyəsinə qədər yüksəlmiş C.M.Hüseynovun əsas elmi fəaliyyəti neft və kimya sənayesi qalıqları əsasında boy stimilyatorlarının yeni növlərinin (neft-boy maddəsi və s.) və kompleks üzvi-mineral mikrogübrələrin əldə edilməsinə həsr edilmişdir. SSRİ-də ilk dəfə onun rəhbərliyi ilə torpağa verilmiş azotlu gübrələrdən azot itkisinin öyrənilməsinə dair elmi iş aparılmış və bu itkinin qarşısını almaq üçün tədbirlər hazırlanmış, neft sənayesində çoxlu miqdarda işlənmiş kükürd turşusundan superfosfat alınmışdır [44, s.290].

1949-cu il oktyabrın 27-də Daşkənddə keçirilən və Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi Özbəkistan kənd təsərrüfatı qabaqcıllarının VI qurultayında yüksək pambıq məhsulu götürülməsi naminə pambıqçı mütəxəssislərlə alimlərin əlaqələrinin möhkəmləndirilməsi irəli sürülmüşdü [333, s.2].

40-cı illərin 2-ci yarısında tədqiqatçı alim H.Araslı özbək şairi Ə.Nəvainin yaradıcılığı ilə bağlı araşdırmalarını davam etdirərək, yeni elmi məqalələrini çap etdirmişdir. Onun “Böyük özbək şairi (Əlişir Nəvai haqqında”) [18, s.28-30], “Əlişir Nəvai” [20, s.4], “Əlişir Nəvai və yaradıcılığı (Nəvai-500)” [31, s.50-63], “Nəvai və Azərbaycan ədəbiyyatı” [25, s.3; 27, s.4], “Nəvainin həyatı. Nəvainin lirikası. Nəvainin “Xəmsə”si. Nəvai və əsrimiz” [28, s.4] və “Özbək  xalqının böyük şairi (Əlişir Nəvainin anadan olmasının 500 illiyi münasibətilə)” [30, s.4] adlı məqalələri, bu baxımdan, dəyərli və yadda qalan idi.

1948-ci ildə özbək alimi Vahid Zahidovun böyük Azərbaycan şairi M.Füzulinin yaradıcılığından bəhs edən "Dünya ədəbiyyatında parlaq şəxsiyyət" və 1956-cı ildə Özbəkistan EA-nın akademiki Vahid Abdullayevin "Füzuli və özbək ədəbiyyatı" kitabları Daşkənddə [627, s.142-143] və professor M.Quluzadənin 1963-cü ildə Bakıda "Füzuli və özbək ədəbiyyatı" əsəri çap olunmuşdu [366, s.63-81].

Görkəmli alim M.C.Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, Azərbaycanda füzulişünaslığın əsasını qoyanlardan biri olmuşdur. Onun bu əsəri 1958-ci ildə Bakıda "Füzuli sənətkarlığı" adı altında kitab şəklində çap olunmuşdu [397, s.2].

M.C.Paşayevin bu əsəri özbək tədqiqatçılarının və o cümlədən nəvaişünaslıq elminin inkişafında böyük xidmətləri olmuş M.Şeyxzadənin elmi yaradıcılığına güclü təsir göstərmişdir. "Belə ki, Şərqdə qədimdən xüsusi poetika elminin mövcudluğuna və klassik şeiriyyəti bu elmin prinsip və qaydaları ilə tədqiq etməyin vacibliyinə ilk dəfə Mir Cəlal Paşayev özünün məşhur "Füzuli sənətkarlığı" adlı monoqrafiyasında diqqəti yönəltmiş, Maqsud Şeyxzadə isə Nəvai haqqında məqalələrində, o cümlədən "Ustadın icadxanasında", "Qəzəl mülkünün sultanı" adlı tədqiqatlarında Mir Cəlal Paşayevdən sitatlar, iqtibaslar gətirərək, bu yeni elmi-nəzəri yanaşma üsulunu özbək ədəbiyyatşünaslarının diqqətinə həvalə etmişdir" [552, s.19].

50-ci illərdə Özbəkistan pambıqçılarının əmək təcrübəsi Azərbaycanda geniş təbliğ edilir, öyrənilir və öyrədilirdi. 1950-ci il iyunun 28-dən iyulun 7-dək Özbəkistan qarşılıqlı yoxlama briqadasının tərkibində Azərbaycanın təsərrüfatlarında olan aqronom S.Kayumov "Elm, pambıq məhsulunu üç qat artırmağa kömək etmişdir" məqaləsində elmin nailiyyətlətinə güvənməklə, yüksək məhsuldarlığa nail olmağın yollarını açıqlamışdır. Öz fikrini Özbəkistan SSR Yangiyul rayonundakı Stalin kolxozunun təcrübəsi timsalında əsaslandıran S.Kayumov bu kolxoz təsərrüfatının elmi əsaslar üzərində qurulduğunu göstərmişdir. O, pambıqçılıqda tamamilə özünü doğrultmuş akademik

V.R.Vilyams sistemi ilə torpağın səpindən əvvəl becərilməsi qaydasını açıqlamış və akademik T.D.Lisenko üsulu ilə pambıq kollarının uclarının vurulmasının böyük səmərə verdiyini konkret rəqəmlərlə təsdiqləyərək, bu üsullardan Azərbaycanda da faydalanmağın vaxtı çatdığını göstərmişdir [325, s.2].

Azərbaycan MEA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin "Yer və zəlzələ (məşhur oçerk)" kitabı Daşkənddə iki dildə - rus (1950) [587] və özbək (1951) [588] dillərində çap olunmuşdur.

Böyük Türkmən Kanalının çəkilməsi ilə əlaqədar Qazaxıstan və Mərkəzi Asiyanın biloji aləmi və kənd təsərrüfatında baş verəcək dəyişikliklərin nəticələrini müzakirə etmək üçün 1952-ci il noyabrın 20-dən dekabrın 1-dək Daşkənddə elmi sessiya keçirilmişdir. Sessiyanı SSRİ EA və Özbəkistan EA-nın biologiya və kənd təsərrüfatı bölmələri təşkil etmişdilər. Sessiyada Özbəkistan, Türkmənistan, Tacikistan, Qazaxıstan, Azərbaycan SSR Elmlər Akademiyaları və SSRİ EA-nın Qırğızıstan filialının biologiya və kənd təsərrüfatı bölmələri tərəfindən göndərilmiş alimlər iştirak edirdilər. Sessiya öz işini 7 bölmə (1. Torpaq, süni suvarma və meliorasiya. 2. Bitkilər aləmi və onlardan istifadə. 3. Pambıqçılıq. 4. Meyvə və subtropik bitkiləri. 5. Heyvandarlıq və yem təchizatı. 6. Mərkəzi Asiyada ziyanlı və faydalı heyvanlar. 7. Hidrologiya və ixtiologiya) üzərində qurmuşdu [69, v.61].

Alimlərimiz elmi əlaqələri genişləndirməklə, iki xalq arasında dostluq, qardaşlıq münasibətlərinin də daim möhkəmlənməsinə səy göstərirdilər. Görkəmli alim H.Əliyevin 1953-cü il dekabrın 16-da "Qızıl Özbəkistan" qəzetində "Dostluğumuz ildən-ilə möhkəmlənir" məqaləsi özbək dilində çap olunmuşdu. Məqalədə müxtəlif istiqamətlərdəki əlaqələrimiz və onların genişləndirilməsi yolları öz əksini tapmışdı [289, s.69].

Azərbaycan SSR EA-nın Botanika bağının Qazaxıstan və Mərkəzi Asiya ölkələri ilə sıx əlaqələri var idi. 1957-ci ildə bu Botanika bağındakı 40 bitki öz coğrafi mənşəyinə görə, Türkmənistan, Özbəkistan, Tacikistan və Qazaxıstan bitkilərin-

dən əmələ gəlmişdi ki, bunlar da bağdakı bitkilərin ümumi sayının 6,2 %-ni təşkil edirdi [128, v.390].

İki respublika alimlərinin birgə keçirdikləri tədbirlər elmi əlaqələri gücləndirirdi. Pambıqçılığı inkişaf etdirməklə məşğul olan elmi təşkilatların fəaliyyətini əlaqələndirmək üçün 1955-ci il yanvarın 12-də Özbəkistan SSR EA-da respublikalararası müşavirə keçirilmişdir. Müşavirədə Özbəkistan, Tacikistan, Azərbaycan, Türkmənistan, Qazaxıstan və Qırğızıstan elmi idarələrinin nümayəndələri iştirak etmişlər.

Alimlər ümumi və bölmə iclaslarında 1955-ci ilin elmi-tədqiqat işlərinin planlarını, habelə pambıqçılığın mexanikləşdirilməsi və elektrikləşdirilməsi, hidrotexnika, suvarma və meliorasiya məsələlərinə, yüksək məhsul əldə etmək üçün elmi əsas yaradılması məsələlərinə dair aparılan elmi-tədqiqat işlərinin nəticələrinin tətbiq edilməsi planlarını geniş müzakirə etmişlər.

Dolğun və hərtərəfli rəy mübadiləsi nəticəsində elmi idarələrin fəaliyyətinin yaxşılaşdırılmasına, onların istehsalatla əlaqəsinin möhkəmləndirilməsinə kömək edə biləcək bir sıra tövsiyələr hazırlanmışdır.

Müşavirə pambığın məhsuldarlığının artırılması, ən yeni aqrotexniki üsulların, xüsusən kvadrat-yuva və darcərgəli əkin üsullarının kənd təsərrüfatında geniş tətbiq edilməsi, pambıqçılığın kompleksli mexanikləşdirilməsinin tezliklə başa çatdırılması ilə əlaqədar olan elmi-tədqiqat işlərini yaxşılaşdırmağı lazım bilmişdir [453, s.1].

1956-cı ildə Daşkənddə "İri buynuzlu heyvanların süd məhsuldarlığının artırılması"na həsr edilmiş elmi müşavirə keçirilmişdir. Müşavirədə iştirak edən Azərbaycan SSR EA Fiziologiya İnstitutunun kiçik elmi işçisi Q.Q.Qədirov "Tövləburdaq və adi otlaq şəraitində saxlanılan sağlam inəklərin fizioloji vəziyyətinin müqayisəli qiymətləndirilməsi" mövzusunda məruzə etmişdir [261, v.28].

Həmin il mayın 15-dən 20-dək Daşkənddə "Pambıq lifinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsində yeni üsulların axtarışı" mövzusunda kənd təsərrüfatı

institutları arası elmi konfrans keçirildi. Konfransda 7 bölmə (1. Torpaq, süni suvarma və melorasiya. 2. Bitkilər aləmi və onlardan istifadə. 3. Pambıqçılıq. 4. Meyvə və subtropik bitkiləri, 5. Heyvandarlıq və yem təchizatı. 6. Mərkəzi Asiyada ziyanlı və faydalı heyvanlar. 7. Hidrologiya və ixtiologiya) üzrə 32 məruzə dinlənilmişdir. Həmin məruzələri edənlərdən 14-ü Özbəkistan, 8-i Moskva, 4-ü Azərbaycan, 3-ü Tacikistan və 1-i Türkmənistan alimləri idi.

Azərbaycan alimlərindən – Azərbaycan SSR EA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor C.M.Hüseynovun "Pambığın məhsuldarlığının artırılmasında qalıq üzvi maddələrdən istifadə edilməsi", Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun əməkdaşı, kənd təsərrüfatı elmləri doktoru, professor N.İ.Malovun "Pambıq liflərinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın artırılması üçün yeni üsullar", Azərbaycan EA-nın böyük elmi işçisi A.İ.Güləhmədovun "Pambığın məhsuldarlığının yüksəldilməsində mikrogübrələrdən istifadə edilməsi" və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti, kənd təsərrüfatı elmləri namizədi M.R.Qulubəyovun "Pambığın məhsuldarlığının yeni bioloji üsullarla yüksəldilməsi" mövzularındakı məruzələri maraqla qarşılanmış və yüksək dəyərləndirilmişdir [450, v.64].

1956-cı ildə Pirquluda müşahidə bazası əsasında Pirqulu astronomik stansiyası yaradıldı. SSRİ EA-nın 1956-cı ilin fevralında keçirilən astronomlarının plenumunda Azərbaycan SSR EA Astrofizika rəsədxanasının inşaası məsələsinə baxıldı [457, v.3].

1956-cı il iyulun 1-də Azərbaycan SSR EA Rəyasət Heyətinin qərarı ilə Astrofizika İnstitutu yaradıldı. Şamaxı rayonunun Pirqulu dağında xromosfer (Günəş tutulan zaman onun ətrafında qırmızı haşiyə kimi görünən Günəş atmosferinin xarici təbəqəsi) teleskopu, AZT-7 teleskopu üçün bina, yaşayış üçün 4 otaqlı daş bina, ağacdan 4 otaqlı yaşayış evi tikməklə, daimi astronomik müşahidə stansiyası təşkil edildi. Bu stansiya yerin şimal

yarımkürəsində baş verən güclü meteo prosesləri müşahidə etməyə imkan verirdi [457, v.16-20].

1956-cı ildə Şamaxı Astrofizika Rəsədxanasında Sovet İttifaqının 7 elmi tədqiqat müəssisənin (Moskva, Leninqrad, Mərkəzi Asiya) əməkdaşları ilə birlikdə "Marağa rəsədxanasının coğrafi kordinatları əsasında Kolumbun Amerikanı kəşf etməsi" məsələsi müzakirə edilmişdi. Bu rəsədxananın əməkdaşı Q.D.Məmmədbəyli "Marağa astronomiya rəsədxanası və onun təsisçisi Məhəmməd Nəsirəddin Tusi" mövzusu üzərində işləməklə 4 elmi məqalə çap etdirmiş və bu astrofizika əməkdaşlarının 7 elmi məqaləsi çapa təqdim olunmuşdu [509, v.3-33].

Şamaxı astrofizika rəsədxanasının Mərkəzi Asiya, o cümlədən özbək astronomları ilə geniş elmi əlaqələri var idi.

1956-cı ildə Bakıda türk dilləri dialektologiyası məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsini (10-13 dekabr) SSRİ EA-nın dialektologiya işini əlaqələndirmə komissiyası ilə birlikdə Azərbaycan SSR EA təşkil etmişdi. Müşavirənin işində Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Frunze, Kazan, Tbilisi, Çeboksarı, Tobolsk və Abakanın tanınmış türkoloq alimləri iştirak edirdilər. Müşavirədə görkəmli Polşa türkoloqu, Polşa EA-nın şərqşünaslıq komitəsinin sədri professor A.A.Zayonçkovski də iştirak edirdi [535, s.4].

Dialektoloqlarının Ümumittifaq müşavirəsi iki problemə- türk milli ədəbi dillərinin əsasını təşkil edən dialekt probleminə və türk dilləri dialektlərinin öyrənilməsi işinin vəziyyətinə həsr edilmişdi.

Müşavirədə "Milli dillərin əsasını təşkil edən dialekt" məsələsinin müzakirəsində Azərbaycan, Tatarıstan, Özbəkistan və Tuva alimlərinin nümayəndələri "Türk dillərinin dialektlərinin vəziyyəti"nə həsr olunmuş bölmədə isə Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Tatarıstan, Azərbaycan nümayəndələrinin və başqalarının məruzələri nəzərdə tutulmuşdu [175, s.1].

Müşavirədə Azərbaycan SSR EA-nın müxbir üzvü, professor M.Şirəliyevin "Azərbaycan milli ədəbi dilinin əsasını təşkil edən dialekt haqqında" və özbək professoru V.V.Reşetovun

"Özbək milli dilinin əsasını təşkil edən dialekt haqqında" məruzələri rəğbətlə qarşılanmışdı.

Müşavirə müzakirə olunan məsələlər barəsində geniş əməli təkliflər qəbul etmiş və türk dilləri dialektologiyası məsələlərinə həsr edilən ikinci məhəlli müşavirənin 1957-ci ilin sentyabr-oktyabr aylarında Tatarıstan MSSR-də keçirilməsi lazım bilinmişdir [535, s.4].

1957-ci ilin əvvəllərindən başlayaraq Azərbaycanın ali məktəbləri də elmi əlaqələrdə yaxından iştirak etməyə başladılar. Bu əlaqələr müttəfiq respublikaların ali məktəbləri arasında əlaqələrin yaranması və genişləndirilməsi, ümumittifaq və respublika səviyyəli elmi konfrans, simpozium, müşavirə, seminar və digər elmi tədbirlərin təşkili, aspirantların hazırlanması, ayrı-ayrı ixtisas sahələri üzrə xüsusi mühazirə kurslarının aparılması, ixtisas artırmalarının, təcrübə mübadilələrinin genişləndirilməsi və digər formalarda özünü göstərirdi.

Azərbaycan Dövlət Universitetinin Azərbaycan Ədəbiyyat tarixi kafedrası qısa bir vaxt ərzində Özbəkistan və Türkmənistan dövlət universitetləri ilə əlaqələri genişləndirdi. ADU-nun Azərbaycan ədəbiyyat tarixi kafedrasında özbək alimlərindən Q.Kərimov, L.Kayumov və B.Abdullayevin doktorluq dissertasiyaları müzakirə edilərək müdafiəyə buraxıldı. Eləcə də ADU-nun dosenti İ.A.Əfəndiyevanın doktorluq dissertasiyası Özbəkistanda Daşkənd Universitetində müzakirə edilərək müdafiəyə buraxıldı.

Görkəmli alim P.İ.Xəlilovun ali məktəblərin filologiya fakültələri üçün yazdığı "SSRİ xalqlarının ədəbiyyatı" dərsliyi Daşkənd və Aşqabad universitetlərində geniş müzakirə edildi [677, s.365-366].

Eyni ildə Daşkənddə şərqşünasların I Ümumittifaq elmi konfransı (27 may- 4 iyun) keçirildi. Təşkilat Komitəsinin qərarına əsasən, konfransda 250 nümayəndənin iştirakı nəzərdə tutulurdu. Onlardan 50-si Moskva və Leninqraddan, 50-si Özbəkistan SSR-dən, 25-i Azərbaycan SSR-dən, 17-si Türkmənistan SSR-dən, 25-i Qırğızıstan SSR-dən, 20-si Gürcüstan SSR-dən, 15-i Tacikistan SSR-dən, 12-si Qazaxıstan SSR-dən, 3-ü Ukray-

na SSR-dən, 3-ü Tatarıstan MSSR-dən və hər birindən 2 nəfər olmaqla, 12 nəfər Başqırd MSSR, Kabardin MSSR, Buryat-Monqol MSSR-dən, Adıgey və Çərkəz muxtar vilayətindən gəlmişdilər [168, v.1-7].

6 bölmədən ("Şərq xalqlarının tarixi, iqtisadi və mədəni əlaqələri", "Şərq xalqlarının milli-azadlıq mübarizəsi tarixi", "Şərq xalqlarının qədim və orta əsrlər tarixi, arxeologiya və etnoqrafiyası", "Şərq xalqlarının ədəbiyyatı", "Şərq dilləri", "Şərq xalqlarının əlyazma irsi") ibarət olan konfransın proqramına 105 məruzə daxil edilmişdi [168, v.14-43].

Şərqşünasların I Ümumittifaq elmi konfransına Azərbaycan SSR-dən gedən 25 nəfərlik nümayəndə heyətinə Azərbaycan SSR EA-nın vitse-prezidenti akademik Ə.S.Sumbatzadə başçılıq edirdi [99, v.2].

Daşkənd elmi konfransında Azərbaycan SSR EA-nın vitse-prezidenti, akademik Ə.S.Sumbatzadənin "Azərbaycan SSR-in keçmiş və müasir şərqşünaslığı", Azərbaycan SSR EA-nın akademiki Ə.Ə.Əlizadənin "Rəşid-əd Dinin "Cami-ət təvarix" əsəri Ön Asiya xalqlarının tarixində bir mənbə kimi", Azərbaycan SSR EA-nın akademiki A.O.Makovelskinin "Avesta"da cəmiyyətin iqtisadi mənşəyi və ictimai quruluşu", Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Ə.Dəmirçizadənin "Dədə Qorqud eposu", Azərbaycan SSR EA-nın müxbir üzvü M.A.Dadaşzadənin "Sovet Azərbaycanında dramaturgiyanın inkişafı", filologiya elmlər doktoru H.M.Araslının "Orta əsrlərdə Azərbaycan-ərəb mədəni əlaqələri tarixindən", professor A.S.Fərəcovun "Nizam-əl Mülk, Nizami Gəncəvi, Nəsrəddin Tusi və Rəşid-əd Dinin iqtisadi görüşləri", tarix elmlər namizədi Ə.N.Quliyevin "XV-XVIII əsrlərdə Azərbaycanın Rusiya ilə ticarət və diplomatik əlaqələri", tarix elmlər namizədi S.B.Aşurbəylinin "Qədim və orta əsrlərdə Azərbaycanın Çinlə iqtisadi və mədəni əlaqələri", tarix elmləri namizədləri M.Ə.Qazıyev və P.Ə.Əzizbəyovanın "Azərbaycan iqtisadiyyatındakı geriliyin aradan qaldırılması", Respublika Əlyazmalar Fondunun direktoru, filologiya elmləri namizədi M.S.Sultanovun "Azərbaycan SSR EA Əlyazmalar

Fondunda Yaxın Şərq xalqları klassiklərinin nadir əlyazmaları" mövzusundakı məruzələri, filologiya elmləri namizədləri A.Q.Orucov, A.Cəfərov, A.Məmmədov, R.Sultanov, tarix elmləri namizədləri Ş.Tağıyeva, M.Ə.İsmayılov, Z.Abdullayev, R.Qazıyev və başqalarının məruzələri böyük maraqla qarşılanmışdı [99, v.51-52, 1-6].

Şərqşünasların Daşkənddə keçirilən I Ümumittifaq konfransında iştirak edən görkəmli ədəbiyyatşünas alim H.M.Araslı konfransda "Şərq xalqlarının iqtisadi, mədəni və tarixi əlaqələri" bölməsinin sədri olmuş [283, s.12-13] və Azərbaycan-ərəb mədəni əlaqələrini əks etdirən məruzəsi ilə də daha çox yadda qalmışdır [631, s.406-411].

Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən tərtib edilməyə başlanılan 4 cildlik "Azərbaycan dilinin izahlı lüğəti" təkcə respublikamızda deyil, SSRİ-dəki türkdilli respublikaların hamısında böyük maraqla qarşılanmışdı. Çünki Azərbaycanın dilçi alimlərinin bu uğurlu addımı həmin türkdilli respublikaların hamısı üçün ilk təcrübə idi. Lüğətin birinci cildi artıq 1957-ci ildə tərtib edilib qurtarmış və növbəti cildlər üzərində yaradıcılıq işləri getməkdə idi. Lakin nəşriyyat planının həcmi məhdud olduğu üçün bu iş bir qədər ləngiyirdi. Ona görə də 1957-ci ildə Azərbaycan SSR EA-nın prezidenti M.M.Əliyev Azərbaycan KP MK təbliğat şöbəsinin müdiri Ş.Qurbanova göndərdiyi məktubda bu barədə belə yazırdı: "... həmin lüğət hələ nəşr edilməmişdən əvvəl onun quruluşu, tərtib prinsipləri, əhatə etdiyi dil materialı və s. haqqında geniş oxucu kütləsinə qısa da olsa məlumat verilməlidir ki, lüğəti hazırlayan kollektiv öz işində məsləhət və göstərişləri nəzərə ala bilsin. Məhz bu məqsədlə institutun lüğət şöbəsi "Azərbaycan dili izahlı lüğətinin layihəsi"ni hazırlayıb (6 m.v. həcmində) hələ keçən il (1956-cı il) nəşriyyata təqdim etmişdir. Elmlər Akademiyasına verilmiş nəşriyyat planının həcmi məhdud olduğu üçün həmin layihəni çap etməyə imkan olmamışdır. Halbuki Nizami adına Ədəbiyyat və Dil İnstitutu, izahlı lüğət hazırlamaq istəyən Qazaxıstan, Qırğızıstan, Özbəkistan respubli-

kalarının mütəxəssislərindən dəfələrlə məktublar almışdır ki, burada izahlı lüğətin tərtib prinsipləri və ümumiyyətlə bu sahədə nə cür iş aparmaq haqqında soruşurlar.

Bütün bunlar "Azərbaycan dili izahlı lüğətinin layihə"si əsərinin tezliklə çap edilməsi və yayılmasının nə qədər vacib olduğunu aşkar surətdə göstərir" [97, v.256-257].

1957-ci ildə petroqrafların Daşkənd şəhərində keçirilən I Ümumittifaq müşavirəsində akademik M.S.Qaşqay təşkilat komitəsinin üzvü seçilmişdir [650, s.10].

1958-ci ildə SSRİ EA-nın Şərqşünaslıq İnstitutu ilə birlikdə Azərbaycan SSR EA-nın Tarix İnstitutu XIII əsrin axırları və XIV əsrin əvvəllərində yaşamış tarixçi və dövlət xadimi Fəzlullah Rəşid-əd Dinin "Cami-ət təvarix" ("Salnamələr məcmuəsi") kitabının 3-cü cildinin min səhifədən artıq həcmdə olan elmi-tənqidi mətnini nəşr etmişdilər. Kitabın fars dilində elmi-tənqidi mətnini Azərbaycan SSR EA-nın akademiki Ə.Əlizadə Daşkənd və Leninqradın ümumi kitabxanalarında, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda, Britaniya və Tehran muzeylərində saxlanılan əlyazmaları, habelə İstanbul və Paris əlyazmaları əsasında tərtib etmişdi.

Akademik Ə.Əlizadə həmçinin 3-cü cildin göstəricilərini: terminoloji, etnik adları, xüsusi adları, coğrafi adları və türk-monqol tarixini tərtib etmişdi.

Hülakilər (Elxanilər) dövlətinin tarixinə həsr edilmiş "Cami-ət-təvarix" əsərinin 3-cü cildinin farsca mətninin rus tərcüməsini Daşkənd şərqşünası A.K.Arendt hazırlamışdır. Azərbaycan SSR EA-nın nəşriyyatında nəşr olunmuş bu kitabda giriş məqalələri də dərc edilmişdir [436, s.2].

1958-ci il fevral ayının 3-dən 8-dək Azərbaycan SSR Elmlər Akademiyasında hesablama riyaziyyatı və hesablama texnikası vasitələrinin tətbiqi məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsi keçirilmişdir. Müşavirəni Azərbaycan SSR EA-nın avtomatika və telemexanika institutu çağırmışdı. Müşavirədə Rusiya Federasiyasının Moskva, Leninqrad və başqa şəhərlərinin, Ukrayna, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Ermənistan, Litva və Latviyanın elmi işçiləri və mütəxəssisləri iştirak edirdilər.

Müşavirədə SSRİ EA Rəyasət heyəti yanında hesablama texnikası komissiyasının sədri akademik A.Dorodnitsin hesablama riyaziyyatının inkişaf perspektivlərindən danışmış, Azərbaycan SSR EA prezidentinin müavini akademik Z.Xəlilov Azərbaycanda riyazi elmlərin inkişafı haqqında, texnika elmləri namizədi S.Ələsgərov hesablama texniki vasitələrinin tətbiqi sahəsində Azərbaycan SSR EA hesablama mərkəzi tərəfindən aparılan elmi-tədqiqat işlərinin nəticələri barədə məruzə etmişlər [279, s.2]. Ümumi iclaslarda və bölmə iclaslarında hesablama riyaziyyatı və texnikası məsələlərinə dair 80 məruzə (o cümlədən, Özbəkistan alimlərinin 3 məruzəsi) [277, v.19] dinlənilib müzakirə edilmişdir [280, s.2].

1958-ci ildə petroqrafların Daşkənd şəhərində II Ümumittifaq görüşü keçirildi. Təşkilat komitəsinin üzvü, Azərbaycan SSR EA-nın akademiki, geologiya-minerologiya elmləri doktoru, professor M.S.Qaşqay görüş zamanı "Azərbaycanın maqmatizmi və metallogeniyası" mövzusunda məruzə etmişdir [648].

1959-cu il mayın 6-da Azərbaycan SSR EA Rəyasət heyətinin nəzdində beynəlxalq elmi əlaqələr üzrə xüsusi komissiya fəaliyyətə başladı. Akademik M.S.Qaşqayın rəhbərlik etdiyi bu komissiya Azərbaycan alimlərinin beynəlxalq və ittifaq daxilində vaxtaşırı keçirilən bir çox böyük elmi forumlarda, o cümlədən, dünya neft katalizm problemlərinə və qaza həsr olunmuş konqreslərdə, simpoziumlarda və elmi sessiyalarda fəal iştiraklarına öz müsbət təsirini göstərmişdir [480, s.120].

1959-cu ilin mayında Daşkənd şəhərində Orta Asiyanın Rusiya ilə birləşməsi məsələsiylə əlaqədar elmi sessiya keçirilmişdir. Elmi sessiyaya dəvət olunmuş görkəmli akademik Ə.S.Sumbatzadə [250, s.49] və Azərbaycan SSR EA Tarix İnstitutunun bir qrup əməkdaşı maraqlı mövzularla məruzə etmişlər [435, v. 44].

Azərbaycan tarixçiləri sessiyada olduğu zaman Özbəkistanın B.İ.Lenin adına kolxozunda əməkçilərlə dostluq görüşü olmuş, tarixlə bağlı pambıqçıların suallarını cavablandırmışlar. [690, s.1].

Yenə həmin ildə Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun elmi katibi A.K.Ələsgərov Daşkənddə keçirilən "Pambığın qiyməti və onun maya dəyəri" mövzusundakı Tənzimedici müşavirədə iştirak etmişdir [165, v.119].

1959-cu ilin iyun ayında Özbəkistanın Səmərqənd şəhərində frazeoloji lüğətlərin tərtibi məsələlərinə həsr edilmiş elmi müşavirə keçirilmişdir. Müşavirədə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşı H.Bayramov "Azərbaycan dilinin frazelogiyası və frazeloji lüğətinin tərtibi" mövzusunda məruzə etmişdir [265, v.51].

Özbəkistanın "Qızıl Özbəkistan" qəzeti 1959-cu il may ayının 28-də Azərbaycan-özbək xalqlarının tarixi, mədəni və iqtisadi əlaqələrinə dair məqalə çap etməyi planlaşdırmışdı. Məqalənin həcmi 10 səhifə olmalı idi. Görkəmli tarixçi alim, akademik Ə.S.Sumbatzadə "Dostluğumuz möhkəmdir" adlı məqaləni vaxtında hazırlayaraq redaksiyaya göndərmişdi. Çap olunmuş məqalə oxucular tərəfindən səmimi qarşılanmışdı [250, s.49].

50-ci illərdə Azərbaycan-özbək elmi əlaqələrinin mühüm formalarından biri Özbəkistan problemlərinin elmi müstəvidə araşdırılması və özbək alimlərinin Bakıda dissertasiya müdafiə etmələri idi.

1956-cı ildə Azərbaycan Sənaye İnstitutunda gənc tədqiqatçı A.Əliyev görkəmli alim, akademik Ə.Əlizadənin rəhbərliyi altında "Neft axtarışı və tektonik depresiya (Fərqanə vadisinin nümunəsində)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsini almışdı [231, s.147].

1959-cu ilin fevralında Ə.Nəvai adına Özbəkistan Dövlət Universitetinin dosenti V.Abdullayev Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında "XVII-XVIII əsrlərdə Xarəzmdə özbək ədəbiyyatı" mövzusunda filoloji elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

V.Abdullayev bu əsəri böyük Azərbaycan şairi Məhəmməd Füzulinin vəfatının 400 illiyinə ithaf etmişdir.

Dissertantın rəsmi opponentləri – Azərbaycan SSR EA-nın müxbir üzvü, professor H.Araslı, filoloji elmlər doktorları F.Qasımzadə, C.Hacıyev və Özbəkistan SSR EA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru V.Zahidov əsərə yüksək qiymət vermiş, Elmi Şura yekdilliklə bu əsərə görə V.Abdullayevə filoloji elmlər doktoru adını verməyi qərara almışdır [442, s.2].

1959-cu ilin dekabrında gənc özbək alimi A.Əkrəmxocayev Azərbaycan SSR EA-nın İ.M.Qubkin adına Geologiya İnstitutunun Elmi Şurasında "Fərqanə depresiyasının təbaşir çöküntülərinin litologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Dissertasiyada Fərqanə depresiyasının təbaşir çöküntüləri tətbiqinin hərtərəfli səciyyəsi verilmiş və neftlilik-qazlılıq perspektivliyi əsaslandırılmışdır.

Rəsmi opponentlər – Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.D.Sultanov, SSRİ EA-nın Yanar Faydalı Qazıntıların Geologiyası və İşlənilməsi İnstitutunun professoru S.Q.Sarkisyan və Fərqanə neft kombinatının baş geoloqu İ.P.Sokolov dissertasiyanı bitkin elmi-tədqiqat işi adlandırmış, çıxış edən Azərbaycan SSR EA-nın akademiki Ş.Ə.Əzizbəyov, professor Ə.Ə.Əlizadə və başqaları özbək aliminin işinə yüksək qiymət vermiş və institutun Elmi Şurası A.Əkrəmxocayevə geoloji-mineraloji elmləri doktoru elmi adını verməyi yekdilliklə qərara almışdır [443, s.2].

50-ci illərdə elmi ezamiyyətlər də elmi əlaqələrin bir növü kimi öz əhəmiyyətini saxlayır və elmi yeniliklərin qarşılıqlı şəkildə ötürülməsində mühüm rol oynayırdı.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun "Malyariya və tibbi parazitologiya" kafedrasının müdiri, professor M.R.Nəzirova 1954-cü ildə sentyabr ayının 16-dan 30-dək olan 15 gün müddətində Daşkənd şəhərində elmi ezamiyyətdə olmuş, elmi yeniliklərlə öz həmkarlarını tanış etmiş və fikir mübadiləsi aparmışlar [221, v.7].

Müharibədən sonra Azərbaycan-özbək elmi əlaqələrində elmi jurnal, elmi konfrans materialları və elmi kitabların mübadiləsi də mühüm rol oynayırdı.

Özbəkistan SSR EA-nın “Məruzələr”i, “Xəbərləri”nin tibb, texniki elmlər, fizika-riyaziyyat, kimya, filologiya, biologiya, ictimai elmlər seriyaları Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına göndərildiyi kimi, Azərbaycan SSR EA-nın həmin jurnalları da Özbəkistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına və onun Qaraqalpaq MSSR-dəki filialının Elmi Kitabxanasına göndərilirdi [70].

1957-ci ildə Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası Özbəkistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasına hədiyyə olaraq 13 adda 50 nüsxədən çox kitab göndərmişdi. Həmin kitabların siyahısına “Koroğlu”, “Xaqani. Seçilmiş əsərləri”, “Molla Nəsrəddin lətifələri”, “Xalq şairi Səməd Vurğun”, “Q.Qasımzadə. Azərbaycan ədəbiyyatında xalqlar dostluğu”, “Abbas Səhhət (həyat və yaradıcılığı)”, “Abdulla Şaiq (həyat və yaradıcılığı)”, “Kamran Məmmədov. Qasım bəy Zakir,” “Rusca-azərbaycanca lüğət”, “M.Şirəliyev. Bakı dialekti”, “Azərbaycan dilinin lüğət qrupu dialekt və şivələri” və Nizami adına Ədəbiyyat və Dil İnstitutunun “Əsərləri”nin V, VI, VII, VIII və IX cildləri daxil idi. Bu kitablar Azərbaycan SSR EA nəşriyyatında 1950-1957-ci illər arasında nəşr edilmişdi [447, v.160].

60-cı illərdə Azərbaycan-özbək elmi əlaqələri xeyli genişləndi. Bu, ölkədəki iqtisadi quruculuq, inkişaf və iqtisadi əlaqələrin canlanması və dərinləşməsi ilə birbaşa bağlı idi. Həyat iqtisadiyyatın elmə söykənməsini və elmi əsaslar üzərində qurulmasını tələb edirdi. Mühafizəkar baxış yumşalır, elmə, elm adamlarına göstərilən isti münasibət elmi nailiyyətlərin birbaşa istehsalata yönəlməsinə meydan açırdı. İdeologiya elmə təkan verir, elmi inkişafa büdcə ayırlmaları ildən-ilə artır və elm böyük maraq kəsb edirdi.

1960-cı ildə SSRİ EA-nın Şərqşünaslıq İnstitutu, Özbəkistan və Azərbaycan Elmlər Akademiyalarının İncəsənət İnstitutlarının birgə iştirakı ilə ikicildlik “Feodalizm dövründə Yaxın və Orta Şərq ölkələrində memarlıq (VIII-XVIII əsrlər)” adlı monoqrafiyanın yazılmasına başlanıldı. İş 1960-cı ilin yanvar ayının 1-də başlayıb, 1965-ci ilin noyabrında başa çatdırılmalı idi. İşin

1960-cı ildə 2 m.v. həcmində yazılması planlaşdırılmışdı [257, v.61; 258, v.144].

1960-cı ildə Bakıda Tibb işçiləri evində olmuş Zaqafqaziya hematoloji və qanköçürmə institutlarının 1-ci respublikalararası konfransında (15-18 iyun) qanköçürmə elminin qarşısında duran ən mühüm məsələlər – qanköçürmənin təsir mexanizminin öyrənilməsi, qandan yeni preparatların alınması üsulu, qanın laxtalanması, qan yaradan orqanlar, onların xəstəlikləri və s. məsələlər müzakirə edilmişdir.

Konfransın işində SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü A.Baqdasarov, professorlardan İ.Şerman (Leninqrad-indiki Sankt-Peterburq), A.Alazarov (Kiyev), G.Süleymanova (Daşkənd), V.Kiknadze (Tbilisi) və b. iştirak etmişlər [469, s.2].

Konfransda hematologiya sahəsində Azərbaycan həkimləri və alimlərinin əməyi müsbət dəyərləndirilmiş və bundan sonra birgə səylərini artırmaqla daha uğurlu nəticələrə nail olacaqlarına əminlik ifadə edilmişdir.

Eyni ildə Azərbaycan SSR EA-da olmuş müasir fizikanın ən vacib məsələlərinə-yarımkeçiricilərdə zərbə ilə ionlaşma və tunel effekti məsələlərinə dair Ümumittifaq müşavirəsini (12-14 oktyabr) SSRİ EA-nın Rəyasət Heyəti yanında yarımkeçiricilər komissiyası ilə Azərbaycan SSR EA-nın Fizika İnstitutu təşkil etmişdi. Dörd gün ərzində 20-dən çox məruzənin dinlənilərək müzakirə edildiyi bu müşavirədə Moskva, Leninqrad, Ukrayna, Belorusiya, Azərbaycan, Özbəkistan, Gürcüstan, Litva və b. respublikaların tanınmış alimləri də iştirak etmişdir [568, s.2].

1960-cı ildə Bakıda Azərbaycan SSR EA-nın Böyük salonunda keçirilmiş (24-27 oktyabr) türk dillərinin dialektologiyası məsələlərinə dair 3-cü məhəlli əlaqələndirmə müşavirəsinin işində Moskva, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Azərbaycan, Qırğızıstan, Türkmənistan, Moldova, Tatarıstan, Başqırdıstan, Çuvaşiya, Dağıstan, Yakutiya və Kabarda alimləri iştirak etmişdilər [533, s.4].

Müşavirə qohum türk dillərinin öyrənilməsində dialektoloji materialların rolu, qədim türk abidələrinin dialektoloji xüsu-

siyyətləri, dil və dialekt, dialektoloji lüğətlərin tərtibi, dialektoloji atlasların proqramı və s. məsələlərin həllində mühüm rol oynamışdır [536, v.163].

Müşavirə iştirakçıları SSRİ-nin türk dialektologiyasında Azərbaycan dialektologiyasının mühüm yer tutduğunu xüsusi vurğulamışlar. Qeyd etmişlər ki, Azərbaycan dilinin bütün şivələrinə və dialektlərinə aid materiallar toplanması qurtarmış, çoxlu monoqrafiya əsərləri yazılmış və dialektoloji atlas və lüğət tərtib edilməsinə başlanmışdır.

Müşavirədə Tatarıstan və Özbəkistan, Qırğızıstan və Qazaxıstan alimlərinin də əməyi yüksək qiymətləndirilmişdir. Bu müşavirədə Qaraçay-Balkar və Tuva dilləri, habelə Moldova SSR-də, ümumiyyətlə, 150 min adamın danışdığı qaqauz dili dialektologiyası ilk dəfə olaraq təmsil edilmişdir. İştirakçılar 4-cü məhəlli müşavirəni 1962-ci ildə Frunze şəhərində çağırmağı və onun gündəliyinə türk dilləri dialektlərinin dilçilik coğrafiyası metodları ilə öyrənilməsi məsələlərini, dialekt sistemlərinin təşəkkülü problemini, habelə dialektoloji lüğətlər tərtib edilməsi məsələlərini daxil etməyi məsləhət görmüşlər [534, v.4].

Müşavirədə iştirak etmiş alimlərin məruzələrinin tezisləri 20,2 ç.v. həcmində "Türk dillərinin dialektologiyası məsələləri" (Bakı, 1960) adı altında rus dilində çap olunmuşdu [536, v.168].

Doğma ədəbiyyatımızın yorulmaz tədqiqatçısı, naşiri və təbliğçisi olan H.Araslı başqa xalqların ədəbi abidələrinə və görkəmli sənətkarlarına da daim ehtiramla yanaşmışdır. Xüsusilə dahi özbək şairi, mütəfəkkiri və dövlət xadimi Əlişir Nəvainin poeziyası və onu şeirimizlə bağlayan tellər H.Araslı üçün çox əziz olmuşdur [159, s.6].

1960-cı ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşı, Azərbaycan SSR EA-nın müxbir üzvü H.Araslı Daşkənddə Ə.Nəvaiyə həsr edilmiş elmi sessiyada iştirak etmiş və "Ə.Nəvai irsinin öyrənilməsi tarixi" mövzusunda məruzə etmişdir [246, v.164].

1960-cı ildə özbək teatr tarixi haqqında M.Rəhmanovun "Həmzə və özbək teatrı" kitabı çap olunmuşdu. Kitabda Özbə-

kistanın böyük ictimai xadimi, vətəndaş müharibəsi illərində döyüşçü, şair və alim kimi tanınmış H.H.Niyazinin həyat və fəaliyyətindən bəhs edilməklə yanaşı, Özbəkistanda teatr sənətinin inkişafında Azərbaycan teatr xadimlərinin də xüsusi rolu geniş işıqlandırılmışdır. Bu əsər təkcə özbək oxucuları üçün deyil, Azərbaycan oxucuları üçün də çox dəyərli əsərdir. Çünki belə əsərlərin yaranması, şübhəsiz, xalqlar arasındakı elmi və mədəni əlaqələrin daha da möhkəmlənməsinə və dərindən öyrənilməsinə kömək edəcəkdir [381, s.3].

1961-ci ildə görkəmli ədəbiyyatşünas alim H.Araslı qardaş Özbəkistana səfərini əks etdirən "Fərqanə vadisində (Yol qeydləri)" məqaləsini yazmış [283, s.142] və "Dünya mədəniyyətinə Nizami töhfəsi" məqaləsini Daşkənddə elmi jurnalda çap etdirmişdi [283, s.304; 612, s.11-26].

1962-ci ildə Azərbaycan SSR EA-nın böyük salonunda keçirilmiş (17-20 yanvar) türk dillərində felin zaman və şəkil kateqoriyaları məsələlərinə həsr edilmiş Ümumittifaq müşavirəsində Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Nalçik, Ufa və başqa şəhərlərdən gəlmiş görkəmli dilçi alimlər iştirak etmiş, dörd gün ərzində 15-dək məruzə dinlənilmişdir.

Müşavirədə Azərbaycan alimlərindən professor M.Hüseynzadə, filoloji elmlər doktoru S.Cəfərov, filoloji elmlər namizədləri A.Axundov, Z.Budaqova, M.Rəhimov və b. maraqlı məruzələrlə çıxış etmişlər [551, s.2].

1962-ci ilin avqustunda Daşkənd şəhərində "Suvarmanın ikinci dərəcə duzlaşmaya, kimyəvi tərkibə və qrunt sularına təsiri" mövzusunda Ümumdünya hidrogeoloqlarının müşavirəsi keçirilmişdir. Müşavirədə Sovet İttifaqının 10 respublikasından, habelə 20-dən çox xarici ölkədən (ABŞ, Fransa, İraq, Tunis, BƏR və b.) gəlmiş nümayəndələr iştirak edirdilər. Müşavirədə Azərbaycan alimlərindən akademik V.Volobuyevin, professor C.Süleymanovun məruzələri iştirakçılar tərəfindən müsbət qarşılanmışdı. Professor C.Süleymanovun məruzəsində Azərbaycanın düzən zonalarının suvarılmasının təsiri nəticəsində qrunt sularının əmələ gəlməsindən bəhs edilirdi. O, məruzəsində suvarı-

lan sahələrdə qrunt sularının minerallaşmaya, kimyəvi tərkibə və duzlaşma proseslərinə təsirindən danışmışdır.

Müşavirədə iştirak edən azərbaycanlı alim-dosent A.Behbudov isə öz məruzəsini drenajlar əsasında böyük sahələrdə duzlaşmış torpaqların yuyulmasının mühüm əhəmiyyətinə həsr etmişdi [181, s.2].

1962-ci ildə Bakıda keçirilən psixiatrların I Zaqafqaziya konfransının (3-6 oktyabr) işində Azərbaycan, Gürcüstan, Ermənistan alimləri və həkimləri ilə yanaşı, Moskva, Leninqrad, Kiyev, Daşkənd, Kişinyov və digər şəhərlərin elmi ictimaiyyətinin nümayəndələri də iştirak etmişdir.

Konfransda 65 məruzə dinlənilərək, müzakirə edilmişdir. Məruzəçilər arasında nevropatoloqların və psixiatrların Ümumittifaq Elmi-Tibbi cəmiyyəti idarə heyətinin üzvü, professor D.S.Ozeretskovski, akademik A.D.Zurabaşvili, professor Ə.Ə.Abasquliyev, tibb elmlər doktoru A.M.Makaridze, O.İ.Babaxanov, M.A.Melikpaşayan kimi tanınmış alimlər var idi.

Konfrans təkcə Zaqafqaziya respublikaları üçün deyil, həmçinin ittifaq üçün böyük əhəmiyyət kəsb edən əsəb xəstəliklərinə və ruhi xəstəliklərə qarşı mübarizə sahəsində elmi-tədqiqat işlərinin və müalicə-profilaktika tədbirlərinin daha da inkişaf etdirilməsi üçün geniş qərarlar və tövsiyyələr qəbul etmişdir [463, s.2; 462, v.8].

1962-1966-cı illərdə görkəmli coğrafiyaşünas alim B.Ə.Budaqov Özbəkistan SSR EA Hirigeologiya İnstitutunun direktoru, akademik Q.A.Mövlyanovun dəvəti ilə Fərqanə çökəkliyində keçirilən geomorfoloji ekspedisiyasının elmi rəhbəri olmuşdur [125, s.11]. Bu ekspedisiyada B.Budaqovla yanaşı, Özbəkistanın həmin institutunun 3 əməkdaşı da yaxından iştirak etmişdir. Yaranmış elmi əməkdaşlıq və böyük dostluq nəticəsində, sonralar həmin o 3 əməkdaş Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi şurasında dissertasiya müdafiə edərək elmi dərəcələr almışlar. Onlardan M.Mamatkulov B.Budaqovun elmi məsləhətçiliyi ilə Bakıda müdafiə edərək (1983) coğrafiya elmləri doktoru, S.A.Nişanov, N.S.Şirinov və B.A.Antonovun rəh-

bərliyi və elmiköməkliyi nəticəsində Bakıda dissertasiya müdafiə edərək elmlər namizədi (1964) və elmlər doktoru (1984) elmi dərəcəsini almış və özbəkistanlı A.A.Rafikov da Azərbaycanda doktorluq dissertasiyası müdafiə (1986) etmişdir [125, s.70].

1962-ci ildə kənd təsərrüfatı elmləri üzrə görkəmli alim, Azərbaycan SSR EA Coğrafiya İnstitutunun "Təbiətin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması" şöbəsinin müdiri K.Ə.Ələkbərov Daşkənd şəhərində keçirilən "SSRİ-də torpaqların dağ eroziyası və sel axıntılarına qarşı mübarizə" mövzusundakı müşavirədə iştirak etmiş və bu problemlə bağlı Azərbaycandakı real vəziyyətə dair məruzə etmişdir [323, s.36].

1963-cü ildə Azərbaycan SSR EA-nın böyük salonunda neft boya maddəsinin kənd təsərrüfatında tətbiqinə dair II Ümumittifaq müşavirəsi (22-25 yanvar) olmuşdur. Moskva, Leninqrad, Kiyev, Bakı, Tbilisi, Daşkənd və bir sıra başqa şəhərlərin alim və mütəxəssislərinin iştirak etdiyi dörd günlük müşavirədə 90-a qədər məruzə dinlənilmişdir [555, s.2].

Həmin il iyun ayının 10-dan 16-dək Bakıda ADU-nun Şərqşünaslıq fakültəsinin təşəbbüsü ilə İran filologiyasına dair Ümumittifaq konfransı keçirilmişdir. Konfransda ölkəmizin digər şərqşünas alimləri ilə yanaşı özbək şərqşünas alimləri də iştirak etmişdilər. İran filologiyasına dair 1964-cü ildə Daşkənddə keçirilən IV Ümumittifaq müşavirəsində də Azərbaycan alimləri xüsusi fəallıq göstərmişdilər [677, s.369].

1963-cü ildə Bakıda SSRİ EA, İ.P.Pavlov adına Ümumittifaq Fiziologiya Cəmiyyəti və Azərbaycan SSR EA-nın birgə təşkilatçılığı ilə keçirilən (28-30 noyabr) "Mikroelementlər və əsəb sistemi" problemlərinə dair Ümumittifaq simpoziumunda tanınmış professorlardan V.V.Kovalski (Moskva), İ.K.Musabəyov (Daşkənd), A.O.Voynar və b. iştirak edirdi. Fizioloqlar ali əsəb sisteminin fəaliyyətində mikroelementlərin əhəmiyyəti mövzusunda və bir sıra mövzularda 20-dən çox məruzələr etmişlər. Azərbaycan fizioloqlarının məruzələri və onların bu istiqamətdəki elmi-tədqiqat işləri müsbət dəyərləndirilmişdir [262, s.2].

1964-cü ildə Bakıda olmuş (8-11 may) Asiya və Afrika xalqları ilə II Sovet Həmrəylik konfransında Orta Asiya, Qazaxıstan və Zaqafqaziyanın müttəfiq respublikalarından, Rusiya Federasiyasının Asiya hissəsindəki muxtar respublikalarından, ölkələri və vilayətlərindən, Moskva və Leninqrad şəhərlərindən gələn nümayəndələrlə birlikdə Asiya və Afrikadan olan bir çox dövlətlərin nümayəndələri də iştirak edirdi [296, s.1].

Konfransda Özbəkistandan gəlmiş Daşkənd Politexnik İnstitutunun rektoru, akademik M.Urazbayevin də çıxışı maraqla dinlənilmişdir [45, s.2].

1964-cü ildə Daşkənddə olmuş (26 may) SSRİ Səhiyyə Nazirliyinin Respublikalararası elmi konfransı respublikalarda traxoma xəstəliyinə qarşı mübarizəyə həsr edilmişdi.

Azərbaycandan konfransa gedən nümayəndələr arasında Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun əməkdaşları – tibb elmləri doktoru L.Suskin, tibb elmləri namizədləri V.Əliyeva, V.Qriqoryan, aspirant R.Axundova, Bakıdakı traxoma dispanserinin baş həkimi M.Hacıyeva və Naxçıvandakı göz xəstəlikləri xəstəxanasının baş həkimi M.Hüseynova var idi. Onlar məruzələrində Azərbaycanda traxoma xəstəliyinə qarşı aparılan mübarizənin effektiv nəticələri barədə söhbət açmışlar [60, s.2].

1964-cü ildə Səmərqənd şəhərində müasir dilçiliyin aktual problemləri və Y.D.Polivanovun linqvistik irsinə həsr olunmuş elmi konfransda Azərbaycanın tanınmış dilçi alimi A.Axundov “Türk dillərində şəkilçi morfemlərin fonematik tərkibi” mövzusunda məruzə etmişdir [697, s.211].

Bakıda həmin ildə Azərbaycan SSR EA-nın böyük salonunda keçirilmiş mexanika alimlərinin arasıkəsilməz mühitdə elastik-plastik dalğaların yayılmasına həsr edilmiş Ümumittifaq simpoziumunu (7-10 oktyabr) SSRİ EA-nın davamlılıq və elastikliyin əsasları problemi üzrə elmi şurası və mexanika institutu, Azərbaycan SSR EA-nın Riyaziyyat və Mexanika İnstitutu və Lomonosov adına Moskva Dövlət Universiteti təşkil etmişdi. Simpoziumda Moskva, Leninqrad, Kiyev, Alma-Ata, Daşkənd, Tbilisi, Bakı, Riqa, Yerevan, Kişinyov və digər şəhərlərin tanınmış alimləri iştirak etmişdir.

Simpoziumda çıxış edən Özbəkistan SSR EA-nın akademiki X.Ə.Rəhmətulinin "Elastik-plastik dalğaların yayılması məsələləri" haqqındakı məruzəsi də maraq doğuran məruzələrdən olmuşdur [378, s.2].

1964-cü ildə Azərbaycanın tanınmış torpaqşünas alimi, kənd təsərrüfatı elmləri doktoru M.R.Abduyev Daşkənd Kənd Təsərrüfatının İrriqasiyası və Mexanizasiyası Mühəndisləri İnstitutunun professor-müəllim heyətinin XXIII elmi-istehsalat konfransında iştirak etmiş və "Azərbaycanda deluvial formada şorlaşmış torpaqların əsas meliorativ xüsusiyyətləri" adlı məruzə ilə çıxış etmişdir [409, s.58].

Azərbaycan SSR EA-da 1964-cü ildə keçirilmiş (20-22 oktyabr) frazeologiya məsələlərinə dair IX Ümumittifaq əlaqələndirmə müşavirəsinə SSRİ EA Dilçilik İnstitutundan, akademiyanın Rus dili İnstitutundan, Ukrayna, Belorusiya, Gürcüstan, Ermənistan SSR Elmlər Akademiyalarından və Sovet İttifaqının bir çox digər elm ocaqlarından alimlər gəlmişdilər.

Müşavirədə SSRİ EA Rus dili İnstitutunun əməkdaşı A.M.Babkinin "Frazeoloji vahidlərin bölgüsü və frazeoloji lüğətlərdən ötrü onların seçilməsi", Səmərqənd universitetinin əməkdaşları L.İ.Royzenzon və Z.A.Şuqurovanın "Müqayisəli sabit ifadələrin xüsusiyyətlərinin tədqiqinə dair", M.F.Axundov adına ADPU-dan H.Ə.Bayramovun "Azərbaycan dilində sabit söz birləşmələrinin quruluşca tipləri", SSRİ EA Kazan Elmi-Tədqiqat İnstitutundan Q.X.Axunzyanovun "Tatar dili frazeoloji vahidlərinin təsnifi haqqında" mövzularında və digər mövzularda edilən məruzələr tədqiqatçı alimlərin marağına səbəb olmuşdur [266, s.4].

1964-cü il oktyabrın 26-dan noyabrın 4-dək Daşkənd şəhərində keçirilən rentgenoloq və radioloq həkimlərin VIII Ümumittifaq qurultayında Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşlarından dosent İ.İ.Şakov, dosent K.B.Poladxanova və assistentlərdən R.K.Səfərəliyev və Z.D.Cəfərov iştirak etmişdilər [167, v.86- 91].

1965-ci ildə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda olmuş (12-14 aprel) geofiziki kəşfiyyat və radiokimyəvi üsullarla neft və qaz yataqlarının axtarışı məsələlərinə həsr edilmiş müşavirə SSRİ Dövlət Plan Komissiyası yanında Neftçıxarma Sənayesi Komitəsinin təşəbbüsü ilə keçirilmiş və onun işində Moskva, Leninqrad, Saratov, Kuybışev, Daşkənd, Krasnodar və Bakının elmi-tədqiqat institutlarında fəaliyyət göstərən elmi işçilər iştirak etmişdilər.

Müşavirədə neft və qaz yataqlarının geofiziki və radiokimyəvi üsullarla axtarışı istiqamətində aparılmış işlər barədə məruzələr dinlənilmiş, qarşıda duran vəzifələr və gələcək planlar müzakirə edilmişdir. Çıxış edənlər daha faydalı nəticələrə nail olmaq üçün geofiziki kəşfiyyat üsulları ilə radiokimyəvi tədqiqatları kompleksləşdirməyi lazımlı bilmişlər.

Müşavirə iştirakçıları Neft daşlarına gedərək dəniz neftçilərinin işi ilə də yaxından tanış olmuşlar [556, s.2].

1965-ci ilin əvvəllərində Azərbaycan SSR EA nəşriyyatı Akademiyanın Zoologiya İnstitutunun 20-yə yaxın əməkdaşının məqalələrinin toplandığı "Parazitologiya məsələləri" adlı kitabı nəşr etmişdi. Əsər Azərbaycanda aparılan parazitologiya tədqiqatlarının nəticələrinə həsr olunmuşdu. Kitabda Azərbaycan SSR EA-nın müxbir üzvləri M.Musayev, C.Əsədov, professorlardan H.Qasımov, H.Əbdülsəlimov, biologiya elmləri namizədlərindən A.Hacıyev, İ.Sadıqov, Q.Qasımov, S.Vahidov, N.Feyzullayev və bir sıra başqalarının məqalələri daxil edilmişdi. Kitab qısa bir vaxt ərzində böyük maraq doğurduğundan, ona Moskva, Leninqrad, Kiyev, Minsk, Alma-Ata, Daşkənd və SSRİ-nin bir sıra başqa şəhərlərindən xeyli sifarişlər gəlmişdi [15, s.4].

Həmin il aprelin 20-22-də Bakıda M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda keçirilmiş yüksək molekullu birləşmələrə həsr edilmiş Ümumittifaq müşavirəsinin işində Sovet İttifaqının müxtəlif şəhərlərindən gəlmiş 40-a yaxın görkəmli alimlər iştirak etmişdir. Onların arasında Daşkənd Dövlət Universitetinin professoru X.Usmanov da var idi.

Müşavirənin davam etdiyi üç gün ərzində 30-a yaxın məruzə dinlənilmiş, sonra müşavirə iştirakçıları Neft daşlarına getmiş və bir sıra digər müəssisələrdə də olmuşlar [329, s.1].

1965-ci ilin mayında Daşkənddə keçirilmiş xalq təsərrüfatında gillərdən istifadə olunmasına həsr edilmiş elmi sessiyada Azərbaycan Elmi-Tədqiqat Kimya İnstitutundakı fiziki-kimya laboratoriyasının rəhbəri, professor Z.Zülfüqarov və kolloid-kimya laboratoriyasının rəhbəri, professor A.Misgərli də iştirak etmiş, Azərbaycan alimlərinin bu sahədə gördüyü maraqlı işlər, əldə etdikləri yaxşı nəticələr və qazandıqları müvəffəqiyyətlərlə sessiya iştirakçılarını tanış etmişlər [13, s.2].

Şamaxıda satirik şair M.Ə.Sabirin ev muzeyinin təntənəli açılışı münasibətlə 1965-ci il mayın 30-da orada səyyar sessiya keçirilmişdir. Nizami adına Azərbaycan ədəbiyyatı muzeyi, Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnstitutu və V.İ.Lenin adına APİ-nin təşkil etdikləri bu sessiyada Özbəkistan ədəbiyyatı muzeyinin direktoru, filoloji elmlər namizədi, şair Xalid Rəsul da iştirak etmiş və şairin mənalı yaradıcılığından danışmışdır [492, s.2].

1965-ci ilin mayında Bakıda Azərbaycan SSR EA fiziologiya bölməsinin və SSRİ EA "İnsan və heyvan fiziologiyası" adlı birləşmiş Elmi Şurasının birgə təşkilatçılığı ilə camışçılığın elmi əsaslar üzrə inkişaf etdirilməsinə dair Ümumittifaq müşavirəsi keçirilmişdir. Zaqafqaziya respublikaları, Şimali Qafqaz, Mərkəzi Asiya və PSFSR-in mərkəzi vilayətlərindən gəlmiş elmi işçilərin iştirak etdiyi bu konfransda 6 bölmə üzrə 50 məruzə dinlənilmiş və camışçılığın inkişaf perspektivləri geniş müzakirə olunmuşdur [140, v.80]. Müşavirədə özbək alimlərinin də mövqeyi diqqəti cəlb etmişdir.

1965-ci ildə Bakıda sortsınama sahələri işçilərinin iki həftə davam edən (avqust-sentyabr) Ümumittifaq seminarının əsas məqsədi subtropik bitkilərin məhsuldarlığının yüksəldilməsi və sortların yaxşılaşdırılması idi. Seminarı SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Kənd Təsərrüfatı Bitkiləri Sortlarını Sınama Komissiyası təşkil etmişdi. "Seminarda iştirak

etmək üçün Moskva, Gürcüstan, Ermənistan, Özbəkistan, Tacikistan, Krasnodar ölkəsi və Azərbaycandan mütəxəssislər gəlmişdi. Seminarın iştirakçıları bir sıra mühazirələr dinləmiş, elmi-tədqiqat işi sahəsində təcrübə mübadiləsi etmiş, Maştağa subtropik sovxozuna, Mirbəşir dövlət sortsınama sahəsinə, Genetika və Seleksiya İnstitutunun Qarabağ elmi-təcrübə bazasına getmişdilər" [558, s.1].

1965-ci ilin əvvəllərində Bakıda keçirilmiş türk dilləri dialektologiyası məsələlərinə həsr edilmiş müşavirənin əsas məqsədi oktyabr ayında Azərbaycanda keçiriləcək dialektoloji məsələlərə dair Ümumittifaq müşavirəsinə hazırlıq işlərinin müəyyənləşməsi və görülməsi idi. Bu müşavirəni Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dialektologiya şöbəsi təşkil etmişdi. Moskva, Daşkənd, Alma-Ata, Frunze, Kazan, Aşqabad, Səmərqənd və b. şəhərlərin görkəmli dialektoloqları müşavirədə iştirak etmək üçün Bakıya gəlmişdilər.

İnstitutun dialektologiya şöbəsinin əməkdaşları "Türk dilləri dialektologiyası məsələləri" adlı məqalələr məcmuəsini çapa hazırlamışdılar. Məcmuəyə 33 müəllifin məqaləsi daxil edilmişdi. Bu məqalələr dialektlərin əmələ gəlməsi tarixi, dialektlərin dilçilik coğrafiyası yolu ilə öyrənilməsi və b. mövzulara həsr olunmuşdu. Müşavirədə oxunacaq məruzələrin tezislərini kitabça şəklində nəşr etmək də nəzərdə tutulmuşdu [174, s.2; 173, v.160-168].

Ciddi hazırlıq görülən və təşkilati məsələləri vaxtında həll edilən türk dillərinin dialektologiyası məsələlərinə həsr olunmuş Ümumittifaq müşavirəsi 1965-ci il oktyabr ayının 5-7-də Bakıda keçirildi. Müşavirədə Moskva, Leninqrad, Özbəkistan, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Moldova və Türkmənistanın, habelə Başqırdıstan, Tatarıstan, Çuvasiya və Yakutiya muxtar respublikalarının dilşünas-türkoloqları iştirak edirdilər. Müşavirəyə xarici qonaqlar – Polşa EA Şərqşünaslıq İnstitutunun direktoru, akademik A.A.Zayonçkovski və macar şərqşünası professor Q.Xaza da gəlmişdilər [178, s.4].

Müşavirəni açan Azərbaycan SSR EA-nın akademiki M.Ş.Şirəliyev sovet alimləri qarşısında duran əsas vəzifələrdən biri Sovet İttifaqının türk dilləri və dialektləri atlasını yaratmaqdan ibarət olduğunu söyləmişdir. Bu məsələ ətrafında digər alimlərlə yanaşı, "Azərbaycan dilinin şərq qrupu dialekt və şivələrinin dialektoloji atlası" mövzusunda filoloji elmlər namizədi dosent R.Rüstəmov və filoloji elmlər namizədi M.İslamovun, "Özbək dili dialektoloji atlasının tərtibi haqqında" Özbəkistan SSR EA Dilçilik İnstitutunun əməkdaşı, filoloji elmlər namizədi B.Curayevin məruzələri dinlənilmişdir [543, s.3].

Müşavirənin ikinci iclasında Daşkənddən gəlmiş filoloji elmlər doktoru F.A.Abdullayev "Özbək şivələri dialektoloji lüğətinin tərtibi prinsipləri"ndən, bakılı dilçilər, filoloji elmlər namizədləri Q.M.Həsənov və B.M.Tağıyev "Azərbaycan dili dialektoloji lüğətinin tərtibi təcrübəsi"ndən, özbəkistanlı N.Niyazov (Nukus) "Qaraqalpaq dili dialektoloji lüğətinin vəziyyəti"ndən danışmışlar.

Müşavirənin üçüncü iclasında filoloji elmlər namizədi M.S.Rəhimov (Bakı) "Türk dilləri tarixi dialektologiyası tədqiqinin bəzi məsələləri", filoloji elmlər namizədi X.D.Daniyarov (Səmərqənd) "Özbəkistandakı "türklərin" şivələrinin müasir vəziyyəti və onun tarixi" mövzusunda məruzə etmişlər [540, s.3].

Müşavirənin axrıncı iclasında məruzələr ətrafında çıxışlarda özbək alimlərindən filoloji elmlər namizədləri Ə.İsayev, D.S.Nasırov və R.Kunqurov da başqa çıxış edənlər kimi öz elmi fikir və mülahizələrini bölüşmüşlər [540, s.3].

Üç gün çəkən müşavirə sonda Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru, Azərbaycan SSR EA akademiki M.Ş.Şirəliyevin sədrliyi ilə görkəmli alim-türkoloqlardan ibarət nüfuzlu komissiyaya atlasın tərtib edilməsi üçün hazırlıq işlərinə başlamağı tapşırmışdır [177, s.4].

1965-ci ildə Bakıda keçirilən fizioterapevtlərin və kurortoloqların Ümumittifaq qurultayında (25-29 oktyabr) 700 nəfər nümayəndə iştirak edirdi. Onların arasında özbək alimləri və ölkəmizin digər bölgələrindən gəlmiş nümayəndələrlə yanaşı,

Bolqarıstan, Macarıstan, ADR, Polşa, Rumıniya və Çexoslovakiyanın görkəmli mütəxəssisləri də var idi. "Qurultay iştirakçıları beş gün ərzində ümumi iclaslarda və bölmə iclaslarında müasir fizioterapiyanın və kurortologiyanın aktual problemlərinə dair 250 məruzə" müzakirə etmiş, qurultay qurtardıqdan sonra onun iştirakçıları Abşeronun sağlamlıq ocaqlarına, Naftalan kurortuna baxmış və Göygölə getmişlər [263, s.1; 264, s.4; 527, s.4].

1965-ci ilin noyabrında Bakıda Zaqafqaziya botaniklərinin sporalı bitkilərin öyrənilməsinə həsr edilmiş konfransında Zaqafqaziya respublikalarının alimləri ilə yanaşı, Leninqrad, Kiyev, Daşkənd, Düşənbə, Aşqabad və b. şəhərlərin nəbatatçıları da iştirak etmişdilər [130, s.3]. Həmin il noyabrın 29-30-da Bakıda Neft və Qaz Sənayesi Elm-Texnika Cəmiyyətinin IV Ümumittifaq qurultayı keçirilmişdir. Ölkənin bütün neft rayonlarından gəlmiş 400-dən çox nümayəndə və qonaqların arasında özbək nümayəndələri də var idi.

Qurultayda Şərqi Ukraynada, Özbəkistanda, Türkmənistanda və başqa yerlərdə yeni iri qaz rayonlarının aşkar edilməsindən ətraflı danışılmış, özbək nümayəndələri yeni qaz yataqlarının istifadəyə verilməsi və istehsal prosesində elmlə təcrübənin vəhdətindən və qabaqcıl texnologiyanın tətbiqindən bəhs etmişdilər [195, s.1].

1965-ci ilin noyabrında görkəmli tarixçi alim Ə.S.Sumbatzadə Daşkənddə keçirilən tarixçi alimlərin müşavirəsində iştirak etmişdir [698, s.1].

Həmin ildə "Hüquq qaydalarının pozulmasına yol verməyərək cinayətlərin qarşısını almaq üçün elmi-texniki vasitələri daha fəal tətbiq edək" şüarı altında Bakıda məhkəmə ekspertlərinin elmi konfransı (1-3 dekabr) keçirilmişdir. Azərbaycan SSR Nazirlər sovetinin hüquq komissiyası və respublika Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutu tərəfindən təşkil edilmiş bu konfransda Ukrayna, Özbəkistan, Qazaxıstan, Gürsüstan, Ermənistan, Türkmənistan, Latviya, Litva, Moskva və Leninqrad elmi-tədqiqat institutlarının və məhkəmə ekspertizası labora-

toriyalarının, habelə respublikamızın məhkəmə, prokurorluq orqanlarının və İctimai Asayişi Mühafizə Nazirliyinin işçiləri iştirak etmişdilər.

Elmi konfransda Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunun direktoru, hüquq elmləri namizədi F.Davudov, Daşkənd Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunun direktoru, hüquq elmlər namizədi F.Umarov və b. məruzə etmişdilər.

Məhkəmə ekspertlərinin Bakı konfransında elmi-texniki vasitələrin köməyi ilə cinayətlərin qarşısını almaq haqqında konkret təkliflər işlənib hazırlanmışdır [189, s.4].

Azərbaycan və özbək alimləri elmi işlərin müzakirəsi, rəy verilməsi və elmi şuralarda müdafiə olunmasında da yaxından iştirak edirdilər.

1965-ci ilin dekabrında Azərbaycan Dövlət Universitetinin böyük elmi şurasında tanınmış folklorşünas alim M.H.Təhmasib "Azərbaycan xalq dastanları (orta əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi [385, s.4]. Əsərin elmi məsləhətçisi Azərbaycan SSR EA müxbir üzvü, filoloji elmlər doktoru, professor H.Araslı, rəsmi opponentləri Azərbaycan SSR EA-nın akademiki M.Şirəliyev, Azərbaycan EA-nın müxbir üzvü, professor F.Qasımzadə, filoloji elmlər doktoru, professor M.C.Cəfərov, filoloji elmlər doktoru K.Məmmədov dissertasiyanı yüksək qiymətləndirmişdilər.

Əsər haqqında sovet respublikalarının və xarici ölkələrin görkəmli alim-mütəxəssislərindən rəylər alınmışdı. Özbəkistan SSR EA-nın müxbir üzvləri: fəlsəfə elmləri doktoru, professor Vahid Zahidov, filoloji elmlər doktoru, professor B. Abdullayev, Qaraqalpaq Ədəbiyyat, Tarix və Dil İnstitutunun professoru K.M.Maksatov bu əsəri türkologiya aləmində yaxşı bir təşəbbüs adlandlrmış və bütün türk xalqları, hətta, ümumiyyətlə Şərq xalqları şifahi ədəbiyyatının tətqiqində onu bir örnək kimi dəyərləndirmişlər [385, s.4].

1965-ci ildə tanınmış alim Budaq Budaqov Daşkənddə keçirilən "Mərkəzi Asiyanın rayonlaşdırılması" adlı müşavirədə

“Azərbaycanın fiziki-coğrafi rayonlaşdırılmasının yeni sxemi” mövzusunda məruzə etmişdir [601, s.97-102; 125, s.135].

1966-cı ilin sentyabrında Ə.Nəvai adına Səmərqənd Dövlət Universitetində “Ümumi dilçiliyin inkişaf problemləri” mövzusunda Ümumittifaq konfransı keçirilmişdir. Konfransın beş bölməsində aparılan iclaslarda dilçiliyin müxtəlif məsələlərinə dair çoxlu məruzə dinlənilmişdir. Konfransda iştirak edən azərbaycanlı professor Ə.Abdullayev konfransın “Sintaksis” bölməsində keçirilən iclaslara iki gün sədrlik etmişdir.

Konfransda azərbaycanlı alimlər – Azərbaycan Dövlət Universitetinin professoru Ə.Abdullayev “Türk dilləri sintaksisinin inkişafına dair” və M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun dosenti V.Xıdırov “Qırğız dilində feilin təkamül dəyişmələrinin tipologiyası” mövzularında maraq doğuran məruzələr etmişlər [176, s.4].

1966-cı ildə Bakıda Siyasi maarif evində V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyası əkinçilik şöbəsi üzümçülük bölməsinin plenumu (19-25 sentyabr) olmuşdur. Azərbaycanda üzümçülük və şərabçılıq problemlərinə həsr edilmiş bu plenumda V.İ.Lenin adına Ümumittifaq Kənd təsərrüfatı Elmlər Akademiyasının alimləri, Azərbaycan, PSFSR, Ukrayna, Moldaviya, Gürcüstan, Ermənistan, Özbəkistan, Qırğızıstan və Dağıstanın elmi işçiləri və mütəxəssisləri bir həftə ərzində 20-dən çox elmi məruzəni dinləyərək müzakirə etmiş [440, s.1], sonra Abşeron üzümçülük sovxozuna getmiş və Bakı şərab zavodunda istehsal prosesləri ilə tanış olmuşlar [563, s.1].

Həmin ildə Ə.Nəvai adına Səmərqənd Dövlət Universitetində keçirilmiş mayelər fizikasına həsr edilmiş 2-ci ali məktəblərarası elmi konfransda (22-27 sentyabr) Azərbaycanın tanınmış alimlərindən – fizika-riyaziyyat elmləri doktorları L.İmanov, X.Xəlilov, A.Abbaszadə və b. mayelər fizikası sahəsində Azərbaycan alimlərinin son vaxtlar apardıqları elmi-tədqiqat işlərinin nəticələri ilə ölkə alimlərini tanış etmişlər [260, s.1].

Yenə həmin ildə Daşkənddə keçirilmiş radioloq və rentgenoloq həkimlərin VIII Ümumittifaq qurultayında iştirak edən

Azərbaycanın onkologiya və rentgenologiya sahəsi üzrə tanınmış alimi, tibb elmləri doktoru, professor R.N.Rəhimov nümayəndələr qarşısında "Yoğun bağırsaqlardakı şişlərin diaqnostikasında turbofanın birləşdirici kimi uyğunluğunun vacibliyi" mövzusunda məruzə etmişdir [676, s.214-216].

1966-cı ildə geologiya-minerologiya elmləri doktoru, professor M.A.Qaşqayın A.T.Ştelovla birgə yazdıqları Özbəkistan SSR-in faydalı qazıntılarından, Quşsaydakı alunit növlərindən bəhs edən "Özbəkistan SSR Quşsay ərazisindəki alunit növləri" adlı elmi məqalə çap olunmuşdu [644, s.62-68].

1966-cı ilin dekabrında I Türkoloji qurultayın 40 illiyi münasibəti ilə Bakıda keçirilmiş Ümumittifaq türkoloqlar konfransı dörd gün davam etmiş və orada iki seriyadan olan məruzələr müzakirə edilmişdir. "Bu seriyalardan biri 40 il ərzində görülmüş işlərin yekunlarına həsr edilmişdi, ikinci seriyaya isə dil mədəniyyətinin vacib problemləri ilə, türk dillərinin orfoqrafiyasını təkmilləşdirmək məsələsi ilə əlaqədar olan məruzələr daxil idi" [539, s.2].

Konfransın işində türk dillərinin əlifbalarını təkmilləşdirmək məsələləri xüsusi yer tutmuşdur. Türkoloq kadrlarının artması da müsbət mənada qeyd olunmuş və hazırda Azərbaycan dilşünaslığının sovet türkologiyasında görkəmli yer tutduğu xüsusi vurğulanmışdır.

Türkoloqların Bakı konfransında özbək alimlərinin də məruzələri diqqətlə dinlənilmiş və iştirakçıların böyük marağına səbəb olmuşdu. Onlar sovet türkologiyasında keyfiyyətcə baş verən mühüm dəyişiklikləri özbək alimlərinin tədqiqatlarının nəticələrinə söykənməklə, təsdiqləmişlər.

1966-cı ildə görkəmli ədəbiyyatşünas alim H.Araslı ilə aparılmış "Çox şadam" müsahibəsi "Özbəkistan mədəniyyəti" qəzetinin 12 fevral tarixli sayında çap olunmuşdu. Jurnalist bu müsahibəni alimdən Ə.Nəvainin 525 illiyi münasibətilə Özbəkistanda keçirilən X sessiyada iştirakı zamanı götürmüşdü. H.Araslı bu sessiyada "Əlişir Nəvainin ilk tərcümələri" mövzusunda məruzə etmişdir [283, s.157, 160].

1966-cı il fevralın əvvəlində Nizami adına Azərbaycan ədəbiyyatı tarixi muzeyinin direktoru, respublika EA-nın müxbir üzvü, professor H.Araslı Daşkənddə böyük özbək şairi Ə.Nəvainin vətənində keçirilən elmi sessiyada "Ə.Nəvai və Hüseyn Bayqara" mövzusunda məruzə etmiş və özü ilə apardığı Ə.Nəvainin anadan olmasının 525 illiyi münasibəti ilə Bakıda muzeydə açılmış geniş sərginin bir hissəsini də orada nümayiş etdirmişdir [424, s.2].

Dahi özbək şairi Ə.Nəvainin anadan olmasının 525 illiyi münasibəti ilə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşı S.Əliyevin "Dahi şair, böyük alim" elmi məqaləsi çap olunmuşdu [237, s.3].

1966-cı ildə H.Araslının "Hüseyn Bayqara risaləsi haqqında" məqaləsi Özbəkistanda özbək dilində çap edilmişdi [24, s.6-12].

1967-ci ilin fevral ayının 15-də ədəbiyyatşünas alim H.Araslının özbək şairi Qafur Qulamın vəfatı münasibətilə yazdığı "Səni düşünürəm" məqaləsi "Özbəkistan mədəniyyəti" qəzetində dərc olunmuşdu [283, s.160].

1967-ci il iyunun 2-də Azərbaycan EA-da böyük satirik yazıçı və inqilabçı-demokrat C.Məmmədquluzadənin anadan olmasının yüz illiyi münasibəti ilə yubiley sessiyası keçirilmişdir. Sessiyada Azərbaycan alimləri ilə bərabər Moskvanın, sovet respublikalarının elm xadimləri və yazıçıları, xarici ədiblər də iştirak etmişlər.

Özbək alimi, filoloji elmlər namizədi M.Şaripov C.Məmmədquluzadənin çoxcəhətli ədəbi və ictimai fəaliyyətindən, əsərlərinin tərcümə olunaraq, Özbəkistanda geniş yayılmasından, ədəbi əlaqələrin genişlənməsi və ictimai dünyagörüşə güclü təsir göstərməsindən ətraflı bəhs etmişdir [467, s.1].

1967-ci ildə Bakıda keçirilmiş "Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika, Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" mövzusundakı Beynəlxalq konfransı (19-22 sentyabr) SSRİ EA, Asiya və Afrika ölkələri sovet həmrəylik Komitəsi, habelə respublikaların elmlər akademiyaları təşkil etmişdi [400, s.1].

Konfransın çoxsaylı iştirakçıları arasında Özbəkistan SSR-dən gəlmiş alimlər də var idi. Onlardan biri, professor X.Ş.İnoyatov öz çıxışında Qazaxıstan və Mərkəzi Asiya respublikalarında mədəniyyət və elmin inkişafına Böyük Oktyabrın təsiri məsələsindən bəhs etmişdir [400, s.2].

Konfrans iştirakçıları Bakının tarixi abidələri, gəzməli yerləri ilə tanış olmuş, tikilməkdə olan Bakı metropolitenini gəzmiş, onun "Bakı Soveti" stansiyasına baxmış, Dənizkənarı parkda eldar şamı, sərv, zeytun və küknar ağacları əkərək, "Həmrəylik xiyabanı" yaratmışlar [119, s.1; 122, s.2].

1967-ci ildə Azərbaycan SSR EA-da olmuş epidemioloq, mikrobioloq və infeksionistlərin III respublika qurultayının (9-11 oktyabr) işində Moskva, Leninqrad, Ukrayna, Gürcüstan, Ermənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanın tibb işçiləri iştirak edirdilər. Qurultayın açılışı günü Azərbaycan SSR Səhiyyə nazirinin birinci müavini R.B.Cavadov "Yoluxucu xəstəliklərin profilaktikası, onlara qarşı mübarizə sahəsində sovet Azərbaycanının nailiyyətləri və səhiyyə orqanlarının növbəti vəzifələri haqqında" məruzə etmişdir [307, s.4].

Müzakirələrdə özbək alimləri də fəal iştirak etmiş və maraqlı fikir mübadilələri aparmışlar.

Həmin il noyabrın 22-24-də Bakıda olmuş Zaqafqaziya respublikaları nevropatoloqlarının I elmi konfransının işində Azərbaycan, Gürcüstan və Ermənistan alimləri ilə yanaşı Moskva, Leninqrad, Xarkov, Sverdlovsk, Odessa, Saratov, Tartu, Omsk, Zaporojye, Kuybışev, Daşkənd, Kişinyov, Riqa və digər şəhərlərin görkəmli nevropatoloqları da iştirak etmişdilər.

Nevropatoloqların söhbəti iki əsas problem – beyin qan damarları xəstəlikləri və epilepsiya haqqında idi.

Zaqafqaziya nevropatoloqlarının elmi konfransında 70-dən artıq məruzə dinlənilərək müzakirə edilmiş və konfransın materialları 24 çap vərəqi həcmində böyük tirajla nəşr edilmişdir. Topluda digər iştirakçılarla bərabər, tanınmış özbək alimi N.M.Məcudovun, Azərbaycan alimlərindən professorlar S.Axundov, H.Həsənov, T.Qədirova, Z.Salayeva, dosent

Y.M.Yunusov, tibb elmləri namizədləri R.Qaragözov, A.Mütəllimova, həkimlərdən S.İmanova və Z.Mehdiyevanın əsərləri də var idi [477, s.4].

60-cı illərdə Azərbaycan riyaziyyatçılarının elmi-tədqiqat sahəsindəki uğurlu nəticələri daha çox diqqəti cəlb edir və böyük maraq doğururdu. Təsadüfi deyil ki, 1959-1967-ci illər arasında Azərbaycanda riyaziyyat elmlərinə dair Ümumittifaq əhəmiyyətli 10 konfrans, simpozium və müşavirə keçirilmişdir. Bu elmi tədbirlərdə Azərbaycan alimləri riyaziyyat elminin aktual problemlərinə dair maraqlı və yadda qalan məruzələr etmişlər. Riyaziyyatçılarımızın bu tədbirlərinin hər birində özbək alimləri də öz sözlərini demişlər [677, s.371].

1967-ci ildə SSRİ EA-nın Rəyasət heyəti Bakıda "Sovet türkologiyası" adlı Ümumittifaq jurnalı nəşr etmək haqqında qərar qəbul etmişdir. Jurnalın nəşri Azərbaycan EA-ya tapşırılmışdır. Yeni jurnalı Nizami adına Ədəbiyyat və Dil İnstitutu buraxmalı idi. Bu jurnalın qarşısında duran əsas vəzifələr barədə institutun direktoru, akademik M.Ş.Şirəliyev belə demişdir: "Sovet türkoloqlarının xüsusi mətbuat orqanını yaratmaq zəruri məsələdir. Bizim ölkədə dünyanın bütün türkdilli xalqları (bir xalqdan başqa) yaşayırlar. Sovet İttifaqında 5 müttəfiq respublikada, 5 muxtar respublikada və bir neçə muxtar vilayətdə yaşayan 25 milyon adam türk dillərində danışır. Ölkəmizdə milli dillərdə türkologiya problemlərinə dair külli miqdarda elmi ədəbiyyat nəşr edilir. Bu ədəbiyyatın ən yaxşısını geniş ictimaiyyətin nəzərinə çatdırmaq təzə jurnalın əsas vəzifələrindən biridir" [501, s.2].

"Sovet türkologiyası" jurnalı Azərbaycan-özbək elmi əlaqələrini gücləndirməklə bərabər, onların elmi axtarışlarına da böyük stimul verirdi.

1967-ci ildə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutu "Özbəkneft" Birliyinin mütəxəssislərinə neft kəməri təchizatı və istismarı üzrə texniki sənədləşdirmə işlərinin görülməsi sahəsində köməklik göstərmişdir. İnstitutun əməkdaşları eyni zamanda, "Minbulaq" və "Qumxana" sahələrində 5.000-6.000 metr dərinliyində quyuların qazılıb işə salınması sahəsində,

“Özbəkneft” Birliyi və “Fərqanəneft” tresti ilə faydalı əməkdaşlıq yaratmışdılar [480, s.38].

Azərbaycanlı alimlərin rəhbərliyi ilə özbək tədqiqatçılarının səmərəli fəaliyyəti də öz müsbət nəticələrini göstərirdi. Belə ki, özbək alimi X.S.Abdullayev 1967-ci ildə Bakıda tanınmış Azərbaycan alimi, iqtisad elmlər doktoru, professor A.A.Nadirovun rəhbərliyi ilə “Özbəkistan SSR-in kənd təsərrüfatının mövcud vəziyyəti və Qaragül əsasında inkişafının paylanması perspektivləri” mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, iqtisad elmləri namizədi adını almışdı.

1968-ci ildə Daşkənddə keçirilmiş (9-13 sentyabr) pambığın genetikası problemlərinə dair müşavirə iştirakçıları pambığın ümumi genetikası və hibridləşdirilməsi, poliploidiyası və s. üzrə maraqlı məruzələr etmiş, Bitkilərin Eksperimental Biologiyası İnstitutuna, Pambığın Seleksiyası və Toxumşünaslığı İnstitutuna və eləcə də bir sıra müxtəlif bazalara ekskursiyaya getmişlər.

Özbək alimlərinin təşkil etdiyi  bu müşavirəyə Azərbaycan Elmi-Tədqiqat Genetika və Seleksiya İnstitutunun bir qrup əməkdaşı da dəvət olunmuşdu. Dəvət olunanlar arasında İnstitutun direktoru, akademik Ə.Quliyev, fiziologiya laboratoriyasının müdiri, professor M.Əlizadə, baş elmi işçi V.Ələsgərov, kiçik elmi işçilər E.Məmmədov, R.Əliyev və başqaları var idi. [172, s.2].

Böyük özbək şairi Ə.Nəvainin anadan olmasının 525 illiyi münasibəti ilə 1968-ci ildə Bakıda elmi sessiya keçirilmişdir. Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun təşkilatçılığı ilə 23 sentyabrda keçirilən bu sessiyanı giriş sözü ilə Azərbaycan SSR EA prezidentinin müavini, akademik M.A.Dadaşzadə açmış, sonra akademiyanın müxbir üzvü, filoloji elmlər doktoru, professor H.Araslı “Özbək xalqının dahi şairi və mütəfəkkiri”, filoloji elmlər doktoru, professor M.Quluzadə “Nəvai və Füzuli” və institutun aspirantı N.Araslı “Nəvai və Arif Ərdəbili” mövzularında məruzələr etmişlər” [132, s.1].

Görkəmli ədəbiyyatşünas alim H.Araslı Azərbaycan-özbək ədəbi əlaqələrinə öz töhfəsini verir və bu istiqamətdə araş-

dırmalarını genişləndirirdi. 1968-ci ildə o, Daşkənddə "Fan" nəşriyyatı tərəfindən çap edilən Məhəmməd Şərifovun "Nəvai və ədəbi əlaqələr" kitabına "Müqəddimə əvəzinə" yazmış, kitabda "Nəvai və Azərbaycan ədəbiyyatı" məqaləsi getmiş [513, s.3, 152-157], bu məqaləsi eyni zamanda "Özbək dili və ədəbiyyatı" jurnalında [283, s.160], Azərbaycan şairi M.P.Vaqifin anadan olmasının 250 illiyi münasibətilə yazdığı "Nadir istedad" məqaləsi isə "Sovet Uzbekistoni" (1968, 22 noyabr) qəzetində özbək dilində çap edilmişdi [283, s.160].

1968-ci ilin oktyabrında Özbəkistan SSR Ali Sovetinin Rəyasət Heyəti "çoxmillətli sovet ədəbiyyatının inkişafında və təbliğində, xalqlar arasında mehriban dostluğun möhkəmləndirilməsində görkəmli xidmətlərinə, dahi özbək şairi və mütəfəkkiri Əlişir Nəvainin yaradıcılıq irsinin öyrənilməsi və təbliği işinə böyük kömək göstərdiklərinə görə" qardaş respublikaların şairləri və alimlərindən bir neçəsinə Özbəkistan SSR-in fəxri adlarını vermişdir.

Özbəkistanda Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi H.Araslıya fəxri ad verilməsi heç də təsadüfi deyildir. O, XX əsrin 50-80-ci illərində Özbəkistanın Daşkənd və Səmərqənd şəhərlərində müdafiə edilmiş 4 namizədlik (T.Mahmudov, 1962), S.Səlimov (1965), B.İsmayılov (1967), U.Aripov (1969) və 14 doktorluq dissertasiyalarının (V.Abdullayev (1959), L.Kəyumov (1961), H.Süleymanov (1961), H.Zərifov (1965), E.Rüstəmov (1966), B.Vəlixocayev (1967), S.Məmmədov (1968), K.Aimbetov (1969), H.Mallayev (1969), R.Şəmsiyev (1970), Ə.Hayitmetov (1970), X.Rəsulov (1972), S.Nəzrullayeva (1980), R.Arzibekov (1983) rəsmi opponenti olmuş və onlara rəy vermişdir. 1974-cü ildə Daşkənddə Əlişir Nəvainin "Fərhad və Şirin" poeması və onun müqayisəli öyrənilməsinin bəzi məsələləri mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş Sadir Erkinovun elmi rəhbəri olmuşdur [283, s.178-188].

Akademik H.Araslının anadan olmasının 90 illiyi münasibətilə keçirilən yubiley tədbirində çıxış edən görkəmli ədəbiyyatşünas alim filologiya elmlər doktoru, professor Cənnət

Nağıyeva onun özbək xalqı və özbək ədəbiyyatı qarşısında böyük əməyini yüksək qiymətləndirərək yazırdı: "Həmid müəllim yalnız Nəvai yaradıcılığını tədqiq etməklə kifayətlənməmişdir. Daşkənddə Nəvainin muzeyinin yaradılmasında, Özbəkistan üçün yüksək ixtisaslı kadrların hazırlanmasında onun böyük xidməti olmuşdur. Mərhum akademik V.İ.Zahidov, mərhum professor Həmid Süleymanov, Səmərqənd universitetinin professoru, mərhum akademik Vahid Abdullayev, akademik Ə.R.Qəyyumov, filologiya elmləri doktoru, professor mərhum Səidə Nazrullayeva, filologiya elmləri doktoru professor Sadir Erkin və onlarla belə alimlərin hazırlanmasında mərhum Həmid Araslının əməyi artıq dərəcədə olmuşdur. Vəfatından bir qədər əvvəl də Həmid müəllim Daşkənddə bir özbək aliminin dissertasiyasının müdafiəsində rəsmi opponent kimi çıxış etmişdir. Özbəkistan alimlərinin bir çoxu indi də Həmid müəllimi "Ustadım"-deyə xatırlayırlar" [283, s.59-60; 411, s.96-97].

1968-ci ildə böyük coğrafiyaşünas alim B.Budaqovun Səmərqənddə keçirilən "Özbəkistanın təbii resurslarının öyrənilməsi və tədqiqi problemləri" mövzusundakı Respublika elmi konfransının materiallarında "Relyefdən asılı olaraq şaquli kəmərlər vasitəsi ilə sel sularının yayılması" adlı məqaləsi çap olunmuşdu [125, s.138].

1968-ci ildə görkəmli tarixçi alim, akademik Ə.Sumbatzadə Əlişir Nəvainin anadan olmasının 525 illiyi münasibəti ilə Səmərqənddə keçirilən Özbəkistan SSR EA-nın yubiley sessiyasında təbrik nitqi ilə çıxış etmişdir [250, s.17].

1968-ci ilin oktyabrında Özbəkistan EA-nın Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun folklor bölməsinin müdiri, filoloji elmlər doktoru, professor H.Zərifov Bakıya qonaq gələrək öz həmkarları qarşısında böyük humanist və mütəfəkkir özbək şairi Əlişir Nəvainin yaradıcılığı ilə əlaqədar olan problemlərə həsr edilmiş mühazirələr oxumuşdur.

Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunda çıxış edən özbək alimi, professor H.Zərifov şairin əlyazmalarının öyrənilməsi, çap olunması, tərcüməsi haqqında

danışmış, Ə.Nəvai haqqında aparılan müasir tədqiqatların vəziyyətindən söhbət açmışdır.

H.Zərifovun özbək etnoslarının öyrənilməsi problemlərinə və bu etnosların Azərbaycan şifahi dastanları ilə əlaqəsi məsələsinə həsr olunmuş mühazirəsi də çox maraqlı keçmişdir. Bu mühazirədə özbək və Azərbaycan folklorlarının qarşılıqlı əlaqəsi və təsiri məsələləri geniş işıqlandırılmışdır.

Özbək alimi H.Zərifov öz azərbaycanlı həmkarlarının işləri ilə də tanış olmuş, özbək və Azərbaycan ədəbiyyatşünaslarının elmi əlaqələrinin daha da möhkəmləndirilməsi məsələlərini də müzakirə etmişdir [445, s.3].

1968-ci il oktyabrın 8-də böyük özbək şairi Ə.Nəvainin anadan olmasının 525 illiyi münasibəti ilə Azərbaycan SSR EA-da təntənəli yığıncaq olmuşdur. Azərbaycan SSR EA, Azərbaycan Yazıçılar İttifaqı və respublika Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən bu tədbirdə respublika EA-nın müxbir üzvü H.M.Araslı "Böyük şair və mütəfəkkir Əlişir Nəvai" mövzusunda məruzə etmiş və Özbəkistandan gəlmiş qonaq professor H.Zərifov Nəvai irsinin müasir dövrdə tədqiqinin vəziyyətindən danışmışdır [235, s.1].

Həmin ildə Bakıda Azərbaycan Gigiyena işçilərinin və sanitariya həkimlərinin II qurultayı (14-17 noyabr) keçirilmişdir. Beş bölmə üzrə 4 gün davam etmiş qurultayın gündəliyində sənaye müəssisələri əməkçilərinin, şəhər və kənd yaşayış qəsəbələri sakinlərinin can sağlığının qorunmasına dair aktual problemlər durmuşdur. Qurultayda Azərbaycanın hər yerindən gəlmiş nümayəndələrlə yanaşı, qonaqlar – Moskva, Leninqrad, Ukrayna, Zaqafqaziya və Orta Asiya respublikalarının tibb işçiləri də iştirak etmişlər [59, s.1].

1968-ci ilin noyabrında Azərbaycan EA İqtisadiyyat İnstitutunun Müdafiə Şurasında özbək alimi A.İ.İbrahimov "Kənd təsərrüfatı məhsullarının istehsalında təsərrüfat hesabı və rentabellik (Özbəkistan SSR-in kolxoz və sovxozlarının materialları əsasında)" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi adını almışdı. Onun

rəsmi opponentlərindən biri Azərbaycan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmləri doktoru C.M.Hüseynov və aparıcı müəssisə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat İnstitutu idi [629, s.2].

Azərbaycanın ali məktəblərində, elmi-tədqiqat institutlarında, müxtəlif laboratoriyalarda Özbəkistandan gəlmiş 50 nəfərə yaxın aspirant azərbaycanlı alimlərin rəhbərliyi altında elmi-tədqiqat işləri aparırdılar. İki respublikanın tibb işçiləri arasında elmi əməkdaşlıq xüsusilə daha çox möhkəmlənmişdi. Özbəkistanda Azərbaycan SSR EA müxbir üzvü, əməkdar elm xadimi Ümnisə Musabəyovanı hamı tanıyırdı. Özbəkistan üçün yüksək ixtisaslı tibb mütəxəssislərinin hazırlanmasında onun böyük əməyi var idi. Bir çox özbək alimlərinin rəsmi opponenti olmuş, bir çoxlarının isə dissertasiyalarının yazılması və müdafiə olunmasında məsləhətini, qayğısını əsirgəməmişdi.

1968-ci ildə Daşkənd Tibb İnstitutunun göz xəstəlikləri kafedrasının əməkdaşı Rəna Məlikova Azərbaycan Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutuna iki illik ordinaturaya göndərilmiş və o, tibb elmləri doktoru Həcər Nəsrullayevanın rəhbərliyi altında geniş elmi axtarış işləri aparmışdır [202, s.2].

1969-cu ildə Özbəkistanın “Bədii ədəbiyyat nəşriyyatı” özbək dilində “M.P.Vaqif. Seçilmiş şeirlər” kitabını kütləvi tirajla nəşr etmişdi. Görkəmli ədəbiyyatşünas alim H.Araslı ona “Vaqifin həyat və yaradıcılığı” mövzusunda ön söz rolunu ifadə edən məqaləsini vermişdi [283, s.161].

Elmi ezamiyyətlər də elmi əlaqələrə öz müsbət təsirini göstərirdi. 1969-cu ildə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun elmi-tədris işləri üzrə prorektoru, professor F.M.Əlizadə Daşkənddə ezamiyyətdə (18-21 iyun) olmuşdur. Onun gəlişinin əsas məqsədi özbək həkimlərinin təkmilləşdirmə, ixtisasartırma vəziyyəti ilə tanış olmaq və Bakı ilə elmi əlaqələrini daha da genişləndirmək idi [460, v.74].

1969-cu il iyulun 8-də Azərbaycan SSR EA-da gənc astronomların I Ümumittifaq konfransı açıldı. Sonra öz işini Şamaxı astrofizika rəsədxanasında davam etdirmiş bu konfrans-

da digər respublika və şəhərlərin gənc astronomları ilə bərabər, Özbəkistanın gənc astronomları da iştirak etmişdir [332, s.4].

Özbək alimləri Azərbaycan alimlərinin yubiley tədbirlərində də yaxından iştirak edirdilər. Bu isə, onlar arasında səmimi münasibətlərin yaranmasına və dostluq əlaqələrinin güclənməsinə öz müsbət təsirini göstərirdi.

1969-cu il sentyabrın 16-da görkəmli alim, elm və istehsalat təşkilatçısı, Azərbaycan SSR EA-nın prezidenti, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı R.H.İsmayılovun anadan olmasının 60 illik yubileyi keçirilmişdir. Tədbirdə iştirak edən Özbəkistan EA Rəyasət Heyətinin üzvü A.M.Əkrəmxocayev yubilyarı səmimi təbrik etmişdir [274, s.3].

1969-cu ilin oktyabr ayı istər Azərbaycanda, istərsə də Özbəkistanda keçirilən mühüm elmi tədbirlərlə yadda qalan ay idi. Bu ayda Daşkənddə biokimyaçıların II Ümumittifaq qurultayı keçirilmişdir. Qurultayın 22 bölməsində 200-dən çox elmi məruzə və çıxışlar dinlənilmişdir. Azərbaycanlı alimlərdən-Azərbaycan EA-nın müxbir üzvü, biologiya elmlər doktoru, professor T.M.Ağayev, A.İ.Qarayev və F.M.Hacıyev ilə birlikdə yazdıqları "Beynin arterial və venoz qanında sərbəst aminturşuların miqdarına heksonal narkozun təsiri" [576, s.77] və biologiya elmləri doktoru C.Ə.Əliyev F.S.Qasımovla birlikdə yazdıqları "Becərilmə şəraiti ilə əlaqədar olaraq tərəvəzin keyfiyyəti" [584, s.140-141; 149, s.83] Azərbaycan Elmi-Tədqiqat Ana və Uşaqların Mühafizəsi İnstitutunun əməkdaşı Y.Məstəliyev "Böyük talassemiyalı uşaqlarda böyrəküstü vəzlərin qlyuokokortikoid funksiyası" [241, s.2] mövzularında məruzələr etmişlər.

1969-cu ildə Özbəkistanın Səmərqənd şəhərində "Teymurilər dövlətində Mərkəzi Asiya incəsənəti məsələləri" mövzusunda Ümumdünya simpoziumu keçirilmişdir. Simpoziumda iştirak edən Azərbaycan alimlərindən - Azərbaycan SSR EA-nın akademiki, sənətşünaslıq doktoru, professor R.S.Əfəndiyev və Azərbaycan SSR EA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor K.C.Kərimov maraqlı mövzularla məruzə etmişlər [464, s.8; 327, s.8].

1969-cu ilin oktyabrında Bakı şəhərində botaniklərin Ümumittifaq Simpoziumu olmuşdur. Mədəni bitkilərdə suyun vəziyyəti və su mübadiləsi problemlərinin müzakirə edildiyi bu simpoziumda özbək alimləri də fəal iştirak etmişlər [368, s.2].

Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə universitetdə 1969-cu ildə olmuş paleobiokimya problemlərinə dair Ümumittifaq müşavirəsində (14-17 oktyabr) özbək alimləri də maraqlı mövzularla çıxış etmişlər [449, s.2].

1969-cu ildə Səmərqənddə heyvan xəstəliklərinin təbii mənbəyi və parazitologiyanın ümumi məsələlərinə həsr olunmuş VII Ümumittifaq konfransı (14-16 oktyabr) keçirilmişdir. Özbəkistan və Qazaxıstan elmlər akademiyaları, Özbəkistan SSR Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi bu konfransda Azərbaycan SSR EA-nın Zoologiya İnstitutunun direktoru, akademik M.Musayev, həmin institutun akaralogiya laboratoriyasının müdiri, biologiya elmləri doktoru A.Hacıyev və kiçik elmi işçi T.Dubovçenko məruzə etmişlər [16, s.4].

1969-cu ilin oktyabrında yeni riyazi üsulların və hesablama maşınlarının nəzəri və təcrübi neftçıxarma məsələlərinə tətbiq edilməsinə dair Bakıda II Ümumittifaq seminarı keçirilmişdir. I Ümumittifaq seminarı 1965-ci ildə Moskvada olmuşdur. 60-cı illərdə Azərbaycanda neftçıxarma sənayesində riyazi üsulların və elektron hesablama maşınlarının tətbiqi geniş vüsət aldığı üçün II Ümumittifaq seminarını da Bakıda keçirmək qərarlaşdırılmışdı. Bu seminar SSRİ Neftçıxarma Sənayesi Nazirliyi, Azərbaycan SSR EA-nın rəyasət heyəti yanında "Kibernetika" kompleks problemi üzrə respublika elmi şurası, Ümumittifaq Elmi-Tədqiqat Neft-Qaz İnstitutu və Azərbaycan SSR EA-nın Kibernetika İnstitutu tərəfindən təşkil edilmişdi.

Seminar üç bölmədə öz fəaliyyətini davam etdirmişdir: 1. Neft yataqlarının işlənilməsinin texnoloji proseslərinin riyazi modelləri. 2. Əməliyyatların tədqiqi və işlənmənin texnoloji proseslərinin idarə olunması. 3. Hesablama texnikasının yeni vasitələri və müəssisələrinin avtomatlaşdırılmış planlaşdırma və idarə sistemində məlumatın araşdırılma üsulları.

Seminarda Moskva, Bakı, Daşkənd, Ufa, Novosibirsk, Tümen, Penza və başqa şəhərlərin alimləri 60-dan artıq məruzə etmişlər [412, s.1].

1969-cu ildə Bakıda keçirilən neft kimyası problemlərinə dair II məhəlli Beynəlxalq simpoziumu (21-25 oktyabr) BMT-nin sənaye inkişafı təşkilatının sənaye texnologiyası şöbəsi çağırmışdı. Simpoziumun işində Avropa, Asiya, Afrika və Latın Amerikasının 42 ölkəsinin, eləcə də SSRİ-nin bu sahədə böyük əməyi olan respublikalarının, o cümlədən Özbəkistan SSR-in nümayəndələri də iştirak etmişdir. Simpozium öz fəaliyyətini 5 bölmə üzrə qurmuş, 50-dən artıq məruzə dinlənilmişdir.

Simpozium keçirildiyi günlərdə qonaqlar dəniz mədənlərinə getmiş, Bakı və Sumqayıtın neftayırma və kimya müəssisələrində olmuşlar [412, s.1].

1969-cu ildə Bakıda "Mikroelementlər təbabətdə və heyvandarlıqda" problemi üzrə Respublika konfransı (12-14 noyabr) olmuşdur. Üç gün ərzində elmi məclisdə 60-a yaxın məruzə dinlənilmişdir.

Konfransda Azərbaycan alimləri ilə yanaşı PSFSR, Ukrayna, Qazaxıstan, Qırğızıstan və Özbəkistan alimlərinin nümayəndələri də iştirak etmişdilər [468, s.1].

Həmin il Bakıda milli məktəblərdə rus dili tədrisinin problemlərinə dair Ümumittifaq elmi-metodiki konfransı (24-28 noyabr) keçirilmişdir. Konfransda iştirak etmək üçün Bakıya Moskvadan, bütün müttəfiq respublikalardan 300-dən çox qonaq gəlmişdi. Onların arasında görkəmli alimlər, ali məktəblərin, ümumtəhsil məktəblərinin müəllimləri, metodistlər, xalq maarifi işçiləri var idi.

Beş gün çəkən bu elmi-metodiki konfransda Özbəkistandan gəlmiş nümayəndələrin müxtəlif mövzulardakı məruzələri də maraqla qarşılanmışdır [554, s.1].

Azərbaycanlı torpaqşünas alim, kənd təsərrüfatı elmləri doktoru M.R.Abduyev 1969-cu ildə Daşkənddə iki əhəmiyyətli elmi tədbirdə iştirak etmişdi. Birincisi, İrriqasiya və meliorasiyanın maliyyələşdirilməsi və kapital qoyuluşunun iqtisadi səmə-

rəliliyinə həsr edilmiş II Alimməktəblərarası konfransda: “Dağətəyi düzənliklərin şorlaşmış torpaqlarının meliorasiyasının effektivliyinin artırılması üsulları” mövzusunda məruzə etmişdir.

İkincisi, bitkilərin duzadavamlılığına həsr edilmiş Ümumittifaq müşavirəsində “Meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması üsulları və inkişaf şəraiti” mövzusunda məruzə etmişdir [409, s.60].

Dissertasiyaların müzakirəsi və müdafiə olunmasında Azərbaycan və özbək alimləri yaxından iştirak edirdilər. Azərbaycanlı tədqiqatçı Azad Nəbiyevin “Koroğlu dastanında Koroğlu obrazı (Azərbaycan-özbək materialı əsasında)” mövzusundakı namizədlik dissertasiyası 1969-cu il oktyabrın 19-da Özbəkistan SSR EA A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunda müzakirə edilərək müdafiəyə buraxılmışdı [54, s.10]. Müzakirə zamanı Özbəkistan EA A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun folklor şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor, əməkdar elm xadimi Hadı Zərifov əsər barədə demişdir: “... Azad Nəbiyevin “Koroğlu” dastanında Koroğlu surəti (Azərbaycan-özbək materialı əsasında)” tədqiqatı türk xalqları folkloru əlaqələrini öyrənmək sahəsində mövcud ənənənin yeni mərhələdə davamıdır. Həm də əhəmiyyətli davamıdır. Bu çox cavan aspirantın üslubu mənim xoşuma gəldi. O, Azərbaycan “Koroğlu”su ilə özbək eposu arasında elə tipoloji uyğunluqlar tapır ki, bunlar bizim dünənimizdir, keçmişimizdir, həm də sabahımızdır. Azad Nəbiyev bizim arxivlərimizdə hər nə varsa tapa bilib, bu əsl elmi inadkarlıqdır, bunun üçün çox əziyyətlər çəkib, nəticədə məqsədinə nail olub. Onu gələcəkdə uğurlu elmi tale gözləyir” [54, s.37].

60-cı illərdə Azərbaycanın neft sənayesi ilə bağlı elmi-tədqiqat institutlarının alimlərini  Qazaxıstan və Mərkəzi Asiya respublikaları alimləri ilə sıx dostluq əlaqələri birləşdirirdi. Alimlərimiz və görkəmli mütəxəssislərimiz həmin respublikaların neft rayonlarına tez-tez səfərlər edir, neft hasilatının texnologiyasının təkmilləşdirilməsinə dair konkret əməli təkliflər verirdilər.

Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma və Neft maşınqayırma institutları quyulardan neftin qaldırılması və diemulsiyası, yüksək parafinli neftin borulara vurulması üzrə əməli təkliflər hazırlamışdılar.

Azərbaycan alimləri Qazaxıstan və Mərkəzi Asiya respublikalarının neft rayonlarında əvvəllər qazılmış buruqları nəzərdən keçirərək onların təmir-texniki sənədlərini hazırlayır və yeni quyuların qazılmasına bilavasitə özləri rəhbərlik edirdilər. Özbəkistanda Qumxana sahəsində 5500 m, Minq-Bulaq sahəsində 6500 m. dərinliyində quyuların qazılması buna nümunə idi [242, s.54].

### 3.3. 1970-ci illərdə elmi əlaqələr

70-ci illərdə Azərbaycan-özbək elmi əlaqələrinə hər iki tərəfdən yüksək önəm verilir, onun inkişafı və genişlənməsi naminə ciddi addımlar atılırdı.

1970-ci ildə Səmərqənd şəhərinin 2500 illik yubileyi keçirilmişdir. Yubiley tədbirlərində iştirak etmiş Azərbaycan memarı C.Ə.Qiyasi yubiley təəssüratlarını "Tarixin ölməz abidəsi" (1970-ci il) [364, s.58-63] və "Səmərqənd səməri" (1971-ci il) [363, s.43-45] məqaləsində elmi-publisistik şəkildə işıqlandırmışdı.

1970-ci ildə N.Gəncəvi adına Daşkənd Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycanın görkəmli dilçi alimi, tanınmış tədqiqatçı-türkoloq, professor A.A.Axundov iştirak etmiş və həmin Universitetin yubiley medalı ilə təltif olunmuşdu [6, s. 11].

Elektron və mexaniki ölçü sistemləri (EMÖS) üzrə alimlərin 1970-ci ildə Daşkənd şəhərində keçirilən XIV Ümumittifaq konfransında ADU-nun professoru, "Amorf təbəqələr" Elmi-Tədqiqat laboratoriyasının yaradıcısı, fizika-riyaziyyat elmləri doktoru Ş.Q.Əsgərov iştirak etmiş və alimlərin marağına səbəb olan "Polikristal metallar üçün hüdud sahəsində ionların enerjisinin paylanması əmsalının açılış xasiyyəti haqqında" mövzusunda məruzə etmişdir [508, s.41].

1970-ci ildə Azərbaycan SSR EA-nın Elmi Əlaqələndirmə Şurasının VIII sessiyasında görkəmli filoloq alim M.Seyidov

“Azərbaycanın Mərkəzi Asiya ilə ədəbi əlaqələri tarixindən” mövzusunda məruzə etmişdir [188, s.54]. Burada Özbəkistanla ədəbi əlaqələr də öz əksini tapmışdır.

Həmin ildə Ankarada keçirilən (25-29 sentyabr) Türk Tarixi Cəmiyyətinin VII konqresində iştirak edən şərqşünas alim, akademik Z.M.Bünyadov yerli mənbələr əsasında yazdığı “1225-1226-cı illərdə Xorəzmşah Cəlal əd-Din Mənkburnının Qafqazda fəaliyyəti” adlı məruzə ilə çıxış etmişdir [136, s.4].

70-ci illərdə özbək alimlərinin Azərbaycanda elmi-tədqiqat işləri müsbət nəticələr verməkdə davam edirdi. 1970-ci il noyabrın 19-da Azərbaycan SSR EA Geologiya İnstitutunda Özbəkistan alimi M.Z.Zakirovun “Özbəkistanın eosen gili” mövzusundakı dissertasiyası və kitabına akademik Ə.Ə.Əlizadə müsbət rəy vermişdir [91, v.70].

70-ci illərdə özbək alimləri öz ixtisaslarını artırmaq üçün Azərbaycana da gəlirdilər. 1971-ci ilin əvvəlində Ə.Nəvai adına Səmərqənd Dövlət Universitetinin əməkdaşı Ş.Usmanov “Meteorologiya, iqlimşünaslıq və aqrometeorologiya” (11698) ixtisasları üzrə biliyini artırmaq üçün bir illiyə Azərbaycan SSR EA-nın Coğrafiya İnstitutuna ezam olunmuşdu [87, v.74].

1971-ci ildə Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı, sənətşünaslıq doktoru H.Həbibov SSRİ Rəssamlar İttifaqının tənqidşünaslıq komissiyasının Daşkənddə keçirilən plenumuna qatılmış və Azərbaycanda tənqid və sənətşünaslığın vəziyyəti ilə iştirakçıları tanış etmişdir [488, v.72, 89].

Həmin ildə Daşkənd şəhərində keçirilən Mərkəzi Asiya xalqlarının məskunlaşması probleminə dair ali məktəblərarası Ümumittifaq elmi konfransında iştirak edən Azərbaycan SSR EA Coğrafiya İnstitutunun elmi əməkdaşı Ş.Q.Dəmirqayayev “Quba-Xaçmaz zonası əhalisinin yerləşməsinin bəzi xarakterik xüsusiyyətləri” mövzusunda məruzə etmişdir [395, v.262-263].

1971-ci ilin sentyabrında Səmərqənddə Mərkəzi Asiya mezozoyu ilə bağlı alimlərin görüşündə Azərbaycandan 6 alim (A.Q.Xəlilov, M.R.Əbdülqasımzadə, T.A.Həsənov, Ak.A.Əliza-

də, Q.A.Əliyev, O.B.Əliyev) iştirak etmiş və onlar yura və təbaşir dövrünün biostratiqrafiyası barədə məruzə etmişdilər [485, v.180-181; 486, v.40].

Sovet türkoloqların 1971-ci ilin oktyabrında Ozbəkistanın Fərqanə şəhərində keçirilən Ümumittifaq konfransı XI əsrin görkəmli türkoloqu Mahmud Kaşğarinin "Divani lüğət-ət-türk" əsərinin 900 illiyinə həsr edilmişdi. Sovet türkoloqlarının Fərqanə şəhərində toplanması təsadüfi deyildir. Birincisi, M.Kaşğarlı Fərqanə vadisini qarış-qarış gəzmiş, bu ərazidə yaşayan türk xalqlarının ləhcələrini, adət-ənənələrini ətraflı öyrənmişdir. İkinci səbəb isə odur ki, M.Kaşğarinin bu ölməz əsəri SSRİ-də ilk dəfə özbək dilində nəşr edilmişdir.

Türkoloqların bu mötəbər məslisində M.Kaşğarinin şəxsiyyətindən, onun "Divan"ından bəhs edən 43 məruzə və çoxlu çıxışlar dinlənilmişdir.

Türkoloqların ali məclisində Azərbaycan alimlərini Azərbaycan EA Dilçilik İnstitutunun direktoru, "Sovetskaya türkologiya" jurnalının baş redaktoru, akademik M.Şirəliyev, respublika EA-nın müxbir üzvü Ə.Dəmirçizadə, Azərbaycan EA Dilçilik İnstitutunun direktor müavini professor M.Rəhimov və ADU-nun türkologiya kafedrasının müdiri, professor F.Zeynalov təmsil etmişdilər [538, s.4].

Ə.Dəmirçizadə öz məruzəsində M.Kaşğarinin "Divan"da istifadə etdiyi müqayisəli üsuldan danışmış, M.Rəhimov isə məruzəsində ("Mahmud Kaşğarinin "Divan"ı və Azərbaycan dialekt və şivələrində qədim türk elementləri") Azərbaycandakı dialekt və şivələrdə mühafizə olunaraq saxlanılmış onlarca sözün "Divan"la əlaqəsinə dair misallar göstərmişdir.

Elmi konfransda qəbul edilmiş qətnamənin bəndlərindən birində M.Kaşğarinin "Divani lüğət-ət-türk" əsərinin Azərbaycan dilində çapını tezliklə başa çatdırmaq məsələsi irəli sürülmüşdü. Çox təəssüf ki, bu iş xeyli ləngidi və ancaq Azərbaycanın müstəqilliyi şəraitində buna nail olundu [538, s.4].

1971-ci ildə Özbəkistanın elmi jurnallarında və konfrans materiallarında da Azərbaycan alimlərinin əsərləri çap olunmuş-

du. Belə ki, Özbəkistan SSR "Bilik" cəmiyyətinin "Fan və Turmuş" jurnalında Azərbaycan SSR-in coğrafiyası və Xəzərin problemlərinə dair elmi məqalələr dərc olunmuşdu [446, v.23].

1971-ci ildə Daşkənddə nəşr olunan "Leninizm və sosialist mədəniyyətinin inkişafı" toplusunda tanınmış cəmiyyətşünas alim, fəlsəfə elmləri doktoru, professor Ə.F.Daşdəmirovun "Milli mədəniyyət-milli, sinfi və bəşəri dəyərlərin sintezi kimi" məqaləsi çap edilmişdi [200, s.109-110; 658, s.301-307].

1972-ci ildə Azərbaycan alimləri Özbəkistanda keçirilən elmi tədbirlərdə respublikamızı ləyaqətlə təmsil etmişdilər. Həmin ilin 5-9 iyun tarixində Ə.Əliyev adına ADHTİ-nin otorinolarinkologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor M.Y.Polunov (bu kafedra 1945-ci ildə yaradılmış, 1964-1974-cü illərdə M.Y.Polunov ona rəhbərlik etmişdir) [255, s.108] Daşkənddə keçirilən otorinolarinkoloqların II Respublikalararası Beynəlxalq konfransında iştirak etmiş və iştirakçıların maraqla qarşıladığı məruzə etmişdir [282, v.178].

Yenə həmin ildə Daşkənddə nevropatoloq və psixiatorların Ümumittifaq Elmi Cəmiyyəti İdarə Heyətinin Plenumu (2-6 oktyabr) keçirilmişdir. Ə.Əliyev adına ADHTİ-nin nevrologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor H.Z.Mollazadə həmin plenumun iştirakçısı olmuşdur [414, v.178].

1972-ci ildə Daşkənddə keçirilmiş (31oktyabr-3 noyabr) mama-ginekoloqların 1-ci qurultayında Ə.Əliyev adına ADHTİ-nin mama-ginekologiya kafedrasının dosenti, tibb elmləri namizədi S.H.İsrafilbəyli həkimlərimizi təmsil etmişdir [164, v.183].

Həmin ilin noyabrında Daşkənddə "Neft hasil edən şəhərlərdə üzvi material, neft və karbohidrogenlərin əsas mənbəyi" mövzusundakı elmi konfransa qatılan Azərbaycan alimləri-akademik Ə.Ə.Əlizadə, Ə.Q.Əliyev "Azərbaycanda mezozoy və kaynazoy çöküntülərində neft hasilatının xüsusiyyətləri və neft-qaz istehsalının proqnozlaşdırılması" [231, s.123] və Ə.Q.Əliyev, M.Ə.Əliyev, B.Q.Bezmenov, T.Ş.Şıxəlizadə "Çökmə ardıcıllığı müstəvisində kəsilmiş bitumunal göstəricilərin fərqləndirilməsində neft istehsalının fasilələrlə ayrılması" mövzularında məruzə etmişlər.

70-ci illərdə Azərbaycan və Özbəkistan ali məktəbləri arasında elmi kadrlar mübadiləsi var idi. Belə ki, ADU-nun Azərbaycan ədəbiyyat tarixi kafedrası Daşkənd və Səmərqənd universitetləri ilə sıx əlaqə saxlayırdı. Özbəkistanın tanınmış alimlərindən Q.Kərimov, L.Kayumov, V.Abdullayevin doktorluq dissertasiyaları bu kafedrada müzakirə edilərək müdafiəyə buraxılmışdı [202, s.2] Eyni zamanda Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti İ.Əfəndiyevin doktorluq dissertasiyası və həmin kafedranın dosenti P.Xəlilovun iki cilddən ibarət "SSRİ xalqları ədəbiyyatı" dərsliyi Daşkənd Dövlət Universitetinin özbək ədəbiyyatı kafedrasında müzakirə olunmaqla çap edilmişdir [302; 303].

Tanınmış alim A.M.Nəbiyevin "Koroğlu" dastanında Koroğlu obrazı (Azərbaycan-özbək materialı əsasında)" mövzusundakı namizədlik dissertasiyası 1969-cu il oktyabrın 19-da Özbəkistan SSR EA A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun Folklor şöbəsində müzakirə edilərək müdafiəyə buraxılmış və tədqiqatçı bu işi 1972-ci il iyunun 25-də Azərbaycan Dövlət Universitetində uğurla müdafiə etmişdir [54, s.10; 416; 661].

70-ci illərdə ADU-nun differensial və inteqral kafedrası Səmərqənd Dövlət Universitetinin alimləri ilə sıx əlaqə saxlayırdı. Bu kafedranın müdiri fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan SSR EA-nın müxbir üzvü Qoşqar Əhmədov, fizika-riyaziyyat elmləri doktoru A.Həbibzadə, fizika elmləri doktoru Y.Məmmədov və b. SDU-nun fizika-riyaziyyat fakültəsinin tələbələri üçün ardıcıl mühazirələr oxuyur, bir çox aspirantların işlərinə rəhbərlik edirdilər [202, s.2].

Fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan SSR EA-nın müxbir üzvü Q.T.Əhmədovun (1917-1975) Mərkəzi Asiya respublikaları üçün riyaziyyatçı kadrlar hazırlanması işində xüsusi xidmətləri olmuşdur. "O, Özbəkistanda riyaziyyat məktəbi yaradıb. Təsadüfi deyil ki, Özbəkistan ali məktəblərinin bütün riyaziyyat fakültələrinin kafedralarında onun portreti asılmışdır."

Özbəkistan SSR EA-nın vaxtilə vitse-prezidenti olmuş S.Siracəddinov, akademik M.Səlahəddinov, professor M.Sabirov, professor T.Corayev Q.Əhmədovun dissertantları olmuşdular.

60-70-ci illərdə Q.Əhmədovun rəhbərliyi ilə Mərkəzi Asiya respublikaları ali məktəblərinin əməkdaşlarından 20 nəfərdən çox adam dissertasiya müdafiə edərək alimlik dərəcəsi almışdır.

Beynəlxalq Cərrahlar Cəmiyyəti və Nyu-York Akademiyasının üzvü Nurəddin Rzayev istedadlı alim Q.Əhmədov haqqında yazdığı “Qoşqar unudulmyacaq” məqaləsində göstərirdi ki, “Bir dəfə Səmərqənddə, mənim opponent kimi çıxışımdan sonra ünvanıma minnətdarlıq sözləri deyiləndə, danışan adam əlavə etdi: “Arzum budur ki, siz də həmyerliniz, böyük Azərbaycan alimi, İttifaqda və dünyada tanınmış riyaziyyatçı Qoşqar müəllim kimi Özbəkistan alimlərinin sevilən dostu, gənclərinin müəllimi səviyyəsinə  yüksələsiniz”.

Q.Əhmədovun rəhbərliyi altında 10-dan artıq özbək riyaziyyatçısı namizədlik dissertasiyasını müdafiə etmişdi. Onlardan S.Mamaşev, R.Kabulov, R.Rəhmanov, Ş.Kutmadov, Ə.Çerşanbayev, İ.İsrailov, A.Nəzərov və b. buna misaldır [202, s.2].

Azərbaycan EA Fizika İnstitutu ilə Özbəkistan EA Fizika-Texnika İnstitutu əməkdaşları da sıx elmi əlaqə saxlayır, müxtəlif ixtisaslı mütəxəssislərin hazırlanmasında bir-birilərinə ardıcıl yardım göstərirdilər. Məsələn, Özbəkistan Fizika-Texnika İnstitutunun əməkdaşı Nurulla Curayev, akademik, SSRİ EA-nın müxbir üzvü, Azərbaycan SSR Dövlət Mükafatı Laureatı, professor H.Abdullayevin və Azərbaycan Dövlət Mükafatı laureatı, fizika-riyaziyyat elmləri namizədi Rəhim Nəninin rəhbərliyi altında öz dissertasiya işini uğurla başa çatdırmışdı. Bu vaxta qədər isə bu institutda 2 özbək tədqiqatçısı namizədlik dissertasiyası müdafiə etmişdi. Özbəkistan EA Fizika-Texnika İnstitutunun aspirantı Oraq Suyunovun elmi işinə Azərbaycan SSR EA-nın müxbir üzvü M.Əliyev və fizika-riyaziyyat elmləri namizədi, baş elmi işçi S.Əliyev rəhbərlik edirdilər. Həmin institutun radiofizika laboratoriyasında SDU-nun aspirantı Həmid Turakulov, fizika-riyaziyyat elmləri doktoru, Azərbaycan EA-nın müxbir üzvü L.İmanov və fizika-riyaziyyat elmləri namizədi K.Zülfüqarzadənin rəhbərliyi ilə tədqiqat işini başa çatdırmaqda idi [202, s.2].

Özbəkistanın ali məktəbləri və elmi tədqiqat müəssisələrinin kitabxanalarının zənginləşməsi və maddi-texniki bazalarının möhkəmlənməsində də Azərbaycanın elmi müəssisələri yaxından iştirak edirdilər. Belə ki, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu 1972-ci il iyunun 8-də Daşkənd şəhərində yerləşən SSRİ Səhiyyə Nazirliyinin Mərkəzi Asiya üzrə Tibb Pediatriya İnstitutuna 21 adda 94 manat 94 qəpik dəyərində 72 nüsxə elmi kitablar göndərmişdi. Həmin kitablar sırasına N.Q.Rufanovun “Общая хирургия” (M.,1957), İ.F.Jordaniyanın “Учебник акушерства” (M.,1964), A.F.Bilibinin “Учебник инфекционных болезней” (M., 1964), İ.M.Epşteynin “Урология” (M., 1966), B.M.Arxangelskinin “Учебник глазных болезней” (M., 1969), V.İ.Bolyajinanın “Учебник гинекологии” (M., 1968), S.L.Nosovun “Инфекционные болезни у детей” (M., 1966), A.A.Portnovun “Психиатрия” (M., 1964) və b. daxil idi [170, v.202-203].

1973-cü ildə Moskvada “Yer qabığının ofiolitləri” mövzusunda gerçəkləşən Beynəlxalq Simpoziumu (31 may-13 iyun) SSRİ EA Geologiya İnstitutu, Azərbaycan SSR EA Geologiya İnstitutu və Özbəkistan SSR EA Geologiya İnstitutu birgə təşkil etmişdilər. Bu simpoziumda 250-dən çox alim iştirak etmiş, o cümlədən onun işinə Avropa, Asiya, Avstraliya və Amerikanın 23 ölkəsindən 56 xarici qonaq-geoloq və alimlər qatılmışdı [270, v.158-159].

Simpoziumda Azərbaycanın tanınmış alimlərindən akademik M.Ə.Qaşqay (“Türkiyə və Qafqazda ofiolitin formalaşması”), Ş.Ə.Əzizbəyov, A.Q.Xəlilov, E.Ş.Şıxəlibəyli, Ş.A.Allahverdiyev və M.İ.Rüstəmov məruzə ilə çıxış etmişlər [268, v.58; 269, v.48-49].

Simpoziumun ikinci hissəsində geoloji ekspedisiyaların keçirilməsi və geologiya elminin mühüm problemlərindən biri olan ofiolitlərin vəziyyəti ilə yaxından tanış olmaq, ofiolitlərin ilkin yaranması, onun sturukturunun təşkili, orta qat kəmərlərinin tektonik sıxılma zamanı vəziyyətinin öyrənilməsi məqsədini özündə birləşdirirdi. Bu ekspedisiya və geoloji axtarış işində

Azərbaycan alimlərindən böyük elmi işçilər – M.İ.Allahverdiyev, İ.A.Babayev, A.A.Məqribi və kiçik elmi işçi K.A.Pənahi daha fəal iştirak etmişlər [343, v.58].

1973-cü ilin sentyabr ayında Özbəkistanın Buxara şəhərində "Qaz yataqlarının işlənməsi sahəsində elmi-tədqiqatların səmərəliliyinin artırılması" mövzusunda III Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransda iştirak edən Azərbaycan SSR EA-nın müxbir üzvü M.T.Abbasov SSRİ Qaz Sənayesi Nazirliyinin kollegiya üzvü professor İ.P.İabrevlə müştərək yazdıqları iki məruzə: 1. "Çoxsaylı qaz yataqlarının formalaşmasında fəal quyuların sayının optimal nəzarət dinamikası"; 2. "Anbarlarda qaz filtirizasiyasında mövcud problemlərin tədqiqi" mövzularında və ayrıca müəllifi olduğu "Çoxsaylı depozitlərin inkişafında optimal idarəetmə" mövzusunda məruzələr etmişdir [71, v.97-98].

1970-ci ildə Azərbaycan Yazıçılar İttifaqının qərarı ilə iki xalqın – Azərbaycan və özbək xalqlarının qüdrətli şairi Maqsud Şeyxzadənin anadan olmasının 70 illiyi münasibətilə respublikamızda "Seçilmiş əsərləri"nin nəşrinə hazırlıq görülməsinə başlanıldı. 1973-cü ildə Bakıda M.Şeyxzadənin "Seçilmiş əsərləri"nin iki cildliyi çap edilmişdir. M.Şeyxzadənin əsərlərinin dilimizə tərcümə olunmasında 25-ə qədər şairin əməyi olmuşdur [304, s.10].

M.Şeyxzadənin anadan olmasının 70 illiyi yubileyi günlərində Daşkənd və Bakıda elmi yığıncaqlar keçirilmiş, həmin tədbirlərdə hər iki tərəfin alimlərinin maraqlı məruzə və çıxışları dinlənilmişdir.

1973-cü il sentyabr ayının 22-də tədqiqatçı alim A.Nəbiyevin Maqsud Şeyxzadənin "Seçilmiş əsərləri"nin iki cildliyi barədə "İki xalqın oğlu" elmi məqaləsi çap olunmuşdu [417, s.15]. Yenə həmin ildə A.Nəbiyevin özbək dilində özbək "Koroğlu" eposu haqqında «Zaкofat ziyasi» məqaləsi Daşkənddə "Şərq ulduzu" jurnalında çap edilmişdi [421, s.223-225].

Azərbaycan Dövlət Universitetinin folklor kafedrasının müdiri, professor A.Nəbiyev Azərbaycan-Özbəkistan ədəbi əla-

qələrinin öyrənilməsinə böyük töhfə vermişdir. Hələ 70-ci illərin əvvəllərində H.Əliyev Azərbaycan yazıçıları ilə görüşdə qardaş xalqların ədəbiyyatlarının, o cümlədən də, özbək ədəbiyyatının qarşılıqlı əlaqələrini öyrənməyin vacibliyi barədə məsələ qaldırmışdı. Bundan sonra Azərbaycanda, xüsusən ADU-da Azərbaycan və özbək folklorlarının qarşılıqlı əlaqələri sahəsində bir sıra tədqiqatlara başlanılmışdır. Özbək dastanları, əfsanələri, nağılları Azərbaycan dilində nəşr olunmuşdu. Professor A.Nəbiyev isə öz doktorluq dissertasiyasını məhz bu problemə həsr etmişdir. A.Nəbiyevin "Azərbaycan və özbək folklorunun qarşılıqlı əlaqələri" monoqrafiyasının Azərbaycan və rus dillərində nəşr edilməsi bu dəyərli  tədqiqat işinin  yekunu olmuşdur. Monoqrafiyanı istər Azərbaycanda, istərsə də Özbəkistanda mütəxəssislər yüksək qiymətləndirmişdilər [76, s.45].

70-ci illərdə Azərbaycan-özbək ədəbiyyatçıları sahəsində böyük mütəxəssislər nəsli yetişmişdi. Azərbaycanda bu məktəbin başında akademiklər Məmməd Arif və Həmid Araslı dururdular. ADU-nun professoru Pənah Xəlilovun da böyük əməyi var idi. Bir vaxtlar onun təşəbbüsü ilə Azərbaycan və Özbəkistanın təhsil  nazirlikləri Bakı və Daşkənd universitetləri arasında tələbə mübadiləsini təşkil etmişdilər. Hazırda həmin məzunlardan biri – milliyətcə azərbaycanlı Yaşar Qasımov Özbəkistanda tanınmış ədəbiyyatşünasdır [76, s.45].

70-ci illərdə professor P.Xəlilov ali məktəblərin filoloji fakültələri üçün iki hissədən ibarət "SSRİ xalqları ədəbiyyatı" dərsliyini yazmışdı. Birinci hissədə Ukrayna, Belarus, erməni, gürcü və Dağıstan ədəbiyyatları [302, s.13-416] və ikinci hissədə tacik, özbək, türkmən, qazax, qırğız, tatar, latış, litva və eston ədəbiyyatları [303, s.3-360] öz əksini tapmışdı.

Professor P.Xəlilovun II hissədə verdiyi "Özbək ədəbiyyatı" bölməsinə "Folklor", "XI-XIII əsrlər", "XIV-XVI əsrlər ədəbiyyatı", "XVII-XVIII əsrlərdə və XIX əsrin I yarısında ədəbiyyat", "XIX əsrin II yarısı və XX əsrin əvvəlində ədəbiyyat" və "Sovet ədəbiyyatı" mövzuları daxil idi [303, s.81-162].

Professor P.Xəlilov bu müqəddəs işini sonrakı illərdə də davam etdirməklə, "Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı" dərsliyini yazmışdı. Dərslikdə özbək ədəbiyyatından bəhs edərkən özbəklərin "Alpamış", qaraqalpaqların "Qırxqız" dastanlarından, "Orta əsrlərdə yazılı ədəbiyyat", "XII-XV əsrlərdə ədəbiyyat", "XVI-XVIII əsrlər ədəbiyyatı" və "XIX-XX əsrlər ədəbiyyatı" bölmələrində özbək ədəbiyyatından ətraflı bəhs edirdi [305, s.143-157, 240-255, 260-268, 282-297].

1973-cü ildə Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə Daşkənddə və Qaraqalpaqda Biruninin anadan olmasının min illk yubiley tədbirlərində olmuş və bu mövzuda məruzə etmişdir [250, s.18-19].

Akademik Z.M.Bünyadov həmin ildə özbək alimlərindən M.Mahmudov və X.Zeyniddinovun "Nisaviy asari" məqaləsinə rəy vermiş və resenziya yazmışdı [575, s.28].

1974-cü ildə Azərbaycanın neft kimyası və üzvi kimya sahəsində tanınmış alimi, kimya elmləri doktoru, professor V.M.Fərzəliyev Daşkənd şəhərində keçirilən "Sürtünmənin, yeyilmənin və yağlamanın nəzəriyyəsi" Ümumittifaq elmi konfransında iştirak etmiş və "Bəzi kükürd üzvi birləşmələrin yeyilməyə qarşı xassələrinin tədqiqi" mövzusunda məruzə ilə çıxış etmişdir [566, s.18].

1974-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun "Neft yataqlarının işlənməsi və istismarı kafedrası"nın əməkdaşları Azərbaycan SSR EA-nın akademiki A.X.Mirzəcanzadənin rəhbərliyi altında Daşkənd şəhərində "Neft çıxarılmasında qeyrinyutom sistemlərin tətbiqi" mövzusunda Ümumittifaq simpoziumu keçirmişdilər [207, s.389; 523, s.2].

Geologiya və geofizika sahəsində çalışan görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru A.Q.Əhmədov 1973-1993-cü illərdə müqavilə əsasında Özbəkistan Geofizika İşlər Birliyində birbaşa seysmik kəşfiyyat çöl işlərinin elmi-texniki rəhbəri vəzifəsində çalışmışdır [52, s.6]. O, Özbəkistanda çalışdığı bu müddət ərzində hər il respublikamıza 100 min rubl məbləğində maliyyə vəsaiti gətirmişdir [52, s.10].

1974-cü ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutu ilə özbək alimlərinin elmi əlaqələri güclənmişdi. Ə.Nəvai adına Səmərqənd Dövlət Universitetinin "Fiziki coğrafiya" kafedrasının əməkdaşı X.Sidikov "Hidrologiya" ixtisası üzrə Coğrafiya İnstitutunun məqsədli aspiranturasına qəbul edilmiş [88, v.314], həmin universitetin "Fiziki coğrafiya" kafedrasının əməkdaşı B.K.Karşiyev "Meteorologiya, iqlimşünaslıq və aqrometerologiya" ixtisasları üzrə təcrübə toplanmasına gəlmişdi. 1974-cü ildə özbək alimi S.Aşşurov Bakıda bu institutda namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi adını almışdı [89, v.71-73].

Özbək alimi, filologiya elmləri namizədi Sadir Erkinov 1974-cü ildə Daşkənddə akademik H.Araslının rəhbərliyi ilə "Əlişir Nəvainin "Fərhad və Şirin" poeması və onun müqayisəli öyrənilməsinin bəzi məsələləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi [283, s.178].

SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti Beynəlxalq qadın ili ilə əlaqədar 1975-ci il fevralın 6-da "SSRİ EA humanitar elmi müəssisələrinin Beynəlxalq qadın ili ilə əlaqədar SSRİ-də keçiriləcək tədbirlər proqramında iştirakına dair" 105-10-14000 saylı sərəncam imzaladı. Həmin sərəncam əsasında SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti 19 may 1975-ci il tarixində (№ 14000-780) "SSRİ-də qadın məsələlərinin həllinin milli aspektləri" adlı qərar qəbul etdi. Qərar iki maddədən ibarət idi. Birinci maddədə Özbəkistan SSR EA ilə razılaşdırılma əsasında 1975-ci ilin IV rübündə Daşkənd şəhərində, Özbəkistan SSR EA və SSRİ EA Tarix İnstitutunun təşkilatçılığı ilə "SSRİ-də qadın məsələlərinin həllinin milli aspektləri" mövzusunda konfransın keçirilməsi nəzərdə tutulurdu. İkinci maddədə isə konfransın keçirilməsi üçün 28 nəfərdən ibarət təşkilat komitəsi yaradıldığı göstərilmişdi. Təşkilat komitəsinin tərkibinə İttifaq miqyasında tanınmış görkəmli elm adamları ilə yanaşı, Azərbaycan SSR EA-nın müxbir üzvü P.Ə.Əzizbəyovanın da adı salınmışdı [121, v.49-50].

Konfransın təşkilat komitəsinin sədri, Özbəkistan SSR EA-nın prezidenti, akademik A.S.Sadıqov Azərbaycan SSR EA-nın prezidenti, akademik H.M.Abdullayevə göndərdiyi 10 iyun 1975-ci il tarixli (№ 1-97) məktubunda iştirakçıların adlarının və mövzularının 1 avqust 1975-ci ilə kimi bildirilməsini xahiş edirdi [121, v.54].

Azərbaycan SSR EA İctimai elmlər bölməsinin akademik-katibi Ə.S.Sumbatzadə 22 iyul 1975-ci il tarixində konfransın təşkilat komitəsinin sədri, Özbəkistan SSR EA-nın prezidenti, akademik A.S.Sadıqova ünvanladığı məktubda aşağıdakı iştirakçıların adlarını göstərmişdi:

1. Azərbaycan SSR EA-nın müxbir üzvü P.Ə.Əzizbəyova: “Sovet Azərbaycanının qadınları fəal kommunizm qurucularıdır.”

2. Fəlsəfə elmləri doktoru Ş.Ş.Mirzəyeva: “ Sosialist mədəniyyətinin inkişafında sovet Azərbaycanı qadınlarının yolu”.

3. Tarix elmləri namizədləri T.A.Musayeva, A.A.Məmmədov: “Azərbaycanda qadın məsələlərinin həlli yolları (1920-1940-cı illər)”.

4. İqtisad elmləri doktoru Ş.M.Muradov və iqtisad elmləri namizədi Z.A.Bayramova: “Sovet Azərbaycanında elmi-texniki tərəqqi və sosial-iqtisadi problemlərin həllində qadın əməyindən istifadənin yüksəldilməsi” [448, v.58].

“SSRİ-də qadın məsələlərinin həllinin milli aspektləri” mövzusundakı Daşkənd konfransı 1975-ci ilin noyabrında keçirilmiş və Azərbaycan alimlərinin məruzələri maraqla qarşılanmışdı [448, v.54].

1975-ci ildə ötən ilki “Sürtünmənin, yeyilmənin və yağlamanın nəzəriyyəsi” Ümumittifaq elmi konfransının materialları Daşkənddə çap olunmuşdu. Konfransda iştirak edən tanınmış kimyaçı alim V.M.Fərzəliyevin A.M.Quliyev, İ.M.Orucov və Z.A.Əlizadə ilə birgə yazdıqları “Bəzi kükürd üzvi birləşmələrin yeyilməyə qarşı xassələrinin tədqiqi” məqalələrinin tezisi də çap edilmişdi [695, s.41-42; 566, s.224].

1975-ci ildə Özbəkistan SSR Geologiya İnstitutu, neft və qaz yataqlarının axtarışı üzrə Geologiya Nazirliyinin “Əsərlə-

ri"nin XVII buraxılışında Azərbaycan SSR EA-nın akademiki, geologiya-minerologiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin Q.Ə.Əliyev, M.A.Əliyev, V.Q.Bajenov və T.M.Şıxəlizadə ilə birgə yazdıqları "Fərqləndirmə bituminoloji göstəricilərlə bağlı çökmə süxurlardan və istifadə gedişində ayrılmış hissələrdən neftin fasilələrlə istehsalı" və akademik Ə.Ə.Əlizadənin ayrıca yazdığı "Azərbaycanda mezozoy-kaynazoy çöküntülərinin neft istehsal xüsusiyyətləri neft və qaz proqnozları üçün bir meyar kimi" adlı məqalələr çap olunmuşdu [231, s.127].

1975-ci ilin avqustunda ABŞ-ın San-Fransisko şəhərində tarixçilərin XIV Beynəlxalq konqresi olmuşdur. Konqresin Təşkilat Komitəsinin üzvü, Azərbaycan SSR EA-nın İctimai elmlər bölməsinin akademik-katibi, tarix elmləri doktoru, professor Ə.S.Sumbatzadə konqresdə "Sovet hakimiyyəti və Rusiya imperiyasının Qafqaz, Mərkəzi Asiya və Qazaxıstandakı milli azlıqların mədəni dirçəlişi" mövzusunda məruzə etmişdir [250, s.19, 56]. Bu məruzə 1976-cı ildə "Азербайджан за рубежом" jurnalında çap olunmuşdu [687, s.5; 250, s.56].

1976-cı ildə Daşkənd şəhərində neft və qaz yataqlarının birbaşa geofiziki və geokimyəvi metodlarla riyazi təmin edilməsinə dair Ümumittifaq müşavirəsi (23-25 fevral) keçirilmişdir. 1973-1993-cü illərdə müqavilə əsasında Özbəkistan Geofizika İşlər Birliyində birbaşa seysmik kəşfiyyat çöl işlərinin elmi-texniki rəhbəri vəzifəsində çalışmış Ümumittifaq Elmi Tədqiqat Geifiziki Kəşfiyyat Üsulları İnstitutunun Azərbaycan şöbəsinin baş elmi işçisi, geologiya-minerologiya elmləri namizədi A.Q.Əhmədov müşavirədə "KPPG və AzVNİİG-in birgə fəaliyyətinin geofiziki nəticələrindən neft və qaz yataqlarının birbaşa axtarışında istifadə edilməsi" mövzusunda məruzə etmişdir [52, s.6, 60-61, 115].

1976-cı ildə Daşkənddə kənd təsərrüfatının pambıqçılıq sahəsi üzrə çalışan Ümumittifaq elmi-tədqiqat işçilərinin birləşmiş sessiyası (18-20 avqust) keçirilmişdir. Sessiyadan qabaq Özbəkistan SSR EA-nın prezidenti, akademik A.S.Sadıkovun tapşırığı ilə sessiyada oxunacaq 27 səhifəlik "Pambıqçılığın gə-

ləcəkdə elmi əsaslar üzrə inkişaf etdirilməsi vəzifələri" adlı məruzənin layihəsi müzakirə olunmaq üçün Azərbaycan EA-nın Biologiya bölməsinin elmi-akademik-katibi V.R.Volobuyevə göndərilmişdi. Müzakirənin nəticələrinə dair qeydlərin 1976-cı il avqustun 1-nə qədər Daşkəndə göndərilməsi xahiş olunurdu. 1976-cı il 7 iyul tarixindən nəzərdən keçirilən layihə Azərbaycan SSR EA Torpaqşünaslıq və Aqrokimya institutunda 1976-cı il 19 iyulda müzakirə edilməklə, 4 səhifəlik, 20 iyulda Azərbaycan SSR EA Genetika və Seleksiya İnstitutunda müzakirə olunmaqla 2 səhifəlik qeydlər irəli sürüldü və sonda bu qeydlər birləşdirilərək Daşkəndə-Özbəkistan SSR EA-ya göndərildi [451, v.68, 70, 84].

70-ci illərdə Azərbaycan SSR-in ali məktəbləri də elmi əlaqələrdə mühüm rol oynayırdı. 1970-1971-ci tədris ilində ölkənin ayrı-ayrı ali məktəblərindən ADU-ya 14 və Politexnik İnstitutuna 5 alim elmi ezamiyyətə gəlmişdi. 1969 və 1970-ci illərdə PSFSR, Özbəkistan, Qırğızıstan və Moldovanın ayrı-ayrı ali məktəblərində xüsusi ixtisas kurslarının aparılması və məsləhət vermələri üçün ADU-dan 8, AzXTİ-dən 3, Politexnik İnstitutu və APİ-nin hər birindən 1 alim dəvət olunmuşdu. Dəvət olunanlar arasında Azərbaycan SSR EA-nın akademiki A.X.Mirzəcanzadə, həmin akademiyanın müxbir üzvü M.P.Quluzadə kimi tanınmış və eləcə də digər görkəmli elm adamları var idi [677, s.367-368].

1977-ci ildə Azərbaycan ali məktəblərində mühazirə oxumaq və elmi-tədqiqat işləri aparmaq üçün 110 alim ölkənin ayrı-ayrı ali məktəblərindən dəvət edilmişdi. Dəvət olunanlar arasında, Özbəkistan ali məktəblərindən olmaqla, 98 nəfəri elmlər doktoru, professor, SSRİ EA-nın akademiki və müxbir üzvləri idilər [677, s.368].

1977-ci il mayın 26-28-də Bakıda Azərbaycan SSR EA-nın böyük salonunda "Böyük oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" adlı beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın işində 70 ölkədən gəlmiş beynəlxalq kommunist, fəhlə və milli azadlıq hə-

rəkatının görkəmli nümayəndələri, sosialist dövlətlərindən, Asiya, Afrika və Latın Amerikasının bir çox ölkələrindən gəlmiş görkəmli siyasi və ictimai xadimlər, məşhur sovet alimləri iştirak edirdilər [109, s.1].

Konfransda nümayəndə kimi iştirak edən Özbəkistan SSR EA-nın akademiki, Asiya və Afrika ölkələri Həmrəyliyi Sovet Komitəsi sədrinin müavini M.A.Sarımsakov mayın 28-də konfransın bağlanışı günü ümumi iclasda çıxış etmişdir [120, s.1].

1977-ci ilin mayında Bakıda Azərbaycan və SSRİ Elmlər Akademiyalarının birgə təşkilatçılığı ilə keçirilən asetilen kimyasına dair VI Ümumittifaq konfransında ölkənin 46 sənaye şəhərindən, bütün müttəfiq respublikaların elmlər akademiyalarından 350-dən çox nümayəndə iştirak etmişdir [677, s.375].

Azərbaycan SSR EA-nın akademiki A.X.Mirzəcanzadənin rəhbərlik etdiyi təşkilat komitəsinin təşəbbüsü ilə 1977-ci ilin iyun ayında Bakıda qeyri-adi mexaniki sistemlərə dair Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransda iştirak edən 160 nəfər nümayəndənin 120 nəfəri müttəfiq respublikalardan, o cümlədən Özbəkistandan gəlmişdi [677, s.375].

Azərbaycan SSR EA-nın müxbir üzvü M.Q.Ramazanzadə 1976-1980-ci illərdə Azərbaycanın "Azon" zavodu ilə "Özbəkqazsənaye"nin bağladığı təsərrüfat hesablı müqavilələrdə iştirak etməklə, yüksək təsərrüfat və elmi nəticələrə nail olmuşdu [95, v.90, 97].

Yenə həmin illərdə Azərbaycan SSR EA-nın müxbir üzvü Y.B.Qədimov Özbəkistan SSR Energetika və Avtomatika İnstitutu ilə Azərbaycan Energetika şəbəkəsinin iqtisadi əlaqələrində yaxından iştirak edərək, təsərrüfat hesablı müqavilələrlə böyük nailiyyətlər qazanmışdı. Onun elmi fəaliyyətinin bu istiqamətdəki illik səmərəsi 100 min manat təmiz gəlir gətirirdi [96, v.199-201].

Elmi ezamiyyətə getməklə, elmi işçilər elmi fəaliyyətlərinin səmərəsini də daim artırırdılar. Belə ki, memarlıq doktoru, Azərbaycan MEA-nın müxbir üzvü C.Ə.Qiyasi 1977-ci ildə Türküstan respublikalarında şəhərsalma və memarlıq irsini öy-

rənmək üçün Səmərqənd, Buxara, Şəhrsəbz, Türküstan, Mərv və b. şəhərlərə elmi ezamiyyətə getmişdir [150, s.9].

1977-ci ildə Nizami adına Ədəbiyyat İnstitutunun 24 əməkdaşı kitabxana və elmi arxivlərdən material toplamaqla, elmi işlərini genişləndirmək üçün Moskva, Leninqrad, Daşkənd, Alma-Ata, Tbilisi, Yerevan, Riqa, Vilnus, Tallin, Aşqabad, Düşənbə, Səmərqənd və Mahaçqala şəhərlərinin kitaxana, arxiv və elmi müəssisələrinə göndərilmişdilər [426, v.115-116].

Özbəkistan jurnallarında Azərbaycan alimlərinin elmi məqalələri də çap olunurdu. 1977-ci ildə tanınmış folklorşünas alim, filologiya elmləri doktoru, professor A.M.Nəbiyevin "Özbək qəhrəmanlıq dastanı "Koroğlu" məqaləsi "Şərq yulduzu" [419, s.14-16; 54, s.10], Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, akademik H.M.Araslının "Əhdi Bağdadi Nəvai haqqında" məqaləsi "Uzbek tili və ədəbiyoti" jurnalında [21, s.43-46] çap olunmuşdu.

70-ci illərdə Özbəkistanda Azərbaycan alimlərinin elmi fikirlərinə hörmətlə yanaşılır və geniş istinad olunurdu. 1977-ci ildə Daşkənddə beşcildlik "Özbək ədəbiyyatı tarixi"nin I və II cildləri "Fan" nəşriyyatı tərəfindən çap edilmişdi. Akademik H.Araslının I cildin 240-cı səhifəsində "Xosrov və Şirin" əsərinin 1962-ci il nəşrinə və II cildin 33, 236 və 258-ci səhifələrində "Nizami və Nəvai" məqaləsinə istinad edilmiş və "Leyli və Məcnun" mövzusunun işlənməsi" məqaləsindən bəhs olunmuşdur [283, s.230].

Azərbaycan elmi müəssisələri ölkə alimləri ilə geniş əlaqə saxlayırdı. SSRİ EA-da Azərbaycan alimlərinin və elmi müəssisələrinin fəaliyyəti razılıq hissi ilə qarşılanır, yüksək dəyərləndirilirdi. SSRİ EA-sı 1964-cü ildə akademik A.A.Tonçiyevin, 1972-ci ildə SSRİ EA-nın prezidenti, akademik M.V.Keldışın və 1979-cu ildə SSRİ EA-nın vitse prezidenti, akademik Y.A.Ovçinnikovun başçılığı ilə Azərbaycan Elmlər Akademiyasına böyük alimlər qrupları göndərmişdi. Özbək alimlərinin də təmsil olunduğu bu qrupların məqsədi Azərbaycan elmi-tədqiqat müəssisələrinin və alimlərinin fəaliyyəti və qazanılmış nailiyyətləri

ilə yaxından tanış olmaq idi. Ümumiyyətlə, təkcə 1970-1982-ci illərdə elmin ayrı-ayrı sahələri üzrə Azərbaycan SSR EA-ya 500-dən çox tanınmış və nüfuzlu alimlər gəlmişdi [678, s.24].

Azərbaycanın paytaxtı Bakıda "Böyük oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" Beynəlxalq elmi konfransı, mənəvi tərbiyə məsələlərinə dair Ümumittifaq elmi-praktik konfransı, "Xalqların dostluğu ədəbiyyatların dostluğudur" Ümumittifaq yazıçılar konfransı və yüksək səviyyədə keçirilən bir çox başqa tədbirlər Azərbaycan elminin inkişafına geniş meydan açır, Azərbaycan alimlərinin fəaliyyəti imkanlarına və əlaqələrinin dərinləşməsinə güclü təsir göstərirdi [108, s.7].

70-ci illərdə Azərbaycan SSR EA alimlərinin 500 elmi işi sovet elminin mühüm nailiyyəti kimi qarşılanmış, bunların ölkə iqtisadiyyatına verdiyi səmərə 600 mln. manat olmuşdur. Bu işlərə görə alimlərimiz dünyanın 34 ölkəsinin 1500 müəllif şəhadətnaməsini və 200 patentini almışdı. Həmin illərdə akademiyada 200-ə yaxın doktor və 1600 elmlər namizədi hazırlanmışdı [678, s.25].

70-ci illərdə Azərbaycan SSR EA-nın maddi-texniki bazası gücləndirilmiş, alimlərin çap imkanları genişləndirilmişdi. Elmlər Akademiyasının kitabxanası dünyanın 52 elmi mərkəzi və 530 müəssisəsi ilə əlaqə saxlayır, "Elm" nəşriyyatı hər il 300 min nüsxə tirajla 250 adda kitab və jurnallar nəşr edirdi [678, s.26].

1970-ci ildən başlayaraq Azərbaycan SSR EA Bakıda SSRİ EA ilə birlikdə ümumittifaq səviyyəli "Sovetskaya türkologiya" elmi jurnalını nəşr etməyə başlamışdı. Bu jurnalda özbək alimləri də müntəzəm olaraq çap olunurdular.

Azərbaycan alimləri Özbəkistanın geofizika, coğrafiya, təbiətin mühafizəsi və digər elm sahələri üzrə fəaliyyət göstərən alimləri ilə müntəzəm olaraq yaradıcılıq və əməkdaşlıq əlaqələri saxlayırdılar [678, s.24].

1975-ci ildə Azərbaycan SSR EA-nın "Xalqlar dostluğu" ordeni ilə təltif edilməsi Azərbaycan elminə və aliminə verilən yüksək dəyərin bariz nümunəsi idi [678, s.25].

1978-ci ildə azərbaycanlı alim, biologiya elmlər doktoru, professor İ.Ə.Sadıqov akademik K.İ.Skryabinin 100 illiyi münasibəti ilə Daşkənddə keçirilən elmi konfransda iştirak etmiş və orada "Azərbaycanda yarasaların törətdiyi xəstəliklərin helmintoloji və ekofaunistik analizi" mövzusunda məruzə etmişdir [689, s.198- 209; 320, s.39].

Yüksək molekullu birləşmələr kimyası sahəsində tanınmış mütəxəssis, kimya elmləri doktoru, professor A.A.Əfəndiyev 1978-ci ildə Daşkənddə keçirilən Beynəlxalq simpoziumda C.D.Orucov və N.M.Səmədov ilə birgə yazdıqları "Polimer sorbentlərin kompleksləşməsinin sorbsiya xüsusiyyətləri və makromolekulların bir sorbsion tənzimlənməsi" mövzusunda məruzə etmişdir [705, s.123; 51, s.137].

Azərbaycan Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə elmi əlaqələrində tanınmış alim A.Q.Əhmədov da mühüm rol oynamış, istər respublika və istərsə də beynəlxalq əhəmiyyətli elmi konqres, simpozium, müşavirə, seminar və s. elmi tədbirlərdə maraqlı məruzə və məqalələrlə iştirak etmişdir. O, neft və qaz mövzusu ilə bağlı Daşkənd (1976, 23-25 fevral, 1979, 27-28 fevral, 1981, 9-11 mart, 1984, 9-11 aprel, 1985, 27-28 fevral), Karşi (1978, 18-19 aprel), Kokand (1979, 23-25 oktyabr, 1982, 26-29 oktyabr), Çimkənd (1988, 25-28 oktyabr) və Bakıda (1982, 16-18 dekabr, 1986, 25-26 sentyabr, 1994, 28-29 iyun, 1994, 19-22 sentyabr) keçirilmiş mühüm əhəmiyyətli beynəlxalq konfranslarda neft quyularında seysmik dalğaların dinamik və kinematik xüsusiyyətlərinin tədqiqi, neft və qaz yataqlarının proqnozlaşdırılmasında sınan dalğalarla dinamik eninə profilləmə metodu və onun nəticələri, seysmik dalğanın yayılma sürəti enerjisinin udulma mexanizmi, amplitudu, onun tezlik xassəsi, Xəzər dənizinin sahil hissəsində neft və qaz yataqlarının sınan dalğa üsulu (tomoqraqfiya) ilə proqnozlaşdırılması və digər mövzularla çıxış etmiş və elmi ictimaiyyət tərəfindən yüksək dəyərləndirilmişdir [207, s.389].

A.Q.Əhmədovun yaratdığı "Sınan dalğalarla dinamik eninə profilləmə metodu" Qərbi Özbəkistanın Buxara-Xivə neftli-

qazlı rayonunda  və Türkmənistanda geniş tətbiq edilmişdir. Həmin metodun tətbiqi nəticəsində Buxara-Xivə və Azərbaycanın neftli-qazlı rayonlarında 92 perspektivli obyektlər müəyyən edilmiş və bunların 30-u üzərində dərin qazma quyuları vasitəsilə 21 qaz və 1 neft yatağı açılmışdır [52, s.117].

A.Əhmədovun metodu sayəsində seysmik dalğaların dinamik parametrlərinin analizi nəticəsində kəsilişin geoloji təhlilini dəqiq qiymətləndirməklə anomal sahə konturlanmışdır. Onun mürəkkəb relyefli və texnogen amillərin təsirindən seysmik dalğaların qeydiyyatı  çətin olan ərazilərdə əldə etdiyi məlumatların təhlili də öz müsbət nəticəsini vermişdir. “Bu sturukturlara özbək alimi, geologiya-mineralogiya elmləri namizədi B.B.Rubonun təklifi ilə seysmotoqrafiya metodunun yaradıcılarından biri olan Aydın Əhmədovun şərəfinə onun doğulduğu Şəki şəhərinin adı verilmişdir” [117, s.4].

Görkəmli alim A.Əhmədovun kəşfiyyat metodunu Daşkənd və Aşqabad alimlərindən T.L.Babacanov, B.B.Rubo, B.Y.Lapidus, S.N.Zuyev, A.U.Zahidov, Q.B.Şatulova yüksək dəyərləndirmiş və Zevarda, Şurtan, Kəmaçi, Beşkənd, Pamuk, Kultak, Aknəzər, Dənizgül  və s. yerlərdə A.Əhmədovla birlikdə geofiziki ekspedisiyalarda iştirak etmiş Daşdəmir adlı mütəxəssis Özbəkistanın Kokand şəhərində çıxan nüfuzlu qəzetlərdən birində “Bakılı alim A.Əhmədov qulağını yerə söykəyərək neft və qaz yataqlarını təyin edir” adlı məqalə də yazmışdır [207, s.389].

A.Q.Əhmədovun sınan dalğalarla dinamik eninə  profilləmə metodu mühüm nailiyyət kimi Azərbaycanda və xarici ölkələrdə də qəbul edilmişdir. Yaradılmış yeni kəşfiyyat metodu Ümumittifaq müsabiqəsində 3-cü yerə layiq görülmüşdür. Onun elmi fəaliyyətini UFZPAN-nın (Moskva) görkəmli alimi A.M.Yepinateva belə qiymətləndirmişdir: “A.Q.Əhmədov özündə üç ömrü birləşdirmişdir: 1. Metodun elmi nəzəriyyəsini hazırlamış, bu bir ömürlük tədqiqatdır. 2. Kəşfiyyat işlərində çöl işinin tam bir metodikasını, sxemini hazırlamış. 3. Yaratdığı meto-

du bilavasitə özü tətbiq etmiş və elmi, geoloji nəticələr əldə etmişdir” [290, s.7].

A.Q.Əhmədov Azərbaycan, Türkmənistan və Özbəkistanda əldə etdiyi elmi nailiyyətlər əsasında 1968-ci ildə namizədlik (“Azərbaycan neft quyularında seysmik dalğaların dinamik və kinematik xüsusiyyətlərinin tədqiqi”) və 1991-ci ildə doktorluq (“Neft və qaz yataqlarının proqnozlaşdırılmasında sınan dalğalarla dinamiki eninə profilləmə metodu və onun geoloji nəticələri”) dissertasiyalarını müdafiə etmişdir [52, s.117].

Moskvalı alim A.M.Yepinateva A.Q.Əhmədovun doktorluq dissertasiyasına bir opponent olaraq: “Metodun dünyada analoqu yoxdur” kimi çox yüksək qiymət vermişdir [52, 118].

1978-ci ildə görkəmli folklorşünas alim A.M.Nəbiyevin Azərbaycan-özbək folklor əlaqələrinin yaranma və inkişaf tarixindən bəhs edən çox dəyərli bir monoqrafiyası (“Azərbaycan-özbək folklor əlaqələri”) çap olunmuşdu [418]. Akademik B.Ə.Budaqov 1978-ci ildə “Pioner” jurnalında çap olunmuş “Orta Asiya: səhralar və dağlar diyarı” məqaləsində Orta Asiyanın təbii gözəlliyindən, yeraltı və yerüstü təbii sərvətlərindən, insanlarının böyük əmək rəşadətindən, boş səhraları cənnətə döndərmələrindən bəhs etmişdir. Məqalədə Özbəkistandan da ətraflı söhbət açılmış, Mərkəzi Lenin Muzeyinin Daşkənd filialının, Səmərqənd şəhərinin tarixi abidələrinin şəkilləri də verilmişdir [127, s.16-20].

Həmyerlimiz, özbək sovet şeirinin ən parlaq ulduzlarından biri olan M.Şeyxzadə (1908-1967) hər iki xalqın elmi-mədəni əlaqələrinin inkişafında müstəsna rol oynamışdır. Onun anadan olmasının 70 illik yubileyi hər iki respublikada 1978-ci ildə böyük sevgi və sayğı ilə keçirilmişdir. Həmin günlərdə tədqiqatçı alim Yaşar Qasımovun “Dostluq və qardaşlıq nəğməkarı” [341, s.47-49], M.Şeyxzadə irsinin böyük tədqiqatçısı X.Rzanın “Sənətkar şöhrətinin sirri” [473, s.4] məqaləsi çap olunmuşdu.

Azərbaycan SSR-in Bilik cəmiyyəti alim-şair X.Rzanın M.Şeyxzadənin zəngin yaradıcılığından bəhs edən “Məqsud

Şeyxzadə" (1978) və "Elm" nəşriyyatı "Məqsud Şeyxzadənin bədii yaradıcılığı" (1981) kitablarını nəşr etmişdi [300; 301].

Jurnalist F.Rəhmanzadə X.Rzanın M.Şeyxzadə ilə bağlı yaradıcılığını yüksək qiymətləndirərək yazırdı: "Xəlil Rza böyük yaradıcı, yorulmaz elmi işçi kimi də az iş görməyib. Onun "Məqsud Şeyxzadə" (Bilik, 1978), "Məqsud Şeyxzadənin yaradıcılığı" (Elm, 1980) adlı iki monumental monoqrafiyası Azərbaycan və özbək mədəniyyətinin fəxri, görkəmli şair, dramaturq, alim və ictimai xadim kimi Məqsud Şeyxzadənin bədii və elmi yaradıcılığına həsr olunmuşdur. Bu kitabların elmi qiymətini verən alimlər bildirirlər ki, müəllif həmin monoqrafiyalarda yalnız M.Şeyxzadə yaradıcılığını deyil, bütövlükdə Özbəkistanın və Azərbaycanın min illik poeziya mədəniyyətinin aparıcı alimlərini, ideya-estetik qaynaqlarını aşkarlaya bilmişdir. Bu cür elmi əsərlər yalnız çağdaş mədəniyyətin tərəqqisi uğrunda ardıcıl mübarizə aparan vətəndaş alimin qələmindən çıxa bilər. Xəlil Rzanın Akademiyanın "Elmi Xəbərlər"ində, habelə vaxtaşırı mətbuatda klassiklərə, bədii tərcümənin elmi-nəzəri problemlərinə, çağdaş poeziya yaradıcılarına dair məqalələri tutarlıdır. Təsadüfi deyil ki, alim-şairin adı özbək sovet ensikopediyasına düşmüşdür" [402, s.602-603].

1979-cu ildə Daşkənd şəhərində keçirilmiş ölkə onkoloqlarının III Ümumittifaq qurultayında (8-16 aprel) Azərbaycandan bu sahədə kifayət qədər tanınmış 6 alim-həkim nümayəndə (R.N.Rəhimov, E.İ.İbrahimov, M.D.Axundov, D.A.Əliyev, L.K.Sarıcalınski, E.M..Qarayev) iştirak etmişdir [166, v.54]. Onlar Azərbaycanda onkoloji xəstəliklərə qarşı mübarizədən, bu istiqamətdə apardıqları elmi-tədqiqat fəaliyyətlərinin nəticələrindən söhbət açmışlar.

1979-cu ildə azərbaycanlı dilçi alim A.A.Axundov Özbəkistanın Nukus şəhərində keçirilən Türk dilləri dialektologiyası üzrə VIII məhəlli elmi konfransda iştirak edərək, iki mövzuda – "Azərbaycan dialektlərində kommutativ varmı?" və "Azərbaycan dialektlərinin yaranmasında dil xarici amillərin rolu" mövzularında məruzələr etmişdir [6, s.12].

Həmin il Daşkənd şəhərində olmuş SSRİ oftolmoloqlarının V Ümumittifaq qurultayında (2-7 dekabr) Azərbaycandan 12 nəfər – N.M.Əfəndiyev, K.A.Adıgözəlov, Z.T.Quliyev, Z.Ə.Əliyeva, P.S.Məlikaslanov, M.D.Qasımov, T.Q.Səfərəliyeva, P.Q.Zaprov, S.A.Bədəlova, K.Q.Seyidov, Ç.D.Cərullazadə və D.T.Güləliyev iştirak etmişdi. Onların hər biri ölkə səviyyəsində yaxşı tanınmış alimlər, oftolmologiya üzrə məşhur mütəxəssislər idilər [430, v.148]. Azərbaycan alimlərinin çıxışlarında qaldırdıqları problemlərin həlli istiqamətində əldə etdikləri nəticələrin maraqla qarşılanması da bu baxımdan təsadüfi deyildi.

1979-cu ildə Daşkənddə biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədovun N.K.Mikayılovla birgə yazdıqları "Azərbaycanda torpaqların qeydiyyata alınması haqqında" məqaləsinin tezisi "Suvarılan torpaqların bonitirovkası" kitabında çap olunmuşdu [605, s.47-48; 350, s.156].

70-ci illərdə Azərbaycan memarı Cəfər Qiyasinin yaradıcılığında Azərbaycan-Mərkəzi Asiya və xüsusən, Özbəkistanla memarlıq əlaqələri mövzusu xüsusi yer tuturdu. O, bu mövzuya sevgi ilə yanaşır, hər bir yeniliklə maraqlanır və dərhal da müsbət və obyektiv münasibətini ortalığa qoyurdu.

Moskvanın "Nauka" nəşriyyatı 1978-ci ildə tanınmış özbək alimi, memarlıq doktoru M.S.Bulatovun "IX-XV əsrlərdə Orta Asiya memarlığında həndəsi ahəngdarlıq" kitabını nəşr etmişdi. Kitabla hərətərəfli tanış olan C.Qiyasi "Şərq memarlığında həndəsi ahəngdarlıq" məqaləsində ona öz müsbət və dolğun alim mövqeyini sərgiləmişdir [362, s.5; 150, s.98].

Azərbaycan-özbək elmi, ədəbi-mədəni əlaqələrinin öyrənilməsi və daha da zənginləşdirilməsində böyük alim H.M.Araslının xüsusi xidmətləri olmuşdur. 1979-cu ildə Azərbaycanda Özbəkistan SSR Ədəbiyyatı və incəsənəti günlərinin təntənəli surətdə keçirildiyi bir vaxtda respublika Elmlər Akademiyasının akademiki, Azərbaycan SSR və Özbəkistan SSR-in əməkdar elm xadimi H.Araslıya Daşkənddən qiymətli bir hədiyyə bağlaması gəlmişdi. Bu, beş cilddən ibarət olan "Özbək ədəbiyyatı tarixi" idi. Bu münasibətlə görkəmli şərqşünasla görüşmüş müxbir

A.Mansurzadə ondan müsahibə almışdı. Müsahibədə ancaq beş cildliyin 1-ci və 2-ci cildləri barədə söhbət açmağa imkan olmuşdu. Monumental beş cildlik əsərin xüsusi dəyərini qiymətləndirərkən H.Araslı belə demişdir: "Əlbəttə, "Özbək ədəbiyyatı tarixi"nin beşcildliyi birdən yaranmamışdır. Şübhəsiz belə bir əsaslı, elmi-akademik əsərin meydana gəlməsi üçün özbək sovet ədəbiyyatşünaslığı çox mühüm inkişaf mərhələləri keçmişdir. Təzkirələr, ayrı-ayrı müəlliflərin tarixi əsərləri, şairlərin divanları, folklor materialları, arxeoloji qazıntılar və sairənin gündən-günə inkişafı ədəbiyyat tarixinin dərin, əhatəli şəkildə yazılmasına yeni-yeni materiallar vermişdir" [444, s.8].

Özbək alimləri də öz növbəsində böyük alim H.M.Araslının özbək xalqlı qarşısında xüsusi xidmətlərini yüksək qiymətləndirirdilər. Belə ki, akademik H.M.Araslının rəhbərliyi ilə 1974-cü ildə "Əlişir Nəvainin "Fərhad və Şirin" poeması və onun müqayisəli öyrənilməsinin bəzi məsələləri" mövzusunda Daşkənddə doktorluq dissertasiyası müdafiə etmiş Sadir Erkinov "Uzbekiston madaniyati" qəzetinin 1979-cu il 20 fevral tarixli sayında çap olunmuş "Tanınmış Nəvaişünas" məqaləsində H.Araslının Azərbaycan-özbək ədəbi əlaqələrinin öyrənilməsi sahəsindəki xidmətlərindən söhbət açmışdır [283, s.228].

Özbək alimi Ləziz Kayumov 1961-ci ildə Daşkənddə "Kokand ədəbi mühiti (XVIII-XIX əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərkən onun elmi işinə opponentlik etmiş akademik H.M.Araslının həmişə hörmətini saxlamış, alimin elmi düşüncə, mühakimə və qabiliyyətindən daim müsbət mənada bəhrələnmişdir. O, Azərbaycan aliminə bəslədiyi böyük hörməti 1979-cu il mayın 30-da "Kommunist" qəzetində çap olunmuş "Böyük dostluq" məqaləsində belə ifadə etmişdir: "İstedadlı Azərbaycan alimləri ilə tanışlığımla bir alim kimi öyünməyə bilmərəm. Onlardan biri həm Azərbaycan, həm də özbək ədəbiyyatının çox böyük bilicisi olan Həmid Araslıdır.

Nəvaişünasların hər il keçirilən ənənəvi konfranslarında onun məruzələri keçmişin mədəniyyət tarixinin öyrənilməsində böyük rol oynamışdır. Elmi rəhbər, opponent kimi o, neçə-neçə

namizədlik və doktorluq disseratasiyalarının təkmilləşməsinə kömək etmişdir. O, tamamilə haqlı olaraq bir çox titulları ilə yanaşı Özbəkistan Əməkdar Elm Xadimi adını da daşıyır” [324, s.3; 283, s.62].

Azərbaycan alimləri Özbəkistan SSR-in müdafiə şuralarının üzvü seçilməklə də, həmin respublikada elmi kadrların formalaşmasında yaxından iştirak edirdilər. Belə ki, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov 1979-1990-cı illərdə Özbəkistan SSR EA İqtisadiyyat İnstitutunda doktorluq dissertasiyası üzrə müdafiə şurasının üzvü seçilməklə, əməyin təşkili, regionlarda əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətində elmi araşdırmaların canlanmasına səbəb oldu [507, s.17].

### 3.4. 1980- 1991-ci illərdə elmi əlaqələr

XX əsrin 80-ci illəri sovet imperiyasında elmi biliklərin inkişaf etdiyi, elmi əlaqələrin gücləndiyi, ictimai-siyasi hadisələrin dərinləşdiyi, milli münasibətlərin çat verdiyi, seperatçılıq, müstəqilliyə can atmaq meyllərinin gücləndiyi dövr idi. Mərkəzdənqaçma prosesi sürətləndikcə gərginliyi dərk edən “mərkəz” hadisələri qabaqlamaq, qarşısını almaq əvəzinə, səhv, yanlış addımlar ataraq ziddiyətləri daha da dərinləşdirirdi.

80-ci illər “Yenidənqurmanın” yenidənqırmaya çevrildiyi, onilliklərlə qazanılmış təcrübənin, birliyin üstündən xətt çəkildiyi, yalançı, beynəlmiləlçi nağıllarının işə keçmədiyi illər idi: Çar Rusiyasının gərçəkləşdirə bilmədiyi, “parçala, hökm sür” siyasətinin sovet qazanında bişən ideologiyasının görünən və görünməyən qatlarındakı paxırın açıldığı, çat verdiyi zaman idi. Ölkənin daxilinə nüfuz edə bilməyən xarici qüvvələrin əl-qolunun açıldığı, ölkə rəhbərliyi səviyyəsində dağıdıcılıq planlarının işə salındığı zaman idi. Dünyanı daim ağılsız təhdidləri ilə təlatümə gətirən sovetlər imperiyasının son akkordlarının vurulmasına doğru gedən bəstənin çalınmasına hazırlığın görüldüyü illər idi.

M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda “Xalqlar dostluğu-Ədəbiyyatların dostluğudur” mövzusunda keçirilən elmi konfrans (1980, mart) bey-

nəlmiləlçilik və xalqlar dostluğu ideyalarının güclənməsinə xidmət edirdi. Konfransda respublikamızın, RSFSR, Belorusiya, Gürcüstan, Ermənistan, Qırğızıstan və Özbəkistan respublikaları ali məktəblərinin alimləri iştirak etmişdilər.

Konfransda "Rus-milli ədəbi əlaqələr" və "Bədii tərcümə" bölmələrində 60 məruzə dinlənilmişdir [295, s.1].

1980-ci ildə Daşkənddə keçirilən III Ümumittifaq Türkoloji konfransda iştirak edən Azərbaycan dilçilik elminin görkəmli nümayəndəsi A.A.Axundov konfransda "Türk dillərində səs uyğunluqlarının fonoloji modelinin qurulması prinsipləri haqqında" mövzusunda məruzə etmişdir [591, s.147-179; 6, s.14, 100].

Yenə həmin ildə Daşkənd şəhərində "Orta Asiyanın sonfeodal şəhəri" mövzusunda elmi sessiya keçirilmişdir. Sessiyada tarixi elmləri doktoru, professor Məşədixanım Nemətova "Epiqrafik abidələrdə şəhər idarəetməsi ilə əlaqədar terminlər" mövzusunda məruzə etmişdir [396, s.9].

1980-ci ildə Daşkənddə "Sıxılmayan çoxfazalı maye süzgəcinin həlli üçün nümunəvi üsullar" mövzusundakı V Ümumittifaq seminarında (23-25 sentyabr) tanınmış Azərbaycan alimi, texnika elmləri doktoru, professor B.A.Əzimov "Quyuların işə salınması dinamikasını nəzərə almaqla, qeyri-həcmli bir təbəqədə fərqli üsulun kompüterin çoxfazalı maye süzülməsi probleminin həllinə tətbiqi" adlı məruzə ilə çıxış etmişdir [169, v.37, 43]. Bu üsulun tətbiqi neftçıxarmada yüksək səmərəliliyə səbəb olmaqla yanaşı, həm də neftçilərin əməyinə olan marağının güclənməsi istiqamətində müsbət stimullar yaradırdı.

Görkəmli alim Ç.Cuvarlı 1976-1980-ci illərdə Özbəkistan SSR-in Mübarəki qaz zavodunda təbii qazın kükürd qarışığından təmizlənməsində yaxından iştirak edirdi. Onun irəli sürdüyü ideya-elektrik boşalmasında kükürd elementindən istifadənin sınaqdan keçirilməsi öz müsbət nəticələrini göstərməkdəydi [12, v.30].

Böyük ədəbiyyatşünas alim H.M.Araslı Nəvai irsinin araşdırılması istiqamətində yorulmadan çalışırdı. Onun hər iki xalqın ədəbiyyatsevərləri üçün maraqlı görünəcək "Nəvai və Füzuli" məqaləsi 1980-ci ildə çap olunmuşdu [33, s.7].

Tanınmış şərqşünas alim, akademik Z.M.Bünyadovun "Özbəkistanın görkəmli xadimi İbn-al-Fuvatinin müqəddəs kitabı" məqaləsi Özbəkistanda özbək dilində çap edilmişdi [606, s.10-11; 575, s.33].

1980-ci ildə də hər iki xalqın alimləri öz əhəmiyyətli tədqiqatları ilə elmi əlaqələrə uğurlu töhfələr verirdilər. Belə ki, həmin ildə özbək alimi Səidə Nəzrullayeva Bakıda "Sovet şərqi xalqları ədəbiyyatı tarixində "Leyli və Məcnun" mövzusu"nda doktorluq dissertasiyası müdafiə etmiş və akademik H.M.Araslı onun opponenti olmuşdur [283, s.147, 184].

Tanınmış folklorşünas alim A.M.Nəbiyev 1980-ci ildə Gürcüstan SSR EA-nın Ş.Rustaveli adına Gürcüstan Ədəbiyyatı tarixi İnstitutunda "Azərbaycan və özbək folklorunun tipologiyası və qarşılıqlı əlaqələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi [692].

Həmin günlərdə A.M.Nəbiyevin böyük yaradıcılıq fəaliyyətini yüksək qiymətləndirən Özbəkistan SSR EA-nın vitse-prezidenti, akademik, Əməkdar elm xadimi Tura Mirzayev bu barədə 1980-ci il fevralın 19-da belə yazmışdı: "... Azad Nəbiyev türk xalqları folklorunu V.M.Jirmunski, H.T.Zərifov, M.Alaviyya, M.Afzalov, B.A.Qorriyevdən sonra yeni mərhələdə və yeni tədqiqat materialları əsasında öyrənən cəfakeş tədqiqatçılardandır. Onun folklor araşdırmaları türk xalqlarının, xüsusən azərbaycanlıların və özbəklərin zəngin ədəbi-mədəni, tarixi əlaqələrə malik olduğunu təsdiqləyir.

Azad Nəbiyev polad kimi möhkəm iradəli tədqiqatçıdır, sözünü cəsarətlə deyəndir, gözəl dost, böyük alim və böyük şəxsiyyətdir" [54, s.38].

1980-ci il dekabrın 10-da özbək tədqiqatçısı K.M.Qurbanov Azərbaycan Dövlət Universitetində "Özbəkistan SSR-də kənd təsərrüfatı istehsalının ərazı üzrə təşkilinin coğrafi problemləri" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi adını almışdı [72].

1981-ci ildə görkəmli alim, akademik H.Ə.Əliyev "Hərtərəfli inkişaf yolu ilə səhralaşmaya qarşı mübarizə" mövzusunda

Daşkənddə keçirilən Beynəlxalq simpoziumda B.T.Nazirovla müştərək yazdıqları "Azərbaycanın quraq ərazilərində kənd təsərrüfatı torpaqlarından istifadə" mövzusunda məruzə etmişdir [581, s.48-50; 289, s.47].

Biologiya elmlər doktoru, professor Q.Ş.Məmmədov həmin ildə Daşkənd şəhərində keçirilən "Torpaqların bonitirovkası"na dair Ümumittifaq Elmi Əlaqələndirmə Şurasında H.K.Mikayılovla birgə yazdıqları "Azərbaycanda torpağın vəziyyətində şoranlığın dərəcəsinin nəzərə alınması" və müstəqil yazdığı "Yem bitkiləri, torpağın məhsuldarlığının qiymətləndirilməsi və onların məhsuldarlıq qabiliyyətinin müəyyən edilməsi" mövzularında məruzə etmişdir [350, s.97, 157, 135-138].

1981-ci ildə BMT, ətraf mühitlə bağlı YNET-in birgə təşkilatçılıq proqramı əsasında Daşkənddə "İnteqrasiya, inkişaf yolu ilə səhralaşmaya qarşı mübarizə" mövzusunda keçirilən Beynəlxalq Simpoziumun iştirakçısı olan akademik B.Ə.Budaqov E.M.Şıxlinski ilə birgə yazdıqları "Azərbaycan SSR-in quraq və yarıquraq zonalarının landşaft-iqlim şəraitinin istilik balansı və meliorasiyası" mövzusunda məruzə etmişdir [603, s.158-159; 125, s.148].

Azərbaycan SSR EA-nın müxbir üzvü A.İ.Muxtarov 1981-ci ildə Səmərqənddə nuklear spektroskopiya və atom nüvəsinin quruluşuna dair 31-ci illik toplantıda "Elektronların elastik səpilməsi nəticəsində nüvələrin kosmik quruluşunun tədqiqi" mövzusunda məruzə etmişdir [487, v.184].

1981-ci ildə Bakıda Özbəkistan SSR-in kimyaçı alimlərinin də geniş tərkibdə iştirak etdiyi ümumi və tətbiqi kimyaya dair XII Mendeleyev qurultayı (21-25 sentyabr) olmuşdur [191, s.1] Alimlərin bu görüşü 2 min nəfərdən çox iştirakçını və qonağı əhatə edirdi. Onların arasında SSRİ-nin 31 həqiqi üzvü, 47 müxbir üzvü, müttəfiq respublikaların elmlər akademiyalarının 78 akademiki və 87 müxbir üzvü var idi. Nümayəndələr arasında 40 nəfər Lenin mükafatı laureatı, 23 nəfər Sosialist Əməyi Qəhrəmanı iştirak edirdi. Qurultayda 100-dən artıq elmi tədqiqat idarəsi və birliyinin rəhbərləri, ölkənin 4 əsas ali təhsil müəssi-

səsinin rektorları məruzə və məlumatla çıxış etmişlər. 22 dövlətdən, o cümlədən 9 sosialist ölkəsindən, 13 kapitalist ölkəsindən və inkişaf etməkdə olan ölkədən 142 alim sovet kimyaçılarına qonaq gəlmişdilər. Məclisdə çox böyük firmaların: AFR-in "İmhauzen" və "Saarberqimperplan" və Macarıstanın "Medimleks" və "Reanal" firmalarının nümayəndələri iştirak edirdilər [561, s.1].

80-ci illərdə Azərbaycan KP MK-nın 1979-cu il 6 yanvar tarixli "Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq haqqında" qərarına uyğun olaraq dahi sənətkarın həyat və yaradıcılığının daha dərindən tədqiq edilməsi məqsədilə iki ildən bir Ümumittifaq elmi konfransının keçirilməsi yaxşı bir ənənə halını almışdı. "XI-XII əsrlər Azərbaycan mədəniyyəti və Nizami Gəncəvi yaradıcılığı" adlı ilk Nizami konfransı 1980-ci ildə keçirilmişdi [428, s.6].

Böyük şair Nizami Gəncəvinin anadan olmasının 840 illiyi münasibətiylə 1981-ci il oktyabrın 6-da Azərbaycan SSR Elmlər Akademiyasının rəyasət heyəti elmi sessiya keçirmişdir. Sessiyada iştirak edən Özbəkistan SSR EA-nın akademiki V.Y.Zahidov "Nizami və Özbəkistan" mövzusunda məruzə etmişdir. O, məruzəsində Azərbaycan və Özbəkistanın qardaş xalqlarının ədəbiyyatları arasında dostluğun əsrlərlə tarixi olduğunu, görkəmli özbək şairi və mütəfəkkiri Əlişir Nəvai özünü iftixarla Nizaminin şagirdi adlandırdığını, sovet Özbəkistanı ədiblərinin bir çoxlarının da haqlı olaraq Azərbaycan poeziyası korifeyinin şagirdi və davamçısı adlandırıla bildiklərini, onların yaradıcılığında Nizami irsinin bədii təsirinin aydın duyulduğunu səmimi bir şəkildə ifadə etmişdir [441, s.1].

Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun təşəbbüsü ilə 1981-ci ilin oktyabrında Bakıda "Azərbaycan və Özbəkistan memarlığında memarlıq irsindən istifadə problemləri" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransda professor Ə.B.Salamzadənin "Memarlıqda milli xüsusiyyət varisliyin nəticəsi olmalıdır" mövzusundakı məruzəsi bir növ konfransda qoyulan problemin nəzəri əsasını təşkil edirdi. SSRİ xalqlarının

memarlığında milli xüsusiyyət problemlərini tarixi təcrübə əsasında şərh edən professor belə bir dəyərli elmi nəticəyə gəlirdi ki, "irsiyyətin əhəmiyyətinin inkar edilməsi memarlıqda estetik keyfiyyətlərin itirilməsinə gətirib çıxarır". Buna görə də məruzəçi müasir memardan irsi mənimsəmə və varislik üzərində gərgin yaradıcı iş tələb edirdi. Konfransda Azərbaycan memarlarından K.S.Kərimov, V.H.Muradov, İ.B.Miralayev, E.V.Avalov, C.Ə.Qiyasi, R.B.Bayramov və R.B.Əminzadənin məruzələri də bu ovqatda və bu məzmunda qurulmuşdu [360, s.120].

Konfransda çıxış edən özbək memarlarından T.F.Kadırovanın "Özbəkistanın müasir şəhərsalma sənətində ənənələrdən istifadə problemlərinə dair", M.C.Bulatovun "Özbəkistanın memarlıq nəzəriyyəsi və təcrübəsində irsi mənimsəmə tarixi", P.Ş.Zahidovun "Harmoniya qanunu və müasir memarlıq" və E.Asanovun "Özbəkistan memarlıq ornamenti: ənənəvi incəsənətin yeni keyfiyyəti" mövzularındakı məruzələri çox maraqla qarşılanmışdır [360, s.120].

XX əsrin 80-ci illərinin əvvəllərində bütün ölkədə ideoloji və siyasi tərbiyə işinin daha da yaxşılaşdırılması ön plana çəkilmişdi. Azərbaycan KP MK bu istiqamətdə qarşıda duran vəzifələri icra etmək üçün 1981-ci il noyabrın 4-də "Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda deyilirdi: "Kütlələrin beynəlmiləlçilik şüurunun formalaşdırılması, onların sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi Azərbaycan Kommunist partiyasının ideoloji və təşkilatılıq işində əsas yerlərdən birini tutur" [108, s.3].

"Respublikada bərqərar olmuş beynəlmiləlçilik, dostluq və qardaşlıq şəraiti zəhmətkeşlərin müvəffəqiyyət və nailiyyətlərinin başlıca amillərindən birinə çevrilmişdir" [108, s.4].

Bu qərarda ideoloji işin gücləndirilməsi, beynəlmiləlçilik, dostluq və qardaşlıq şəraitinin möhkəmləndirilməsində elmi əlaqələrin inkişafına da xüsusi önəm verilirdi. Bu barədə qərarda deyilirdi: "Respublika Elmlər Akademiyasına, Azərbaycan KP

MK yanında Partiya Tarixi İnstitutuna – Sov. İKP MK yanında Marksizm-Leninizm İnstitutunun filialına, Bakı Ali Partiya Məktəbinə tapşırılsın: - təbiət elmləri, texniki, iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etsinlər" [108, s.16].

1981-ci il noyabr ayının 25-də görkəmli astronom, riyaziyyatçı, filosof Məhəmməd Nəsirəddin Tusinin anadan olmasının 780 illiyi Azərbaycanda böyük təntənə ilə qeyd edildi. Naxçıvan torpağının yetirməsi olan Nəsirəddin Tusinin Ordubad rayon mədəniyyət evinin qarşısında abidəsinin təntənəli şəkildə bünövrəsi qoyuldu. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının binasında Tusinin yubileyinə həsr olunmuş elmi sessiya keçirilmişdir. Məruzələrdə astronomiyanın, riyaziyyatın, fəlsəfənin, digər elm sahələrinin inkişafında Tusinin rolu qeyd edilmiş, onun yaratdığı Marağa rəsədxanasında aparılan tədqiqatların Avropada və Asiyada astronomik və riyazi fikrin inkişafına təsirindən bəhs edilmişdir [131, s.4].

Noyabrın 25-də Azərbaycan SSR EA-da Tusinin anadan olmasının 780 illiyi münasibətilə elmi sessiya keçirilmişdir. Sessiyada Özbəkistan SSR EA Astronomiya İnstitutunun şöbə müdiri, fizika-riyaziyyat elmləri namizədi O.S.Tursunov "Uluqbəyin Səmərqənd rəsədxanasının başlıca aləti" mövzusunda məruzə etmişdir [194, s.1].

N.Tusinin 780 illiyi şənliklərində iştirak etmək üçün Bakıya gəlmiş sovet alimlər qrupunu noyabrın 25-də Sov. İKP MK siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev qəbul etmişdir. Qəbulda söz alan Özbəkistan SSR Elmlər Akademiyası fizika-riyaziyyat elmləri şöbəsinin akademik katibi, Özbəkistan EA Astronomiya İnstitutunun direktoru V.P.Şeqlov şənliklərdə iştirak etmək imkanı üçün minnətdarlığını bildirərək qeyd etmişdir ki, Tusinin vətəni Azərbaycan astronomiya sahəsindəki çox zəngin ənənələr diyarıdır. Bu ənənələri daha da inkişaf etdirmək üçün respublikada Şamaxı

astrofizika rəsədxanası kimi gözəl baza vardır. Burada Azərbaycan alimləri böyük alimin ənənələrini davam etdirirlər [65, s.1].

N.Tusinin anadan olmasının 780 illiyi münasibətilə Azərbaycanda keçirilən yubiley tədbirləri 1981-ci il noyabrın 25-də M.F.Axundov adına Akademik Teatrın binasındakı təntənəli gecə ilə yekunlaşmışdır. Gecədə Özbəkistan SSR EA-nın fizika-riyaziyyat elmləri şöbəsinin akademik katibi, Özbəkistan EA Astronomiya İnstitutunun direktoru V.P.Şeqlov demişdir ki, "dünya astronomiya elminin təşəkkül tarixinin bir çox görkəmli səhifələri Nəsirəddin Tusinin adı və onun yaratdığı Marağa rəsədxanası ilə bağlıdır. Astronomiya sahəsində Tusinin əsərləri geniş şöhrət qazanmışdır və onlardan Səmərqənd rəsədxanasının fəaliyyətində istifadə edilmişdir. XV əsrin birinci yarısında böyük özbək alimi Məhəmməd Tarağay Uluqbəy və onun silahdaşları Səmərqənd rəsədxanasında işləyəndə onun şöhrəti xüsusilə geniş yayılmışdı. Biz şadıq ki, bu gün kosmik fəzanın fəth edildiyi bir dövrdə Tusinin vətəni Azərbaycanda astronomiya elmi belə coşğun inkişafdadır" [525, s.1].

Çıxışının sonunda 50 ilə yaxın astronomiya sahəsində çalışan alim V.P.Şeqlov Azərbaycan Elmlər Akademiyasına Daşkənddə yenicə nəşr edilmiş Yan Geveliyanın "Ulduzlu səmanın atlası" kitabını hədiyyə etmişdir. Bu kitabda Marağa rəsədxanasının müşahidələrinin nəticələrindən də istifadə olunmuşdur [525, s.2].

Çoxcəhətli yaradıcılığı ilə Azərbaycan sovet mədəniyyətinin inkişafına böyük töhfə vermiş C.Cabbarlının xatirəsi şərəfinə 1982-ci il martın 22-də Azərbaycan SSR EA-da elmi sessiya keçirilmişdir.

Sessiyada Azərbaycan ədəbiyyatı, sovet teatrı tarixində C.Cabbarlının rolu, kinematoqrafiyada onun fəaliyyəti, yazıçının yaradıcılıq üslubunun xüsusiyyətləri barədə Azərbaycan SSR EA-nın akademiki M.Cəfərov, filologiya elmlər doktorları Y.Qarayev, A.Abdullazadə, sənətşünaslıq namizədləri İ.Kərimov və R.Heydər məruzə etmişlər.

Sessiyada çıxış edən Özbəkistan SSR EA-nın müxbir üzvü İ.Sultanov çoxmillətli vahid sovet mədəniyyətinin yaradılması işində C.Cabbarlının böyük xidmətlərindən danışmışdır [193, s.3].

1982-ci ildə Daşkənddə keçirilmiş geologiya elminin problemlərinə dair VII Ümumittifaq seminarında Azərbaycan EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadə Ə.M.Əkrəmxocayev, V.V.Vebr, A.A.Gedokyan, N.A.Jeremenko, A.E.Kantaroviç, S.P.Maksimov, S.Q.Neruçev, İ.İ.Nesterov, E.A.Romankoviç, A.A.Trafimuk ilə birgə yazdıqları "Müasir və yandırılmış çöküntülərdə üzvi maddələrin öyrənilməsi ilə bağlı aparılmış tədqiqatın praktiki istifadəsi və araşdırmaların inkişaf perspektivləri" mövzusunda məruzə etmişdir [231, s.132].

1982-ci ildə Daşkənddə Azərbaycan SSR EA-nın akademiki, kimya elmləri doktoru, professor A.A.Əfəndiyev polimer liqandalarla əlaqələndirici birliyin I Respublika məktəbində V.A.Kabanovla birgə yazdıqları "Metal ionların istifadəsi üçün polimerik sorbentlərin tənzimlənməsi" mövzusunda məruzə etmişdir [51, s.144].

Akademik A.A.Əfəndiyevin elmi fəaliyyətini Ə.R.Biruni adına Daşkənd Dövlət Texniki Universitetinin əməkdaşı, akademik S.S.Neqmatov xüsusi qiymətləndirərək, yüksək molekullu birləşmələr kimyası sahəsində təkcə Azərbaycanda deyil, Özbəkistanda da yaxşı tanındığını, kompleks əmələ gətirən polimer sorbentlər və metal polimer kompleks katalizatorların alınmasının və xassələrinin tənzimlənməsinin prinsiplərinin və digər nəticələrin onun tərəfindən işlənib hazırlanmasını müsbət hal, böyük nailiyyət kimi qiymətləndirmişdir [51, s.222].

Azərbaycanda yarımkeçiricilər fizikası sahəsində tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru, professor M.İ.Əliyev 1982-ci ildə Daşkənddə "Maddələrin istilik xassələri" üzrə VII Ümumittifaq Elmi konfransında iştirak etmiş, T.T.Cəbrayılov və D.Q.Araslı ilə birgə yazdıqları "$Cu_8$ $SnS_6$ birləşməsinin faza keçidi ətrafında istilik xassələri" mövzusunda məruzə etmişdir [373, s.13].

1982-ci ildə özbək alimi Müəzzəm Mirzəyeva Daşkənddə Folklorşünaslıq ixtisası üzrə "Özbək dastanı "Gor oğlu"da genoloji sivilizasiyanın problemləri ("Həsənxan" dövrünün nümunələrində)" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi adını almışdı.

Əsərdə tədqiqatçı Azərbaycanın folklorşünas alimi A.M.Nəbiyevin elmi yaradıcılığından geniş şəkildə bəhrələndiyini minnətdarlıq hissi ilə bildirərək yazırdı ki, "A.Nəbiyevin "Qəhrəmanlıq səhifələri", "Azərbaycan-özbək folklor əlaqələri", "Azərbaycan və özbək folklorunun tipoloji və qarşılıqlı əlaqələri" əsərlərində "Gor-oğlu" və "Koroğlu" dastanlarının öyrənilməsi ilə bağlı qiymətli fikirlər vardır" [651, s.4; 54, s.129, 134].

1982-1983-cü illərdə Azərbaycan alimi, biologiya elmləri doktoru, əməkdar elm xadimi S.R.Məmmədova SSRİ Kənd Təsərrüfatı Akademiyasının Orta Asiya üzrə pambıqçılıq bölməsinin üzvü olmuşdur. O, bu illərdə Özbəkistanla sıx əlaqə saxlamışdır [493, s.14].

1982-ci ildə akademik Z.M.Bünyadovun "Xarəzmşahlar dövlətinin hərbi təşkilatı (1077-1231)" elmi məqaləsi Bakıda [607, s.45-51] və akademik haqqında özbək ziyalısı M.Kuşmakovun "Gözəl duyğu (Qardaşlıq ailəsində)" məqaləsi isə özbək dilində Daşkənddə çap olunmuşdu [334, s.17-18]. Məhz bu vaxtdan etibarən akademik Z.M.Bünyadovun elmi və ictimai fəaliyyətində Özbəkistanla daha sıx bağlılıq dövrü başlanmışdır.

1982-ci ildə memarlıq doktoru, professor C.Ə.Qiyasinin Səmərqənddə 1403-1404-cü illərdə tikilmiş və Teymurilərin (Teymurun, Uluqbəyin və b.) dəfn olunduğu "Gur Əmir" türbəsi barədə şəkilli materalı ASE-nin VI cildində [40, s.114] və "Azərbaycan və Özbəkistan alimlərinin birgə konfransı" məqaləsi isə Azərbaycan SSR EA-nın "Xəbərlər"ində [360, s.120] çap olunmuşdu.

1983-cü ildə Səmərqənddə II Beynəlxalq musiqişünaslıq Simpoziumu keçirilmişdir. Simpoziumda iştirak edən Azərbaycanın əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor Z.Y.Səfərova "Mir Möhsün Nəvvab və onun "Vüzuhul-ər-

qam" risaləsi" mövzusunda məruzə etmişdir. Özbək alimi, professor F.M.Qaramatov Zemfira Səfərovanın məruzəsində irəli sürülən fikirləri yüksək dəyərləndirmiş və Azərbaycan opera sənətinin banisi Hacıbəyovun musiqisini, bəstəkarlıq fəaliyyətini, estetik-fəlsəfi görüşlərini daha yaxşı başa düşməyə kömək edəcəyini söyləmişdir [574, s.10, 90-91].

1983-cü ildə Daşkənd şəhərində keçirilən "Bitkilərin embriologiyası"na həsr olunmuş XVII Beynəlxalq müşavirədə azərbaycanlı alim, biologiya elmləri doktoru, professor O.V.İbadlı S.O.Hüseynova ilə birgə müəllif olduqları "Azərbaycan florasından bəzi nəsli kəsilməkdə olan dağ laləsi növlərinin tozcuqlarının öyrənilməsi" mövzusunda məruzə etmişdir [628, s.12-13; 437, s.12-13].

1983-cü ildə Bakıda Azərbaycan SSR EA-nın dəyirmi salonunda şərqşünasların "Müasir şərqşünaslığın Asiya və Afrika ölkələrinin öyrənilməsində rolu" mövzusunda II Ümumiitifaq konfransı (25-27 may) olmuşdur. Şərqşünasların I Ümumittifaq konfransı 25 il bundan əvvəl, 1958-ci ildə Daşkənd şəhərində keçirilmişdir. Ötən il ərzində sovet şərqşünaslığının vəzifəsi böyümüş və məsuliyyət hissi daha da artmışdı. İndi "O, Sovet şərqi xalqlarının sosial-iqtisadi inkişafının tarixi təcrübəsini öyrənməli, ümumiləşdirməli və tətbiq etməli, Afrika-Asiya qitələri xalqlarının, müstəqil inkişaf yoluna qədəm qoymuş cavan dövlətlərin tarixinin və müasir həyatının, milli azadlıq mübarizəsinin aktual problemlərini tədqiq etməlidir" [499, s.1].

Ölkə şərqşünaslarının II Ümumittifaq konfransında sosial-iqtisadi problemlər, ideoloji və siyasi problemlər, filologiya və mədəniyyət, dilçilik və s. mövzular üzrə bölmələrdə 170-dək məruzə və məlumat dinlənilmişdir [515, s.1].

Şərqşünasların II Ümumittifaq konfransında Özbəkistan SSR EA Şərqşünaslıq İnstitutunun direktoru M.M.Xayrullayevin məruzəsi və qaldırılan problemlər ətrafında müzakirələrdəki fəallığı müsbət təsir bağışlamışdır [498, s.1].

Həmin il sentyabrın 5-10-u tarixində Bakıda şərq xalçaları sənətinə dair beynəlxalq simpozium olmuşdur. 20-dən artıq öl-

kənin rəssamları, sənətşünas alimləri, ali məktəb müəllimləri, işgüzar dairələrin nümayəndələrinin toplaşdığı simpoziumda iştirakçıların böyük marağına səbəb olan Azərbaycan SSR EA Arxitektura və İncəsənət İnstitutunun şöbə müdiri, respublikanın xalq rəssamı Lətif Kərimovun "Xalça sənəti xalqın mühüm bədii irsidir" məruzəsi təqdim edilmişdir [298, s.2].

Simpoziuma gəlmiş Özbəkistan nümayəndələri – "Şərq xalça sənəti" bölməsinin rəhbəri, sənətşünaslıq doktoru R.Taktaş [570, s.2], "Miniatür rəngkarlıq" bölməsi iclasının iştirakçısı, Özbəkistan SSR EA Şərqşünaslıq İnstitutunun baş elmi işçisi A.Madraimov öz maraqlı məruzələri ilə özbək xalça sənəti barədə yüksək fikir formalaşdıra bilmişdilər [294, s.2].

1983-cü ildə Bakıda "Sovet adamının mənəvi aləmində milli və beynəlmiləl cəhətlərin dialektikası" mövzusunda keçirilən (6-9 dekabr) Ümumittifaq elmi-praktik konfransının iştirakçıları 15 müttəfiq və 20 muxtar respublikada, 18 muxtar vilayətdə və mahalda yaşayan bütün millətlər və xalqların – SSRİ xalqlarının qardaşlıq ailəsində əl-ələ verib əməkdaşlıq edən, iqtisadiyyatı, elmi və mədəniyyəti səmərəli inkişaf etdirən bir cəmiyyətin bir sıra problemlərinin çoxplanlı və hərtərəfli cəhətlərini müzakirə etmək üçün toplaşmışdılar [110, v.5]. Nümayəndələr arasında ölkənin müxtəlif şəhərlərindən gəlmiş nüfuzlu tarixçilər, iqtisadçılar, etnoqraflar, dilçilər, psixoloqlar, demoqraflar, jurnalistlər var idi.

Konfransda Özbəkistanı təmsil edən Özbəkistan SSR EA Fəlsəfə və Hüquq İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru K.X.Xanazarov "İnkişaf etmiş sosializm şəraitində SSRİ xalqları mədəniyyətlərinin qarşılıqlı əlaqəsi" mövzusunda məruzə etmişdir [110, v.5].

K.X.Xanzarov konfrans günlərində mətbuata verdiyi müsahibədə demişdir: "Konfransın gözəl Bakı şəhərində keçirilməsi təsadüfi deyil. Sovet Azərbaycanının paytaxtı zəngin beynəlmiləl ənənələri ilə bütün dünyada şöhrət qazanmışdır. Biz bu şəhərin küçələrini, parklarını gəzdikcə, qonaqpərvər sakinləri ilə görüşdükcə konfransda dediklərimizi öz gözlərimizlə görürük.

Doğrudan da, Bakı əsl proletar beynəlmiləlçiliyinin, xalqlar dostluğunun rəmzidir” [161, s.3].

1983-cü il dekabrın 7-də Azərbaycan SSR EA-da əmək ehtiyatları mövzusunda başlayan Ümumittifaq müşavirə- seminarında evə iş verilməsi formalarının daha da inkişaf etdirilməsi və natamam iş vaxtı rejimlərinin tətbiq olunması vəzifələri müzakirə edilmişdir. Ölkə əhəmiyyətli bu mühüm tədbirə Özbəkistan SSR Dövlət Əmək Komitəsi sədrinin müavini V.Q.Verxoturov elmi-işgüzar qrupla gəlmişdi [239, s.1].

Özbək tədqiqatçılarının elmi araşdırmalar sahəsindəki uğurları da hər iki xalqın elmi əlaqələrinə öz töhfəsini verirdi. Özbək alimi Səidə Nəzrullayeva 1980-ci ildə Bakıda “Sovet şərqi xalqları ədəbiyyatı tarixində “Leyli və Məcnun” mövzusu” adlı doktorluq dissertasiyası müdafiə edərkən görkəmli ədəbiyyatşünas alim, akademik H.Araslı onun rəsmi opponenti olmuşdur. Akademik H.Araslının elmi yaradıcılığından geniş bəhrələnən S.Nəzrullayeva 1983-cü ildə əsərini Daşkənddə çap etdirərkən, akademikin, müdafiə etdiyi mövzu ətrafında zəngin irsindən necə bəhrələndiyini 7, 11, 17-24, 77-78 və 84-cü səhifələrdə minnətdarlıqla bildirmişdir [283, s.184, 221].

Görkəmli Azərbaycan memarı Cəfər Qiyasinin “Azərbaycan və Orta Asiyanın memarlıq əlaqələri (XIII əsrin sonu-XIV əsrin əvvəlləri)” məqaləsi 1983-cü ildə Alma-Atada nəşr olunan “Orta əsrlərdə Qazaxıstan və Orta Asiyada şəhər mədəniyyəti” toplusunda çap edilmişdi. Həmin məqalədə Özbəkistan şəhərləri ilə Azərbaycan şəhərlərinin əlaqələrinə də yer verilmişdi [621, s.42-48].

1983-cü ildə görkəmli coğrafiyaşünas alim, akademik B.Ə.Budaqov Bakı-Səmərqənd-Nəvai-Buxara-Urgənc-Düşənbə marşrutu üzrə səfərdə olmuşdur. Səfərin əsas məqsədi o yerlərin təbiəti, əhalisi, iqtisadiyyatı ilə daha yaxından tanış olmaq, insanlarla görüşmək, dostluq əlaqələrini möhkəmləndirmək idi [125, s.18].

XX əsrin 80-ci illərində Azərbaycan-özbək elmi, ədəbi-mədəni əlaqələrinin araşdırılması və inkişafında X.R.Ulutürkün böyük əməyi olmuşdur. Bu barədə görkəmli alim Əkrəm Cəfər

1984-cü il yanvarın 6-da Xəlil Rzanın əsərlərinin Respublika Dövlət Mükafatına təqdim edilməsi münasibətilə keçirilən iclasda belə demişdir: "Azərbaycan və özbək xalqlarının mədəniyyət körpüsü, qardaşlıq timsalı adlanmağa layiq Maqsud Şeyxzadə haqqında X.Rza iki kitab nəşr etdirmişdir: "Maqsud Şeyxzadə" (Bilik, 1979), "M.Şeyxzadənin bədii yaradıcılığı" (Elm, 1980). Məncə hər iki kitabı üst-üstə qoyub X.Rzaya bu böyük ədəbiyyatşünaslıq abidəsinə görə mükafat, Dövlət mükafatı verə bilərik. X.Rza bu iki kitab əsasında doktorluq əsəri yaratmışdır. "M.Şeyxzadənin poeziyası və Azərbaycan-özbək ədəbi əlaqələrinin aktual problemləri" adlanan bu əsər alim-şairin 15 illik elmi-bədii axtarışlarının böyük məhsuludur, elmi fədakarlıq nümunəsidir" [402, s.260].

Publisist Fazil Rəhmanzadə "Mərdanəlik, qəhrəmanlıq poeziyası" məqaləsində şair-alim X.R.Ulutürk barədə belə yazmışdır: "...Bu kitabların elmi qiymətini verən alimlər bildirirlər ki, müəllif həmin monoqrafiyalarda yalnız M.Şeyxzadə yaradıcılığını deyil, bütövlükdə Özbəkistanın və Azərbaycanın min illik poeziya mədəniyyətinin aparıcı amillərini, ideya-estetik qaynaqlarını aşkarlaya bilmişdir. Bu cür elmi əsərlər yalnız çağdaş mədəniyyətin tərəqqisi uğrunda ardıcıl mübarizə aparan vətəndaş alimin qələmindən çıxa bilər. Xəlil Rzanın Akademiyanın "Elmi xəbərlər"ində, habelə vaxtaşırı mətbuatda klassiklərə, bədii tərcümənin elmi-nəzəri problemlərinə, çağdaş poeziya yaradıcılarına dair məqalələri tutarlıdır. Təsadüfi deyil ki, alim-şairin adı özbək sovet ensiklopediyasına düşmüşdür" [402, s.602-603].

"X.R.Ulutürkün alim kimi üstünlüyü ondadır ki, köhnə ehkamlarla barışmır, onları yıxmaqdan da çəkinmir." "Maqsud Şeyxzadə" (Bakı, 1979), "Maqsud Şeyxzadənin bədii yaradıcılığı" (Bakı, 1980) kitablarında, "Böyük sənət xəzinəsi" (1979), "M.Şeyxzadə yaradıcılığında Azərbaycan-özbək ədəbi ənənələri" (1985), "Poeziya-ən böyük milli sərvət" (1992) kimi elmi məqalələrində və "Azərbaycan-özbək ədəbi əlaqələrinin qüvvətlənməsində M.Şeyxzadənin rolu" adlı doktorluq dissertasiyasında o, Azərbaycan-özbək ədəbi əlaqələrini elmi yönümdən araş-

dırır, özbək ədəbiyyatı və incəsənətində baş verən bir sıra mühüm amilləri-keyfiyyət sıçrayışları, dilin xəlqiləşməsi, yeni janr və ədəbi növlərin meydana çıxması, bədii nəsr və dramaturgiyanın vüsət qazanması, ədəbi əlaqələrin intensivləşməsi məsələlərini nəzərdən keçirir, M.Şeyxzadə yaradıcılığının başlıca inkişaf təmayülləri, dil, bədii tərcümə və sənətkarlıq məsələləri üzərində dayanır. Azərbaycan poetik ənənələrinin gücü, qüdrəti ilə özbək mühitinə gəlmiş M.Şeyxzadə yaradıcılığının məhz ədəbi əlaqələr sahəsindəki müstəsna yeri və dolğunluğu ilə tədqiqinə nail olur" [213, s.194].

1984-cü ildə Daşkənddə keçirilmiş (11-13 sentyabr) "Əməklə təmin edilmiş regionlarda əmək ehtiyatlarından istifadənin yaxşılaşdırılması"na həsr edilmiş elmi-praktik konfransda iştirak edən azərbaycanlı alim, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov orada "Azərbaycan SSR-də əhalinin səmərəli məşğulluğunun təmin edilməsi problemləri" mövzusunda məruzə etmişdir. O, bu məruzəni iqtisadçı alimlər R.A.İbaydullayev, S.Bəyxocayev və O.A.Osipov ilə birlikdə yazmışdılar [507, s.22, 190].

1984-cü ildə Azərbaycanın görkəmli şərqşünas alimi, akademik Z.M.Bünyadovun Özbəkistanın Xarəzmşahlar dövlətinin tarixindən bəhs edən "XVII əsr Osmanlı tarixçisi İbrahim Əfəndi Peçəvinin Xarəzmşahlar tarixi haqqında məlumat" məqaləsi Azərbaycan SSR EA-nın "Xəbərlər"i (tarix, fəlsəfə və hüquq seriyası) jurnalında çap olunmuşdu [611, s.52-62].

1985-ci ildə Daşkənddə keçirilmiş SSRİ xalq təhsili üzrə Dövlət Komitəsinin avtomatika və telemexanikaya dair Ümumittifaq elmi-metodiki konfransında Azərbaycan Dövlət Neft Akademiyasının avtomatika, telemexanika və elektronika kafedrasının professoru, texnika elmləri doktoru, Əməkdar elm və texnika xadimi, SSRİ Dövlət Mükafatı laureatı İ.Ə.Nəbiyev iştirak etmiş və məruzəsində əldə etdiyi elmi nailiyyətlərlə konfrans iştirakçılarını məlumatlandırmışdır [318, s.23].

Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin 1985-ci ildə Daşkənddə keçirilmiş VII qurultayında (9-13 sentyabr) iştirak edən kənd təsərrüfatı elmləri doktoru, professor, Azərbaycan

SSR EA-nın akademiki H.Ə.Əliyev "Böyük Qafqazın meşə torpaqlarının təkamülü" (H.A.Salamov ilə birgə yazdıqları) [289, s.14, 49], biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədov "Azərbaycan torpaqlarının aqroistehsalat qruplaşması və münbitlik modeli" [350, s.98, 161] mövzularında məruzələr etmişlər.

Torpaqşünasların Daşkənd qurultayının iştirakçısı, kənd təsərrüfatı elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, Azərbaycan Torpaqşünaslıq Cəmiyyətinin sədr müavini M.P.Babayev qurultayda Azərbaycandan Ümumittifaq Torpaqşünaslıq Cəmiyyəti Rəyasət Heyətinə üzv seçilmişdir [379, s.14].

Yenə həmin ildə özbək alimi B.M.Əhmədovun Daşkənddə "Fan" nəşriyyatı tərəfindən "Orta Asiyanın XVII-XVIII əsrlər tarixi və coğrafi ədəbiyyatı. Yazılı abidələr" kitabı çap olunmuşdu. Kitabı yüksək dəyərləndirən Azərbaycan alimi, akademik Z.M.Bünyadov eyni adlı resenziya yazmışdı [610, s.129-131].

1986-cı ildə görkəmli şərqşünas alim, Azərbaycan SSR EA-nın akademiki Z.M.Bünyadovun Moskvanın "Nauka" nəşriyyatı tərəfindən 4800 nüsxə tirajla Özbəkistanın Xarəzmşahlar dövlətinin tarixindən bəhs edən "Xarəzmşahlar-Anuştiginlər dövləti: 1097-1231" kitabı çap olunmuşdu [608].

Həmin ildə Özbəkistanda olan Z.M.Bünyadov haqqında M.Kuşmakovun özbək dilində "Özbəkistan ədəbiyyatı və sənəti" qəzetində "Quliston mexmoni" (1986, 31 oktyabr) və "Quliston" jurnalında "Kup yillik i jod maxsumi" (1986, № 9, s.29) məqalələri çap olunmuşdu [575, s.42, 78].

1986-cı il noyabr ayının 28-29-da Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) "Azərbaycan onomastikası problemlərinə dair" I elmi-praktik konfrans keçirilmişdir. Konfrans Azərbaycan dilçiliyi, eyni zamanda türkologiya tarixində onomastika məsələlərinə həsr olunmuş ilk konfrans idi. Bu tədbirə tanınmış dilçilərlə yanaşı, tarixçi və coğrafiyaşünas alimlər də qatılmışdı. Onlar təkcə Azərbaycanın deyil, eyni zamanda, Rusiya, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Gürcüstan kimi ölkələrin nüfuzlu elm adamları idi [522, s.166].

Konfrans bütün parametrlərinə görə milli, eyni zamanda ümumtürk səciyyəli idi. Onun çap olunmuş materialları Azərbaycan dilçiliyi tarixində çox əhəmiyyətli yer tutur. 142 məqalədən ibarət olan bu konfrans materialları antroponimika, etnonimika, toponimika, hidronimika, zoonimika, poetik onomastika və digər onomastik problemlər adlı bölmələrdə yerləşdirilməklə, 1987-ci ildə ayrıca kitab şəklində çap olunmuşdur.

Konfransda E.Beqmatov (Özbəkistan), T.Januzakov (Qazaxıstan) kimi tanınmış alimlərin iştirakı və çıxışları maraqla qarşılanmışdır [522, s.168-170].

Kitabda verilmiş “Azərbaycan onomastikasının tədqiqi vəziyyəti və dilçiliyin vəzifələri” (A.Qurbanov), “Folklorda işlənən şəxs adlarının poetik xüsusiyyətləri” (Q.Mustafayeva), “Bədii ədəbiyyatda xüsusi adların komik təbiəti” (Q.Kazımov), “Nizaminin əsərlərində etnik adlar” (Ə.Şükürov) məqalələri və eləcə də, “Etnonimika” bölməsindəki xalqımızın etnogenezində xüsusi rol oynamış qamər, “Kimmer”, maq, qıpçaq, təklə, tulus, qacar, kəngərli, şatırlar və b. etnonimlər (tayfa adları) barədə daha ətraflı məlumatlar verən məqalələr də maraq kəsb etməklə, aktuallıqları ilə seçilirdilər [522, s.171-172].

1986-cı ildə Daşkənddə keçirilən XXIX Beynəlxalq Altayşünaslıq konfransı elmi baxımdan böyük aktuallıq kəsb edirdi. Burada səslənən məruzələr böyük Altay dünyasının mənəvi aləmini özündə əks etdirirdi. Konfransda Azərbaycanın görkəmli dilçi alimi, filologiya elmləri doktoru, professor A.M.Qurbanov maraqlı məruzə ilə çıxış etmişdir [4, s.11].

80-ci illərdə Özbəkistanda tibb üzrə elmi kadrların hazırlanmasında Azərbaycan elmi müəssisələri öz köməyini əsirgəmirdi. 1986-cı il yanvarın 6-da Daşkənd Dövlət Tibb İnstitutunda dissertant A.S.Afolayyan “Renal xərçəng və klinik əhəmiyyəti olan xəstələrdə ambolizasiya sonrası endotoxemiyanın dəyərlənməsi” mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi almışdı. Onun dissertasiyasına aparıcı elmi müəssisə kimi Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu müsbət rəy vermişdi [594, s.1-2].

1986-cı ilin iyulunda Özbəkistan SSR Daşkənd Dövlət Tibb İnstitutunun əməkdaşı V.A.Sadıkova həmin institutun Müdafiə Şurasında "Anemiya ilə hamilə qadınlarda fəaliyyətin qarşısının alınması barədə" mövzusunda uğurla namizədlik dissertasiyası müdafiə etmişdi.

Dissertasiya Ə.Əliyev adına ADHTİ və H.A.Semaşka adına Moskva Tibbi Stomotologiya İnstitutunda yerinə yetirilmişdi.

V.A.Sadıkovanın elmi rəhbəri tibb elmləri doktoru, professor L.N.Vasilevski, rəsmi opponentləri tibb elmləri doktoru, professor A.A.Qədirova və tibb elmləri doktoru, professor M.Ə.Ömərov idilər [679, s.1-2].

1987-ci ildə Daşkənd şəhərində "Məlumat ölçmə sistemləri – 87" adlı Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransa dəvət olunmuş tanınmış Azərbaycan alimi texnika elmləri doktoru, professor İ.Ə.Nəbiyev orada R.Ə.Quliyev ilə birgə yazdıqları "Torpaq nəmliyinə nəzarət üçün Məlumat Ölçmə Sistemləri (MÖS)" mövzusunda məruzə etmişdir [318, s.52].

Tanınmış şərqşünas alim, Azərbaycan SSR EA-nın akademiki Z.M.Bünyadovun 1987-ci ildə Özbəkistanda özbək dilində "Gülüstan" jurnalında "Yaşamaq məqsədi" məqaləsi (1987, №1, s.13) çap olunmuşdu [575, s.45].

Oktyabr inqilabının 70 illiyi münasibətilə 1987-ci ildə Özbəkistanın Gülüstan şəhərində keçirilmiş "Onomastikanın aktual məsələləri" mövzusundakı elmi-nəzəri konfransda iştirak edən Azərbaycanın tanınmış dilçi-alimlərindən, filologiya elmləri doktoru, professor N.M.Xudiyev orada "Türk dillərində xüsusi adların tipologiyası (Azərbaycan və özbək dillərinin materialları əsasında)" [427, s.197-198] və filologiya elmləri namizədi A.M.Paşayev "Qədim türk və ərəb ad sistemləri haqqında" [53, s.17] mövzularında məruzələr etmişdilər.

1987-ci ildə "Özbəkistanda ictimai elmlər" məcmuəsində (1987, №2, s.63-65) tanınmış şərqşünas alim, akademik Z.M.Bünyadovun "Xarəzmşahlar-Anuştiginlər dövləti (1097-1231)" kitabı haqqında B.Əhmədov və A.Əhmədovun birgə imzası ilə resenziya çap olunmuşdu. Resenziyada kitabın elmi əhə-

miyyəti yüksək dəyərləndirilir və özbək tarixi üçün qiymətli töhvə hesab olunurdu [575, s.42].

1988-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda iki elmi konfrans - aprelin 15-16-da Azərbaycan onomastikası problemlərinə həsr olunmuş II Respublika elmi-nəzəri [434, s.4] və noyabrın 25-26-da "Azərbaycan terminologiyası problemləri" mövzusunda Respublika elmi-praktik konfransları keçirilmişdir [522, s.204]. Hər iki konfransda Özbəkistandan gəlmiş mütəxəssislər – dilçi alimlər iştirak etmişdir.

1988-ci ildə akademik Z.M.Bünyadovun Özbəkistanla elmi və ictimai fəaliyyət sahəsindəki əlaqələri daha da genişlənmişdir. O, 1988-ci ilin mayında Özbəkistan SSR-də Aral dənizinin xilasetmə komitəsinin tərkibinə daxil edilmişdir. Yenə həmin ildə Urgənc (Xorəzm) şəhərinin 340 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq şəhərin tarixi və ədəbiyyatının öyrənilməsi sahəsində xidmətlərinə və Aral dənizinin ekoloji probleminin həll edilməsinə böyük kömək göstərdiyinə görə Z.M.Bünyadova yeni təsis olunmuş "Urgənc şəhərinin fəxri vətəndaşı" adı verilmişdir. Məhz bu fəxri adı ilk dəfə almaq şərəfi Z.M.Bünyadova nəsib olması, həm də Azərbaycan aliminə və elminə göstərilən böyük etimadın və hörmətin bariz nümunəsi idi [575, s.12].

Həmin ildə akademik Z.M.Bünyadovun Özbəkistanda "Özbəkistan ədəbiyyatı və sənəti" qəzetində özbək dilində "Təbiət məni gözləmir" (1988, 13 may), "Taşkentskaya pravda" qəzetində rus dilində "Təbiət və insan" (1988, 14 may), "Xarəzm həqiqəti" qəzetində özbək dilində "Bilikdən başladı vətən!" (1988, 3 sentyabr), "Xarəzm həqiqəti" qəzetində rus dilində "Akademik Bünyadov deyir" (1988, 29 sentyabr), yenə həmin qəzetdə rus dilində "Tarixdəki mərhələlər və bugünkü narahatlıqlar" (1988, 6 oktyabr), "Gülüstan" jurnalında özbək dilində "Biz səninləyik, Aral!" (1988, №3, s.11) məqalələri və Tbilisidə nəşr edilən "Qafqaz xalqları tarixinin məsələləri" toplusunda "Xarəzmşahlar dövlətinin torpaq mülkiyyəti formaları, vergilər və ödənişlər" məqaləsi (Tbilisi, Metsiniereba, 1988, s.147-166) çap olunmuşdu [575, s.45-49, 78].

XX əsrin 80-ci illərində müasir Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, əməkdar elm və maarif xadimi, filologiya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın həqiqi üzvü Kamal Abdulla Şaiq oğlu Talıbzadənin adı Özbəkistanda çoxlarına yaxşı tanış idi. 1989-cu ildə məşhur özbək ədəbiyyatşünası Ə.Haitmetov K.A.Talıbzadə haqqında səmimiyyətlə yazmışdı: "Tənqid tarixi və nəzəriyyəsinə dair sanballı əsərləri Kamal Talıbzadəyə xüsusi şöhrət gətirdi. Onun "XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidi", "Azərbaycan ədəbi tənqidinin tarixi" kimi monoqrafiyaları sovet ədəbiyyatşünaslığında yenilik idi... "Azərbaycan ədəbi tənqidinin tarixi" – alimin uzun illər apardığı axtarışların səmərəli nəticəsi idi. Mən öz təcrübəmdən bilirəm ki, tənqid tarixindən belə bir əsəri yazmaq necə çətin və mürəkkəbdir. Mənim fikrimcə belə bir əsəri yaratmaq üçün Kamal Talıbzadə öz üzərinə böyük bir şöbənin zəhmətini götürmüş və bu vəzifənin öhdəsindən şərəflə gəlmişdir... Onu da deyim ki, Kamal Talıbzadənin əsəri Sovet İttifaqında tənqid tarixinə dair yazılan işlərdən daha məqsədyönlü və bitmiş, mükəmməl təsir bağışlayır" [322, s.64].

1989-cu ildə Özbəkistanın Karşi şəhərində Özbəkistan onomastikası problemlərinə həsr olunmuş elmi-nəzəri konfrans keçirilmişdir. Konfransda onomastika sahəsində tədqiqatlar aparan Azərbaycanın dilçi alimi A.M.Paşayev "Antroponimik birləşmələr haqqında" mövzusunda məruzə ilə çıxış etmişdir [53, s.17, 24].

Akademik Z.M.Bünyadovun özbək xalqının tarixindən bəhs edən, U.Mustafayevlə birgə yazdıqları "Orta Asiya su işçilərinin məhkəmə prosesi" məqalələri 1989-cu ildə Azərbaycan SSR EA-nın "Xəbərləri" (tarix, fəlsəfə və hüquq) jurnalında çap olunmuşdu [609, s.113-116]. Bu məqalə elmi baxımdan əhəmiyyətli göründüyü üçün elə həmin ildə də özbək dilinə çevrilərək, "Orta Asiya alt təhlükəsizlik işçilərinin məhkəməsi" adı ilə "Xarəzm həqiqəti" qəzetində (1989, 28 aprel) çap olunmuşdu. Həmin ilin oktyabrında bu qəzet yenə özbək dilində akademik Z.M.Bünyadovun " Xarəzm şəhərinin tərifi. Maraq bucağı" adlı məqaləsini (1989, 14 oktyabr) da çap etmişdi [575, s.49].

1990-cı ildə Daşkənddə Orta Asiya və Qazaxıstan respublikalarının kimyaçı alimlərinin kimyəvi reaktivlərə dair 3-cü regional müşavirəsində Azərbaycan alimi, kimya elmləri doktoru professor S.F.Qarayev orada "Tsikloaminalkinollar və onların mikroblara qarşı xassələri" mövzusunda məruzə ilə çıxış etmişdir [494, s.11, 85].

Azərbaycanın tanınmış türkoloq alimi, filologiya elmləri doktoru, professor A.A.Axundov 1990-cı ilin oktyabr ayında Özbəkistanın Nukus şəhərində keçirilən "Qıpçaq dilləri: tarix və müasir dövr" adlı Ümumittifaq elmi konfransında "Bir daha Azərbaycan dilində qıpçaq ünsürləri haqqında" mövzusunda məruzə etmiş və "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "Qıpçaqlar dünən və bugün" (1990, 16 noyabr) məqaləsində konfransla bağlı fikir və mülahizələrini oxucularla bölüşmüşdür [6, s.19, 84].

Konfransda Azərbaycandan iştirak edən digər nümayəndə, Bakı Dövlət Universitetinin türkologiya kafedrasının müdiri, professor Tofiq Hacıyevin "-durur-turur affiksinin mənşəyi haqqında" mövzusundakı məruzəsi də böyük maraqla qarşılanmışdır [8, s.2, 7].

1990-cı ildə Daşkənddə nəşr olunan "Şərq ulduzu" jurnalında Azərbaycan SSR EA-nın akademiki Ziya Bünyadovun "Orta Asiya mirablarının məhkəməsi" ("Urta Osie mirablarininq sudi") məqaləsi özbək dilində (1990, №3, s.187-190) çap edilmişdi [575, s.53].

Özbəkistanda elmi kadrların yetişməsi sahəsində Azərbaycan alimləri öz səylərini əsirgəmirdilər. 1990-cı ildə özbək alimi R.S.Masimov Türkmənistan SSR materialları əsasında yazdığı "Ticarətdə ixtisaslı kadrların təkrar istehsalı problemləri" mövzusunda Daşkənddə dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdı. Onun elmi rəhbəri Azərbaycanın tanınmış iqtisadçı alimi, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov idi [507, s.238].

1991-ci il iyunun 14-dən 17-dək Bakıda Xəzəryanı region respublikalarının Xəzər dənizinin problemlərinə dair I Beynəlxalq konfransı keçirilmişdir. Konfransda Qazaxıstan, Özbəkis-

tan, Azərbaycan, Türkmənistan və Rusiya Federasiyasının nümayəndələri iştirak edirdilər. Görkəmli alimlər və təbiəti mühafizə idarələri rəhbərlərinin daxil olduğu konfrans iştirakçılarından bir qrupu ilə iyunun 14-də Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun görüşü oldu. İşgüzar fikir mübadiləsi şəraitində keçən görüşdə iştirak edən nümayəndələr arasında Özbəkistan SSR Dövlət Təbiəti Mühafizə Komitəsi sədrinin müavini Ş.X.İslamov və Qaraqalpaq MSSR Dövlət Təbiəti Mühafizə Komitəsinin sədri U.X.Matkərimov da var idi [281, s.1].

Xəzərin ekologiyasına dair bu mötəbər elmi məclisdə dəniz ekologiyası sahəsində çalışan alimlərin və mütəxəssislərin, ictimai təşkilat nümayəndələrinin 50-yə qədər məruzəsi, çıxışı və məlumatı dinlənilmiş, bunların hamısı 6 ümumi iclas gedişində ətraflı müzakirə edilmişdir. İclaslardan biri iyunun 15-də açıq dənizdə dirəklər üzərində salınmış mədən-şəhərə-Neft daşlarına gedən teploxodda keçirilmişdir. Burada konfransın iştirakçıları sovet sənədli kino ustalarının dəniz ehtiyatlarının amansız istismarının Xəzərə vurmuş olduğu zərərdən, Volqadan axan sənaye çirkablarının onu çirkləndirməsindən bəhs edən filmlərə baxmışlar [317, s.1].

Konfrans iştirakçıları iyunun 16-da Azərbaycanın Xaçmaz rayonunda Yalama-Nabran zonasının sahil hissəsi ilə tanış olmuş və iyunun 17-də Azərbaycan EA-nın iclas salonunun qonşuluğunda düzəldilmiş sərgi-foto ittihama baxmışlar. Sonda Xəzərin problemlərinin aradan qaldırılmasına dair kompleks proqram hazırlanması barəsində təkliflər paketi qəbul edilmişdir [317, s.1].

XX əsrin 80-ci illərində Azərbaycan-özbək elmi əlaqələrinin inkişafında elmi jurnal, elmi konfrans materialları və elmi kitabların mübadiləsinin də mühüm əhəmiyyəti olmuşdur. Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası Akademiyanın “Məruzələr”i və “Xəbərləri”nin bütün seriyalarını Özbəkistan SSR EA-nın MEK-nə, Qaraqalpaq MSSR-in Elmi Kitabxanasına göndərdiyi kimi, onlar da qarşılıqlı şəkildə həmin münasibəti təkraralamışdılar. Çoxlu sayda kitab hədiyyələri göndərilmişdi. 80-cı illərin sonlarında hər iki respublikada ictimai gərginliyin

artması, mərkəzdənqaçma meylinin güclənməsi, "parçala və hökm sür!" siyasətinə rəvac verən Sovetlər İttifaqının milli münaqişələri dərinləşdirməsi, ölkədə birliyi saxlamaq əvəzinə daha da dağıtdığından, bütün əlaqələrlə bərabər, elmi əlaqələr də pozulur və getdikcə məhdudlaşdırılırdı. Əlbəttə, Sovetlər dönəmində "mərkəz"in iradəsi və istəyi ilə yaradılmış elmi əlaqələr heç də ardıcıl və sistematik olmamış, ən başlıcası isə Azərbaycan elminin tələbatı ödənməmiş və böyük potensialından tam istifadə edilməmişdir.

Azərbaycanın Özbəkistanla ikitərəfli və birbaşa münasibətləri hələ SSRİ-nin yaşadığı vaxtdan, XX əsrin 80-ci illərinin sonundan başlamışdır. Bu prosesi həyata keçirmək məqsədi ilə həmin respublikalar bir-birlərinə rəsmi nümayəndə heyətləri də göndərmişdilər. "Azərbaycanın ilk nümayəndə heyəti 1990-cı ilin oktyabr ayında Özbəkistana səfərə gəlmişdir. Səfər çərçivəsində Azərbaycan və Özbəkistan rəsmilərinin danışıqları zamanı 1991-1995-ci illərdə və ondan sonrakı dövrdə iki respublika arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında hökümətlərarası müqavilə imzalanmışdır. Bu müqavilə iki müttəfiq respublikanın qarşılıqlı fayda götürmək prinsipinə əsaslanmaqla, SSRİ-nin dağılması ərəfəsində münasibətlərin keyfiyyətcə tam yeni bir formaya keçdiyini bildirirdi" [201, s.77-78].

Azərbaycan və Özbəkistan Respublikaları dünya birliyi tərəfindən bərabərhüquqlu subyekt kimi tanındıqdan sonra onlar elmi idarə və təşkilatlarının gələcək fəaliyyətlərinə dair protokollar imzaladılar. Bu baxımdan, iki respublika arasında 1992-ci il aprelin 17-də bağlanmış "1992-1996-cı illərdə Azərbaycan Elmlər Akademiyası və Özbəkistan Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında" sazişin böyük əhəmiyyəti var idi [201, s.285].

Bu gün iki respublika arasında elmi əlaqələrin genişləndirilməsi onların müstəqil dövlətçiliklərinin möhkəmləndirilməsi və iqtisadiyyatlarının gücləndirilməsi baxımından çox vacibdir. Çünki güclü iqtisadiyyat elmə əsaslanan və ona söykənən iqtisadiyyatdır.

## IV fəsil

## Azərbaycan-Tacikistan elmi əlaqələri

Azərbaycanın Tacikistanla elmi-mədəni əlaqələri qədim bir tarixə söykənir. Bu gün bu çoxəsrlik əlaqələrin araşdırılması və öyrənilməsi müstəqil dövlətçiliyimizin inkişafı və sarsılmazlığı baxımından olduqca vacib və əhəmiyyətlidir. İki xalq arasındakı dostluq telləri ədəbiyyat, məişət, mədəniyyət yaxınlığı və qədim sənət abidələri əsasında yaşayaraq zaman-zaman xeyli möhkəmlənmişdir.

2007-ci il avqustun 13-14-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycana rəsmi səfəri zamanı tacik və Azərbaycan xalqları arasındakı dostluğa yüksək önəm verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Biz Tacikistanı özümüzə dost, qardaş dövlət hesab edirik. Xalqlarımız arasında çoxəsrlik dostluq və qardaşlıq münasibətləri ənənələri mövcuddur və biz bu ənənələri qoruyub saxlayır, artırırıq, davam etdirmək əzmindəyik.

Biz beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı əlaqələrindən çox razıyıq, biz həmişə bir-birimizi dəstəkləyirik, bir-birimizin səsinə səs verir, onun tərəfində çıxış edirik. Bu da bizim münasibətlərin dostluq xarakterini vurğulayır" [63, s.2].

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon isə səfər günlərində cavab nitqində söyləmişdir: "Biz bir-birinə rəğbət hissləri bəsləyən ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri sahəsində toplanmış təcrübəni çox qiymətli hesab edirik və bu münasibətləri bizim gələcək nəsillər üçün qoruyub saxlamaq və genişləndirmək əzmindəyik.

Sevindirici haldır ki, bu gün ölkələrimizin müstəqil inkişaf etdiyi yeni şəraitdə xalqlarımız arasında qarşılıqlı dostluq, rəğbət və etimad ənənələri öz əhəmiyyətini itirməmişdir və keyfiyyətcə yeni əsasda məntiqi davamını tapmışdır.

Bizim münasibətlər kompleksinin bugünkü müzakirəsi hər iki tərəfin qarşılıqlı etimadının yüksək səviyyəsinə və praktiki olaraq bütün istiqamətlərdə əməkdaşlığı keyfiyyətcə yaxşılaşdırmağa hazır olmasına dəlalət edir. Biz əminik ki, bu birgə səylər ikitərəfli münasibətlərə güclü təkan verəcək və dövlətlərimizin əsas mənafelərinə uyğun olan qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş üfüqlər açacaqdır" [217, s.114-115].

Azərbaycanın Tacikistanla mədəni əlaqələrinin inkişafında elmi əlaqələrin də öz yeri vardır. İctimai şüurun mühüm formalarından biri olan elm insanın əməli və nəzəri fəaliyyətinin başlıca sahəsinə çevrilmişdir. Onun cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri əvəzsizdir. O, həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir [39, s.40].

Vaxtilə böyük ədib və ictimai xadim M.F.Axundov da elmin əhəmiyyətini yüksək dəyərləndirərək: "Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətlərini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitədir" [404, s.108-109] yazması da, heç də təsadüfi deyildir. Bu ifadələr öz dövrünün böyük və uzaqgörən şəxsiyyətinin insanlara elmli olmaq və elmlə dünyaya düzgün yanaşma tərzi seçməsini tövsiyyə etməsi idi.

Elm bütün tərəqqi və inkişafın təməl daşıdır. Buna görə də ona böyük diqqət verilməsi, qayğı göstərilməsi və həmişə yüksək dəyərləndirilməsi də, heç də təsadüfi deyil. Alimin vətəni varsa, elmin vətəni yoxdur, çünki onun nəticələri təkcə bir ölkə hüdudlarına sığınıb qalmır. O, ümumbəşəri mahiyyət daşıyır. Elmi əlaqələr alimləri birləşdirdiyi kimi, öz faydalılığı ilə dövlətləri, xalqları da yaxınlaşdırır. Elə elmi problemlər vardır ki, onlar bütün ölkələrin və xalqların taleyi və gələcəyi ilə bağlıdır. Buna görə də birgə elmi tədqiqatların aparılması dünyanın və insanlığın tələbidir.

XX əsrin 80-ci illərinin əvvəllərində Azərbaycanda "kütlələrin beynəlmiləlçilik şüurunun formalaşdırılması, onların sosia-

list beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi Azərbaycan Kommunist Partiyasının ideoloji və təşkilatçılıq işində əsas yerlərdən birini tutur”du [108, s.3].

Azərbaycan KP MK-nın 1981-ci il 4 noyabr tarixli “Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında” qərarı beynəlmiləl əlaqələrin gücləndirilməsi istiqamətində görüləcək işləri genişləndirdi. Qərarda respublikamızda bərqərar olmuş beynəlmiləlçilik, dostluq və qardaşlıq şəraitinin bütün müvəffəqiyyət və nailiyyətlərimizin başlıca amillərindən birinə çevrildiyi göstərilmişdir. Bu qərarda elmi əlaqələrə beynəlmiləl tərbiyənin, bir vasitəsi, tərkib hissəsi kimi xüsusi fikir verilmiş və onun daha da inkişaf etdirilməsi naminə “Təbiət elmləri, texniki iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etmək” irəli sürülmüşdür [108, s.16].

Tədqiq etdiyimiz dövrdə Azərbaycanın Tacikistanla elmi əlaqələrinin əhatə dairəsi geniş idi. Bu əlaqələr elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi-texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozim və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və digər formalarda özünü daha çox göstərirdi [480, s.126].

## 4.1. 1920-1945-ci illərdə elmi əlaqələr

XX əsrin 20-30-cu illərindən inkişaf etməyə başlayan iqtisadi əlaqələr Azərbaycan-tacik elmi əlaqələrinə də öz müsbət təsirini göstərirdi. 1924-cü il oktyabrın 14-də Özbəkistan SSR tərkibində Tacikistan MSSR kimi təşkil edilmiş, 1929-cu il oktyabrın 16-da keçirilən III Ümumtacikistan Fövqəladə Sovetlər qurultayında Tacikistan MSSR-in Tacikistan SSR-ə çevrilməsi haqqında Bəyannamə qəbul olunmuşdur. SSRİ MİK 1929-cu il dekabrın 5-də bu qərarı təsdiq

etmiş və Tacikistan müttəfiq respublika hüququnda SSRİ tərkibinə daxil olmuşdur [43, s.170-171].

XX əsrin 20-ci illərindən etibarən Tacikistanın təbii sərvətləri və istehsal qüvvələri ardıcıl və sistemli şəkildə öyrənilməyə başlanmışdır. 20-ci illərdə Düşənbə hidrometeorologiya stansiyası, Ümumittifaq Bitkiçilik İnstitutunun təcrübə stansiyası və s. yaradılmışdı. 30-cu illərdə Varzov dağ-botanika, Kurqantəpə pambıq-yonca seleksiya-təcrübə stansiyaları və Düşənbədə parazitologiya stansiyası, fiziki üsullarla müalicə, vərəm və s. institutlar təsis edilmişdi. 1941-ci ildə SSRİ EA-nın Tacikistan filialı yaradılmışdı. Müharibə illərində Tacikistana köçürülmüş elmi idarə və alimlərin fəaliyyəti elmin inkişafına öz müsbət təsirini göstərməkdəydi. Nəticədə 14 aprel 1951-ci ildə SSRİ Elmlər Akademiyasının Tacik bölməsi əsasında Tacikistan SSR EA təsis olunmuşdu [43, s.173]. Onun ilk prezidenti (1951-1954) görkəmli tacik sovet yazıçısı, ictimai xadimi və alimi, İkinci dərəcəli Stalin mükafatı laureatı (1950) Sədrəddin Səid-Murodzoda (Sədrəddin Ayni-1878-1954) olmuşdur [36, s.196].

Azərbaycanın Özbəkistan və Tacikistanla elmi-mədəni əlaqələrində görkəmli azərbaycanlı jurnalist, pedaqoq, ədəbiyyatşünas və ictimai xadim Seyid Rza Əlizadənin (1887-1945) mühüm rolu olmuşdur. O, 20-30-cu illərdə Mərkəzi Asiyada böyük nüfuz qazanmışdı. Onun "Səadət əsri", "İslam mədəniyyəti", "İslamın labüd qanunları", "Korrespondensiya", "Kosmos haqqında elm" və "Əlifba" əsərləri Lahorda fars dilində çap olunmuşdu. Ümumiyyətlə, 1923-1924-cü illərdə S.R.Əlizadənin 10 əsəri Lahorda çap olunmuşdu. Hazırda Pakistanın Lahor şəhərinin kitabxanasında S.R.Əlizadənin 33 kitabı saxlanılır. Həmin əsərlərin 13-ü orijinal və 20-si tərcümə kitablarıdır [680, s.30].

S.R.Əlizadənin çap etdirdiyi "Mədəniyyəti-İslam", "Əsri-Səadət" və b. dini kitabları təkcə Türküstanın deyil, İranın, Əfqanıstanın, Pakistanın, Hindistanın və digər ölkələrin mədrəsələrində uzun müddət dərs kitabları kimi tədris edilmişdir. O, 1924-cü ildə "Tacik dilinin qrammatikası" və oxu kitablarını, 1934-cü ildə  Azərbaycan dilinin lüğəti nümunəsində Sədrəddin Ayni ilə

birlikdə iki cilddən ibarət “Rus-tacik lüğəti” kitabını yazmışdı. 1924-1934-cü illər ərzində P.İvanovun “Coğrafiya”, A.Ankovun “Həndəsə”, S.Kiselyovun “Cəbr” “Botanika” və s. dərsliklərini rus dilindən tərcümə etmiş, özbək və tacik ümumtəhsil məktəbləri üçün “Əlifba”, “Coğrafiya”, “Tarix”, “Riyaziyyat”, “Həndəsə”, “Astranomiya” və “Ərəb dilinin qrammatikası” kitablarını yazmışdı [216, s.191].

“Özbəkistan müəllimi” qəzetinin 3 may 1989-cu il tarixli sayında özbək şairi Qulam Hüseyn İsmayılovun “Qəhrəmana abidə ucaltmalıyıqmı?” məqaləsi çap olunmuşdu. 1923-cü il dekabrın 29-da görkəmli maarifçi, alim, şərqşünas Seyid Rza Əlizadəyə “Maarifçilik qəhrəmanı” adı verilmişdi. Məqalədə deyilirdi ki, ona da o biri qəhrəmanlar kimi heykəl qoyaqmı?” Məqalədən təsirlənənən bir tacik oxucu müəllifin sualına cavab verərək yazırdı ki, mən bu suala biganə qala bilmərəm, “Mən özbək şairi Qulam Hüseyn İsmayılovun sualına cavab vermək istərdim: “Qəhrəmana abidə, abidə ucaldılsın.Və cavab verin: bəli və min dəfə də bəli!” [256, s.43].

Tacikistanda geniş şöhrət tapmış görkəmli tənqidçi, ədəbiyyatşünas alim, Şərif Hüseynzadə, tanınmış maarif xadimi A.Salihi, ilk kimyaçı V.Aşurov, ilk tacik rejissoru S.İsmaili, ilk tacik aktyoru S.Curabayev, ilk kino rejissoru K.Yarmətov və digər çoxlu şəxsiyyətlər Bakıda təhsil almışdılar [495, v.7; 330, s.3].

Görkəmli azərbaycanlı alim, geologiya-minerologiya elmləri doktoru, professor, SSRİ EA müxbir üzvü (1953) Ə.A.Əmiraslanov “1930-1938-ci illərdə Ural, Qazaxıstan, Orta Asiya, Zabaykalye və Qafqazdakı mis, qurğuşun, sink və qalay yataqlarında elmi-tədqiqat işləri aparmışdır” [39, s.203]. Alimin elmi-tədqiqatlarında Tacikistanın təbii sərvətlərinə də yer verilmiş və onlardan gələcəkdə nə dərəcədə istifadə olunmasının elmi səmərəsi də öz əksini tapmışdır.

1940-cı ildə görkəmli ədəbiyyatşünas alim H.Araslının N.Gəncəvi haqqında yazdığı “Azərbaycan ədəbiyyatının atası” adlı elmi məqaləsi Tacikistanın “Lenin yolu” jurnalının 7-ci sayında (s.19-20) tacik dilində çap olunmuşdu [283, s.161].

## 4.2. 1946-1960-cı illərdə elmi əlaqələr

Müharibə iqtisadi əlaqələri zəiflətdiyi kimi, elmi əlaqələrin genişlənməsinə də mane olmuşdu. Yalnız müharibədən sonra dinc həyata qayıdış, böyük bərpa və quruculuq işlərinin başlanması, elmin rolunun və ona göstərilən dövlət dəstəyinin artması da elmi əlaqələrin canlanmasına və inkişafına stimul yaratmışdı. 1951-ci il aprelin 14-də Tacikistan SSR EA-nın yaradılması da, dövlət dəstəyinin bariz nümunəsi idi.

1952-ci ildə Bakıda Azərbaycan EA-nın ictimai elmlər bölməsinin təşkilatçılığı ilə böyük tacik alimi Əbu Əli ibn Sinanın anadan olmasının 1000 illiyi münasibəti ilə elmi sessiya keçirilmişdir [192, v.27].

XX əsrin 50-ci illərində Qazaxıstan və Mərkəzi Asiya respublikalarında keçirilən elmi tədbirlərdə Azərbaycan və tacik alimlərinin birgə iştirakı və tez-tez görüşləri də iki ölkə arasında elmi əlaqələrin inkişafına öz müsbət təsirini göstərirdi.

Böyük Türkmən Kanalının çəkilməsi ilə əlaqədar Qazaxıstan və Mərkəzi Asiyanın bioloji aləmi və kənd təsərrüfatında baş verəcək dəyişikliklərin nəticələrini müzakirə etmək üçün 1952-ci il noyabrın 20-dən dekabrın 1-dək Daşkənddə elmi sessiya keçirilmişdir. Sessiyanı SSRİ EA və Özbəkistan EA-nın biologiya və kənd təsərrüfatı bölmələri təşkil etmişdilər. Sessiyada Özbəkistan, Türkmənistan, Tacikistan, Qazaxıstan, Azərbaycan SSR Elmlər Akademiyaları və SSR EA-nın Qırğızıstan filialının biologiya və kənd təsərrüfatı bölmələri tərəfindən göndərilmiş alimlər iştirak edirdilər. Sessiyanın işi aşağıdakı 7 bölmə üzərində qurulmuşdu: 1. Torpaq, süni suvarma və meliorasiya. 2. Bitkilər aləmi və onlardan istifadə. 3. Pambıqçılıq. 4. Meyvə və subtropik bitkilər. 5. Heyvandarlıq və yem təchizatı. 6. Mərkəzi Asiyada ziyanlı və faydalı heyvanlar. 7. Hidrologiya və ixtiologiya [134, v.61].

Sessiyanın bütün bölmələrində Azərbaycan və tacik alimləri maraqlı və yaddaqalan məruzələrlə çıxış etmiş, elmi müzakirələrdə fikir və mülahizələrini bölüşdürmüşdülər.

1953-cü ildə Aşqabadda Türkmənistan SSR EA-nın təşəbbüsü və təşkilatçılığı ilə keçirilmiş (12-17 yanvar) "Türkmənistanda pambığın məhsuldarlığının yüksəldilməsi məsələləri" mövzusundakı elmi sessiyada 3 bölmə ətrafında ("Ümumi məsələlər"-9, "Suvarma və meliorasiya"-7, "Aqrotexnika və mexanizasiya"-12) 28 məruzə olunmuşdur. Məruzəçilərdən 11 nəfəri Türkmənistan, 5-i Moskva, 3-ü Özbəkistan, 2-si Ukrayna, 2-si Tacikistan, 1-i Moldova və 4-ü isə Azərbaycandan gəlmiş nümayəndələr idi [454, v.166-168].

Azərbaycan SSR-dən elmi sessiyada iştirak edən Azərbaycan SSR Pambıqçılıq naziri A.R.Xəlilov "Azərbaycanda yüksək pambıq məhsulu əldə etmək təcrübəsi", Azərbaycan SSR EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, professor V.R.Volobuyev və həmin institutun elmi işlər üzrə direktor müavini M.E.Salayev "Azərbaycanın şorakət torpaqlarının ərimәsi üsulları", geologiya-minerologiya elmləri namizədi T.M.Vəlizadə "Pambığın növləri barədə" mövzularında və kənd təsərrüfatı elmləri doktoru, professor D.M.Hüseynov əlavə məsələlər ətrafında məruzə və çıxışlar etmişlər [454, v.166-167].

1955-ci il yanvarın 12-də Özbəkistan SSR EA-nın təşəbbüsü və təşkilatçılığı ilə ölkədə pambıqçılığı inkişaf etdirməklə məşğul olan elmi təşkilatların fəaliyyətini əlaqələndirmək məqsədilə Daşkənddə Respublikalararası müşavirə keçirilmişdir. Müşavirədə Özbəkistan, Tacikistan, Azərbaycan, Türkmənistan, Qazaxıstan və Qırğızıstanın elmi idarələrinin nümayəndələri iştirak etmişdirlər [453, s.1].

Ümumi və bölmə iclaslarında "alimlər 1955-ci ilin elmi-tədqiqat işlərinin planlarını, habelə pambıqçılığın mexanikləşdirilməsi və elektrikləşdirilməsi, hidrotexnika, suvarma və meliorasiya məsələlərinə, yüksək məhsul əldə etmək üçün elmi əsas yaradılması məsələlərinə dair elmi-tədqiqat nəticələrinin tətbiq edilməsi planlarını hərtərəfli müzakirə etmişlər" [453, s.1]. Alimlər geniş rəy mübadiləsi nəticəsində elmi idarələrin fəaliyyətinin yaxşılaşdırılmasına, onların istehsalatla əlaqəsinin gücləndirilməsinə kömək edə biləcək bir sıra tövsiyələr hazırlamışlar.

Müşavirənin yekunu olaraq alimlər "pambığın məhsuldarlığının artırılması, ən yeni aqrotexnika üsullarının, xüsusən kvadrat yuva və darcərgəli əkin üsullarının kənd təsərrüfatında tezliklə tətbiq edilməsi, pambıqçılığın kompleksli mexanikləşdirilməsinin tezliklə başa çatdırılması ilə əlaqədar olan elmi-tədqiqat işlərini yaxşılaşdırmağı lazım hesab etmişdir" [453, s.1].

Alimlərin elmi ezamiyyətləri də elmi əlaqələrin inkişafına öz güclü təsirini göstərirdi. Belə ki, elmi ezamiyyətlər yeni tanışlıqlar yaratmaqla bərabər, təcrübə toplanmasına, yeni elmi fikirlərin formalaşmasına, ciddi və əhəmiyyətli faktlara söykənməklə, uğurlu nəticələrə nail olunmasına səbəb olurdu.1955-ci il fevral ayının 10-dan 19-dək Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun pataloji fiziologiya kafedrasının müdiri, professor M.N.Mirsəlimov Tacikistanın paytaxtı Stalinabad şəhərində (Tacikistan SSR Ali Soveti Rəyasət Heyətinin 1961-ci il 11 noyabr tarixli Fərmanı ilə Stalinabad Düşənbə adlandırılmışdır) [521, s.1] elmi ezamiyyətdə olmuşdur. O, respublikanın bir sıra xəstəxanalarında, elmi-tədqiqat müəssisələrində olmuş və institutlarının, rəhbəri olduğu kafedranın əməkdaşlarının əldə etdiyi nailiyyətlərlə həmkarlarını tanış etmişdir [185, v.25].

1956-cı ildə Daşkənddə "Pambıq lifinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsində yeni üsulların axtarışı" mövzusunda kənd təsərrüfatı institutları arası elmi konfrans (15-20 may) keçirilmişdir. Konfransda 7 bölmə (1.Torpaq, süni suvarma və meliorasiya. 2. Bitkilər aləmi və onlardan istifadə. 3. Pambıqçılıq. 4. Meyvə və subtropik bitkilər. 5. Heyvandarlıq və yem təchizatı. 6. Mərkəzi Asiyada ziyanlı və faydalı heyvanlar. 7. Hidrologiya və ixtiologiya) üzrə 32 məruzə dinlənilmişdir. Məruzəçilərdən 14-ü Özbəkistan, 8-i Moskva, 4-ü Azərbaycan, 3-ü Tacikistan və 1-i Türkmənistan alimləri idi [452, v.25].

Elmi konfransda Tacikistan SSR EA-nın professoru, biologiya elmləri doktoru Y.D.Nagibin "Tacikistanda pambıq yetişdirilməsinin mütərəqqi metodları", Tacikistan Kənd

Təsərrüfatı İnstitutunun kənd təsərrüfatı elmləri namizədləri, dosentləri M.D.Mina "Pambığın məhsuldarlığının artması ehtimalı" və A.M.Meşeryakov "Pambıqçılıqda zərərvericilərə qarşı gübrələrin tətbiqi" mövzularında məruzə etmişlər [452, v.65].

Azərbaycan alimlərindən – Azərbaycan SSR EA-nın müxbir üzvü, kənd təsərrüfatı elmlər doktoru, professor C.M.Hüseynovun "Pambığın məhsuldarlığının artırılmasında qalıq üzvi maddələrdən istifadə edilməsi", Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun əməkdaşı, kənd təsərrüfatı elmləri doktoru, professor N.İ.Malovun "Pambıq liflərinin keyfiyyətinin yaxşılaşdırılması və məhsuldarlığın artırılması üçün yeni üsullar", Azərbaycan EA-nın böyük elmi işçisi A.İ.Güləhmədovun "Pambığın məhsuldarlığının yüksəldilməsində mikrogübrələrdən istifadə edilməsi" və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun dosenti, kənd təsərrüfatı elmləri namizədi M.R.Qulubəyovun "Pambığın məhsuldarlığının yeni bioloji üsullarla yüksəldilməsi" mövzularındakı məruzələri maraqla qarşılanmış və yüksək dəyərləndirilmişdir [452, v.64].

1957-ci ildə Daşkənddə keçirilmiş (27 may-4 iyun) şərqşünasların I Ümumittifaq elmi konfransında iştirak edən 250 nümayəndədən 50-si Moskva və Leninqraddan, 50-si Özbəkistan SSR-dən, 25-i Azərbaycan SSR-dən, 17-si Türkmənistan SSR-dən, 25-i Qırğızıstan SSR-dən, 20-si Gürcüstan SSR-dən, 15-i Tacikistan SSR-dən, 12-si Qazaxıstan SSR-dən, 3-ü Ukrayna SSR-dən, 3-ü Tatarıstan MSSR-dən və hər birindən 2 nəfər olmaqla, 12 nəfər Başqırd MSSR, Kabardin MSSR, Buryat-Monqol MSSR-dən, Adıgey və Çərkəz muxtar vilayətindən gəlmişdilər [514, v.1-7].

6 bölmədən ("Şərq xalqlarının tarixi, iqtisadi və mədəni əlaqələri", "Şərq xalqlarının milli azadlıq mübarizəsi tarixi", "Şərq xalqlarının qədim və orta əsrlər tarixi, arxeologiya və etnoqrafiyası", "Şərq xalqlarının ədəbiyyatı", "Şərq dilləri", "Şərq xalqlarının əlyazma irsi") ibarət olan konfransın proqramına 105 məruzə daxil edilmişdi [514, v.14-43].

Şərqşünasların I Ümumittifaq elmi konfransında Tacikistan nümayəndələrini təmsil edən SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru, Tacikistan SSR EA-nın akademiki B.Q.Qafurov, Tacikistan SSR EA-nın akademikləri Niyazməhəmmədov, A.A.Semyonov, müxbir üzvü A.M.Mirzoyev və digər nüfuzlu alimlər var idi [514, v.14, 43].

Şərqşünasların I Ümumittifaq elmi konfransına Azərbaycan SSR-dən gedən 25 nəfərlik nümayəndə heyətinə Azərbaycan SSR EA-nın vitse-prezidenti akademik Ə.S.Sumbatzadə başçılıq edirdi [514, v.2].

Daşkənd elmi konfransında Azərbaycan SSR EA-nın vitse-prezidenti, akademik, Ə.S.Sumbatzadənin "Azərbaycan SSR-in keçmiş və müasir şərqşünaslığı", Azərbaycan SSR EA-nın akademiki Ə.Ə.Əlizadənin "Rəşid-əd Dinin "Cami-ət təvarix" əsəri Ön Asiya xalqlarının tarixində bir mənbə kimi", Azərbaycan SSR EA-nın akademiki A.O.Makovelskinin "Avesta"da cəmiyyətin iqtisadi mənşəyi və ictimai quruluşu", Azərbaycan SSR EA-nın müxbir üzvü Ə.Ə.Dəmirçizadənin "Dədə Qorqud eposu", Azərbaycan SSR EA-nın müxbir üzvü M.A.Dadaşzadənin "Sovet Azərbaycanında dramaturgiyanın inkişafı", filologiya elmləri doktoru H.M.Araslının "Orta əsrlərdə Azərbaycan-ərəb mədəni əlaqələri tarixindən", professor A.S.Fərəcovun "Nizam-əl Mülk, Nizami Gəncəvi, Nəsirəd-din Tusi və Rəşid-əd Dinin iqtisadi görüşləri", tarix elmləri namizədi Ə.N.Quliyevin "XV-XVIII əsrlərdə Azərbaycanın Rusiya ilə ticarət və diplomatik əlaqələri", tarix elmləri namizədi S.B.Aşurbəylinin "Qədim və orta əsrlərdə Azərbaycanın Çinlə iqtisadi və mədəni əlaqələri", tarix elmləri namizədləri M.Ə.Qaziyev və P.Ə.Əzizbəyovanın "Azərbaycan iqtisadiyyatındakı geriliyin aradan qaldırılması", Respublika Əlyazmalar Fondunun direktoru, filologiya elmlər namizədi M.S.Sultanovun "Azərbaycan SSR EA Əlyazmalar Fondunda Yaxın Şərq xalqları klassiklərinin nadir əlyazmaları" mövzusundakı məruzələri, filologiya elmləri namizədləri A.Q.Orucov, A.Cəfərov, A.Məmmədov, R.Sultanov, tarix elmləri namizədləri Ş.Tağı-

yeva, M.Ə.İsmayılov, Z.Abdullayev, R.Qaziyev və başqalarının məruzələri böyük maraqla qarşılanmışdır [163, v.34-39].

Daşkənddə keçirilən Şərqşünasların I Ümumittifaq konfransında iştirak edən görkəmli ədəbiyyatşünas alim H.M.Araslı konfransda “Şərq xalqlarının iqtisadi, mədəni və tarixi əlaqələri” bölməsinin sədri olmuş [283, s.12-13] və Azərbaycan-ərəb mədəni əlaqələrini əks etdirən məruzəsi ilə də daha çox yadda qalmışdır [631, s. 406-411].

Azərbaycan SSR EA Botanika İnstitutunun Qazaxıstan və Mərkəzi Asiya Respublikalarının nəbatat bağları ilə geniş əməkdaşlıq əlaqələri var idi. 1957-ci ildə Azərbaycan SSR EA Botanika İnstitutunun Nəbatat bağındakı gözəl görünüşlü 40 bitki Qazaxıstan və Mərkəzi Asiyadan (Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan) gətirilib bu mühitə uyğunlaşdırılmışdı. Bunlar bağdakı bitkilərin ümumi sayının 6,2 faizini təşkil edirdi [415, v.390].

1958-ci il oktyabrın 17-də Azərbaycan SSR EA-nın böyük salonunda Respublika EA, Azərbaycan Yazıçılar İttifaqı və Azərbaycan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə böyük tacik şairi Əli Abdulla Rudəkinin anadan olmasının 1100 illiyi münasibətilə elmi sessiya keçirilmişdir. Sessiyanı giriş nitqi ilə akademik M.A.Dadaşzadə açmış və sessiyada filoloji elmlər namizədi M.Sultanov “Rudəki tacik-fars ədəbiyyatının banisidir”, fəlsəfə elmləri namizədi  A.Agahi “Rudəkinin fəlsəfi baxışları” və filoloji elmlər namizədi Q.Kəndli “Rudəki və Azərbaycan ədəbiyyatı”  mövzularında məruzə etmişlər.

Sessiyada ADU-nun şərqşünaslıq fakültəsinin tələbələri dahi şairin şeirlərini fars dilində və həmin fakültənin müəllimi M.Əlizadə Rudəkidən Azərbaycan dilinə etdiyi tərcümələrini oxumuşlar.

Böyük şair Rudəkinin bütün əsərləri yubiley günlərinə qədər tam külliyat halında heç yerdə tapılmamışdı. Miqdarca daha çox şeir yazmış bu şairin əsərlərinin çox cüzi hissəsi pərakəndə halda bəzi təzkirələrdə və müntəxəbatlarda çap

edilmişdir. Rudəkinin şeirlərinin bəziləri isə Qətran Təbrizinin şeirlərilə qarışdırılmışdır.

Azərbaycan SSR EA-nın Respublika Əlyazmaları Fondunda saxlanılan bir əlyazmasında Rudəkinin indiyə qədər məlum olmayan şeirlərindən parçalar tapılmışdır. Bu nadir əlyazması Əşrəf ibn Şərəf Əl-Müzəkkər Əl Faruqinin üzünü köçürdüyü "Danişnameyi-Qədərxan" əsəridir. Pəhləvi lüğəti olan bu əlyazması müəllif tərəfindən Hindistanda qur padşahları silsiləsinin banisi Dilavər xanın oğlu Qədirxana ithaf olunmuşdur [410, s.3].

Rudəkinin yubileyi münasibətilə Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun elmi işçisi Ə.Abbasovun "Rudəki" məqaləsi çap olunmuşdu [1, s.3]. Məqalədə şairin tərcümeyi-halı, yaradıcılığının başlıca xüsusiyyətləri, fəlsəfi görüşləri və Azərbaycan ədəbiyyatına təsiri öz əksini tapmışdır.

Böyük Azərbaycan şairi M.Füzulinin vəfatının 400 illiyi ilə əlaqədar Tacikistan SSR EA-nın müxbir üzvü, əməkdar elm xadimi, filoloji elmlər doktoru İ.Braginskinin "Böyük mütəfəkkir" məqaləsi "Kommunist" qəzetində çap edilmişdi" [135, s.3]. "Şairlik istedadının gücünə görə, Azərbaycan, fars və ərəb dillərində yaranan ədəbiyyata göstərdiyi qüvvətli təsirə görə, özündən sonra ərəb ölkələrində və Türkiyədə, Zaqafqaziyada və Orta Asiyada, İranda və uzaq Hindistanda yaranmış şairlərə etdiyi qüvvətli təsirə görə" Füzulinin yeganə bir yer tutduğunu göstərən alim, şairin yaradıcılığına, böyük istedadına Tacikistanda xalq məhəbbətinin daha böyük olduğunu xüsusi şəkildə vurğulayırdı [135, s.3].

XX əsrin 60-cı illərində Azərbaycan-Tacikistan elmi əlaqələri öz inkişafında yeni mərhələyə daxil oldu. Bu mərhələni xarakterizə edən və şərtləndirən başlıca səbəb bütün ölkə miqyasında elmə diqqətin artması və onun inkişafı istiqamətində yeni qərar və qanunların qəbul edilməsi idi. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "Ölkədə elmi tədqiqatların koordinasiyasının təkmilləşdirilməsi və SSRİ Elmlər Akademiyasının fəaliyyətinə dair tədbirlər haqqında" (1961, sentyabr), "SSRİ Elmlər Akademiyasının və İttifaq respublikaları Elmlər Akade-

miyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər haqqında" (1963, aprel) və "Elmi təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılması və milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsini sürətləndirmək üzrə tədbirlər haqqında" (1968, sentyabr) qərarlarının mühüm əhəmiyyəti var idi.

Ölkə üzrə elmi tədqiqatların əlaqələndirilməsinin genişləndirilməsi üçün 1965-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə Elmi Əlaqələndirmə Şurası Elm və Texnologiya üzrə Dövlət Komitəsinə çevrildi.

1969-cu ilin əvvəllərindən etibarən, SSRİ-də Milli iqtisadiyyatın inkişafı üzrə Dövlət Planının tərtib edilməsinə dair "Milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsinin planlaşdırılması"yla bağlı metodik göstərişlərin verilməsinə başlandı [596, s.215].

Sov. İKP MK-nın XXIV qurultayının (1971) hesabat məruzəsində ilk dəfə "Elmi-texniki inqilab. Elmin istehsalatla birləşməsi" bölməsinin salınması da elmin nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyini göstərirdi [596, s.216].

1960-cı ildə Düşənbədə Azərbaycan şairi M.Füzulinin Tacikistan Dövlət Nəşriyyatı tərəfindən "Seçilmiş əsərləri" çap olunmuşdu. Kitabdakı müqəddiməsində tədqiqatçı Rəhim Haşim tacik oxucularını görkəmli Azərbaycan alimi H.Araslının Füzuli yaradıcılığına dair tədqiqatları ilə tanış etməyi də unutmamışdı [283, s.230].

Həmin il oktyabr ayının 11-dən 14-dək Azərbaycan EA-da müasir fizikanın ən vacib məsələlərinə - yarımkeçiricilərdə zərbə ilə ionlaşma və tunel effekti məsələlərinə dair Ümumittifaq müşavirəsi olmuşdur. Tacikistan alimlərinin də iştirak etdiyi bu müşavirədə dörd gün ərzində 20-dən çox məruzə dinlənilmişdir. Azərbaycanın fizika mütəxəssisləri H.B.Abdullayev, Q.Ə.Axundov və M.H.Əliyevin məruzələri də böyük maraqla qarşılanmışdır [568, s.2].

60-cı illərdə Azərbaycanda qeyri-rus məktəblərində rus dilinin tədrisini daha çox diqqət mərkəzində saxlayırdılar. Bu, heç də təsadüfi deyildi. Milli ucqarlarda milli dillərin sıxışdı-

rılması hesabına rus dilinin geniş yayılmasını təmin etməklə, milli-mənəvi dəyərləri zəiflətməyə, ruslaşdırma siyasəti yolu ilə mərkəzin uzaq gələcək üçün nəzərdə tutduğu məqsədi gerçəkləşdirməyə çalışırdılar. 1962-ci ildə Bakıda keçirilən qeyri-rus məktəblərində rus dilinin tədrisini yaxşılaşdırmaq məsələlərinə dair Respublika Müşavirəsində (3-6 yanvar) iştirak etmək üçün Azərbaycana Moskvadan və Özbəkistan, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ermənistan, Dağıstan, Tatarıstan, Başqırdıstan və Çeçen-İnquş respublikalarından çoxlu sayda qonaqlar gəlmişdi.

Ümumi iclasda Tacikistan SSR Elmi-Tədqiqat Pedaqogika İnstitutunun elmi əməkdaşı B.Kazakov müşavirə iştirakçılarını salamlamış [345, s.1], bölmə iclasında Tacikistan məktəblərindən birinin dərs hissə müdiri A.İ.Baratova öz iş təcrübəsindən danışmış, Azərbaycan müəllimlərinin işində olan müsbət cəhətləri qeyd etməklə, müşahidə etdiyi bəzi tənqidi mülahizələrini də söyləmişdir [346, s.2].

Azərbaycan orta və ali məktəb müəllimlərinin, Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun alimlərinin və qonaqların çoxsaylı məruzə və çıxışlarından sonra " Müşavirə respublikanın qeyri-rus məktəblərində rus dilinin tədrisini qətiyyətlə yaxşılaşdırmaq məqsədini güdən geniş qərar qəbul etmişdir" 347, s.2].

1962-ci il mayın 29-da M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında görkəmli şair M.Ə.Sabirin anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli gecə keçirilmişdir. Yubiley tədbirlərinə qatılan SSRİ-nin bütün respublikalarından gəlmiş çoxlu sayda qonaqlar arasında Tacikistanın Rudəki adına Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi R.Haşım da var idi [58, s.2].

1962-ci ildə Bakıda keçirilən psixiatorların I Zaqafqaziya konfransında (3-6 oktyabr) digər respublikaların nümayəndələri ilə bərabər Tacikistanın tibb alimləri də iştirak edirdilər. Bu konfransda 65 məruzə dinlənilərək müzakirə olunmuşdur. Sonda əsəb xəstəliklərinə və ruhi xəstəliklərə qarşı mübarizə sahəsində

elmi-tədqiqat işlərinin və müalicə-profilaktika tədbirlərinin daha da inkişaf etdirilməsi üçün geniş qərarlar qəbul edilmişdir [463, s.2; 462, v.8].

Tacikistan alimləri 1963-cü ildə Bakıda Azərbaycan SSR EA-nın SSRİ EA ilə birgə təşkil etdikləri neft boy maddəsinin kənd təsərrüfatında tətbiqinə dair II Ümumittifaq müşavirəsində (22-25 yanvar) və yenə həmin ildə SSRİ EA, İ.P.Pavlov adına Ümumittifaq Fizilogiya Cəmiyyətinin Azərbaycan SSR EA ilə Bakıda birgə keçirdikləri "Mikroelementlər və əsəb sistemi" problemlərinə dair Ümumittifaq simpoziumunda (28-30 noyabr) iştirak etmişdilər. Dörd gün davam etmiş, II Ümumittifaq müşavirəsində 90-a qədər, 3 gün çəkən Ümumittifaq simpoziumunda 20-dən çox məruzə dinlənilərək müzakirə olunmuşdur [555, s.2; 262, s.2].

Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) travmatologiya və ortopediya kafedrasının assistenti C.M.Əliyev 1963-cü il oktyabrın 5-12-də Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilən cərrahların qurultayında iştirak etmişdi [157, v.97].

Azərbaycan-Tacikistan elmi əlaqələrində 1964-cü il tədbirlərin genişlənməsi və dərinləşməsi baxımından çox zəngin bir il olmuşdur.

Azərbaycan Elmi-Tədqiqat Neft və Qaz Quyularının Qazılması İnstitutunun əməkdaşları 60-cı illərdə Tacikistanda çətin geoloji şəraitdə quyu qazılmasında qazmaçılara yaxından köməklik göstərirdilər. 1964-cü il aprelin 14-də həmin institutun bir qrup əməkdaşı – texnika elmləri namizədləri Y.Yaiçnikova, Q.Protasov, mühəndislərdən N.Qusarov, İ.Yüzbaşov və A.Qriqoryan Tacikistana gedərək, iki həftəyədək mürəkkəb geoloji şəraitdə quyu qazan qazmaçılara elmi-texniki kömək göstərməklə, lazımi məsləhətlər də vermişlər [519, s.2].

1964-cü ildə Bakıda Arasıkəsilməz mühitdə elastik-plastik dalğaların yayılmasına həsr edilmiş Ümumittifaq simpoziumu (7-10 oktyabr) keçirilmişdir. Ölkənin digər alimləri ilə bərabər tacik alimlərinin də qatıldığı bu simpoziumu SSRİ EA-nın davamlılıq və elastikliyin əsasları problemi üzrə Elmi Şurası,

Mexanika İnstitutu və Lomonosov adına Moskva Dövlət Universiteti təşkil etmişdi [377, v.85; 378, s.2].

Yenə həmin il dekabrın 11-də Azərbaycan SSR EA-da Şərqin dahi şairi və böyük mütəfəkkiri Əbdürrəhman Caminin anadan olmasının 550 illiyi münasibəti ilə elmi sessiya keçirilmişdir.

Sessiyanı giriş sözü ilə açan respublika yubiley komitəsinin sədri, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Ə.S.Sumbatzadə Caminin böyük ədəbi irsinin ümumdünya əhəmiyyətini qeyd edərək, onun əsərlərinin təkcə Tacikistanda deyil, eləcə də Azərbaycanda da çox sevildiyini söyləmişdir [139, s.3].

Respublika EA-nın müxbir üzvü, professor H.M.Araslı "Cami və Azərbaycan ədəbiyyatı", Azərbaycan SSR EA Əlyazmaları Fondunun direktoru, filoloji elmlər namizədi M.Sultanov "Cami əsərlərinin Respublika Əlyazmaları Fondunda mövcud olan əlyazması nüsxələrinin təsviri" mövzularında danışmış, filoloji elmlər namizədləri M.Əlizadə, R.Sultanov və Şərqşünaslıq İnstitutunun elmi işçisi A.Quliyev isə məruzələrini Cami əsərlərinin təhlilinə həsr etmişdilər [133, s.3].

Sessiyanın qonağı, Tacikistan SSR EA Ədəbiyyat və Dil İnstitutunun "Ədəbiyyat şöbəsi"nin müdiri, filoloji elmlər namizədi M.Ş.Şükürovun "Cami və müasir tacik ədəbiyyatı" mövzusundakı məruzəsi də maraqla dinlənilmişdir [139, s.3].

Bu yubiley sessiyası ilə əlaqədar dekabrın 10-da Nizami adına Ədəbiyyat Tarixi Muzeyində İran-tacik şairi Ə.Caminin anadan olmasının 550 illiyinə həsr edilmiş sərgi açılmışdı. Sərgi respublikamızın xalq rəssamı İ.Axundovun çəkdiyi Caminin portreti ilə başlayırdı. Sonrakı lövhələrdə Caminin tərcümeyi-halı, Səmərqənd şəhərində təhsil aldığı Uluqbəy mədrəsəsinin şəkilləri göstərilirdi. Sərgidə Caminin ilham aldığı Nizami, Rudəki, Xəyyam, Sədi, Rumi, Hafiz və başqa bir sıra görkəmli şairlərin şəkilləri də asılmışdı. Eyni zamanda sərgidə M.Ş.Vazeh, Q.B.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.A.Bakıxanov və başqalarının Cami əsərlərinə yazdıqları nəzirələr, onun haqqında qiymətli fikirləri də öz əksini tapmışdı [489, s.3].

Böyük tacik şairi və mütəfəkkiri Ə.Caminin anadan olmasının 550 illiyi ilə əlaqədar Azərbaycanda keçirilən yubiley tədbirləri günlərində alimlərimizin müxtəlif mövzularda yazdıqları elmi məqalələri və şairin dilimizə tərcümə edilmiş çoxlu sayda əsərləri ayrı-ayrı mətbuat orqanlarımızda çap olunmuşdu.

Tarix elmləri namizədi Q.Qasımovun "Görkəmli musiqi nəzəriyyəçisi" [340, s.3], Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun elmi işçisi Ə.Rəhimovun "Cami və Azərbaycan" [470, s.3], professor H.Araslının "Cami və Azərbaycan ədəbiyyatı" [19, s.3], Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı A.Quliyevin "Şairin dünya şöhrəti" [353, s.3] və "Bəşəri ideyalar tərənnümçüsü" [351, s.158-163], ADU-nun aspirantı Q.Əliyevin "Böyük şair, istedadlı alim" [226, s.3], fioloji elmlər namizədi M.Sultanovun "Şərq xalqlarının mütəfəkkir şairi" [505, s.3] və filoloji elmlər namizədi M.Mübarizin "Bəşəri ideyalar şairi" [403, s.3] məqalələri belələrindən idi.

Yubiley günlərində şairin 50-dən çox şeir, rübai, qitə və qəzəlləri B.Azəroğlu, A.Sarovlu, M.Gülgün, Ə.Hüseyni, M.Seyidzadə və H.Büllurinin tərcüməsində Azərbaycan mətbuatında çap olunmuşdu [141, s.3; 144, s.1].

1964-cü il dekabrın 15-də Düşənbə şəhərində Şərqin böyük şairi və mütəfəkkiri Ə.Caminin anadan olmasının 550 illiyi münasibəti ilə elmi sessiya keçirilmişdir. Sessiyada iştirak edən Azərbaycan nümayəndələrindən akademik Ə.Sumbatzadə açılış günü təbrik sözü söyləmiş [250, s.52], Azərbaycan SSR EA-nın müxbir üzvü H.Araslı sessiyada "Cami və Azərbaycan ədəbiyyatı", Azərbaycan SSR EA Əlyazmalar Fondunun direktoru, filoloji elmlər namizədi M.Sultanov "Cami əsərlərinin Respublika Əlyazmalar Fondunda mövcud olan əlyazması nüsxələrinin təsviri" və Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı A.Quliyev "Cami yaradıcılığında bəşəri ideyaların tərənnümü" mövzularında məruzə etmişlər [145, s.3].

Azərbaycanın neftçi alimlərinin texniki köməyi sayəsində Tacikistan qazmaçıları da neft və qaz quyularının qazılması

istiqamətində uğurlu addımlar atırdılar. Belə ki, 1964-cü ildə Tacikistan qazmaçıları Azərbaycan Elmi-Tədqiqat Neft və Qaz Quyuları Qazılması İnstitutunun əməkdaşlarının texniki köməyi nəticəsində 3 min metr dərinlikdə kəşfiyyat quyuları qazmışdılarsa, 1965-ci ildə 5 min metr qazmağı nəzərdə tutmuşdular. 1965-ci ildə institutun işçilərindən texnika elmləri namizədi Y.Jaiçnikova, mühəndislər N.Qusarov və İ.Yüzbaşova 10 gün Tacikistanda olmuş, mürəkkəb geoloji şəraitdə 5 min metr dərinlikdə qazılacaq quyular üçün qazma texnologiyası hazırlamışdılar [337, s.2].

1965-ci ilin mayında Bakıda Azərbaycan SSR EA fiziologiya bölməsinin və SSRİ EA "İnsan və heyvan fiziologiyası" adlı birləşmiş Elmi Şurasının birgə təşkilatçılığı ilə camışçılığın elmi əsaslar üzrə inkişaf etdirilməsinə dair Ümumittifaq müşavirəsi keçirilmişdir. Müşavirəyə dəvət edilmiş Zaqafqaziya respublikaları, Şimali Qafqaz, Mərkəzi Asiya və RSFSR-in mərkəzi vilayətlərindən gəlmiş elmi işçilərin iştirakı ilə elmi konfrans keçirilmişdir. Bu konfransda 6 bölmə üzrə 50 məruzə dinlənilmiş və camışçılığın inkişaf perspektivləri geniş müzakirə olunmuşdur. Müzakirə edilmiş məsələlər ətrafında tacik alimlərinin də fikirləri maraqlı görünmüşdür [140, v.80].

1965-ci ilin avqust-sentyabrında Bakıda sortsınama sahələri işçilərinin iki həftə davam etmiş Ümumittifaq seminarı olmuşdur. Subtropik bitkilərin məhsuldarlığının yüksəldilməsi və sortların yaxşılaşdırılmasına həsr edilmiş bu seminarı SSRİ Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Kənd Təsərrüfatı Bitkiləri Sortlarını Sınama Komissiyası təşkil etmişdi. Seminarda iştirak etmək üçün Moskva, Gürcüstan, Ermənistan, Tacikistan, Özbəkistan, Krasnodar ölkəsi və Azərbaycandan mütəxəssislər gəlmişdi. "Seminarın iştirakçıları bir sıra mühazirələr dinləmiş, elmi-tədqiqat işi sahəsində təcrübə mübadiləsi etmiş, Maştağa subtropik sovxozuna, Mirbəşir dövlət sortsınama sahəsinə, Genetika və Seleksiya İnstitutunun Qarabağ elmi-təcrübə bazasına getmişdilər" [558, s.1].

60-cı illərdə tacik alimləri də Bakıda elmi-tədqiqat işlərini uğurla davam etdirirdilər. 1965-ci ildə Düşənbədə həmyerlimiz Rahim Həşimov "Tacik sovet ədəbiyyatının yaranmasının bəzi məsələləri" və Bakıda Abbasəli Sarovlu "Ə.Caminin "Yusif və Züleyxa" poeması" mövzularında uğurla namizədlik dissertasiyaları müdafiə etmişdilər. Hər iki dissertasiyanın rəsmi opponenti olmuş görkəmli Azərbaycan alimi, akademik H.Araslı hər ikisinə müsbət rəy vermişdir [283, s.186, 188].

1965-ci ildə Bakıda türk dillərinin dialektologiyası məsələlərinə dair V Müşavirəni (5-7 oktyabr) respublika EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutu keçirmişdir. Ölkənin hər yerindən məşhur türkoloqlar, dilçilər bu müşavirədə iştirak etmək üçün Azərbaycan SSR EA-ya gəlmişdilər. Gələn qonaqlar arasında SSRİ EA Dilçilik İnstitutunun türkologiya bölməsinin əməkdaşları, Özbəkistan, Tacikistan, Türkmənistan, Qazaxıstan və Moldaviyanın türkoloqları, Macarıstanın məşhur türkoloqu G.Hazan və polşalı görkəmli dilçi A.Zayonçkovski də var idi [542, v.160-168; 543, s.3].

Müşavirənin əsas ideyası və başlıca məqsədi ümumtürk dilçilik atlasının hazırlanmasından ibarət idi. Bu ideya müxtəlif mövzularda məruzə edən Azərbaycan SSR EA-nın akademiki M.Şirəliyevin, filoloji elmlər doktorları N.Baskakovun, F.Abdullayevin, Q.Həsənovun, B.Tağıyevin, N.Niyazovun, Ş.Rəhimovun, X.Daniyarovun E.Sevortyanın, filoloji elmlər namizədləri R.Rüstəmovun, M.İslamovun, B.Curayevin, R.Berdıyevin və onlarca başqalarının çıxışlarında öz əksini tapmışdı [540, s.3].

Türkoloqların üç günlük Bakı müşavirəsinin sonunda Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru, akademik M.Ş.Şirəliyevin sədrliyi ilə görkəmli alim-türkoloqlardan ibarət nüfuzlu komissiyaya atlasın tərtib edilməsi üçün hazırlıq işlərinə başlanılması tapşırılmışdır [177, s.4].

Həmin ildə Bakıda keçirilən ölkə fizoterapevt və kurortoloqlarının Ümumittifaq qurultayında (25-29 oktyabr) 700 nəfər nümayəndə iştirak edirdi. Gələnlərin arasında (Tacikistan-

dan həkim L.Qordiyenko və daha 2 nəfər) [527, s.4] təkcə bizim ölkəmizin deyil, həm də Bolqarıstan, Macarıstan, ADR, Polşa, Rumıniya və Çexoslovakiyanın da görkəmli mütəxəssislər var idi. "Qurultay iştirakçıları beş gün ərzində ümumi iclaslarda və bölmə iclaslarında müasir fizioterapiyanın və kurortologiyanın aktual problemlərinə dair təqribən 250 məruzə" müzakirə etmiş, qurultay qurtardıqdan sonra onun iştirakçıları Abşeronun sağlamlıq ocaqlarına, Naftalan kurortuna baxmış və Göy Gölə getmişlər [263, s.1; 264, s.4)

1965-ci ildə Bakıda, Azərbaycan SSR EA-da Zaqafqaziya botaniklərinin sporalı bitkilərin öyrənilməsinə həsr edilmiş konfransı (1-3 noyabr) olmuşdur. Konfransda Zaqafqaziya respublikalarının alimləri ilə bərabər, Leninqrad, Kiyev, Daşkənd, Düşənbə, Aşqabad və digər şəhərlərin nəbatatçıları iştirak etmişlər.

Konfransın ilk günündə Azərbaycan SSR EA-nın prezidenti Z.İ.Xəlilov tədbiri açaraq, Zaqafqaziya respublikalarında sporalı bitkilərin öyrənilməsi işində qarşıda duran mühüm vəzifələrdən bəhs etmiş, Lenin mükafatı laureatı, biologiya elmləri doktoru V.İ.Ulyanişşev isə Azərbaycanda sporalı bitkilərin öyrənilməsi tarixini şərh etmiş və bu istiqamətdə gələcəkdə aparılacaq elmi tədqiqatların daha da genişləndirilməsinin zəruriliyini göstərmişdir [130, s.3].

1967-ci il iyunun 2-də respublika Elmlər Akademiyasında Azərbaycanın satirik yazıçısı və inqilabçı-demokratı C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi münasibəti ilə yubiley sessiyası keçirilmişdir. Sessiyada Azərbaycan alimləri ilə bərabər yubiley tədbirlərində iştirak etmək üçün Moskvadan, sovet respublikalarından elm xadimləri və yazıçılar, xarici qonaqlar da gəlmişdilər [467, s.1].

Sessiyada Tacikistan SSR EA-nın Dil və Ədəbiyyat İnstitutunun ədəbi əlaqələr şöbəsinin müdiri, filoloji elmlər namizədi, həmyerlimiz Rəhim Haşımi də çıxış etmişdir. O, C.Məmmədquluzadənin çoxcəhətli ədəbi və ictimai fəaliyyətindən, qardaş tacik xalqının ədəbiyyatı ilə yazıçının yaradıcılığının qarşılıqlı əlaqəsi problemlərindən danışmış və Nizami adına

Azərbaycan ədəbiyyatı muzeyində açılmış yubiley sərgisi ilə tanışlıqdan sonra isə təəssüratını böyük ilhamla belə ifadə etmişdir: “Alqış, min alqış, doğma xalqıma. Dahi ədib C.Məmmədquluzadənin həyat və yaradıcılığını ilk dəfə küll halında əks etdirən belə bir sərgi təşkil etdiklərinə görə muzeyin əməkdaşlarına əhsən olsun” [308, s.3].

C.Məmmədquluzadənin yubileyi günlərində Rəhim Haşımi qəzetə verdiyi müsahibəsində demişdir: “Azəri və tacik xalqlarının qədim elmi və ədəbi əlaqələri tarixində XX əsrin əvvəli xüsusi əhəmiyyətə malikdir. Bu, elmi və ədəbi münasibətlər səmasında bu günkü bayramın sahibi – azəri xalqının şərəfli və hörmətli oğlu Cəlil Məmmədquluzadə işıqlı bir ulduz kimi parıldayır.

Mirzə Cəlil “Molla Nəsrəddin” jurnalının vasitəsilə bütün şərq aləmində mədəniyyət karvanının yol göstərəni olmuşdur.

Bu gün tacik xalqı da bu böyük insanın xatirəsini yad edir, yazıçının dühası qarşısında baş əyir” [171, s.3].

C.Məmmədquluzadənin anadan olmasının 100 illiyi tədbirində iştirak edən tacik yazıçısı Səməd Qəni isə belə demişdir: “Ən gözəl bədii əsərlər də daş-qaş kimidir, onların qiyməti özündədir, saflığındadır. Belə əsərlər zamanın təlatümlərindən, əsrlərin keşməkeşindən keçərək yaşayır, xalq bu əsərlərə öz qəlbində yer verir, onları qoruyub saxlayır, nəsildən-nəslə çatdırır. “Ölülər” də xalqımızın zəngin ədəbiyyat xəzinəsinin belə qiymətli incilərindəndir” [154, s.3].

1967-ci ildə Azərbaycan SSR EA-da olmuş epidemioloq, mikrobioloq və infeksionistlərin III Respublika qurultayına (9-11 oktyabr) dəvət olunmuş nümayəndələr arasında Moskva, Leninqrad, Ukrayna, Gürcüstan, Ermənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanın tibb işçiləri də var idi. Qurultayın ilk günü Azərbaycan SSR Səhiyyə nazirinin birinci müavini R.B.Cavadov “Yoluxucu xəstəliklərin profilaktikası, onlara qarşı mübarizə sahəsində sovet Azərbaycanının nailiyyətləri və səhiyyə orqanlarının növbəti vəzifələri haqqında” mövzusunda geniş məruzə etmişdir [307, s.4].

Qurultay iştirakçısı olan tacik alimləri məruzə ətrafındakı müzakirələrdə ardıcıl iştirak etmiş, öz təklif və mülahizələrini də iştirakçılarla bölüşmüşlər.

Azərbaycanın tanınmış alimi, filoloji elmlər namizədi P.Xəlilov tacik xalqının görkəmli şairi, böyük ədibi, alim və ictimai xadimi Sədrəddin Ayninın (1878-1954) anadan olmasının 90 illiyi münasibətilə “Tacik sovet ədəbiyyatının banisi” adlı məqaləsini yazmışdı. Məqalədə S.Ayninin yaradıcılığının başlıca xüsusiyyətlərindən, sevimli ustadı M.Qorkinin ənənələrindən istifadə etməklə, tacik sənətində təzə səhifə açmasından, poeziyasından, povest və romanlarından, bir tədqiqatçı, görkəmli ədəbiyyatşünas kimi də inkişaf edərək, tacik sovet ədəbiyyatşünaslığının ən yaxşı nümunələrini yaratmasından bəhs olunurdu [306, s.3].

1968-ci ilin noyabrında Düşənbədə keçirilən asetilenin kimyası üzrə III Ümumittifaq elmi konfransına SSRİ-nin 30 şəhərindən və 50 elmi-tədqiqat müəssisəsindən 250 nəfərdən çox nümayəndə gəlmişdi. Nümayəndələr 3 bölmədə 180-dən çox müxtəlif maraqlı məruzə dinləmişlər [494, s.7]. Konfransda iştirak edən Azərbaycanın tanınmış kimyaçı alimi, kimya elmləri doktoru S.F.Qarayev “Asetilenin yeni O, Si, Ge – törəmələri” mövzusunda məruzə etmişdir [635, s. 82].

Respublikamızın nümayəndələrindən M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun kafedra müdiri, professor İ.A.Şıxıyev, kimya elmləri namizədləri M.Ə.Məmmədov və İ.M.Əhmədov yeni üzvi silisium, üzvi asetilen birləşmələrinin alınması və diyen sintezi mövzularında məruzə etmişlər [249, s.2].

60-cı illərdə kuşan tayfası və Kuşan dövlətinin tarixinin öyrənilməsi dünya tarixinin aktual problemlərindən birinə çevrilmişdi. Bu baxımdan, 1968-ci ildə Düşənbə şəhərində YUNESKO xətti ilə çağırılmış (27 sentyabr-5 oktyabr) Kuşan probleminin öyrənilməsinə həsr edilən Beynəlxalq elmi konfransın keçirilməsi heç də təsadüfi deyildi.

Çox mühüm əhəmiyyəti olan bu konfransda sovet alimləri ilə bərabər, xalq demokratiyası ölkələri, Hindistan, Pakistan,

Əfqanıstan, İran, habelə Qərbi Avropa, Amerika, Yaponiya və digər ölkələrdən gəlmiş alimlər iştirak edirdilər.

"Kuşan problemi" elmi konfransında Mərkəzi Asiya və Orta Şərq ölkələrinin, yəni Hindistan, Pakistan, Əfqanıstan və İranın tanınmış alimlərinin fəal iştirak etmələri həmin ölkələrdə Kuşan probleminə olan böyük maraqdan irəli gəlirdi. "Eramızdan əvvəlki minilliyin sonlarında Quyşuan (Kuşan) tayfası indiki Özbəkistanın cənubunda, Tacikistan və Şimali Əfqanıstanda Kuşan dövlətinin təməlini qoymuş və bu dövlət getdikcə qüvvətlənərək nəinki bütün Əfqanıstanın, Pakistanın, habelə Hindistanın bir sıra əyalətlərini də öz tərkibinə daxil edə bilmişdi. Təxminən 500 ildən artıq yaşamış Kuşan dövləti dövründə həmin geniş ərazidə olduqca zəngin maddi və mənəvi mədəniyyət yaradılmışdı. Bu yüksək mədəniyyətin eyni dərəcədə indiki Orta Asiya, Əfqanıstan, Pakistan və Hindistan xalqlarının ulu babaları tərəfindən yaradıldığına və deməli, bu xalqların indiki nəsillərinin ümumi mirası olduğuna görə, həmin Şərq ölkələrində və Sovet İttifaqında Kuşan probleminin öyrənilməsi dərin maraq oyatmışdı" [506, s.3].

Düşənbə konfransının açılışında Əfqanıstan nümayəndəsi Şərifinin təklifi ilə SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun direktoru, professor B.Q.Qafurov yekdilliklə konfransın prezidenti seçilmişdir.

Düşənbə konfransında Tacikistan EA-nın prezidenti M.S.Asimov, akademik Ə.M.Mirzəyev, gənc tacik alimlərindən E.Qulamova, N.Nehmətov, A.Babayev, A.Muxtarov, H.Mühiddinov, özbək alimlərindən Y.Qulamov, B.Turqunov, A.Muxammedçinov, qırğız alimi İ.Kejimberdiyev və b. çıxışları maraqla qarşılanmışdır [506, s.3].

Konfransda Azərbaycan alimlərindən K.Əliyev "Orta Asiya və Azərbaycan köçəriləri", A.Fazili "Atropatena Ellin Şərqi sistemində", L.Britanitski "İslam incəsənətinin mənşəyi" mövzularında məruzələr etmiş [506, s.3], yekun iclasında isə akademik Ə.Sumbatzadə "Kuşan problemi"nin gedişi haqqında

çıxış etmişdir [250, s.17]. Sənətşünas alim R.Əfəndiyev də bu konfransın iştirakçısı olmuşdur [464, s.5].

1968-ci ildə Bakıda keçirilmiş Azərbaycan gigiyena işçiləri və sanitariya həkimlərinin II qurultayının (14-17 oktyabr) gündəliyində sənaye müəssisələri əməkçilərinin, şəhər və kənd yaşayış qəsəbələri sakinlərinin səhhətinin qorunmasına dair aktual problemlər dururdu. Qurultayda Azərbaycan nümayəndələri ilə yanaşı, Moskva, Leninqrad, Ukrayna, Zaqafqaziya və Orta Asiya respublikalarının tibb işçiləri və alimləri də iştirak edirdilər [59, s.1].

1968-ci ilin noyabrında Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqları İnstitutunun əməkdaşı Əkrəm Cəfər "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzləri ilə müqayisədə)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdi. Dissertasiyada Azərbaycan əruzu ilə tacik əruzunun müqayisəsi elmi baxımdan çox maraqlı görünürdü [155, s.4].

1969-cu ilin martında Bakıda ölkənin cənub hissəsi neftçıxarma sənayesi işçiləri fəallarının yığıncağı olmuşdur. Məclisin iştirakçıları təcrübə mübadiləsi etmiş, Tatarıstan neftçilərinin texniki və tərəqqi uğrunda təşəbbüsünün necə genişlənməsindən danışmışlar. Tədbirə Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Azərbaycanla bərabər, Tacikistandan da yarış qabaqcılları qatılmışdılar. "Tacikistanneft" Mədənlər İdarəsi qazma kontorunun direktoru Rəhim Məzaitov təkcə son dörd ildə Tacikistanda üç yatağın aşkara çıxarılmasından, Şimali Kurqançada 1.088 metr dərinliyində güclü neft fantanı vurmasından, geoloqların daha dörd sahəni – Şimali Kanibadam, Dirbay, Cənubi Kurqança və Babataq sahələrini qazımaya hazırlamasından, onların neft hasilatını keçən ilə nisbətən 25 %, qaz hasilatını isə 1,5 dəfə artırmalarından danışmış, Azərbaycan neftçiləri və neftçi alimlərinin qardaşlıq köməyini isə yüksək qiymətləndirərkən "Azərbaycan Elmi-Tədqiqat Qazma İnstitutu əməkdaşlarının xahişimizlə hazırladıqları yüksək anomal təzyiq və temperatur şəraitində qazma texnologiyası, qazma prosesində

quyuların luləsinin əyilməsinə qarşı mübarizə üsulu neftçilərimizə çox kömək etmişdir" – söyləmişdir. O, eyni zamanda, Azərbaycan neftçiləri ilə əlaqələrinin təkcə bunlarla məhdudlaşmadığını, fəhlələri və mütəxəssislərinin təcrübə üçün Bakıya tez-tez gəldiklərini də minnətdarlıqla bildirmişdir [156, s.3].

1969-cu il iyulun 8-də Bakıda, Azərbaycan SSR EA-da gənc astronomların I Ümumittifaq konfransı açılmış və sonra öz işini Şamaxı astrofizika rəsədxanasında davam etdirmişdir. Konfrans iştirakçıları arasında Tacikistan Respublikasının gənc astronomları da var idi [273, v.18; 332, s.4].

Həmin ilin avqustunda ADU-nun şərqşünaslıq fakültəsinin bir qrup tələbəsi öz təcrübəsini Düşənbədə keçirərək, onların elm ocaqlarında təhsil sisteminin vəziyyəti və xarici dillərin tədrisi məsələləri ilə ətraflı tanış olmuşlar. Universitetin nəzdində fəaliyyət göstərən zəngin materiallara malik Cami kabineti, orada toplanmış klassik tacik, fars, Azərbaycan şairlərinin əlyazmaları, Nizaminin, Firdovsinin, Caminin, Xəyyamın, Hafizin, Sədinin, Məhsəti xanımın, Füzulinin əsərlərinin əlyazmaları tələbələrin xüsusi marağına səbəb olmuşdur [50, s.2].

Tələbələr Tacikistan SSR EA-nın Şərq Əlyazmaları fondunda və 1951-ci ildən etibarən türk, Azərbaycan, fars, ərəb və s. dillərdə olan əlyazmalarını da toplayan Firdovsi adına kitabxanada olmuşlar.

Əlyazmaları Fondunda 300-ə qədər əlyazmaların daxil edildiyi tacik klassik ədəbiyyatının 3 cildliyi hazırlanmış, yaxın vaxtlarda isə dahi Azərbaycan şairi Nizaminin əsərlərinin əlyazmalarının da daxil olacağı 4-cü cild çapdan çıxacaqdır [50, s.2].

Tacik alimləri Azərbaycan alimlərinin yubiley şənliklərinə də qatılır və sevinclərinə şərik olmaqla yanaşı, ürəkdən gələn səmimi təbriklərini də çatdırırdılar.

1969-cu il sentyabrın 16-da respublika EA-da görkəmli alim, elm və istehsalat təşkilatçısı, Azərbaycan SSR EA-nın prezidenti, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı R.H.İsmayılovun anadan olmasının 60 illik yubileyi təntənə ilə qeyd edilmişdir.

Yubiley şənliklərinə digər çoxsaylı qonaqlarla birgə qatılan Tacikistan EA Rəyasət Heyətinin üzvü R.B.Baratov da yubilyarı təbrik etmiş və iki qardaş xalq arasında elmi əlaqələrin inkişaf etdirilməsində göstərdiyi böyük səyə görə, dərin təşəkkürünü bildirmişdir [274, s.3].

1969-cu il oktyabrın 14-də Bakıda paleobiogeokimya problemlərinə dair Ümumittifaq müşavirəsi, oktyabrın 21-də inkişaf etməkdə olan ölkələrdə neft kimyası sənayesinin inkişafı məsələlərinə dair II Beynəlxalq məhəlli simpozium açılmış və botaniklərin Ümumittifaq simpoziumu keçirilmişdir. Hər üç elmi tədbirdə tacik alimləri yaxından iştirak etmişdilər [113, s.3].

1969-cu ildə Bakıda Azərbaycan Dövlət Universitetinin yaradılmasının 50 illik yubileyi münasibətilə türk dilləri problemlərinə dair Ümumittifaq konfransı (14-18 oktyabr) keçirilmişdir.

SSRİ EA-nın müxbir üzvü, professor A.N.Kononov, professor N.A.Baskakov, professor S.S.Çigiya, akademik M.Şirəliyev və başqa bu kimi görkəmli sovet türkoloqlarından ibarət təşkilat komitəsi türk dillərində qrammatik kateqoriyanın təbiəti və mahiyyəti, türk dillərinin sintaktik quruluşunun inkişaf qanunauyğunluğu və türk dillərinin başqa dillərlə əlaqəsi problemlərini konfransın müzakirəsinə təqdim etmişdir [7, s.4].

Konfransda Azərbaycan alimlərindən konfransı keçirən təşkilat komitəsi sədrinin müavini, filoloji elmlər doktoru, professor A.Axundov "Azərbaycan dilçiliyinin inkişafında Azərbaycan Dövlət Universiteti alimlərinin rolu" [6, s.10-11], filoloji elmlər doktoru, professor F.Zeynalov "Modallıq kateqoriyası və müasir türk dillərində bu kateqoriyanın qrammatik ifadəsi", filoloji elmlər doktoru, professor M.Rəhimov "Azərbaycan dilində qrammatik kateqoriyanın təbiəti haqqındakı məsələyə dair", filoloji elmlər doktoru, professor Ə.Abdullayev "Türk dillərində tabeli mürəkkəb cümlələrin yaranması yolları", filoloji elmlər doktoru, professor Z.Tağızadə "Türk dillərində tabeli mürəkkəb cümlələrin bəzi fonetik əlamətləri, filoloji elmlər doktoru M.Adilov "Azərbaycan dilində üzvlənməyən

sintaktik vahidlər haqqında", filoloji elmlər namizədi, dosent A.Həsənov "Türk dillərində təyin birləşmələrinin səviyyəsinə dair", akademik M.Şirəliyev "Sovet türk filologiyası" və "Sovet türkologiyası" jurnalının vəzifələri" və başqaları müxtəlif mövzularda məruzə etmişlər [7, s.4].

Tacikistandan gəlmiş dilçi alim N.A.Şaropav məruzəsində tacik dilinin türk dilləri ilə əlaqələri probleminə toxunmuş və maraqlı mülahizələri iştirakçıların diqqətinə səbəb olmuşdur [7, s.4].

60-cı illərdə iki respublika arasındakı elmi-texniki təchizat sahəsindəki əlaqələr də elmi əlaqələrin dərinləşməsinə öz müsbət təsirini göstərirdi. Bu istiqamətdəki əlaqələrin əhatə dairəsi geniş idi. Əlyazmalar fondunun fotolaboratoriyalarında əlyazmalarından mikrofilm çıxarılması, müxtəlif sənədlərdən kadr çəkilməsi, foto-kağıza material köçürülməsi, elmi kitabxanalar tərəfindən elmi kitab və jurnalların göndərilməsi və s. daxil idi.

1960-1969-cu illərdə Tacikistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) "Tacikistan SSR EA Xəbərləri"nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Eləcə də Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr olunan bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını tacik həmkarlarına çatdırmışdır [70].

### 4.3. 1970-ci illərdə elmi əlaqələr

XX əsrin 70-ci illərində Azərbaycan-Tacikistan elmi əlaqələri öz inkişafında yeni mərhələyə daxil oldu. Elmi təşkilatların fəaliyyəti təkmilləşdirildi, milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsinin sürətləndirilməsi istiqamətində görülən tədbirlər və atılan düşüncəli addımlar səmərəli elmi fəaliyyətə daha geniş meydan açdı. Ölkədə milli iqtisadiyyatın inkişafı naminə Dövlət planı tərtib edilərkən ilk dəfə olaraq, milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifa-

də edilməsi planlaşdırıldı. Bu isə, bir növ, elmi-texniki inqilab və elmin istehsalatla birləşməsi demək idi [596, s.216].

1970-ci ildə Düşənbədə sürüşmələrin müəyyənləşdirilməsi və onların başlıca xüsusiyyətlərinin elmi-texniki cəhətdən öyrənilməsi məsələlərinə dair müşavirə olmuşdur. Müşavirədə iştirak edən Azərbaycanın tanınmış alimi, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov "Böyük Qafqazın Azərbaycan hissəsində sürüşmə" mövzusunda məruzə etmişdir [602, s. 23-26; 125, s.139].

70-ci illərdə elmi kadrların hazırlanmasında Azərbaycan və Tacikistan alimləri böyük səy göstərirdilər. Belə ki,1970-ci ildə Ə.Əliyev adına ADHTİ-nin Elmi Şurasında qazaxıstanlı həkim, bu institutun mama-ginekologiya kafedrasının aspirantı G.H.Qasımova "Hamilə qadınlarda arterial hipotoniyanın müxtəlif formaları və belə hallarda ciftin morfoloji-histoximik dəyişiklikləri" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdı. G.H.Qasımovanın elmi rəhbəri institutun "Mama-ginekologiya kafedrası"nın müdiri, tibb elmləri doktoru, professor M.K.Mahmudbəyova idi. Dissertasiyaya Əbu Əli-ibn Sina adına Tacikistan Dövlət Tibb İnstitutunun mama-ginekologiya kafedrası, əlavə rəyçi kimi, müsbət rəy vermişdi [639, s.1-2].

1971-ci il martın 5-də Əbu Əli-ibn Sina adına Tacikistan Dövlət Tibb İnstitutunun əməkdaşı M.K.Belenka Ə.Əliyev adına ADHTİ-nin Elmi Şurasında "Distal qamma-terapiya əvvəli və sonrası maligin şişlər olan xəstələrdə ürək-damar sisteminin və xarici tənəffüsün funksional vəziyyətinə dair" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdı. Dissertasiya Tacikistan Respublikasının kliniki onkoloji dispanseri, funksional diaqnostika ilə klinik fiziologiya laboratoriyası və Eksperimental - Klinik Onkologiya İnstitutunda hazırlanmıışdı. Onun üç elmi rəhbərindən biri (tibb elmləri namizədi dosent B.P.Əhmədov) və iki rəsmi opponentdən birincisi (tibb elmləri doktoru, professor M.D.Axundov) Ə.Əliyev adına ADHTİ-nin əməkdaşları idilər [599, s.1-2].

1971-ci ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutunda gənc alimlərin IX Elmi konfransı keçirilmişdir. Coğrafiya İnstitutunda məqsədli aspirantura təhsili alan tacikistanlı Suxrab Aşurov konfransda "Kuraman silsiləsinin cənub-şərq yamacında kənd təhsilinin bəzi xüsusiyyətləri" mövzusunda çıxış etmişdir [597, s.84-85].

Həmin il oktyabrın 20-22-də Bakıda "Milli azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri" mövzusunda elmi konfrans keçirilmişdir. Konfransı SSRİ EA-nın xarici ideoloji cərəyanlar problemləri üzrə Elmi Şurası və Azərbaycan SSR EA-nın ictimai elmlər şöbəsi təşkil etmişdi [386, v.5].

Konfransı giriş sözü ilə açan Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev demişdir: "Bu konfrans müstəmləkələrin və asılı ölkələrin mübarizə aparan xalqları ilə ölkəmizin xalqlarının həmrəylik ənənələrini, Şərq xalqlarının 1920-ci ilin sentyabr ayında sovet Azərbaycanının paytaxtında keçirilmiş birinci qurultayında çox parlaq surətdə nümayiş etdirilmiş ənənələri bir növ davam etdirir" [387, s.1].

Dörd bölmədə öz işini davam etdirən konfransda 67 məruzə dinlənilmişdir [386, v.10-19].

Konfransda tanınmış 10 Azərbaycan alimi – hüquq elmləri doktoru M.M.Ələsgərov, tarix elmləri namizədi Q.M.Sultanov, tarix elmləri doktoru Q.Z.Əliyev, tarix elmləri namizədi Y.A.Bağırov, tarix elmləri namizədi N.Z.Əfəndiyeva, fəlsəfə elmləri doktoru A.M.Agahi, fəlsəfə elmləri doktoru Ə.Ə.Əminzadə, fəlsəfə elmlər namizədi E.Y.Həsənov, tarix elmlər namizədi İ.R.Hatəmi və fəlsəfə elmlər namizədi E.E.Zamanov müxtəlif mövzularda məruzələr etmişdilər [386, v.183-184].

Elmi konfransda iştirak edən Tacikistan SSR EA-nın akademiki Z.Ş.Rəcəbov və fəlsəfə elmləri namizədi Q.K.Aşurov "Sovet Mərkəzi Asiyası "sovetoloqların" əyri aynasında" mövzusundakı məruzələri də maraqla qarşılanmışdır [386, v.14].

Böyük pediatr məktəbi yaratmış dünya şöhrətli azərbaycanlı alim, akademik A.Ə.Namazova 70-ci illərdə 3 dəfə (1971,

1974 və 1976-cı illərdə) Tacikistanda elmi tədbirlərdə iştirak etmişdi. O, 1971-ci ildə Düşənbədə keçirilən kardiorevmatoloq-ların I Respublika konfransının nümayəndəsi olmuş və orada "Uşaqlarda və yeniyetmələrdə hipotonik ağrı ilə tiroid bezinin funksional fəaliyyəti" mövzusunda məruzə etmişdir [3, s.87-88].

1972-ci ildə görkəmli ədəbiyyatşünas H.Araslının Şərqin böyük şairi Ə.Cami haqqında yazdığı "Cami və Azərbaycan ədəbiyyatı" məqaləsi fars dilində Əfqanıstanda "Ariyana" (Kabul) jurnalında (1972, № 6) çap olunmuşdu [283, s.159].

Həmin ildə tanınmış tacik alimi, filoloji elmlər doktoru M.Şükürovun Azərbaycan-tacik ədəbi əlaqələri tarixindən bəhs edən "Ədəbiyyatlarımızın dostluğu" məqaləsi heykəltəraş F.Əbdürrəhmanovun Düşənbədəki Rudəki heykəlinin şəkili ilə bərabər "Ədəbiyyat və incəsənət" qəzetində çap olunmuşdu. Məqalədə müəllif Nizami irsinə son dərəcə yüksək qiymət verərək yazmışdır: "Nizaminin "Xəmsə"si fars-tacik ədəbiy-yatında elə bir təsir buraxmışdır ki, heç bir başqa əsər bu nüfuza malik olmamışdır" [518, s.4].

Məqalədə dostluğumuzun möhkəmlənməsinə təkan verən ümid və inam dolu bir fikir də vurğulanmışdır: "XX əsr Azərbaycan-tacik ədəbi əlaqələri ayrıca tədqiq edilməlidir. Deməliyik ki, artıq belə bir tədqiqat başlanmışdır. Gənc tacik ədəbiyyatşünaslarından Vəli Səmədov bu məsələnin tədqiqi ilə məşğuldur" [518, s.4].

Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə ədəbi-mədəni əlaqələrini tədqiq edən tanınmış alim Əli Saləddin çap olunmuş "İlk tacik qəzetlərinin redaktoru və naşiri azərbaycanlı olmuşdur" məqaləsində bizim üçün çox maraqlı görünən elmi və dəyərli faktları ortalığa qoymuşdur [479, s.4]. Əlbəttə, ilk tacik qəzetlərinin redaktoru və naşiri Mirzə Cəlal Yusifzadənin azərbaycanlı olması bizim üçün qürurverici olduğu kimi, onun dörd ay gündəlik çıxardığı – ilk nömrəsi 1912-ci il martın 11-də işıq üzü görən "Buxarayi-şərif"in (cəmi 153 nömrəsi çıxıb) və ilk nömrəsi 1912-ci il iyulun 14-də nəşr olunan "Turan"ın (cəmi 49 nömrəsi çıxıb) 1913-cü ilin

yanvarında Rusiya hakimiyyəti tərəfindən bağladılmasına qədərki fəaliyyət tarixini ətraflı öyrənmək bizim üçün daha əhəmiyyətli görünərdi [479, s.4].

1972-ci ildə Bakıda "Sovet şərqi xalqlarının ədəbiyyatlarında realizm problemləri" mövzusunda Ümumittifaq müşavirəsi (16-19 oktyabr) keçirilmişdir. Müşavirənin işində Azərbaycan alimləri ilə yanaşı, Moskva, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Tatarıstan və Başqırdıstan nümayəndələri də iştirak etmişdir. Müşavirədə 35 məruzə və bir sıra çıxışlar dinlənilmişdir [466, s.3-4].

Müşavirədə Azərbaycan alimlərindən müşavirəni giriş sözü ilə açan Azərbaycan SSR EA prezidentinin müavini M.A.Dadaşzadə, akademik M.İbrahimov, filoloji elmlər doktorları A.Hacıyev, Ə.Cəfərov, K.Talıbzadə, M.C.Cəfərov, H.Babayev, S.Əsədullayev, B.Nəbiyev, filoloji elmlər namizədlərindən A.Dadaşzadə, Ə.Ağayev, B.Hacıyev, fəlsəfə elmlər namizədi A.Əfəndiyev maraqlı mövzularda məruzələr etmişlər [466, s.3-4].

Tacikistandan gəlmiş nümayəndə, Tacikistan SSR EA-nın müxbir üzvü İ.Braginski zəngin məlumatlara söykənərək göstərmişdir ki, hələ lap qədim ədəbiyyatlarda – Şumer - Akkad, İran əfsanələrində, miflərində realistik, romantik, simvolik, hiperbolik (satirik) ünsürlər eyni vaxtda, birlikdə mövcud olmuşdur. Sonralar da müvafiq olaraq ərəbdilli, farsdilli və türkdilli ədəbiyyatların inkişafı dövründə həmin ünsürlər qüvvədə qalmışdır. Lakin bir metod kimi realizm Şərq xalqları ədəbiyyatlarında XIX əsrdə təşəkkül tapmışdır [466, s.3-4].

Digər tacik nümayəndəsi, filoloji elmlər doktoru M.Şükürov isə məruzəsində Şərqdə sosialist realizmi ədəbiyyatlarında romantik ənənənin və üslub tərzinin xüsusi rolu və mövqeyi məsələsinə toxunmuşdur. Onun qənaətinə görə, inqilabi və romantikanın müasir realizmlə belə bir sintezi Şərqdə milli-romantik ənənənin tarixi və xüsusiyyətləri ilə bilavasitə bağlı olub, həm də müasir ideallarımızın romantik əzəmət və möhtəşəmliyindən irəli gəlirdi [466, s.3-4].

XX əsrin 70-ci illərinin əvvəllərindən etibarən Tacikistan SSR EA Rudəki adına Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Vəli Səmədov Azərbaycan-tacik ədəbi əlaqələrini araşdırmağa başlamışdı. Onun tədqiqatlarının nəticələri öz səmərəsini göstərir, ayrı-ayrı mətbuat orqanlarında çap olunurdu. Onun "Nəsimi və tacik ədəbiyyatı" məqaləsi 1973-cü ilin sentyabrında Bakıda "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilmişdi.

Məqalədə müəllif yazmışdır: "Nəsiminin böyüklüyü, hər şeydən əvvəl ondadır ki, o, ana dilində - zəngin Azərbaycan dilində kamil divan yaratmış, bununla da doğma xalqı qarşısında öz övladlıq borcunu yerinə yetirmişdir. Digər tərəfdən Nəsiminin fars divanı da mövcuddur ki, o, bu divanla bütün farsdilli xalqların, o cümlədən tacik xalqının dərin rəğbətini qazanmışdır. Bizim əsas söhbətimiz də tacik-Azərbaycan ədəbi əlaqələrini öyrənmək üçün qiymətli bir xəzinə hesab etdiyimiz bu divanla bağlıdır "[484, s.4].

1974-cü ildə Vəli Səmədin "Ustad Lahuti və Azərbaycan" məqaləsi Lahutiyə həsr edilmiş "İnqilabi çağırışlı şair" kitabında (Düşənbə, 1974, s.187-189) çap olunmuşdu [253, s.136].

1974-cü ildə pediatriya üzrə görkəmli Azərbaycan alimi, akademik A.Ə.Namazova Tacikistan SSR uşaq həkimlərinin I qurultayının nümayəndəsi olmuş və qurultayda "Uşaqlarda nevrozlarla laktat dihidrogenazların izoenzimatik spektri" və "Diffuz glomerulonefritin nevrotik forması olan xəstə uşaqların uzunmüddətli aralıqlarla dərman hormonal müalicə təcrübəsi" mövzularında məruzə etmişdir [3, s.91-92].

Eyni ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutunun məqsədli aspirantı, tacik Suxrab Aşurov həmin institutun Elmi Şurasında "Kurama dağ silsiləsinin cənubi-şərq yamacı çaylarında sellər (Tacikistan daxilində)" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi adını aldı. Onun elmi rəhbəri coğrafiya elmləri doktoru, professor S.Q.Rüstəmov, rəsmi opponentləri coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov və texnika elmləri namizədi, dosent M.Ə.Məmmədov idi. Onların hər üçü Azərbaycan alimləri idi. Dissertasiya

üçün aparıcı müəssisə Özbəkistan SSR Geologiya Nazirliyinin "Hidroingeo" İnstitutu idi [598, s.1-2].

Yenə həmin ildə, noyabrın 27-də T.Q.Şevçenko adına Düşənbə Dövlət Pedaqoji İnstitutunun əməkdaşı Roziya Nurməhəmməd qızı Heydərova Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsinin Elmi Şurasında "Tacikistan SSR Qissar-Vaxş Sənaye kompleksinin iqtisadi-coğrafi inkişaf problemləri" mövzusunda dissertasiya müdafiə edərək, coğrafiya elmləri doktoru adını almışdı. Onun rəsmi opponentəri Tacikistan SSR EA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor R.K.Rəhimov, coğrafiya elmləri doktoru professor L.A.Valesyan, coğrafiya elmləri doktoru, professor Q.İ.Zardalişvili və iqtisad elmləri doktoru, professor A.A.Nadirov idi. Aparıcı müəssisə Tacikistan SSR-in Dövlət Plan Komitəsi idi [699, s.1-2].

1975-ci ilin avqustunda ABŞ-ın San-Fransisko şəhərində keçirilən tarixçilərin XIV Beynəlxalq konqresində iştirak edən Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə konqresin Təşkilat Komitəsinin üzvü seçilmiş və orada təşkilati işlərdə yaxından iştirak etməklə yanaşı, nümayəndələrin böyük marağına səbəb olan "Sovet hakimiyyəti illərində keçmiş Rusiya imperiyasının Qafqaz, Orta Asiya və Qazaxıstandakı milli azlıqlarının mədəni inkişafı" mövzusunda məruzə etmişdir. (250, s.19) 1976-cı ildə "Azərbaycan za rubejom" jurnalının may nömrəsində çap olunan bu məruzədə Tacikistanla bağlı məsələlərə də toxunulmuşdur [592, s.5-7].

1976-cı ildə Azərbaycan SSR EA-nın akademiki məşhur pediator A.Ə.Namazova Düşənbə şəhərində keçirilən tacik həkimlərinin "Hemolitik anemiya" adlı I respublika elmi konfransında iştirak etmiş və nümayəndələrin böyük marağına səbəb olan "Yeni doğulmuşların hemolitik xəstəliyində laktat dehidrogenazın izoenzimatik spektirinin dinamikası" və "Yeni doğulmuşların hemolitik xəstəliyində ürək-damar sisteminin uyğunlaşmasının xüsusiyyətləri" mövzularında məruzə etmişdir [3, s.94].

Azərbaycan SSR EA-nın müxbir üzvü A.İ.Muxtarovun 1980-ci ildə yazdığı hesabatda göstərilirdi ki, onun rəhbərliyi altında 1976-1980-ci illərdə Mərkəzi Asiya respublikalarından iki nəfər-Səmərqənd Dövlət Universitetindən R.M.İbadov və Düşənbə Dövlət Pedaqoji İnstitutundan P.Rəcəbov ("Neytronların leptonlar və nuklonlarla qarşılıqlı təsiri ilə əlaqədar bəzi məsələlər" mövzusunda) dissertasiya müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi adını almışdılar [94, v.186].

1977-ci il yanvarın 24-də Düşənbədən Azərbaycan SSR EA-nın prezidenti, akademik H.B.Abdullayevin adına məktub göndərilmişdi. Onu filologiya sahəsində Tacikistanda çox tanınmış 13 alim imzalamışdı. Məktubda deyilirdi: "Çox hörmətli Həsən Məmməd Bağıroviç!

Biz, V.İ.Lenin adına Tacikistan Dövlət Universitetinin filologiya və şərqşünaslıq fakültələrinin, tacik ədəbiyyatı tarixi kafedralarının professor və müəllim heyəti, Tacikistan SSR EA-nın Rudəki adına Dil və Ədəbiyyat İnstitutunun və Şərqşünaslıq İnstitutunun elmi əməkdaşları və Tacikistan Yazıçılar İttifaqının üzvləri Sizə vacib bir məsələ ilə əlaqədar müraciət edirik. Məsələ ondadır ki, hələ 1968-ci ilin noyabrında Azərbaycan SSR EA Yaxın və Orta Şərq Xalqları İnstitutunda, elə həmin İnstitutun əməkdaşı Əkrəm Cəfər "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Lakin o zamandan təxminən, 10 il keçməsinə baxmayaraq, bu əsər hələ də çap olunmamışdır. Biz səbirsizliklə onun işıq üzü görməsini gözləyirik.

Görkəmli Azərbaycan şərqşünası, filologiya elmlər doktoru, professor Əkrəm Cəfərin Yaxın və Orta Şərq xalqları ədəbiyyatlarının olduqca böyük və zəngin materialları əsasında ümumi əruzun və Azərbaycan əruzunun nəzəri əsaslarına dair çox mükəmməl və fundamental araşdırmalara söykənən tədqiqatı, həddən artıq aktual və hələ ki, yeganə əsərdir.

Belə işlərin Elmlər Akademiyası xətti ilə nəşr edilmələrini bilərək, sizdən çox xahiş edirik ki, əsərin tezliklə çap olunmasına kömək edəsiniz” [155, s.4].

Bu məktub Azərbaycan aliminin elmi fəaliyyətinə Tacikistanda verilən ən yüksək qiymət idi.

1977-ci ildə Bakıda keçirilən “Böyük Oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı” mövzusundakı Beynəlxalq elmi konfransda (26-28 may) böyük ictimai xadim, Tacikistanın xalq şairi, Tacikistan SSR EA-nın akademiki (1951) (43, s.384-385), Asiya və Afrika ölkələri Həmrəyliyi Sovet Komitəsinin sədri Mirzo Tursunzadə iştirak etmişdir [109, s.1; 119, s.1]. Konfransda Oktyabr inqilabının 60 il ərzində Asiya, Afrika və Latın Amerikası xalqlarının həyatına göstərdiyi müsbət təsir gələn qonaqların çıxışlarında öz əksini tapmışdır.

Həmin ildə Düşənbə şəhərində Mərkəzi Asiyanın qədim tarixinin etnik problemlərinə dair Beynəlxalq simpoziumda Azərbaycanın tarixçi alimlərindən İ.Q.Əliyev, O.A.Əfəndiyev, Ş.F.Fərzəliyev, V.Z.Piriyev, T.M.Musəvi, M.İ.Azərli, F.Məmmədov, E.Mirzəyeva, Ş.Məmmədova və E.Kərimov iştirak edərək maraqlı mövzularda məruzələr etmişlər [93, v.30].

Azərbaycanın tanınmış alimi, biologiya elmləri doktoru C.Ə.Əliyev 1977-ci ildə Tacikistanın paytaxtı Düşənbədə keçirilən “Bitkilərdə fotosintezin ilkin və ikinci məhsulların öyrənilməsi” mövzusuna həsr olunmuş iqtisadi qarşılıqlı əlaqə Şurasının XIII elmi əlaqələndirmə müşavirəsində və simpoziumunda iştirak edərək, “Xloroplastların ilkin reaksiyaları və bitkinin məhsuldarlığı prosesləri” mövzusunda məruzə etmişdir [585, s.3-4; 149, s.87].

70-ci illərdə elmi ezamiyyətlər də elmi əlaqələrə öz müsbət təsirini göstərirdi. 1977-ci ildə Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunun 24 əməkdaşı elmi ezamiyyətdə olmuş, Moskva, Leninqrad, Daşkənd, Alma-Ata, Tbilisi, Yerevan, Riqa, Vilnuş, Tallin, Aşqabad, Düşənbə, Səmərqənd və Maxaçqala şəhərlərinin kitabxana, arxiv və elmi

müəssisələrindən gələcək elmi tədqiqatları üçün çoxlu sayda elmi materiallar toplayaraq gətirmişdilər [93, s.115-116].

1978-ci ildə YUNESKO-nun qərarı ilə tacik yazıçısı, alim və ictimai xadimi Sədrəddin Ayninin anadan olmasının 100 illiyi qeyd edilirdi. Bu münasibətlə azərbaycanlı alim, filologiya elmləri namizədi Qulamhüseyn Əliyev "Ölməz sənətkar" məqa-ləsini yazmışdı. Məqalədə S.Ayninin zəngin ədəbi irsindən, ki-tablarının sovet xalqının təkcə keçmiş iztirablarının və yeni nailiyyətlərinin əks-sədası deyil, öz-özlüyündə bu nailiyyətlərin canlı sübutu olmasından bəhs olunurdu. Müəllif tacik xalqının inqilabdan əvvəlki ağır taleyi və həyatı, sovet hakimiyyəti uğ-runda apardığı mübarizəsinin əks olunduğu "Odina" poves-tindən bəhs edərkən yazmışdır: "Tacik ədəbiyyatı mütəxəssisi İ.S.Braginski "Odina" romanını tacik ədəbiyyatının "Şineli" ad-landırmışdır. "Bütün tacik sovet yazıçıları "Odina"dan çıxmış-lar. Bu, təsadüfi deyilməmişdir. Braginski böyük bir həqiqəti obrazlı şəkildə ifadə etmişdir" [227, s.4].

Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayən-dəsi, tanınmış akademik H.Araslının S.Ayni haqqında yazdığı "Ustad" adlı məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində (1978, 20 may) çap olunmuşdu [283, s.147].

1978-ci ildə Düşənbə şəhərində "Əhalinin nəzərə alınması əsasında regional demoqrafik proqnozlaşdırma" mövzusunda se-minar-müşavirə (21-23 noyabr) keçirilmişdir. Müşavirədə iştirak edən iqtisadçı alim, Azərbaycan SSR EA-nın həqiqi üzvü Z.Ə.Səmədzadə "Demoqrafik inkişaf və sosial infrastruktur sahələrinin planlaşdırılması məsələlərinin perspektiv istiqamət-ləri" mövzusunda məruzə etmişdir [681, s.75-76].

XX əsrin 70-80-ci illərində pambıqçılığın inkişaf etdiril-məsi istiqamətində həyata keçirilən qarşılıqlı yoxlama briqidala-rının tərkibində alimlər də olurdu. 1979-cu il avqustun 10-dan 16-dək "Tacikkəndtəstexnika" ("Таджселхозтехника") Res-publika Birliyinin sədri A.M.Babayevin başçılığı ilə Tacikistan-dan Azərbaycana gəlmiş 8 nəfərlik qarşılıqlı yoxlama briqa-dasının tərkibində tacik alimi X.Rəşidov da var idi. O, yarış

dostları ilə birlikdə pambıq tarlalarında olmaqla yanaşı, üzümçülük təsərrüfatlarına, heyvandarlıq fermaları və komp-lekslərinə, Azərbaycan Elmi Tədqiqat Pambıqçılıq İnstitutuna da getmişdi. Bitkilərin yan zoğlarının uclarının vaxtında vurulma-masının məhsulun intensiv yetişməsini ləngitdiyini Azərbay-canda Ucar rayonunun Nizami və "Qafqaz" kolxozlarında olar-kən əyani şəkildə əməkçilərə başa salmışdır [491, s.2].

70-ci illərdə Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) "Azərbaycan SSR EA Xəbərləri"nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Tacikistan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Eləcə də Tacikistan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr olunan bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını azərbaycanlı həmkarlarına çatdırmışdır [70].

### 4.4.1980-1991-ci illərdə elmi əlaqələr

XX əsrin 80-ci illəri sovet imperiyasında elmi biliklərin inkişaf etdiyi, elmi əlaqələrin gücləndiyi, ictimai-siyasi hadisə-lərin dərinləşdiyi, milli münasibətlərin çat verdiyi, seperatçılıq, müstəqilliyə can atmaq istəklərinin gücləndiyi dövr idi. Bu dövrdə gərginliyi dərk edən "mərkəz" hadisələri qabaqlamaq, qarşısını almaq əvəzinə, səhv, yanlış addımlar ataraq ziddiyyət-ləri daha da dərinləşdirirdi. "Yenidənqurmanın" yenidənqırmaya çevrildiyi, onilliklərlə qazanılmış təcrübənin, birliyin üstündən xətt çəkildiyi, yalançı beynəlmiləlçi nağıllarının daha işə keçmə-diyi illər idi. Çar Rusiyasının gerçəkləşdirə bilmədiyi, "parçala, hökm sür" siyasətinin sovet qazanında bişən ideologiyasının görünən və görünməyən qatlarındakı paxırın açıldığı, çat verdiyi zaman idi. Ölkənin daxilinə nüfuz edə bilməyən xarici qüvvə-lərin əl-qolunun açıldığı, ölkə rəhbərliyi səviyyəsində dağıdıcılıq planlarının işə salındığı zaman idi. Dünyanı təlatümə gətirən sovetlər imperiyasının son akkordlarının vurulmasına doğru gedən bəstənin çalınmasına hazırlığın görüldüyü illər idi.

XX əsrin 80-ci illərinin əvvəllərində Azərbaycanda "kütlələrin beynəlmiləlçilik şüurunun formalaşdırılması, onların sosialist beynəlmiləlçiliyi və sovet vətənpərvərliyi ruhunda tərbiyə edilməsi Azərbaycan Kommunist Partiyasının ideoloji və təşkilatçılıq işində əsas yerlərdən birini tutur"du [108, s.3].

Azərbaycan KP MK-nın 1981-ci il 4 noyabr tarixli "Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərarı beynəlmiləl əlaqələrin gücləndirilməsi istiqamətində görüləcək işləri genişləndirdi. Qərarda respublikamızda bərqərar olmuş beynəlmiləlçilik, dostluq və qardaşlıq şəraitinin bütün müvəffəqiyyət və nailiyyətlərimizin başlıca amillərindən birinə çevrildiyi göstərilmişdir. Bu qərarda elmi əlaqələrə beynəlmiləl tərbiyənin bir vasitəsi, tərkib hissəsi kimi xüsusi fikir verilmiş və onun daha da inkişaf etdirilməsi naminə "Təbiət elmləri, texniki, iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etmək" irəli sürülmüşdür [108, s.16].

Azərbaycan və tacik alimləri qarşılıqlı şəkildə bir-birinin elmi toplantı və tədbirlərində ardıcıl olaraq iştirak edir, fikir və mülahizələrini birgə bölüşürdülər. 1980-ci ildə YUNESKO-nun qərarı ilə görkəmli mütəfəkkir və ensiklopedist alim Əbu Əli ibn Sinanın anadan olmasının 1000 illiyi qeyd edilirdi. Yubileyi keçirən təşkilat komitəsinin sədrinin müavini, Tacikistan SSR EA-nın prezidenti Məhəmməd Asimov XMA-nın müxbiri Yuri Zemmelinə alimin irsinin əhəmiyyəti və Tacikistanda yubileyə hazırlıq haqqında danışmışdır. "Şərqin nurlu dühası" adlı həmin yazı Azərbaycan mətbuatında da çap olunmuşdur [512, s.4].

Azərbaycan SSR EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun şöbə müdiri, filologiya elmləri namizədi M.Sultanov böyük alimin anadan olmasının 1000 illiyi qarşısında "Dahi alim və şair" məqaləsini yazmış [504, s.4] və onun "Nəsihət", "Mərdə yaraşmayan sifətlər", "Rübailər" və "Həsbi-

hal" şeirlərini fars dilindən çevirməklə oxuculara təqdim etmişdir [312, s.3].

1980-ci il sentyabrın 20-də Düşənbədə qüdrətli alim İbn Sinanın 1000 illiyi ilə əlaqədar təntənəli yubiley gecəsi keçirilmişdir. Yubiley tədbirlərində iştirak edən Azərbaycan SSR EA-nın prezidenti akademik H.A.Abdullayev böyük alimin elmi irsinə və bədii yaradıcılığına xalqımızın xüsusi hörmət və sayğı ilə yanaşdığını və alimə dərin məhəbbətin ifadəsi kimi azərbaycanlı heykəltəraş tərəfindən yaradılmış abidənin Düşənbədə əzəmətlə ucaldığını söyləmişdir [614, s.3]. Yubiley tədbirinin iştirakısı – Azərbaycanın görkəmli şərqşünas alimi, fəlsəfə elmləri doktoru, professor Z.C.Məmmədov "İbn Sina məktəbinin Azərbaycanlı nümayəndələri" mövzusunda məruzə etmişdir [572, s.23].

1981-ci ildə Düşənbə şəhərində keçirilən "XI beşillikdə və uzaq gələcəkdə xalq təsərrüfatında əmək ehtiyatlarının formalaşması və səmərəli istifadə edilməsi" mövzusundakı elmi konfransda (1-2 oktyabr) Azərbaycanın tanınmış iqtisadçı alimi, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov "XI beşillikdə və uzaq gələcəkdə Azərbaycan SSR-də əmək ehtiyatlarının formalaşması və istifadəsi perspektivləri" mövzusunda məruzə etmişdir [652, s.26-28; 507, s.187].

Həmin il noyabrın 25-də Azərbaycan SSR Elmlər Akademiyasında görkəmli astronom, riyaziyyatçı, filosof Məhəmməd Nəsirəddin Tusinin anadan olmasının 780 illiyi münasibətilə keçirilən elmi sessiyanın işində Azərbaycan alimləri ilə bərabər onların Moskvadan, Leninqraddan, müttəfiq respublikalardan gəlmiş həmkarları da iştirak etmişlər. Sessiyaya gəlmiş Tacikistan SSR Elmlər Akademiyası fəlsəfə şöbəsinin bölmə müdiri, fəlsəfə elmləri namizədi M.D.Dinorşoyev "Tusi və fəlsəfədə peripatetizm ənənələrinin inkişafı" mövzusunda məruzə etmişdir [131, s.4].

Həmin gün Sov. İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev sovet alimləri qrupunu qəbul etmiş [65, s.1] və M.F.Axundov

adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında təntənəli yubiley gecəsi keçirilmişdir. Gecədə çıxış edən Tacikistan SSR EA fəlsəfə şöbəsinin bölmə müdiri, fəlsəfə elmləri namizədi M.D.Dinorşoyev Azərbaycan xalqının mədəniyyət ənənələrinin kökünün "Avesta"ya, Bəhmənyara, Nizamiyə, Xaqaniyə gedib çıxdığını, xalqın dühasını təcəssüm etdirmiş belə böyük şəxsiyyətlərdən birinin də Tusi olduğunu söyləyərək, "Bu şairin, alimin və humanistin fikirləri dövrümüzlə səsləşir. Tusi həm də beynəlmiləlçi idi. Axı ən zəkalı adamların toplaşdıqları Marağa rəsədxanasında həmyerlilərinizlə birlikdə ərəblər, taciklər, farslar da işləmişdir. Onların birgə yaradıcılığı bəşər zəkasının çələngini yaratmışdır" demişdir [251, s.2].

Müasir Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, akademik K.A.Talıbzadənin rus dilində çap olunmuş "XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidi" (Bakı, 1966) kitabı XX əsrin 80-ci illərində tacik ədəbi tənqidçiləri arasında çox ciddi təsir oyatmışdı. Tacikistan SSR EA-nın Rudəki adına Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri M.Ş.Şükürov 1980-ci il fevralın 26-da bu barədə yazmışdı: "Professor K.A.Talıbzadənin 60-70-ci illərdə çoxsaylı elmi və elmi-təşkilati fəaliyyəti sovet ədəbi tənqidinin inkişafı üçün böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycan ədəbiyyatının (ilk növbədə, elmlə tanış olan) ən maraqlı materialının dərindən öyrənilməsi, ona qardaş ədəbiyyat və sovet xalqlarının qarşılıqlı əlaqəsi və qarşılıqlı təsiri, tənqid nəzəriyyəsinin tarixi, Sovet şərq ədəbiyyatında realizm nəzəriyyəsinin problemini, öyrənməkdə yeni bir söz demək imkanı verdi.

Şərq realizmi problemlərinin araşdırılmasında Azərbaycan elminin öndə olmasında professor K.A.Talıbzadənin gördüyü mühüm işlərin də böyük əhəmiyyəti olmuşdur.

K.A.Talıbzadənin böyük əhəmiyyət daşıyan dərin nəzəri ümumiləşdirmələri, təkcə Azərbaycan ədəbiyyatı üçün deyildir. Onlar sovet ittifaqı xalqlarının, xüsusilə də, tacik ədəbiyyatının bir çox aktual problemlərini həll etməyə kömək edir. Buna görə

də, K.A.Talıbzadənin əsərləri tacik ədəbi tənqidçiləri arasında çox populyardır” [322, s.57].

Tacikistan SSR EA-nın akademiki Rəhim Müsülmanqulov isə 1986-cı il yanvarın 17-də yazmışdır: “Professor Talıbzadə Kamal Abdulla Şaiq oğlu bizim ölkəmizin ədəbi tənqid sahəsində çalışan məşhur mütəxəssislərindən biridir. Təxminən 40 ilə yaxındır ki, o, Azərbaycan ədəbi tənqidi və əsasən də onun tarixi məsələləri ilə məşğul olur. Tacik-fars xalqlarının orta əsr ədəbi fikir tarixinin – məsələn, məxəzlərin təsnifində, materialların sistemləşdirilməsində, istiqamətlərin müəyyənləşdirilməsində, mənşəyinin üzə çıxarılmasında, terminlərin sabitləşdirilməsində və sairənin gələcəkdə araşdırılması işində professor K.A.Talıbzadənin bu başlanğıcı dayaq ola bilər.

Professor K.A.Talıbzadəni Tacikistanda yaxşı tanıyırlar, onun elmi-kütləvi nəşrlərimizdə iqtibas gətirilən ayrı-ayrı fikirləri, müddəaları bizim ədəbiyyatşünas və tənqidçilərin gələcək inkişaf stimuluna xidmət edirlər” [322, s.59].

Akademik R.Müsülmanqulov 1989-cu ildə yenə professor K.A.Talıbzadə haqqında yazmışdır: “Ədəbi tənqid tarixinin öyrənilməsi sahəsində akademik K.A.Talıbzadə məktəbi onun çoxsaylı əsərləri, şagirdləri və davamçılarının timsalında getdikcə böyük şöhrət və nüfuz qazanır. Professor K.A.Talıbzadənin adı Tacikistanda da məşhurdur” [322, s.59].

80-ci illərdə Azərbaycan-tacik elmi əlaqələrinin inkişafında böyük Azərbaycan şairi Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi istiqamətində keçirilən elmi konfransların mühüm rolu olmuşdur. Azərbaycan KP Mərkəzi Komitəsinin “Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında” 1979-cu il və “Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında” 1981-ci il tarixli qərarlarının Nizami irsinin öyrənilməsi, nəşri və təbliği istiqamətində əhəmiyyəti böyük idi. 1979-cu il qərarı əsasında Azərbaycan SSR EA Rəyasət Heyəti nəzdində Nizami Komissiyası yaradılmış, EA-nın Ədəbiyyat İnstitutunda Nizamişünaslıq

şöbəsi açılmış, Azərbaycanda ənənəvi Nizami Gəncəvi poeziya günləri, Ümumittifaq elmi konfransları və lektoriyalar keçirilməyə başlanılmışdı [217, s.117; 41, s.249].

Azərbaycan KP MK-nın 1979-cu il qərarına uyğun olaraq dahi sənətkarın həyat və yaradıcılığını daha dərindən tədqiq etmək məqsədi ilə iki ildən bir Ümumittifaq elmi konfransının keçirilməsi yaxşı bir ənənə halını almışdı.

Azərbaycan EA Nizami komissiyası və Nizaminin adını daşıyan Ədəbiyyat İnstitutunun birgə səyi nəticəsində 1980-ci il noyabr ayının sonlarında Bakıda "Nizami Gəncəvi və XI-XII əsr Azərbaycan mədəniyyəti" mövzusunda birinci Ümumittifaq elmi konfransı keçirilmişdir [428, s.6]. İki gün çəkən konfrans ərzində 40-dan çox elmi məruzə və məlumat dinlənilmişdir. Konfransa gəlmiş Tacikistan SSR EA Şərqşünaslıq İnstitutunun bölmə müdiri A.Əlimərdanov vətəninə qayıtdıqdan iki ay sonra Düşənbədən göndərdiyi məktubda öz xoş təəssüratını minnətdarlıqla bildirmişdir. "Nizaminin Vətənində" adı ilə qəzetdə çap olunmuş həmin yazıda konfransın bütün gedişinin Azərbaycan KP MK-nın Nizami irsi barədə qərarının tam təsiri altında keçdiyini və həmin qərara alimlərin ilk cavabı olduğunu, Nizami Gəncəvinin həyat və yaradıcılığının öyrənilməsi sahəsində həm ölkəmizdə, həm də xaricdə çox iş görüldüyünü, ancaq böyük şairin dövrü və özündən sonrakı ədəbi prosesə təsiri ilə bağlı bir sıra məsələlərin diqqətdən kənarda qaldığını göstərmiş, "bu baxımdan, filologiya elmləri doktoru, tanınmış şərqşünas, Nizami adına Ədəbiyyat İnstitutunun nizamişünaslıq şöbəsinin müdiri R.Əliyevin məruzəsinin diqqəti cəlb etdiyini", məruzədə onun Nizaminin tədqiqi sahəsində görülmüş işləri ümumiləşdirməklə, böyük şairin həyat və yaradıcılığının tədqiqi vacib olan təzə aspektlərini açıqladığını qeyd etmişdir [233, s.4].

Elmi məclisin məruzə və çıxışları qurtardıqdan sonra onun nümayəndələri ilə Nizaminin vətəni Gəncəyə səfər edən A.Əlimərdanov şairin məqbərəsini ziyarət etmiş, şəhərin görməli yerlərini gəzmiş, burada köhnə memarlıq abidələrinin, Gəncənin qədim simasının bərpa edilməsinə çox böyük fikir

verildiyinin şahidi olmuş və qonaqları heyrətdə qoyan poeziya teatrında Nizaminin “Yeddi gözəl” poeması əsasında hazırlanmış tamaşaya baxmaqla, çox təsirləndiklərini bildirmiş və xalqımızın Nizamiyə sonsuz məhəbbətini belə ifadə etmişdir: “Böyük şairin varisləri öz Nizamilərinin adını böyük məhəbbət və fəxrlə çəkirlər. Onun poeziyası burada – şairin vətənində xüsusi məhəbbətlə çəkilir. Onu hamı bilir və sevir. Bu da təsadüfi deyil. Çünki Nizami özü də böyük yaradıcılığı ilə həmişə öz xalqı ilə olmuşdu. Onun poeziyasının əsas motivləri insanlar arasında məhəbbət və dostluq idi, insanın böyüklüyü, kamilliyi idi, onun ağlının təntənəsi idi. Şairin yaşadığı dövrdən bizi əsrlər ayırır, lakin onun poeziyası xalqın ürəyində yaşamaqda davam edir. Böyük şairə bu məhəbbəti xalq əbədi olaraq öz ürəyində yaşadacaqdır” [233, s.4].

1981-ci il oktyabrın 6-da Nizami Gəncəvinin anadan olmasının 840 illiyi münasibətilə Azərbaycan SSR EA-nın Rəyasət Heyəti elmi sessiya keçirmişdir. Sessiyada Azərbaycan SSR EA-nın akademiki H.M.Araslı “Nizami və Şərq ədəbiyyatları” mövzusunda məruzə etmişdir. Tacikistandan gəlmiş qonaq, professor S.Ə.Əsədullayev Nizaminin bioqrafiyasının əvvəllər məlum olmayan yeni faktları haqqında məlumat vermişdir. O, bu faktları şairin həyat və yaradıcılığı ilə əlaqədar apardığı tədqiqatlar nəticəsində ortaya çıxardığını söyləmişdir [441, s.1].

1982-ci ildə Azərbaycan SSR EA Nizami komissiyasının “Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları” problemləri üzrə elmi şurası və Nizami adına Ədəbiyyat İnstitutu “Nizami və dünya ədəbiyyatı” mövzusunda II Ümumittifaq elmi konfransı keçirmişdi. Elmi konfransda qardaş respublikaların elmi ictimaiyyətinin nümayəndələri iştirak etmişdilər. Düşənbədən gəlmiş filologiya elmləri doktoru A.Əfsəhzod Nizami yaradıcılığının dünya ədəbi prosesi ilə, o cümlədən tacik ədəbiyyatı ilə əlaqələrinin öyrənilməsi istiqamətində görülən işlərin əhəmiyyətindən bəhs edən maraqlı məruzə etmişdir [429, s.4].

Konfransda təqdim edilmiş məruzə və məlumatlar Nizami yaradıcılığının müxtəlif cəhətlərinə həsr olunmuş və şairin

dünyagörüşünün, ictimai-siyasi və estetik baxışlarının öyrənilməsinin konkret məsələləri barəsində fikirləri ifadə etmişdir.

Azərbaycan EA Nizami komissiyası və Nizami adına Ədəbiyyat İnstitutunun "Nizaminin dünya ədəbiyyatında lirikanın inkişafındakı rolu" və "Xosrov və Şirin" poemasının 800 illiyi" mövzusundakı III Ümumittifaq elmi konfransı 1984-cü ilin dekabrında Bakıda keçirilmişdir. Konfransa qatılan Düşənbəli alim, filologiya elmləri doktoru A.Əfsəhzod, A.Dehati və M.Tursunzadənin "Xosrov və Şirin" dramına həsr olunmuş maraqlı və yadda qalan məruzə ilə çıxış etmişdir [428, s.6].

Konfransda Nizaminin doğma Azərbaycanla möhkəm bağlılığı probleminə, eləcə də onun Ümumittifaq və daha geniş – Yaxın Şərq və Qərb ölkələri miqyasında ədəbi münasibətlərinə, demək olar, eyni dərəcədə diqqət yetirilmişdir. Buna görə də bir hissə məruzələrdə "Xəmsə" Azərbaycanın tarixi, onun ictimai həyatı, iqtisadiyyatı və mədəniyyəti barədə qiymətli məlumat verən ədəbi tarixi sənəd, mənbə kimi tədqiq və təhlil olunmuşdur [428, s.6].

Azərbaycan SSR EA Nizami komissiyası və Nizami adına Ədəbiyyat İnstitutunun "Leyli və Məcnun" poemasının 800 illiyi və nizamişünaslığın aktual problemləri" mövzusundakı IV Ümumittifaq elmi konfransı 1989-cu il dekabrın 20-21-də Bakıda keçirilmişdir. Konfransda Azərbaycan alimləri ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Tacikistanın müvafiq elm ocaqlarının mütəxəssisləri də iştirak edirdilər. İki gün çəkən konfransın plenar və üç bölmədən ibarət iclaslarında Nizaminin "Leyli və Məcnun"unda tarixilik, poetika və sənətkarlıq problemləri, elmi-sosial və fəlsəfi baxışlar, ədəbi-bədii təsir və əlaqələr üzrə 22 məruzə və bir silsilə çıxış dinlənilmiş, fikir mübadiləsi aparılmış, müəyyən mühakimələr yürüdülmüş və qənaətlər alınmışdır [465, s.2].

Elmi konfransda tacik alimi, filologiya elmləri doktoru A.Əfsəhzod "Nizamidə Xeyir və Şər" mövzusunda maraqlı və yaddaqalan məruzə etmişdir [465, s.2].

Konfransda yaxın vaxtlarda “Nizaminin dünyagörüşü” mövzusunda yeni bir elmi məclis keçirmək qərara alınmışdır. Konfransın iştirakçısı olmuş alim R.Azadə xanım onun elmi əhəmiyyətini yüksək dəyərləndirərək belə yazmışdır: “Dahi şair və mütəfəkkirin anadan olmasının 850 illiyi münasibətilə keçiriləcək Ümumittifaq (1990) və dünya simpoziumu (1991) ərəfəsində ara mərhələ təşkil edən, xalis elmi, təntənəsiz IV Nizami konfransı qarşıdakı təntənəli yubiley aktı üçün nizamişünaslığın aktual problemlərini daha dərindən və daha məqsədyönlü öyrənmək istiqamətində yeni bir uğurlu addım oldu [465, s.2].

Tacik alimləri Bakıda keçirilən ümumi və tətbiqi kimyaya dair XII Mendeleyev qurultayında (1981, 21-25 sentyabr) [561, s.1; 562, s.1; 560, s.3), sovet şərqşünaslığının aktual problemlərinə həsr edilmiş şərqşünasların II Ümumittifaq konfransında (1983, 25-27 may) [498, s.1; 499, s.1; 500, s.1], “Sovet adamının mənəvi aləmində milli və beynəlmiləl cəhətlərin dialektikası” mövzusundakı Ümumittifaq elmi praktiki konfransında (1983, 6-10 dekabr) [389, s.1; 393, s.2; 390, s.3; 391, s.1; 388, s.2] və “Müsəlmanlar sülh uğrunda mübarizədə” mövzusundakı Beynəlxalq islam konfransında (1986, 1-3 oktyabr) [240] fəal iştirak etmiş, dəyərli elmi fikir və mülahizələrini iştirakçılarla bölüşmüşlər.

Görkəmli şərqşünas alim, fəlsəfə elmləri doktoru, professor Z.C.Məmmədovun Düşənbədə 1981-ci ildə “İbn Sina və orta əsr fəlsəfəsi” toplusunda “İbn Sinanın görkəmli tələbəsi Bəhmənyar”, 1983-cü ildə “Doniş” nəşriyyatının məqalələr toplusunda “Xarici Şərqin fəlsəfi və ictimai düşüncəsinin aktual problemləri haqqında” və 1988-ci ildə “Ağılın qələbəsi” toplusunda “İbn Sina məktəbinin azərbaycanlı nümayəndələri” elmi məqalələri çap olunmuşdu [572, s.108, 110, 114].

Pambıqçılığın inkişafında alimlər də mühüm rol oynayırdı. 1982-ci il iyulun 25-dən 30-dək Azərbaycanda olan Tacikistanın 11 nəfərdən ibarət qarşılıqlı yoxlama briqadasının tərkibində Tacikistan Elmi-Tədqiqat Bağçılıq və Üzümçülük İnstitutu

Leninabad filialının şöbə müdiri, kənd təsərrüfatı elmləri namizədi Əlibəy Erqaşov da var idi. O, kənd əməkçilərimizə dəyərli məsləhətlər verməklə yanaşı, bu sahədə fəaliyyət göstərən elmi-tədqiqat institutlarımızın elmi nailiyyətləri ilə də yaxından tanış olmuşdur [252, s.3].

1986-cı ildə Azərbaycanın tanınmış kimyaçı alimi, kimya elmləri doktoru, professor S.F.Qarayev Qazaxıstan və Mərkəzi Asiya kimyaçı alimlərinin Düşənbədə keçirilən kimyəvi reaktivlərə dair I Regional Müşavirəsinin iştirakçısı olmuş və orada "Naftenlərin proparqlı oksi törəmələri və onların xüsusiyyətləri" mövzusunda məruzə etmişdir [494, s.81].

Tacik alimləri beynəlxalq elmi konfrans və seminarlarda da azərbaycanlı həmkarları ilə görüşür, elmi fikir və mülahizələrini bölüşdürürdülər. 1987-ci ilin yazında London universitetinin "Şərq və Afrika tədqiqatları məktəbi"ndə "Mərkəzi Asiya elmi tədqiqatlar üzrə ikinci Avropa seminarı" mövzusunda elmi yığıncaq keçirilmişdir. Dörd bölmədən ibarət ("İncəsənət və memarlıq", "Din", "Tarix, dil və ədəbiyyat", "Siyasət, iqtisadiyyat və ictimai dəyişikliklər") olan seminarda yüzdən çox məruzə oxunmuşdur. Seminarda Azərbaycanın görkəmli tarixçi alimi Oqtay Əfəndiyevin Səfəvilər hakimiyyəti dövründə iki ictimai zümrənin – köçəri və oturaq həyat tərzi keçirən əhali arasındakı ziddiyətin dövlət quruluşuna və iqtisadiyyatın inkişafına olan təsiri, azərbaycanlı alim, sənətşünaslıq namizədi Kübra Əliyevanın məşhur türkmən xalıları ilə Azərbaycan "Tərəkəmə" xalçalarının müqayisəsi və tacikistanlı alim, sənətşünaslıq doktoru Müqəddimə Əşrəfinin Orta Asiya miniatür sənəti mövzularındakı məruzələri böyük maraqla qarşılanmışdır [236, s.4].

Tacik alimləri Azərbaycanın ən mühüm tədbirlərində və xoş günlərində də həmişə həmkarlarının yanında olurdular. 1980-ci il aprelin 23-24-də Azərbaycan SSR-in və Azərbaycan KP-nin yaradılmasının 60 illiyi bayramında iştirak etmək üçün Tacikistandan gəlmiş qonaqlar arasında V.İ.Lenin adına Tacikistan Dövlət Universitetinin rektoru, Tacikistan SSR EA-nın akademiki P.B.Babacanov da var idi [179, s.3].

Azərbaycanlı alimlər də Tacikistanla elmi əlaqələrin möhkəmlənməsinə öz töhfələrini verirdilər. 1987-ci ildə Azərbaycan SSR EA-nın SSRİ Xalqları dostluğu sarayı Oktyabr inqilabının 70 illiyinə həsr olunmuş elmi-praktik konfranslar keçirirdi. Sarayın həmin ilin sentyabr ayının ortalarında keçirdiyi növbəti konfrans Tacikistan SSR-ə həsr edilmişdi. Konfransda çıxış edən tarix elmləri doktoru A.Məmmədov, tarix elmləri namizədləri R.Zeynalov, V.Sarkisov və filologiya elmləri namizədi R.Quliyevin məruzələri Azərbaycan-Tacikistan əlaqələrinin müxtəlif istiqamətlər üzrə möhkəmləndirilməsinə həsr olunmuşdu.

Konfransın sonunda iştirakçılar Dostluq sarayının Tacikistan SSR-ə həsr etdiyi sərgi ilə də tanış olmuşlar [565, s.3].

Görkəmli alim, akademik C.Ə.Əliyev 1987-ci il sentyabrın 29-dan oktyabrın 2-dək Düşənbədə keçirilən "Kənd təsərrüfatı bitkilərinin genetikası, seleksiyası və intensiv texnologiyası" adlı elmi konfransda iştirak etmiş və orada "Fotosintez əlamətlərinin məhsuldarlıqda və ideal buğda bitkisinin seleksiyasında əhəmiyyəti" mövzusunda məruzə etmişdir [149, s.21].

Həmin ildə tacik alimi H.Ə.Əhmədov akademik C.Ə.Əliyevin rəhbərliyi altında Düşənbədə "Fenotip xüsusiyyətləri, yetişdirmək şəraiti və fotosintezin məhsuldarlığı ilə əlaqədar olaraq buğda bitkilərinin ontogenezində $CO_2$ mübadiləsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir [149, s.111].

XX əsrin 80-ci illərində Tacikistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) "Tacikistan SSR EA Xəbərləri"nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Eləcə də Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr olunan bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını tacik həmkarlarına çatdırmışdir [70].

80-ci illərin sonlarında bütün ölkədə baş verən siyasi təlatümlər, iqtisadi əlaqələrin zəifləməsi, millətlərarası münasibətlərin pozulması, müstəqilləşmə meyllərinin güclənməsi və

nəhayət Sovetlər ittifaqının dağılması elmi əlaqələri zəiflətsə də, ancaq tamamilə qıra bilmədi. Öz tarixi müstəqilliklərinə qovuşan xalqlar onları birləşdirən ümumi bağlara söykənib zəifləmiş əlaqələri təzədən dirçəltməyə başladılar. Çünki elmin tərəqqi və inkişaf yolu olduğunu yaxşı dərk edir və sübuta, isbata ehtiyacı olmayan aksiom kimi onu birdəfəlik qəbul edirdilər.

1990-cı ilin avqustunda Tacikistan SSR Nazirlər Soveti sədrinin birinci müavini T.N.Nəzərov başda olmaqla, böyük bir nümayəndə heyəti Bakıya gəlmişdi. Məqsəd iki respublika arasında istehsal-texniki təyinatlı məhsul və xalq istehlakı malları mübadiləsinin indiki həcmlərini saxlamaqla kifayətlənməmək, 1991-ci ildə bunların artırılması üçün əlavə ehtiyat mənbələri axtarıb tapmaq, iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş hazırlamaq idi [100, s.2].

1990-cı ildə Düşənbə şəhərində "Mərkəzi və Yaxın şərq xalqlarının zərif və bədii ənənələri" mövzusunda memarların Beynəlxalq simpoziumu keçirilmişdir. Simpoziumda iştirak edən memarlıq doktoru, professor C.Ə.Qiyasi R.M.Bayramov ilə birgə yazdıqları "Siz şəhərin islamdan öncəki tikililəri və Azərbaycanın orta əsr memarlığı (ənənə və müasirlik məsələləri)" mövzusunda məruzə ilə çıxış etmişdir [150, s.11, 107].

1998-ci ildə Düşənbə şəhərində torpaqşünasların Beynəlxalq elmi konfransı keçirilmişdir. Konfransda AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, kənd təsərrüfatı elmləri doktoru, professor M.P.Babayev "Azərbaycanda suvarılan boz-qonur torpaqların diaqnostikası" mövzusunda məruzə etmişdir [379, s.17-18].

2007-ci il martın 15-16-da Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin Tacikistan Respublikasına [101, s.1; 102, s.1], Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun isə 2007-ci il avqustun 13-14-də [63, s.1,2; 64, s.2] və 2018-ci il avqustun 10-11-də Azərbaycan Respublikasına rəsmi səfərləri və bu qarşılıqlı səfərlər zamanı bir sıra sənədlərin imzalanması iki ölkə arasında siyasi, iqtisadi, elmi-texniki və mədəni əlaqələrin güclənməsinə öz təsirini göstərmişdir [520, s.1].

# V Fəsil

## Azərbaycan-Türkmənistan elmi əlaqələri

Azərbaycan və türkmən xalqlarının elmi-mədəni əlaqələrinin tarixi çox qədimdir. Bu çoxəsrlik əlaqələrin araşdırılması və öyrənilməsi zamanın başlıca tələblərindən biridir. Çünki müstəqil dövlətçiliyimizin yaşaması və möhkəmlənməsi həm də birliyimizdən, tarixi kökümüzə qayıdışımızdan və qırılmaz tellərlə bir-birimizə bağlılığımızdan da irəli gəlir.

Azərbaycan və türkmən xalqları arasındakı dostluq zaman-zaman ədəbiyyat, məişət, mədəniyyət yaxınlığı və qədim sənət abidələri əsasında yaşayaraq möhkəmlənmişdir.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda 2017-ci il avqustun 8-9-da rəsmi səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İ.Ə.Əliyev demişdir: "Bizim xalqlarımızı tarix birləşdirir. Biz əsrlər boyu bir yerdə yaşamışıq, dostluq etmişik, qardaşlıq şəraitində yaşamışıq. Bu gün isə iki müstəqil dövlət kimi uğurla inkişaf edirik. Sizin səfəriniz bizim əlaqələrimizə yeni dinamika gətirəcək. Biz bir sıra sahələrdə çox uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq dərinləşəcək. Siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat və digər sahələrdə inkişaf və əməkdaşlıq üçün çox yaxşı imkanlar var" [547, s.1].

Türkmənistan Respublikasının Prezidenti Q.Berdiməhəmmədov da həmin gün cavab nitqində yüksək əminliklə söyləmişdir: "... bizim dillərimizin, tariximizin, mənəvi dəyərlərimizin kökləri əsrlərin dərinliklərindən başlanır, onlar bir-birinə yaxın və oxşardır. Bütün bunları qoruyub saxlamaq və növbəti nəsillərə çatdırmaq mühüm məqamdır" [547, s.1].

Avqustun 9-da Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov ölkəmizdə rəsmi səfərdə olan Türkmənistan Prezidenti Q.Berdiməhəmmədov ilə görüşdə razılıq hissi ilə demişdir ki, "ölkələrimizin arasında indiyədək 45 sənəd imzalanmışdır, bu səfər çərçivəsində isə daha 14 sənəd imzalandı və

bununla da mövcud hüquqi baza daha da möhkəmləndirildi. "Azərbaycan Respublikası ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"nin imzalanması isə ölkələrimizin hərtərəfli əməkdaşlığının daha da inkişafına geniş imkanlar açacaq" [394, s.1].

Azərbaycanın Türkmənistanla mədəni əlaqələrinin inkişafında elmi əlaqələrin də mühüm rolu olmuşdur. İctimai şüurun formalarından biri olan elm artıq insanın əməli və nəzəri fəaliyyətinin başlıca sahəsinə çevrilmişdir. Onun cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsiri əvəzsizdir. Elm həmçinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir [39, s.40].

"Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keirilmiş bir vasitədir" (M.F.Axundov) [404, s.108-109].

Elm tərəqqi mənbəyidir. Ona böyük diqqət yetirilməsi, qayğı göstərilməsi və daim yüksək dəyərləndirilməsi də, heç də təsadüfi deyildir. Elmin nəticələri təkcə bir ölkə hüdudlarında məhdudlaşıb qalmır. O, ümumbəşəri mahiyyəti ilə bütün dünyanın qazancına çevrilir. Elmi əlaqə daim alimləri birləşdirir, dövlətləri, xalqları yaxınlaşdırır. İnsanlarda haqqa, ədalətə bağlılıq hissini gücləndirir. Elm hamıya gərəkli və faydalı olduğu kimi, onun qaldırdığı və həll etmək istədiyi problemlər də bütün bəşəriyyətin taleyi ilə həmişə bağlı olur. Çıxarılan nəticə odur ki, inkişaf etmiş elm sahələrinin əməkdaşlığı olmadan böyük və ciddi problemlərin həllini tapmaq qeyri-mümkündür.

Elmi əlaqələrin əhatə dairəsinə elmi ezamiyyət, birgə təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və s. formalarda özünü daha çox göstərir [480, s.126].

## 5.1. 1920-1945-ci illərdə elmi əlaqələr

Azərbaycanın Mərkəzi Asiya ilə XX yüzilliyin 20-30-cu illərindən inkişaf etməyə başlayan iqtisadi əlaqələri Azərbaycan-türkmən elmi əlaqələrinə də öz müsbət təsirini göstərirdi. Azərbaycanda və Türkmənistanda pambıqçılığın bərpasına xüsusi önəm verilirdi. Xalq komissarları Sovetinin 1920-ci il noyabrın 25-də bu respublikalarda pambıqçılığın bərpa edilməsi haqqında Lenin tərəfindən imzalanmış dekretində deyilirdi ki, "RSFSR Xalq Torpaq Komissarlığına bir vəzifə olaraq tapşırılsın: a) iki həftə müddətində (pambıq becərən təsərrüfatlara kollektiv və tək təsərrüfatlara) torpaq və sudan istifadə imtiyazları haqqında nizamnamə tərtib etsin. Bu nizamnamə Türkmənistan və Azərbaycan respublikalarının əlaqədar Xalq Komissarları ilə razılaşaraq 1921-ci il yanvarın 1-dən gec olmayaraq həyata keçirilsin; b) pambıq rayonlarında başlıca bitkisi pambıq olan bütün sovxoz və kolxozlarda məcburi növbəli əkin tətbiq edilsin; c) keçmişdə olan təcrübə tarlaları və seleksiya stansiyaları bərpa edilsin və yeniləri yaradılsın" [124, s.13].

Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsi üçün Özbəkistan və Türkmənistandan pambıq çiyidi gətirilmişdi [370, s.131]. 1922-ci ildə Azərbaycan zəhmətkeşləri üçün 45.014, 1925-1926-cı təsərrüfat ilində isə 65.610 ədəd kənd təsərrüfatı maşınları və alətləri alınmışdı. Bununla bərabər, təsərrüfata aqrokimyəvi kömək məqsədilə dövlət təkcə 1921-ci ildə 2.749.290 manat pul buraxmışdı [370, s.131]. Bu məqsədlə 1923-cü ildə Orta Asiyadan Azərbaycana 16,8 min pud kənd təsərrüfatı ziyanvericilərinə qarşı zəhərləyici maddə göndərilmişdi [61, v.4].

Azərbaycanda pambıqçılığın bərpası ilə əlaqədar B.İ.Leninin 1920-ci il noyabrın 25-də imzaladığı XKS-nin dekretində göstərildiyi kimi, əvvəllər mövcud olmuş təcrübə tarlaları və seleksiya stansiyaları bərpa edilir və yeniləri yaradılırdı. Azərbaycan və Türkmənistan pambıqçıları arasında təcrübə mübadiləsi genişləndirilir, məhsuldarlığın yüksəldilməsi istiqamətində ciddi əməli addımlar atılırdı.

1917-1918-ci təsərrüfat ilində Azərbaycanda əgər cəmi 3 aqronom məntəqəsi var idisə, 1921-ci ildə bunların sayı 22-yə, 1925-ci ildə 31-ə çatdırılmışdı. Qəzalarda təcrübə stansiyaları təşkil edilmişdi. 1923-cü ildə Azərbaycanda 6 elmi-təcrübə stansiyası var idisə, 1925-ci ildə bunların sayı 13-ə çatdırılmışdı. Bu müəssisələr lazımi avadanlıqla, ixtisaslı mütəxəssislərlə təmin olunmuşdu. 1922-1923-cü illərdə qardaş respublikaların, xüsusən PSFSR, Özbəkistan və Türkmənistanın köməyi ilə Qubada, Göyçayda, Şamaxıda, Şamxorda, Gəncədə, Nuxa və Qazaxda zərərvericilərə qarşı mübarizə məntəqələri təşkil edilmişdi. 1923-cü ilin sonu - 1924-cü ilin əvvəllərində Naxçıvanda, Qubadlıda, Qaradonluda, Qaryagində, Şamaxı, Quba, Lənkəran və digər qəzalarda da belə məntəqələr yaradılmışdı. Bundan başqa, respublikanın 8 sovxozunda laboratoriyalar qurulmuşdu. 1923-1925-ci illərdə Krasnovodskdan Azərbaycana zərvericilərə qarşı 2500 pud zəhərləyici maddə gətirilmişdi [370, s.131-132].

1929-cu ilin yazında Azərbaycanın kənd təsərrüfatı zəhmətkeşləri ilk dəfə olaraq Türkmənistan pambıqçıları ilə yarışa qoşuldular. 1930-cu ildə Azərbaycan pambıqçıları ilə Türkmənistan, Özbəkistan pambıqçıları arasında sosializm yarışı genişləndirildi. 1931-ci ildən kənd əməkçiləri arasında genişlənən sosializm yarışı və zərbəçilik hərəkatı sovxoz, kolxoz və MTS çərçivəsindən çıxıb respublika, ittifaq miqyası aldı. Bu, Azərbaycan kənd təsərrüfatı işçilərinin Zaqafqaziya, Orta Asiya və başqa respublikaların kənd təsərrüfatı əməkçiləri ilə apardığı yarışların timsalında da aydın görünürdü [370, s.220].

İstər Türkmənistandan, istərsə də Azərbaycandan gələn nümayəndələr arasında elmi-tədqiqat sahələrinin əməkdaşları da var idi ki, onlar da pambıqçılığın elmi əsaslarla inkişaf etdirilməsində yaxından iştirak edir və birgə elmi-təcrübə mübadiləsi aparırdılar.

Türkmənistanın geoloji sərvətlərinin öyrənilməsi və istifadəyə verilməsində azərbaycanlı alim-geoloqların xüsusi xidmətləri olmuşdur. Hələ 30-cu illərdə geologiya- minerologiya elmləri doktoru, professor, SSRİ EA müxbir üzvü (1953)

Ə.A.Əmiraslanov "1930-1938-ci illərdə Ural, Qazaxıstan, Orta Asiya, Zabaykalye və Qafqazdakı mis, qurğuşun, sink və qalay yataqlarında elmi-tədqiqat işləri aparmışdır" [39, s.203].

Türkmənistanda zəngin neft yataqları var idi. Lakin onların texniki təchizatı, ixtisaslı kadrları yox dərəcəsində idi. Ona görə də təbii sərvətlərdən istifadə edilməsində ciddi bir problem yaşanırdı. 1924-cü ildə Çələkən və Nebitdağda cəmi 7 ton neft istehsal edilmişdisə [546, s.2], 1928-ci ildə 8 min ton, 1934-cü ildə 16 min ton, 1938-ci ildə 437 min ton, 1941-ci ildə 624 min ton və 1945-ci ildə 629 min ton neft istehsal olunmuşdu [656, s.27]. Əlbəttə bu, olduqca aşağı göstərici idi və respublikanın tələbatını ödəyəcək dərəcədə də deyildi.

İkinci dünya müharibəsi illərində ölkənin neftə olan tələbatının əsas ödəyicisi Azərbaycan SSR-i idi. 1941-1945-ci illərdə SSRİ-nin neft sənayesi 110 mln. ton neft hasil etmişdi ki, onun 75 mln. tonu Azərbaycanın payına düşürdü [103, s.238]. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin və başqa neft məhsulları vermişdilər. Ümumiyyətlə, SSRİ-də istehsal olunan neftin 75 %-ni, benzinin isə 85 %-ni Azərbaycan verirdi [382, s.247-248].

Müharibə illərində Azərbaycanda neft hasilatı həddindən artıq aşağı düşmüşdü. 1941-ci ildə 23,5 mln. tondan 1945-ci ildə 11,5 mln. tona enmişdi. Müharibədən sonrakı illərdə hətta, bəzi dairələrdə belə bir fikir dolaşırdı ki, Azərbaycanın neft sərvətləri daha tükənib və onun gələcəyi yoxdur [231, s.22].

## 5.2. 1946-1960-cı illərdə elmi əlaqələr

Müharibədən sonrakı illərdə - IV beşillikdə Türkmənistan xalq təsərrüfatına qoyulacaq kapitalın 81,2 %-nin təkcə neft sənayesi üçün ayrılması mərkəzin əsas diqqət istiqamətini müəyyən etməyə imkan verirdi [593, s.52].

Azərbaycanın geoloq-alimlərinin birbaşa iştirakı ilə 1947-1949-cu illərdə Keymir, Qumdağ, Muncuq, Çələkən və b. rayonlarda geoloji kəşfiyyat işləri genişləndirildi. "Türkmənneft" tresti "Türkmənneft" Birliyinə çevrildi. SSRİ Neft Səna-

yesi Nazirliyinin 30 mart 1949-cu il tarixli əmri ilə Süleyman Vəzirov (1910-1973) bu Birliyə rəis təyin edildi. S.Vəzirov Azərbaycanın yetişdirməsi, təcrübəli mütəxəssis və bacarıqlı təşkilatçı kimi 1949-1953-cü illərdə Birliyə rəhbərlik edərkən Türkmənistan neft sənayesinin daha yüksək sürətli inkişafını təmin etmişdi [37, s.459].

40-cı illərdə alimlərin mühüm elmi tədbirlərdə görüşü və əlaqələri genişlənməyə başlamışdı. 1947-ci ilin mayında Aşqabad şəhərində Zaqafqaziya və Mərkəzi Asiya respublikalarının dermatoveneroloqlarının qurultayı keçirilmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) professoru, dermatovenerologiya üzrə Azərbaycanda ilk tibb elmləri doktoru, əməkdar elm xadimi İ.M.İsmayılzadə qurultayda iştirak etmək üçün mayın 15-dən 28-dək Türkmənistan SSR-in paytaxtına ezam olunmuşdu. O, elmi mövzuda məruzə etməklə yanaşı, həm də xəstəxanalarda müalicə işinin vəziyyətiylə də yaxından tanış olmuş və öz məsləhətləriylə də müsbət iş təcrübəsini bölüşmüşdür [49, v.89].

Azərbaycan alimləri Türkmənistan neft sənayesinin inkişafı naminə bütün səylərini birləşdirmiş, elmin istehsalla əlaqələrini gücləndirmişdilər. 1948-ci il oktyabrın 9-da Nebitdağda Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunun filialı yaradılmışdı. 8 laboratoriyadan ibarət olan bu filialda 1 nəfər elmlər doktoru, 2 nəfər elmlər namizədi, 17 ali təhsilli və 2 nəfər orta texniki təhsilli mütəxəssis fəaliyyət göstərirdi [408, s.13].

Azərbaycan SSR EA-nın həqiqi üzvü, geologiya- mineralogiya elmləri doktoru, professor Ələşrəf Əlizadə Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunun Nebitdağdakı Türkmənistan filialının baş mühəndisi və neft hasilatı üzrə geoloji laboratoriyasının müdiri idi. O, Türkmənistanın geoloji quruluşu ilə ətraflı tanış olduqdan sonra onu Aral-Xəzər vilayətinin ümumgeoloji inkişafı ilə müqayisə edərək, 1952-ci ildə Qərbi Türkmənistanın Xəzərsahili ovalığında pont çöküntülərinin mövcudluğu proqnozunu ilk dəfə irəli sürmüşdür. Qərbi Türkmənistanda 1954-cü ildə aparılan qazma işlərinin nəticələri bu proqnozu təsdiqlədi [231, s.32].

Professor Ə.Əlizadə Türkmənistan SSR-in neftli-qazlı vilayətlərinin geologiyasının öyrənilməsi ilə 1949-1950-ci illərdə ardıcıl məşğul olmuşdur. 1950-ci ildə onu Türkmənistan Dövlət Universitetinə dəvət edib, geologiya kafedrasına müdir təyin edirlər. 1950-1954-cü illərdə TDU-da işləməklə bərabər, həm də SSRİ EA Türkmənistan filialında faydalı qazıntılar sektorunun müdiri vəzifəsində çalışır [231, s.24].

Professor Ə.Əlizadə Türkmənistanda olduğu müddətdə öz fəaliyyətini iki istiqamətdə qurmuşdu: 1. Yerli geoloq kadrların hazırlanması; 2. Türkmənistanın neogen çöküntülərinin tədqiq edilməsi [231, s.25].

Professor Ə.Əlizadə TDU-da geologiya kafedrasını təşkil etmiş, stratiqrafiya, tektonika, neft və regional geologiya sahəsində bütöv bir geoloqlar nəsli ərsəyə gətirmiş və yüksək ixtisaslı elmi kadrlar yetişdirmişdir. Onun yetişdirdiyi kadrlardan olan 3 nəfər elmlər doktoru və onlarca elmlər namizədləri bu gün də Türkmənistanda yaşayıb yaradırlar [231, s.25].

Azərbaycan aliminin Türkmənistanın neogen çöküntülərinin tədqiqi ilə bağlı nəticələri mütəxəssislərin yüksək qiymətini almış, Türkmənistan ağçaqıl çöküntülərinə həsr edilmiş iki cildlik monoqrafiyası ona böyük şöhrət qazandırmışdır. Alimin tədqiqatlarından çox dəyərli bir mənbə kimi Baş Türkmənistan Kanalının çəkilməsində geniş istifadə edilmişdir.

Türkmənistan ağçaqıl faunasının mənşəyi problemi toplanmış və geniş tədqiq olunmuş zəngin materallar əsasında akademik Ə.Ə.Əlizadə tərəfindən həll edilmişdir. Belə ki, "Ə.Əlizadənin tədqiqatlarına qədər, Türkmənistanın ağçaqıl faunasında 50-dən az növ və yarımnöv məlum idisə, onun monoqrafiyasında 230-dan çox fauna nümayəndəsinin təsviri öz əksini tapmışdır" [231, s.36].

50-ci illərdə dünyada ilk dəfə olaraq Bakıda tətbiq edilmiş çoxcərgəli quyu, ilk maili çoxsıralı quyu, bir özüldən eyni zamanda bir neçə quyu qazılması da Azərbaycan mədənlərində səmərəli üsul kimi tətbiq edilmiş və bütün ölkədə olduğu kimi, Türkmənistanda da geniş tətbiq olunmuşdur. Bu mütərəqqi

üsulun tətbiqində bakılı mühəndislərdən M.D.Əliyev, A.B.Süleymanov, A.P.Karasev, A.Q.Qabrielyan, İ.Y.Prok, Ş.Z.Əhmədov, P.A.İonnesyan və qazma ustası A.M.Babayevin xidmətləri yüksək qiymətləndirilmiş və onlar 1951-ci ildə Dövlət mükafatına layiq görülmüşdülər [357, s.12].

Tanınmış azərbaycanlı alim Saleh Qazıyevin təklif etdiyi hidravliki tənzimedici qurğu və 8 sürətli qazma bucurqatı ölkəmizin bir çox rayonlarında, o cümlədən Türkmənistanda sınaqdan çıxarılmaqla istifadəyə verilmişdir. Yeraltı metal qurğuları korroziyadan qorumaq üçün Azərbaycan Neft və Kimya İnstitutunun əməkdaşı A.A.Spirinin rəhbərliyi ilə ixtira edilmiş yeni universal cihazlar da neft mədənlərində tətbiq olunmuşdur. Bu yenilik əvvəlki qazma üsullarına nisbətən qazma müddətini xeyli azaldaraq, sərf olunan vəsaitə qənaət etməklə əmək məhsuldarlığını yüksəldən elektrik qazıyıcısı Türkmənistan neft mədənlərində də öz səmərəsini göstərməkdə idi [358, s.29].

1951-ci il noyabrın 28-də Aşqabadda keçirilən Türkmənistan geoloqlarının Respublika müşavirəsinin gündəliyində duran əsas məsələ neft və Baş Türkmən Kanalının tikintisi idi. Müşavirənin işində Azərbaycanın tanınmış mütəxəssislərindən B.Babazadə, A.Qazıyev, M.Paşayev, S.Nikitin də iştirak etmiş və dəyərli elmi fikir və mülahizələrini həmkarları ilə bölüşmüşlər [544, v.120].

50-ci illərdə Azərbaycan-türkmən elmi əlaqələrinin inkişafında Aşqabadda doğulmuş (1917) və əslən azərbaycanlı olan Ənvər Göyüş oğlu Rüstəmov da böyük rol oynayırdı. O, sovet zooloqu, biologiya elmlər doktoru (1950), professor (1951), Türkmənistan SSR EA-nın müxbir üzvü (1969), akademiki (1975), Türkmənistan SSR əməkdar elm xadimi (1967), Türkmənistan SSR Ali Sovetinin (6-7-ci çağırış) deputatı, Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin XIV Assambleyasının baş katibi (1978), Türkmənistan SSR Təbiəti Mühafizə cəmiyyətinin sədri, 1960-cı ildən İ.M.Kalinin adına Türkmənistan Kənd Təsərrüfatı İnstitutunun rektoru olmuş, ixtisaslı ali təhsilli və elmi kadrların hazırlanmasındakı xidmətlərinə görə

Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdi [42, s.235].

Görkəmli alimin tədqiqatları, əsasən səhra landşaftının qorunması və səmərəli istifadəsinə həsr edilmişdir. Onun səhra şəraitində müxtəlif heyvanlarda aşkar edilmiş eyni uyğunlaşmaların, əsasən "səhra yaşayış forması" olduğunu ilk dəfə isbat etməsi elm üçün çox dəyərli idi. Professor Ə.G.Rüstəmov İsveçrə, İngiltərə, Fransa, Hindistan, Zair, ABŞ, İran və digər ölkələrdə keçirilmiş mötəbər konqreslərdə maraqlı məruzələrlə çıxış etmişdir. Alimin Azərbaycan elmi ictimaiyyəti və elmi-tədqiqat müəssisələri ilə də geniş əlaqələri var idi [42, s.235].

1953-cü ildə Türkmənistan SSR EA-nın təşəbbüsü və təşkilatçılığı ilə Aşqabadda keçirilmiş (12-17 yanvar) "Türkmənistanda pambığın məhsuldarlığının yüksəldilməsi məsələləri" mövzusundakı elmi sessiyanın 3 bölməsində ("Ümumi məsələlər" – 9, "Suvarma və meliorasiya" – 7, "Aqrotexnika və mexanizasiya"-12) 28 məruzə olunmuşdur [454, v.166-168].

Azərbaycan SSR-dən elmi sessiyada iştirak edən Azərbaycan SSR pambıqçılıq naziri A.P.Xəlilov "Azərbaycanda yüksək pambıq məhsulu əldə etmək təcrübəsi", Azərbaycan SSR EA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, professor V.R.Volobuyev və həmin institutun elmi işlər üzrə direktor müavini M.E.Salayev "Azərbaycanın şorakət torpaqlarının əriməsi üsulları", geologiya-minerologiya elmləri namizədi T.M.Vəlizadə "Pambığın növləri barədə" mövzularında və kənd təsərrüfatı elmləri doktoru, professor D.M.Hüseynov əlavə məsələlər ətrafında məruzə və çıxış etmişlər [454, v.166-167].

1956-cı ildə Bakıda SSRİ EA və Azərbaycan SSR EA-nın birgə təşəbbüsü və təşkilatçılıqları ilə keçirilmiş dialektoloqların türk dilləri dialektologiyası məsələlərinə dair Ümumittifaq əlaqələndirmə müşavirəsinin (10-13 dekabr) işində Moskva, Bakı, Daşkənd, Alma-Ata, Aşqabad, Frunze, Kazan, Tbilisi, Çaboksarı, Tobolsk və Abakanın türkoloq alimləri ilə yanaşı, görkəmli Polşa türkoloqu, Polşa EA şərqşünaslıq komitəsinin sədri, professor A.A.Zayonçkovski də iştirak etmişdir [535, s.4).

Müşavirə əsasən iki problemə: türk milli ədəbi dillərinin əsasını təşkil edən dialekt probleminə və türk dilləri dialektlərinin öyrənilməsi işinin vəziyyətinə həsr edilmişdi.

Müşavirədə Türkmənistan SSR EA Dil və Ədəbiyyat İnstitutunun elmi işçisi K.Şamuradov "Türkmən dili dialektlərinin öyrənilməsi işinin vəziyyəti haqqnda" mövzusunda məruzə etmişdir [535, s.1; 175, s.1].

Ölkədə maliyyə imkanları yaxşılaşdıqca, elmi ezamiyyətlər də genişlənirdi. 1957-ci il yanvarın 11-14-də ADHTİ-nin onkologiya kafedrasının assistenti A.M.Nəsirov Aşqabad şəhərinə xidməti ezamiyyətə getmişdi [186, v.29].

1957-ci ilin oktyabrında Aşqabad şəhərində ADHTİ-nin təşkilatçılığı və dəstəyi ilə fizioterapiya məsələlərinə dair elmi sessiya keçirilmişdir. İnstitutun fizioterapiya kafedrasının müdiri, professor Ş.M.Həsənov elmi sessiyanın təşkilati işlərində yaxından iştirak etmək üçün 1957-ci ilin 18-23 sentyabrında Aşqabad şəhərində 6 günlük xidməti ezamiyyətdə olmuşdur [187, v.41].

1957-ci ildə Türkmənistan SSR üçün elmi kadrların hazırlanmasında Azərbaycan alimləri daha fəal rol oynayırdılar. Türkmən qadınları arasında ilk geologiya-mineralogiya elmləri namizədi olan T.Roziyevanın dissertasiya işinə professor Ə.Əlizadə rəhbərlik etmişdir. M.Qorki adına Türkmənistan Dövlət Universitetinin əməkdaşı T.Roziyevanın dissertasiyası Balxanətrafı rayonunun ağcagil çöküntülərinə və onların mikrofauna xarakteristikasına həsr olunmuşdu [338, s.2].

1957-ci ildə Türkmənistan aspirantları S.Amanov, N.Bekmuradov, K.Terelekov və S.Xanov Azərbaycan SSR EA-nın Geologiya İnstitutunda təhsillərini davam etdirir, akademik M.V.Abramoviç, professor V.A.Qorin və professor Ş.Mehdiyevin rəhbərliyi altında elmi-tədqiqat işlərini genişləndirirdilər. Bu aspirantlar öz işlərini Türkmənistanın Qumdağ, Nebitdağ və Çələkən neft yataqlarının geoloji quruluşu və bu yataqların əmələ gəlməsi kimi mühüm məsələlərə həsr etmişdilər [338, s.2].

1957-ci ildə Azərbaycan SSR EA Botanika İnstitutunun Nəbatat bağındakı gözəl görünüşlü 40 bitki Mərkəzi Asiyadan (Türkmənistan, Özbəkistan, Tacikistan, Qazaxıstan) gətirilib bu mühitə uyğunlaşdırılmışdı. Bunlar bağdakı bitkilərin ümumi sayının 6,2 faizini təşkil edirdilər [84, v.390]. Sonrakı illərdə Nəbatat bağlarının əməkdaşları arasında elmi əlaqələr genişləndikcə, yerli mühitə uyğunlaşmış bitkilərin əkilməsi də çoxalmaqda davam edirdi.

50-ci illərdə iki respublikanın – Azərbaycan və Türkmənistanın Dövlət Universitetləri arasında sıx dostluq əlaqələri var idi. Azərbaycan alimləri A.M.Qorki adına Türkmənistan Dövlət Universiteti üçün müxtəlif elm sahələri üzrə kadrlar hazırlanmasında yaxından iştirak edirdilər. Türkmənistanlı aspirantlar filologiya, hüquq və fizika-riyaziyyat fakültələrində müdafiə etməyə hazırlaşır, tarix fakültəsində isə uğurlu addımlar atmışdılar. 1958-ci ilin aprelində Türkmənistan universitetinin müəllimi K.Muliev ADU-nun tarix fakültəsində tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdi [313, s.2].

1958-ci ilin avqust ayında yanğın nəticəsində Türkmənistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanasının bütün kitab fondları yanıb məhv olmuşdu. Kitab fondlarının bərpası üçün Türkmənistan SSR EA qardaş respublikaların Elmlər Akademiyalarına kömək xahişi ilə müraciət etmişdi.

Azərbaycan EA bu müraciəti nəzərə alaraq, özünün kitab fondundan 10 min kitabın Türkmənistan Akademiyasına təmənnasız verilməsinin mümkünlüyü barədə əlaqədar təşkilatlar qarşısında məsələ qaldırmışdı [548, v.35].

Azərbaycan SSR Nazirlər Sovetinin sədri V.Y.Axundovun bu barədə Azərbaycan KP MK-ya ünvanladığı 4 oktyabr 1958-ci il tarixli, 1450 saylı məktubu oktyabrın 11, 14, 15, 21 və 22-də keçirilən büro iclaslarında geniş müzakirə edilərək, kitabların göndərilməsinə dair göstəriş verilmişdi [548, v.38].

A.M.Qorki adına TDU-nun rektoru, Türkmənistan SSR EA-nın akademiki P.Əzimov 1958-ci ildə böyük Azərbaycan şairi

M.Füzulinin vəfatının 400 illiyi münasibəti ilə yazdığı "Füzuli fəxrimizdir" adlı məqaləsində M.Füzulinin adının təkcə öz xalqı üçün deyil, həm də bütün Şərq üçün, o cümlədən türkmən xalqı üçün də doğma və əziz olduğunu göstərmişdir. Müəllif Füzuli irsinin rəhbərlik etdiyi ali məktəbdə necə yüksək tutulmasından da bəhs edərək yazmışdır: "Onun yaradıcılığı bizim universitetimizdə SSRİ xalqları ədəbiyyatı keçilərkən xüsusi diqqətlə öyrənilir. Türkmənistan şairləri Füzulinin əsərlərinin tərcüməsi üzərində işləyirlər. Ədəbiyyatşünaslarımız şanlı yubiley ilə əlaqədar olaraq böyük şairin həyat və yaradıcılığı haqqında mühazirələr oxuyur, yeni elmi əsərlər yazırlar" [254, s.4].

1959-cu il mayın 6-da Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin nəzdində akademik M.S.Qaşqayın sədrliyi ilə beynəlxalq elmi əlaqələr üzrə xüsusi komissiya fəaliyyətə başladı [480, s.120; 218, s.93]. Bu, beynəlxalq, eləcə də respublikalararası daxili elmi əlaqələrdə Azərbaycan alimlərinin iştirakına təkan verdi. Elmimizin dünya elmi ilə əlaqə imkanları genişləndi.

1959-cu ilin oktyabrında Aşqabad şəhərində türk dilləri tarixinin öyrənilməsi metodlarına həsr edilmiş müşavirə keçirilmişdir. Müşavirədə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əməkdaşlarından professor Ə.Dəmirçizadə, Ə.Cəfərov və M.Rəhimov iştirak etmiş və müxtəlif mövzularda məruzə və çıxışlar etmişlər [537, v.51].

XX əsrin 60-cı illərində Azərbaycan-Türkmənistan elmi əlaqələrinin inkişafında yeni mərhələ başlandı. Bu mərhələni xarakterizə edən və şərtləndirən başlıca səbəb bütün ölkə miqyasında elmə diqqətin artması və onun inkişafı istiqamətində yeni qərar və qanunların qəbul edilməsi idi. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "Ölkədə elmi tədqiqatların koordinasiyasının təkmilləşdirilməsi və SSRİ Elmlər Akademiyasının fəaliyyətinə dair tədbirlər haqqında" (1961, sentyabr), "SSRİ Elmlər Akademiyasının və İttifaq respublikaları Elmlər Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər haqqında" (1963, aprel) və "Elmi təşkilatların fəaliyyətinin

səmərəliliyinin artırılması və milli iqtisadiyyatda elm və texnologiyanın istifadəsini sürətləndirmək üzrə tədbirlər haqqında" (1968, sentyabr) qərarlarının mühüm əhəmiyyəti var idi.

Ölkə üzrə elmi tədqiqatların əlaqələndirilməsinin genişləndirilməsi üçün 1965-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə Elmi Əlaqələndirmə Şurası Elm və Texnologiya üzrə Dövlət Komitəsinə çevrildi.

1969-cu ilin əvvəllərindən etibarən, SSRİ-də Milli iqtisadiyyatın inkişafı üzrə Dövlət planının tərtib edilməsinə dair "Milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyətlərinin tədqiqi və istifadə edilməsinin planlaşdırılması"yla bağlı metodik göstərişlərin verilməsinə başlandı [596, s.215].

Sov. İKP MK-nın XXIV qurultayının (1971) hesabat məruzəsində ilk dəfə "Elmi-texniki inqilab. Elmin istehsalatla birləşməsi" bölməsinin salınması da elmin nə dərəcədə yüksək əhəmiyyət kəsb etdiyini göstərirdi [596, s.216].

Azərbaycan alimləri Türkmənistan iqtisadiyyatının inkişafı istiqamətində öz səylərini əsirgəmirdilər. 60-cı illərdə elmi-texniki kömək göstərmək daha çox faydalı nəticələr verirdi. Türkmənistanın Xəzərsahili rayonunda aşkar edilmiş yeni neft yataqlarının öyrənilməsi baxımından belə bir köməyə ciddi ehtiyac duyulduğunu xəbər verirdi. Həmin rayonda mədən yaratmaq üçün oranın hidrometeoroloji xüsusiyyətlərini öyrənmək lazım idi. Bu məqsədlə Türkmənistan XTŞ Azərbaycan Hidrometeorologiya Xidməti İdarəsi ilə müqavilə bağlamışdı.

Hidrometeoroloqlarımız Şərqi Xəzərdə apardıqları tədqiqat işlərinin materiallarını hesabat üçün çapa hazırlamışdılar. Onlar Türkmənistanın Çələkən ərazisində küləklərin istiqamətini, gücünü və sürətini müəyyənləşdirmiş, hündür dalğaların parametrini hesablamışdılar. İlkin elmi-texniki hesabat 1963-cü ilin martında Türkmənistan Neft Birliyi İdarəsinə verilsə də, Çələkən rayonunda tam tədqiqatlar 1965-ci ilə kimi davam etdirilmişdir [511, s.2].

1960-cı ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutu türkmən şairi Məhtimqulunun anadan olmasının 225 illiyi müna-

sibəti ilə elmi sessiya keçirmiş, Azərbaycan SSR EA Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin tərtibat şöbəsinin əməkdaşları D.Əliyeva, Z.Məmmədova, N.Ələkbərova türkmən şairinə həsr edilmiş səyyar sərgi eksponatlarını həmin sessiyada nümayiş etdirmişdilər [549, v.173]. Azərbaycan SSR EA Respublika Əlyazmaları Fondunun əməkdaşı V.Rayxel fondun fotolaboratoriyasında Türkmənistanın Məhdimqulu adına Ədəbiyyat İnstitutunun sifarişlərini yerinə yetirərək əlyazmaların 2000 kadr mikrofilm çıxarışlarını Aşqabada göndərmişdi [98, v.203-204].

Azərbaycan mühəndisləri Türkmənistanda neft qurğularının layihələndirilməsində yaxından iştirak edirdilər. Krasnovodsk neftayırma zavodunun genişləndirilməsi layihəsi Azərbaycan Dövlət Neft Qurğularını Layihələndirmə İnstitutunda hazırlanmışdı. Layihənin mühəndisi Q.S.Şaginov zavodun genişləndirilməsinin başqa iştirakçıları ilə birlikdə 1964-cü ilin noyabrında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdi [339, s.2].

1965-ci ildə Krasnovodsk şəhərində M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun professoru İsmayıl Makinskinin layihəsi əsasında saatda 420 ton dəniz suyunu yumşalda bilən nəhəng qurğu tikilməkdəydi. Bu qurğunun yumşaltdığı sudan Krasnovodsk istilik elektrik stansiyasında istifadə olunacaqdır. Qurğunun tikintisində yerli mütəxəssislərə kömək etmək və bir sıra məsləhətlər vermək üçün 1965-ci il aprelin 8-də institutun bir qrup əməkdaşı da Krasnovodska getmişdi [287, s.2].

Azərbaycan alimləri Türkmənistanda keçirilən elmi toplantı və  tədbirlərdə ardıcıl iştirak edir, fikir və mülahizələrini həmkarları ilə bölüşürdülər. Görkəmli torpaqşünas alim Həsən Əliyev 1962-ci ildə Aşqabadda keçirilən "Orta Asiya və Qazaxıstanın səhra ərazilərinin mənimsənilməsi" mövzusundakı respublikalararası sessiyada iştirak etmiş və orada "Azərbaycan SSR-in yararsız torpaq və quraq ərazilərindən istifadə edilməsi haqqında" məruzə etmişdir [582, s.51-52].

1963-cü ildə alim H.Əliyevin Aşqabadda çıxan "Səhraların torpaq-su resursları və onların istifadəsi" toplusunda "Azərbaycan SSR-in yararsız torpaq və quraqlıq ərazilərindən istifadə edilməsi məsələsinə dair" məqaləsi çap olunmuşdur [582, s.54-60].

1967-ci ilin fevralında Aşqabad şəhərində keçirilmiş Ümumittifaq müşavirəsinə tarixçi alimlərimiz də qatılmışdı. Türkmən xalqının etnogenezi məsələsinə həsr olunmuş bu müşavirədə Azərbaycan EA Tarix İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru Yusif Yusifov "Azərbaycanın ilk türk tayfaları haqqında bəzi məlumatlar və onların oğuzlarla əlaqələri", baş elmi işçi, tarix elmləri namizədi Kamal Əliyev "Azərbaycanlılar və türkmənlərin qədim əcdadları arasında etnik əlaqələr məsələsinə dair" və baş elmi işçi, tarix elmləri namizədi Rauf Hüseynov isə "Suriyalı Mixailin "Xronika"sının oğuzların etnik tarixinin öyrənilməsində əhəmiyyəti" mövzularında məruzələrlə çıxış etmişlər [48, s.2].

60-cı illərdə Türkmənistanla elmi əlaqələrimizin inkişafında geologiya-minerologiya elmləri doktoru, professor, Azərbaycan EA akademiki, iki dəfə SSRİ Dövlət mükafatı laureatı Əlaşrəf Əlizadə mühüm rol oynamışdır. O, 1949-1954-cü illərdə M.Qorki adına Türkmənistan Dövlət Universitetində kafedra müdiri və Türkmənistan SSR EA faydalı qazıntılar bölməsinin müdiri olmuşdur. 1959-cu ildə Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru olsa da, Türkmənistanla elmi əlaqələrini heç də, kəsməmiş, əksinə, daha da möhkəmləndirmişdir [293, s.94-100].

Akademik Ə.Ə.Əlizadə mezozoy çöküntülərinin neftlilik problemi ilə məşğul olmuşdur. O, 50 və 60-cı illərdə Türkmənistan SSR-də apardığı tədqiqatlar nəticəsində pliosen çöküntülərinin stratiqrafik sxemini tərtib etmiş, Akçaqılın zəngin faunasını öyrənmişdir. Nəticədə Moskvada çap olunmuş ikicildlik "Türkmənistanın Akçaqılı" [I c., M., "Nedra" nəşr.-tı, 1961, 300 s.; II c., M.,"Nedra" nəşr-tı, 1967, 408 s.] əsəri ilə

Ə.Əlizadə Azərbaycan-türkmən elmi əlaqələri tarixinə qiymətli töhfə vermişdir [39, s.170-171].

Akademik Ə.Ə.Əlizadənin "Türkmənistanın Akçaqılı" əsərini yüksək qiymətləndirən geologiya-minerologiya elmləri doktoru, professor Sübhi Salayev akademikin 1949-1954-cü illərdə Türkmənistanda Akçaqıl çöküntü kəsilişlərinin, demək olar ki, hamısını tədqiq etməklə, həmin çöküntülərdən zəngin fauna topladığını, 200-ə qədər yeni fauna cinsləri, növləri və yarımnövlərini təsvir etdiyini göstərmişdir. O, eyni zamanda, akademikin "geoloji ədəbiyyatda ilk dəfə Türkmənistanın vulkan küllərinin litoloji, mineroloji və kimyəvi səciyyəsinə dair materialları ətraflı surətdə nəzərdən keçirib onların köçürülmə yolları, çökdürülməsi və mənşəyi haqqında orijinal fikirlər" söylədiyini də qeyd etmişdir [475, s.3].

Akademik Ə.Ə.Əlizadə Türkmənistan üçün elmi kadrların hazırlanmasında da böyük əmək sərf etmişdir. Bunlara görə də ona 1971-ci ildə Türkmənistan SSR-in fəxri elm və texnika xadimi şərəfli adının verilməsi də, heç də, təsadüfi deyildir [39, s.170-171].

Türkmənistan alimləri də Azərbaycan alimləri ilə elmi əlaqələrin möhkəmlənməsinə xüsusi səy göstərirdilər. Onlar Azərbaycanda keçirilən müxtəlif səviyyəli elmi tədbirlərdə təmsil olunur, dəyərli məruzələri ilə seçilməyə çalışırdılar.

1960-cı il oktyabrın 24-dən 27-dək Bakıda türk dilləri dialektologiyası məsələlərinə dair III məhəlli müşavirə keçirilmişdir [534, s.4]. Müşavirədə iştirak edən türkmən alimi, filologiya elmləri namizədi R.Berdiyev müşavirənin birinci iclasında məruzə etmişdir [533, s.4].

Fərəhlidir ki, müşavirənin iştirakçıları Sovet İttifaqının türk dialektologiyasında Azərbaycan dialektologiyasının əsas yer tutduğunu qeyd etmişlər. Azərbaycan dilinin bütün şivələrinə və dialektlərinə aid materiallar toplanmasının qurtardığını, çoxlu monoqrafiya əsəri yazıldığını və dialektoloji atlas və lüğət tərtib edilməsinə başlanıldığını xüsusi vurğulamışlar [534, s.4].

1964-cü il mayın 8-də Bakıda açılan Asiya və Afrika xalqları ilə II Sovet Həmrəylik konfransında müzakirələr ətrafında çıxış edən türkmən nümayəndəsi N.N.Nazməddinov xalqların həmrəyliyinin zəmanəmizin böyük qüvvəsinə çevrildiyini və bu qüdrətli, yenilməz qüvvənin dünyada azadlıq, sülh və tərəqqinin müdafiəsinə, dayağına döndüyünü göstərmişdir [296, s.1]. 1964-cü il 8-11 may tarixində keçirilən II Sovet Həmrəylik konfransında iştirak edən Türkmənistan Respublikası Həmrəylik Komitəsinin sədri, Türkmənistan SSR EA-nın müxbir üzvü A.Kekilov mayın 11-də günorta fasiləsindən sonra iclasa sədrlik etmiş və konfransın təşkilatı işlərinə öz dəstəyini əsirgəməmişdir [569, s.1].

1965-ci ildə Bakıda Azərbaycan SSR Elmlər Akademiyasının böyük salonunda türk dillərinin dialektologiyası məsələlərinə həsr olunmuş V müşavirə (5-8 oktyabr) keçirilmişdir. Müşavirəni respublika EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutu təşkil etmişdi. Müşavirədə iştirak etmək üçün ölkəmizin hər yerindən məşhur türkoloqlar, dilçilər Bakıya gəlmişdilər. Onların arasında SSRİ Elmlər Akademiyası Dilçilik İnstitutunun türkologiya bölməsinin əməkdaşları, Özbəkistan, Tacikistan, Qazaxıstan və Moldovanın türkoloqları ilə bərabər, qardaş Türkmənistanın da tanınmış türkoloqları iştirak edirdi. Alimlərin məclisinə Macarıstanın məşhur türkoloqu G.Hazan və görkəmli dilçi, polşalı A.Zayonçkovski də qatılmışdılar [543, s.3].

Üç gün davam edən müşavirədə türkmən alimləri öz ciddi və böyük elmi maraq kəsb edən çıxışları ilə həmkarlarının diqqətini daha çox cəlb etmişdilər. Müşavirənin birinci iclasında Türkmənistan SSR EA Dil və Ədəbiyyat İnstitutunun dialektologiya şöbəsinin müdiri, filologiya elmləri namizədi R.Berdiyev "Türkmən dili qərb qrupu şivələri xəritələrinin tərtibi prinsipləri", üçüncü iclasında Türkmənistan SSR EA-nın müxbir üzvü Z.B.Muxamedova "XI-XIV əsrlərin filoloji əsərlərindəki oğuz materialının müasir türkmən dilində və onun dialektlərində əksi" mövzularında məruzələr etmişlər [540, s.3].

Müşavirənin sonuncu iclasında məruzələr ətrafındakı çıxışlar zamanı Türkmənistan alimlərindən – filologiya elmlər

doktoru, professor M.N.Xıdırov, filologiya elmlər namizədi, dosent D.Amansariyev və filologiya elmlər namizədi A.Annanurov çıxış etmişlər [218, s.95].

1965-ci ildə Bakıda "Elm kriminalistikaya xidmət edir" şüarı altında keçirilən (1-3 dekabr) məhkəmə ekspertlərinin konfransını Azərbaycan SSR Nazirlər Sovetinin hüquq komissiyası və Respublika Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutu təşkil etmişdi. Konfransda elmi-texniki vasitələrin köməyi ilə cinayətlərin qarşısını almaq haqqında konkret təkliflər işlənib hazırlanmışdı. Əksər müttəfiq respublikaların elmi-tədqiqat institutlarının və məhkəmə ekspertizası laboratoriyalarının, habelə respublikamızın məhkəmə prokurorluq orqanlarının və İctimai Asayişi Mühafizə Nazirliyinin işçiləri ilə yanaşı, Türkmənistan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunun bir qrup əməkdaşı da iştirak edirdi [189, s.4].

1967-ci ildə Bakıda keçirilən (19-22 sentyabr) "Böyük oktyabr sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası xalqlarının milli azadlıq hərəkatı" mövzusundakı beynəlxalq elmi konfransda [286, s.1; 497, s.1] Türkmənistan SSR Elmlər Akademiyası Tarix İnstitutunun baş elmi işçisi S.Q.Karabayev Türkmənistanda kənd təsərrüfatının sosialistcəsinə dəyişdirilməsi təcrübəsindən danışmışdır [399, s.2].

1968-ci ildə oktyabrın 14-dən 17-dək Bakıda keçirilən respublika gigiyena işçiləri və sanitariya həkimlərinin II qurultayında [59, s.1], 1969-cu ildə Bakıda Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə oktyabrın 14-dən 17-dək keçirilən paleobiogeokimya problemlərinə dair Ümumittifaq müşavirəsində, botaniklərin oktyabrın 15-də Bakıda açılan mədəni bitkilərdə suyun vəziyyəti və su mübadiləsi problemlərinə həsr edilmiş Ümumittifaq simpoziumunda, oktyabrın 21-də Bakıda fəaliyyətə başlayan neft kimyası problemlərinə dair ikinci məhəlli Beynəlxalq simpoziumda [113, s.3], noyabrın 24-dən 28-dək Bakıda keçirilən milli məktəblərdə rus dili tədrisinin problemlərinə dair Ümumittifaq elmi-metodika konfransında [554, s.1; 405, s.1] və yenə həmin ilin dekabrın 9-dan 11-dək

Bakıda “Kənd təsərrüfatı heyvanlarının məhsuldarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi və yaxşılaşdırılması” məsələsi üzrə keçirilən Respublika elmi sessiyasında [14, s.2] tanınmış türkmən alimləri də iştirak etmişdilər.

1967-ci ildə Bakıda ölkə üzrə V.İ.Leninin adını daşıyan ali məktəblərin professor-müəllim heyətlərinin 4 gün davam edən Ümumittifaq elmi-nəzəri konfransı (24-27 aprel) keçirilmişdir. “Konfrans gedişində Belarusiya, Gürcüstan, Azərbaycan, Türkmənistan, Dağıstan və İvanovo vilayəti alimlərinin təqribən 100 məruzəsi dinlənilib müzakirə edilmişdir” [10, s.1].

Konfrans iştirakçıları tədbirin sonunda qətnamə qəbul etmişlər. Qətnamədə hazırki konfransın keçirilməsi “təklifini irəli sürən V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun təşəbbüsünü” bəyəndiklərini ifadə etmiş və “alimlər SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinə müraciət edərək bu cür konfransların ənənəyə çevrilməsi təklifini irəli sürmüşlər” [10, s.1].

Azərbaycan-türkmən elmi əlaqələrinin inkişafında qarşılıqlı şəkildə keçirilən tələbə elmi konfransları da mühüm rol oynayırdı. Bu, tələbələrin elmə marağını getdikcə artırır, onlarda elmi-tədqiqat vərdişlərini formalaşdırırdı. Eyni zamanda, eyni dil, din, adət-ənənə kökləri üstündə oxşar talelər yaşayan bu qohum xalqların gəncliyini yaxınlaşdırır, bir-biri ilə daha çox bağlanmasına meydan açırdı. Tələbə konfransları elmi əlaqələrin gələcək qurucuları və daşıyıcılarını da doğmalaşdırır və möhkəm tellərlə bağlayırdı.

1967-ci ilin aprelində Məhtimqulu adına Türkmənistan Dövlət Universitetində Böyük Oktyabrın 50 illiyinə həsr olunmuş Ümumittifaq tələbə elmi konfransı keçirilmişdir. Üç gün davam edən bu konfransda S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin 5-ci kurs tələbələri Rəfail Süleymanov “Sovet elminin inkişafı” və Mayıl Alıcanov “Azərbaycanda toy adət və ənənələri” mövzularında məruzələrlə çıxış etmişlər [530, s.3].

1968-ci ilin noyabrında S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində görkəmli şair M.P.Vaqifin anadan olmasının 250 illiyi münasibətilə tələbə konfransı keçirilmişdir.

Konfransda iştirak etmək üçün Gürcüstan, Ukrayna, Dağıstan, Moldova tələbələri ilə bərabər, Türkmənistan universitetinin tələbələri də Azərbaycan tələbələrinə qonaq gəlmişdilər. Konfransda "Mahaçqaladan F.Sadiqinin "Vaqif və ləzgi poeziyası", Aşqabaddan X.Dövlətovun "Azərbaycan-türkmən ədəbi əlaqələri", bakılı R.Qurbanovun "Vaqif lirikasının xüsusiyyətləri" mövzularındakı məruzələri" böyük maraqla qarşılanmışdır [528, s.3].

Azərbaycan-türkmən elmi əlaqələrinin inkişafında Türkmənistanda yaşıyıb, fəaliyyət göstərən görkəmli azərbaycanlı alimlərin də mühüm rolu olmuşdur. Onlar 60-cı illərdə türkmən elmi üçün çox gərəkli şəxsiyyətlər olduqlarını öz nailiyyətləri ilə tam təsdiq etmişdilər.

Milliyyətcə azərbaycanlı olan, biologiya elmləri doktoru, professor, Türkmənistan SSR əməkdar elm xadimi (1967-ci il), Türkmənistan SSR EA müxbir üzvü (1969-cu il) Ənvər Rüstəmov Türkmənistanda çox məşhur idi. O, 1917-ci il dekabrın 17-də Aşqabadda doğulmuşdur.1960-cı ildə M.İ.Kalinin adına Türkmənistan Kənd Təsərrüfatı İnstitutunun rektoru təyin olunmuşdu. Sonrakı illərdə Ə.G.Rüstəmov Türkmənistan SSR EA-nın akademiki, Türkmənistan SSR Ali Sovetinin (6-7-ci çağırış), SSR Ali Sovetinin deputatı, Türkmənistan KP MK-nın üzvü seçilmiş, Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin 14-cü Assambleyasının baş katibi (1978-ci il), Türkmənistan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri olmuşdur. Böyük xidmətlərinə görə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir [478, s.74; 42, s.235].

Görkəmli alim Ə.G.Rüstəmovun "elmi tədqiqatı, əsasən səhra landşaftının qorunması və səmərəli istifadəsinə həsr edilmişdir; səhra şəraitində müxtəlif heyvanlarda aşkar edilmiş eyni uyğunlaşmaların, əsasən "səhra yaşayış forması" olduğunu ilk dəfə Ə.G.Rüstəmov isbat etmişdir" [42, s.235-236].

Əkbər Ruhi (Əliyev) Aşqabadda doğulmuş (1908, 1 mart), milliyətcə azərbaycanlı, böyük türkmən sovet şairi, yazıçı və ədəbiyyatşünas idi. O, orta təhsilini Gəncə Darülmüəllimində,

ali təhsilini isə Bakıda V.İ.Lenin adına APİ-nin dil-ədəbiyyat fakültəsində almışdır [42, s.234; 81, s.186-187].

Əkbər Ruhi 20 ilə yaxın Türkmənistan Yazıçılar İttifaqının məsul katibi, uzun müddət Türkmənistan Dövlət Universitetində dil və ədəbiyyat fakültəsinin dekanı, türkmən ədəbiyyatı kafedrasının müdiri olmuşdur.

Əkbər Ruhi Türkmənistanda Məhdimquludan sonra ən böyük klassik şair hesab edilən Kəminənin həyat və yaradıcılığını ilk dəfə tədqiq edib öyrənmişdir. "Nəsimi və türkmən ədəbiyyatı" əsərində böyük Azərbaycan şairi Nəsiminin qardaş türkmən ədəbiyyatına göstərdiyi müsbət və çoxcəhətli təsiri araşdırmışdır. 1969-cu ildə Bakıda 61 yaşında "Türkmən-Azərbaycan ədəbi əlaqələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir [478, s.72].

Ə.Ruhinin doktorluq dissertasiyası barədə tanınmış azərbaycanlı alim, filologiya elmləri doktoru, professor Əli Saləddin belə yazırdı: "Əkbər Ruhinin doktorluq işi daha mühüm mövzuya həsr olunub. Azərbaycan və türkmən xalqlarının qarşılıqlı ədəbi əlaqələrini ilk dəfə geniş planda aydınlaşdıran və onun dərin təhlilini verən Ə.Ruhi olmuşdur. Bu əsər özünün mövzusuna və mündəricəsinə görə sovet ədəbiyyatşünaslığında mühüm yerlərdən birini tutur. Bəli, Əkbər Ruhi çox zəhmət tələb edən, tamamilə orijinal faktlar əsasında gözəl bir əsər dünyaya gətirmişdir. Bütün ömrü boyu aldığı təhsil, etdiyi mütaliə, keçdiyi təcrübə öz bəhrəsini vermişdir. Türkmənlər özləri etiraf edirlər ki, ədəbiyyatımızı ilk dəfə dərindən öyrənən Əkbər Ruhidir" [478, s.72-73].

Ə.Ruhi həmişə Azərbaycanla bağlı olmuş, Azərbaycan-türkmən dostluq və mədəni əlaqələrinin möhkəmlənməsinə daim səy göstərmişdir. O, 1961-ci ilin martında Bakıda olarkən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsinin IV kurs tələbələrinə "XII-XX əsrlərdə türkmən ədəbiyyatı" mövzusunda mühazirələr oxumuşdur. İstedadlı alim tələbələri məşhur türkmən şairləri Azadi Məhtimqulu, Kəminə, Molla Napes və müasir türkmən ədəbiyyatının görkəmli

nümayəndələrinin həyatı və yaradıcılığı ilə tanış etmişdir. Mühazirələrə çox böyük diqqətlə qulaq asan tələbələr sonuncu dərsdə Əkbər Ruhi Əliyevə xatirə olaraq Səməd Vurğunun əsərlərinin iki cildliyini bağışlamışlar [218, s.98].

2007-ci il mayın 23-də Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunda XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, mühacir şair Almaz İldırımın anadan olmasının 100 illiyi münasibətilə keçirilən elmi sessiyada (akademik B.Nəbiyevin "Didərgin şairin vətən yanğısı" mövzusundakı məruzəsində) vurğulanan: "A.İldırımın sürgündəki fəaliyyətini nəzarət altında saxlamaq, onun Aşqabaddakı əlaqələrini təftiş etmək üçün Bakının Baş Siyasi İdarəsindən Türkmənistana xüsusi nümayəndə (Əkbər Ruhi) ezam olunur. Bu agent öz bədnam vəzifəsini iki istiqamətdə yerinə yetirirdi: bir tərəfdən, şairin hər bir addımını izləyərək öz idarəsi üçün "donos" hazırlayır, xəbərçilik edir, digər tərəfdən isə onu gözdən salmaq üçün məqalələr yazıb nəşr etdirirdi" [148, s.4] fikrindən çox təəssüfləndim. Təəssüfləndim ki, Ə.Ruhi kimi ziyalılarımızın keçmişində belə qaranlıq məqamlar var. Ancaq neyləmək olar, insanları qadir olduğu işin görülməsinə sövq etməkdənsə, qadir olmadığı işə məcbur edilməsi 70 illik sovet dönəminin ziyalılarımızın başına gətirdiyi müsibətlərdən biridir. Amma bir qədər təsəllilənməliyik ki, bu mövqe Azərbaycan-türkmən elmi, mədəni əlaqələrində böyük əməyi olmuş Ə.Ruhi xidmətini heç də bütünlüyü ilə kölgələməməlidir. Hər çalar öz yerində görünməlidir.

Azərbaycan-türkmən elmi əlaqələrində milliyətcə azərbaycanlı olan digər alimlərin - M.Qorki adına Türkmənistan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, pedaqoji elmlər doktoru, professor, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, akademik A.Qurbanov, Türkmənistan Tibb İnstitutunun prorektoru Q.Məmmədov və onlarca başqalarının böyük xidmətləri olmuşdur [478, s.74].

Elmi kadrların hazırlanmasında və birgə elmi-tədqiqat işlərinin aparılmasında hər iki respublikanın alimləri bir-birinə yaxından köməklik göstərirdilər. "Türkmənistanda Coğrafiya

İnstitutu yoxdur. Onun funksiyasını Səhra İnstitutu yerinə yetirir. Bu, dünyada yeganə Səhra İnstitutudur” [126, s.156]. Səhra İnstitutunun Elmi Şurasında müdafiə etmək üçün Azərbaycan EA Coğrafiya İnstitutunun bəzi əməkdaşları gedib orada elmi tədqiqatlarını davam etdirirdilər. Bu dissertasiyaların mövzusu fiziki coğrafiya və landşaftlığa həsr edilmiş, Səhra İnstitutunun problemlərinə müvafiq olmuşdur. “Türkmənistan Səhra İnstitutu yeganə elmi müəssisədir ki, Azərbaycan üçün burada yüksək ixtisaslı elmi kadrlar hazırlanmışdır” [126, s.156].

Türkmənistan EA Geologiya İnstitutunun tərkibində geomorfologiya, yeni tektonika və dördüncü dövr çöküntüləri ilə məşğul olan xüsusi bölmə var idi. Bu bölməyə Azərbaycan EA Coğrafiya İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə etmiş Xammet Durdıyev başçılıq edirdi. Azərbaycan alimləri elmi əlaqələri nəticəsində bu bölmənin elmi tədqiqatlar üzrə profilini, perspektiv iş planını və aparılmalı əsas işlərin tematikasını müəyyən etmişdilər. Eləcə də bu işlərin təşkili və həyata keçirilməsində bilavasitə iştirak etmiş, birgə elmi işlər aparmış və ekspedisiyalar təşkil etmişdilər [126, s.157].

Azərbaycan SSR EA Qubkin adına Geologiya İnstitutu Türkmənistan üçün elmi kadrlar hazırlanmasında köməyini əsirgəmirdi. Yüksək ixtisaslı neftçi alimlərə Türkmənistanın böyük ehtiyacı olduğu üçün bu instituta da tez-tez müraciət edirdilər. 50-ci illərin sonları – 60-cı illərin əvvəllərində Geologiya İnstitutunda 10 nəfərə yaxın türkmən aspirantı dissertasiya üzərində işləyirdi. Onlardan S.Amanov, N.Bekmuradov, K.Teqelekov, S.Xanov və b. öz elmi işlərini qurtarmaq üzrə idilər. Bu aspirantlar elmi tədqiqatlarını Türkmənistanın Qumdağ, Nebitdağ və Çələkən neft yataqlarının geoloji quruluşu və bu yataqların əmələ gəlməsi kimi mühüm məsələlərə həsr etmişdilər [476, s.2].

Azərbaycan neftçi alimlərinin türkmən qazmaçıları ilə işgüzar əlaqələri Türkmənistanda neft sənayesinin inkişaf etdirilməsində mühüm rol oynayırdı. Alimlərimiz əməli yardımlarını gücləndirmək üçün Türkmənistanın ayrı-ayrı neft rayonlarına

ezam edilir, quyuların vəziyyətini yoxlayaraq teknoloji xəritələrini hazırlayır, yeni quyuların qazılmasına dair əməli təkliflər verirdilər. 60-cı illərdə Azərbaycan neftçiləri və neftçi alimlərinin türkmən həmkarları ilə əməkdaşlığı nəticəsində "Qoturtəpə", "Qızılqum" və "Barsagəlməz" kimi zəngin yataqlarda neft hasilatını genişləndirmək mümkün olmuşdur. Azərbaycan alimlərindən professorlar V.N.Sultanov və A.İ.Əlizadənin bu sahədə xüsusi xidmətləri olmuşdur [480, s.37].

Azərbaycanlılar açıq dənizdə neft hasilatı sahəsində zəngin təcrübəyə malik idilər. Bakılı neftçi alimlər öz türkmən dostlarına Çələkəndə dəniz neft kəşfiyyatı bazasının yaradılmasında, dənizdə ilk neft quyusunun özülünün qoyulmasında köməklik göstərməklə yanaşı, 1964-cü ildə ora nəhəng üzən qazma qurğusu "Azəri"ni yollamaqla, 3600 metr dərinliyində neft quyusunun qazılması işini təmin etmişdilər.

Azərbaycan Dövlət Neft Qurğularını Layihələndirmə İnstitutunun əməkdaşları Türkmənistanın dəniz neftçiləri üçün polad adalar quraşdıraraq Jdanov və Qubkin bankalarının ətrafında kəşfiyyat işlərinin aparılmasında iştirak etmişdilər. 1965-ci ildə Azərbaycan neftçiləri Jdanovda iki özül quraşdırmaqla quyuların qazılmasını təmin etmiş, dənizdə neft yataqlarının istifadəsi üçün texniki-iqtisadi sənədləşdirmələr aparmışlar [480, s.36-37].

60-cı illərdə Müdafiə şuralarında hər iki respublika alimlərinin yaxından iştirak etməsi elmi əlaqələrin inkişafına da öz müsbət təsirini göstərirdi. 1964-cü ilin avqustunda S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında dosent Nəsir Məmmədov "Azərbaycan dilçiliyinin əsasları (başqa türk dilləri ilə əlaqədə)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Onun rəsmi opponentlərindən biri 1960-cı ildə Qaraqalpaq MSSR, 1962-ci ildə Türkmənistan SSR və 1967-ci ildə Qazaxıstan SSR-in əməkdar elm xadimi, qaraqalpaq, noqay, altay, tatar, uyğur, türkmən və digər türk dillərinə dair gözəl əsərlərin müəllifi N.A.Baskakov idi [160, s.3].

1965-ci ilin dekabrında Azərbaycan Dövlət Universitetinin Elmi Şurasında folklorşünaslıq üzrə görkəmli alim M.H.Təh-

masib, “Azərbaycan xalq dastanları (orta əsrlər)” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Türkmənistan SSR EA akademiki B.A.Karrıyev və professoru A.Kəkilov əsərə yüksək rəy yazmaqla, onu türkologiya aləmində gözəl bir təşəbbüs, bütün türk xalqları, hətta, bütövlükdə Şərq xalqları şifahi ədəbiyyatının tədqiqi üçün yaxşı bir örnək kimi dəyərləndirmişdilər [385, s.4]. Eyni zamanda onlar dastanlarımızı sistemli şəkildə araşdırmaqla, gələcək elmi işlər üçün təməl yaradan proqram səviyyəli tədqiqat işinin ortalığa qoyulduğunu əminliklə vurğulamışlar [158, s.12].

Elmi-texniki təchizat sahəsindəki əlaqələr də elmi əlaqələrin inkişafına təsir edirdi. Bu istiqamətdəki əlaqələrin əhatə dairəsi geniş idi. Əlyazmalar fondunun fotolaboratoriyalarında əlyazmalarından mikrofilm çıxarılması, müxtəlif sənədlərdən kadr çəkilməsi, foto-kağıza material köçürülməsi, elmi kitabxanalar tərəfindən elmi kitab və jurnalların göndərilməsi və s. daxil idi.

1960-1969-cu illərdə Türkmənistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) “Türkmənistan SSR EA Xəbərləri”nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərmişdir. Eləcə də Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanası həmin illərdə Akademiyada nəşr olunan bütün elmi jurnalları və keçirilən elmi konfransların materiallarını türkmən həmkarlarına çatdırmışdır [70].

### 5.3. 1970-ci illərdə elmi əlaqələr

XX əsrin 70-ci illərində Azərbaycan-Türkmənistan elmi əlaqələri öz inkişafında keyfiyyətcə yeni, daha mühüm və əhəmiyyətli bir mərhələyə daxil oldu. Elmi təşkilatlar öz fəaliyyətlərini genişləndirir, elm və texnologiyanın nailiyyətlərinin istehsalata tətbiqi dərinləşir və iqtisadiyyat elmi əsaslara söykənməklə böyük inkişaf yoluna çıxırdı. Milli iqtisadiyyatların inkişafı naminə, ölkədə ilk dəfə olaraq, Dövlət planı tərtib edilərkən milli iqtisadiyyatda elm və texnologiyanın nailiyyət-

lərinin tədqiqi və istifadə edilməsi planlaşdırılmağa başlanmışdı. Bu müsbət addım, həm də, bir növ, elmi-texniki inqilab və elmin istehsalatla birləşməsi demək idi [596, s.216].

70-ci illərdə elmi əlaqələr də genişlənir, elmi əməkdaşlıq da bir sıra formalarda dərinləşib möhkəmlənirdi. 1970-ci ildə görkəmli coğrafiyaşünas alim, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov Aşqabadda çap olunan "Səhraların mənimsənilməsi problemləri" adlı elmi-tədqiqat jurnalının redaksiya heyyətinin üzvü seçilmişdi [125, s.75].

Azərbaycanın tanınmış tarixçi alimi, Azərbaycan SSR EA-nın akademiki Ə.S.Sumbatzadə 1970-ci ildə Aşqabadda keçirilən mədəni əlaqələrə dair Beynəlxalq konqresdə "Mərkəzi Asiya ölkələri ilə Azərbaycanın mədəni əlaqələri" mövzusunda məruzə etmişdir [250, s.18].

Öz nurlu taleyini türkmən xalqının taleyi ilə bağlamış azərbaycanlı Əkbər Əliyevi (Ruhi) Türkmənistanda istedadlı türkmən şairi və alimi kimi yaxşı tanıyırdılar. O, 1970-ci ildə Bakıda "Türkmənistan-Azərbaycan ədəbi əlaqələri" mövzusunda uğurla doktorluq dissertasiyası müdafiə edərək filoloji elmlər doktoru elmi dərəcəsini almışdır. Onun rəsmi opponentlərindən biri XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, tanınmış akademik H.M.Araslı idi [283, s.182].

Tədqiqatçı alim Əli Saləddin bu elmi əsər barədə yazmışdır: "Ə.Ruhinin doktorluq işi daha mühüm mövzuya həsr olunub. Azərbaycan və türkmən xalqlarının qarşılıqlı ədəbi əlaqələrini ilk dəfə geniş planda aydınlaşdıran və onun dərin təhlilini verən Ə.Ruhi olmuşdur. Bu əsər özünün mövzusuna və məndəricəsinə görə sovet ədəbiyyatşünaslığında mühüm yerlərdən birini tutur. Bəli, Əkbər Ruhi çox zəhmət tələb edən, tamamilə orijinal faktlar əsasında gözəl bir əsər dünyaya gətirmişdir. Bütün ömrü boyu aldığı təhsil, etdiyi mütaliə, keçdiyi təcrübə öz bəhrəsini vermişdir. Türkmənlər özləri etiraf edirlər ki, ədəbiyyatımızı ilk dəfə dərindən öyrənən Əkbər Ruhidir" [478, s.72-73].

1970-ci ildə "Azərbaycan SSR EA-nın Xəbərlər"ində (Yer haqqında elmlər seriyası, 1970, № 6, s.47-48) çap olunmuş

tədqiqatçı alim A.Q.Xəlilovun “Türkmənistan və Azərbaycan akçaqılı haqqında əsaslı tədqiqat” məqaləsində Azərbaycan SSR EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin “Türkmənistanın akçaqılı” (1967) və “Azərbaycanın akçaqılı” (1969) monoqrafiyaları çox yüksək dəyərləndirilir, alimin əvvəllər ağçaqılda məlum olmayan xeyli sayda yeni növ və cinsləri taparaq, təsvirlərini də verməsini ağçaqıl faunasını daha mükəmməl öyrənməyə imkan verdiyini təsdiqləyirdi [231, s.162].

XX əsrin 60-cı illərində Azərbaycan SSR EA-nın Yer elmləri bölməsində SSRİ üzrə neft yataqlarının işlənməsiylə bağlı Mərkəzi İnkişaf Komissiyası (MİK) təşkil edilmişdi. Komissiyanın üzvləri ölkənin müxtəlif bölgələrində neft istehsalı ilə məşğul olan 24 yataq üçün texnoloji sxemləri və inkişaf layihələrini nəzərdən keçirirdilər. 1970-ci ildə nəzərdən keçirilən 24 yataqdan 1-i Türkmənistanda (Barsa-Gəlməz), 1-i Qırğızıstanda, 2-si Qazaxıstanda (Uzen, Kenkiyak), 1-i Azərbaycanda və 19-u ölkənin ayrı-ayrı bölgələrində (Tatarıstan, Çeçen-İnquşetiya MSSR, Ukrayna SSR, Kuybışev vilayəti, Orenburq vilayəti, Perm vilayəti, Başqırdıstan, Krasnodar ölkəsi, Volqoqrad vilayəti, Saxalin) yerləşirdi [577, v.5-10].

Azərbaycan SSR EA Koordinasiya Şurasının 1971-ci ildə VIII sessiyası keçirilmişdir. 1970-ci ildə görülmüş elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş bu iclasda filologiya elmlər doktoru, professor M.Seyidov “Azərbaycan və Orta Asiyanın ədəbi əlaqələrinin mənbələri” mövzusunda məruzə etmişdir. Görkəmli alim M.Seyidov çıxışında Azərbaycan-türkmən ədəbi əlaqələrinə də yer ayırmışdı [672, v.54-56].

1971-ci ilin aprelində Azərbaycan SSR EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin anadan olmasının 60 illiyi qeyd edildi. Onun yaradıcılığında regional tədqiqatlar mühüm yer tuturdu. Türkmənistanın geoloji quruluşu ilə tanış olan alim, hələ 1952-ci ildə Qərbi Türkmənistanın Xəzərsahili ovalığında pont çöküntülərinin mövcudluğu proqnozunu vermiş və 1954-cü ildə qazma məlumatları bu

proqnozu təsdiqləmişdi. Alimin Qərbi Türkmənistan neogeninin stratiqrafik şkalasına daxil etdiyi düzəlişlər Türkmənistanın Xəzəryanı rayonunun geoloji inkişaf tarixinə yenidən baxılmasına səbəb olmuşdu.

Akademik Ə.Ə.Əlizadənin "Türkmənistanın ağçaqılı" əsərinin 1-ci cildi 1961-ci və 2-ci cildi 1967-ci ildə Moskva nəşriyyatları tərəfindən çap olunmuşdu [231, s.32-33, 106, 113].

Alimin əməyini yüksək qiymətləndirən Türkmənistan SSR 1971-ci ildə ona "Türkmənistan SSR-in əməkdar elm və texnika xadimi" fəxri adını vermiş [231, s.12] və Türkmənistan SSR EA-nın "Xəbərlər"i (fizika, texnika, geologiya elmləri seriyası) ayrıca iki səhifəlik "Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Ə.Ə.Əlizadənin 60 illik yubileyinə" adlı əlavə (1971, №3) buraxmışdı [231, s.155-156].

1971-ci ildə Bakıda keçirilən "Milli azadlıq hərəkatı və müasir antikommunizmə qarşı mübarizə məsələləri" mövzusundakı Ümumittifaq konfransını (20-22 oktyabr) SSRİ EA-nın xarici ideoloji cərəyanlar problemləri üzrə Elmi Şurası və Azərbaycan SSR EA-nın ictimai elmlər şöbəsi təşkil etmişdilər [110, v.5]. Konfransın 3 bölmədə olmaqla, əvvəlcə oktyabrın 11-14-də keçirilməsi nəzərdə tutulmuşdu. Lakin məruzələrin çoxluğu və təşkilati işlərin yekunlaşdırılmasının ləngiməsi nəticəsində oktyabrın 20-22-də aşağıdakı 4 bölmələr üzrə olmuşdur: 1. Milli azadlıq hərəkatı və imperializmin ideologiyasına qarşı mübarizə. 2. Müasir milli azadlıq hərəkatında ideoloji cərəyanlar. 3. Milli azadlıq hərəkatı və qeyri-kapitalist inkişaf yolu konsepsiyaları. 4. Milli azadlıq hərəkatında sol opportunist konsepsiyalardan antikommunizmin istifadə etməsi [111, s.1].

Konfransda 1-ci bölmədə 19, 2-ci bölmədə 19, 3-cü bölmədə 15 və 4-cü bölmədə 11 məruzə dinlənilmişdir [386, v.13-17].

Konfransın açılışı günü giriş nitqi ilə çıxış edən Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev demişdir: "Bu konfrans müstəmləkələrin və asılı ölkələrin mübarizə aparan xalqları ilə ölkəmizin xalqlarının həmrəylik ənənələrini, Şərq xalqlarının 1920-ci ilin sentyabr ayında sovet Azərbaycanının

paytaxtında keçirilmiş birinci qurultayında çox parlaq surətdə nümayiş etdirilmiş ənənələri bir növ davam etdirir” [112, s.1].

Konfransın bütün bölmələrində Azərbaycanın 10-dan çox tanınmış alimi (M.Ələsgərov, H.Əliyev, A.Agahi, Ə.Əminzadə, E.Həsənov, H.Sultanov, D.Kərimov, T.Köçərli, E.Zamanova, Y.Bağırov və b.) müxtəlif mövzularda məruzələr etmişlər [386, v.183-184].

Konfransda Türkmənistandan gəlmiş alimlər də iştirak edirdi. Onlardan – tarix elmlər namizədi B.M.Karabayev (Türkmənistan SSR EA Tarix İnstitutu) “Pantürkçülük müasir Türkiyədə antikommunizm ideologiyasının bir hissəsi kimi” və fəlsəfə elmləri namizədi B.D.Zotov (Türkmənistan Dövlət Universiteti) “Milli azadlıq hərəkatı və antikommunizm millətçiliyinin təkamülü” mövzularında məruzələr etmişdilər [386, v.15-16].

1971-ci ildə Türkmənistan üçün elmi kadrlar hazırlanması istiqamətində də Azərbaycan özünün müsbət əməli addımlarını atırdı. Belə ki, həmin ildə türkmən tədqiqatçılarından B.Tacmuradov və Ç.Saparov Azərbaycan və Türkmənistan neft sənayesi ilə bağlı mövzularda Azərbaycan SSR EA-nın akademik İ.M.Qubkin adına Geologiya İnstitutunun Müdafiə Şurasında uğurla namizədlik dissertasiyaları müdafiə edərək geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdılar [666, v.180].

1971-ci il aprelin 16-da Bakıda Ə.Əliyev adına ADHTİ-nin Elmi Şurasında türkmənistanlı həkim – tədqiqatçı A.T.Tuşiyev uğurla “Beyni qidalandıran əsas damarların okklyuziyası zamanı baş beyin qılafı və qabığı damar kollaterallarının açılma və başlanğıc dəyişmələrinin vaxtı (təcrübi tədqiqat)” mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

Dissertasiya SSRİ Səhiyyə Nazirliyinin Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Əməliyyat cərrahiyəsi və topoqrafik anatomiya kafedrası və Türkmənistan SSR Tecen rayonu Mərkəzi xəstəxanasının cərrahiyə şöbəsində həyata keçirilmişdi. Dissertant A.T.Tuşiyevin elmi rəhbəri SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, professor B.V.Oqnev idi.

Dissertasiyanın rəsmi opponentləri Azərbaycanın tibb elmləri doktorları, professorlar M.Ş.Cahangirov və A.A.Ağalarov idilər [693, s.1-2].

Həmin ildə Azərbaycan SSR EA-nın Coğrafiya İnstitutunun Elmi Şurasında Türkmənistanda doğulmuş azərbaycanlı əsilli R.A.Hüseynov iqtisadi coğrafiya ixtisası üzrə "Xəzər dənizi Türkmənistan sahili təsərrüfat kompleksinin müasir vəziyyəti və onun inkişaf perspektivləri" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdı.

Dissertantın elmi rəhbəri Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor Q.K.Gül idi.

Dissertasiya Coğrafiya İnstitutunun Xəzər dənizi bölməsində yerinə yetirilmişdi. Aparıcı müəssisə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutu idi.

Dissertant R.A.Hüseynovun rəsmi opponentləri coğrafiya elmləri doktoru, professor Q.A.Koçaryan və coğrafiya elmləri namizədi L.İ.Nəsibzadə idilər [617, s.1-2].

Azərbaycan və Türkmənistan alimləri tez-tez müxtəlif səviyyəli elmi tədbirlərdə birgə iştirak edir, görüşüb fikir mübadilələri aparırdılar. Belə tədbirlərdən biri 1971-ci ilin oktyabrında Özbəkistanın Fərqanə şəhərində keçirilən XI əsrin görkəmli türkoloqu Mahmud Kaşğarinin "Divani lüğət-ət-türk" əsərinin 900 illiyinə həsr edilmiş sovet türkoloqlarının Ümum-ittifaq konfransı idi. Ölkə türkoloqlarının bu ali məclisində Leninqrad, Bakı, Daşkənd, Aşqabad, Frunze, Alma-Ata, Kazan, Ufa, Səmərqənd və başqa şəhərlərdən gəlmiş yüzdən çox nümayəndə iştirak edirdi [538, s.4].

Konfransda Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktoru, "Sovetskaya türkologiya" jurnalının baş redaktoru, akademik M.Şirəliyev başda olmaqla, Respublika EA-nın müxbir üzvü Ə.Dəmirçizadə, Azərbaycan SSR EA Dilçilik İnstitutunun direktor müavini, professor M.Rəhimov, ADU-nun türkologiya kafedrasının müdiri, professor F.Zeynalov iştirak edirdilər.

Konfransa qatılmış Türkmənistan SSR EA-nın akademiki Karrıyevin və həmin akademiyanın müxbir üzvü Xıdırovun çıxışları diqqətlə dinlənilmişdi [538, s.4].

Azərbaycan və Türkmənistan alimləri istər plenar, istərsə də bölmə iclaslarında fikir mübadilələri aparmış, elmi axtarışlarının nəticələri ilə bir-birilərini tanış etmişlər.

Türkmənistan SSR-in Taşauz şəhərindəki azərbaycanlı ailəsində doğulmuş Rüstəm İmran oğlu Məmmədov 1963-1969-cu illərdə təhsil aldığı N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmişdi. 1969-1972-ci illərdə Bakı şəhərindəki "Döş cərrahiyəsi klinikası"nda cərrah-ordinator (rezident) vəzifəsində çalışmışdır. 1972-ci il martın 15-də Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Ftizatriya kafedrasına assistent vəzifəsinə işə götürülmüş [267, v.33-34], 1973-cü ildə öz ixtisası üzrə aspiranturaya qəbul edilmişdi. O, uğurla dissertasiya müdafiə edərək həmin kafedrada da elmi fəaliyyətini davam etdirmişdir. Azərbaycan və Zaqafqaziya ftizatorlarının qurultaylarında dəfələrlə iştirak etmiş, əsərləri ölkənin müxtəlif elmi məcmuələrində çap olunmuşdur [255, s.60].

1972-ci ildə Azərbaycan SSR EA-nın Dilçilik İnstitutunda keçirilən türk dillərinin dialektoloji xəritəsinin tərtibi məsələsinə dair müşavirədə (20-21 aprel) 15 türkdilli respublika, muxtar respublika və vilayətlərdən gəlmiş tanınmış dilçi alimlər iştirak edirdilər. Müşavirəyə Türkmənistan alimləri də gəlmişdilər. Müşavirədə Azərbaycan alimlərindən, akademik M.Ş.Şirəliyev və filologiya elmləri namizədi M.İ.İslamov məruzə ilə çıxış etmişdilər [684, v.137].

Azərbaycanın görkəmli tarixçi alimi, akademik Ə.S.Sumbatzadə 1972-ci ildə YUNESKO xətti ilə Aşqabadda keçirilən (26-29 sentyabr) Mərkəzi Asiya ölkələrinin ictimai və mədəni inkişaf problemi üzrə Beynəlxalq konfransda "SSRİ-nin təşkilinin beynəlxalq əhəmiyyəti" problemi üzrə SSRİ və ADR tarixçiləri komissiyasının XX elmi konfransının üzvü olmuş və

orada "Azərbaycan alimlərinin əsərlərində xalqlar dostluğu ideyası" mövzusunda məruzə etmişdir [250, s.18, 54, 70].

Türkmənistanda istedadlı türkmən şairi və alimi kimi yaxşı tanınmış azərbaycanlı Əkbər Əliyevin (Ruhinin) 1972-ci ildə "Azərbaycan" jurnalında "Türkmən-Azərbaycan ədəbi əlaqələri tarixindən"adlı məqaləsi çap olunmuşdu. Məqalədə türkmən-Azərbaycan ədəbi əlaqələri 3 dövrə (1. "Dədə Qorqud"un meydana gəldiyi vaxtdan xalqlarımızın rus imperiyası tərkibinə daxil olana qədərki dövr. 2. Azərbaycanın və Türkmənistanın Rusiya tərkibində olduğu dövr. 3. Türkmən-Azərbaycan ədəbi əlaqələrinin sovet dövrü) bölünməklə araşdırılmış və dövrlər arasındakı fərqli cəhətləri özündə əks etdirən başlıca xüsusiyyətlər səciyyələndirilmişdir [230, s.194-197].

1972-ci ildə Bakıda "Sovet şərqi xalqlarının ədəbiyyatında realizm problemləri" mövzusunda keçirilən Ümumittifaq müşavirəsində (16-19 oktyabr) Azərbaycan alimləri ilə bərabər, Moskva, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Tatarıstan, Başqırdıstan nümayəndələri də iştirak etmişdilər. Cəmi 35 məruzə və bir sıra çıxışlar dinlənilmişdir [466, s.3].

Türkmənistanlı alim, filoloji elmlər doktoru U.Abdullayev məruzəsində göstərirdi ki, uzun əsrlər boyu türkmənlərin ədəbiyyatında, xalq yaradıcılığında realizm fantastika, mifologiya ilə yanaşı yaşamışdır. Türkmən ədəbiyyatında inqilaba qədərki dövrdə realizm bir ədəbi metod kimi formalaşmamışdı. Lakin Məhdimqulu, Seyidi, Kəminə, Mollanəpes kimi şairlərin əsərlərində, xüsusən XIX əsrin 2-ci yarısında yazılmış epik əsərlərdə real xarakterlər mövcuddur. Bununla belə yazıçı təfəkküründə materializm, mifologiya və idealist təsəvvürlər bir-birinə qarışmış halda təzahür edirdi. Təkcə sovet hakimiyyəti illərində realizm fantastikadan tamamilə ayrılaraq, yeni bir bədii metod-sosializm realizmi metodu bərqərar olmuşdur [466, s.3].

Aşqabaddan gəlmiş digər türkmən alimi, filoloji elmlər namizədi N.Otdayev "Türkmən xalq şairlərinin yaradıcılığı və realizm" mövzusundakı məruzəsində demişdir ki, realizmin və

sosialist realizminin inkişafında xalq şairlərinin mühüm rolu olmuşdur. Bayram Şair, Durdı Qılıc və Ata Saleh yeni türkmən sovet poeziyasının baniləri olmuşlar. Türkmən ədəbiyyatında sosialist realizmi metodu ilk dəfə məhz onların poeziyasında özünü təqdim etmişdir. Onların yaradıcılığında inqilaba qədərki ədəbiyyatın mütərəqqi cəhətləri sosializm zəminində yetişmiş yeniliklə üzvi surətdə birləşmişdi. Sosializm realizmi metoduna yiyələnmiş xalq şairləri Şərq ədəbiyyatının realist cizgilərinə əsaslanmaqla, onun məzmununu daha da dərinləşdirərək genişləndirmişlər [466, s.3].

Bakıda keçirilən realizm problemlərinə dair Ümumittifaq müşavirəsinin iştirakçıları azərbaycanlı alimlərin (Azərbaycan SSR EA-nın akademikləri M.A.Dadaşzadə, M.Ə.İbrahimov, filoloji elmlər doktorları A.Hacıyev, M.Quluzadə, Ə.Şərif, Ə.Cəfər, K.Talıbzadə, M.Cəfərov, Ə.Ağayev, filoloji elmlər namizədləri A.Dadaşzadə, Y.Qarayev, Z.Qəniyeva, V.Hüseynov) öz yeniliyi və aktuallığı ilə seçilən məruzələrinə böyük dəyər vermişlər [466, s.3-4, 15].

1973-cü ildə Azərbaycan SSR EA-nın İ.M.Qubkin adına Geologiya İnstitutunun regional-geoloji elmi-tədqiqatlarının aparılması istiqamətində fəaliyyəti genişlənmişdi. Azərbaycanın sərhədləri daxilində aparılmış geofiziki işlərin nəticələrindən geniş şəkildə istifadə edilməsi regional-geoloji tədqiqatlara öz müsbət təsirini göstərirdi. Bu ildə institutun əməkdaşları bölgə planında yuxarı pliosen çöküntülərinin Neft daşlarından Boyadağ istiqamətində paralelləşməsini aparmış, Qərbi Türkmənistanın Abşeron mərhələsinin qalınlıqlarının və Jdanov buxtası sahəsinin litofasiya profillərinin regional planda qumlu-lil fraksiya, karbonat və məsaməliyin ölçülməsini göstərən xəritəsini hazırlamışdılar [667, v.1-4].

Azərbaycanın geologiya alimlərinin səyi nəticəsində Qərbi Türkmənistandakı palçıq vulkanlarının inkişaf zonasının geoloji quruluşu və geofiziki xüsusiyyətləri haqqında faktiki material toplusu yarandı. Bütün geoloji və əsasən geofiziki materiallar Türkmənistan Geologiya İdarəsi (Nebitdağ Kompleksi),

Türkmənistan Neft Tədqiqat və İnkişaf İnstitutu və Türkmənneft Birliyinin fondlarında toplanılaraq saxlanılmışdır [667, v.1-4].

Həmin ildə Azərbaycan SSR EA Geologiya İnstitutu aparılan elmi axtarışların nəticəsi olaraq 4 monoqrafiya və 1 bələdçi kitabça nəşr etdirmişdi. Görkəmli alim Ş.F.Mehdiyevin və digər alimlərin müəllifliyi ilə 1973-cü ildə Moskvanın «Наука» nəşriyyatında çap olunmuş "Azərbaycan və Türkmənistanın neft və qaz bölgələrinin geotermisi" monoqrafiyası elmi baxımdan böyük əhəmiyyət kəsb edirdi [667, v.134].

1973-cü ildə Moskvada keçirilən "Yer qabığındakı ofiolitlər" mövzusundakı Beynəlxalq simpoziumu (31 may-13 iyun) SSRİ EA-nın Geologiya İnstitutu, Özbəkistan SSR və Azərbaycan SSR Elmlər Akademiyaları birgə təşkil etmişdilər. Onun işində 250-dən çox alim, o cümlədən Asiya, Avstraliya və Avropanın 23 ölkəsindən gəlmiş 56 xarici alim və geoloqlar da iştirak etmişdir. Simpoziumda Azərbaycan alimlərindən M.Ə.Qaşqay, Ş.Ə.Əzizbəyov və M.İ.Rüstəmovun məruzələri maraqla qarşılanmışdır [667, v.158-159].

Moskva simpoziumunun işi ofiolit probleminin geologiya sahəsində mühüm mövqe tutduğunu göstərirdi. Simpoziumda həm elmi təqdimatlar və həm də ekskursiyalar zamanı iki cəhət (1.Ofiolitlərin ilkin əmələ gəlməsi və quruluşundakı mövqeyi. 2. Qat kəmərlərindəki daralmalar zamanı ikinci hərəkət) müzakirə olunmuşdur. İştirakçılar Moskva, Orta Asiya və Kəlbəcər bölgəsindəki Yer qabığında ofiolitlət probleminə diqqət yetirmiş və simpoziumdan sonra, 1973-cü ilin iyununda çöl ekskursiyasını Azərbaycan SSR-in Kəlbəcər rayonunda keçirmişlər. Çünki 1973-cü ildə Kəlbəcərdə ofiolitlərin maqmatik mənşəyi və dərin lay boyunca hərəkətlərinin sıxıntılı olması məsələsini aydınlaşdırmaq üçün Kiçik Qafqazın ofiolit formasiyası zonasının melanj və olistromu haqqında elmi araşdırmalar aparılırdı. Eyni zamanda Azərbaycandan götürülmüş 13 və Türkmənistandan götürülmüş 12 oxşar nümunələrin müqayisəsi əsasında "Minsk-22" kompüterində korrelyasiya və reqressiya analizləri həyata keçirilirdi [667, v.1-27, 158-159].

1973-cü ildə Azərbaycan SSR EA-nın akademiki M.M.Əliyevin rəhbərliyi altında "Şərqi Türkmənistan, Manqışlaq və Ustyurdun təbaşir və yura çöküntülərinə ayrılması" layihəsinin həyata keçirilməsi nəticəsində yeni neftli və qazlı sahələrin açılmasına səbəb olmuşdu [92, v.1-27, 108-109].

Görkəmli neftçi-alim, akademik M.M.Əliyev (1908-1985) Şamaxı şəhərində anadan olmuş, 1926-cı ildə Aşqabad şəhərindəki fizika-riyaziyyat təmayüllü orta məktəbi əla qiymətlərlə bitirmiş, 1926-1931-ci illərdə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Dağ-mədən fakültəsində təhsil almışdır. O, 1936-cı ildə namizədlik, 1957-ci ildə doktorluq dissertasiyaları müdafiə etmişdir. Alimin əsas uğurlarından biri onun rəhbərliyi ilə 1949-cu ildə Xəzər dənizinin akvatoriyasında neft və qazın geoloji axtarışı və istismarına dair layihə əsasında ilk dəfə neft sənayesində dənizdə böyük bir yatağın ("Neft Daşları") açılışı olmuşdur.

Akademik Musa Əliyev böyük elm təşkilatçısı idi. O, 1950-1958-ci illərdə Azərbaycan EA-nın prezidenti vəzifəsində çalışmışdır. Onun Akademiyaya rəhbərlik etdiyi dövrlərdə EA-nın inkişafının istiqamətləndirilməsində, yeni elmi tədqiqat institutlarının, bölmə və şöbələrin yaradılmasında, elmin ən perspektivli sahələrinin təşkil edilməsində mühüm xidmətləri olmuşdur. O, Azərbaycanda Mezazoy üzrə paleontoloq və stratiqrafların elmi məktəbinin banisi idi. Bu məktəb SSRİ-də Yura və Təbaşir stratiqrafiyası üzrə "Bakı Məktəbi" kimi məşhurlaşmışdı [349]. Bu məktəbin Türkmənistan neft sənayesinin inkişafında da müsbət təsiri olmuşdur.

70-ci illərdə elmi kadrların hazırlanması istiqamətində də müsbət addımlar atılır və uğurlu nəticələr iki respublika arasında elmi əlaqələrin genişlənməsinə səbəb olurdu. Belə ki, 1973-cü ildə Aşqabadda Türkmənistan Dövlət Universitetinin filologiya fakültəsinin Müdafiə Şurasında Faizə Ağayeva uğurla "Müasir ingilis və türkmən dillərində sintaktik cəhətdən təcrid olunmuş şivələrin müqayisəli tipoloji təsdiqi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi al-

mışdı. Onun elmi rəhbəri Azərbaycanın görkəmli dilçi alimi, filologiya elmləri doktoru, professor A.A.Axundov idi [6, s.108].

1973-cü il sentyabrın 27-də Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurasında Türkmənistandan gəlmiş dissertant Məhəmməd Gəldixanov "Türkmənistanın yerli coğrafi terminləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdı [668, v.310].

Dissertasiya 1964-1970-ci illərdə Türkmənistan SSRİ EA-nın Səhra İnstitutunun torpaq coğrafiyası laboratoriyasında yerinə yetirilmiş, aparıcı müəssisə kimi A.M.Qorki adına Türkmənistan Dövlət Universitetinin biologiya-coğrafiya fakültəsi ona müsbət rəy vermişdi.

Müdafiə zamanı dissertant M.Geldixanovun rəsmi opponentləri coğrafiya elmləri namizədi, professor H.Həsənov və coğrafiya elmləri namizədi R.M.Yüzbaşov idilər [616, s.1-2].

1973-cü ildə Türkmənistandan gəlmiş S.Tağıyev də Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsi almışdı [668, v.310].

Azərbaycan-Türkmənistan elmi əlaqələrinin ayrı-ayrı sahələrini özündə əks etdirən elmi məqalələrin nəşri də bu istiqamətdə inkişafa öz əhəmiyyətli təsirini göstərirdi. 1974-cü ildə ADU-nun "Elmi Əsərlər"ində (tarix və fəlsəfə seriyası) tədqiqatçı S.M.Mirzəyevin "Türkmənistan neft sənayesinin ixtisaslı kadrlarla təmin edilməsində Azərbaycan SSR-nin rolu" məqaləsi çap olunmuşdu. Məqalədə Azərbaycan neftçilərinin köməyi ilə Türkmənistan neft sənayesinin ixtisaslı kadrlarla təmin olunması, Türkmənistana ixtisaslı kadrların göndərilməsi, yerli gənclərin Azərbaycanın institut və orta ixtisas məktəblərinə cəlb edilməsi və Türkmənistana göndərilmiş Azərbaycan neftçilərinin təşkil etdikləri kurslar vasitəsilə yerli kadrları hazırlaması kimi üç yol ilə kadr hazırlığının həyata keçirilməsi öz əksini tapmışdır [408, s.10-16].

1974-cü ildə Türkmənistanda türkmən ədəbiyyatşünası Nazar Qullayevin "Gündoğanın böyük şairi"adlı elmi məqaləsi

çap olunmuşdu. Məqalədə XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, tanınmış akademik H.M.Araslının Nəsimi, Xətai, Füzuli yaradıcılığı ilə bağlı tədqiqatlarından da danışılırdı [283, s.230].

Həmin il aprel ayının 23-25-də Aşqabad şəhərində "Lenin milli siyasəti və onun saxtalaşdırıcılarına qarşı mübarizə" mövzusunda elmi sessiya keçirilmişdir. SSRİ EA və Türkmənistan SSR EA-nın ictimai elmlər bölməsinin birlikdə keçirdikləri bu sessiya iki bölmədə (1.Lenin milli siyasətinin Orta Asiyada təntənəsi. 2. Marksist-leninçi milli siyasətin beynəlxalq əhəmiyyəti.) öz fəaliyyətini davam etdirmişdir [550, v.69-70]. Sessiyada iştirak edən Azərbaycan SSR EA-nın müxbir üzvü, Fəlsəfə və Hüquq İnstitutunun direktoru F.K.Köçərli "Sovet şərqi respublikalarında milli və beynəlxalq prosesləri saxtalaşdıranların tənqidi" mövzusunda məruzə etmişdir [90, v.54].

Azərbaycan-Türkmənistan elmi əlaqələrinin inkişafında Azərbaycan SSR EA-nın akademikləri M.M.Əliyev və Ə.Ə.Yaqubovun mühüm əməkləri var idi. Akademik M.M.Əliyev "Qərbi Türkmənistan, Manqışlaq və Ustyurdun Təbaşir və Yura yataqlarının biostratiqrafiyası və korrelyasiyası" tədqiqat qrupuna rəhbərlik edirdi. Bu istiqamətdə Manqışlaq, Qərbi Türkmənistan Yura və Təbaşir yataqlarında ətraflı araşdırmaların aparılması, zəngin neft və qaz ehtiyatlarının müəyyənləşdirilməsi sahəsində xeyli səy göstərmişdi. Onun elmi araşdırmaları 1974-cü ildə çap olunmuş "Sovet İttifaqında neft və qazdaşıyıcı bölgələrin stratiqrafiyasının problemli məsələləri" toplusundakı L.B.Alekseeva, D.D.Şilova ilə birgə yazdıqları "Manqışlaq və Qərbi Türkmənistanın neokom yataqlarının yaşını əsaslandırmaq" və R.Z.Genkina, E.N.Dubrovskaya ilə birgə yazdıqları "Paleobotanik məlumatlara görə, Mərkəzi Asiyanın şərq bölgələrində yura çökmələri ilə tanışlıq və əlaqə" məqalələrində öz əksini tapmışdı [670, v.42-44].

Akademik Ə.Ə.Yaqubov (1908-1979) palçıq vulkanlarının neft-qazlılıqla əlaqəsi məsələsini araşdırmışdır. O, 1966-cı ildə SSRİ-də ilk laboratoriya olan palçıq vulkanizmi laboratoriya-

sına, 1972-ci ildən isə Geologiya İnstitutunun palçıq vulkanizmi sektoruna rəhbərlik etmişdir. 1971-ci ildə dünya geologiya təcrübəsində ilk dəfə olaraq "Azərbaycanın palçıq vulkanları atlası"nı tərtib etmişdir [675, v.71].

Akademik Ə.Ə.Yaqubov Balxan yüksəliş zonasının şimal və cənub sərhədləri boyunca Nebitdağ və Çələkən ərazisində quyu qazmağı, palçıq vulkanları ilə qarışıq olan Cənubi Okarem, Keymir, Akpatlauk və Porsu sturukturlarında qalın qırmızı təbəqələri boyunca kəşfiyyat işlərinin davam etdirilməsini tövsiyyə etmişdir [675, v.71-72].

1975-ci ildə H.Zərdabi adına KDPİ-nin əməkdaşı S.M.Mirzəyevin "Türkmənistan neft sənayesinin neft avadanlığı ilə təchiz edilməsində Azərbaycan SSR-nin rolu (1946-1965-ci illər)" adlı məqaləsi ADU-nun "Elmi əsərlər"ində (tarix və fəlsəfə seriyası) çap edilmişdi. Məqalədə müharibədən sonrakı illərdə Türkmənistanda neft kəşfiyyat işlərinin xeyli genişləndirilməsi, neft sənayesinin qazma və neftçıxarma avadanlıqları ilə müntəzəm təmin olunmasında Azərbaycanın böyük tarixi rolu öz əksini tapmışdır [407, s.24-30].

Həmin ilin iyun ayında N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun aspirantı, türkmənistanlı Orazmurad Çarıyev İnstitutun Elmi Şurasında "Neft emalı sənayesinin idarəetmə panellərində əsas işçi qruplarının əmək fəaliyyətinin müqayisəli fizioloji xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

Dissertasiya M.M.Əfəndizadə adına Əməyin Gigiyenası və Peşə xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmiş, aparıcı elmi müəssisə kimi Q.M.Musabəyov adına Respublika Virusalogiya, Mikrobiologiya və Gigiyena Elmi-Tədqiqat İnstitutu ona müsbət rəy vermişdir [701, s.1-2].

Türkmənistanlı aspirant Orazmurad Çarıyevin elmi rəhbərləri tibb elmləri doktoru, professor İ.İ.Ələkbərov, tibb elmləri namizədi, böyük elmi işçi A.N.Melkumyan və rəsmi opponentləri tibb elmləri doktoru, professor A.M.Məmmədov və biologiya elmləri doktoru, professor T.D.Qayıbov idilər [701, s.2].

1975-ci il iyunun 24-də türkmənistanlı alim, tibb elmləri namizədi M.O.Karrıyev Tbilisi şəhərində Gürcüstan Dövlət Tibb İnstitutunun Elmi Şurasında "Türkmənistan florası tibb üçün efir yağı bitkiləri ilə zəngin bir qaynaqdır" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. Bu, əczaçılıq sahəsində Türkmənistanın doktorluq elmi dərəcəsi almış ilk alimi idi. Dissertasiya Türkmənistan SSR EA Kimya İnstitutunda yerinə yetirilmişdi.

M.O.Karrıyevin dissertasiyasına aparıcı elmi müəssisə kimi N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu müsbət rəy vermişdi [641, s.1-2].

1976-cı ildə Aşqabadda SSRİ-nin səhra ərazilərinin kompleks tədqiqi və mənimsənilməsinə dair Ümumittifaq elmi konfransı keçirilmişdir. Konfransda iştirak edən Azərbaycan alimlərindən kənd təsərrüfatı elmləri doktoru, professor M.R.Abduyev "Azərbaycanın takır torpaqlarının meliorasiyası" [409, s.64], kənd təsərrüfatı elmləri doktoru, professor M.P.Babayev "Mənimsənilmiş yarımsəhra torpaqlarında torpaqəmələgəlmə prosesi" [379, s.12] və biologiya elmləri doktoru, professor V.C.Hacıyev "Azərbaycanın səhra otlaqlarının yem ehtiyatlarının yaxşılaşdırılma yolları" [564, s.14] mövzularında məruzələr etmişdilər.

1976-1980-ci illərdə Azərbaycanın görkəmli neftçi alimi, akademik A.X.Mirzəcanzadə Tümen və Kazan Universitetlərində, Ufimski neft, aviasiya institutlarında və Türkmənistan Politexnik İnstitutunda müntəzəm olaraq mühazirə kursları aparmışdır [665, v.193].

1976-cı ildə Azərbaycan SSR EA Coğrafiya İnstitutunun Elmi Şurasında Türkmənistan Dövlət Pedaqoji İnstitutunun əməkdaşı, coğrafiya elmləri namizədi Çarı Xocayev "Cənubi-şərqi Qaraqumun landşaftları və onların müasir unkişaf prosesləri" mövzusunda fiziki coğrafiya ixtisası üzrə dissertasiya müdafiə edərək coğrafiya elmlər doktoru alimlik dərəcəsi almışdı.

Dissertasiya Türkmənistan Dövlət Pedaqoji İnstitutunda yerinə yetirilmiş və müdafiə zamanı onun üç rəsmi

opponentlərindən birincisi tanınmış azərbaycanlı alim, coğrafiya elmləri doktoru, professor N.K.Kərimov olmuşdur [700, s.1-2].

Elmi əlaqələrin inkişafında elmi ezamiyyətlər də əhəmiyyətli rol oynayırdı. Belə ki, 1977-ci ildə Azərbaycanın tanınmış memarı C.Ə.Qiyasi Türküstan respublikalarında şəhərsalma və memarlıq irsini öyrənmək üçün Səmərqənd, Buxara, Şəhrsəbz, Türküstan, Mərv və digər şəhərlərə elmi ezamiyyətə gedərək, tədqiqat istiqamətində araşdırmaları üçün zəngin material toplamışdır [150, s.9].

1977-ci ildə türkmənistanlı dissertant M.R.Medvedyeva Azərbaycan SSR EA İqtisadiyyat İnstitutunun Elmi Şurasında "Türkmənistan SSR-in kiçik və orta şəhərlərinin əmək ehtiyatları və onlardan istifadə problemləri" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi almışdı.

Dissertant M.R.Medvedyevanın elmi rəhbəri tanınmış Azərbaycan alimi, iqtisad elmləri doktoru, professor Ş.M.Muradov idi [507, s.246-247].

Aşqabadda 1978-ci ilin aprelində keçirilən diferensial tənliklərlə bağlı simpoziumda Azərbaycandan iki alim iştirak etmişdir. Onlardan – Azərbaycan SSR EA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor M.L.Rəsulov "Əlavədə qarşılaşdırılmış bəzi qarışıq problemlərin həllinə kontur inteqrasiya metodunun tətbiqi" və fizika-riyaziyyat elmləri namizədi, dosent N.M.Məmmədov "Qarışıq sərhəd şərtləri daxilində ikinci dərəcəli parabolik sistem üçün qarışıq məsələnin həlli" mövzularında məruzələr etmişlər [674, v.147-151].

Aşqabadda diferensial tənliklərlə bağlı keçirilmiş simpozium iştirakılarının məruzələrinin tezisləri "Diferensial tənliklər üzrə simpoziumun proqramı və tezisləri" kitabında (Aşqabad, 1978) çap olunmuşdu [674, v.151].

1978-ci ildə respublikamızın tanınmış alimi, Azərbaycan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmləri doktoru, professor H.Ə.Əliyev Aşqabadda keirilən Təbiətin və Təbii ehtiyatların Mühafizəsi üzrə Beynəlxalq İttifaqın XIV Baş Məclisində iştirak etmişdir [289, s.12].

Həmin ildə “Pioner” jurnalında Azərbaycan SSR EA-nın müxbir üzvü, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqovun “Orta Asiya: səhralar və dağlar diyarı” adlı elmi-publisistik məqaləsi çap olunmuşdu. Məqalədə Türkmənistan SSR-ə də yer verilmişdi [127, s.16-20].

XX əsrin 70-ci illərində Azərbaycan-Türkmənistan elmi əlaqələrinin inkişafında hər iki respublikanın Elmlər Akademiyalarının Mərkəzi Elmi Kitabxanaları da mühüm rol oynamışdır. Azərbaycan SSR EA-nın Mərkəzi Elmi Kitabxanası (MEK) “Azərbaycan SSR EA Xəbərləri”nin ictimai elmlər, biologiya elmləri, fizika-texnika, kimya və geologiya elmləri seriyalarının hər il bütün nömrələrini Türkmənistan SSR EA Mərkəzi Elmi Kitabxanasına göndərdiyi kimi, qarşılıqlı şəkildə də həmin nəşrləri həmin respublikadan almışdır [70].

### 5.4. 1980-1991-ci illərdə elmi əlaqələr

XX əsrin 80-ci illəri Sovetlər İttifaqında sakitliyin, hüzurun pozulduğu və böyük silkələnmələrin, təlatümlərin başlandığı dövr idi. Elmi əlaqələrin genişləndiyi, elmi biliklərin inkişaf etdiyi, milli özünəqayıdış hisslərinin, duyğularının güclǝndiyi, milli münasibətlərin çat verdiyi, seperatçılıq, müstəqilliyə can atmaq meyllərinin gücləndiyi dövr idi. Boş, uydurma beynəlmiləlçi nağıllarının daha işə keçmədiyi, “yenidənqurmanın” ölkə üçün fəlakətə çevrildiyi, türkdilli xalqlar üçün yenidənqırma rolu oynadığı bir dövr idi. Alma-Ata, Fərqanə, Dağlıq Qarabağ hadisələri türk dünyasının oyanışından, sınağa çəkildiyindən xəbər verirdi. Çar Rusiyasının daşlaşmış qanunundan, “Parçala, hökm sür!” prinsipindən yan durmayan sovet dövlətinin işğalçılıq, ağalıq siyasəti daha yerimirdi. Mərkəzdənqaçma meyli güclənir, iqtisadi bağlar zəiflədikcə, elmi-mədəni əlaqələrə də kölgə düşürdü. 80-ci illərin ikinci yarısından bu dəyişikliklər sürəkli şəkildə nəzərə çarpırdı. Ölkə dəyişiklik, yenilənmə mərhələsinə daxil olurdu.

Türkmənistan SSR Coğrafiya Cəmiyyətinin1980-ci ildə Aşqabad şəhərində keçirdiyi konfransa qatılan Azərbaycan ali-

mi, biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədov orada N.K.Mikayılov və R.Ə.Əliyev ilə birgə yazdıqları "Azərbaycanın torpaq-coğrafi zonalarında aqrokimya ehtiyatlarının qiymətləndirilməsi" mövzusunda məruzə etmişdir [350, s.96, 157].

Elm ilə istehsalatın yaradıcılıq ittifaqının genişləndirilməsi istiqamətində 1981-ci il sentyabrın 21-25-də Bakıda ümumi və tətbiqi kimyaya dair XII Mendeleyev qurultayı olmuşdur. Qurultayın açılışında çıxış edən Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev elmi əlaqələrin əhəmiyyətindən bəhs edərək demişdir: "Elmin coğrafi hüdudları yoxdur. Onun nailiyyətləri tədqiqat işində müxtəlif ölkələrin alimlərinin öz səylərini nə dərəcədə müvəffəqiyyətlə birləşdirdiklərindən çox asılıdır. Kimyaçıların Bakı məclisində bir çox xarici ölkələrdən – sosialist və kapitalist ölkələrindən görkəmli alimlərin və mütəxəssislərin iştirak etməsi beynəlxalq elmi əməkdaşlığın möhkəmləndiyinə, kollektiv surətdə elmi inkişaf etdirməyə və ondan gözəl bəhrələr götürməyə səy göstərildiyinə inandırıcı sübutdur" [190, s.2].

Ölkəmizin bütün guşələrindən 2 mindən artıq alim və sənaye xadiminin [115, s.1] 22 dövlətdən, o cümlədən 9 sosialist, 13 kapitalist ölkəsindən və inkişaf etməkdə olan ölkədən sovet kimyaçılarına qonaq gəlmiş 142 alimin də iştirak etdiyi bu qurultaya Türkmənistan alimləri də qoşulmuşdu [114, s.2].

"İdeoloji işi və siyasi tərbiyə işini daha da yaxşılaşdırmaq haqqında" Sov. İKP MK-nın 26 aprel 1979-cu il tarixli qərarını rəhbər tutan Azərbaycan KP MK 4 noyabr 1981-ci ildə "Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrini daha da inkişaf etdirmək tədbirləri haqqında" adlı qərar qəbul etdi. Qərarda "toplanmış təcrübəyə arxalanaraq Azərbaycan zəhmətkeşlərinin qardaş sovet respublikaları zəhmətkeşləri ilə beynəlmiləl əlaqələrinin daha da genişlənməsi, dostluğunun möhkəmlənməsi, SSRİ millətlərinin və xalqlarının bir-birinə hərtərəfli yaxınlaşması, vahid və böyük Sovet Vətəninə mənsub olmaq kimi məğrur bir hissin tərbiyə edilməsi sahəsində" böyük və məqsədyönlü iş aparılması, respub-

likada yaradılmış beynəlmiləlçilik və vətənpərvərlik tərbiyəsi sisteminin daim təkmilləşdirilməsi öz əksini tapmışdı [108, s.3].

Qərarda "ölkənin gələcək iqtisadi və sosial inkişafı, sovet xalqının rifahının yüksəldilməsi, SSRİ millətləri və xalqlarının tərəqqisi və bir-birinə yaxınlaşması, ümumxalq sosialist dövlət quruluşunun və demokratiyasının inkişafı və möhkəmlənməsi perspektivləri" və istiqamətləri də göstərilmişdir [108, s.12-13].

Xalqlar arasında iqtisadi və beynəlmiləl əlaqələrin güclənməsində əhəmiyyətli rol oynayan elmin və elm adamlarının da qarşısında mühüm vəzifələr qoyulmuşdu. Orada deyilirdi: "təbiət elmləri, texniki, iqtisadi və ictimai-siyasi elmlər sahəsində Moskvanın, Leninqradın, qardaş müttəfiq respublikaların alimləri ilə birgə tədqiqatların daha da gücləndirilməsini təmin etsinlər" [108, s.16].

1981-ci il noyabr ayının 25-də Bakıda görkəmli Azərbaycan astronomu, riyaziyyatçısı və filosofu Məhəmməd Nəsirəddin Tusinin anadan olmasının 780 illiyi təntənə ilə qeyd olunmuşdur. Böyük ensiklopediyaçı alimin yubiley şənliklərinə gəlmiş çoxsaylı qonaqlar arasında Türkmənistan SSR EA-nın Fizika-Texnika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri namizədi A.X.Xanberdiyev də var idi [275, s.1].

Naxçıvan torpağının şanlı oğlu N.Tusinin anadan olmasının 780 illiyi münasibətiylə Ordubad rayon mədəniyyət evinin qarşısında onun heykəli qoyulmuş, şəhər əməkçilərinin mitinqi olmuş, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrının binasında elmi sessiya keçirilmişdir [131, s.4].

1981-ci il noyabrın 25-də N.Tusinin anadan olmasının 780 illiyi münasibəti ilə Azərbaycan SSR EA-da elmi sessiya keçirilmiş [131, s.4], Azərbaycan KP MK-da yubiley şənliklərində iştirak etmək üçün Bakıya gəlmiş sovet alimlər qrupu qəbul edilmişdir [65, s.1].

Yubiley şənliyinin zirvə nöqtəsi noyabrın 25-də M.F.Axundov adına Akademik Teatrda keçirilən təntənəli gecə olmuşdur. Gecədə çıxış edən türkmən alimi A.X.Xanberdiyev Azərbaycan aliminin elmi irsinin əhəmiyyətindən danışaraq

dünya riyazi fikrinin inkişafında onun xidmətini xüsusi qeyd etmişdir. O demişdir ki, yubiley şənliyi günündə bu əlamətdar hadisəni Tusinin həmyerliləri ilə birlikdə çoxmillətli Vətənimizin bütün qardaş xalqlarının nümayəndələri ilə qeyd edirlər. Sizin bayramınıza ruslar və türkmənlər, bütün sovet elminin elçiləri şərik çıxırlar, çünki orta əsr mütəfəkkiri öz fikirlərinə və əməllərinə görə bizim ümumi babamızdır [251, s.2].

1981-ci ildə Aşqabadda Türkmənistanın torpaq örtüyünün səmərəli istifadə olunmasına dair Ümumittifaq elmi konfrans keçirilmişdir. Konfransın iştirakçısı olan Azərbaycan alimi, biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədov orada "Azərbaycanın torpaq örtüyünün səmərəli istifadə olunması" mövzusunda məruzə etmişdir [350, s.96, 158].

1982-ci ilin sentyabrında Bakıda neft və qaz hasilatının intensivləşdirilməsi vəzifələrinin yerinə yetirilməsində gənc alim və mütəxəssislərin iştirakı məsələlərinə dair elmi-texniki konfrans keçirilmişdir. Konfransın işində Moskva, Ukrayna, Tatarıstan, Başqırdıstan, Komi MSSR, Türkmənistan və ölkənin digər neft rayonlarından gəlmiş nümayəndələr iştirak etmişdilər.

Konfransın iştirakçıları Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunun gənc alim və mütəxəssislər Şurasının iş təəcrübəsi ilə tanış olmuş, Leninneft NQÇİ-nin bir mədənində tikilməkdə olan neft şaxtasına baxmış, yeganə, əhəmiyyətli, çox dərin quyu qazılan Saatlı rayonuna getmişlər [272, s.2].

1982-ci ildə Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunun gənc alim və mütəxəssisləri 40-dan çox elmi işin istehsalatda tətbiq olunmasında fəal iştirak edirdilər. İnstitutun gənc alimi E.M.Süleymanov gilli çöküntülərdə neft və qaz quyularının divarlarını möhkəmləndirməyin yeni texnologiyasını işləyib hazırlamışdı. Bu işinə görə 0,5 müəlliflik şəhadətnaməsi almışdı. E.M.Süleymanovun təklif etdiyi aralıq məhlulunun tərkibi və tamponajın tərkibi sənaye sınaqlarından uğurla çıxmışdı və hazırda istər quruda, istərsə də dənizdə qazılan quyularda çox geniş tətbiq olunmaqla ildə yüz

min manatlarla iqtisadi səmərəyə nail olunurdu. İnstitutun gənc alimi İ.N.Dadaşovun elmi tədqiqatlarının da böyük praktiki əhəmiyyəti var idi [272, s.2].

Çox yaxşı hal idi ki, bu tədqiqatların nəticələri Türkmənistanın neft və qaz çıxarılması sənayesi sahəsində də geniş tətbiq edilməklə, böyük iqtisadi səmərə əldə edilirdi.

1982-ci ildə Bakıda Ümumittifaq Neft Kimyası Avtomatları Elmi-Tədqiqat və Layihə İnstitutunda mütəxəssislərin işləyib hazırladıqları layihə əsasında M.İ.Kalinin adına Bakı təcrübə zavodunda yeni konstruksiyalı telemexaniki sistemlərin istehsalına başlanılmışdı. Bu avadanlığın ilk dəsti Türkmənistan neftçilərinə göndərilmişdi. Yüzlərlə neft quyusunu məsafədən idarə etməyə imkan verən həmin telemexaniki sistem əvvəlkilərdən daha çox mükəmməlliyi ilə fərqlənirdi [545, s.2].

1982-1983-cü illərdə Azərbaycan SSR EA-nın həqiqi üzvü, bilogiya elmləri doktoru, professor, Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizə İnstitutunun direktoru S.R.Məmmədova SSRİ Kənd Təsərrüfatı Akademiyasının Orta Asiya bölməsinin pambıqçılıq üzrə seksiyasının üzvü olmuşdur. Alimin Türkmənistanla da bu istiqamətdə elmi əlaqələri qurulmuşdu [493, s.14].

1983-cü ildə Türkmənistan alimləri Bakıda may ayının 25-27-də keçirilən sovet şərqşünaslığının aktual problemlərinə həsr olunmuş şərqşünasların II Ümumittifaq konfransında [499, s.1; 498, s.1], sentyabrın 5-10-da Şərq xalçaları sənətinə dair Beynəlxalq simpoziumda [298, s.2; 570, s.2] və dekabrın 6-9-da milli münasibətlərin aktual problemlərinə həsr edilmiş “Sovet adamının mənəvi aləmində milli və beynəlmiləl cəhətlərin dialektikası” adlı Ümumittifaq elmi-praktik konfransda [389, s.1; 391, s.1] iştirak etmiş və müxtəlif mövzularda məruzələr etmişlər.

1984-cü ildə Aşqabad şəhərində keçirilmiş Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Türkmənistan filialının IV elmi-praktik konfransına dəvətli olan Azərbaycan alimi biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədov orada “Otlaq torpaq-

larının məhsuldarlığı və səmərəli istifadə olunması” mövzusunda məruzə etmişdir [350, s 97, 160].

Həmin ildə Moskvada nəşr edilmiş “Neft və qaz əmələ gəlməsinin çökmə-miqrasiya nəzəriyyəsinin uğurları və inkişafı” kitabında [Moskva, Nedra, 1984, s.112-116] Azərbaycan SSR EA-nın akademiki, geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Ə.Əlizadənin “Azərbaycan və Türkmənistanın məhsuldar və qırmızı rəngli təbəqələrinin neft və qaz tərkibini qiymətləndirmək üçün fasiya-geokimyəvi meyarlar” məqaləsi çap olunmuşdu [231, s.133].

1985-ci ildə Aşqabadda Türkmənistan SSR Coğrafiya cəmiyyətinin II qurultayı olmuşdur. Qurultaya dəvət olunmuş görkəmli Azərbaycan alimi, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov orada “Azərbaycanın landşaftlarının səhralaşmasının bəzi məsələləri” mövzusunda məruzə etmişdir [125, s.155].

Həmin ilin sentyabrında Aşqabadda IV Ümumittifaq türkologiya konfransı keçirilmişdir. Bunlardan 1-cisi 1966-cı ildə Bakıda, 2-si 1976-cı ildə Alma-Atada, 3-sü 1980-ci ildə Daşkənddə olmuşdur. Aşqabad konfransında türkmən alimlərindən Türkmənistan SSR EA-nın müxbir üzvü B.Ç.Çarıyarovun “Türk dilçiliyinin yekunları və problemləri”, Türkmənistan SSR EA-nın müxbir üzvü S.Q.Ağacanov və tarix elmləri namizədi S.Q.Klyaştorun “SSRİ türkdilli xalqlarının tarixi keçmişinin tədqiqinin əsas yekunları” adlı kollektiv, filologiya elmləri doktoru X.Q.Koroğlunun “SSRİ-nin türkdilli xalqlarının ədəbiyyat və folklorunun öyrənilməsinin əsas problemləri və vəzifələri” və A.B.Karrıyevanın “Koroğlu” dastanının türkmən və Azərbaycan milli versiyaları poetikasının ümumiliyi və spesifikası” mövzusundakı məruzələri maraqla qarşılanmışdır [9, s.3].

IV Ümumittifaq Aşqabad türkologiya konfransında Azərbaycan alimləri 6 məruzə ilə təmsil olunmuşdu. Onlardan 4-ü dilçilik 2-si tarix bölməsinə aid idi. Üzrlü səbəbə görə konfransda iştirak edə bilməyən akademik M.Ş.Şirəliyevin “Azərbaycan dilinin inkişaf qanunauyğunluqları” mövzusundakı məruzəsinin mətnini Azərbaycan SSR EA-nın müxbir üzvü,

professor Z.Budaqova oxumuş və eləcə də “Azərbaycan sintaksisində ellipsis” adlı öz məruzəsi ilə çıxış etmişdir. Dilçilik bölməsinin iclaslarında Azərbaycan SSR EA-nın müxbir üzvü, professor A.Qurbanov “Türk dilləri qramatik quruluşunun öyrənilməsində orta əsrlərin dilçilik məktəblərinin rolu”, ADU-nun professoru Z.Əlizadə “Cümlə və onun üzvlənməsi problemi”, APİ-nin dosenti Ə.Şükürov “Ya ədatının mənşəyi və onun Azərbaycan dilində inkişafı tarixi”, Azərbaycan SSR Dilçilik İnstitutunun şöbə müdiri A.Məmmədov “Azərbaycan dilinin mifologiyası” mövzularında məruzələr etmişlər [9, s.3].

Aşqabadda IV Ümumittifaq Türkoloji konfransda “Türk dillərinin təsviri qrammatikalarının tərtibi ilə bağlı olaraq türk dillərinin məntiqi tipinin öyrənilməsinin əhəmiyyəti” mövzusunda məruzə edən Türkoloqların Sovet Komitəsinin üzvü, filologiya elmləri doktoru, professor A.A.Axundov “Ədəbiyyat və incəsənət” qəzetində çap etdirdiyi “Yeni mərhələdə. Konfransdan qeydlər” adlı məqaləsində (1985, 27 sentyabr, №39 (2174) konfransın işini yüksək qiymətləndirmiş və türkoloqların fəaliyyətində yeni, yüksəliş mərhələsinin olduğunu səmimi etiraf etmişdir [6, s.11, 102, 83].

Aşqabad konfransının tarix bölməsində Azərbaycandan bir nəfər – tarix elmləri namizədi Ş.Fərzəliyev “Heydər Çələbinin “Ruznamə”si Osmanlı ordusunun 1514-cü il Çaldıran yürüşü haqqında qiymətli qaynaq kimi” mövzusunda məruzə ilə çıxış etmişdir [9, s.3].

Konfransda Azərbaycan nümayəndələrindən A.Qurbanov, Z.Budaqova və A.Axundov müxtəlif yarımbölmələrin rəhbərliyinə daxil olmuşdular [9, s.3].

Aşqabad konfransında türkoloqların növbəti V Ümumittifaq konfransının 1988-ci ildə Frunze şəhərində keçirilməsi qərara alınmışdır [9, s.3].

1985-ci ildə Türkmənistan SSR Coğrafiya Cəmiyyətinin II qurultayında iştirak edən görkəmli Azərbaycan alimi, coğrafiya elmləri doktoru, professor B.Ə.Budaqov orada “Azərbaycanın

landşaftlarının səhralaşmasının bəzi məsələləri” mövzusunda məruzə etmişdir [125, s.155].

1986-cı il aprelin 25-də Azərbaycan SSR EA Coğrafiya İnstitutunun ixtisaslaşmış Müdafiə Şurasında türkmən alimi Qaryağdı Nurberdiyev “V.İ.Lenin adına Qaraqum kanalı zonasında torpaq eroziyası və torpaq qoruma tədbirlərinin əsaslandırılması” mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Dissertasiya 1964-1967-ci illərdə Türkmənistan SSR EA-nın Səhra İnstitutunda, 1968-1973-cü illərdə A.M.Qorki adına Türkmənistan Dövlət Universitetində və 1974-1985-ci illərdə Türkmənistan SSR Kənd Təsərrüfatı Nazirliyinin Torpaqşünaslıq Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir. Aparıcı elmi müəssisə - “Qaraqumsumeliorasiyatəsərrüfat” Layihə-Tədqiqat İnstitutu müsbət rəy vermişdi [659, s.1-2].

Dissertasiyanın üç rəsmi opponentlərindən 1-cisi tanınmış Azərbaycan alimi, kənd təsərrüfatı elmləri doktoru, professor X.M.Mustafayev idi [659, s.2].

1986-cı ildə Aşqabad şəhərində keçirilən “Səhraların təbii ehtiyatları və onların inkişafı” adlı V Ümumittifaq elmi konfransına (14-15 oktyabr)  dəvətli olan tanınmış Azərbaycan alimi, Azərbaycan SSR EA-nın akademiki, kənd təsərrüfatı elmləri doktoru, professor H.Ə.Əliyev orada “Azərbaycan SSR arid rayonları timsalında quru meliorasiya məsələləri” mövzusunda məruzə etmişdir [289, s.15, 49].

1987-ci il martın 18-də müasir Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi, əməkdar elm və maarif xadimi, filologiya elmləri doktoru, professor K.A.Talıbzadəyə çox böyük etimad bəslənilərək Türkmənistan SSR EA-nın Məhdimqulu adına Dil və Ədəbiyyat İnstitutunun nəzdindəki doktorluq müdafiə şurasının üzvü seçilmişdir [322, s.22].

Müasir Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin tanınmış nümayəndəsi filologiya elmləri doktoru, professor Y.V.Qarayev də 1987-1991-ci illərdə Türkmənistan SSR EA

Dil və Ədəbiyyat İnstitutu nəzdindəki İxtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olmuşdur [118 a, s.6].

Görkəmli türkmən alimi Rahmanqul Berdibayev 1984-cü ildə çap olunmuş "Azərbaycan realizminin mərhələləri" adlı məqaləsində professor Y.Qarayevin elmi yaradıcılığına çox yüksək qiymət verərək yazmışdır: "Yaşar Qarayev, hər şeydən əvvəl, böyük alim-mütəfəkkir, məhsuldar filoloq-tədqiqatçıdır – etiraf etmək lazımdır ki, istər təfəkkürünün səviyyəsinə, istərsə də qələminin miqyasına görə həmkarları onunla müqayisəyə çətin gəlirlər. Yaşar müəllim istər poeziyadan, istər nəsrdən, istər dramaturgiyadan... İstərsə də Şəki dialektindən yazsın, hər hansı halda gözəl yazır; istər Nizamidən, istər Füzulidən, istər M.F.Axundovdan... istərsə də Hacı dayıdan danışsın, gözəl danışır. Və hərdən mənə elə gəlir ki, allah Yaşar Qarayevi bu dünyaya ona görə göndərib ki, Azərbaycan dilinin intellektual qüdrəti, emosional gücü barədə tam təsəvvür yaratsın..." [118 b, s.81, 97].

1988-ci il aprelin 15-də Bakıda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda Azərbaycan onomastikası problemlərinə həsr edilmiş II elmi nəzəri konfrans öz işinə başlamışdır. Konfransın işində Azərbaycanın dilçi alimləri və ali məktəb müəllimləri ilə yanaşı, Moskva, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Türkmənistan, Başqırdıstan, Dağıstan və Tatarıstandan gəlmiş mütəxəssislər də iştirak etmişdir. Ümumi iclaslarda və bölmə iclaslarında Azərbaycan dilçiliyinin bu sahəsi ilə əlaqədar müxtəlif məsələlər ətrafında 200-ə qədər məruzə və məlumatlar dinlənilərək müzakirə olunmuşdur [434, s.4].

1988-ci ildə Bakıda Azərbaycan SSR EA Əlyazmalar İnstitutunda SSRİ və Türkiyə alimlərinin birinci Beynəlxalq görüşü (4-5 iyul) olmuşdur. Görüş Qorqudşünaslığa həsr edilmişdir. Görüşdə iştirak edən Türkmənistan SSR EA Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Annaqurban Aşırov "Dədə Qorqud kitabı"nın son dövr türkmən ədəbiyyatına təsiri" mövzusunda məruzə etmişdir [204, s.1; 203, s.1].

Həmin ildə Aşqabad şəhərində keçirilmiş "Biyanın xalq təsərrüfatında tətbiqi"nə dair III Simpoziumda tanınmış Azərbay-

can alimi, biologiya elmləri doktoru, professor V.C.Hacıyev “Azərbaycanda çılpaq biyanın yerüstü kütləsinin məhsuldarlığı və yayılma arealı” mövzusunda məruzə etmişdir [564, s.20, 111].

1988-ci ildə Aşqabad şəhərində keçirilən Botanika Cəmiyyətinin illik toplantısında Azərbaycanın ali bitkilərin sistematikası, xüsusən aqrostologiya sahəsində tanınmış görkəmli alimi, biologiya elmləri doktoru, professor S.H.Musayev iştirak etmiş və orada “Azərbaycanın taxılları” mövzusunda məruzə etmişdir [483, s.10].

XX əsrin 80-ci illərinin sonlarına doğru mərkəzdənqaçma meyli ölkədə gücləndikcə, iqtisadi əlaqələr zəifləyir, respublikalar arasında ikitərəfli münasibətlərə yeni prizmadan baxış və obyektiv yanaşma tərzi tələb edirdi. Respublikalar arasında dostluq və qardaşlığın gözəl ənənələrini qoruyub saxlamağa və daha da artırmağa, möhkəmləndirməyə zərurət hissi yaranırdı.

1988-ci il sentyabrın 16-da Krasnovodskda (indiki Türkmənbaşı) Azərbaycan və Türkmənistan KP MK-larının birinci katibləri Ə.X.Vəzirov və S.A.Niyazov görüşmüşlər. Görüş zamanı qeyd olunmuşdur ki, iki respublika arasında qarşılıqlı münasibətlər praktikasında təşəkkül tapmış, Azərbaycan və Türkmənistan zəhmətkeşlərinin beynəlmiləl birliyinin möhkəmlənməsi işinə xidmət edən iqtisadi, mədəni və mənəvi əlaqələri xeyli gücləndirmək lazımdır. Əməkdaşlığın, dostluğun və qardaşlığın gözəl ənənələrini artırmaq, cəmiyyətimizin həyatının bütün sahələrinin inqilabi yolla dəyişdirilməsi üzrə birgə işin yeni forma və metodlarını tapmaq, onlardan istifadə etmək qarşıya vəzifə kimi qoyulmuşdu. Azərbaycan və Türkmənistan KP MK-larının bu məsələlər ilə əlaqədar birgə tədbirlər planı müzakirə olunmuşdur [180, s.1].

XX əsrin 80-ci illərində Türkmənistanda müasir Azərbaycan ədəbi tənqidi və ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi K.A.Talıbzadənin adı elmi ictimaiyyət arasında çoxlarına yaxşı tanış idi. K.A.Talıbzadənin elmi nailiyyətlərindən bəhs edən Türkmənistan SSR EA-nın akademiki P.A.Əzimov 15 dekabr 1988-ci ildə yazmışdır: “Professor K.A.Talıbzadə ölkəmizin türk respublikalarının görkəmli ədəbi tənqidçilərindən

biridir. Çoxsaylı əsərləri Ümumittifaq miqyasında elmi istifadəyə verilmişdir. Onun xidmətləri Azərbaycan ədəbi tənqid tarixinin öyrənilməsində xüsusilə əhəmiyyətlidir. Alimin əsərləri elmi problemlərin formalaşdırılmasının dərinliyi, tədqiqatlarının hərtərəfli olması, ədəbi bazanın zənginliyi ilə seçilir. K.A.Talıbzadə türkmən alimləri ilə sıx əlaqələrə malikdir. O, Türkmənistan SSR Məhdimqulu adına Dil və Ədəbiyyat İnstitutunun doktorluq dərəcəsi üzrə ixtisaslaşdırılmış dissertasiya müdafiə şurasının üzvüdür. Türkmən alimləri respublikamız üçün kadr hazırlığı sahəsində təmənnasız köməyinə görə K.A.Talıbzadəyə minnətdardır" [322, s.60].

Aşqabadda bioloqların 1989-cu ildə "Arid zonaya bitkilərin introduksiyası" mövzusunda keçirilən Beynəlxalq konfransda tanınmış Azərbaycan alimi, biologiya elmlər doktoru, professor O.V.İbadlı "Arid zonada Qafqazın təbii kserofimlərinin perspektiv istifadəsi" adlı məruzə ilə (tədqiqatçı Ə.Ə.Bayramovun birgə müəllifliyi ilə) çıxış etmişdir [437, s.15, 76].

1989-cu ildə memarlıq doktoru, professor C.Ə.Qiyasinin "Qobustan" jurnalında "Azərbaycan və Orta Asiya memarlığında kərpic dekoru (X-XIII əsrlər)" adlı məqaləsi çap olunmuşdu. Məqalədə Türkmənistanla bağlı materiallara da yer verilmişdi [359, s.15-19; 150, s.105].

1989-cu ildə "Azərnəşr" "Türkmən xalq nağılları" kitabını nəşr etmişdi. Kitaba tanınmış folklorşünas alim Azad Nəbiyev ön söz yerinə "Nağıllarda yaşayan həqiqətlər" məqaləsini yazmışdı [420, s.3-16].

Həmin ildə Aşqabad şəhərində keçirilmiş Ümumittifaq Torpaqşünaslar Cəmiyyətinin V Beynəlxalq konfransında iştirak edən tanınmış Azərbaycan alimi, kənd təsərrüfatı elmləri doktoru, professor M.P.Babayev T.A.Məmmədovla birgə yazdıqları "Muğan suvarma sisteminin suvarma sularının gətirmə çöküntülərinin tərkibində qidalandırıcı elementlərin tutumu" mövzusunda məruzə etmişdir [379, s.16, 112].

1989-cu ildə Aşqabad şəhərində kimyaçıların kimyəvi reaktivlər üzrə III Ümumittifaq müşavirəsində iştirak edən

görkəmli Azərbaycan alimi, kimya elmləri doktoru, professor S.F.Qarayev orada "Alkinolların sintetik imkanları" mövzusunda məruzə etmişdir [494, s.11, 84].

1990-cı ildə Azərbaycanın tanınmış folkorşünas alimi, filologiya elmləri doktoru, professor A.M.Nəbiyevin Azərbaycan-türkmən folklor əlaqələri tarixindən bəhs edən "Sərhəd bilməyən əlaqələr (Azərbaycan–türkmən folklor əlaqələri tarixindən)" kitabı Bakıda Azərbaycan [490] və Aşqabadda türkmən dillərində çap olunmuşdu. Kitabda Azərbaycan-türkmən folklor əlaqələrinə aydınlıq gətirən materiallar "Qaynaqlarda yaşayan dostluq", "Sözün sehrindən yaranan qüdrət" və "Koroğlu" milli iftixarımızdır" fəsillərində cəmləşmişdi [54, s.55].

1990-cı il avqustun 13-də Azərbaycan SSR ilə Türkmənistan SSR arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında ikitərəfli respublikalararası saziş hazırlanması üçün Türkmənistan SSR-in hökumət komissiyası Bakıya gəlmişdir. Komissiyanın tərkibinə qonşu respublikanın Nazirlər Sovetinin, Dövlət Plan Komitəsinin, Dövlət Maddi-Texniki Təchizat Komitəsinin, Dövlət Aqrar-Sənaye Komitəsinin, Ticarət Nazirliyinin və digər baş idarələrin nümayəndələri daxil idilər.

Türkmənistan nümayəndə heyəti gəldiyi gün Azərbaycan SSR Nazirlər Sovetinin sədri H.Ə.Həsənovun, Azərbaycanın respublikalararası iqtisadi əlaqələri uzlaşdırma komissiyasının sədri, respublika Nazirlər Soveti sədrinin birinci müavini A.T.Rasizadənin qəbulunda olmuşlar [162, s.1].

1991-ci ildə Bakıda Xəzər dənizi problemlərinə dair I Beynəlxalq konfrans (13-17 iyun) keçirildi. Qazaxıstan, Özbəkistan, Türkmənistan və Rusiya Federasiyasının nümayəndələrinin iştirak etdiyi bu mötəbər elmi məclisdə dəniz ekologiyası sahəsində çalışan görkəmli alim və mütəxəssislərin, ictimai təşkilat nümayəndələrinin 50-dək məruzəsi, çıxışı və məlumatı dinlənilmişdir [316, s.1, 3]. İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun qəbulunda konfrans iştirakçıları qeyd etmişlər ki, Azərbaycan Dövlət Təbiəti Mühafizə Komitəsinin və Elmlər Akademiyasının təşəbbüsü ilə çağırılmış

beynəlxalq görüşün qərarları və yekunları Xəzər dənizi ilə bağlı bütün problemləri konkretləşdirməli, Xəzəri qorumaq və onu əhatə edən ərazidə ekologiyanı təmin etmək sahəsində tədbirlər kompleksinin həyata keçirilməsinə dair regionlararası və Ümumittifaq dövlət proqramları üçün, habelə Xəzəryanı dövlətlərin qanunvericilik aktları üçün əsas götürülməlidir. Görüşün iştirakçıları yekdilliklə bildirmişlər ki, Xəzər dənizinin ekoloji saflığı, ekoloji sistemin canlı ehtiyaclarının bərpası və qorunması, Xəzəryanı regionun digər aktual problemlərinin öyrənilməsi uğrunda mübarizəyə xarici ölkələrin və beynəlxalq təşkilatların alimlərini və mütəxəssislərini cəlb etmək lazımdır [281, s.1].

Konfransın iclaslarından biri iyunun 15-də açıq dənizdə dirəklər üzərində salınmış mədən-səhərə- “Neft daşları”na gedən teploxodda keçirilmişdir. Burada konfransın iştirakçıları sovet sənədli kino ustalarının dəniz ehtiyatlarının amansız istismarının Xəzərə vurmuş olduğu islahedilməz zərərdən, Volqadan axan sənaye çirkablarının onu çirkləndirməsindən bəhs edən filmlər ilə tanış olmuşlar. İyunun 16-da isə iştirakçılar Xaçmaz rayonunda və Yalama-Nabran sahil zonasında dənizi və onun vurduğu ziyanı müşahidə etmişlər [317, s.1]

“Kommunist” qəzetinin əməkdaşları Q.Piriyev və V.Əzizovun konfrans iştirakçılarından götürdükləri müsahibə zamanı Türkmənistan SSR EA-nın prezidenti, SSRİ EA-nın müxbir üzvü Ağacan Babayev demişdir: “Bu konfrans gərək çoxdan keçiriləydi. Mən hələ 1976-cı ildə Xəzərin səviyyəsinin qalxması ilə bağlı “Pravda” qəzetində çıxış etmişdim. Onda bəzi xəzərşünaslar iddia edirdilər ki, bu müvəqqəti prosesdir. Həyat əksini göstərdi. Başlıca səhvimiz onda olub ki, Xəzər ətrafında yerləşən respublikaların hərəsi indiyədək öz konsepsiyaları üzərində baş sındırıblar.

İndiki konfrans bu səhvi gec də olsa düzəltməyə, vahid konsepsiya yaratmağa xidmət etməlidir. Lakin bunun özü də azdır. Xəzər dənizinin bəşəriyyət üçün vacibliyini nəzərə alaraq YUNESKO və YUNEP səviyyəsində beynəlxalq mərkəz yaradılmalıdır. Elə bu konfransda bizim respublikanın, Azərbayca-

nın və Qazaxıstanın Elmlər Akademiyaları Xəzərin tədqiqi, xilası üçün birgə çalışmaq haqqında müqavilə bağlayacaqlar. Şəxsən məni bir alim kimi dənizdən neft çıxarılması bərk narahat edir. Nə qədər ki, neft çıxarmada kamil, ekoloji cəhətdən zərərsiz texnologiyaya malik deyilik, Xəzərdə neft hasilatı müvəqqəti dayandırılmalıdır” [311, s.1].

Bakı konfransının elmi-iqtisadi cəhətdən əhəmiyyətini yüksək qiymətləndirən Azərbaycan SSR EA-nın vitse-prezidenti Urxan Ələkbərov demişdir: “Bakı konfransının həm elmi-iqtisadi, həm də siyasi əhəmiyyəti olduqca böyükdür. Əvvəllər Xəzərə yalnız vətəndaşlıq mövqeyindən yanaşılırdı. Amma indi ilk dəfə olaraq professionalların dövlət səviyyəsində söhbəti gedəcək. Hazırda ən böyük bəla Xəzərin səviyyəsinin qalxmasıdır. Azərbaycanın Xəzərətrafı rayonlarını su basmışdır. Bəs dənizin sahilində yol çəkəndə, ətrafında müəssisə tikəndə, kənd salanda fikirləşməyiblər ki, bir gün belə hadisələr baş verə bilər?

Azərbaycan Elmlər Akademiyası respublikanın ekoloji əsasda inkişaf proqramını hazırlayıb. Bu yaxınlarda həmin sənəd Prezident Şurasında müzakirə ediləcək” [183, s.1].

XX yüzilliyin 80-ci illərində Azərbaycan SSR EA-nın və Türkmənistan SSR EA-nın Mərkəzi Elmi Kitabxanaları da iki respublika arasında mövcud olan elmi əlaqələrə öz töhfələrini vermişdilər. Ancaq onilliyin sonlarına doğru ölkədə baş verən ictimai, iqtisadi və siyasi təlatümlər elmi nəşrlərin fəaliyyətinə mənfi təsir göstərdiyi kimi, onların mübadiləsini də tamamilə zəiflətmişdi.

Elm ümumbəşəri mahiyyət daşıdığı üçün onun milli və sərhəd məhdudluğu yoxdur. Elm dünya üçün işıq, tərəqqi və inkişaf yoludur. Sülh və əmin-amanlıq elçisi olan elm iqtisadiyyatla birləşdikdə rifaha yüksəliş, mədəniyyətə dolğunluq gətirdiyi kimi, insanları da kamilliyə, millətləri özünüdərkə yaxınlaşdırır. Bu gün öz tarixi müstəqilliyinə qovuşan iki qohum, qardaş xalqlar olan Azərbaycan və türkmən xalqlarının elmi əlaqələri yaşatmağa və daha da inkişaf etdirməyə borcludurlar. Çünki zaman bunu onlardan tələb edir.

## Nəticə

Elm bəşəriyyətin işıqlı sabahı və xoşbəxt gələcəyidir. Elmsiz inkişaf yoxdur və ola da bilməz. Elmə söykənən cəmiyyətin yolu qolay və taleyi həmişə aydınlıq içərisində olar. Günəş camalında güzgülənər, bədirlənmiş ayın gümüşü nurunda ulduzlar kahkəsanına qoşulub süheyl ulduzu kimi nurlu sabahlara yol gedər. Sirli, müəmmalı düyünlər açılar, həqiqət donunda parlayan idrak pillə-pillə, mərtəbə-mərtəbə yüksəlib, haqqın, ədalətin qapısından keçər, külli-kainata boylanar. Kəşflər irmaqlar kimi çağlayıb nəhrlərə qovuşar, yatağına sığmayıb ümman ürəkli olar. Elmin nəticələri sərhəd tanımaz, hüdudlar qəlibinə sığıb, dar bir çərçivəni özünə "vətən" saymaz.

Elm haqq işığıdır. Elmdən dəyərli və qiymətli sərvət yoxdur. Var-dövlət xərcləndikcə tükənər, elm isə paylaşdıqca zənginləşər, daha da qüdrətlənər. Elmə güvənən inamlı, ürəkli olar və böyük düşüncə sahibi kimi tanınar. "Alimin ölümü – dünyanın məhvidir", "Elm üçün səfərə çıxan yolda ölərsə, o, müqəddəslərdən biri sayılar", yaxud "Bir saat elmlə məşğul olmaq, altmış il namaz və dua ilə məşğul olmaqdan xeyirlidir" – deyən Məhəmməd peyğəmbər beşikdən qəbr evinə qədər oxumağı lazım bilərək, öz islam ümmətinə "Elm uzaq Çində də olsa, ona sahib olmaq üçün yola çıxmaqdan çəkinmə"məyi tövsiyə etmişdir [5, s.12-13].

Parlaq əsərləri ilə dünyanı fəth edən, qazandığı ölməz, əbədi sevgisi və sayğısı ilə cahana sığmayan dahi Nizaminin:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz.
Hər uca rütbədən biliniz, fəqət,
Alimin rütbəsi ucadır əlbət [428, s.57].

işıqlı misraları aforizmləşərək əbədiyyət ömrü qazanmışdır.

Azərbaycan elminin inkişafında mühüm rol oynamış akademik H.B.Abdullayev şərəfli və müqəddəs alim əməyindən bəhs edərkən demişdir: "Alim gərək öz əməyinin nəticələrini bilsin. Alim əldə etdiyi nəticələri praktikada tətbiqinin nəticəsini görəndə onu qürur hissi, vətənpərvərlik duyğusu bürüyür. Alimlər öz səylərini birləşdirəndə bu çox yaxşı nəticə verir.

Elmdə çox hallar olub ki, alimin bir sözündən elm nə qədər irəli gedib. Alimin sözü adi söz deyil. İndi bizdən yeniliklər tələb olunur. Müasir elm adamlarının fərqi bundadır ki, gələcək haqqında fikir yürütməyi bacarırlar. Elmin gücü onun qabaqgörənliyidir. Elm gələcək zamanı görə bilir. Buna görə də inkişaf elmi əsaslar üzərində qurulmalıdır. Biz bütün sahələrin inkişaf etdirilməsinə cavabdehik. Burada kompas rolunu elm oynayır. Biz vaxt itirməməliyik. Vaxt, hər bir saniyə qızıldan qiymətlidir...” [354, s.547].

Elmi əlaqələrin genişləndirilməsi və inkişafı dövrümüzün ən aktual tələblərindən biridir. Bu əlaqələr alimləri birləşdirdiyi kimi, xalqları, dövlətləri də yaxınlaşdırıb, doğmalaşdırır. Dostluq, ünsiyyət münasibətlərini səmimiləşdirir, ona istilik, hərarət qatır. Elmi fikri qanadlandırır, sağlam düşüncə formalaşdırır. İnsanlar təbiətin sirlərinə bələd olduqca, ondan daha səmərəli istifadə etmək yollarına yiyələnirlər. Elm bəşəriyyətə kamillik, zənginlik gətirir. Bu kamillik və zənginlik işığında dünya, sanki hamını bir tavan altında birləşdirən nəhəng bir evə bənzəyir. Axı dünya sərhədlərə, dövlətlərə bölünsə də, bütün sevinci, kədəriylə hamıya doğmadır. Adəm, Həvva doğmalığı, insanlıq işığı, kamillik zəkasıyla.

Tədqiq etdiyimiz dövrdə (1920-1991-ci illərdə) Azərbaycan elmi öz inkişafında böyük yüksəliş etmiş, elmi-tədqiqat müəssislərinin maddi-texniki bazası genişlənmiş, kadr potensialı artmış və elmin bütün sahələrindəki nailiyyətləri ilə alimlər Azərbaycan elminin nəyə qadir olduğunu tam dolğunluğu ilə təsdiq etmişlər. Əlbəttə, elmi tədqiqatlar və elmi əlaqələr “mərkəz”in istəyi və iradəsi ilə həyata keirildiyindən, əlaqələrdəki sistematiklik də bəzən pozulmuş, ya ləngidilmiş və nəticədə, tələbatı axıra qədər ödənilməmiş elmin istehsalatla əlaqəsi lazımi nəticəni vaxtında ortalığa çıxarmamışdır. Elmin səmərəsi nəzəriyyə ilə praktikanın vəhdətindədir. Təəssüf ki, bu problem sövet dövründə çox yaşandığından elmi əlaqələrin inkişafına da güclü təsir edəcək fəal stimula çevrilməmişdir.

Tədqiqat dövründə Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə elmi əlaqələri elmi ezamiyyət, birgə

təcrübə mübadiləsi, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi-texniki kömək göstərmək, məsləhətləşmələr aparmaq, mühazirə və məruzələr etmək, beynəlxalq elmi konfrans, simpozium və konqreslərdə iştirak etmək, yaradıcılıq səfərlərində olmaq, elmi jurnal və kitabların mübadiləsi və s. formalarda özünü daha çox göstərirdi [480, s.120].

XX əsrin 40-cı illərində Özbəkistan SSR (1943, 27 sentyabr), Azərbaycan SSR (1945, 23 yanvar), Qazaxıstan SSR (1946, 1 iyun) və 50-ci illərdə Tacikistan SSR (1951, 14 aprel), Türkmənistan SSR (1951, 29 iyun) və Qırğızıstan SSR (1954, 20 dekabr) Elmlər Akademiyalarının yaradılması elmi mərkəzlərin formalaşdırılmasına, elmə dövlət dəstəyinin güclənməsinə, maddi-texniki bazasının zənginləşməsinə, kadr potensialının artmasına və elmi əlaqələrin canlanmasına səbəb oldu. Hər şey "mərkəz"in istəyinə və məqsədinə uyğun qurulsa da, vahid, kordinasiyalı əlaqə elmi əlaqələrə güclü təsir göstərdi və elmi yeniliklərin yayılmasına, çapına əlverişli şərait yaratdı. Alim əməyinə yüksək dəyər verildi, onların mənzil-məişət şəraiti yaxşılaşdırıldı. Elmi ezamiyyətlərin artması birgə tədqiqat işlərinə müsbət təsir göstərdi. Elmi konfrans, konqres və simpoziumların keçirilməsi müntəzəm hal aldı. Respublika, Ümumittifaq və Beynəlxalq səviyyəli bu tədbirlər alimlərin parlamasına və onların yaradıcılıq imkanlarına əlavə stimul verdi. Elmi nəzəriyyə ləng də olsa, praktika meydanına daxil oldu.

1971-1975-ci illərdə Azərbaycanda elmin inkişafı üçün 159,6 mln. manat vəsait ayrılmışdısa, 1976-1980-ci illərdə bu rəqəm 174,9 mln. manata çatmışdı. Ancaq bu vəsaitin həcmi Sovetlər İttifaqının digər bölgələri ilə müqayisədə çox aşağı idi. "Mərkəz" bu disproporsiyanı ardıcıl və ədalətsiz şəkildə saxlamaqla, Azərbaycan alimlərini "ciddi qənaət rejimi" ilə çalışmağa məcbur edirdi. Azərbaycan EA müəssisələrində çalışan hər bir elmi işçiyə ayrılan vəsait ittifaq üzrə göstəricilərdən də xeyli aşağı idi. Belə ki, hər bir elmi işçiyə sərf edilən xərclər ittifaq üzrə 1970-ci ildə 12,4 min və 1983-cü ildə 18,1 min manat olmuşdursa, bu rəqəmlər Azərbaycan üçün həmin illərdə 3,3 və

3,7 dəfə az olmaqla, 3,7 min və 4,9 min manat təşkil etmişdir [653, s.20-21].

Azərbaycan EA-nın elmi müəssisələri üçün 1971-1975-ci illərdə 20 mln. manatlıq unikal avadanlıq və cihazlar alınmışdır [354, s.277].

"Mərkəz"in onlara qarşı soyuq və ayrıseçkili münasibətlərinə baxmayaraq, Azərbaycan alimləri, həqiqətən böyük düşüncə və əmək sərf edir, dərin vətənpərvərlik nümunəsi göstərərək, elmimizin şöhrətini dünyaya yayırdılar.

Azərbaycan SSR EA İnstitutlarında 1958-ci ildə işlənmiş 70 elmi problemdən əgər 45-i ittifaq respublikalarının alimləri ilə, o cümlədən Qazaxıstan və Mərkəzi Asiya respublikalarının alimləri ilə həll edilmişdisə [596, s.99], "Akademiyada aparılan ittifaq əhəmiyyətli elmi işlərin sayı son 5 ildə (1971-1975-ci illər – Ə.Ə.) 56-dan artaraq 210-a çatdırılmış və həmin 210 problemdən 20-si mühüm müdafiə əhəmiyyətli xüsusi mövzu kimi" [354, 277] işlənmişdir.

"1975-ci ildə Azərbaycan alimlərinin 67 tədqiqat işi sovet elminin ən mühüm nailiyyətləri kimi qeyd olunmuşdu" [354, s.277].

Xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsində Azərbaycan alimləri yaxından iştirak edirdilər. Respublikamızın istehsalat müəssisələri ilə Akademiya institutları və elmi müəssisələrinin bağladıqları təsərrüfat müqavilələrinin ildən-ilə artması elmimizin səmərəliliyinin yüksəlməsinin göstəricisi idi. Belə ki, əgər 1970-ci ildə 2 elmi iş xalq təsərrüfatı planı üzrə tətbiq olunmuşdusa, onların sayı 1976-cı ildə 11-ə və 1979-cu ildə 47-yə çatmışdı. 1971-1975-ci illərdə istehsalata tətbiq edilən 203 elmi iş 253 mln.manat gəlir gətirmişdisə, 1976-1980-ci illərdə 250 işin tətbiqi nəticəsində iqtisadi səmərə 280 mln. manat olmuşdur. Elmi-tədqiqat işlərinə çəkilən xərclərin hər manatı üzrə səmərəlilik 1970-ci illə müqayisədə 1980-ci ildə 4,5 dəfə artmışdı [354, s.273].

1970-ci il iyunun 19-da Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev Azərbaycan SSR EA sessiyasında çıxış edərkən demişdir: "Elmin istehsalatla əlaqəsi hələ zəifdir. Elmi

tədqiqatların nəticələrinin istehsalata tətbiqi üçün görülən tədbirlər azlıq təşkil edir, belə təsəvvür yaranır ki, hətta ayrı-ayrı alimlər tədbir görmürlər. Bir çoxları belə düşünür ki, əgər o yazdısa və dərc etdisə, bu kifayətdir ki, o missiyanı bitmiş hesab etsin. Əlbəttə ki, biz bununla razılaşa bilmərik və bir daha diqqətinizi buna yönəltmək istəyirəm ki, hər hansı bir elmi işdə diqqət buna yönəldilməlidir ki, hər hansı bir elmi iş konkret praktik məqsəd daşısın. Hər bir elmi iş praktik nəticə verməlidir və istehsalatla sıx bağlılığı olmalıdır...” [354, s.261].

Azərbaycan alimlərinin elmi-tədqiqatlarının effektliliyinin yüksəlməsi nəticəsində onların qazandıqları ixtira və patent işlərinin sayı da ildən-ilə artırdı. 1946-1970-ci illərdə Azərbaycan EA-nın alimləri əgər 220 müəlliflik şəhadətnaməsi almışdılarsa, 1971-1980-ci illərdə bu göstərici 5 dəfə artaraq 1100-ə çatmışdı. 1976-cı ilin yanvarında SSRİ EA-nın 250 illik yubileyinə həsr edilmiş sərgidə fəal iştirakına görə Azərbaycan EA SSRİ XTNŞ-nin Baş komitəsinin 1-ci dərəcəli diplomuyla təltif olunmuş, respublika alimlərinin elmi işləri 3 fəxri diplom, 28 qızıl, gümüş və bürünc medala layiq görülmüşdü. Azərbaycan EA-nın 93 alimi SSRİ XTNŞ-nin şəhadətnaməsini almışdı [354, s.336-337].

Ümumiyyətlə, XX əsrin 70-ci illərini iqtisadi səmərəlilik yollarının axtarışı baxımından Azərbaycan EA institutları üçün əhəmiyyətli bir dövr hesab etmək olar. 1980-ci ildə SSRİ EA-nın verdiyi “Azərbaycan SSR Elmlər Akademiyasında elmi tədqiqatların əsas istiqamətləri və inkişaf perspektivləri haqqında” qərarı da Azərbaycanda elmin istehsalatla yeni mütərəqqi əlaqə formalarının tətbiqinin dərinləşməsinə öz müsbət təsirini göstərmişdir [354, s.275- 276].

Elmin istehsalatla yeni mütərəqqi formalarının tətbiqi dərinləşdikcə, respublikalararası elmi əlaqələr də daha çox aktuallıq kəsb edir və dövlətin başlıca diqqət mərkəzində dayanırdı. Azərbaycanın Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə elmi əlaqələri də ölkənin ümumi əlaqələri fonunda diqqəti cəlb edir və yüksələn xətlə gedirdi. XX əsrin 70-80-ci illərində Azərbaycan alimləri Qazaxıstanın elmi mərkəzləri

(riyaziyyat, fizika, astronomiya, geologiya, biologiya, türkologiya sahələri), Özbəkistan və Türkmənistan alimləri (geologiya, fizika, coğrafiya, riyaziyyat, təbiətin mühafizəsi, geofizika sahələri) ilə sıx əməkdaşlıq və yaradıcılıq əlaqələri yaratmışdılar.

1974-cü ildə Azərbaycan EA Radiasiya Problemləri sektorunda günəş və külək enerjisindən istifadə etməklə "Bərpa olunan enerji növlərinin çevrilməsi" laboratoriyası yaradılmışdı. Ona fizika-riyaziyyat elmləri doktoru Pərviz Rzayev rəhbərlik edirdi. Bu laboratoriya SSRİ Energetika nazirliyinin Q.Krjijanovski adına Energetika Elmi-Tədqiqat İnstitutu, Özbəkistan Energetika Elmi-Tədqiqat İnstitutu və Aşqabad Fizika-Texnika İnstitutu ilə əməkdaşlıq edirdi. Onlar birlikdə günəş enerjisini elektrik enerjisinə çevirən yarımkeçirici generatorların və günəş enerjisindən istifadə etməyə imkan verən qurğuların hazırlanması istiqamətində birgə tədqiqatlar aparırdılar [455, s.53; 354, s.136].

Azərbaycan SSR-in Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə elmi əlaqələrində Azərbaycan EA Mərkəzi Elmi Kitabxanası (MEK) mühüm rol oynamışdır. Əsası 1923-cü ildə "Azərbaycan Tətbiq və Tətəbbö Cəmiyyətində qoyulmuş, 1929-cu ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu, 1933-cü ildən SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsi, 1935-ci ildən SSRİ EA Azərbaycan Filialının və nəhayət, 1945-ci ildə müstəqil Elmlər Akademiyasının tərkibində təşəkkül tapmış" [319, s.172-173] bu kitabxana böyük bir inkişaf yolu kçmişdir. Həmin kitabxana şəbəkəsinin qazandığı təcrübə, keçdiyi tarixi yol və onun ayrı-ayrı yüksəliş mərhələləri təsdiqləyir ki, kitabxana işi Akademiyada elmi-tədqiqat prosesinin mühüm və ayrılmaz tərkib hissəsidir.

Azərbaycan EA Rəyasət Heyətinin "Azərbaycan SSR EA Əsaslı Kitabxanasının fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı (1967, 8 dekabr) kitabxananın həyatında başlıca rol oynamışdır. Bu qərar əsasında kitabxananın nizamnaməsi, yəni quruluşu, kitabxana işçiləri üçün əmək normaları, kitabxana Şurasının tərkibi, onun gələcək fəaliyyətinin başlıca istiqamətləri və digər məsələlər öz təsdiqini tapmışdır [319, s.53].

MEK-də kompleksləşmə işləri üçün 1968-ci ildə 21.647 manat, 1969-cu ildə 24.270 manat və 1970-ci ildə 44.446 manat pul ayrılmışdı [319, s.53].

Azərbaycan Respublikası öz tarixi müstəqilliyinə nail olduqdan sonra MEK-in də həyatında bir dönüş başlamışdır. 1998-ci il mayın 13-də Azərbaycan EA Rəyasət Heyəti "Mərkəzi Elmi Kitabxananın fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqında" Sərəncam imzalamışdır [319, s.164].

MEK-də kompleksləşdirmə işinin gücləndirilməsi naminə dövlət büdcəsindən ayırmalar ildən-ilə artırılırdı. Belə ki, əgər bu iş üçün 1990-cı ildə 43.852 manat 59 qəpik sərf edilmişdisə, 1995-ci ildə bu rəqəm 2.113.407 manat olmuş və 1998-ci ildə isə 15.209.829 manata çatmışdır [319, s.168].

MEK 1997-ci ildə MDB ölkələrinin 10 elmi təşkilatı ( o cümlədən Qazaxıstan və Mərkəzi Asiya respublikaları) ilə kitab mübadiləsi aparmaqla 638 nüsxə ədəbiyyat almış, onun mübadilə fonduna 930 nüsxə ədəbiyyat daxil olmuşdur. Kitabxana kitab mübadiləsi xətti ilə xaricə 2657 nüsxə ədəbiyyat göndərmişdir. Həmin il kitabxanada mübadilə fondunun həcmi artaraq 64709 nüsxə ədəbiyyatı əhatə etmişdir. [319, s.168]

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası (MEK) 1963-1984-cü illərdə Əsaslı Kitabxana, 1984-cü ildən sonra isə Mərkəzi Elmi Kitabxana adı ilə fəaliyyət göstərməkdədir. Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş AMEA Nizamnaməsinin 5-ci maddəsinin 54-cü bəndinə əsasən Mərkəzi Elmi Kitabxanaya elmi müəssisə statusu verilmişdir. [74]

Azərbaycan Respublikası Prezidenti H.Ə.Əliyevin 2003-cü il 4 yanvar tarixində verdiyi " Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" Fərmanı onun ölkə elminə göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsi idi. Bu Fərman AMEA-nın geniş və hərtərəfli inkişaf etməsinə yüksək səviyyədə hüquqi zəmin yaradır, onun fəaliyyət dairəsini genişləndirir, səlahiyyətlərini artırmaqla, qarşısında mühüm və məsul vəzifələr qoyurdu.

Azərbaycan elminin maddi bazasının yaxşılaşması və keyfiyyətcə yüksəldilməsi istiqamətində konkret və mühüm əhəmiyyətli addımlar atılırdı.Belə ki, Dövlət büdcəsindən elmə ayrılan xərclər yeni manatla 1995-ci ildə 3,9 milyon manat, 2000-ci ildə 9,3 milyon, 2001-ci ildə 9,4 milyon, 2002-ci ildə 11,4 milyon və 2003-cü ildə 16,6 milyon manat olmuşdur. [328, s. 152; 104, s. 247] Nəticədə, göstərilən bu qayğıya cavab olaraq, 1991-2001-ci illərdə Azərbaycan MEA-nın müəssisələrində 1644 mühüm nəticə alınmış, 20 minə yaxın məqalə (onun 3 mini xaricdə) çap olunmuş, 200-ə yaxın doktorluq, 650-dək namizədlik dissertasiyası müdafiə edilmiş və 504 işin istehsalata tətbiqi nəticəsində yüksək səmərəyə nail olunmuşdur. [79, s 216]

2014-cü il 5 may tarixindən etibarən yeni binada yerləşən MEK bu gün dünyanın 37 ölkəsinin 108 təşkilatı ilə beynəlxalq mübadilə aparmaqla, yenə də öz səmərəli fəaliyyətini, elmə və elmi əlaqələrə yüksək xidmətini davam etdirir. Bu kitabxana Azərbaycanda təbiət, texnika və humanitar elmlər üzrə ən iri kitabxana sayılmaqla, dünya xalqlarının 50-dən çox dilində 3 milyon nüsxəyədək ədəbiyyat saxlanan zəngin, universal kitab fonduna malikdir. [73, s. 37]

Elm həyata baxışın ən düzgün, ən halal yoludur. Elm inkişaf, insanlıq, ləyaqət yoludur. Elm gələcəyi günümüzə bağlayan, düşüncəmizi işıqlı gələcək arzuları ilə dolduran, nurlandıran inamdır, əminlikdir. Elm zamanın içindən sıyrılan qazanılmış vaxtdır.

XX əsrin 90-cı illərində Qazaxıstan və Mərkəzi Asiya xalqları – Qırğızıstan (1991, 31 avqust), Özbəkistan (1991, 31 avqust), Tacikistan (1991, 9 sentyabr), Türkmənistan (1991, 27 oktyabr) və Qazaxıstan (1991, 16 dekabr) müstəqillik əldə etdikdən sonra zəifləmiş və kəsilməkdə olan əlaqələri canlandırmaq və yeni məzmunda əvvəlkindən də yüksək səviyyəyə qaldırmaq yolu tutdular. Çünki bu, həyatın tələbi idi.

İqtisadiyyat elmə söykənməli və elmi əsaslar üzərində inkişaf etməli idi.

Müstəqillik əldə etdikdən sonra elmi əməkdaşlığın təşkili və genişləndirilməsi üçün həmin respublikalar arasında elmi

əməkdaşlığa dair hüquqi sənədlərin imzalanmasına ehtiyac var idi. Buna görə də, 1992-ci il aprelin 17-də Özbəkistan Respublikası ilə "1992-1996-cı illərdə Azərbaycan Elmlər Akademiyası və Özbəkistan Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında", 1992-ci il sentyabrın 14-də Qazaxıstanla "Qazaxıstan Elmlər Akademiyası ilə Azərbaycan Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında", 1994-cü il martın 16-da Türkmənistanla "Azərbaycan Elmlər Akademiyası ilə Türkmənistan Elmlər Akademiyası arasında elmi əməkdaşlıq haqqında" [201, s. 285], 2007-ci il avqustun 14-də "Azərbaycan Respublikasının hökuməti ilə Tacikistan Respublikasının hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında" saziş [64, s. 2; 63, s. 1-2] və 2008-ci il aprelin 12-də Qırğızıstan Respublikasının Xarici İşlər Nazirliyi nota ilə müraciət edərək, ticarət, iqtisadi, elmi-texniki və humanitar – mədəni əməkdaşlıq üzrə Bişkekdə Azərbaycan-Qırğızıstan hökumətlərarası komissiyasının 1-ci iclasının Protokol layihəsi imzalanmışdır. [292, s. 243] Həmçinin AMEA ilə 2021-ci il oktyabrın 1-də Bakıda Qırğız-Türk Manas Universiteti arasında əməkdaşlığa dair saziş imzalanmışdır. Bu sənəddə iki təşkilatın alim və mütəxəssislərinin əməkdaşlığının qurulması, müştərək layihələrin işlənməsi, işçi mübadiləsi və s. məsələlər nəzərdə tutulmuşdur. [17a, s. 2] Həmin ilin oktyabrında Qazaxıstan EA-nın Fəlsəfə, Politologiya və Dinşünaslıq İnstitutunun İnformasiya və İdarəetmə şöbəsinin müdiri Erbol Kimisxocayev, həmin müəssisənin aparıcı elmi işçisi Şaqırbay Almasbəy və eksperti Baxıt Şentemirova AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda olmuşlar. Görüş zamanı iki müəssisə arasında gələcəkdə elmi əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdır. Qazaxıstan Respublikasında politologiya və dinşünaslığın inkişafı haqqında məlumat verən alimlər Qazaxıstan EA-nın həmin institutu ilə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu arasında birgə elmi tədqiqatların aparılması və layihələrin hazırlanması yolunda fikir mübadiləsi aparmışlar.[17b, s. 12]

2022-ci il mayın 16-da Qazaxıstanın R.B.Süleymenov adına Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, iqtisad elmləri doktoru, dosent Duysen Qalimjan və həmin müəssisənin baş elmi işçisi, iqtisad elmləri doktoru, dosent Dina Aytjanova Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunda olmuş, görüş çərçivəsində imzalanmış əməkdaşlıq memorandumunda elmi-tədqiqatların həyata keçirilməsi, seminar və ixtisaslaşdırılmış kursların təşkili, birgə elmi simpoziumların, konfransların, hər iki institutun elmi fəaliyyət səviyyəsinin artırılması məqsədi ilə kadrların qarşılıqlı mübadiləsinin həyata keçirilməsi barəsində razılıq əldə edilmişdir.

Qazaxıstanın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Dina Aytjanova imzalanan memorandumun əhəmiyyətindən danışaraq ortaq türk tarixinin araşdırılmasında Tarix İnstitutunun öz müsbət və əhəmiyyətli töhfəsini verəcəyindən ümidvar olduğunu bildirmişdir.[17c]

Azərbaycan Respublikasının Qazaxıstan və Mərkəzi Asiya respublikaları ilə elmi əlaqələrinin daha da inkişaf etməsi naminə aşağıdakı amillərin nəzərə alınması daha yaxşı olardı:

-Birgə elmi-tədqiqat işlərinin aparılması;

-Elmi-tədqiqatçıların mübadiləsi;

-Müştərək elmi görüşlərin keçirilməsi;

-Birgə elmi konfrans, simpozium və seminarların təşkili;

-Elmi kadrların hazırlanması;

-Elmi kadrların atestasiyalarının keçirilməsi istiqamətində müsbət təcrübənin bölüşdürülməsi;

-Elmi informasiyaların mübadiləsi;

-Elmi nəşrlərin mübadiləsi;

-Tərəflər arasında elmi mərkəzlərin yaradılması və birbaşa əlaqələrin genişləndirilməsi;

-Elmi əlaqələrin dərinləşməsinə xidmət edən hüquqi və maliyyə şərtlərinin müəyyənləşdirilməsi;

-Elmin istehsalatla əlaqələrini gücləndirmək və elmi fəaliyyətin səmərəlilik əmsalını yüksəltmək;

-Tanınmış böyük elm xadimlərinin birgə yubiley tədbirlərini keçirmək;

-Qarşılıqlı şəkildə doktorantura təqaüd proqramları yaratmaq;

-Elmi fəaliyyətdə inzibatçılığa yox, sərbəst düşüncəyə meydan açmaq;

-Elmi ezamiyyətləri genişləndirmək;

-Elmi əlaqələndirmə şuraları arasında əlaqələri möhkəmləndirmək;

-Ali məktəblərdə tələbə mübadilələri yolu ilə milli dilləri mükəmməl bilən məzunları məqsədli şəkildə elmi-tədqiqata cəlb etmək;

-Ayrı-ayrı elmi problemlər ətrafında tanınmış alimlərin mühazirələrini təşkil etmək;

-TÜRKSOY və Beynəlxalq Türk Akademiyası (BTA) xətti ilə beynəlxalq əhəmiyyətli elmi tədbirlərin keçirilməsi və ümumbəşəri problemlərin araşdırılmasına çalışmaq.

Elm bəşəriyyətin işıqlı sabaha olan ümid yolu, ümid qapısıdır. Bu qapıya üz tutan inamlı olar. Bu gün respublikamızda müxtəlif elmi-texniki xidmətləri həyata keçirən 127 elmi təşkilat və müəssisə fəaliyyət göstərir. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu elm ocaqlarında elmi tədqiqat və işləmələrlə 20,5 mindən artıq mütəxəssis məşğul olur, onların da 73,0 faizi tədqiqatçılardır. Bu mütəxəssislərin 37,3 faizinin elmlər doktoru və ya fəlsəfə doktoru elmi dərəcəsi vardır. Bunlardan əlavə, elmi -tədqiqat bölmələrində ştatda olmayan və ali təhsil müəssisələrində çalışan 10 min nəfərdən çox elmi-pedaqoji işçi elmi-tədqiqat bölmələrində tədqiqat işlərini yerinə yetirirlər. Yaxşı cəhət odur ki, onların da yarıdan çoxu elmi dərəcəyə-elmlər doktoru və ya fəlsəfə doktoru alimlik dərəcələrinə malikdirlər [82].

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin 28 iyul 2022-ci il tarixli "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanında elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahədə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişikliklərinin aparılması öz əksini tapmışdır [80, s.2]. Cəmiyyətdə inkişaf və tərəqqi

olduğu kimi, onun mühüm və aparıcı sahələrindən biri olan elmdə də islahat və yenilənmələrin olması vacib idi. Bu baxımdan, verilmiş Fərman da mahiyyəti etibarı ilə müsbət dəyərləndirilə bilər. Müstəqillik dövründə elmin inkişaf etdirilməsi naminə dövlətimizin ona ayrılan büdcə vəsaitlərini ildən-ilə artırması da onun elmə və elm adamlarına göstərdiyi diqqətin bariz nümunəsi idi. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar [314]:

| 2010-2022 – ci illərdə Azərbaycan MEA -ya və Elmin İnkişaf Fonduna (EİF) ayrılan büdcə vəsaitləri | | |
|---|---|---|
| İllər | AMEA | EİF |
| 2010-cu il | 60.865113 manat | 7.022400 manat |
| 2011-ci il | 68.073787 manat | 7.035079 manat |
| 2012-ci il | 74.044929 manat | 7.034930 manat |
| 2013-cü il | 78.389426 manat | 7.047480 manat |
| 2014-cü il | 83.467965 manat | 7.960548 manat |
| 2015-ci il | 85.381614 manat | 7.585697 manat |
| 2016-cı il | 79.479563 manat | 7.525505 manat |
| 2017-ci il | 79.816353 manat | 500000 manat |
| 2018-ci il | 81.444406 manat | 4.011164 manat |
| 2019-cu il | 89.496822 manat | 4.036756 manat |
| 2020-ci il | 119.029430 manat | 3.152245 manat |
| 2021-ci il | 116.735383 manat | 4.157866 manat |
| 2022-ci il | 134.008724 manat | 4.192755 manat |
| Cəmi | 1.150233515 manat | 71.262425 manat |

Fikrimizi böyük öndər H.Ə.Əliyevin sözləri ilə tamamlayaraq desək: “Xalqın ümumi zəkasını, ağlını birləşdirən Azərbaycan Elmlər Akademiyası böyük bir sərvətdir” [354, s.249]. Bu sərvət bizə əmanət olunubsa, onu da qoruyub saxlamalı və gələcək nəsillərə alın açıqlığı ilə verməliyik. Verməliyik ki, elmimiz daim inkişaf etsin və zənginləşsin. Çünki elmlə qurulan və elmə söykənən əlaqələr daha möhkəm və etibarlı olar.

## İstifadə edilmiş ədəbiyyat

### Azərbaycan dilində


1. Abbasov Ə. Rudəki. "Kommunist" qəz., 1958, 10 dekabr, №288 (10929).
2. Abdullayev H.M. Tədqiqatların səmərəliliyini artırmalı. "Azərbaycan kommunisti", 1980, №10.
3. Adilə Namazova. Biblioqrafik göstərici. Bakı, Elm, 2006. 135 s.
4. Afad Qurbanov. Biblioqrafiya. Bakı, Elm, 2006. 216 s.
5. Aforizmlər və müdrik nəsihətlər. Bakı, Azərnəşr, 1991. 72 s.
6. Ağamusa Axundov. Biblioqrafiya. Bakı, Elm, 2002. 160 s.
7. Axundov A. Türk dillərinə həsr olunmuş Ümumittifaq konfransı. "Bakı" qəz., 1969, 14 oktyabr, № 241(3672).
8. Axundov Ağamusa. Qıpçaqlar dünən və bugün. "Ədəbiyyat və incəsənət" qəz., 1990, 16 noyabr, №45 (2440).
9. Axundov Ağamusa. Yeni mərhələdə. Konfransdan qeydlər. "Ədəbiyyat və incəsənət" qəz., 1985, 27 sentyabr, №39 (2174).
10. Ali məktəblərin konfransı qurtarmışdır. "Kommunist" qəz., 1967, 28 aprel, № 100 (13488).
11. Alimlər yazıçılarımızın qonağıdır. "Ədəbiyyat və incəsənət" qəz., 1983, 9 dekabr, № 49 (2080).
12. Alim Ç. Cuvarlının 1980-ci ilə dair hesabatından. Azərbaycan MEA-nın Elmi Arxivi , f.7, s.6, iş.10412.
13. Alimlərimiz Daşkənd sessiyasında. "Bakı"qəz., 1965, 25 may, № 22 (2326).
14. Alimlərin məclisi. "Bakı" qəz., 1969, 10 dekabr, №288 (3719).
15. Alimlərimizin əsərinə maraq. "Bakı"qəz., 1965, 19 aprel, № 91 (2296).
16. Alimlərin görüşü. "Bakı" qəz., 1969, 14 oktyabr, № 241 (3672).

17. a. AMEA ilə Qırğız-Türk Manas Universiteti arasında əməkdaşlığa dair saziş imzalanıb. “Elm” qəz., 2021, 8 oktyabr, № 34 (1296).; 17b. Qazaxıstanlı alimlər Fəlsəfə və Sosiologiya İnstitutunda olublar. “Elm” qəz., 2021, 29 oktyabr, № 37 (1299), s. 12.; 17c. Tarix İnstitutu və Qazaxıstanın Şərqşünaslıq İnstitutu arasında memorandum imzalanıb. http://www.tarixinstitutu.az
18. Araslı H. Böyük özbək şairi (Ə. Nəvai haqqında). “Azərbaycan” jurn., 1946, № 9. (ərəb əlifbası ilə).
19. Araslı H. Cami və Azərbaycan ədəbiyyatı. “Ədəbiyyat və incəsənət” qəz., 1964, 12 dekabr, №50 (1303).
20. Araslı H. Əlişir Nəvai.” Azərbaycan müəllimi” qəz., 1948, 13 may, № 18 (405).
21. Araslı Həmid. Əhdi Bağdadi Nəvai haqqında. “Uzbek tili və ədəbiyoti”, 1977, №4, s.43-46.
22. Araslı H. Əlişir Nəvai.” Ədəbiyyat qəzeti”, 1939, 30 yanvar, № 5 (210).
23. Araslı H. Əlişir Nəvai.” Pioner” jurn., 1948, № 5.
24. Araslı H. Hüseyn Bayqara risaləsi haqqında. “Uzbek tili va adabiyoti” jurn., 1966, №3.
25. Araslı H. Nəvai və Azərbaycan ədəbiyyatı.” Kommunist”qəz., 1948, 8 may, № 91 (7788).
26. Araslı H.Nəvai və Azərbaycan ədəbiyyatı. Revolyusiya və kultura, 1940, 12 mart. № 8 (223).
27. Araslı H. Nəvai və Azərbaycan ədəbiyyatı. “Sovet Ermənistanı”qəz., 1948, 15 may, № 96 (4458).
28. Araslı H. Nəvainin həyatı. Nəvainin lirikası. Nəvainin “Xəmsə”si, Nəvai və əsrimiz. “Azərbaycan müəllimi” qəz., 1948, 13 may, № 18 (405).
29. Araslı H. Özbək xalqının böyük oğlu (Əlişir Nəvainin yaradıcılığı haqqında). “Kommunist” qəz., 1941, 17 yanvar, № 15 (6150).
30. Araslı H. Özbək xalqının böyük şairi (Əlişir Nəvainin anadan olmasının 500 illiyi münasibətilə). “Azərbaycan pioneri” qəz., 1948, 15 may.

31. Araslı H. Əlişir Nəvai və yaradıcılığı (Nəvai-500). “İnqilab və mədəniyyət” jurn., 1948, № 5.
32. Araslı H.Nizami və Nəvai (Əlişir Nəvai-500). “Ədəbiyyat qəzeti”, 1940, 12 mart , № 8 (223).
33. Araslı H. Nəvai və Füzuli. “Ədəbiyyat və incəsənət” qəz., 1980, 30 may № 22 (1897).
34. Araslı H. Şərqdə “Leyli və Məcnun” əsərləri (ərəb ədəbiyyatında) “Leyli və Məcnun”. Nizaminin “Leyli və Məcnun”u. Xosrov Dəhləvi, Məktəbi, Əlişir Nəvai və Hatifinin “Leyli və Məcnun” əsərləri)” Nizami. Almanax, I kitab. Bakı, Azərnəşr, 1940, s.194-237.
35. ARPİİSSA, f.1, s.74, i.378.
36. ASE (Azərbaycan Sovet Ensiklopediyası), I c., Bakı, 1976. -592 s.
37. ASE, II c., Bakı, 1978. -592 s.
38. ASE, III c., Bakı, 1979. -600 s.
39. ASE, IV c., Bakı, 1980. -592 s.
40. ASE, VI c., Bakı, 1982. -608 s.
41. ASE, VII c., Bakı, 1984. -624 s.
42. ASE, VIII c., Bakı, 1984. -608 s.
43. ASE, IX c., Bakı, 1986. -624 s.
44. ASE, X c., Bakı, 1987. -608 s.
45. Asiya və Afrika xalqları ilə II Sovet Həmrəylik konfransı. “Azərbaycan gəncləri” qəz, 1964, 10 may, № 56 (6865).
46. Assistent S.A.Əlizadənin Frunze şəhərində elmi-praktik konfransda iştirakı barədə 83 nömrəli əmr. Ə.Əliyev adına ADHTİ-nin Arxivi, f. 1, s. 1, i. 55.
47. Astronomların məclisi. “Bakı” qəz., 1965, 5 oktyabr, №235 (2440).
48. Aşqabad sessiyasında məruzələr. “Bakı” qəz., 1967, 27 fevral, №49 (2869).
49. Aşqabadda dermatovenerologların qurultayı. Ə.Əliyev adına ADHTİ-nin Arxivi, f.1, s.1, i.10.
50. Aşurov İ. Tacikistanın elm ocaqlarında təcrübə. “Bakı” qəz., 1969, 29 avqust, №202 (3336).

51. Ayaz Əfəndiyev. Biblioqrafiya. Bakı, Elm, 2007. 288 s.
52. Aydın Əhmədov. Mənalı ömür yolu. Biblioqrafiya. Bakı, Ünsiyyət, 2007. 160 s.
53. Aydın Paşayev, Biblioqrafiya, Bakı, Mütərcim, 2003. 28 s.
54. Azad Nəbiyev. Biblioqrafik göstərici. Bakı, "Bakı Universiteti nəşriyyatı", 2006. 184 s.
55. Azadə Rüstəmova. Biblioqrafiya. Bakı, Elm, 2003. 154 s.
56. Azərbaycan dilçilərinin tədqiqatı. "Bakı" qəz., 1963, 21 iyun, № 145 (1734).
57. Azərbaycan ədəbiyyatının böyük bayramı. "Bakı" qəz., 1962, 29 may, №124 (1407).
58. Azərbaycan ədəbiyyatının böyük bayramı. "Bakı" qəz., 1962, 30 may, №125 (1408).
59. Azərbaycan gigiyena işçilərinin qurultayı. "Kommunist" qəz., 1968, 15 oktyabr, №242 (13935).
60. Azərbaycan həkimləri Daşkənddə."Bakı" qəz., 1964, 26 may, № 122 (2013).
61. Azərbaycanın kənd təsərrüfatına kömək. ARMDA, f.391, s.2, i.7.
62. Azərbaycan-Qazaxıstan: bizi Xəzər və dostluq birləşdirir. "Azərbaycan" qəz., 1997, 13 iyun, № 120 (1641) .
63. Azərbaycan ilə Tacikistan arasında səmərəli, dinamik əməkdaşlıq mərhələsi başlanır. "Azərbaycan" qəz., 2007, 15 avqust, №180 (4696).
64. Azərbaycan ilə Tacikistan arasında səmərəli, dinamik əməkdaşlıq mərhələsi başlanır. Sənədlərin imzalanması. "Xalq qəzeti", 2007, 14 avqust, № 179 (25649).
65. Azərbaycan KP MK-da qəbul. "Kommunist" qəz., 1981, 26 noyabr, №274 (17908).
66. Azərbaycan KP MK Təbliğat Şöbəsinin müdiri Ş.Qurbanov yoldaşa. Azərbaycan MEA-nın Elmi Arxivi, f. 7, s. 2, i. 4505.
67. Azərbaycan KP Mərkəzi Komitəsi təbliğat şöbəsinin müdiri Ş.Qurbanov yoldasa. Azərbaycan MEA-nın Elmi Arxivi, f.7, s.2, i. 4501.

68. Azərbaycan-Qırğızıstan: Danışıqlar başlandı. "Bakı" qəz., 1990, 23 avqust, № 181 (9965).
69. Azərbaycan MEA-nın Elmi Arxivi, f.7, s.2, i. 1514.
70. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının cari arxivi.
71. Azərbaycan MEA-nın Elmi Arxivi, f.7, s.2, i.7683.
72. Azərbaycan MEA H.Əliyev adına Coğrafiya İnstitutunun cari Arxivi.
73. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası. Elmi əsərlər, 2012, №12.
74. Azərbaycan MEA Nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı." e-qanun. az saytı/az/. e-qanun.az . 04.01.2003.
75. Azərbaycan Milli Elmlər Akademiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (15 may 2001-ci il). Heydər Əliyev. Azərbaycan elminin keşiyində. Sənədlər və materiallar. Bakı, Turxan NPB, 2013. 673 s.
76. Azərbaycan-Özbəkistan: Dostluğumuz daim yaşayır və möhkəmlənir. Bakı, Şərq-Qərb, 1996. 77 s.
